2. Туманова А.Ю., Зинатуллина А.М. Проблемы износа основных средств системы транспорта углеводородов // Мат. VI Межд. науч.-практ. конф. «Проблемы и тенденции развития инновационной экономики: международный опыт и российская практика». Уфа: УГНТУ, 2017. С. 115-117.
3. Мустафин Ф.М., Кузнецов М.В., Быков Л.И. Сооружение трубопроводов. Защита от коррозии. Т. 1. Уфа: моногр., 2004. 366 с.
4. Мустафин Ф.М., Быков Л.И., Гумеров А.Г. и др. Защита трубопроводов от коррозии. Т. 2. Учеб. пособие. СПб.: Недра, 2007. С. 11–17.
5. Шакиров Р.Н. Использование труб из композитных материалов // Мат. II Всерос. науч.-практ. конф. «Трубопроводный транспорт углеводородов», 2018. Омск: изд-во ОмГТУ. С. 138–146.
6. РД 153-39.4-113-01 Нормы технологического проектирования магистральных нефтепроводов.

ECONOMIC SUBSTANTIATION OF APPLICATION OF ANTICORROSION COATINGS FOR MAIN OIL AND GAS PIPES

Abrorbek Akhrorovich Urinov
Zhamshid Kadirkhanov
pulatova1958@inbox.ru
Namangan Institute of Engineering and Technology (Uzbekistan)

The article explores the use of anticorrosive coatings for oil and gas trunk pipelines. It identifies key construction and operational issues in steel pipelines, supported by technical and economic data. The study highlights the need for new coatings based on bitumen, mineral waste fillers, and pyrolysis distillate.

Keywords: anticorrosion coatings, reliability, corrosion, research, insulation coating, pipeline, polymer coating.

AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE MƏMULATLARININ MÜASİR VƏZİYYƏTİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Fizuli Əziz oğlu Məmmədov[1]
fizuli.ekonomist@gmail.com
Xədicə Fizuli qızı Məmmədova[2]
Rühəngiz Ramiz qızı Mustafayeva[1]
Azərbaycan Texnologiya Universiteti[1]
Gəncə Dövlət Universiteti[2]

Azərbaycanda yüngül sənayesi məhsullarının hazırlanması tarixi qədim dövrlərə təsədüf edilir. Azərbaycan dünyanın ən qədim xalçaçılıq mərkəzlərindəndir. Azərbaycan xalçaları nəinki valehedici bir əsya olaraq qalmış, eyni zamanda hər tərəfli öyrənilmiş və bu gün də dünyanın bir çox ölkələrində muzeylərdə qorunub saxlanılır. Əsrin əvvəllərində Azərbaycanda yetirincə pambıq, yun ipək və bunların qarışıqlarından xam formada mövcud olmuşdur. Böyük ipək yolunun Azərbaycandan keçməsi təsadüfü deyildir.

Sovet Hakimiyyəti illərində Azərbaycanda çoxlu sayda yüngül sənaye müəssisələri tikilib istifadəyə verilmişdir. Yüngül sənaye müəssisələrinin tikintisi Azərbaycanın bir çox rayonlarında, şəhərlərində həyata keçirilmişdir. Təsədüfü deyildir ki, Gəncə şəhəri keçmiş SSRİ-də yüngül sənaye şəhəri kimi tanınmışdır. [1]

1969-cu ildən sonra Azərbaycanın şəhər və rayonlarında yüngül sənayenin inkişaf dövrü kimi yadda qalmışdır. Belə ki, Azərbaycanda pambıqçılığın inkişafı ilə bağlı kənd və qəsəbələrdə pambıq təmizləmə zavodları, rayon və şəhərlərdə toxuculuq və tikiş fabrikləri tikilib istifadəyə verilmişdir. Getdikçə işsizlik aradan qaldırılmış əhalinin bütün təbəqələri işlə təmin olunmuşur. 1969-cu ilə qədər Gəncə toxuculuq kombinatında hər 100 nəfərə 2 ali təhsilli mütəxəsis düşurdusə 70-80-ci illərdən sonra bu rəqəm 60 nəfər təşkil etdi. Əvvəllər ali təhsil almaq məqsədilə Rusiyaya, Özbəkistan ali məktəblərinə göndərilən kadrlar artıq Azərbaycan Texnologiya Universitetində hazırlamağa başlanıldı. Bu Universitetinin Gəncədə açılması məhz Ulu Öndər H.Əliyevin böyük səyi nəticəsində nail olundu. Azərbaycanda əhalinin toxuculuq və yüngül sənaye mallara olan tələbatı yerli istehsal hesabına ödənildi. İşçi qüvvəsinə olan ehtiyac digər Respublikaların əhalisi hesabına ödənilirdi. Bu illərdə Azərbaycan Respublikası böyük uğurlara imza atdı. Bir çox səhər və rayonlarda toxucu qəsəbələri salındı. Hal-hazırda toxuculuq və yüngül sənaye müəssisələrinin əsas iqtisadi göstəriciləri cədvəl 1-də göstərilmişdir.

Cədvəl 1 Yüngül sənaye müəssisələrinin əsas iqtisadi göstəriciləri

Göstəricilər	2019	2020	2021	2022	2023
Fəaliyyət göstərən müəssisələri					
Toxuculuq	85	77	72	72	66
Geyim istehsalı	90	80	75	75	57
Dəri, dəri məmulatları və ayaqqabı istehsalı	21	20	21	23	22
Sənaye məhsulunu fiziki həcm indeksi, əvvəlki ilə nisbətən %-lə					
Toxuculuq	94,2	114,6	160,2	76,2	105,2
Geyim istehsalı	110,1	152,5	118,5	90,9	134,5
Dəri, dəri məmulatları və ayaqqabı istehsalı	118,6	63,4	150,0	90,9	134,5
Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümimi həcmində sahənin payı, %-lə					
Toxuculuq	0,2	0,2	0,2	0,2	0,2
Geyim istehsalı	0,1	0,1	0,11	0,13	0,2
Dəri, dəri məmulatları və ayaqqabı istehsalı	0,08	0,6	0,1	0,1	0,1
Sənaye sektoruna yönəldilən investisiyaların umumi həcmində sahəyə qoyulan investisiyaların payı, %-lə					

Toxuculuq	0,13	-	0,1	0,1	0,5
Geyim istehsalı	0,32	0,26	-	-	-
Dəri, dəri məmulatları və ayaqqabı istehsalı	0,03	0,03	-	-	-

Yüngül sənayedə əsas kapitala yönəldilən investisiyalara nəzər saldıqda xarici investisiyaların bəzi illərdə çox cuzi faiz təşkil etdiyini, bəzi illərdə isə ümumiyyətlə xarici investisiya qoyulmadığını görmək mümkündür. Belə ki, araşdırmalardan məlum olur ki, 2019-2023-cü illərdə toxuculuq sənayesində xarici investisiyalar qeydə alınmamış daxili investisiyalarda 2019-cü illə müqayisədə 2023-cü ildə artım baş vermişdir-29%. Geyim istehsalı və rənglənməsi, dəri dəridən məmulatlar və ayaqqabıların istehsalında da xarici investisiyalar baxımından oxşar vəziyyət qeydə alınmışdır. Daxili investisiyalar isə yalnız 2017 və 2018-ci illərdə müşahidə olunur.

Geyim istehsalı və rənglənməsi üzrə müvafiq olaraq 13,6% və 14% dəri, dəridən məmulatlar və ayaqqabıların istehsalında daxili investisiya 1,15 və 1,6% təşkil etmişdir.

Yüngül və toxuculuq sənayesi əhalinin gündəlik tələbatını ödəyən əsas istehsal sahələrindən biri kimi strateji əhəmiyyətə malikdir. Bu sahənin istehsal etdiyi pambıq, kətan, ipək əsasında hazırlanan parçalar və onlardan əldə olunan tikiş, trikotaj, corab, xalça, xəz, ayaqqabı, papaq kimi hazır məhsullar insanların əsas məişət ehtiyaclarını qarşılayır. Yüngül sənaye yalnız istehlak yönümlü deyil, eyni zamanda digər sahələrlə – xüsusilə kənd təsərrüfatı, kimya və maşınqayırma sənayesi ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Belə ki, bu sahələrdən əldə edilən xammalların emalı toxuculuq sənayesinin maddi-texniki bazasını formalaşdırır, digər tərəfdən isə bu sənayenin inkişafı həmin sahələrin məhsullarına olan tələbatı artıraraq onların böyüməsinə dəstək verir. Bu baxımdan, toxuculuq və yüngül sənayesi milli iqtisadiyyatın müxtəlif sahələri arasında sinerji yaradan, qarşılıqlı təsiri təmin edən və qeyri-neft sektorunun dayanıqlı inkişafına töhfə verən mühüm bir iqtisadi klaster kimi çıxış edir.

Araşdırma göstərir ki, toxuculuq sənayesində fəaliyyət göstərən müəssisələrin sayı müqayisənin aparıldığı 2017-2018-ci illərdə azalmışdır. Müəssisələrin 2017-ci il üzrə 21,2%-i dövlət bölməsinin payına düşdüyü halda 2016-cı ildə bu göstərici 18,8% təşkil etmişdir. Qeyri-dövlət bölməsinin xüsusi çəkisi isə müvafiq olaraq 88,8% və 91,2% təşkil etmişdir. [2]

2016 və 2018-ci illərdə sənaye məhsulu istehlakçılarının qiymət indeksində azalma müşahidə edilsə də, digər illərdə artım dinamikası üstünlük təşkil etmişdir. Xüsusilə, 2018-ci ildə bu göstərici üzrə 5 faizlik artım qeydə alınmışdır. Eyni dövrdə orta aylıq əməkhaqqında və əsas kapitala yönəldilən investisiyaların həcminin də artması ölkədə sənaye potensialının genişlənməsi və investisiya fəallığının yüksəlməsi ilə səciyyələnir. Bu tendensiyalar müəssisələrin inkişafında innovativ yanaşmaların tətbiqini və müxtəlif səviyyəli innovasiyaların maliyyə təminatının sistemli şəkildə qurulmasını zəruri edir. Bununla belə, böhran şəraitində fəaliyyət göstərən müəssisələr maliyyə resurslarını qeyri-qənaətbəxş və riskli kimi qiymətləndirərək innovativ təşəbbüslərə ehtiyatla yanaşır. Belə şəraitdə innovasiyaların tətbiqi və genişləndirilməsi üçün sabit və davamlı maliyyə dəstəyi ilə yanaşı, risklərin düzgün qiymətləndirilməsi və sektorlar üzrə fərqli strategiyaların hazırlanması xüsusi aktuallıq kəsb edir.

Məqsədlər və məqsədlərə nail olmanın təminatı arasında mümkün olaraq ziddiyyətli müəamaları həll etmək üçün isə ilk növbədə yüngül sənaye məhsullarının rəqabətqabilliyyətliyinə təsir edən amillər kompleks şəkildə təhlil edilmişdir.

ƏDƏBİYYAT

1. Məmmədov F.Ə. Respublikamızda toxuculuq və yüngül sənaye müəssisələrinin vəziyyəti və imkişaf perspektivləri. Gəncə dövlət Universitetində keçirilmiş beynəlxalq elmi-praktiki konfransının materialları. 2022. s. 109-112.
2. https://www.stat.gov.az

CURRENT STATE AND PROSPECTIVE DEVELOPMENT OF LIGHT INDUSTRY IN AZERBAIJAN

Fizuli Aziz oglu Mammadov[1]
fizuli.ekonomist@gmail.com
Khadija Fizuli gizi Mammadova[2]
Ruhangiz Ramiz gizi Mustafayeva[1]
Azerbaijan Technological University[1]
Ganja State University[2]

In the introductory part, the relevance of the topic is substantiated, goals and objectives are defined, the theoretical and methodological basis is provided, and the scientific and methodological significance is revealed. In the conclusion of the research work, the outcomes of the thesis are generalized.

Keywords: light industry, textile industry, investment, industrial product.

AZƏRBAYCAN LOGİSTİKA SEKTORUNA QOYULAN SƏRMAYƏLƏRİN PERSPEKTİVLƏRİ

Ziya Bəbir oğlu Ağayev
ziya.aghayev@gmail.com
Bakı Avrasiya Universiteti

Azərbaycanın sürətli iqtisadi inkişafı və beynəlxalq arenada mövqeyinin möhkəmlənməsi, strateji əhəmiyyət kəsb edən nəqliyyat infrastrukturunun inkişafına yönəlmiş genişmiqyaslı investisiya və islahat proqramlarının həyata keçirilməsini zərurətə çevirir. Nəqliyyat sektoru, milli iqtisadiyyatın əsas dayaqlarından biri olaraq, energetika, sənaye, kənd təsərrüfatı və digər strateji sahələrlə birgə ölkənin davamlı inkişafını təmin edir, sosial-iqtisadi tərəqqini sürətləndirir və əhalinin rifahının yüksəlməsinə töhfə verir. Bu sahənin inkişafı, eyni zamanda, Azərbaycanın geosiyasi mövqeyini gücləndirir, qlobal iqtisadi proseslərdə fəal iştirakına imkan yaradır, beynəlxalq bazarlara inteqrasiyasını dərinləşdirir və yüksək rəqabət qabiliyyətli milli iqtisadiyyatın qurulmasına xidmət edir.

Müasir dünyanın qloballaşmış və inteqrasiya olunmuş iqtisadi sistemində, səmərəli və müasir nəqliyyat infrastrukturunun rolu xüsusilə önəmlidir. Bu infrastruktur, yalnız malların və xidmətlərin daşınmasını təmin etmir, həmçinin iqtisadi artımın sürətlənməsinə, investisiyaların cəlb edilməsinə, turizmin inkişafına, regionlararası əlaqələrin möhkəmlənməsinə və ümumilikdə ölkənin rəqabət qabiliyyətinin artmasına müsbət təsir göstərir. Nəqliyyat sektorunun inkişafı, eyni zamanda, sosial ədalətliliyin təmin edilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və regionların bərabər inkişafı üçün də mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan hökuməti, bu strateji sektorun inkişafına yönəlmiş uzunmüddətli və dayanıqlı siyasət yürüdür. Bu siyasət, innovativ yanaşmaların tətbiqini, müasir texnologiyaların istifadəsini, beynəlxalq standartlara uyğunluğun təmin edilməsini, infrastruktur layihələrinin səmərəli idarə olunmasını və ətraf mühitin mühafizəsinə xüsusi diqqətin verilməsini əhatə edir. Ölkədə həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri, avtomobil yollarının, dəmir yollarının, dəniz və hava limanlarının modernizasiyası və yeni nəqliyyat qovşaqlarının yaradılması, milli iqtisadiyyatın dayanıqlı inkişafına və beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xidmət edir.

"Şimal-Cənub" və "Şərq-Qərb" beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafı Azərbaycanın Avrasiya regionunda əsas nəqliyyat və logistika mərkəzinə çevrilməsi üçün mühüm əhəmiyyət daşıyır. Bu layihələr, regionlararası əlaqələrin gücləndirilməsinə, tranzit poten-

sialının artırılmasına, yeni iqtisadi imkanların yaradılmasına və ölkənin geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə töhfə verir. Azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı infrastruktur layihələri, bu regionların sürətli iqtisadi və sosial inkişafına əsaslı təkan verir, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və regionların yenidən qurulmasına imkan yaradır.Belə ki, hesablamalara görə, "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin yükdaşıma potensialı 2030-cu ilə qədər 14,6 milyon tondan 24,7 milyon tona qədər artacaq. Bu isə Azərbaycanın bölgənin ən əsas tranzit və logistik mərkəzinə çevrilməsinə böyük təkan verəcək.[2]

"Zəfər yolu" (Hacıqabul-Mincivan-Zəngəzur-Şuşa), Zəngilan-Horadiz avtomobil yolu, Hadrut-Cəbrayıl-Şükürbəyli yolu, Bərdə-Ağdam yolu, Xudafərin-Qubadlı-Laçın və Xanlıq-Qubadlı avtomobil yollarının tikintisi və yenidənqurulması, bu istiqamətdə həyata keçirilən mühüm infrastruktur layihələrinə misal ola bilər. Bu layihələr, yalnız nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına deyil, həm də regionların iqtisadi fəallığının artırılmasına, yeni iş yerlərinin yaradılmasına, əhalinin məşğulluğunun təmin edilməsinə və ümumilikdə ölkənin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir.

Avtomobil yollarının inkişafı ilə yanaşı, dəmir yolu, dəniz və hava nəqliyyatı sektorlarında da modernizasiya tədbirləri həyata keçirilir. Dəmir yollarının təkmilləşdirilməsi, yük daşımalarının həcminin artırılmasına, tranzit potensialının yüksəldilməsinə və rəqabət qabiliyyətinin gücləndirilməsinə şərait yaradır. Dəniz limanlarının modernizasiyası, beynəlxalq ticarətin genişləndirilməsinə və ölkənin tranzit potensialının artırılmasına əsaslı təsir göstərir. Hava limanlarının yenilənməsi və genişləndirilməsi isə, beynəlxalq hava əlaqələrinin inkişafına və turizmin stimullaşdırılmasına xeyli təkan verir. Bu öz növbəsində həmin bölgələrdə sənaye-logistik klasterlərin yaranmasına gətirə bilər.Klasterlər müəyyən coğrafi ərazidə yerləşən, eyni sferada biri digərinin fəaliyyətini tamamlayan və qarşılıqlı əlaqədə işləyən işgüzar müəssisə və ya təşkilatlardan ibarətdir.[1]

Azərbaycan hökumətinin nəqliyyat-loqistika infrastrukturunun inkişafına yönəlmiş siyasəti, ölkənin iqtisadi artımının sürətlənməsinə, sosial-iqtisadi tərəqqinin təmin edilməsinə, beynəlxalq əməkdaşlığın genişləndirilməsinə və Azərbaycanın qlobal iqtisadi sistemdə mövqeyinin daha da gücləndirilməsinə əsaslı töhfə verir. Bu siyasətin davamlılığı, gələcəkdə Azərbaycanın nəqliyyat və logistika sektorunun Avrasiya regionunda aparıcı mövqeyə sahib olmasına şərait yaradacaqdır. Bu da öz növbəsində ölkənin iqtisadi və sosial inkişafının dayanıqlılığını təmin edəcəkdir.

ƏDƏBİYYAT

1. Əsgər Z. Regionların sosial-iqtisadi inkişafındakı fərqləri müəyyən edən amillər. Statistika xəbərləri. № 1. 2018. s.50-58

2. https://report.az/infrastruktur/deyisen-geosiyasi-veziyyet-yeni-realliqlar-azerbaycanin-neqliyyat-ve-logistika-sahesinde-ugurlari/???history=0&pfid=1&sample=49&ref=2

PROSPECTS OF INVESTMENTS IN AZERBAIJAN'S LOGISTICS SECTOR

Ziya Babir oglu Agayev

ziya.aghayev@gmail.com

Baku Eurasian University

This article discusses Azerbaijan's large-scale investment and reform programs in its strategically important transport infrastructure, driven by rapid economic growth and an enhanced international standing. The transport sector, a cornerstone of the national economy, supports sustainable development alongside energy, industry, and agriculture, boosting socio-economic progress and improving living standards. Development strengthens Azerbaijan's geopolitical position, facilitating global economic participation, deeper market integration, and a highly competitive economy. Efficient modern transport

infrastructure is crucial in a globalized world, accelerating growth, attracting investment, boosting tourism, and enhancing regional connectivity. Azerbaijan's government pursues a long-term, sustainable policy focusing on innovation, modern technology, international standards, efficient project management, and environmental protection. Major infrastructure projects, including the modernization of roads, railways, seaports, and airports, support sustainable development and international cooperation. The development of the North-South and East-West corridors positions Azerbaijan as a key transport and logistics hub in Eurasia, strengthening regional ties and creating economic opportunities. Reconstruction in the liberated territories further stimulates economic and social growth.

Keywords: transportation infrastructure, economic development, geopolitical position, ınternational cooperation, sustainable development.

DÖVLƏT SATINALMALARININ MÜASİR ELMİ-NƏZƏRİ ASPEKTLƏRİ

İbrahim Ziyad oğlu Əliyev
aliyevibrahim549@gmail.com
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu

Dövlət satınalmaları, dövlət büdcəsindən maliyyələşdirilən və hökumət qurumları tərəfindən həm yerli, həm də xarici istehsalçılardan əldə edilən mallar, işlər və xidmətləri əhatə edən mürəkkəb bir prosesdir. Bu prosesin əsas məqsədi dövlətin ehtiyaclarını qarşılamaq, ictimai xidmətlərin keyfiyyətini artırmaq və vətəndaşların rifahını yaxşılaşdırmaqdır. Dövlət satınalmaları həm dövlətin özünün daxili ehtiyaclarını ödəmək (məsələn, hərbi texnika, tibbi avadanlıq) üçün, həm də əhalinin ehtiyaclarını təmin etmək (məsələn, strateji əhəmiyyətli ərzaq məhsullarının ehtiyatının yaradılması) üçün həyata keçirilir. Dövlət satınalmaları və dövlət sifarişi anlayışlarının incə fərqlərini anlamaq üçün bu iki terminin daha ətraflı təhlil edilməsi zəruridir.

Qanunvericiliyə əsasən, dövlət satınalmaları, tədarükçünün (podratçının, icraçının) seçilməsindən başlayaraq müqavilənin icrasına qədər olan bütün mərhələləri əhatə edən mürəkkəb bir sistemdir. Bu sistemin əsas məqsədi, dövlət vəsaitlərinin səmərəli və şəffaf istifadəsini təmin etmək, korrupsiyaya qarşı mübarizə aparmaq və eyni zamanda, keyfiyyətli mallar, işlər və xidmətlərin əldə edilməsini təmin etməkdir. Elmi ədəbiyyatda dövlət satınalmaları müxtəlif şəkildə təyin olunur. Bəzi tədqiqatçılar onu mərkəzləşdirilmiş idarəetmənin təkmilləşdirilməsi, dövlət büdcəsi xərclərinin optimallaşdırılması və dövlət qurumlarının ehtiyaclarının qarşılanması üçün istifadə olunan funksiya və fəaliyyətlər kompleksi kimi təsvir edirlər.[3] Digər alimlər isə dövlət satınalmalarını hüquqi baxımdan təhlil edərək, qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirilən və müəyyən məqsədlərə nail olmağa yönələn iqtisadi subyektlər arasındakı münasibətlərin tənzimlənməsi kimi səciyyələndirirlər.[7] Bununla yanaşı, dövlət satınalmalarının mexanizmi baxımından da müxtəlif yanaşmalar mövcuddur. Bəzi alimlər onu dövlət ehtiyacları üçün büdcə vəsaiti hesabına alınan və təkrar satış məqsədi güdməyən mallar, işlər və xidmətlərin əldə edilməsi kimi təyin edirlər.[4] Başqa bir təyinat isə dövlət satınalmalarını, dövlət orqanları tərəfindən dövlət büdcəsindən maliyyələşdirilən və yerli və ya xarici istehsalçılardan alınan mallar və xidmətlər kimi təqdim edir.[5] Həmçinin, dövlət satınalmalarının məqsədi kimi dövlət təşkilatlarının qarşısına qoyulmuş vəzifələrin yerinə yetirilməsinə xidmət etməsi və ya federal və yerli hakimiyyət orqanlarının mallar, xidmətlər və istehsal resurslarının əldə olunması xərcləri kimi tərifl ər də mövcuddur.[6]

Bu müxtəlif tərifl ərə baxmayaraq, dövlət satınalmalarının əsas xüsusiyyəti dövlət büdcəsinin vəsaitlərindən istifadə edilməsidir. Bu, "Dövlət satınalmaları haqqında" Qanunda da aydın şəkildə əks olunmuşdur.[1] Qanunda göstərilir ki, dövlət satınalmaları Azər-

baycan Respublikası dövlət büdcəsinin, Naxçıvan Muxtar Respublikası büdcəsinin, məqsədli büdcə fondlarının, büdcə kreditlərinin, subsidiyaların, dövlət zəmanəti ilə alınmış kreditlərin, dövlət qrantlarının, yardımların, büdcədənkənar dövlət fondlarının vəsaitləri, dövlətə məxsus olan hüquqi şəxslərin və digər dövlət müəssisələrinin vəsaitləri hesabına həyata keçirilir. Bu, dövlət satınalmalarının maliyyə mənbəyinin aydın şəkildə müəyyən edilməsinin vacibliyini vurğulayır.

Dövlət satınalmalarının əsas xüsusiyyətləri aşağıdakılardır: 1) Dövlət büdcəsinin vəsaitlərindən maliyyələşdirilməsi; 2) Malların, işlərin və xidmətlərin təkrar satış məqsədi olmadan dövlət ehtiyacları üçün alınması; 3) Dövlət büdcəsinin səmərəli istifadəsinə və xərclərin azaldılmasına yönəlməsi.

"Dövlət satınalmaları" və "dövlət sifarişi" anlayışları çox zaman bir-birinə qarışdırılır. Ancaq bu anlayışlar arasında fərq mövcuddur. "Dövlət satınalmaları" anlayışı daha genişdir və təkcə sifarişçilərin tədarükçülərin, podratçıların və icraçıların seçilməsi deyil, həm də bağlanmış müqavilələrin icrasını əhatə edir. "Dövlət sifarişi" isə daha dar mənada, sifarişin verilməsi və tədarükçünün seçilməsi mərhələlərini əhatə edir.

Dövlət satınalmalarını həyata keçirən qurumların səlahiyyətləri qanunlar, normativ-hüquqi aktlar və daxili əsasnamələr ilə müəyyən edilir. Bu qaydaların dəqiqliyi və şəffaflığı, dövlət vəsaitlərinin səmərəli istifadəsini, korrupsiyanın qarşısının alınmasını və ümumiyyətlə, dövlət idarəçiliyinin keyfiyyətinin yüksəldilməsini təmin edir.

ƏDƏBİYYAT

1. https://e-qanun.az/framework/54966
2. Велиева Р.Ш. Государственные закупки. Вестник науки. №. 5. 2019. с.98-100
3. Горохова Д.В. Государственные закупки в Российской Федерации: ретроспектива и развитие. Финансовый журнал. № 2.2020. с.57-68
4. Кабытов П.П. Государственные закупки в условиях Евразийского экономического союза. Журнал зарубежного законодательства и сравнительного правоведения. №. 5 (66). 2017
5. Смотрицкая И.И. Цифровая трансформация государственного управления: основные тренды и новые возможности. Научные труды Вольного экономического общества России. №4. 2021
6. Шешукова Т.Г. Эффективность осуществления государственных закупок в бюджетных учреждениях: методический аспект. Международный бухгалтерский учет. №. 2 (440). 2018
7. Шмелева М.В. Предотвращение коррупции и других злоупотреблений в сфере государственных закупок. Российское право: образование, практика, наука. №. 1 (103). 2018

CONTEMPORARY SCİENTİFİC AND THEORETİCAL ASPECTS OF PUBLİC PROCUREMENT

Ibrahim Zahid oglu Aliyev
aliyevibrahim549@gmail.com
Institute of Economics of the Ministry of Science and Education

The article analyzes the government procurement process. It compares academic definitions and outlines core features: state budget financing, non-commercial purpose, and efficient resource use. It distinguishes between "government procurement" and "government orders." Legal references underline the need for transparency and efficiency. The study addresses both legal and economic dimensions of procurement.

Keywords: government procurement, government orders, budget funds, legislation, efficiency.

ЭКОЛОГИЧЕСКАЯ БЕЗОПАСНОСТЬ КАК ПРИОРИТЕТ РАЗВИТИЯ НЕФТЕГАЗОВОЙ ОТРАСЛИ

Аброрбек Ахрорович Уринов
Жамшид Кадирханов
pulatova1958@inbox.ru
Наманганский Инженерно-Технологический Институт

Экологическая безопасность как составная часть национальной безопасности является обязательным условием устойчивого развития и выступает основой сохранения природных систем и поддержания соответствующего качества окружающей среды. На современном этапе взаимодействия общества и природы экологическая безопасность может рассматриваться как качественно новый вид общественной ценности. Согласно закону Республики Узбекистан, от 09.12.1992 г. № 754-XII «Об охране природы» экологическая безопасность – это состояние защищенности природной среды и жизненно важных интересов человека от возможного негативного воздействия хозяйственной и иной деятельности, чрезвычайных ситуаций природного и техногенного характера и их последствий [1].

Проблемы охраны окружающей среды занимают все более важное место в системе мировых приоритетов, экологические ценности все более активно и успешно интегрируются в стратегии экономического развития. В Узбекистане правительство страны уделяет большое внимание эколого-экономической политике, в документах и официальных программах правительства Узбекистан принимаются проекты законов, концепции и экологические программы, направленные на создание условий для повышения эффективности охраны окружающей среды и использования природных ресурсов.

Особо остро экологические проблемы проявляются в топливно-энергетическом комплексе (ТЭК) страны. На его долю приходится более 60 % выбросов загрязняющих веществ в атмосферный воздух и более 20 % сбросов загрязненных сточных вод в поверхностные водные объекты, а также более 70 % суммарной эмиссии парниковых газов.

Нефтегазовый сектор является одним из наиболее природоемких и экологически «грязных» секторов экономики. Основные причины высокого уровня негативного воздействия ТЭК на окружающую среду: - крайне высокий удельный вес энергетического сектора в экономике страны; - нерациональное использование энергетических ресурсов и огромная энергоемкость; - высокий уровень аварийности в связи со старением основных производственных фондов и выработкой ресурсов оборудования; - крайне низкий коэффициент нефтедобычи и серьезное отставание по показателю глубины переработки нефти; - недостаточный уровень развития энергоэффективных технологий и использования альтернативной энергетики [2].

Негативное влияние предприятий нефтегазовой отрасли на окружающую среду приводит к следующим изменениям ее компонентов: изменение целостности массивов пород, образование техногенных ландшафтов, нарушение земель, загрязнение атмосферного воздуха и водных объектов, образование отходов производства, негативное воздействие на здоровье человека, гибель и повреждение растительного покрова и объектов животного мира, повышение риска возникновения чрезвычайных ситуаций.

Нами был проведен анализ заболеваемости населения крупнейших нефтедобывающих регионов Республики Узбекистан. Статистические данные по основным нефтегазодобывающим регионам, свидетельствуют, что заболеваемость населения по многим классам болезней выше мировых показателей. Очень высоки показатели по болезням органов дыхания. По ряду заболеваний (новообразования,

болезни нервной системы и органов чувств и пр.) наблюдается тенденция к росту.

Очень опасны воздействия, последствия которых выявляются не сразу. Таковыми являются влияние загрязняющих веществ на способность людей к зачатию и вынашиванию детей, развитие наследственных патологий, ослабление иммунной системы, рост числа онкологических заболеваний [3]. В нефтегазодобывающем комплексе загрязнение окружающей среды начинается с поискового бурения нефтяных и газовых скважин. Основными источниками загрязнения при этом являются выхлопные газы буровых установок, дегазаторы бурового раствора, шламохранилища, циркуляционные системы и т.д.

Основным загрязнителем при буровых работах является буровой раствор. Для его приготовления используется более двадцати химических реактивов, для некоторых из них величины предельно допустимых концентраций не установлены. В большинстве случаях при буровых работах не проводятся мероприятия по охране окружающей среды от загрязнения. В результате происходит загрязнение прилегающих территорий нефтепродуктами и буровым раствором. Кроме этого, в почву для поддержания давления закачиваются высокоминерализованные пластовые и сточные воды. Образуются значительные площади земель, оказавшиеся в зоне подработки и потерявшие свою первоначальную ценность. В радиусе 600-900 м от буровых скважин растительный покров уничтожается на 75-85 %. Основными загрязняющими веществами, выделяющимися в атмосферу при добыче нефти, являются: углеводороды (45 % от суммарного выброса), оксид углерода (47 %) и различные твердые вещества (4 %) [4].

Необходимо отметить, что в условиях необходимости комплексного использования углеводородного сырья для предприятий нефтегазовой отрасли большое значение имеет переработка отходов, которые вносят значительный вклад в негативное воздействие на окружающую среду.

Основными отходами на буровых скважинах являются нефтешламы. Накопление нефтешламов, как правило, осуществляется на специально отведенных для этого площадках или в бункерах без какой-либо сортировки или классификации [5]. В шламонакопителях происходят естественные процессы – накопление атмосферных осадков, развитие микроорганизмов, протекание окислительных и других процессов. Но зачастую предприятия вынуждены накапливать и хранить нефтешламы на своей территории из-за недостаточного количества полигонов промышленных отходов, их принимающих, или из-за отсутствия установок по переработке нефтесодержащих отходов. Накопление таких отходов на производственных территориях может привести к интенсивному загрязнению почвы, воздуха и грунтовых вод [6].

Законодательство многих стран, в том числе и Узбекистана, стимулирует вовлечение промышленных отходов в хозяйственный оборот в качестве вторичных сырьевых ресурсов. Применение нефтешламов в качестве сырья является одним из рациональных способов его использования, так как достигается определенный экологический и экономический эффект. При производстве продукции из нефтешламов не требуется специального оборудования и дополнительной энергии, но возникает необходимость транспортировки шлама к месту потребления. Наиболее широкое применение нефтешламы нашли в дорожном строительстве и в производстве строительных материалов.

В целях повышения экологической безопасности предприятий нефтегазовой отрасли на первый план выдвигаются задачи разработки и внедрения научно-технических инноваций, связанных с комплексным использованием углеводородного сырья, реализацией программ энергосбережения и повышения энергоэффективности, использования ресурсосберегающих, природоохранных, мало- и безотходных технологий.

ЛИТЕРАТУРА

1. Закон Республики Узбекистан «Об охране природы» от 09.12.1992 г. № 754-XII.
2. Газизова О.В., Галеева А.Р. Вестник Казанского технологического университета: Т.15. № 21; М-во образ. и науки России, Казан.нац.исслед.технол.ун-т.- Казань: Изд-во КНИТУ, 2012.- с. 177.
3. Абросимов А.А. Экология переработки углеводородных систем. – М.:Химия, 2002. – 608 с.
4. Аксютин А.В. Научно-технический совет ЗАО «Глоботэк», г. Тольятти. Проблемы и перспективы использования нефтяного попутного газа в России.
5. Давыдова С.Л., Тагасов В.И. Нефть и нефтепродукты в окружающей среде. – М. :РУДН, 2004. – 163 с.
6. Газизова О.В., Галеева А.Р. Вестник Казанского технологического университета. № 12; М-во образ. и науки России, Казан.нац.исслед.технол.ун-т.- Казань: Изд-во КНИТУ, 2011. - с. 189-195.

ENVIRONMENTAL SAFETY AS A PRIORITY FOR OIL AND GAS INDUSTRY DEVELOPMENT

Abrorbek Akhrorovich Urinov
Zhamshid Kadirkhanov
pulatova1958@inbox.ru
Namangan Institute of Engineering and Technology

This paper explores the environmental issues associated with the production and transportation of oil. It identifies the primary causes and sources of pollution, tracing the environmental impact from the development of oil and gas fields to their transportation to consumers. The analysis aims to shed light on the key stages where pollution is generated and the broader implications for the environment throughout the oil supply chain.

Keywords: ecological safety, oil and gas resources, environmental pollution, utilization of associated petroleum gas (APG).

GREEN ECONOMY AND ITS IMPACT ON ECONOMIC GROWTH

Nushaba Hajiyeva
nushaba.hajieva@mail.ru
Ilkin Hajizadeh
Ilkin.hajiyev10@gmail.com
Arzu Tahir gizi Pasha
Azerbaijan Technological University

Since the second half of the 20th century, global problems threatening the existence of humanity have begun to grow rapidly in the world economy. The report "Millennium Ecosystem Assessment" prepared in 2005 at the initiative of the UN noted that during the second half of the 20th century, humans have had an impact on the world's ecosystems more than at any other time in human history, and currently about 60% of ecosystem services are either degraded or used inefficiently.

For thousands of years, humanity has been developing a "brown" economy, attracting more and more natural resources into economic circulation and creating an increasing amount of waste emissions. The explosive growth of the population and the burden on all systems of the planet as a result of human activity, the depletion of natural resources and environmental degradation have brought to the agenda the need to transition to a new development paradigm for the world economy.

To achieve sustainable development at the global level, it is necessary for all countries to transition from the traditional brown economy to a new type - a green economy. If the brown economy is mainly based on the extensive use of resources, the

green economy implies the efficient use of resources, the development and application of environmentally friendly technologies, methods of creating material goods with minimal impact on the environment, as well as the transition to a closed-loop economy.

The transition to a green economy is essential for sustainable economic growth, balancing resource efficiency, low-carbon development, and social inclusivity. This shift affects global trade and economic structures, creating new opportunities and challenges. [2] Governments have implemented policies such as carbon pricing, renewable energy subsidies, and stricter environmental regulations to support this transition. [3] International agreements like the Paris Agreement further emphasize the need for coordinated global action. [5]

While green investments drive job creation, innovation, and economic resilience, they also pose challenges, particularly for fossil fuel-dependent industries, leading to job losses and restructuring difficulties. The high costs of green technologies and financing barriers remain obstacles, especially for developing economies. Additionally, global resource demand is rising due to population growth and improved living standards, requiring urgent sustainable solutions.

A key aspect of the green economy is its emphasis on social inclusion, ensuring equal access to the benefits of economic growth for all members of society. Inclusive development is vital both nationally and globally, but rising resource demand due to population growth and higher living standards complicates this transition. By 2050, a population of 9.7 billion may require resources equivalent to three Earths. [10] Despite global consensus, as seen in the Paris Agreement's ratification by 186 countries and the EU, environmental degradation persists, highlighting the gap between recognition and effective implementation.

Ensuring a just transition is crucial, with policies supporting worker reskilling, innovation, and international financial cooperation. Despite widespread recognition of the green economy's importance, environmental degradation persists, highlighting the gap between policy adoption and implementation. A well-managed transition can drive long-term economic prosperity while safeguarding the planet.

Keywords: green economy, sustainable development, environmental economics, natural resources, environmental policy, social justice, government intervention.

REFERENCES

1. Kennet, Miriam, and Heinemann. "Green Economics: Setting the Scene. Aims, Context, and Philosophical Underpinning of the Distinctive New Solutions Offered by Green Economics." International Journal of Green Economics. vol. 1. 2006. pp. 68–102
2. Khor, Martin. Risks and Uses of the Green Economy Concept in the Context of Sustainable Development, Poverty and Equity. South Centre. 20 June 2013
3. OECD. Environment and Employment: An Assessment. Working Party on National Environmental Polic. Environment Policy Committee. Paris. May 2004
4. OECD. The Environmental Goods & Services Industry: Manual for Data Collection and Analysis. Environment & Sustainable Development. vol. 7. 1999. pp. 1–64
5. United Nations. Paris Agreement. United Nations Framework Convention on Climate Change. 2015
6. Rao P. K. The Architecture of Green Economic Policies. Springer. 2010
7. Schumacher E. F. Small Is Beautiful: Economics as if People Mattered. 5 June 2013

ISO 9001 TƏTBİQİ ZAMANI BİR SIRA ÇƏTİNLİKLƏR VƏ ONLARIN MÜMKÜN HƏLL YOLLARI

Nazim Əliyev
nazim313@inbox.ru
Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi

Müasir bazar şəraitində yeni texnologiyalarının tətbiqi zamanı keyfiyyətin əhəmiyyəti və rolu xüsusi olaraq artırılmış və onun müntəzəm əldə edilməsi isə düzgün idarəetmədən asılı olur. Məsul və ya xidmətin yaranması və istehsalında son istehlakçı (müştəri) olduğu üçün ona yönəlinən idarəetmə sisteminin qurulmasi isə İSO 9000 beynəlxalq standartları sayəsində təmin olunur. Keyfiyyət anlayış çoxşaxəlidır və ona çoxlu şərhlər və terminoloji yanaşmalar mövcuddur.Beynəlxalq səviyyədə keyfiyyətə olan tələblər ISO 9000 seriyası standartları ilə müəyyən edilir. Standartlaşdırma Təşkilatı keyfiyyətin tərifini aşağıdakı şəkildə qəbul etmişdir: "Keyfiyyət obyektin müəyyən edilmiş və gözlənilən ehtiyacları ödəmək qabiliyyətinə aid olan xüsusiyyətlərinin məcmusudur" [1]. Başqa sözlə məhsul və ya xidmətin keyfıyyəti - onun təyinatına uyğun olaraq müəyyən edilmiş tələbatların yerinə yetirilməsi üçün təyin olan xüsusiyyətlərin cəmidir. Buradan aydın olur ki, məhsulun və ya xidmətin heç də bütün xüsusiyyətləri keyfiyyət anlayışına daxil deyildir. Bura elə xüsusiyyətlər aiddir ki, onlar təyinatına uyğun olaraq istehlakçının (müştərinin) ona olan tələbatı ödənilir.Çox vaxt məhsul və ya xidmət istehlakçı tələblərinə cavab vermir və bu da onun rəqabət qabiliyyətini azaldır.Çünki onun yaranması,istehsalı, satışı bir sözlə həyat tsiklində keyfiyyətə nəzarət sistemi olmamışdır. Belə hallarda keyfiyyət sistemlərinin zəruriliyi yaranır ki, o da istənilən nəticələrin əldə olunmasına kömək edir. Düzgün qurulan KİS sayəsində müəssisədə məhsuldarlıq əhəmiyyətli dərəcədə artır və müştərilərin məhsullara inamı yüksəlir, nəticədə isə yeni bazarlara çıxış imkanı yaranır. [2]

Hazırki məhsul və xidmət sahəsində ciddi rəqabət oian Bazar iqtisadiyyatında istehsalçılar yalnız keyfiyyət göstəriciləri ilə müştəriləri cəlb edib saxlaya bilir. Qurulacaq olan keyfiyyət menecmenti sisteminin effektivliyində əsas şərt ilk növbədə bu sistemin nə qədər yaxşı, aydın və səlis sənədləşdirilməsindən asılı olur. Sistemli və ardıcıl şəkildə həyata keçirilən keyfiyyət sisteminin sənədləşdirilməsi keyfiyyət sisteminə formal status verir. Sonrakı mərhələdə təşkilat daxilində vacib şərt olaraq ali rəhbərlik və bütün işçi heyyət tərəfindən keyfiyyət sahəsində fəaliyyətlər və tələbləri ümumi başa düşünülməsinin təmin olunmasıdır. KİS-in tətbiqi təşkilat üçün bütöv bir prosesdir və müəssisənin fəaliyyətinin müxtəlif aspektlərinə təsir göstərir. Burada həm layihə, təhcizat logistika, istehsal, kadrların idarə edilməsi və bir sözlə şirkətin strateji idarəetmə sistemi də mövcuddur. Bu sisteminin tətbiqi kifayət qədər əmək tutumlu və uzunmüddətli prosesdir. Əksər hallarda KİS-in qurulması və tətbiqində aşağıdakı zəruri mərhələrdə həyata keçirilir:

1. mövcud olan vəziyyətin təhlili,
2. kadr hazırlığı və təlimlər;
3. zəruri sənədlərin işlənib hazırlanması;
4. keyfiyyət idarəetmə sisteminin daxili auditinin aparılması[3].

Burada ən çox diqqət tələb edən mərhələ şirkətin işçiləri üçün lazımi sənədlərin düzgün və aydın,anlaşılan şəkildə hazırlanmasıdır. Bu proses keyfiyyət menecmentinin tətbiqində və sonrakı inkişafında vacib və zəruri işdir. Bəzən şirkət və ya təşkilatlar səmərəli olmayan, təşkilatın yeni layihələrinin həyata keçirilməsində adaptasiya olmayan, təcrid olunmuş və ya praktik işləmə üsulu olmayan keyfiyyət idarəetmə sistemi kimi problemlərlə qarşılaşırlar. Effektiv olmayan belə idarəetmə sistemi şirkətin fəaliyyətini təkmilləşdirilməsinə xidmət etmir, nəticə etibarı ilə yalnız əlavə, əhəmiyyəti olmayan sənədləşmə toplusuna cevrilir. Hazırki statistikanın və bu sahədə olan mütəxəssislərin rəyi əsasında Azərbaycanda KİS-i tətbiq edən əksər şirkətlərin məqsədi sertifikatın alnması ilə aşağıdakılara nail olmaqdır: - beynəlxalq bazarlara çıxış; - dövlət sifarişinin alınması; - təhcizatçı şirkətlərin tələbləri; - tenderlərdə iştirak; - əlavə investisiyaların cəlb edilməsi, kreditlərin

alınması [4].

Bu baxımdan da KİS-in tətbiqində müəyyən qədər formallıq mövcud olur ki, bu da sistemin əsil zəruriliyini başa düşünülməməsinə səbəb olur. Beynəlxalq təcrübə təsdiq edir ki, şirkətin uğuru yalnız KİS-in tətbiqini məqsədyönlü, planlı şəkildə həyata keçirilməklə əldə edilə bilər.

KİS-nin tətbiqini doğru anlamaq üçün ilk növbədə müəssisənin fəaliyyətindəki istiqaməti nəzərə almaq lazımdır.Birincisi bu əsas fəaliyyətdir, yəni məhsulların istehsalı və ya xidmətlərin fəaliyyətinə yönəlmiş proseslərinin həyata keçirilməsi və sonra isə ikinci dərəcəli fəaliyyətlər, yəni əsas idarəetmə fəaliyyətlərin səmərəliliyinin artırılmasına yönəldilmiş fəaliyyətlər [5].

Bu İkinci dərəcəli fəaliyyətlər KİS-ə daxildir və keyfiyyət idarəetmə sistemini tənzimlənməsinə xidmət edir. Beynəlxalq İSO standartlarının tələblərinə uyğun qurulan effektiv keyfiyyət menecmenti sisteminin tətbiqi sayəsində

- müəssisənin idarə edilməsini təkmilləşir,
- keyfiyyət təminatına bütün işçi heyyət işə cəlb olunur ,
- mövcud istehlakçıların müştərilərin saxlanması qorunur,
- xarici bazarlara çıxiş imkanı yaranır,
- xərclərin azaldılması,
- müəssisənin nüfuzunun artırılması və s baş verir [6].

Doğru qurulan KİS-in sayəsində bütün istehsal proseslərinin idarə olunmasını şəffaf şəkildə nəzərdən keçirmək mümkün olur və istehsal olunan məhsulların keyfiyyətinə və rəqiblər üzərində zəmanət üstünlüyünü təmin etməyə imkanı yaradir.

Keyfiyyəti təsdiqləyən KİS-in tətbiqi Sertifikat istehlakçıları cəlb etmək üçün mühüm vasitə kimi olsada sertifikatın alınması ilə bitmir, eyni təsdiqlənmiş və əldə edilmiş səviyyəni saxlamaq üçün aşağıdakı məsələlər də nəzərdən keçirilməli və həllini tapmalıdır:

- keyfiyyətin idarə edilməsi sistemi ilə müəssisənin məqsədləri arasında uyğunluq. KİS-in həyata keçirilməsində qarşıya qoyulan məqsədə nail olmaq yalnız ümumi səylərlə mümkün olur.
- bütün idarəetmə proseslərinin birgə fəaliyyəti. Çox vaxt proses yanaşması kimi bir amil yalnız nəzəri olaraq qalır və tətbiqin mürəkkəbliyi səbəbindən praktikada həyata keçirilmir. Proses yanaşmanı həyata keçirərkən bir sıra struktur dəyişiklikləri tələb olunur ki, bu da sonradan əlavə çətinliklər yarada bilər.

Keyfiyyət idarəetmə sistemində əsas ilk prinsip Müştəri məmnuniyyətidir – Bu prinsip müəssisənin istehlakçıların istəklərini qabaqcadan görməyə və bu tələbi nəzərə almağa yönələn fəaliyyəti nəzərdə tutur. Digər prinsip Davamlı təkmilləşdirmədir ki, müəssisəni daimi inkişafına xidmət edir. bu prinsiplə təşkilat qabaqcıl texnologiyalar, səmərəli kommunikasiyalar vasitəsi ilə istehsalın daha səmərəli olmasına çalışır. Davamlı təkmilləşdirmə prinsipi sistemin işində olan uyğunsuzluqların monitorinqini və keyfiyyətinin yüksəldilməsi yolu ilə bu uyğunsuzluqların aradan qaldırılmasını nəzərdə tutur.

Keyfiyyətin idarə edilməsinin əsas ideyası, sistemli və proses yanaşmalarla idarəetməni həyata keçirilə bilən effektiv, inkişaf edən təşkilatdır [7].

Keyfiyyət idarəetmə sistemini tətbiq edərkən bu amillər də nəzərə almaq xüsusi ilə vacibdır:

- Lazımi bacarıq və biliyə malik olmalıdır ixtisaslı keyfiyyət menecerinin işə götürülməsi, keyfiyyət idarəetmə sisteminin fəaliyyətinin daha səmərəli olması və prosesləri idarə etmək üçün keyfiyyət menecerinə bütün lazımi səlahiyyətlərin verilməsi və onu tam birbaşa müəssisənin top menecerinə tabe etmək məqsədəuyğundur [8].
- Diğər amil işçi heyyət tərəfindən keyfiyyətin əsas məqsəd olduğu anlaşılmasıdır. İşçilər cərimə və ya cəza olmadan başa düşməlidirlər ki, onların məqsədi yüksək keyfiyyətli məhsul istehsal etməkdir. Keyfiyyətə nəzarət şöbəsi hər bir müsbət dəyişikliyi keyfiyyətin

idarə edilməsi kontekstində təqdim etməlidir [9].

Təşkilatdakı KİS-in sistem dəyişikliklərə uyğunlaşması və müştəri tələblərini təmin edilməsi üçün çevik olmasıdır. Keyfiyyətin idarə edilməsi üçün şirkətin,təşkilatın hansı ölçüdə olmasının əhəmiyyəti yoxdur, düzgün qurulan və fəaliyyət göstərən keyfiyyət idarəetmə sistemi müəssisənin davamlı təkmilləşdirilməsinə və iqtisadi səmərə mənbəyinə xidmət edə bilər.

ƏDƏBİYYAT

1. Quality management systems ISO 9000:2015, b. 3.6.2
2. https:almabaku.com.az.xeber.What is ISO-90012015 Quality Management System
3. www.iso.org.
4. Keyfiyyət Assosiasiyası "Keyfiyyət və Menecment" jurnalı, 2007 N2
5. İqtisadiyyatın davamlı inkişafı problemlər,perspektivlər beynəlxalq elmi konfransın materialları 27-28 aprel 2016-cı il
6. www.azstand.gov.az ISO 9000:2015 Tələblər. pdf. Səmərəli keyfiyyəti idarəetmə sisteminin vacibliyi
7. Quality management systems ISO 9000:2015 Tələblər b. 0.2 ,0.3
8. wikibooks.org
9. Keyfiyyət Assosiasiyası ISO 9000:2015 Şərh və tətbiq üzrə tövsiyələr 02.05.2023

SOME CHALLENGES DURING ISO 9001 IMPLEMENTATION AND THEIR POSSIBLE SOLUTIONS

Nazim Aliyev
nazim313@inbox.ru
Ganja Automobile Plant Production Union

In a modern competitive market economy, every production or service sector is forced to pay attention to quality in order to sell its product or service. As a result of the implementation of a quality management system (QMS) according to the International ISO standard, it is possible to significantly and radically influence the production of products and services. This article shows a number of difficulties encountered by enterprises during the implementation of a quality management system and their possible solutions.

Keywords: efficiency, quality, management system, competition, customer.

AZƏRBAYCANIN ELEKTRON İŞTİRAK İNDEKSİNDƏ MÖVQEYİNİN TƏDQİQİ

Nəriman Cabbar oğlu Hacıyev
narimangd@yahoo.com
Azərbaycan Dövlət İqtisad Universiteti


Hazırki dövrdə rəqəmsal texnologiyaların inkişafı sürətləndikcə dövlətlər tərəfindən təqdim edilən onlayn xidmətlərin də çeşidi və cəmiyyət həyatında rolu getdikcə artmaqdadır. Bu xidmətlərdən istifadə bir sıra üstünlüklərə malikdir. Ümumiyyətlə qeyd edilməlidir ki, insanların elektron iştirakının artmasına müsbət təsir edən bəzi amillər vardır ki, onlardan da ən əsasları ölkədə rəqəmsal texnologiyalara çıxış səviyyəsi, əhalinin rəqəmsal savadlılığı, onlayn dövlət xidmətlərinin mövcudluğu və s. aiddir. Dünya ölkələrində hökumət tərəfindən onlayn şəkildə göstərilən xidmətlərdən əhalinin istifadə səviyyəsinin öyrənilməsi maraq kəsb edir. Bu baxımından Elektron İştirak İndeksi xüsusi qeyd edilə bilər. İndeks hökumət və insanlar arasında qarşılıqlı əlaqənin təşviq edilməsi üçün onlayn vasitələrdən istifadə edilməsi səviyyəsini ölçür. Cari tədqiqat işində Elektron İştirak İndeksinin məlumatları əsasında Azərbaycan və qonşu ölkələrin mövqeyi müqayisəli şəkildə tədqiq edilmişdir.

Tədqiqatın metodologiyası və informasiya bazası.

Elektron İştirak İndeksi (E-Participation Index - EPI) BMT tərəfindən tərtib edilir. Hesabatın ilk buraxılışı 2003-cü ilə təsadüf edir. İndeks 2005-ci ilə kimi hər il, 2008-ci ildən isə bir ildən bir dərc edilir. Dünyanın 193 ölkəsinin məlumatlarını əhatə edən İndeks özündə 3 komponenti ehtiva edir: e-məlumat – vətəndaşların ictimai məlumatlarla təmin edilməsi və

onların bu yolla iştirakının təşviq edilməsi; e-məsləhətləşmə – ölkə əhalisinin dövlətin həyata keçirdiyi siyasətlər və təqdim etdiyi xidmətlər ilə bağlı müzakirlərdə iştiraka cəlb edilməsi; e-qərar qəbulu – siyasətlərin birgə işlənib hazırlanması sahəsində vətəndaşların səlahiyyətlərinin artırılması [1, s.199-200]. İndeksdə ölkələr 0-dan 1-ə qədər bal toplayırlar. Elektron İştirak İndeksi müəyyən bir zaman kəsiyində ölkələrin e-iştirak nəticələrini bir-birinə nisbətən müqayisə etməyə, onların bu sahədə müsbət və çatışmayan tərəflərini müəyyən etməyə imkan verir.

Diaqram 1. Elektron İştirak İndeksində Azərbaycanın mövqeyinin illər üzrə dəyişməsi



Mənbə [3] əsasında müəllif tərəfindən tərtib edilib.


Azərbaycan və qonşu ölkələrin Elektron İştirak İndeksində mövqeyi

1 saylı Diaqramda Azərbaycanın Elektron İştirak İndeksinin 2003-2024-cü illər üzrə buraxılışlarındakı mövqeyi təsvir olunmuşdur.

Göründüyü kimi, respublikamızın İndeksdəki balında və buna müvafiq olaraq da sıra sayında artıb-azalmalar müşahidə edilmişdir. Belə ki, ölkəmizin rənkinqdəki ən aşağı mövqeyi 2005-ci ildə (129-cu yer), ən yüksək isə 2016-cı ildə (47-ci yer) qeydə alınmışdır. Həmin il Azərbaycanın balı 0,678 təşkil etmişdir. Düzdür, təhlil dövründə ən yüksək bal 2020-ci ildə qeydə alınmışdır (0,6905). Lakin həmin ildə 73-cü yerə düşmənin səbəbi digər ölkələrin daha yaxşı nəticə göstərməsi ilə izah oluna bilər. Təhlilin sonuncu ilində isə Azərbaycanın mövqeyi bir qədər yaxşılaşmışdır. Belə ki, hesabatın sonuncu, yəni 2024-cü il buraxılışında ölkəmiz 2022-ci ilə nəzərən 10 pillə irəliləməyə nail olmuş və 88-ci yerdə qərarlaşmışdır (Diaqram 1).

Diaqram 2-də Azərbaycan və ona qonşu dövlətlərin Elektron İştirak İndeksi 2024-də balları və yeri təsvir edilmişdir.

Diaqram 2. Azərbaycan və qonşu ölkələrin Elektron İştirak İndeksində mövqeyi, 2024



Mənbə [4] əsasında müəllif tərəfindən tərtib edilib.

Diaqram 2-nin məlumatlarına əsasən, Elektron İştirak İndeksinin 2024-cü ildəki buraxılışı üzrə Türkiyə yaxşı nəticə ilə seçilən ölkələrdəndir. Bu dövlət əhalisinin elektron xidmətlərdən istifadə səviyyəsinə görə dünya üzrə 22-ci sırada yer ala bilmişdir. Qonşu ölkələr arasında ən zəif nəticə göstərən ölkə isə İrandır. İslam Respublikası 6 ölkə içərisində müqayisəli olaraq sonuncu yeri tutmuşdur – 0,1781 bal. Azərbaycan balına görə qonşu ölkələrdən yalnız İrandan öndə olmuşdur. Lakin qeyd edilməlidir ki, respublikamız 2024-cü ildə dünya üzrə orta göstəricidən (0,4893 bal) yüksək nəticə göstərmişdir.

Tədqiqat işində Azərbaycanın Elektron İştirak İndeksindəki yeri öyrənilmişdir. Müqayisəli təhlillərə əsasən, ölkəmiz ona qonşu olan dövlətlərə nəzərən bir qədər aşağı nəticə göstərmişdir. Lakin ümumilikdə, son illərdə respublikamızın İndeksdəki mövqeyi

yaxşılaşmışdır. Bu isə ölkədə dövlət tərəfindən göstərilən onlayn xidmətlərin əhatə dairəsinin genişlənməsi ilə yanaşı həm də əhalinin rəqəmsal savadlılıq səviyyəsinin yüksəlməsi, onların bu xidmətlərdən istifadəsinin təşviq edilməsi tədbirləri ilə əlaqələndirilə bilər.

ƏDƏBİYYAT

1. United Nations, 2022. E-Government Survey 2022. The Future of Digital Government. 280 p. [https://desapublications.un.org/sites/default/files/publications/2022- 09/Web%20version%20E-Government%202022.pdf].
8. https://www.enterpriseappstoday.com/news/financial-services-cybersecurity-systems-and-

services-market-size-worth-usd-103-13-bn-by-2033-cagr-14-09.html
9. https://www.cbpp.org/research/poverty-and-inequality/more-than-4-in-10-children-in-renter-households-face-food-andor
10. https://www.icrc.org/en/what-we-do/economic-security

AZƏRBAYCANDA İNNOVASİYA İQTİSADİYYATI: MÜASİR TENDENSİYALAR VƏ GƏLƏCƏK PERSPEKTİVLƏR

Yetər İsrayıl qızı Qasımova
abdullaevayetr5@gmail.ru
Gülgün Zeynal qızı Abdiyeva
g.abdiyeva@mail.ru
Şəhla Yasin qızı Əliyeva
shehla2020@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Qloballaşma və sürətli texnoloji inkişaf şəraitində ölkələrin iqtisadi inkişafının amilləri və mənbələri əhəmiyyətli dərəcədə dəyişmişdir. Sənaye artımının əsasını təşkil edən ənənəvi resurslar tədricən tükənir ki, bu da ölkələri yeni çağırışlarla üzləşdirir. Bu çağırışlara cavab olaraq, innovasiya proseslərinin, elmi biliklərin, yeni texnologiyaların inkişafı və yeni məhsul və xidmətlərin tətbiqi tələb olunur. İnnovativ komponent iqtisadi inkişafın ayrılmaz bir hissəsinə çevrilir və yaxın gələcəkdə prioritet istiqamət olaraq qalacaq.

İnnovasiya iqtisadiyyatının əsas tərkib hissələrindən biri insan kapitalıdır ki, bu da sənaye iqtisadiyyatısından fərqli olaraq, material resurslarına diqqət yetirildiyi bir dövrdə mərkəzi rol oynayır. İqtisadi inkişafda innovativ yanaşma şəraitində intellektual işin əhəmiyyəti, xüsusən də tədqiqat və inkişaf sahəsində artır.

Müasir qlobal iqtisadiyyat göstərir ki, inkişaf etmiş innovasiya sistemlərinə malik olan ölkələr əhəmiyyətli dərəcədə rəqabət üstünlüyü əldə edirlər. Yüksək texnologiyalarla yaradılan məhsul və xidmətlər yalnız daxili bazarda deyil, həm də xarici bazarlarda tələbat görür, xüsusilə material istehsalına yönəlmiş, innovasiya fəaliyyətinin zəif inkişaf etdiyi ölkələrdə.

Regionun ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycan, innovasiya fəaliyyətinin inkişafına xüsusi diqqət yetirir. Neft qiymətlərinin düşməsi və iqtisadiyyatın şaxələndirilməsi məqsədilə ölkə, neft gəlirlərinə olan asılılığın azaldılması zərurəti ilə üzləşir. Neft sektoru xaricində iqtisadiyyatın davamlı inkişafını təmin etmək və alternativ inkişaf mənbələri yaratmaq üçün informasiya texnologiyaları sahəsinin inkişaf etdirilməsi, texnoparklar, biznes inkubatorları və texnoloji komplekslər kimi innovativ strukturların yaradılması vacibdir. Bu tədbirlər investisiya cəlbediciliyinin artırılması və davamlı iqtisadi inkişafın təmin edilməsi ilə nəticələnir.

"Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasında, innovasiya fəaliyyətinin genişləndirilməsinin ölkənin uzunmüddətli iqtisadi inkişafının əsasını təşkil edəcəyi vurğulanır. Bununla yanaşı, elmin iqtisadiyyata inteqrasiyası, yüksək keyfiyyətli insan kapitalının yaradılması xüsusi diqqət mərkəzindədir, bu da elmi-texnoloji məhsulların və texnologiyaların inkişafına imkan verəcəkdir. Bu proses çərçivəsində elm, təhsil və istehsal arasında əlaqə gücləndiriləcək, bu da bilik iqtisadiyyatının formalaşmasına əsas yaradacaqdır.

İnnovasiya iqtisadiyyatı, yüksək keyfiyyətli insan kapitalının istehsalı üzərində qurulur ki, bu da elmi tədqiqatlar və inkişaflar üçün zəruri olan yüksək təhsili təmin edəcəkdir. Ənənəvi material kapitalının insan kapitalı ilə əvəz olunması prosesi innovasiya yönümlü iqtisadiyyatı formalaşdırır ki, bu da müasir iqtisadi inkişaf mərhələsinin müəyyənedici xüsusiyyətidir.

Azərbaycanın həyata keçirdiyi innovasiya siyasəti, yeni texnologiyaların yaradılması, yayılması və tətbiqi üçün əlverişli şəraitin yaradılmasına yönəlmişdir. Əsas vəzifələrdən

biri, beynəlxalq iqtisadi münasibətlərdə yeni texnologiyaların istifadəsi yolu ilə ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsidir. Eyni zamanda, yüksək ixtisaslı kadrların inkişafı və elmə əsaslanan istehsal mədəniyyətinin bərpası üçün şəraitin yaradılması vacibdir.

İnnovasiya fəaliyyəti, innovasiyaların yaradılması, mənimsənilməsi, yayılması və istifadəsi ilə bağlı geniş tədbirlər spektrini əhatə edir. Bu, bilik və texnologiyaların kommersiyalaşdırılması, yeni məhsul və xidmətlərin yaradılması məqsədilə həyata keçirilən elmi, texnoloji, təşkilati, maliyyə və kommersiya tədbirlərinin kompleksidir. Bu fəaliyyətin nəticəsi olaraq, daxili və xarici bazarlarda rəqabət qabiliyyətini təmin edən yeni keyfiyyətlərə malik məhsullar meydana gəlir.

İnnovasiya fəaliyyətinin səmərəli idarə edilməsi üçün innovasiya menecmenti — bütün mövcud resurslardan istifadə etməklə innovativ məqsədlərə çatmağa yönəlmiş iqtisadi elmi və praktik fəaliyyət sahəsidir. İnnovasiya menecmentinin məqsədi iqtisadiyyatın şaxələndirilməsi, yeni texnologiyaların tətbiqi, ənənəvi istehsalatların müasir dövrün tələblərinə uyğun olaraq yenidən qurulması və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasıdır.

İnnovasiya menecmentinə innovasiya fəaliyyətinin planlarının və proqramlarının hazırlanması, layihələrin koordinasiyası və maliyyə təminatı daxildir. Müasir kontekstdə, böyük korporasiyalar və müəssisələr çərçivəsində araşdırma, inkişaf və istehsalat üçün vahid komplekslərin yaradılması mühüm əhəmiyyət kəsb edir ki, bu da rəqabət qabiliyyətinin artırılmasına və elmi-texniki fəaliyyətin optimallaşdırılmasına kömək edir. İnnovasiyaların iqtisadiyyata uğurlu tətbiqi üçün effektiv innovasiya strategiyasının hazırlanması vacibdir. Bu strategiya, müəssisənin məqsədlərinə görə, hücum, müdafiə və ya imitasiya xarakterli ola bilər. Hücum strategiyası yeni bazarların ələ keçirilməsinə yönəlmişdir, müdafiə strategiyası isə mövcud mövqelərin qorunmasına, imitasiya strategiyası isə digər şirkətlər tərəfindən hazırlanmış texnologiyaların surətinin çıxarılmasına yönəlir. Qlobal rəqabət şəraitində innovasiyalar, şirkətlərin xarici dəyişikliklərə uyğunlaşma qabiliyyətinə və iqtisadi göstəricilərini yaxşılaşdırma potensialına təsir edən mühüm rəqabət amilinə çevrilir.

Müəssisənin innovasiya sistemi, onun rəqabət qabiliyyətini və iqtisadi təhlükəsizliyini artırmağa, davamlı inkişaf üçün əsas bazanın yaradılmasına yönəlmişdir. İnnovasiya strategiyasının müəssisənin ümumi inkişaf strategiyasına daxil edilməsi, yeni texnologiyaların tətbiqinə, məhsul keyfiyyətinin yaxşılaşdırılmasına və bazarda mövqelərin genişləndirilməsinə imkan verir.

İnnovasiya infrastrukturu inkişafı və texnoparkların yaradılması, Azərbaycanın əsas prioritetlərindən birinə çevrilmişdir. Bu, "Xüsusi İqtisadi Zonalara Dair Qanun" və "2009-2015-ci illərdə Elm İnkişafı üzrə Milli Strategiya" kimi müvafiq qanunvericilik təşəbbüslərində öz əksini tapır. Bu tədbirlər, yalnız iqtisadiyyatın şaxələndirilməsinə deyil, həm də onun rəqabət qabiliyyətinin artırılmasına xidmət edir.

Yüksək Texnologiyalar Parkının (YTP) yaradılması, iqtisadiyyatın modernləşdirilməsi və onun ixrac potensialının artırılması istiqamətində mühüm addım atılmasına imkan verir. YTP, telekommunikasiya, enerji və kosmos sahələrində tədqiqatların inkişafı və yeni texnologiyaların tətbiqi ilə məşğuldur ki, bu da yüksək keyfiyyətli məhsulların yaradılmasına və ölkənin ixrac imkanlarının genişlənməsinə töhfə verir.

İnnovasiya iqtisadiyyatının tətbiqi yalnız iqtisadi siyasətdə dəyişiklikləri deyil, həm də innovasiya idarəçiliyinin səmərəli sisteminin yaradılmasını tələb edir. Yüksək texnologiyalar, elm və təhsil sahəsində inkişaf, davamlı iqtisadi artımın təmin edilməsi, beynəlxalq bazarda rəqabət qabiliyyətinin artırılması və iqtisadiyyatın şaxələndirilməsi üçün əsasdır. Azərbaycan, innovasiya infrastrukturu inkişaf etdirərək, yüksək texnologiyalar sahəsində regionda liderə çevrilmək və bununla da uzunmüddətli iqtisadi firavanlığı təmin etmək şansına malikdir.

INNOVATION ECONOMY IN AZERBAIJAN: CONTEMPORARY TRENDS AND FUTURE PERSPECTIVES

Yetar Israil gizi Gasimova
abdullaevayetr5@gmail.com
Gulgun Zeynal gizi Abdiyeva
g.abdiyeva@mail.ru
Shehla Yasin gizi Aliyeva
shehla2020@mail.ru
Azerbaijan Technological University

The article examines the innovative economy as a key driver of sustainable development, with emphasis on Azerbaijan's experience. In the era of globalization and technological change, traditional growth models are declining, prompting a shift toward innovation. Unlike the industrial model based on material resources, the innovative economy prioritizes human capital. Global trends show that innovation-oriented countries gain competitive advantage. Facing low oil prices and the need for diversification, Azerbaijan is expanding its innovation infrastructure through technology parks, incubators, and tech hubs, fostering investment and long-term development.

Keywords: Innovations, innovative, economy innovative, activity innovative, management, principles, methods goals competition.

RƏQABƏT QABİLİYYƏTLİLİK VƏ İXRAC ARASINDA QANUNAUYĞUNLUQ

Qalib Nizami oğlu Qafarlı
qalib.qafarli@gmail.com
Bakı Dövlət Universiteti

Dünya iqtisadiyyatının müasir inkişaf tendensiyası ölkə iqtisadiyyatına xarici çağırışların və təhdidlərin miqyasını artırmaqdadır. Bu çərçivədə iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin təmin edilməsi problemi daha da aktuallaşır. Dünya iqtisadiyyatında gedən dəyişikliklər fonunda rəqabətqabiliyyətlili və ixracyönümlü istehsalın təmin edilməsi qlobal iqtisadi inkişaf tendensiyaları və geoiqtisadi rəqabətin artan səviyyəsi nəzərə alınmaqla elmi-texnoloji yeniliklərə və rəqabət potensialına əsaslanır.

Rəqabət davranış, struktur və funksional yanaşma baxımından, iqtisadi fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə bütün subyektlərin rəqabət qabiliyyətinin formalaşması və inkişafının başlıca xüsusiyyəti kimi nəzərdən keçirilir.

Rəqabət qabiliyyətinin iqtisadi komponentini əks etdirən bu elmi yanaşma, iqtisadi effekt əldə etmək nöqteyi-nəzərindən şərh edilir. İqtisadi inkişaf strategiyası çərçivəsində rəqabət potensialı özünün inkişaf səviyyəsi ilə xarakterizə olunan istehsal, təşkilati, innovativ, resurslara qənaət, ekoloji, maliyyə və digər imkanların sinerjisi vasitəsilə formalaşır.

Rəqabət qabiliyyəti iqtisadi fəaliyyətin səmərəliliyini artırmaq üçün həm nəticə, həm də bir vasitə kimi çıxış edir. Rəqabət qabiliyyəti resurs potensialından səmərəli istifadə etməklə, istehsalın təşkilinin keyfiyyəti və onun idarə edilməsi yolu ilə rəqabətqabiliyyətli məhsul istehsal etmək qabiliyyətini nəzərdə tutur. Son illərdə iqtisadiyyatın və xarici ticarətinin fəaliyyətinin dinamikası bir sıra tendensiyaları qiymətləndirməyə əsas verir. Bu baxımdan uzunmüddətli perspektivdə ixracın rəqabət qabiliyyətinin artırılması vacib məsələlərdən biri kimi özünü göstərir.

Təcrübədə rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi müxtəlif metodlar əsasında həyata keçirilir: a) rəqabət vəziyyətini qiymətləndirmək üçün M.Porterin beş qüvvə matrisindən istifadə edilərək, keyfiyyət məlumatlarına əsaslanan təhlil metodlarından istifadə olunur [3]. Bu zaman sahədaxili rəqabət, yeni rəqabət iştirakçılarının təhlükəsi, əvəzedicilərin təhdidləri, təchizatçıların və istehlakçıların bazar gücü nəzərə alınır; b) ikinci qrup metodlar yalnız məhsulların rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsini nəzərdə tutur; c) növbəti metodlar subyektlərin rəqabət qabiliyyətli fəaliyyətinin səmərəliliyini və maliyyə vəziyyətini xarakterizə edən göstəricilərin təhlilinə əsaslanır.

Rəqabət qabiliyyəti, metodoloji yanaşma nöqteyi-nəzərdən aşağıdakı istiqamətlərlə


müəyyən edilir: 1) səmərəli iqtisadi fəaliyyət və onun rəqabətli bazarda həyata keçirilməsi imkanı kimi; 2) müəyyən məhsulların insanların ehtiyaclarını ödəmə dərəcəsi və istehsal fəaliyyətinin səmərəliliyi baxımından fərqləri ifadə edən nisbi xüsusiyyət kimi [3].

Rəqabətqabiliyyətlilik səviyyəsinin qiymətləndirilməsi ilə bağlı metodologiyaların tətbiqində qabaqcıl texnologiyalara əsaslanan, ən yaxşı modellərə uyğun gələn və parametrlərinə görə digərlərini üstələyən üsullardan geniş istifadə olunur. Bu xüsusda əldə edilən nəticələr iqtisadiyyatının inkişaf xüsusiyyətlərini nəzərə alaraq ixracın rəqabət qabiliyyətinin artırılması, iqtisadi artım nöqtələrinin meydana gəlməsini təmin edən mexanizmlərin formalaşmasına imkan verir. Təbii ki, qlobal iqtisadiyyatda rəqabət qabiliyyətini təmin etmədən, beynəlxalq əmək bölgüsündə ölkənin mövqeyini müəyyənləşdirmədən, ixtisaslaşma və kooperasiyanın üstünlüklərindən istifadə etmədən iqtisadiyyatın dayanıqlı inkişafı təmin oluna bilməz.

Çoxşaxəli qlobal iqtisadi proseslər fonunda transmilliləşmənin miqyasının genişlənməsi və beynəlxalq iqtisadi münasibətlərin intensivləşməsi ölkə iqtisadiyyatı üçün xarici çağırışların və təhdidlərin miqyasının artması ilə müşahidə olunmaqdadır. Bu, rəqabətə davamlı iqtisadiyyatın formalaşdırılması, o cümlədən rəqabət qabiliyyətli ixracın təmin edilməsi problemlərini daha da aktuallaşdırır. Belə şəraitdə rəqabət iqtisadi proses kimi müəyyən xüsusiyyətləri ilə səciyyələnir və bir sıra amillərin –xarici şəraitin, rəqabət aparan subyektlərin fəaliyyətlərinin və s. təsirinə məruz qalır. Müasir dünya iqtisadiyyatının dinamikliyi əmtəə bazarları daxilində daimi dəyişikliklərin baş verməsini şərtləndirdiyindən yeni biliklərin təsiri ilə yeni texnologiyalar meydana çıxır, bazar strukturularının sərhədləri dəyişir və nəticədə həm bazar, həm də rəqabət münasibətləri əhəmiyyətli dərəcədə dəyişir.

Araşdırmalar göstərir ki, qlobal əmtəə bazarlarında rəqabətin genişlənməsi və dərinləşməsi həm ayrı-ayrı ölkələrin milli iqtisadiyyatlarında baş verən dəyişikliklərə, həm də ümumi qlobal iqtisadi proseslərə əhəmiyyətli təsir göstərir. Bununla əlaqədar olaraq rəqabət daha yüksək geoiqtisadi səviyyələrə nüfuz edir. Qloballaşma prosesləri fonunda müasir dünya iqtisadiyyatının beynəlmiləlləşməsi və onun qlobal, regional, milli və yerli bazarlara təsirinin güclənməsi geoiqtisadi rəqabət yaradır. Bu zaman subyektlər təkcə iqtisadi deyil, həm də ictimai həyatın digər sahələrini əhatə edən rəqabət mübarizəsinin müxtəlif üsullarından daha geniş istifadə edirlər. Eyni zamanda rəqabətli mübarizə resurs, əmtəə bazarlarının və ixracın coğrafi sərhədlərinin genişləndirilməsinin, alıcılar dairəsinin artırılmasının və s. yeni üsul və texnologiyalarının meydana çıxmasına zəmin yaradır, nəticədə rəqabət daha da intensivləşir, onun iqtisadi inkişafa təsirinin çoxvektorlu təsiri artır. Beləliklə, hər bir dövlətin milli iqtisadiyyatı ən müxtəlif xarakterli bir çox amillərin təsirinə məruz qalır və dünya iqtisadiyyatının müasir inkişaf mərhələsində şəraitində rəqabət qabiliyyətli ixrac çoxşaxəli xarakteri ilə səciyyələnir.

Statistik məlumatlara nəzər saldıqda məlum olur ki, son illər ölkə ixrac olunan məhsulların həcmində müxtəlif istiqamətli dəyişiklik baş vermişdir. Belə ki, 2018-ci illə müqayisədə 2019-cu illdə ixrac 15% azalsa da 2020-ci ildə əvvəlki ilə nisbətən 8,7%, 2021-ci ildə isə 4,2% artım qeydə alınmışdır. 2022 və 2023-cü illərdə yenidən azalma müşahidə olunur – müvafiq olaraq 1,1% və 2,3% [qrafik].



Qrafik. İxracın dinamikası, əvvəlki ilə nisbətən faktiki qiymətlərlə, faizlə

Təsadüfi deyil ki, dövlət tərəfindən "ixracın və investisiyaların təşviqi fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, ixracatçılara və investorlara dəstək mexanizmlərinin formalaşdırılması" tədbirləri ixrac siyasətində əsas hədəflər kimi müəyyən edilir [1]. Rəqabət qabiliyyətli ixrac strategiyaları uzunmüddətli perspektivdə elmi-texniki potensialın gücləndirilməsini tələb edir. Qlobal iqtisadiyyatda rəqabətqabiliyyətli ixrac, dövlətin beynəlxalq bazarlarda mövqelərinin möhkəmləndirilməsinə zəmin yaradır. Belə şəraitdə müxtəlif xarakterli amillər ölkələrin rəqabət mövqelərinin dəyişməsinə təsir göstərir. Bununla belə, ixracla bağlı rəqabətqabiliyyətliliyin təmin edilməsində mühüm strateji istiqamət kimi, yüksək əlavə dəyərə malik bazarlara yararlı məhsulların tədarükünü əsas şərtlərdən biri kimi müəyyənləşdirilir. Ona görə də rəqabət qabiliyyətli ixracın təmin edilməsi məqsədilə ölkənin innovativ potensialının artırılması, elmi tədqiqatların stimullaşdırılması, qabaqcıl istehsal texnologiyalarının yaradılması, mütərəqqi istehsal üsullarının hazırlanması və həyata keçirilməsi üçün müvafiq iqtisadi siyasət alətlərinin tətbiq edilməsi zəruridir.

Araşdırmalar göstərir ki, son illər bu sahəyə, xüsusilə elmi tədqiqatların stimullaşdırılması ilə ölkənin innovativ potensialının artırılmasına xüsusi diqqət yetirilir. Belə ki, statistik məlumatlar təhlili son 5 ildə, yəni 2019-cu illə müqayisədə 2023-cü ildə dövlət büdcəsindən elmə çəkilən xərclərin həcminin 58,3% artdığını təsdiq edir. Oxşar vəziyyət 2020, 2021 və 2022-ci illərdə də müşayət olunur. Buna baxmayaraq ümumi daxili məhsula nisbətən dövlət büdcəsindən elmə çəkilən xərclərin xüsusi çəkisi 0,13-0,20% aralığında dəyişir. Dövlət büdcəsinin xərclərinə nisbətən isə bu göstərici müvafiq illərdə 0,50-0,55% aralığındadır [cədvəl 1].

Cədvəl 1 Dövlət büdcəsindən elmə çəkilən xərclər [4]

Göstəricilər	**2019**	**2020**	**2021**	**2022**	**2023**
Dövlət büdcəsindən elmə çəkilən xərclər, milyon manat	**122,3**	**143,6**	**151,8**	**167,8**	**193,6**
ümumi daxili məhsula nisbətən, faizlə	0,15	0,20	0,16	0,13	0,16
dövlət büdcəsinin xərclərinə nisbətən, faizlə	0,50	0,54	0,55	0,52	0,53

Aparılmış tədqiqatlar göstərir ki, aktiv texnoloji inkişaf şəraitində rəqabət qabiliyyətini təmin etmək üçün subyektlər, məhsulun lazımi keyfiyyət səviyyəsi ilə yanaşı qlobal elmi-texniki inkişaf tendensiyalarına uyğunlaşmağı əsas məsələlərdən biri kimi önə çəkir. Bu da xarici mühiti, elmi və texnoloji inkişafın qlobal meyllərini, həmçinin operativ yenilənməsini və s. nəzərə almağı tələb edir. Ümumiyyətlə, rəqabət qabiliyyətinə təsir edən amillər arasında aşağıdakıları xüsusi qeyd etmək olar: texnologiyanın inkişafına uyğun olaraq məhsulun parametrlərindəki dəyişikliklərin effektivliyi; bazarın və istehlakçıların tələbləri; istehsalın aktiv texnoloji komponentlərinin olması; innovasiya potensialının səviyyəsi; xərclərin azaldılması imkanları; rəqabət üstünlüklərinin formalaşması ehtiyatları; rəqabət üstünlüklərinin saxlanması üçün maliyyə vəsaitlərindən istifadə etmək imkanları və s.

Yüksək rəqabət qabiliyyətlilik strategiyasının həyata keçirilməsi idxalın əvəzlənməsindən, bununla əlaqədar olaraq texniki və texnoloji inkişafın qabaqcıl nailiyyətlərinin tətbiqindən asılıdır. Uzunmüddətli perspektivdə, ölkə iqtisadiyyatının xarici təsirlərdən qorunması qlobal iqtisadiyyatın inkişaf perspektivlərinin qiymətləndirilməsi ilə sıx bağlı olan qabaqlayıcı tədbirlərlə bilavasitə bağlıdır. Bunun üçün dünya bazarında rəqabətqabiliyyətliliyin artırılması üçün ixrac rəqabətqabiliyyətliliyinə xüsusi diqqət yetirilməsi vacibdir.

Dünya iqtisadiyyatının hazırkı inkişaf mərhələsi beynəlxalq münasibətlərin getdikcə mürəkkəbləşməsi ilə xarakterizə olunur. Bu baxımdan ixrac hər bir ölkə üçün əhəmiyyətlidir və iqtisadi inkişafın əsas mənbələrindəndir. Uzunmüddətli ixrac müqavilələri, ilk növbədə pul vəsaitlərinin hərəkətinin proqnozlaşdırılmasını təmin edir. İxracın rəqabət qabiliyyətinin artırılmasına yönəldilmiş diqqət ölkədə beynəlxalq tələblərə (standartlaşdırma tələblərinə, ekoloji standartlara və s.) cavab verən məhsulların istehsalı üçün şəraitin yaradılması səylərinə üstünlük verir. Bu, öz növbəsində innovasiya proseslərini, işlənmələrin kommersiyalaşdırılmasını, texniki təchizatı və s. stimullaşdırır. Dünya təcrübəsində yerli istehsalçıların xarici bazarlara çıxarılması üçün geniş alətlərdən istifadə olunur. Qeyd etmək lazımdır ki, ixracının rəqabət qabiliyyətinin artırılması üzrə fəaliyyətlər təkcə idxalın əvəzlənməsi probleminə müsbət təsir göstərmir, eyni zamanda xarici texnologiyalardan və məhsullardan asılılığın azaldılması probleminin həllinə kömək edir.

Ölkə iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin artırılması elmin, texnikanın və texnologiyanın dünyanın mütərəqqi nailiyyətlərini nəzərə alaraq öz istehsal proseslərinin inkişaf etdirilməsini təmin etməyə qadir olan iqtisadi mexanizmlərə əsaslanır. Bu isə qeyd edildiyi kimi, bilavasitə ixracın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi ilə sıx bağlıdır. İxracın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi tədbirləri və alətlərinin seçilməsi qlobal elmi biliklərin inkişafının nəzərə alınmasına əsaslanır. Müasir iqtisadiyyatının inkişaf xüsusiyyətlərini nəzərə alaraq ixracın rəqabət qabiliyyətinin artırılması mexanizmlərin formalaşdırılması hazırda ən mühüm məsələlərdəndir.

ƏDƏBİYYAT

1. "İxracın və investisiyaların təşviqi sahəsində idarəetmənin daha da təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 28 dekabr 2018-ci il.
1. Портер, М. Международная конкуренция: конкурентные преимущества стран: практическое пособие: / М. Портер. – Москва: Альпина Паблишер, 2016. – 947 с.
3. Щепакин М.Б., Кривошеева Е.В., Третьяков Р.М. К разработке методического подхода к оценке конкурентоспособности предприятий в условиях маркетинговой ориентации // Научный журнал КубГАУ. 2012. № 81 (07). С. 4–20.
4. Azərbaycan Respublikası Dövlət Statistika komitəsinin rəsmi saytı, Təhsil, elm və mədəniyyət göstəriciləri https://www.stat.gov.az/source/education/

THE RELATIONSHIP BETWEEN COMPETITIVENESS AND EXPORT

Galib Nizami oglu Gafarli
galib.gafarli@gmail.com
Baku State University

Ensuring competitiveness and export-oriented production is considered one of the most crucial tasks in the global geo-economic environment. Naturally, without achieving competitiveness in the global economy, it is impossible to strengthen a country's position in the international division of labor and gain competitive advantages. In this context, measures aimed at enhancing export competitiveness are linked to creating conditions that meet international requirements. This, in turn, defines the improvement of export competitiveness as one of the priority issues in the long-term perspective.

Keywords: competitiveness, efficiency, export, resource potential, competitive advantages.

NEYROMARKETİNQ STRATEGİYALARI: BEYİN FƏALİYYƏTİNİN MARKETİNQƏ YÖNƏLDİLMƏSİ

Şəhla Nadir qızı Qarayeva
sehlaqarayeva@yandex.ru
Təbiət Elmar oğlu Hüseynov
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə istehlakçıların artan seçimləri və bilik səviyyələri qərar qəbul etmə prosesini mürəkkəbləşdirir. Buna görə də, istehlakçıların latent ehtiyaclarının, arzu və gözləntilərinin müəyyənləşdirilməsi getdikcə daha çətin bir vəzifəyə çevrilir. Qeyd olunan ehtiyac, arzu və gözləntilərin əksəriyyəti şüuraltı səviyyədə formalaşır və çox zaman istehlakçı tərəfindən verbalizə edilmir. Neyromarketinq, istehlakçı davranışlarının altında yatan şüursuz reaksiyaları elmi şəkildə tədqiq edən və markalara bu reaksiyaları öz məqsədlərinə uyğunlaşdırmaq üçün analitik dəstək təmin edən interdisiplinar bir sahə kimi özünü göstərir. Bu innovativ yanaşma, istehlakçı davranışlarını daha dərindən anlamaq və daha effektiv marketinq strategiyaları hazırlamaq üçün neyroelm və psixologiya sahələrindən istifadə edir. Neyromarketinq, istehlakçıların qərar vermə prosesini və davranışlarını anlamaq üçün beyin fəaliyyətini və neyroloji prosesləri öyrənən marketinq sahəsidir. Bu sahə, ənənəvi marketinq metodlarını neyroelm texnikaları ilə birləşdirərək, istehlakçıların məhsul və xidmətlərə olan reaksiyalarını daha dəqiq ölçməyə və proqnoz-laşdırmağa imkan verir.

Neyromarketinq bir neçə əsas prinsipə əsaslanir. Bu prinsiplər, istehlakçi davranışla-rını daha dərindən anlamağa və daha effektiv marketinq strategiyaları yaratmağa kömək edir:

1. Emosıonal bağlantı. İnsanlar çox vaxt düşündüklərindon daha çox emosiyalarina əsaslanaraq qərar verirlər neyromarketino, məhsul və ya brendlo güclü emosional bağlanti yaratmanin əhəmiyyətini vurğulayir. Məsələn "Coca-Cola" reklamlarinda ailə, dostluq və xoşbəxtlik kimi pozitiv emosiyalari vurğulayaraq, istehlakçilarla emosional bag yaradir.

2. Qeyri-şüuri qərar vermə. İnsan beyni saniyədə milyonlarla məlumat emal edir, lakin bunların yalnız kiçik bir hissəsi şüurlu olaraq qəbul edilir. Neyromarketinq istehlakçıların qeyri-şüuri olaraq qəbul etdikləri məlumatların da qərar verma prosesinə təsir etdiyini göstərir. Məsələn, bir mağazada işlədilən qoxu va ya fon musiqisi kimi kiçik detallar, alış-veriş təcrübəsinə və qərarlarına əhəmiyyətli dərəcədə təsir edə bilər.

3. Hisslərin təsiri. İnsan beyni məlumatları beş hiss orqanı vasitəsilə qəbul edir: görmə, eşitmə, toxunma, dad və qoxu. Neyromarketinq, bu hisslərin hər birinin istehlakçı davranışlarına necə təsir etdiyini araşdırır. Məsələn, məhsulun qablaşdırmasının toxunma hissinə xoş gəlməsi, alıcının o məhsulu seçmə ehtimalını artıra bilər

4. Beyin fəaliyyətinin ölçülməsi. Neyromarketinqin əsas prinsiplərindən biri də beyin fəaliyyətinin dəqiq ölçülməsidir. Müxtəlif texnologiyalar vasitəsilə beynin müxtəlif stimullara necə reaksiya verdiyini ölçmək mümkündür. Bu, marketoloqlara istehlakçıların həqiqi reaksiyalarını anlamaqda kömək edir.

Neyromarketinq, insan beyninin düşüncə və emosional proseslərini vizuallaşdırmaq məqsədilə müxtəlif metodoloji yanaşmaları tətbiq edir. Bu çərçivədə:

- Gözlərin hərəkət trayektoriyalarının analizi, vizual diqqətin fokuslandığı obyektlərin müəyyənləşdirilməsinə imkan yaradır.
- Elektroensefaloqrafiya (EEG) vasitəsilə qeydə alınan beyin aktivliyi, reklam və ya məhsul atributlarına qarşı emosional reaksiyaların (məsələn, müsbət affekt) kvantifi-kasiyasını təmin edir.
- Funksional Maqnit Rezonans Tomoqrafiyası (fMRI) müayinələri, müxtəlif marketinq stimullarının (reklamlar, vizuallar, məhsul xüsusiyyətləri) beyin strukturunda yaratdığı spesifik aktivasiya sahələrini aşkarlayaraq, marka ilə assosiasiya olunan müəyyən hisslərin neyrofizioloji əsaslarını üzə çıxarır.

Bu inteqrativ metodların tətbiqi, istehlakçıların şüuraltı cavablarının deşifrə olunmasına və şirkətlərin marketinq strategiyalarını müştərilərin kognitiv və affektiv xüsusiyyətlərinə adekvat şəkildə adaptasiya etməsinə şərait yaradır.

Neyromarketinq reklam çarxlarının, brend strategiyasının, məhsul qablaşdırmasının, veb-dizaynının və hətta mağaza tərtibatının müştərilərin diqqətini necə çəkdiyini və emosional reaksiyalarını necə formalaşdırdığını anlamağa kömək edir. Neyromarketinq tədqiqatları nəticəsində əldə olunan məlumatlar, daha təsirli marketinq kampaniyalarının yaradılmasına və müştəri loyallığının artırılmasına xidmət edir.

Neyromarketinq, reklam kampaniyalarının effektivliyini artırmaq üçün geniş istifadə olunur. Şirkətlər, müxtəlif reklam konsepsiyalarının istehlakçıların beyninə necə təsir etdiyini ölçərək təsirli olanları seçə bilərlər. Belə ki, neyromarketinq sahəsində ən məşhur tədqiqatlardan 2004-cü ildə aparılan "Coca-Cola və Pepsi", neyromarketinq prinsiplərinin tədqiqinə dair klassik, lakin mühüm bir nümunəni təşkil edir. Bu hal, sözügedən marketinq yanaşmasının əhəmiyyətini illüstrasiya etmək baxımından xüsusilə əhəmiyyətlidir. Metodologiya, tədqiqat iştirakçılarından ilkin marka seçimlərinin sorğulanmasını, ardınca isə anonim şəkildə "Coca-Cola və Pepsi" məhsullarının təqdim edilməsini nəzərdə tutur. Növbəti mərhələdə isə iştirakçılara içkilərin markaları açıqlanır və təkrarən hər iki məhsulu ardıcıl olaraq dadmaları tələb olunur.

Bütün eksperimental proses boyunca funksional maqnit-rezonans tomoqrafiya (fMRI) texnikası tətbiq edilir və iştirakçıların beyin fəaliyyəti qeydə alınır. Əldə olunan nəticələr, uzunmüddətli tədqiqatların əvvəlki tapıntılarını təsdiq edən əhəmiyyətli dəlillər təqdim edir. fMRI analizləri göstərir ki, marka məlumatı verilmədikdə iştirakçılar Pepsi-nin orqanoleptik xüsusiyyətlərini daha çox bəyənirlər, lakin marka seçimi soruşulduqda isə "Coca-Cola"-ya üstünlük verirlər.

Məhsul seçimi prosesində yalnız dad, rəng və qoxu kimi sensor xüsusiyyətlər deyil, həm də məhsulla əlaqəli assosiasiyalar, yerləşdirmə strategiyaları və təqdim olunan informasiya da mühüm təsir göstərir. Bu amillər, beş duyğu qavrayışını aşaraq birbaşa beyinə "al" əmrini göndərə bilər. Satınalma prosesinin əksər hallarda bu şəkildə reallaşdığı müşahidə olunur. Hər hansı bir məhsul xüsusiyyətinin müsbət qiymətləndirilməsi nəticəsində beyin, bu qavrayışı potensial bir satınalma əmri kimi interpretasiya edə bilər.

Elektron ticarət platformaları da neyromarketinq texnikalarından faydalanırlar. Məsələn, Amazon öz "1- Klik-ə satınalma" sistemini optimallaşdırmaq üçün göz izləmə va EEG texnikalarından istifadə etdi.

Neyromarketinq texnikaları, şirkətlərə daha doğru və təkmilləşmiş məlumatlar təqdim edərək onların istehlakçı davranışlarına daha uyğun məhsul və xidmətlər təklif etməsinə kömək edir. Eyni zamanda, bu texnikalar brend imicinin yaradılmasında və reklam kampaniyalarının daha təsirli olmasında mühüm rol oynayır. Neyromarketinqin gələcəyi həm həyəcanverici imkanlar, həm də ciddi çağırışlarla doludur. Bu sahənin məsuliyyətli və etik şəkildə inkişaf etdirilməsi, onun potensialından tam şəkildə faydalanmağa imkan verəcək.

NEUROMARKETING STRATEGIES: TARGETING BRAIN ACTIVITY FOR MARKETING

Shehla Nadir gizi Qarayeva
sehlaqarayeva@yandex.ru
Tabiat Elmar oglu Huseynov
Azerbaijan Technological University

The research paper analyzes neuromarketing strategies, which are gaining increasing importance in modern marketing. Increasing choices and knowledge levels make it difficult for consumers to make decisions, and many of their needs and desires are formed at a subconscious level. Neuromarketing integrates the principles of neuroscience and psychology to study the brain activity of consumers and allows them to measure their subconscious reactions to products and services. Based on key principles such as

emotional connection, unconscious decision-making, the influence of feelings and the measurement of brain activity, neuromarketing helps to understand the impact of marketing elements such as advertising, brand strategy, packaging and store design on consumer attention and emotional responses. This approach provides companies with valuable information to create more effective marketing campaigns and increase customer loyalty.

Keywords: neuromarketing, consumer behavior, emotional connection, unconscious decisions, advertising strategies.

АНАЛИЗ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ ЗЕРНОВОГО РЫНКА В КАЗАХСТАНЕ

С.М.Момынкулова
sulyamadi@mail.ru
Г.Б.Саханова
А.Р.Уркумбаева
Ж.А.Абуталипова
Алматинский Технологический Университет

Зернопроизводство всегда было и остается краеугольным камнем продовольственной системы Республики Казахстан. Зерновые культуры занимают центральное место в сельском хозяйстве страны. При анализе зерна как товара следует подчеркнуть его исключительное значение для казахстанской экономики. Производство зерна многогранно и затрагивает интересы практически всех участников сельскохозяйственного сектора. Зерно, будучи стратегически значимым продуктом, оказывает определяющее влияние на провольственную безопасность нации, уровень жизни ее граждан, развитие животноводства и наращивание экспортных возможностей республики.

Законодательное регулирование деятельности в области зерна началось с принятия Закона Республики Казахстан от 19 января 2001 года «О зерне».Так, Законом предусмотрено следующее понятие зерна – плоды злаковых, зернобобовых и масличных культур, используемые для пищевых, семенных, кормовых и технических целей. [1]

На сегодня, формирование зернового рынка Казахстана зависит от следующих ключевых факторов(рисунок 1):



Рисунок 1- Ключевые факторы формирования рынка зерна в Республике Казахстан

Первое. От урожайности и качества зависит себестоимость и, соответственно, конкурентоспособность.

Второе. Непривычно большие переходящие запасы будут увеличивать объемы предложения на рынке.

Третий. Повышение эффективности логистики и развитие транспортной инфраструктуры являются ключевыми факторами для успешного экспорта зерна, которые могут повлиять на доступность и конкурентоспособность казахстанского зерна.

Четвертое. Геополитические и экономические события, как на мировом, так и на региональном уровне, могут оказывать влияние на зерновой рынок Казахстана. Изменения в торговой и санкционной политике, валютных курсах, таможенных пошли-

нах и политической стабильности могут иметь влияние на экспорт и импорт зерна.

Пятый фактор. Значительные переходящие запасы в РФ, особенно в приграничных регионах, а также ожидаемый хороший урожай будут оказывать давление на рынок зерна Казахстана. В этой ситуации ключевое значение будет иметь увеличение государственного влияния на зерновой рынок в России и ее последующая торговая политика.

Еще один немаловажный момент – ситуация на рынках ключевых торговых партнеров Казахстана, таких как Афганистан, Иран и страны Центральной Азии, которая будет иметь значение для объемов экспорта зерна и муки.

В целях обеспечения стабильности зернового рынка государство осуществляет формы поддержки производства и реализации зерна, такие как:

-удешевление отечественным сельскохозяйственным товаропроизводителям стоимости элитных семян в порядке, определяемом уполномоченным органом;

-организация лизинговых поставок техники и оборудования;

-финансирование программ научных исследований по сохранению плодородия почвы;

-содействие во внедрении новых прогрессивных технологий производства и хранения зерна;

-удешевление отечественным сельскохозяйственным товаропроизводителям стоимости минеральных удобрений и горюче-смазочных материалов в соответствии с бюджетными программами;

-подготовка кадров для агропромышленного комплекса в соответствии с государственным образовательным заказом;

-принятие мер для создания в регионах конкурентной среды по оказанию услуг по оценке соответствия в области технического регулирования;

-принятие мер по возрождению отечественного сельскохозяйственного машиностроения.

Сельское хозяйство Республики Казахстан продолжает выполнять важную роль в экономике страны, обеспечивая продовольственную безопасность, способствуя устойчивому развитию регионов и создавая дополнительные рабочие места. Государство активно поддерживает этот сектор, предоставляя льготное финансирование, субсидии и другие меры для повышения конкурентоспособности агропромышленной продукции на внутреннем и внешних рынках.

В настоящее время, для дальнейшего регулирования рынка зерна, Казахстан вводит меры по привлечению дополнительных 100 млрд тенге для АО «КазАгроФинанс» с целью предоставления сельскохозяйственной техники в лизинг под 5% годовых. Из запланированных средств уже освоено 32,2 млрд тенге, а общий объем финансирования будет доведен до 450 млрд тенге.

Министерством сельского хозяйства внедрен механизм прямого субсидирования ставок вознаграждения финансовых институтов для кредитования субъектов агропромышленного комплекса по ставке 5% годовых. Этот механизм позволяет получать субсидии без необходимости подачи документов со стороны заемщиков. На данный момент он применяется для кредитования весенне-полевых и уборочных работ. [2]

В заключении, можно сделать вывод, что казахстанский зерновой рынок эффективно регулируется государством, но недостаточно. Предстоит решить множество проблем, связанных с логистикой, с конечной реализацией зерна, технологической модернизацией отрасли и расширения географии экспорта.

ЛИТЕРАТУРА

1. Закон Республики Казахстан от 19 января 2001 года № 143-II «О зерне» (с изменениями и дополнениями по состоянию на 08.06.2024 г.)
2. https://www.gov.kz/memleket/

ANALYSIS OF STATE SUPPORT FOR THE GRAIN MARKET IN KAZAKHSTAN

S.Momynkulova
SulyaMadi@mail.ru
G.B.Sakhanova
A.R.Urkumbayeva
J.A.Abutalipova
Almaty Technological University

In summary, I would like to note that our government actively supports this sector by providing preferential financing, subsidies and other measures to increase the competitiveness of agricultural products in domestic and foreign markets. Currently, to further regulate the grain market, Kazakhstan is introducing additional financial resources to maintain the stability of the grain market.

Keywords: grain market, government regulation, food safety, efficiency.

ВКЛАД ИНКЛЮЗИВНОГО БИЗНЕСА В ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ: КОНЦЕПТУАЛЬНАЯ ОСНОВА

Ильгар Зульфугар оглы Сейфуллаев[1]
ilgar.seyfullayev@unec.edu.az
Зейнаб Бахрам кызы Годжаева[2]
z.gocayeva@atu.edu.az
Азербайджанский Государственный Экономический Университет[1]
Азербайджанский Технологический Университет[2]

Модели инклюзивного бизнеса (ИБ) появились как преобразующий подход к экономическому развитию, интегрируя малообеспеченное население в цепочки создания стоимости различных отраслей. В этой статье представлена концептуальная основа, подчеркивающая вклад инклюзивного бизнеса в экономическое развитие. Она подчеркивает важность доступности, участия, справедливости и устойчивости, одновременно исследуя проблемы и возможности, которые влияют на эффективность инклюзивных бизнес-моделей в достижении экономического роста и социальной справедливости.

Концепция инклюзивного бизнеса возникла в конце 1990-х годов как ответ на растущее понимание того, что традиционные бизнес-модели часто исключают малообеспеченные слои населения из участия в экономической деятельности. Инклюзивный бизнес стремится включить эти малообеспеченные сообщества в экономику, тем самым способствуя социальному равенству и стимулируя экономический рост [6]. В этой статье представлена концептуальная основа для анализа того, как инклюзивный бизнес может способствовать экономическому развитию, исследуя практические последствия интеграции маргинализированных слоев населения в деловую деятельность.

Инклюзивный бизнес все чаще признается важнейшей стратегией содействия экономическому росту и сокращения бедности. Вовлекая малообеспеченные слои населения в качестве как потребителей, так и производителей, инклюзивные бизнес-модели направлены на создание устойчивых источников существования и содействие справедливому экономическому развитию. В этой статье делается попытка создать концептуальную основу, которая описывает вклад инклюзивного бизнеса в экономическое развитие, предоставляя представление о том, как эти модели могут быть эффективно реализованы.

Инклюзивный бизнес относится к коммерчески жизнеспособным бизнес-моделям, которые намеренно вовлекают малообеспеченное население в основание пирамиды (BoP) в качестве потребителей, поставщиков и партнеров [2]. Эти модели направлены на создание взаимовыгодных отношений между предприятиями и

малообеспеченными сообществами, расширяя доступ к товарам и услугам и одновременно способствуя социально-экономическому развитию.

Ключевые характеристики инклюзивного бизнеса включают *намеренное взаимодействие с основанием пирамиды*, то есть фокусирование на малообеспеченном населении как на активных участниках экономики, а не просто как на потребителях [7]; *финансовую жизнеспособность*, то есть обеспечение экономической устойчивости инициатив и их масштабируемости с течением времени; *масштабируемость*, то есть разработку бизнес-моделей, которые могут расширяться для охвата более широких слоев населения без потери своих основных ценностей; и *измерение воздействия*, то есть внедрение механизмов оценки социальных, экономических и экологических последствий инклюзивных бизнес-инициатив [2].

Основные принципы инклюзивного бизнеса включают ***доступность***, то есть обеспечение доступности и удобства продуктов и услуг для потребителей с низкими доходами; ***участие***, подразумевающее активное вовлечение лиц с низкими доходами в цепочку создания стоимости как в качестве производителей, так и потребителей; справедливость, направленную на содействие справедливому распределению выгод для устранения неравенства доходов; и ***устойчивость***, способствующую долгосрочной социальной и экологической устойчивости наряду с экономической жизнеспособностью.

Вклад в экономическое развитие, а именно расширение экономических возможностей, демонстрирует роль инклюзивного бизнеса, интеграция малообеспеченного населения в экономическую деятельность посредством которого имеет ряд последствий для экономического развития:

Усиление экономического роста. Используя потенциал недостаточно обслуживаемых рынков, инклюзивные бизнес-модели создают новые экономические возможности и стимулируют местную экономику. Например, такие микрофинансовые организации, как Grameen Bank, позволяют людям, живущим в нищете, получить доступ к капиталу для открытия бизнеса, создавая рабочие места на местах и повышая покупательную способность [7].

Содействие социальному развитию. Содействие социальному развитию проявляется в прямом вкладе инклюзивных предприятий в снижение уровня бедности и неравенства посредством предоставления возможностей для получения дохода и расширения доступа к базовым товарам и услугам [9]. В Азербайджане, например, для поддержки женщин, занимающихся предпринимательской деятельностью, в рамках службы ASAN были созданы центры ABAD (Упрощенная поддержка семейного бизнеса) [10].

Содействие устойчивым практикам. Многие инклюзивные бизнес-модели подчеркивают устойчивые практики, соответствующие Целям устойчивого развития (ЦУР) для обеспечения справедливой и инклюзивной траектории экономического роста [3]. Эти практики не только решают насущные экономические потребности, но и отдают приоритет экологической устойчивости и социальной справедливости.

Инклюзивные бизнес-модели могут значительно расширить экономические возможности для населения с низким доходом, предоставляя доступ к рынкам, ресурсам и финансовым услугам. Например, микрофинансовые организации дают людям возможность начать свой бизнес, тем самым создавая рабочие места и повышая местную экономическую активность. Эти модели способствуют местному развитию, укрепляя связи в сообществе и повышая конкурентоспособность на рынках [2].

Содействие социальной интеграции. Инклюзивные деловые практики способствуют социальной интеграции, признавая малообеспеченные слои населения

ценными заинтересованными сторонами в бизнес-экосистеме. Например, инициативы, вовлекающие маргинализированные сообщества в процессы совместного производства или совместного создания, могут усилить социальную сплоченность и гарантировать, что в бизнес-операциях представлены различные точки зрения. Такое участие может привести к инновационным решениям, которые решают социальные проблемы, одновременно удовлетворяя потребности рынка.

Устранение сбоев рынка. Ориентируясь на недостаточно обслуживаемые рынки, инклюзивные бизнес-модели могут помочь смягчить сбои рынка, которые часто исключают малообеспеченные слои населения из экономического участия. Интеграция филантропических и деловых интересов может создавать ценность как для компании, так и для сообщества, способствуя общему процветанию. Например, генеративное партнерство между бизнесом и некоммерческими организациями может использовать ресурсы для создания синергии, которая приносит пользу обществу в целом [2].

Реализация инклюзивных бизнес-моделей сопряжена с рядом вызовов. Ограничения в доступе к капиталу представляют собой существенное препятствие для развития данных инициатив, что обусловлено восприятием рынков с низким уровнем дохода как высокорисковых инвестиционных объектов финансовыми институтами [2]. Проблемы финансирования и масштабирования являются типичными для многих инклюзивных бизнес-инициатив ввиду сдержанности традиционных инвесторов в отношении указанных рынков. Наряду с этим, неэффективность регуляторной среды оказывает негативное влияние на становление и расширение инклюзивного бизнеса [4]. Сложности, связанные с доступом к целевой аудитории, также возникают в связи с логистическими трудностями и дефицитом информации о потребностях потребителей с низким доходом [5]. Несоответствие между корпоративными целями и потребностями местных сообществ формирует дополнительные барьеры на пути эффективной реализации инклюзивных бизнес-моделей.

Несмотря на существующие вызовы, многочисленные возможности способствуют развитию инициатив инклюзивного бизнеса. В частности, использование технологических инноваций, таких как системы цифровых платежей, может расширить доступ к рынкам для производителей и потребителей с низкими доходами [7]. Партнерства между государственным и частным секторами способны создавать условия, поддерживающие инклюзивные бизнес-практики и устраняющие препятствия. Повышение осведомленности и образовательные инициативы могут формировать культуру, которая принимает и поддерживает инклюзивные подходы. Интеграция технологий, включая мобильные банковские решения, подобные M-Pesa [5], облегчает доступ к рынкам и повышает эффективность цепочек поставок. Сотрудничество между государственным и частным сектором создает благоприятную среду для инклюзивных бизнес-моделей, оптимизируя распределение ресурсов и влияние [1]. Наконец, разработка инклюзивных политических рамок может способствовать росту и устойчивости инклюзивных бизнес-практик, создавая условия для экономического развития [8].

Инклюзивные бизнес-модели играют важную роль в стимулировании экономического роста и социального равенства. Активно вовлекая население с низкими доходами в цепочки создания стоимости, эти предприятия могут способствовать устойчивым практикам, расширять экономические возможности и вносить значительный вклад в экономическое развитие. Однако для полной реализации потенциала инклюзивного бизнеса необходимо решать существующие проблемы, особенно касающиеся доступа к финансам и рыночных барьеров. Следовательно, продолжительное сотрудничество между различными заинтересованными сторонами, включая бизнес, правительства и гражданское общество, будет иметь важное значение для масштабирования инклюзивных бизнес-практик и содействия инклюзивному экономическому развитию.

ЛИТЕРАТУРА

1. Anand, R., Mishra, S., & Peiris, S. (2013). Inclusive growth revisited: Measurement and determinants. Economic Premise, World Bank.
2. Bembenek, J., & Kowalska, P. (n.d.). The inclusive business model in agribusiness cluster management.
3. GFDRR. (2018). Building inclusive business resilience. World Bank Group.
4 Golja, T., & Pozegeza, S. (2012). Inclusive business: What it is all about? International Review of Management and Marketing, 2(1), 41-46.
5. Kelly, S., Vergara, N., & Bammann, H. (2015). Inclusive business models: Guidelines for improving linkages between producer groups and buyers of agricultural produce. Food and Agriculture Organization of the United Nations.
6. Likoko, E., & Kini, J. (2017). Inclusive business – a business approach to development. Current Opinion in Environmental Sustainability, 24, 84-88.
7. Moore, C. (2014). Corporate social responsibility and creating shared value: What's the difference? Global Alliances and Strategic Initiatives.
8. OECD. (2014). Making inclusive growth happen: Ford Foundation
9. Wong, P. K., Ho, Y. P., & Autio, E. (2005). Entrepreneurship, innovation and economic growth: Evidence from GEM data. Small Business Economics, 24(3), 309-321.
10. https://documents.un.org/doc/undoc/gen/g18/044/02/pdf/g1804402.pdf.

CONTRIBUTION OF INCLUSIVE BUSINESS TO ECONOMIC DEVELOPMENT: A CONCEPTUAL FRAMEWORK

Ilgar Zulfugar oglu Seyfullayev[1]
ilgar.seyfullayev@unec.edu.az
Zeynab Bahram gizi Gojayeva[2]
z.gocayeva@atu.edu.az
[1]Azerbaijan State University of Economics
[2]Azerbaijan Technological University

The study examines inclusive business models as a transformative approach to economic development by integrating low-income populations into value chains. It establishes a conceptual framework highlighting the contributions of inclusive business to economic development, emphasizing accessibility, participation, equity, and sustainability while addressing the challenges and opportunities in their effective implementation.

Keywords: Inclusive business models, economic development, low-income populations, accessibility, participation, sustainability.

INCLUSIVE ECONOMIC GROWTH AND DUAL ROLE OF ARTIFICIAL INTELLIGENCE

Tamila Arnania-Kepuladze[1]
tamila.kepuladze@atsu.edu.ge
Giorgi Kepuladze[2]
Akaki Tsereteli State University, Kutaisi, Georgia[1]
University of Business and Technology, Tbilisi, Georgia[2]

The UN 2030 Agenda for Sustainable Development emphasises that inclusive economic growth means expanding human rights and opportunities based on high levels of employment and poverty reduction. [15] Inclusive economic growth should promote effective labour force employment and ensure equal access to resources for the socially vulnerable population.

Technological revolutions have historically driven economic growth, yet their distributional consequences vary. Artificial Intelligence (AI), as a transformative technology, harbours the potential to engender unparalleled productivity gains. [4] Although technological advancement, as it experienced historically, leads to increased productivity and higher living standards, the widespread AI causes concerns regarding increasing inequality and job displacement. This paper explores the dual influence of AI and studies

its potential for economic growth and a potential contribution to socio-economic disparities, offering strategies for the benefits of AI to be distributed equitably.

Theoretical Framework. The investigation of the impact of AI on the economic growth and development of society becomes increasingly attractive for researchers. [5, 14]

The development of the tourism industry has been identified as one of the priority directions of the Georgian government and, therefore, is actively being implemented both in the capital and in the regions, in terms of improving and arranging infrastructure, transport, the hotel industry and other locations.

Tourism is one of the main sources of income for many countries around the world. In this regard, Georgia can receive tourists throughout the year, which is possible due to both natural conditions and the activation of the private sector, which determines their main economic income. It should also be noted the role of the government in these processes, namely the presentation of Georgia's tourism potential at the international level, and a clear confirmation of this was the World Tourism Exhibition "Bernalium" held in Berlin, where Georgia, as the host country of this event, was represented by its diversity, as well as by demonstrating art, gastronomy, wine halls and those traditions that help our country establish its place on the world's tourism map. Business entities from various fields are actively involved in these and other local and international events, with whose efforts these events acquire a completely different meaning.

It is known that the majority of tourists from developed countries visit their desired destinations. Outbound tourism from these countries exceeds 10%, and the number of these countries does not exceed about 2 dozen. Before the Covid crisis, in addition to Western European, North American and Japanese countries, representatives of East Asian countries, the Persian Gulf, China, Korea and other countries had already appeared on the forefront. In this regard, the influx of tourists from a number of African countries has significantly increased in the Georgian tourism market. The number of citizens arriving from these countries has also increased as a result of the Russian-Ukrainian war. So our tourism market has become quite multinational and diverse. Taking this into account, the

service sector of our country has increased and the number of our citizens employed in it has increased, their productivity in the business sector has increased, the quality of transport services has improved, the tourism sector is trying to establish international standards for arranging its own infrastructure, etc. Based on the above, the reality that emerges in the place and role of the tourism industry in the development of the Georgian economy is becoming clear. Here it is necessary to emphasize that the tourism industry has become an object of interest for economic science, which fully reflects the functional unity of closely related sectors and spheres in the country's economic system, in addition to this, there are two structural levels of the tourism industry: macro and micro levels, where the subjects and consumers of this industry are directly involved in the socio-economic space. In this regard, the interest of researchers and practitioners has increased, who are aware of the nature of demand in tourism, which to a certain extent affects the prices, self-worth, quality, as well as technological processes, etc. of the activities of the subjects participating in the business.

Tourism as a means of economic development began to be mentioned in the 90s, when tourism was assigned the following functions: infrastructural development of the economy, attraction of investments, both within the country and abroad, improvement of the technology of tourism products and simplification, encouragement of tourism know-how. All this is still actively used today, which contributes to the creation of jobs in terms of employment, as well as the volume of income from investments and the general effect on the economy as a whole. It should also be noted the importance of the primary and secondary economic effects of tourism, since this effect is related to tourism spending and they represent a rather interesting area for business. Attention should also be paid to the fact that tourism does not exist as an independent separate sector. Foreign experts also recognize this and they should focus on the solution to various sectors of tourism: transport, hotel industry, catering facilities and other areas of spending money.

As for the dynamics of the tourism industry in Georgia, a comparative analysis of incoming and outgoing tourists showed that in 2021, the expenditures of incoming tourists in the country's budget amounted to 1.24 billion USD. At the same time, the expenditures of citizens leaving Georgia for travel abroad amounted to 184.7 million USD. As for the Georgian economy, in 2022, international travel generated 3.517 billion USD in revenue.

The tourism industry in Georgia currently has certain problems, which can be solved to some extent, since it is inevitable to improve the quality of service and the issue of security needs to be resolved, which remains the primary task. Since the arrival of tourists in a single space does not always determine the result of the work done, and the capital received is used inefficiently.

When focusing on the problems of the tourism industry in Georgia, attention should be shifted to areas where large capital investments are not required. We should also not forget about those positions where, due to the large influx of tourists, it becomes difficult to focus on the consumer, for this it is necessary to replace the outdated with a new one or provide services in a different form.

Also, due to its severity and importance, it can be said that the problem of human resources is in a leading position in the tourism industry, both with subjective and objective difficulties. There is a shortage of qualified and professional personnel. The implementation of labor rights protection for employees in various spheres of the economy and the resulting effect are becoming even more acute. In our opinion, this situation can be corrected by directly activating the private sector and implementing the right investment directions by the relevant state institutions. The Georgian tourism industry needs to review the "menu" of tourism offers. Unfortunately, today there is a shortage of diversified and diverse tourism offers, which cannot meet the demands of the modern tourist, which requires the need to service and fill the tourism market, since supply and demand are

unevenly distributed in the market, and the country's investment policy is not insignificantly active, but the effect is delayed. Here, in our opinion, attention should be shifted to influencer marketing, where the scale of investment should be increased accordingly.

Today, in a number of foreign countries, in particular, the USA, Canada, France, Italy and others, very serious capital is being invested in influencer marketing of the country's tourism industry. It is also worth noting the fact that today in almost all countries with a developed tourism industry, influencer campaigns are carried out on "Instagram" - 80%, "Facebook" - 47% and "YouTube" - 37%.

The directions of development of the tourism industry in Georgia are still being explored and are progressing quite slowly. No, and the development of events in this regard deserves more. In particular, the website https://influencer.ge/ has been operating in the Georgian technological space since 2019, which is distinguished by quite interesting types of services: influencer strategy, influencer event and influencer consultation.

All this indicates the activity of those business entities of the private sector, which, based on their business interests, are more actively engaged in the development of the country's tourism industry. Here one can identify both the narrow interests of business representatives and the prospect of completely different measures at the general state level.

Based on the above, there is another interesting position: how are the economic conditions and the growth of the tourism industry related to each other.

There are two different positions that are widely spread and quite recognized in the world, namely: according to one position, the country's economic progress and prosperity naturally and inevitably lead to the development of the tourism industry; and according to the second position, the accelerated and stable growth of the tourism industry provoked the growth of the country's economy and, as they say, the result was achieved. In this regard, representatives of the scientific field argue that the country should prioritize comprehensive support for the tourism industry and recognize it as a top priority, while the second fully recognizes Georgia's geostrategic location and, accordingly, the emphasis is placed on fulfilling its transit function. No, and this direction of the country's economic development is becoming stronger day by day. It can be noted that Georgia's involvement in the transit of energy resources (Azerbaijan-Europe electric energy) has recently been noted. An adequate position on the Georgian side will only emerge when we delve deeper into all the nuances of the main directions for the two countries. An adequate position will then be identified as a result of the appropriate analysis.

Thus, understanding and presenting the place and role of business entities in the tourism industry in the Georgian economy is not an easy topic. The position of the United Nations World Tourism Organization (UNWTO) is correct, and in general, it is completely clear regarding the tourism industry, but in our opinion, more specificity is definitely needed in this regard. Here, attention should be shifted to a full and systematic analysis of the facts, events and data that directly and indirectly affect and reflect the Georgian economy, both inductively and deductively.

A full understanding of this position is a serious step towards presenting the current situation in the tourism sector and then entering the space of a completely new reality of the tourism industry - sustainable tourism - in the social and economic events. This condition is very noteworthy for Georgia, as a developing country. It was in this context that the position of the United Nations World Tourism Organization (UNWTO) was presented, and the latter's request is of great value for our country. This ultimately makes the realization of tourism sustainability a reality in a single country, namely Georgia.

In conclusion, it can be said that based on the existing data, cooperation with foreign companies and relevant organizations in the tourism sector should be intensified in order to increase the tourism potential of the Georgian tourism market and attract foreign

investments, which will contribute to an increase in the number of incoming tourists, which, to a certain extent, will have a positive effect on the country's financial income due to economic revenues.

Keywords: tourism, potential, investment, prospects, business

REFERENCES

1. Augsbach G. Turismus und Nachhaltigkeit. Wiesbaden: Springer Fachmedien Wiesbaden Gmbh. 2020
2. Campoc N. F., K. Y. "Forieng Direct Investment as Technology Transterred: Some povel edidence from the transition Economies. Manchester: Modern Economy. 2012
3. Lund – Durlacher – D –Turismos und Klimawandel berlin: Springer Berlin/Heidelberg. 2020
4. Stehen J. Page, J.C. Turismos: a Modern synthesis. Berlin. Taylor & Franceis Group. 2020

SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ MƏHSULUN KEYFİYYƏTİNƏ TƏSİR EDƏN AMİLLƏRİN TƏHLİLİ

Gülnarə Əli qızı Məmmədova
gulnara.ali63@gmai.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Sənaye müəsisələrində istehsal olunan məhsulların qlobal bazara çıxması üçün həmin məhsulların beynəlxalq standartların tələblərinə uyğun hazırlanması əsas şərtlərdən biridir. Lakin istehsal olunan məhsulların keyfiyyətinə daxili və xarici amillər təsir edir. Elmin -texnikanın inkışafı bu amillərin dəyişməsinə, yeni məhsul yaranmasına, istehsal olunan məhsulun keyfiyyətinin formalaşmasına səbəb olur. Beynəlxalq bazar münasibətləri şəraitində məhsulun keyfiyyətinin formalaşmasına təsir edən xarici, bazarda mümkün dalğalanmaların proqnozlaşdırılması üçün xarici mühitin təhlili həyata keçirilir.

Sahəsindən asılı olmayaraq istehsal ilə məşğul olan müəsisənin gəlirlə işləməsi üçün əsas şərt daxili və xarici amillərin təsirinə məruz qalan istehsal etdiyi məhsulun keyfiyyətidir. Hazır məhsulun keyfiyyəti – onun yararlılıq xassələrinin məcmusu, istehlakçıların tələbatını, arzu və istəklərini yerinə yetirə bilmək xassəsidir. Elmin -texnikanın inkışafı bu tələblərin dəyişməsinə, yeni məhsulun yaranmasına, istehsal olunan məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına zərurət yaradır. İstehsal olunan məhsulun keyfiyyət səviyyəsi mövcud ehtiyacları ödəmək üçün məhsulların yaradılması zamanı formalaşır.

İstehsal müəsisələrində məhsulun keyfiyyətinə həm xarisi amillər, hən də daxili amillər təsir edir.

Beynəlxalq bazar münasibətləri şəraitində məhsulun keyfiyyətinin formalaşmasına təsir edən xarici amillərə aşağıdakılar daxildir: təchizatçılarla münasibətlər; keyfiyyət sahəsində tənzimləyici aspektlər və hüquqi sənədlər; rəqabətin intensivliyi; potensial alıcıların tələbləri; şirkətin əlverişli imicini qorumaq. Ümumiyyətlə istehsal müəsisələri xarici amillərdən səmərəli istifadə etməyə çalışırlar, onlar keyfiyyətə daha çox təsir edən amilləri əhəmiyyət dərəcələrinə görə bölərək daha üstünlük təşkil edənlərə diqqət verirlər, çünki xarici amillər istehsal sahəsindən asılı olmayaraq müxtəlif müəsisələrə fərqli təsir göstərir. [1]

Bazarda mümkün dalğalanmaların proqnozlaşdırılması üçün xarici mühitin təhlili həyata keçirilir. Bu dəyişmələrə: məhsulun istehsal üsulu; komponentlərin qiymətində mümükün artımlar; qısa müddətli və uzun müddətli proqramların hazırlanması; şirkətin strategiyası səbəb ola bilər.

Müəsisələrin ciddi diqqət yetirdiyi amillər rəqabət amilləri xarici mühitin nəzərə alınan amilləri arasında xüsusi yer tutur.

Məhsulun keyfiyyətinə təsir edən amillərə aşağıdakılar aiddir:

- iqtisadi; - siyasi; - bazar; - texnoloji; - rəqabətli; - sosial; - beynəlxalq.

Müəsisənin müstəqil şəkildə təsir edə biləcəyi amillər daxili amillərə aiddir.

Müəsisə həm məhsuldarlığın, həm də istehsal etdiyi məhsulun keyfiyyətinin

yüksəldilməsi üçün yönəlmiş əməliyyatların həyata keçirilməsinə özü qərar verir.

Məhsulun keyfiyyətinə təsir edən daxili amillərə aiddir: - informasiya səmərəliliyi; - texniki; - əməliyyat; - istehsal; -təşkilati; -iqtisadi; -sosial.

Göstərilən daxili amilləri nəzərdən keçirək:

- məhsulun keyfiyyətinin əsasını təşkil edən, əsas rollardan birini oynayan texniki amillərdir. Texniki amil rəqabətqabiliyyətli məhsulun istehsalı üçün əsas olan ən son materiallardan, yeni texnika və texnologiyaların istifadəsini nəzərdə tutur;
- istehsal olunan məhsulların keyfiyyətinə görə məsuliyyətin artırılması daxil olmaqla istehsal məsələlərinin həlli, əmək və idarəetmənin təşkili ilə birbaşa bağlı olan amil təşkilati amildir. Təşkilati amilə istehsal mədəniyyətinin təmin edilməsi, kadrların ixtisasının artırılması, operativ istehsalın planlaşdırılması və s. aiddir.
- məhsulun keyfiyyətinin tələb olunan səviyyəsinin tələb edilməsi, qiymət siyasəti, yüksək keyfiyyətli məhsul istehsalına görə kadrların iqtisadi həvəsləndirməsi sistemi, keyfiyyətsiz məhsula görə işçilərin maddi məsuliyyəti, məhsulun istehsalına və satışına çəkilən xərclər iqtisadi amillərə aiddir;
- işçilərin ixtisaslarını, onların təhsil səviyyəsini xarakterizə edən amillər sosial amillərdir. Bu amillər kollektivdə sağlam sosial psixoloji ab havanın yaranmasına, normal iş şəraitinin yaradılmasına təsir göstərir. Bundan başqa sosial amillərə kadrların peşəkar strukturu, kadrların ixtisasının artırılması, personalın motivasiyası, işçilərə sosial və məişət xidmətləri və s. aiddir.
- məhsulun istismarı zamanı onun keyfiyyətinə təsir edən amillər əməliyyat amilləridir. Əməliyyat amillərinə aşağıdakılar aiddir:
  - cari, planlı və əsaslı təmirin keyfiyətinin yüksəldilməsi;
  - cari təmirin aparılması;
  - texniki sənədlərə riayər edilməsi.

İstehsal amillərinə istehsal prosesi zamanı yaranan məsələlər və onların operativ həlli aspektləri daxildir.İnformasiyanin operativliyi amili yüksək keyfiyyətli məhsulun əldə edilməsində mühüm amillərdən biridir. İnformasiyanın operativ emalı üsulu, vaxtı haqqında məlumatların alınması, alınmış məlumatların vaxtında cavabdeh şəxslərə vaxtında çatdırılması nöqsanların yaranmasının vaxtında aradan qaldırılmasına səbə olur. İnformasiyanın tələb olunan operativliyi avtomatlaşdırılmış idarəetmə sistemlərinin yaradılması və istismarı ilə təmin edilir. [2]

İstehsal olunan məhsulun keyfiyyətinə subyektiv və obyektiv amillər də təsir edir.

İnsan faktoru ilə bağlı olan olan amillər subyektiv amillərdir. Dünya bazarında rəqabət şəraitində, eyni texnologiyaların , eyni avadanlıqların mövcudluğu şəraitində keyfiyyətli məhsulun istehsalında həlledici rol oynayan insan amilinin rolu çox böyükdür.

İnsan amilinə aşağıdakılar aiddir: - təcrübə; - ixtisası; - peşəkarlığı; -fəallıq və təşəbbüskarlığı; - mentorluq; - təcrübə mübadiləsi; - kadr marağı və s.

Hal hazırda bazarın inkişafının xarakterik xüsusuiyyətlərindən biri məhsulun keyfiyyətinin yaxşılaşdırılmasına artan tələblərdir və rəqabətli mübarizə şəraitində yalnız məhsulun keyfiyyətinin səriştəli idarə edilməsini həyata keçirən müəsisələr uğurla inkişaf edə biləcəklər. [3]

Təhlil olunan amillər məhsulun keyfiyyətinin yaxşılaşdırılması üçün əsas istiqamətləri formalşdırmağa imkan verir. Bu istiqamətlər aşağıdakılardır:

- istehsalın texniki səviyyəsinin və kadrların ixtisasının yüksəldilməsi;
- vahid orqanizm kimi müəsisənin bütün bölmələrinin işi;
- beynəlxalq standartların tələbərinə cavab verən normativ sənədlərin yaradılması;
- məhsulun keyfiyyətinə nəzartin və təhlilinin yeni müasir üsullarının davamlı inkiçafı və tətbiqi;
- istehsal mədəniyyətinin yüksəldilməsi;
- məhsulun keyfiyyətinin yüksəldilməsi məqsədi ilə istehsalın texnoloji proseslərinin daim

və davamlı təkmilləşdirilməsi;

- yaradıcı fəaliyyət üçün məcburi və maddi həvəsləndirmələr, işçilərin məhsulların keyfiyyətinin yaxşılaşdırılmasında marağı.

ƏDƏBİYYAT

1. İsgəndərzadə E.B., İsmayılov N.K., Hacıyev F.H. Metrologiya, standartlaşdırma və Sertifikatlaşdırma. Bakı. "Vektor". 2015. 669 s.
2. Огвоздин В. Ю. Управление качеством. Основы теории и практики: учебное пособие. 6-е изд. М. Дело и Сервис. 2009. 304 с.
3. Сергеев И. В. Экономика предприятия. М. Финансы и статистика. 2000. 304 с.

ANALYSIS OF FACTORS AFFECTING PRODUCT QUALITY IN INDUSTRIAL ENTERPRISES

Gulnara Ali gizi Mammadova
gulnara.ali63@gmai.com
Azerbaijan State University of Economics (UNEC)

One of the main conditions for the products produced in industrial enterprises to enter the global market is the preparation of those products in accordance with the requirements of international standards. However, the quality of the products produced is affected by internal and external factors. The development of science and technology leads to changes in these factors, the creation of new products, and the formation of the quality of the produced product. In the conditions of international market relations, an analysis of the external environment is carried out to predict possible fluctuations in the external market that affect the formation of product quality.

Keywords: production enterprises, quality, factors, information, market relations

XİDMƏTLƏR SEKTORUNDA RƏQABƏT QABİLİYYƏTİNİN ƏHƏMİYYƏTİ

Arzu Allahverdi qızı Cavid
arzu.cavid@yahoo.com
Azərbaycan Texnologiya Universiteti

Müasir sosial və iqtisadi inkişaf qlobal iqtisadiyyatın mühüm tərkib hissəsi olan xidmətlər sektorunda baş verən inkişaflarla xarakterizə olunur. İnformasiyaya əsaslanan qlobal iqtisadiyyatın üçüncü sektoru hazırda istənilən istehsal və ya təchizat prosesində əvəzolunmazdır. O, bilik, təxəyyül, yaradıcılıq, qeyri-maddi aktivlər və əqli mülkiyyət kimi əsas mənbələr və mühüm resurslar olan əlaqəli komponentlərdən ibarətdir. Dünya bazarında xidmətlər son iyirmi ildə, əsasən müxtəliflik və dəyişən istehlakçı davranışının digər aspektləri nəticəsində əhəmiyyətli dərəcədə yüksəlmişdir. Bu yüksəliş həm də xidmətlərin göstərilməsi üçün xüsusi əhəmiyyət kəsb edən və müştərilərin gözləntilərini artıran yeni İT və telekommunikasiya texnologiyalarının yaradılmasının nəticəsidir. Onların ətraf mühit faktorlarının hər zamankindən daha çox təsirinə məruz qaldıqları, getdikcə daha həssas olduqları, müəyyən bir xidmət seçərkən daha tələbkar olduqları, lakin bir o qədər də çətin olduqları müşahidə olunur. Zövqlərini və xidmətlərini şaxələndirmək insanlara bazar üçün nəzərdə tutulan hər kəsin hədəfi olduqlarını və rəqabətin həmişəkindən daha güclü olduğu bir dünyada yaşadıqlarını başa düşməyə kömək edir. Belə nəticəyə gələ bilərik ki, xidmət sektoru həyat səviyyəsinin yüksəldilməsi, kadrların ixtisas və təlim səviyyəsinin yüksəldilməsi ilə işin keyfiyyətinin yaxşılaşdırılmasına töhfə vermək üçün məsuliyyət daşıyır və xidmətlərin mühüm iqtisadi rolu var.

Xidməti istifadəçilərlə mübadilə əlaqəsinin qurulduğu şəraitdə həyata keçirilə bilən bir əmtəə, şəxs və ya məlumatı əks etdirən bir hərəkət kimi təyin edə bilərik. Bu sahənin tədqiqatçılarının fikrincə, xidmətlər sənayeləşmiş ölkələrin əksəriyyətində işçi qüvvəsinin və istehsalın əhəmiyyətli bir hissəsini effektiv şəkildə birləşdirən qlobal iqtisadiyyatın həyati və daim genişlənən sektorudur. Buna baxmayaraq, yüksək inkişaf səviyyəsinə malik iqtisadiyyatlar üçün bu sektorun əhəmiyyəti beynəlxalq ticarət axınlarında tam əks olunmur və bu, əlavə araşdırma tələb edir. Dünya iqtisadiyyatlarının kənd təsərrüfatından istehsala

doğru inkişafı əsrlər çəkməsinə baxmayaraq, xidmət sektorunun genişlənməsi daha sürətlə baş verir. Dünya köklü dəyişikliyin ortasındadır, demək olar ki, xidmətlər indi praktiki olaraq hər bir ölkədə ümumi istehsalın daha böyük hissəsini təşkil edir. Son bir neçə onillikdə xidmətlərin belə genişlənməsi təkcə qlobal məşğulluq və iqtisadi fəaliyyətin tərkibini deyil, həm də beynəlxalq ticarətdə mümkün tendensiyaları dəyişmişdir. Xidmətin məhsuldarlığının qiymətləndirilməsi ilə işin və onun nəticələrinin qiymətləndirilməsi həmişə əlaqələndirilmir. Bunun səbəbi əmtəələrə dair məlumatlardan fərqli olaraq, xidmət fəaliyyəti ilə bağlı məlumatların daha az sistemli şəkildə toplanmasıdır. Məlumat toplamaq üçün istifadə olunan kateqoriyalarda böyük müxtəliflik var. Bundan əlavə, əmək məhsuldarlığının göstəricilərinin ölçülməsi üsulları ilə bağlı şərhlərin əksəriyyəti çox mübahisəlidir və aydın bir göstərici yoxdur.

Müasir iqtisadiyyatda xidmətlərin artan ölçüsü və əhəmiyyətinə baxmayaraq, bu fəaliyyətlər məhsullarla müqayisədə iqtisadçılar tərəfindən ümumiyyətlə daha az araşdırılır və təhlil edilir. Məhsul ticarətində rəqabət qabiliyyəti iqtisadiyyatda geniş şəkildə öyrənilsə də, bu problemə xidmət nöqteyi-nəzərindən yanaşan nəzəri və ya töhfələrin sayı olduqca azdır. Bundan əlavə, empirik iqtisadi ədəbiyyatda xidmət ticarətinin dinamik şəkildə genişlənməsinə baxmayaraq, xidmətlərin rəqabət qabiliyyətinə təsir edən elementlər kifayət qədər tədqiq edilməmişdir.

Rəqabət qabiliyyətlilik və xidmətlər arasındakı əlaqə həm xidmətlərin qlobal iqtisadiyyata təsirlərini, həm də rəqabətqabiliyyətli iqtisadiyyatların xidmətlərə qarşı qoyduğu çağırışları nəzərə alan konseptual və analitik çərçivədə başa düşülməlidir. Çoxsaylı əhəmiyyətli tədqiqatlar keçən əsrin sonlarından etibarən xidmətlərin beynəlxalq ticarət üçün katalizatorlar və qloballaşmanın hərəkətvericiləri kimi rolunu nəzərdən keçirmişdir. Biz məhz bu amillərə görə ikimənalı xidmət-rəqabətlilik əlaqəsini müzakirə edə bilərik. Bu nöqteyi-nəzərdən aydın olur ki, xidmətlərin fərqli strategiyaya ehtiyacı var, çünki onların beynəlmiləlləşmə prosesi istehsaldan fərqlidir. Xidmətlərin ticarətinə iki kateqoriya amil təsir edir:

- daxili iqtisadi dinamikaya görə bazarın açılmasına məcbur edən genişlənmə amilləri;
- xidmətlərin xarakterinə və onların tənzimlənməsinin müəyyən aspektlərinə görə ticarətin artım potensialını məhdudlaşdıran məhdudlaşdırıcı amillər.

Beləliklə, yeni İKT-lərin (məsələn, telefon rabitəsi, İnternet və s.) yayılması, qlobal maliyyə bazarlarına çıxış və məhsulun standartlaşdırılması xidmət fəaliyyətlərinin onların dəyərinə və keyfiyyətinə təsir etmədən ötürülə bilən olmasını müəyyən edən meyarlardır. Digər tərəfdən, tənzimləmələr, xüsusi qanuni tələblər, inzibati prosedurlar, mülki məsuliyyət və ya maliyyə təminatı sistemlərindəki fərqlər də daxil olmaqla, qlobal xidmətlər bazarının formalaşmasına mənfi təsir göstərən bir çox maneələr mövcuddur.

İqtisadi artım birbaşa rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş siyasətlərdən daha çox daxili amillərdən və digər iqtisadi siyasətlərdən əhəmiyyətli dərəcədə təsirləndiyinə görə, hələ də rəqabət qabiliyyətinin artırılmasına yönəlmiş siyasətlərin xarici rəqabətin təsirini yüksək qiymətləndirdiyinə inanılır. Bu, bir tərəfdən belə nəticəyə gəlməyə əsas verir ki, rəqabət qabiliyyətinin öyrənilməsi üçün birbaşa təsir və aktuallıq kəsb edənlərdən başqa əlavə elementlər də təhlil edilməlidir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, əldə edilən bütün məlumatların təhlili nəticənin ümumi aktuallığına zəmanət vermir. Xidmətlər sektorunda rəqabət qabiliyyətini qiymətləndirmək üçün iki səviyyəli təhlildən istifadə edilə bilər: - ümumi iqtisadi göstəriciləri ölçməklə bütün iqtisadiyyat səviyyəsində; - beynəlxalq əməliyyatlar səviyyəsində, xidmət fəaliyyətinin beynəlxalq bazarda necə rəqabət apardığını və ya yerli bazarda xarici rəqabətlə necə qarşılaşdığını müəyyən etmək;

Xidmət sektorunda məhsuldarlığın qiymətləndirilməsi və təhlilinə müxtəlif praktiki və konseptual səbəblərə görə nail olmaq çətindir. Bir tərəfdən, işin qiymətləndirilməsi ilə xidmət istehsalının nəticəsi arasında heç də həmişə əlaqə olmur. Məhsullarla müqayisədə, xidmət fəaliyyətləri haqqında məlumatlar daha az sistemli şəkildə toplanmışdır. Məlumat

müxtəlif kateqoriyalardan istifadə etməklə toplanır. Bundan əlavə, əmək məhsuldarlığının ölçülməsi üsullarının şərhləri mübahisəlidir, çünki onlar yalnız natamam şəkillərdə verilir. Bununla belə, onlar əlavə əmək vahidinin gətirdiyi sərvət artımı haqqında faydalı məlumatlar təqdim edirlər. Bu sahədəki tendensiyalar həm də iqtisadi artımı təmin etmək qabiliyyətinin nə dərəcədə inkişaf etdiyini ölçmək üçün istifadə edilə bilər.

Xidmətlərin istehsalının və müvafiq olaraq onun nəticəsinin alıcının gözləntilərinə cavab vermə dərəcəsi xidmətlərin keyfiyyətini müəyyən edir. Xidmətlərin keyfiyyətləri yalnız istifadə olunduqda üzə çıxdığından, əşyalardan fərqli olaraq, xidmətlər alıcı tərəfindən satın alınmazdan əvvəl görünə, sınaqdan keçirilə və qiymətləndirilə bilməz. Buna görə də, lazımi keyfiyyət səviyyəsinə zəmanət vermək üçün düzgün təchizatçı seçmək vacibdir. Lakin, bir qayda olaraq, alıcı xidmət təminatçılarının keyfiyyəti haqqında kifayət qədər məlumatlandırılmır və bu məlumat kəsirinin aradan qaldırılması yüksək əməliyyat xərclərini (informasiya xərcləri) əhatə edir. Xidmət təminatçıları müştərinin üzləşdiyi riskləri azaltmaq və onu xidmətin keyfiyyətinə inandırmaq üçün keyfiyyət təminatı və zəmanətlər təklif etmək, öz reputasiyalarını yaratmaq və xidmətlərini tanıtmaq üçün çox çalışırlar.

Xidmət bazarlarının özünəməxsus xüsusiyyətləri baxımından qeyd etmək lazımdır ki, tarixən xidmətlər ciddi tənzimləmə (rabitə, sığorta, peşəkar xidmətlər), şəbəkə xarici təsirləri (nəqliyyat, maliyyə xidmətləri və telekommunikasiya) və həm təbii, həm də ticarət siyasətinin giriş maneələri ilə müəyyən edilmişdir. Xidmətlər sahəsində tənzimləmələr daimidir və həm səmərəlilik, həm də ədalət mülahizələri ilə müəyyən edilir.

Buna görə də, xidmət sektorlarının rəqabət üstünlükləri istehsal xərcləri baxımından müqayisəli üstünlüklərin, xüsusən də tədarükçülərin müştərilərin xüsusi ehtiyaclarını ödəməyə töhfə vermək, xidmətlərin keyfiyyəti ilə bağlı qeyri-müəyyənliyi azaltmaq və müştərilərinin ticarət xərclərini azaltmaq qabiliyyətinin nəticəsi kimi görünür. Eyni zamanda, demək olar ki, əmtəə xidmətlərini fərqləndirən və onların beynəlmiləlləşmə prosesinə bilavasitə təsir edən xüsusiyyətlər müəyyən edir ki, qiymətlər və xərclər əsasında rəqabətqabiliyyətlilik göstəriciləri mallara nisbətən xidmətlər sferasında daha az aktualdır. Əksinə beynəlxalq ticarətdə xidmətlərin rəqabətqabiliyyətliliyində əsas rolun keyfiyyət, məhsulların diferensiallaşdırılması, iqtisadi və sosial-mədəni məhdudiyyətlər üstünlük təşkil edir.

IMPORTANCE OF COMPETITIVENESS IN THE SERVICES SECTOR

Arzu Allahverdi gizi Cavid
arzu.cavid@yahoo.com
Azerbaijan Technological University

Services have unique qualities that distinguish them from industrial products and that affect global service operations. The unique characteristics of services (such as the strength of supplier-buyer relationships) are the main focus, but the shortcomings in service markets also play a role, which affects the process of internationalization of services and consequently their competitiveness. In this regard, the article examines the importance and indicators of competitiveness in the service sector.

Keywords: service sector, third sector, factors, competitiveness.

İNNOVASİYA FƏALİYYƏTİNDƏ RƏQƏMSALLAŞMANIN XÜSUSİYYƏTLƏRİ

Amalya Arif qızı Rzayeva
amalya.rzayeva@adau.edu.az
Azərbaycan Dövlət Aqrar Universiteti

Hazırda rəqəmsallaşma sosial-iqtisadi xarakter almaqla genişmiqyaslı effekt yaratmaqdadır. Xüsusilə rəqəmsal innovasiyalar iqtisadiyyatda məhsulun yenilənməsində, proseslərin təkmilləşdirilməsində əsaslı rol oynayır. Qeyd etmək lazımdır ki, mövcud vəziyyət iqtisadi inkişafın əldə edilməsində rəqəmsal innovasiyaların texnoloji xüsusiyyətlərini və resurs imkanlarını nəzərə almağı tələb edir. Bu baxımdan rəqəmsal transformasiyanın təmin edilməsi üçün iqtisadiyyatın rəqəmsallaşdırılması və innovativ inkişafı ideyalarının həyata keçirilməsi bu sahədə potensialın və innovativ fəaliyyətin qiymətləndirilməsi, onların rəqəmsal formatında informasiya-kommunikasiya texnologiyalarından istifadə edərək fəaliyyət göstərən innovativ ekosistemlərə keçidi ilə əsaslandırılır.

İnnovasiya fəaliyyətində rəqəmsallaşmanın əsas xüsusiyyətləri, onların idarə edilməsi üsullarının müəyyənləşdirilməsi ilə bilavasitə bağlıdır. Rəqəmsal innovasiyaların, o cümlədən rəqəmsal informasiya texnologiyalarının istifadəsi ilə təmin edilən yeniliklər, rəqəmsal iqtisadiyyat səviyyəsində idarəetmə qərarlarının həyata keçirilməsini nəzərdə tutan iqtisadi struktur kimi müəyyən edilir [4, s.139]. Sosial-iqtisadi sistemin mürəkkəbliyi innovativ fəaliyyətləri aktivləşdirməyə və innovasiyaları həyata keçirməyə təşviq edir. Ümumiyyətlə, innovasiya fəaliyyətində rəqəmsallaşma iqtisadi artım və cəmiyyətin inkişafında əsas amil kimi özünü göstərir. Qeyd edilənləri nəzərə alaraq dövlət tərəfindən "rəqəmsallaşdırılmanın və innovasiyaların tətbiqinin genişləndirilməsinin, radiospektr idarəçiliyinin, rabitə və informasiya texnologiyalarının inkişafının, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsinin və sağlam rəqabət mühitinin formalaşdırılmasının, beləliklə də qeyd olunan sahələrdə keyfiyyətin artırılmasının, innovativliyin, investisiya cəlbediciliyinin və istehlakçıların maraqlarının qorunmasının təmin edilməsi" [1] məsələlərinə xüsusi önəm verilir.

Rəqəmsal innovasiyalar texnoloji imkanlar və institusional şərait arasında qarşılıqlı əlaqənin nəticəsi kimi də xarakterizə olunur və davamlı inkişaf məqsədlərinə nail olmaq üçün qlobal problemlərin həllində iştirakı ilə səciyyələnir.

Bu çərçivədə innovativ ideyalardan və resurslardan səmərəli istifadə etməklə innovativ inkişafa yönəlmiş tədbirlər kompleksi, müasir innovasiyanın rasional konsepsiyasına əsaslanır. İnovasiya prosesinə inteqrasiya olunmuş kommunikasiya vasitələrinin istifadəsi geniş yayılmışdır.

Rəqəmsal iqtisadiyyat, mövcud rəqəmsal formatda bilik və bacarıqların bir hissəsi kimi rəqəmsal səriştələrin formalaşmasını və idarəetmə qərarlarının həyata keçirilməsini nəzərdə tutan iqtisadi sistemlərin inkişafına əsaslanır. "Rəqəmsal iqtisadiyyat rəqəmsal texnologiyalara fokuslanan, yəni rəqəmsal və kompüter texnologiyalarına əsaslanan iqtisadiyyat kimi başa düşülür" [2, s.22]. İnnovasiyaların yaradılması konsepsiyası rəqəmsal iqtisadiyyatın formalaşmasında fəal şəkildə istifadə olunur və rəqəmsal mühitdə yeni xüsusiyyətlər əldə edir. Bu baxımdan yeni innovasiya modelləri daxili innovasiyanın intensivləşməsinə və innovativ nəticələrin genişləndirilməsinə imkan verir. Rəqəmsal innovasiyaların uğurla həyata keçirilməsində vahid informasiya məkanını formalaşdıran informasiya-kommunikasiya texnologiyaları xüsusi rola malikdir.

Rəqəmsal innovasiyanı, eyni zamanda zəruri təşkilati dəyişikliklərin həyata keçirilməsi prosesi kimi xarakterizə etmək olar. Məlumdur ki, innovativ fəaliyyət, müvafiq layihələr vasitəsilə həyata keçirilir. İnnovativ layihələrin idarə edilməsi, yeni məhsulun hazırlanmasına mərhələli yanaşmanın spesifik nümunəsidir [3, s.32]. İnnovativ rəqəmsal layihələrdə səmərəli nəticələr əldə etmək üçün innovativ layihələr bir çox aspektləri əhatə edir. Rəqəmsal innovasiyaların həyata keçirilməsi innovativ iş üsulları, innovativ səriştələr, innovativ məhsul və ya biznes prosesinə diqqət, daxili və xarici innovasiyalar, çeviklik və

nəzarət arasında tarazlığın əldə edilməsini nəzərdə tutur.

İnnovasiya fəaliyyətində rəqəmsallaşma, bütün sahələrdə inkişafı və prosesləri kökündən dəyişdirir, həmçinin məhsulun inkişafının sürətini və keyfiyyətini artırmağa, innovasiyaların tətbiqi şərtlərindəki dəyişikliklərə operativ reaksiya verməyə imkan verir. Rəqəmsal innovasiyaların hazırlanması prosesi bir sıra prinsiplərlə müəyyən edilir:

- innovasiyanın inkişafının onun həyat dövründə davam edən dinamik bir proses olması;
- müştəri təcrübəsini nəzərə almaqla, istehlakçı istəklərinə və onları müəyyən edən amillərə əsaslanaraq proseslərə düzəl.lərin edilməsi;
- proqram təminatının inkişafı üçün nəzərdə tutulmuş və digər sahələrə nüfuz edən metodologiyalardan istifadə etməklə elementlər üzrə həyata keçirilməsi;
- inteqrasiya olunmuş innovasiyaların həyat dövrünün rəqəmsal innovasiya layihələrinin risklərini azaltmağa kömək etməsi;
- hazırlanacaq məhsulun gözlənilən gəlirliliyinin artırılması və s.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında rəqəmsallaşma, innovasiya, yüksək texnologiyalar və rabitə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 11 oktyabr 2021-ci il tarixli fərmanı.

2. Qasimli V., Talibova M., Quliyeva G., Museyibov A., Mirzəyev F., Qədəşov A., Əhmədova G. "Rəqəmsal iqtisadiyyat" Bakı, "Azprint"nəşriyyatı, 2023, 262 s.

3 Бабич, О.В. Трансформация процесса управления предприятием в рамках становления цифровой экономики: монография / О.В. Бабич, И.В. Игольникова, Л.С. Митюченко, И.Г. Чернышова - Курск: ЗАО «Университетская книга», 2019. - 207 с.

4. Магомаева, Л.Р. Цифровые инновации в современной экономике: сферы внедрения и эффекты / Л.Р. Магомаева // Вестник Института экономики Российской академии наук. - 2020. - №2. - С. 137-146.

FEATURES OF DIGITALIZATION IN INNOVATION ACTIVITY

Rzayeva Amalya Arif qizi

amalya.rzayeva@adau.edu.az

Azerbaijan State Agricultural University

Digital technologies, becoming an important component of various functional areas in the modern era, open up great prospects for overall economic development. Digitalization in innovation activity has a serious impact on the acceleration of globalization, stimulates development and expands the boundaries of international economic integration. The application of digital technologies allows for the formation of more efficient interactions between participants in the innovation process, provides competitive advantages, optimizes the use of resources and increases the level of communication. All this brings management, production processes, and the application of innovations to a fundamentally different quality level.

Keywords: digitalization, innovations, efficiency, information technologies, quality.

AZƏRBAYCAN RESPUBLİKASININ DAYANIQLI SOSİAL-İQTİSADİ İNKİŞAFI

Aygün Alim qızı Hacıyeva
aygun-gadjieva@mail.ru
Validə İsa qızı Salıyeva
vsaliyeva@bk.ru
Nəsimi Əlipolad oğlu Abbaszadə
abbaszade.nesimi@mail.ru
Azərbaycan Dövlət Aqrar Universiteti

Bu gün dayanıqlı inkişaf bütün dünyada iqtisadi inkişafın əsası kimi qəbul edilmişdir. Azərbaycan Respublikasının dayanıqlı inkişafının təmin edilməsində digər sahələrlə yanaşı "Əsrin müqaviləsi"nin də böyük əhəmiyyəti vardır. Bu möhtəşəm hadisə ölkəmizin təbii resurslarına sahib olmaq haqqını bütün bəşəriyyətə bəyan etdi və bununla da milli və strateji maraqlarımızın qorumaq əzmini göstərdi. Məhz bunun nəticəsidir ki, ölkə iqtisadiyyatındakı dinamik proseslər güclənmiş, güclü sənaye potensialı yaranmış, sosial problemlərin həlli istiqamətində görülən tədbirlər öz bəhrəsini vermış və qeyri-neft sektorunun inkişafına diqqət artmışdır.

"Əsrin müqaviləsi" müstəqil Azərbaycanın mövcudluğu barədə dünyaya verdiyi ən mühüm bəyanatıdır. Dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə milli neft strategiyası formalaşdırılmışdır. Bu strategiya inkişaf etmiş dünya ölkələrinin aparıcı neft şirkətlərinin Xəzərdəki "Azəri-Çıraq-Günəşli " yatağının işləməsi üzrə paytaxt Bakıda 1994-cü ilin 20 sentyabrında imzalanan Əsrin müqaviləsindən başlanğıc almışdır. [1, s.206]

Əsrin müqaviləsi Azərbaycanın uzunmüddətli inkişafına əsaslı zəmin yaradıb. Bu gün məhz Əsrin müqaviləsinin sayəsində iqtisadiyyatımız sürətlə inkişaf edir. Ümummilli Lider Heydər Əliyevin başladığı islahatlar 2003-cü ildən sonra Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən ölkədə mühüm qlobal proqramlar, irimiqyaslı layihələr, müxtəlif sahələri əhatə edən çoxsaylı Dövlət Proqramları həyata keçirilməkdədir ki, bütün bunlar da ən ümdə məqsədə - Azərbaycan dövlətinin iqtisadi qüdrətinin, nüfuzunun artmasına, beynəlxalq aləmdə ədalətli mövqeyinin təmin olunmasına və ən başlıcası ölkədə həyat səviyyəsinin yüksəldilməsinə xidmət edir.

Regionların sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədiylə Prezident İlham Əliyev tərəfindən 2004-cü ildən başlayaraq silsilə Respublika Regionlarının Sosial-İqtisadi inkişafına dair Dövlət Proqramları (2004-2023) qəbul edilmişdir. Proqramlarda əsasən, ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi, infrastrukturun yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi, sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi, özəl sektorun inkişafının daha da sürətləndirilməsi, ixracyönümlü məhsul istehsalının stimullaşdırılması, müasir tipli infrastruktur obyektlərinin yaradılması, əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması, yoxsulluğun səviyyəsinin azaldılması və digər mühüm tədbirlər nəzərdə tutulub.Bu proqramların nəticəsi olaraq, 2003-cü ildən 2019-ci ilədək bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. Bu 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır. Yoxsulluq təxminən 50 faizdən 4,8 faizə düşmüşdür. Son 16 ildə orta əməkhaqqı 11 dəfə, orta pensiya 8 dəfə artmışdır, 300 mindən çox məcburi köçkünə, 6700 şəhid ailəsinə evlər, mənzillər verilmişdir. [2]

Respublikamızda uğurla həyata keçirilən davamlı inkişaf strategiyasının mühüm tərkib hissələrindən biri olan Regionların Sosial-İqtisadi inkişafına dair Dövlət proqramları ölkəmizin sosial- iqtisadi həyatının bütün sahələrində ciddi inkişaf dinamikasına və keyfiyyət dəyişikliyinə təkan verən strateji sənəd olmuşdur. [4, s.30]

Ölkəmizdə son illərdə həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də əmək bazarının inkişafı və işçi qüvvəsindən səmərəli istifadə edilməsidir.

Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2023-cü ildə ölkədə işçi

qüvvəsinin sayı 2010-cu illə müqayisədə 662,3 min nəfər artaraq 5249,7 min nəfər olmuş, onların da 4963,3 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 286,4 min nəfərini isə işsiz əhali təşkil edir. Son illər ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2010-cu ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 26,4 faizini təşkil edirdisə, 2023-cü ildə bu göstərici 21,4 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,2 dəfə artmışdır.2023-cü ildə istehsal sahələrində (kənd təsərrüfatı və balıqçılıq, sənaye, tikinti) 2554,4 min nəfər və ya iqtisadiyyatda məşğul olanların ümumi sayının 51,5 faizi qədər işçi çalışmış, xidmət sahəsində isə məşğul olanların sayı 2408,9 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 48,5 faizini təşkil emişdir.2023-cü ildə iqtisadiyyatda məşğul olan əhalinin ümumi sayından 1745,5 min nəfəri və yaxud 35,2 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.2010-2023-cü illər ərzində muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı 2,8 dəfə artaraq 933,9 manat təşkil etmişdir. [6]

Müstəqil Azərbaycanı müasir, güclü, davamlı iqtisadi inkişafa malik dövlətə çevirmək üçün Heydər Əliyev gələcəkdə siyasi, iqtisadi islahatların köklü transformasiyasının əsası olacaq neft strategiyasını müəyyənləşdirdi. Bu, xarici sərmayədarların Azərbaycanın neft yataqlarının işlənilməsinə cəlb edilməsini, xam neftin daşıma yollarının şaxələndirilməsini, neft gəlirlərinin səmərəli şəkildə idarə olunmasını və ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoymasını təmin etdi. [5]

Beləliklə, Əsrin müqaviləsinin imzalanması sosial-iqtisadi inkişafla, eyni zamanda, əhalinin həyat şəraitinin yaxşılaşması ilə bərabər ölkədə yeni texnologiyaların tətbiqinə və hərbi qüdrətinin artırılmasına səbəb olmuşdur. Azərbaycan Respublikası Ümummilli Lider Heydər Əliyevin yaratdığı təməl üzərində hərtəfəfli və dinamik inkişaf edir.

ƏDƏBİYYAT

1. Abbasova Y, Qəmbərova R. Azərbaycan iqtisadiyyatı. Gəncə. 2017. 327 s.
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının I ilinin yekunlarına həsr olunan konfrans. 3 fevral 2020ci il
3. Əhmədova S. Azərbaycan iqtisadiyyatı. Metodiki vəsait. Bakı. 2015. 90 s.
4. "Əsrin müqaviləsi" - Azərbaycanın sürətli iqtisadi inkişafının təməli kimi. https://www.yeniazerbaycan.com/Siyaset_e17909_az.html
5. Müstəqil Azərbaycanın inkişafının təməli - "Əsrin müqaviləsi". Respublika qəzeti. 2023 https://respublika-news.az/az/news/
6. Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi saytı. www.stat.gov.az

SUSTAINABLE SOCIO-ECONOMIC DEVELOPMENT OF THE REPUBLIC OF AZERBAIJAN

Aygun Alim gizi Hajiyeva
aygun-gadjieva@mail.ru
Valide Isa gizi Saliyeva
vsaliyeva@bk.ru
Nasimi Alipolad oglu Abbaszade
abbaszade.nesimi@mail.ru
Azerbaijan State Agricultural University

Sustainable development is now a global foundation for economic growth. In Azerbaijan, the "Contract of the Century" plays a key role in this process. It affirmed the country's sovereign right to its natural resources and highlighted its commitment to national interests. As a result, economic growth accelerated, industrial capacity expanded, social reforms progressed, and focus on the non-oil sector increased.

Keywords: socio-economic development, contract, reform, national wealth, oil strategy.

AZƏRBAYCAN BANKLARINDA MÜŞTƏRİ MƏMNUNİYYƏTİNİ ARTIRMAQ ÜÇÜN MARKETİNQ SİYASƏTİ

Xatirə Vəli qızı Qurbanova
xatira-yusif@mail.ru
Səkinə Nəcəfqulu qızı Sadıqzadə
sekinesadiqzade288@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Azərbaycanda iqtisadi inkişafın mövcud mərhələsi bank sistemi, eləcə də bank və qeyri-bank maliyyə qurumları arasında artan rəqabətlə xarakterizə olunur. Bu rəqabət, sözügedən qurumların fəaliyyətlərini şaxələndirməsinə və bank məhsullarının yaradılması sahəsində innovativ texnologiyaların tətbiqinə təkan verir. Bankların maliyyə bazarlarında baş verən proseslərə uyğunlaşması və rəqabət qabiliyyətinin artırılması üçün isə effektiv idarəetmə strategiyasının mühüm tərkib hissəsi olan marketinq siyasətinin düzgün formalaşdırılması zəruridir. [1]

Bank marketinqi, hədəf müştərilərin ehtiyaclarını maksimum dərəcədə təmin edə biləcək xidmətlərin planlaşdırılması və həyata keçirilməsinə yönəlmiş kompleks bir strateji yanaşma kimi qəbul edilir. Bu yanaşma, bank məhsulları, müştəri gözləntiləri və rəqiblərin fəaliyyəti ilə sıx əlaqədə olmaqla, banklar, müştərilər və cəmiyyət arasında qarşılıqlı faydaya əsaslanan mühüm bir əlaqə qurur. Bank marketinqi, yalnız xidmətlərin təşkili deyil, eyni zamanda müştəri məmnuniyyətini artırmağa və rəqabət üstünlüyü əldə etməyə yönəlmiş effektiv vasitədir. [2]

Müştərilər, ehtiyaclarının müxtəlif aspektlərini həll etmək üçün bir neçə bank və ya şirkətlə əməkdaşlıq etməyi arzulamırlar. Onlar üçün ideal vəziyyət, bütün xidmətlərin vahid bir mərkəzdə, peşəkar mütəxəssislər tərəfindən və ya daha yüksək ixtisasa malik ekspertlərin iştirakı ilə təmin olunmasıdır. Bu səbəbdən, müştərilər, ehtiyac və arzularını maksimum səviyyədə qarşılamağı öhdəsinə götürən bankları seçirlər. Buraya kredit kartları, çeklər, akkreditivlər, veksellər və digər bank alətləri ilə yanaşı, faktorinq, maliyyə lizinqi, müştəri risklərinin idarə olunması kimi xidmətlər daxildir. Bu alətlər nə qədər çox və funksional olarsa, onların hər birinin müştəri üçün faydası bir o qədər açıq şəkildə hiss olunur. Bankın təklif etdiyi xidmətlərin çeşidi və keyfiyyəti nə qədər yüksəkdirsə, müştərinin həmin bankla əməkdaşlıqdan məmnuniyyəti də bir o qədər artır. [3]

Beləliklə müasir dövrdə müəssisələrin əsas hədəfi mövcud müştərilərlə davamlı əlaqəni qorumaq və fəaliyyət sahələrini genişləndirməkdir. Bugünkü bazar şəraitində hər bir müştərini cəlb etmək üçün şirkətlər xeyli resurs sərf edir. Sərt rəqabət mühitində, müəssisələrin uğur qazanması üçün atmalı olduqları ən önəmli addımlardan biri mövcud müştərilərin uzunmüddətli bağlılığını təmin etməkdir. Bu məqsədə çatmaq üçün isə şirkət, müştərilərin bütün ehtiyaclarını hərtərəfli şəkildə qarşılamağa diqqət yetirməlidir. [4]

ƏDƏBİYYAT

1. Əliyev S. "Bank fəaliyyətində marketinq idarəetmə sistemi". İpək yolu. 2019. №4. s.40-47
2. Məmmədov Z.F. "Bank işi". Dərslik. Bakı. "Azərnəşr". 2016. 1100 s.
3. Викторович П.А., Валентина П.А., Алимова И.О. "Совершенствование качества банковского сервиса. Финансы и кредит". №6. 2016. с. 2-13
4. Gülsüm Ç. Müşteri İlişkileri Yönetiminin Önemi ve Etkisi Üzerine Bir Çalışma: Eskişehir Sanayi Odası ATAP A.Ş. Örneği Sosyal Bilimler Elektronik. №12. 2015. s.159-184

MARKETİNG POLİCY TO İNCREASE CUSTOMER SATİSFACTİON İN AZERBAİJANİ BANKS

Khatira Veli gizi Gurbanova
xatira-yusif@mail.ru
Sakina Najafqulu gizi Sadigzade
sekinesadiqzade288@gmail.com
Azerbaijan Technological University

Customers increasingly prefer to access all banking services in one place, provided by professional specialists. As a result, banks should prioritize enhancing customer satisfaction and loyalty by offering a broader and more comprehensive range of services. To thrive in a highly competitive market, banks must focus on attracting new customers while nurturing long-term relationships with existing ones. This strategy fosters mutual benefits for both the customers and the banks.

Keywords: bank, customer, policy, service.

AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ STATİSTİK TƏDQİQİ

Şahin Bəyçoban oğlu Mustafayev
shahin.mustafayev@stat.gov.az
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin
Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi

Kənd təsərrüfatı ölkənin iqtisadiyyyatının vacib sahəsi olub, əhalini yerli ərzaq məhsulları, sənaye sahələrini xammalla təmin etməklə yanaşı əhalinin işsizlik problemini həll edir. Kənd təsərrüfatı məhsullarının istehsalının və onun iqtisadi səmərəliyinin artırılmasına təsir edən ən mühüm amillərdən biri də kənd təsərrüfatı bitkilərinin altında olan əkin sahələrinin və heyvandarlığın məhsuldarlığının yüksəldilməsidir.

Kənd təsərrüfatı məhsullarının istehsalının artırılması əkinə yararlı torpaq sahələrinin keyfiyyət parametrlərindən, suvarılan əkin sahələrinin artırılması və suvarma sisteminindən, kənd təsərrüfatı istehsalına texniki xidmətin keyfiyyətinin və təşkilinin yaxşılaşdırılmasından, keyfiyyətli və məhsuldar toxum sortlarının seçilməsi və rayonlaşdırılmasından və s. amillərdən asılıdır.

Əhalinin həyat səviyyəsi əsaslı dərəcədə kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişaf səviyyəsi, milli sərvətin həcmi və strukturu, ümumi milli məhsulun həcmi və istifadəsi, gəlirlərin bölüşdürülməsi və yenidən bölüşdürülməsinindən asılıdır. Həyat səviyyəsi, hər şeydən əvvəl, ərzaq məhsullarının istehlak göstəriciləri ilə də müəyyən edilir və hər bir vətəndaşın, hər bir ailənin və bütövlükdə cəmiyyətin istehlak etdiyi ərzaq məhsulları və digər maddi nemətlərin həcmi və strukturu onların sərəncamında olan resurslar əsasında formalaşır. İqtisadi təhlükəsizliyin əsas amillərindən biri də arzaq və qida təhlükəsizliyidir ki, bu amil ölkədə kənd təsərrüfatının inkişafını şərtləndirir.

İqtisadi inkişafın müxtəlif mərhələlərində, habelə dünyanın ayrı-ayrı ölkələrində həyat səviyyəsinin strukturunun müxtəlifliyi təbii bir haldır. İnkişaf etmiş ölkələrdə istehlakın struk-turunu istehsal müəyyən etmir, əksinə tələbatın parametrləri istehsalın strukturunu müəyyən edir (Bazar iqtisadiyyatının tələb və təklif prinsipinə əsaslanaraq, yəni istehsal istehlakı yox, əksinə istehlak istehsalı şərtləndirir). Bununla da, ölkənin məhdud resurslarından səmərəli istifadə edilməlidir. Səmərəlilik isə son nəticədə iqtisadi inkişafı təmin edir.

Ölkədə əhalinin artması, təbii ehtiyyatların (torpaq, su, iqlim, enerji mənbələri, meşə resursları və s.) tükənməsi və çirklənməsi öz təsirinin ərzaq məhsullarının, o cümlədən starateji ərzaq növləri olan kənd təsərrüfatı məhsullarının istehsalına və istehlakına təsir göstərməkdədir. Ona görə əhalinin sayının, kənd təsərrüfatı məhsullarının istehsalını və istehlakını düzgün proqnozlaşdırılmasına tələbatı yaranır.

Proqnozların keyfiyyəti öz növbəsində müasir elmi metod və müasir innovativ, rəqəm-sal texnologiyaların tətbiqini şərtləndirir. Təhlillər göstərir ki, keyfiyyətli proqnozlar statistik model və metodlardan istifadə vasitəsi ilə tərtib edilməlidir. Statistik təhlilin müasir statistik metod və modellər vasitəsi ilə aparmaq üçün SPSS, STATA, SAS, R, Exsel proqram

sistemlərinə və irihəcmli məlumat bazalarına ehtiyac vardır.

Qeyd etmək lazımdır ki, ölkədə ərzaq istehlakının həcmini müəyyənləşdirmək üçün ev təsərrüfatlarına ayrıca bir sektor kimi yanaşılmalı və onun statistikası təşkil edilməlidir. İnkişaf etmiş ölkələrdə ÜDM ev təsərrüfatı və digər institusional sektorların (dövlət, maliyyə və digər) məlumatı əsasında hesablanır. Milli hesablar sisteminin əsas göstəriciləri (ÜDM, aralıq istehlak, son istehlak, əlavə dəyər və digər göstəricilər) ev təsərrüftı sektorunun statistik tədqiqatı nəticəsində əldə olunur. Bu sektorun payı ölkədə dövlət sektoruna nisbətən müqayisə olunmaz dərəcədə çoxdur. Çünki, bu sektorda çalıçanların xüsusi çəkisi də böyükdür.

2023-cü ildə kənd təsərrüfatında bütün kateqorialar üzrə bütün məşğul əhalinin 35,8%-i cəmləşmişdir. Azərbaycanda istehsal edilən ÜDM 5,5 % (2023) kənd təsərrüfatının payına düşür. 2022-ci ildə respublikada ÜDM-də kənd təsərrüfatının payı 4.6% olduğu halda, 2023-cü ildə bu rəqəmin 5.5% təşkil etmişdir. 2023-cü ildə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 12210,6 milyon manat olmuşdur. 2023-cü ildə 3248,6 min tona yaxın dənli və dənli paxlalı bitkilər (taxıl) istehsal olunmuş, bu da 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çoxdur. Həmçinin 2023-cü ildə sahələrdən 1010,5 min ton və ya əvvəlki ilə nisbətən 5,9 faiz az kartof, 1825,6 min ton və ya 0,1 faiz çox tərəvəz, 438,2 min ton və ya 6,6 faiz az bostan məhsulları, 1261,3 min ton və ya 0,7 faiz çox meyvə və giləmeyvə, 1123,8 ton və ya 12,3 faiz çox yaşıl çay yarpağı, 224,5 min ton və ya 5,6 faiz çox üzüm yığılmışdır.[1]

Cədvəl1


2017-2023-cü illərdə Azərbaycanda kənd təsərrfatı məhsullarının istehsalı, (min ton) [1]

	2017	**2018**	**2019**	**2020**	**2021**	**2022**	**2023**
Dənli paxlalı bitkilər (taxıl)	2928.8	3309.2	3538.5	3257.1	3363.0	3161.3	3248.6
Kartof	913.9	898.9	1004.2	1037.6	1062.0	1074.3	1010.5
Bostan məhsulları	438.1	401.9	447.6	448.1	459.9	469.3	438.2
Meyvə giləmeyvə	954.8	1010.8	1099.7	1133.1	1204.9	1253.1	1261.3
Yaşıl çay yarpağı	0.78	0.87	0.93	0.93	1.18	1.00	1.12
Üzüm	152.8	167.6	201.8	208.0	209.8	212.6	224.5
Pambıq	207.5	233.6	295.3	336.8	287.0	322.5	276.3
Tütün	5.3	6.3	6.0	6.9	6.4	5.1	6.3
Şəkər çuğunduru	410.1	277.2	218.5	233.8	177.3	210.6	206.1

Cədvəldən 1-dən göründüyü kimi, 2017-ci illə müqayisədə 2023-cü ildə Dənli paxlalı bitkilər (taxıl) istehsalı 2928.8 min tondan 3248.6 min tona (10.9%), Kartof 913.9 min tondan 1010.5 min tona (10.6%), Bostan məhsulları 438.1 min tondan 438.2 min tona (0.03%), Meyvə giləmeyvə 954.8 min tondan 1261.3 min tona (32.1%), Yaşıl çay yarpağı 0.78 min tondan 1.12 min tona (44.9%), Üzüm 152.8 min tondan 224.5 min tona (46.9), Pambıq 207.5 min tondan 276.3 min tona (33.1%), Tütün 5.3 min tondan 6.3 min tona (19.2%) yüksəlmişdir. Şəkər çuğunduri 410.1 min tondan 206.1 min tona (49.7%) azalmışdır.


İllər	İribuynuzlu mal-qara	Qoyun və keçilər	Quşlar	Donuzlar
2017	2698.5	8614.8	28009.5	4.4
2018	2673.0	8454.3	30473.4	4.9
2019	2658.8	8304.1	30498.4	5.5
2020	2646.6	8189.2	32230.2	5.7
2021	2650.7	8089.7	30175.8	5.9
2022	2648.8	7899.7	29623.9	6.0
2023	2618.1	7751.7	29794.8	5.1

Cədvəl 2. 2017-2023-cü illər üzrə yanvarın 1-i vəziyyətinə heyvanların və quşların sayı, min baş (bütün təsərrüfat kateqoriyaları üzrə) [3]



Şəkil 1. Azərbaycanda kənd təsərrfatı məhsullarının istehsalı

Cədvəl 2-nin məlumatlarından aydın olur ki, son 7 ildə mal-qara və qoyun, keçi baş sayında xeyli azalma var. 2017-ci illə müqayisədə iribuynuzlu mal-qara 80 min 400 baş və ya 2.9 faiz, qoyun və keçilər 863 min 100 baş və ya 10.0 faiz azalmışdır. Donuzlar 0.7 min baş və ya 15.9 faiz, quşlar 1785 min 300 baş və ya 6.4 faiz artmışdır. Qoyun və keçilərin baş sayında azalma daha çoxdur. Əgər 2017-ci il 1 yanvar vəziyyətinə 8614.8 min baş qoyun və keçi mövcud olmuşdursa, hazırda bu rəqəm 7751.7 min başa enmişdir. [3]



Şəkil 2. 2017-2023-cü illər üzrə yanvarın 1-i vəziyyətinə heyvanların və quşların sayı

ƏDƏBİYYAT

1. https://az.wikipedia.org/wiki/Az%C9%99rbaycanda_k%C9%99nd_t%C9%99s%C9%99rr%C3%BCfat%C4%B1
2. https://www.stat.gov.az/source/agriculture/
3. Azərbaycanın kənd təsərrüfatı. İllik məcmuə. Bakı. 2024
4. https://stat.gov.az/pdf/magazine/jurnal-n3-tam-hazir986.pdf
5. İslam İbrafimov.Ətraf müfitin iqtisadiyyatı.Bakı. 2015. 357 s.
6. "Statistika Xəbərləri". Elmi-praktik jurnal. 4/2016, 3/2024

STATISTICAL SURVEY OF AGRICULTURE IN AZERBAIJAN

Shahin Beychoban oglu Mustafayev
shahin.mustafayev@stat.gov.az
Center for Scientific Research and Statistical Innovations of the State Statistical Committee of the Republic of Azerbaijan

Agricultural production plays a pivotal role in securing a nation's food supply. This study conducts a sectoral analysis of our country's agricultural output from 2017 to 2023, detailing production volumes of key crop and livestock categories. Empirical data are synthesized in two tables and two figures, and the paper concludes with targeted recommendations to address prevailing challenges and enhance sectoral resilience.

Key words: food security, GDP, intermediate consumption, final consumption, added value, import, reserves.

THE IMPACT OF TECHNOLOGICAL ADVANCEMENTS ON INTERNATIONAL TRADE AND FINANCE

Adil Arif oglu Tagiyev
agge@mail.ru
Basti Nariman gizi Jafarova
besticeferova1996@gmail.com
Azerbaijan Technological University

The transformation of trade and international finance due to technological progress is largely guided by the improvements of communication methods. The proliferation of the Internet and mobile technologies has allowed companies to conduct transactions and communicate in real time, effectively reducing the geographical barriers that had previously hindered international trade. This shift is underlined by the opinion that "long - term trends in international trade are significantly influenced by new technologies". [1] Consequently, the flow of information has accelerated drastically, allowing faster decision - making processes and greater collaboration between the parties interested in the world.

In addition, the refinement of digital marketing strategies, has led to greater integration of international marketing in corporate operations. This integration not only improves the global scope of a company, but also allows a tailor -made approach for several markets, promoting the commitment of consumers who transcend cultural and linguistic barriers. The digital panorama allows companies to segment their audience and customize their messages, thus increasing the effectiveness of international marketing campaigns and facilitating the cultivation of relations with consumers in different regions. [4]

Improved communication tools have catalyzed the changes not only in the involvement of customers, but also in the negotiation processes related to international trade. The capacity for immediate exchange of information is vital for the parties in the negotiation scenarios, allowing a more agile response to changing market dynamics or regulatory environments. Real -time communication facilitates discussions and settlements that can adapt to fluidity under current conditions, which is particularly important in an era in which economic volatility is on the agenda. [2]

In addition to traditional communication progress, emerging technologies such as Blockchain are ready to redefine the panorama of international commercial agreements Blockchain technology could further increase communication by offering unparalleled safety and transparency. The decentralized nature of the blockchain allows the unchangeable recording of transactions, which can help mitigate the issues relating to trusted fraud and deficits, a common obstacle in cross -border trade. Ensure that all parties have access to the same verified data, Blockchain promotes a more collaborative environment and can simplify complex contractual agreements that often accompany international transactions. [3]

The rapid progress of communication technologies not only promotes efficiency, but also introduces new regulatory challenges that must be navigated within a globalized economy. Since companies are based more and more on digital platforms and tools, regulators have the task of developing paintings that host these innovations without suffocating growth or compromising consumer protection. Data privacy issues, computer security and transfrontier regulations are increasingly relevant, which require an underway dialogue between companies, legal entities and regulatory bodies.

Therefore, while the technological progress in communication have undeniably transformed international trade and finance by improving operational efficiency and market access, have simultaneously introduced levels of complexity that require solid regulatory responses. The evolving landscape underlines the need for the interested parties to continually adapt to the rapid rhythm of the change, ensuring that the benefits of technology can be exploited effectively, mitigating potential disadvantages in a highly

interconnected global economy. The logistics of international trade has evolved significantly due to technological innovations, allowing more efficient management of the supply chain. Automation, the Internet of Things (IoT) and advanced data analysis stimulate the efficiency of logistics operations, making transport faster and more reliable. "Industry 4.0 has created new dynamics in global value chains", facilitating the optimization of logistics processes and allowing companies to quickly respond to market requests. This paradigm shift is characterized by the integration of intelligent technologies that improve visibility and control of supply chains. [5]

Keywords: technology, international trade, digital finance, globalization.

REFERENCES

1. Bekkers E., Koopman B. and Teh R. 2018. Long run trends in international trade. The impact of new technologies.
2. Doole I., Lowe R. and Kenyon A. 2019. International marketing strategy: analysis, development and implementation.
3. Ganne E. Can Blockchain revolutionize international trade Geneva: World Trade Organization. 2018. p. 152
4. Kotabe M.M. and Helsen K. Global marketing management. John Wiley & Sons. 2022.
5. Strange R. and Zucchella A. Industry 4.0, global value chains and international business. Multinational Business Review. 25(3). 2017. pp.174-184

THE INTERPLAY OFI MILITARY EXPENDITURE AND ECONOMIC DEVELOPMENT IN THE SOUTH CAUCASUS: A SUMMARIZED REVIEW

Tural Faig oglu Rustamov
t.rustamov@atu.edu.az
Azerbaijan Technological University

This thesis investigates the intricate relationship between military expenditure and economic development in Azerbaijan, Georgia, and Armenia through a literature review approach. By examining theoretical perspectives and empirical findings from global and regional studies, it assesses how the South Caucasus's distinct geopolitical context, protracted conflicts, and resource dynamics shape this nexus. The study aims to synthesize existing research, highlight gaps, and offer insights into sustainable development challenges in a security-driven environment.

1. Introduction. The South Caucasus (Azerbaijan, Georgia, and Armenia) has faced significant post-Soviet instability and conflict, leading to substantial military spending. This review examines the impact of this spending on economic development, considering whether it stimulates growth or diverts resources. The context of ongoing conflicts and varied resource endowments means the impact likely differs across these nations.

2. Theoretical Frameworks

The relationship is viewed through several lenses:

- **Keynesian:** Military spending can boost demand, output, and employment, potentially fostering innovation.
- **Neoclassical:** It can "crowd out" private investment by diverting capital and labor from productive civilian sectors, hindering long-term growth.
- **Benoit Hypothesis:** Suggested a positive link in developing countries via training, unity, and infrastructure, though this is debated.
- **Feder-Ram Model:** Impact depends on externalities; positive if it brings technological spillovers or enhances security for investment, negative if resources are merely diverted.

● **Conflict Contexts:** Security spending may be vital for survival and economic activity in conflict zones, but prolonged conflict and high spending can create "war economies" and divert development resources.

3. Empirical Evidence: A Mixed Picture

Global studies show mixed results:

● **Negative:** Many studies find military spending harms growth by reducing savings, investment, and diverting skilled labor.

● **Positive:** Some studies find a positive link under specific conditions like underutilized capacity or significant spillovers.

● **No Significant/Ambiguous:** Other research finds no clear link or a highly conditional one, suggesting effects may cancel out or be too small to detect.

4. Military Expenditure and Economic Development in the South Caucasus

The region's context of protracted conflicts, varied economies, and resources is unique.

●**Azerbaijan:** Uses oil/gas wealth for significant military modernization. While crucial for the 2020 Nagorno-Karabakh war, the long-term economic sustainability is questioned, especially with fluctuating oil prices and potential resource curse" effects. Oil-funded military spending shows limited direct positive spillover to sustainable non-oil sector development. The opportunity cost of military investment versus diversification and human capital is high.

●**Georgia:** Faces unresolved conflicts and a complex relationship with Russia. Military spending fluctuates based on geopolitics and external aid, linked to its NATO/EU aspirations and defense reforms. Security is seen as necessary for leveraging its transit and tourism potential, but tensions disrupt activity and divert resources.

●**Armenia:** Landlocked with limited resources and strained relations. It allocates a large GDP share to defense. Economic blockades constrain development. High military spending, though seen as vital for security, likely diverts scarce resources from key sectors like technology and infrastructure, limiting growth. The "security dilemma" forces a trade-off where existential threats outweigh purely economic concerns.

Regional Dynamics: An arms race, particularly between Armenia and Azerbaijan, traps countries in high spending. External actors also influence decisions. Literature often highlights security's primacy in fiscal priorities, calling for more econometric research on trade-offs.

5. Gaps in the Literature and Future Research

Key gaps for the South Caucasus include:

●Lack of rigorous econometric studies on the causal link between military spending and development.

●Limited disaggregated analysis of different types of military expenditure.

●Underexplored technological/infrastructural spillovers.

●Insufficient understanding of how conflict intensity affects economic impact.

●Limited research on governance/institutions (e.g., corruption).

●Insufficient analysis of a potential "peace dividend."

6. Conclusion

The link between military spending and economic development is complex and context-dependent, especially in the volatile South Caucasus with its protracted conflicts. For Armenia, Azerbaijan, and Georgia, military spending is strongly tied to national security, often prioritizing it over purely economic factors.

Azerbaijan's oil wealth funds significant military investment, but sustainability and opportunity costs are concerns. Armenia bears a heavy defense burden due to resource limits. Georgia balances security challenges with Western economic integration goals.

Existing literature suggests high military spending driven by security dilemmas likely burdens the South Caucasus economies by diverting resources. However, the perceived need for security provides a strong rationale. Future research needs nuanced, empirically robust regional analysis to help policymakers balance security needs with sustainable development for a more prosperous and peaceful future.

Keywords: Military Expenditure, Economic Development, South Caucasus, Azerbaijan, Georgia, Conflict Economies, Resource Curse, Security-Development Nexus.

MÜHASİBAT İŞİNİN TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xatirə Vəli qızı Qurbanova
x.gurbanova@atu.edu.az
Allahverdi Çingiz oğlu Qarayev
Mircavad Mikamil oğlu Agayev
Azərbaycan Texnologiya Universiteti

Məqalədə mühasibat uçotunun təşkilinin metodologiyası və istiqamətləri ardıcıl olaraq açıqlanır, müxtəlif mülkiyyət formalarına malik müəssisələrdə mühasibat uçotunun xüsusiyyətləri araşdırılır, idarəetmə uçotu vasitələrinin təkmilləşdirilməsi məsələləri üzrə tövsiyələr, informasiya və analitik mühasibat hesabatının imkanları, fəaliyyət nəticələrinin təhlilinin təşkili və üsulları, kompüterləşdirmə sahəsində mühasibat uçotunun təşkili, habelə mühasibat uçotunun və hesabatlılığın Beynəlxalq Standartlara keçirilməsi istiqamətində respublikada görülən işlər təhlil edilir, bu işlərin uğurla həyata keçirilməsi üçün konkret təkliflər verilir.

Demək olar ki, bu məqalə Azərbaycanda mühasibat uçotunun təşkilinin nəzəri əsaslarına və istiqamətlərinə həsr olunmuş ilk elmi əsərdir.

Fəaliyyətə yenicə başlamış sahibkarlar üçün mühasibat uçotunun təşkili və hesabatlılığın düzgün aparılması problemlər yarada bilər. Sirr deyil ki, bazara yenicə daxil olmuş sahibkarlar üçün yaradıcı ideyaların irəli sürülməsi ilə bərabər, mühasibat uçotunun təşkili, eləcə də, hesabatlılığın düzgün aparılması və müvafiq dövlət orqanlarına vaxtında təqdim olunması "başağrısı" yaradır.

Mühasibat uçotu sisteminin quruluşu, şirkətin uçot siyasətinin düzgün şəkildə işlənib hazırlanmasına və optimal şəkildə aparılmasına şərait yaradan kompleks tədbirlərin həyata keçirilməsindən ibarətdir. Bu, müəssisənin düzgün və effektiv işinin əvvəlcədən qurulmasına və bu zaman daxil olan məlumatların vaxtında emal edilməsinə və bütün zəruri operativlik prinsiplərinə riayət olunmasına imkan yaradır. [1]

Şirkət rəhbəri, bu prosesin həyata keçirilməsinin üç üsulundan birini seçə bilər: onu şəxsən apara, ştata mühasib (mühasiblər qrupu) qəbul edə yaxud mühasibat uçotunun kənardan aparılması (autsorsinq) xidmətindən istifadə edə bilər. Biznesin müşayiət edilməsinin bir çox tərkib hissələrindən ibarət olduğunu nəzərə alınarsa (buraya ilkin sənədlərin təhlilini, uçot siyasətinin işlənib hazırlanmasını və aparılmasını, ilkin mühasibat uçotunun qurulmasını, qanunvericilikdə nəzərdə tutulmuş mühasibat və vergi hesablaşmalarının tərtib olunmasını və təhlil verilməsini, əməkhaqqının uçotunu, hesabatların tərtib olunmasını və vergi orqanlarına vaxtında təqdim edilməsini və s. aid etmək olar) bir çox sahibkar bu cür işin icrasını təmin edə bilməz. Buna görə də birinci üsul dərhal istisna edilir.

Araşdırmalar göstərir ki, mühasibat işinin əsas obyekti kimi uçotun təşkili prosesi nəzərdə tutulur. Mühasibat işinə, mühasibat uçotu hesablarında iqtisadi əlamətlərinə görə qruplaşdırılan təsərrüfat fəaliyyətinin faktları haqqında informasiyaların ümumiləşdirilməsi aiddir. Eyni zamanda uçot informasiyalarına, mühasibat hesabatı, sənədləşmə, iqtisadi fəaliyyət və hadisə haqqında inventarlaşma məlumatları, təşkilatın fəaliyyətinin mərhələləri və işgüzar fəallığın müxtəlif göstəriciləri də mühasibat işi obyektlərinə daxil edilə bilər.

Uçota dair ədəbiyyatlarda mühasibat uçotunun obyektləri arasındakı qarşılıqlı əlaqə, ümumi anlayışları xüsusi anlayışlara bölmək yolu ilə xarakterizə olunur. Belə ki, maliyyə hesabatını mühasibat balansının müxtəlif maddələri şəklində və yaxud digər formalarda, maddələrin mahiyyətini isə mühasibat uçotunun hesabları qismində təssəvvür etmək olar. [3]

Hesabların qarşılıqlı əlaqəsinin əsasını təssərüfat fəaliyyətinin faktları təşkil edir. Bu da son nəticədə mühasibat işinin obyektinə çevrilir.

Mühasibat işinin əsas obyekti qismində təsərrüfat fəaliyyəti faktlarının tanınması, təşkilatın fəaliyyəti haqqında necə bir informasiya daşıyıcısı kimi sənədləşməni və maliyyə hesabatını fərqləndirməyə imkan verir. Mühasibat işinin predmetinin xüsusiyyətləri, təsərrüfat fəaliyyətinin faktları baş verdikdə uçot prosesinin və uçot fəaliyyətinin təşkili ilə əlaqədar onun məqsədlərindən irəli gəlir. Uçot prosesinin son məhsulu kimi analitik və sintetik uçotun registrləri, balans və hesabat çıxış edir. Uçot fəaliyyətinin məqsədi-mövcud təsərrüfat situasiyalarının təhlilini aparmaqdan, konkret qərarların hazırlanmasından, habelə onun yerinə yetirilməsinə nəzarətin təşkilindən ibarətdir. Mühasibat işinin obyekti və predmeti onun metodunu müəyyənləşdirir.

Mühasibat işinin digər bilik sahələrindəki yerini müəyyənləşdirəndə, biz etiraf etməliyik ki, özünün mahiyyətinə görə, o, ən geniş mənada bir sıra elmlərin tərkib hissəsidir. Mühasibat işi maliyyə və idarəetmə uçotu, audit, iqtisadi təhlil, məlumatların işlənilməsinin kompyuter sistemi, sahibkarlıq (biznes) iqtisadiyyatı, mülki hüquq, kreditləşmə, bank işi, vergi qanunvericiliyi və s. sahələrdə biliyin olmasını tələb edir. Azərbaycan Respublikasının qanunvericiliyi, təşkilatlarda mühasibat (maliyyə) uçotunun aparılmasını nəzərdə tutur. Lakin idarəetmə qərarlarının qəbulu üçün idarəetmə uçotunun təşkilinin zəruriliyi heç bir şübhə doğurmur. Dünya praktikasında həmin məsələyə müxtəlif cür yanaşmalar mövcuddur. Məsələn, Almaniyada idarəetmə və maliyyə uçotu üçün ayrıca Hesablar Planı mövcuddur. ABŞ-ın uçot praktikasında idarəetmə uçotu maliyyə uçotunun tərkibində ayrıca blok şəklində nəzərdə tutulur. Fransada iki Hesablar Planından (maliyyə və idarəetmə) istifadə olunur. Onların arasındakı qarşılıqlı əlaqə isə xüsusi hesablar (ekranlar) vasitəsilə həyata keçirilir. [11]

Maliyyə və idarəetmə uçotu, istehsalın idarə olunması və müvafıq qərarların qəbul edilməsi, mühasibat hesabatının tərtibi və uçot prosesinin təşkili üçün informasiya mənbəyidir. Mühasibat uçotu (maliyyə və idarəetmə) tərəfindən verilən informasiyalar bütün hallarda tamlıq, etibarlılıq, əhəmiyyətlilik, münasiblik, neytrallıq, ehtiyatlılıq, müqayisəlilik və s. kimi keyfiyyət xüsusiyyətlərinə malik olmalıdır. İstənilən informasiyalar həmin xüsusiyyətlərə cavab verməlidir, lakin onların əhəmiyyəti müxtəlif ola bilər.

Mühasibat işi obyektlərinin məzmunu və onun tədqiqi şərtləri iqtisadi təhlilin tətbiq olunmasının seçimini və ardıcıllığını nəzərdə tutur. İqtisadi təhlil təsərrüfat subyektinin inkişafının başlıca qanunauyğunluqlarını, onların qarşılıqlı əlaqəsini və qarşılıqlı təsirini, həmçinin təşkilatın fəaliyyətinin bu və ya digər nəticələrini müəyyənləşdirən amilləri aşkara çıxarmaq məqsədilə həyata keçirilir. İqtisadi təhlilin alətlərinə balans və indeks metodları, amilli təhlil, qruplaşma, müqayisə, nisbi kəmiyyətlərin hesablanması kimi iqtisadi-riyazi metodlar aiddir. Bu zaman informasiya bazası kimi mühasibat uçotu sistemində əldə olunan məlumatlar əsas götürülür. Təsərrüfat subyekti səviyyəsində həyata keçirilən iqtisadi təhlil dedikdə, maliyyə, idarəetmə, maliyyə hesabatı, cari, retrospektiv, ekspres, şaquli, üfüqi və s. təhlil başa düşülür. İqtisadi təhlilin hər hansı bir komponenti uçot proseslərinin aparılması nəticəsində alınan məqsədlərlə müəyyənləşdirilir. [9]

Mühasibat işi və audit arasındakı qarşılıqlı əlaqə hesabat informasiyaları səviyyəsində həyata keçirilir. Hazırda auditin funksiyaları təqdim edilən mühasibat hesabatlarının yoxlanılması, etibarlılığının və obyektivliyinin təqdimi çərçivəsindən kənara çıxır. Auditor firmaları daha tez-tez əməliyyat auditi, idarəetmə, vergiyə cəlb olunma, maliyyə əməliyyatlarının həyata keçirilməsi, hüquqi tələblər nöqteyi-nəzərindən bağlanılan müqavilələrə qiymət verilməsi və s. sahələrdə xidmət göstərilməsi ilə məşğul olur.

Hazırda kompyuterləşdirilmiş mühasibat uçotunun aparılması heç də nadir hadisə deyildir. Bununla əlaqədar olaraq hər bir mühasib (auditor, qiymətqoyan, analitik, maliyyə meneceri) müvafiq qərarların qəbulu və mütəxəssislərlə qarşılıqlı əlaqə yaratmaq üçün zəruri

olan səviyyədə məlumatların elektron formada işlənilməsi sahəsində biliklərə malik olmalıdır. Uçot işçiləri kifayət qədər yüksək ixtisasa malik olmalıdırlar ki, kompyuterləşmiş uçot sistemindəki əməliyyatlara qiymət verə bilsinlər və müvafiq qərar qəbul etsinlər. Azərbaycanda mühasibat uçotu və maliyyə hesabatı sahəsində 2008-ci ildən etibarən aparılan islahatlar onun bazar şəraitinə və beynəlxalq standartlara adaptasiyası istiqamətində çox mühüm addım sayıla bilər.

Beynəlxalq praktikada uçot qaydaları, mühasibat uçotunun prinsipləri adlanır və bu da öz əksini maliyyə hesabatlarının Beynəlxalq və Milli standartlarında tapmışdır. [5]

Hazırda mühasibat uçotunda mövcud olan qaydalar, prinsiplər (fərziyyələr və tələblər) onların məcburi qaydada icra olunmasını tələb edir.

Mahiyyətcə uçotun prinsipləri bazar iqtisadiyyatında mühasibat uçotunun təyinatını ümumiləşdirir və bu prinsipləri əsas göstərərək aşağıdakıları: təşkilatın əmlak və maliyyə vəziyyəti haqda tam və etibarlı məlumatlar formalaşdırmaq, işgüzar insanların ünsiyyət vasitəsi kimi çıxış etmək, mikro və makroiqtisadi göstəricilərin ümumdövlət sistemini formalaşdıranlara çevrilmək və s. həyata keçirmək zərurətə çevrilir. Bütün bunlara mühasibat uçotunun aparılmasına vahid yanaşma əsasında nail olmaq mümkündür

Uçotun tənzimlənməsi üzrə hal-hazırda ən geniş yayılmış üsuldan, yəni ştata qəbul olunmuş mütəxəssislərin xidmətindən istifadə edən sahibkar onların iş yeri ilə təmin olunmasının, eləcə də, əməkhaqqının və müvafiq vergilərin vaxtında ödənilməsinə nəzarət etməli və digər cari xərcləri də nəzərə almalıdır. Məsələn, pərakəndə satış sahəsində daimi mühasibin mövcudluğu vacib deyil, buna görə də burada kifayət qədər sərfəli olan autsorsinq xidmətlərindən istifadə etmək daha məqsədəuyğundur. [15]

Şirkətlər tərəfindən mühasibatlıq üzrə autsorsinq xidmətlərinin göstərilməsi zamanı əsas vəzifə, təşkilatın vergi təhlükəsizliyini təmin edən edən tərkib hissələrindən biri kimi müəssisənin maliyyə-mühasibat işinin effektivliyinin yüksəldilməsidir. Autsorsinq şirkətinin ekspertləri auditorlarla və hüquqüşunaslarla məsləhətləşmək üçün daimi imkanlara malik olurlar ki, bu da mühasib-ekspert tərəfindən qəbul edilən qərarın düzgünlüyünə əminlik yaradır.

Bu növ autsorsinqin coğrafiyasına gəldikdə isə, kənardan göstərilən mühasibat xidmətlərinə və məsləhətləşmələrə daha çox inşaat sektorunda, ticarət və restoran şəbəkələrində, eləcə də, reklam, tərtibat, təlimatlandırma və digər xidmətlərin göstərilməsi ilə məşğul olan şirkətlərdə; bəzən isə banklarda, sığorta şirkətlərində və digər iri müəssisələrdə ehtiyac duyulur.

ƏDƏBİYYAT

1. Mühasibat uçotu haqqında Azərbaycan Respublikasının Qanunu. 2004-cü il
2. Quliyev V., Fətullayev R., Kərimov A. Beynəlxalq uçot və hesabata giriş. 2011
3. Abbasov Q., Səbzəliyev S. Mühasibat (maliyyə) hesabatı. 2003
4. Abbasov Q. Mühasibat uçotunun nəzəriyyəsi. 2009
5. Блатов Н.А. Балансоведение. Л. Экономическое образование. 1930.
6. Блатов Н.А. Основы общей бухгалтерии. 5-ое издание. JT. М. 1931 (1-е 1926)
7. Вейтсман Р.Я. Курс счетоводства. 17-е издание. М. 1931
8. Галаган А.М. Общее счетоведение. Вып. I. М. 1930.
9. Галаган А.М. Основные принципы счетоведения. М. 1925
10. Галаган А.М. Основы общего счетоведения. М.1928
11. Пачоли Л. Трактат о счетах и записях. М.1944.
12. Рудановски А.П. Принципы общественного счетоведения. М. 1925.
13. Рудановски А.П. Теория балансового учета. Оценка как цель балансового учета. М. 1928.
14. Соколов Я. Бухгалтерский учет: от истоков до наших дней. М. 1996
15. Чумаченко Н.Г. Учет и анализ в промышленном производстве США. М. 1971

IMPROVEMENT OF THE ORGANIZATION OF ACCOUNTING

Khatira Veli gizi Gurbanova
x.gurbanova@atu.edu.az
Allahverdi Chingiz oglu Garayev
Mirjavad Mirkamil oglu Agayev
Azerbaijan Technological University

The article consistently explains the methodology and directions of organizing accounting, examines the features of accounting in enterprises with various forms of ownership, provides recommendations on improving management accounting tools, the possibilities of information and analytical accounting reporting, the organization and methods of analyzing performance results, the organization of accounting in the field of computerization as well as the work done in the republic towards the transition of accounting and reporting to International Standards and provides specific proposals for the successful implementation of these works.

This article can be regarded as the first scholarly work focused on the theoretical foundations and key directions of accounting organization in Azerbaijan.

Keywords: finance, enterprise, entities, accounting.

AZƏRBAYCANDA BİZNES MÜHİTİNİN İNKİŞAFININ MÜASİR TENDENSİYALARI

İkram İsmayıl oğlu Cəbrayılov
Elmar Rahib oğlu Dadaşov
elmar-dadashov@mail.ru
Bakı Dövlət Universiteti

Azərbaycanın müasir biznes mühiti dərin sosial-iqtisadi transformasiyalar şəraitində formalaşır. Son iki onillikdə respublika əsasən neft və qaz hasilatına yönəlmiş iqtisadiyyatdan sənaye, kənd təsərrüfatı, informasiya texnologiyaları və logistikanın getdikcə daha çox əhəmiyyət kəsb etdiyi daha çoxşaxəli struktura qədər uzun bir yol keçmişdir. Bu transformasiya beynəlxalq iqtisadi məkana səmərəli inteqrasiya edə bilən davamlı və rəqabətqabiliyyətli iqtisadiyyatın yaradılmasına yönəlib. İqtisadi sahədə dövlət siyasətinin əsas prioritetlərindən biri investisiyaların cəlb edilməsi və sahibkarlığın inkişafıdır. Bu məqsədlə Azərbaycanda biznes mühitinin yaxşılaşdırılmasına, inzibati maneələrin azaldılmasına və sahibkarlıq fəaliyyətinin tənzimlənməsində şəffaflığın artırılmasına yönəlmiş hərtərəfli islahatlar həyata keçirilir. Dünya Bankının "Doing Business" reytinqinə əsasən, Azərbaycan son illərdə xüsusilə biznes qurmaq, kredit almaq, investorların hüquqlarının müdafiəsi kimi sahələrdə mühüm irəliləyişlər əldə edib [1].

Dövlət sənaye parklarını, texnoparkları və aqroparkları fəal şəkildə inkişaf etdirir, rezidentlərə vergi və gömrük güzəştləri, subsidiyalar və müasir infrastruktura çıxış təmin edir. Bu tədbirlər istehsal sektorunun inkişafına, innovasiyalara və yeni iş yerlərinin açılmasına təkan verir. Məsələn, Sumqayıt Kimya Sənaye Parkı maşınqayırma, metal emalı, kimya sənayesi kimi sahələrdə istehsalın lokallaşdırılması platformasına çevrilib [2].

Kiçik və orta biznesin (KOB) inkişafı da mühüm rol oynayır. Bu sahədə hökumət institusional dəstək siyasətini həyata keçirir: agentliklər yaradılır, təlimlər keçirilir, güzəştli kreditlər təklif olunur. Kiçik və orta müəssisələrin İnkişafı üzrə Milli Agentlik (KOBİA) qeydiyyat, lisenziyalaşdırma, maliyyələşdirmə və satış bazarlarına çıxış məsələlərində yardım göstərir. Bütün bunlar, keçmişdə sahibkarların qarşılaşdığı müxtəlif büroktarik maneələrin aradan qaldırmaqla, onların səmərəli mühitdə fəaliyyət göstərməsinə müsbət təsir etmişdir. [3]

Rəqəmsallaşma və Elektron Hökumətin tətbiqi də müasir biznes mühitinin ayrılmaz hissəsinə çevrilir. "ASAN xidmət" sistemi vətəndaşların və biznesin hökumətlə qarşılıqlı əlaqəsini sadələşdirməyə kömək edən innovativ həllərin ən yaxşı nümunələrindən biridir. Elektron platformalar biznesə onlayn qeydiyyatdan keçməyə, lisenziya və sertifikatlar əldə etməyə, vergiləri ödəməyə və hesabatlar təqdim etməyə imkan verir ki, bu da əməliyyat

xərclərini əhəmiyyətli dərəcədə azaldır və korrupsiya risklərini minimuma endirir [4].

Biznes mühitində mühüm amil beynəlxalq əməkdaşlıqdır. Azərbaycan beynəlxalq nəqliyyat, enerji və investisiya layihələrində fəal iştirak edir. Orta Dəhliz (Trans-Xəzər marşrutu) və Cənub Qaz Dəhlizi kimi nəqliyyat və logistika dəhlizlərinin inkişafı ölkəmizi Avropa və Asiya arasında mühüm qovşağa çevirir. Bu, xüsusilə logistika, tranzit və xarici iqtisadi fəaliyyət sahələrində biznes üçün yeni imkanlar açır. Biznes mühitini formalaşdıran yeni çağırışlara rəqəmsallaşma, yaşıl iqtisadiyyat və davamlı biznes modellərinə keçid kimi qlobal tendensiyalar daxildir. Bu baxımdan Azərbaycan yaşıl enerjinin inkişafı, iqtisadiyyatın rəqəmsal transformasiyası və dayanıqlı kənd təsərrüfatının inkişafı istiqamətində addımlar atır. Həmçinin qeyd etmək lazımdır ki, ölkəmizdə strateji məqsədlərdən biri karbohidrogenlərdən asılılığın azaldılması və bilik, innovasiya və sahibkarlığın əsas rol oynayacağı post-neft inkişaf mərhələsinə keçməkdir [5].

Beləliklə, bu gün Azərbaycanda biznes mühiti müasirləşmə səylərinin və davamlı institusional islahatların müasir tələblərə uyğunlaşdırılmasını tələb edir. Bütün bunlar bir tərəfdən istehsal potensialı artır, rəqəmsal və infrastruktur şəraiti yaxşılaşır, sahibkarlıq mədəniyyəti formalaşır. Digər tərəfdən, hüquqi sabitlik, ədalətli rəqabət və inzibati maneələrin azaldılması məsələləri hələ də aktualdır. Fikrimizcə, ölkənin biznes mühitinin gələcəyi daha çox həyata keçirilən islahatların ardıcıllığından və dərinliyindən, həmçinin dövlətin innovasiyaları stimullaşdırmaq, sahibkarları qorumaq və iqtisadi prosesin bütün iştirakçıları üçün şəffaf şərait yaratmaq imkanlarından asılı olacaq.

ƏDƏBİYYAT

1. World Bank Group. (2020). Doing Business 2020: Comparing Business Regulation in 190 Economies. Washington, DC: World Bank.
2. İsgəndərov R.K. Strateji yol xəritəsinin reallaşmasinda elmi-texniki tərəqqinin rolu // Tikintinin iqtisadiyyati və menecment jurnalı. – №. 1. – C. 34-41.
3. Erdil O., Kalkan A. Kobilere sağlanan desteklerin Kobilerin performanslarına etkisi. İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi Yıl:4 Sayı:7 Bahar 2005/1 s.103-122
4. Nəhmətova B. Elektron dövlət antikorrupsiya siyasətinin tərkib hissəsi kimi: beynəlxalq təcrübə, problemlər və həllər //Problems of information society. – 2015. – T. 6. – №. 1. C. 72-80.
5. Cahangirov X. Heydər Əliyevin İqtisadi Siyasəti Və Onun Qeyri-Neft Sektorunun İnkişafına Təsirləri //Journal of Strategic Economic Thinking (JSET). – 2023. – T. 1. – №. 1.

MODERN TENDENCIES İN THE DEVELOPMENT OF BUSINESS ENVIRONMENT IN AZERBAIJAN

Ikram Ismayil oglu Jabrayilov
Elmar Rahib oglu Dadashov
elmar-dadashov@mail.ru
Baku State University

The study analyzes Azerbaijan's business environment, focusing on institutional reforms for economic diversification and state support for entrepreneurship. It highlights the importance of these reforms in improving access to finance for SMEs. The conclusion is that Azerbaijan's business environment shows modernization alongside a continued need for systemic reforms. As a result, it is concluded that the country's business environment has a dual character, combining modernization efforts with the need for further systemic reforms.

Keywords: business environment, entrepreneurship, investments, economic policy, digitalization, government reforms.

REGİONLARIN SOSİAL- İQTİSADİ İNKİŞAFINDA AZAD İQTİSADİ ZONALARIN ROLU

Mətanət İsrayıl qızı Əhmədova
m.ahmedova@atu.edu.az
Arzu Taryel oğlu Əsgərov
a.asgarov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

XXI əsrin əvvəllərindən informasiya kommunukasiya texnologiyaları cəmiyyətin və iqtisadiyyatın inkişafına təsir göstərən əsas amillərdən biridir. Regionun sosial-iqtisadi inkişafının məqsədləri kimi gəlirlərin artımı, təhsilin və səhiyyənin yaxşılaşması, yoxsulluq səviyyəsinin azaldılması, ətraf mühitin sağlamlaşdırılması, imkanların bərabərliyi, şəxsi azadlığın genişlənməsi, mədəni həyatın zənginləşdirilməsinİ göstərə bilərik [1].

Azad iqtisadi zonalar müasir informasiya və kommunikasiya texnologiyalarını və investorları ölkəyə gətirməklə ölkənin xarici ticarət həcmini artırmaq, idxalı asanlaşdırmaq, ixracı və valyuta gəlirlərini artırmaq, işsizliyi azaltmaq, xarici sərmayəni ölkəyə cəlb edərək texnoloji avadanlıqları yeniləşdirmək, sənayenin inkişafını sürətləndirmək və s. məqsədlərlə yaradılır. Dünyanın ən uğurlu azad iqdisadi zonalarına misal kimi Jebel Ali Free Zone (BƏƏ), Shenzhen Special Economic Zone (Çin) göstərə bilərik [2].

Dubay Jebel Əli Azad Zonası – 1985-ci ildə qurulmuşdur, JAFZA Freezone fabriklər və logistika firmaları, istehsal zavodları və montaj bölmələri də daxil olmaqla 9500-dən çox beynəlxalq və yerli şirkətə ev sahibliyi edir və bu şirkətlər tərəfindən yaradılan ümumi illik ticarət dəyəri 100 milyard dolları ötür [3]. Jebel Ali Azad Zonasının Jebel Ali Dəniz Limanına (Cebel Ali Limanı) və Əl Maktum Beynəlxalq Hava Limanına (həmçinin Dubay Dünya Mərkəzi kimi tanınır) birbaşa çıxışı var. JAFZA azad zonasının əsas üstünlüklərinə 100% xarici mülkiyyət, yenilənə bilən güzəştlə 50 İllik 0% korporativ vergi, kapitalın ölkəyə qaytarılması ilə bağlı məhdudiyyətin olmaması, 0% idxal və ya təkrar ixrac vergiləri, valyuta məhdudiyyətinin olmaması, xarici işçilər üçün məhdudiyyətin olamaması, 0% şəxsi gəlir vergisi və yerli gömrüyü göstərə bilərik.

Bütün bu güzəştlərdən sonra JAFZA Birləşmiş Ərəb Əmirliyinə nə kimi töhvələr verdi? BƏƏ-nin qeyri neft sektorundan gələn gəlirlətinin 23%-i, minlərlə beynəlxalq şirkətin burada fəaliyyəti, 150 mindən çox iş yeri, yüksək ixtisaslı və texniki sahələr üzrə əmək bazarı, ağıllı infrastruktur və rəqəmsal idarəetmənin tədbiqi və bütün bunlardan başqa Dubayın qlobal biznes mərkəzlərindən birinə çevrilməsinə gətirib çıxartdı.

1958-1961-ci illərdə "Böyük Sıçrayış" siyasətindən sonra aclıq yaşayan Çin hazırda ÜDM (Ümumi Daxili Məhsul) baxımından dünya ölkələri arasında ikinci yerdədir. Bu uğurun arxasında Den Syaopinin islahatları dayanır. 1980-ci ildə açıq iqtisadiyyata keçid üçün yeni islahatlar hazırlanaraq birbaşa xarici sərmayələri cəlb etmək və Çinin ixracını stimullaşdırmaq üçün Çin rəhbərliyi ölkənin qapılarını xarici investorların üzünə açmaq qərarı verərək ölkədə xüsusi iqtisadi zonalar yaratdı. Çini siyasi təhlükələrdən uzaq tutmaq üçün Pekinə yaxın deyil, Sakit okeanı əhatə edən əyalətlərdə, yəni Quanqdonq və Futszyanda xüsusi iqtisadi zonalar yaradıldı. Bundan əlavə, bu vilayətlər kapitalist sisteminin inkişaf etdiyi Çin Xalq Respublikasının Honq-Konq və Makao Xüsusi İnzibati Bölgələrinə daha yaxın olduğundan Honq-Konq və Makaoya yaxın bölgələrdə xüsusi iqtisadi zonaların yaradılması daha məqsədəuyğun hesab edildi.

Quanqdonq əyalətində üç azad iqtisadi zona yaradıldı (Şençjen, Çjuhay, Şantou) və biri Fujian əyalətində (Xiamen). Bunlardan ən mühümü Shenzhen idi, çünki Shenzhen bu xüsusi iqtisadi zonalar arasında Honq-Konq Xüsusi İnzibati Bölgəsinə daha yaxın idi [4].

Xüsusi İqtisadi Zonaların inkişafı sonrakı illərdə Quangdong əyalətinin və bütün Çin Xalq Respublikasının iqtisadi inkişafı üçün yol açdı.1981-ci ildə Çinə qoyulmuş birbaşa xarici investisiyaların ümumi həcminin 59,8 faizi bu dörd xüsusi iqtisadi zonanın payına düşürdü [5]. Bu payda Shenzhen xüsusi iqtisadi zonası ən yüksək çəkiyə malikdir (50,6 faiz). Üç ildən sonra bu dörd xüsusi iqtisadi zonanın payı Çinin birbaşa xarici investisiyalardan əldə etdiyi ümumi məbləğin 26 faizini təşkil edəcək. 1985-ci ilin sonunda bu dörd xüsusi iqtisadi zonaya birbaşa xarici investisiyalar 1,15 milyard dollar və ya Çinin birbaşa xarici investisiyalardan əldə

etdiyi ümumi məbləğin 20 faizini təşkil etmişdir. Shenzhenin Shekou sənaye zonası 40 il əvvəl cəmi 2,14 kvadrat kilometrlik kiçik bir sahə idi hazırda isə bu ərazi 1953 kvadrat kilometrdir [6].

Çinin ən böyük üstünlüklərindən biri Shenzhen məhsullarının dünyanın 100-dən çox ölkə və bölgəsində 300-dən çox limana çatdıran 219 beynəlxalq konteyner daşıma xəttinin mövcudluğudur. Şəhərin ixrac və idxal həcmi 27 ildir ki, Çin şəhərləri arasında birinci yerdədir. Bundan başqa, Şençjenin Şekou Azad Ticarət Zonasında 200 min ton tutumlu və 5G texnologiyası ilə dəstəklənən ağıllı yükləmə və boşaltma platforması istifadəyə verilib.

Çində regionların bərabər və rentabelli şəkildə inkişaf etdirilməsi üçün ölkədə 114 yeni və yüksək texnologiyalar parkı, mütəxəssislərin hazırlanması üçün isə 70 elmi-texniki zona yaradılıb. Çin özünün xüsusi iqtisadi zona modelini yaradaraq spesifik xüsusiyyətlərini formalaşdırmışdır: 1. İqtisadi məsələlərin həllində xüsusi iqtisadi zona rəhbərlərinin yüksək dərəcədə müstəqilliyi, sürətli idarəetmə sistemi, nəticəyə görə müstəqil məsuliyyət; 2. Güzəştli vergi və gömrük siyasəti; 3. Xarici və yerli investorların həvəsləndirilməsinin inzibati-hüquqi rejimi (rezidentlərin qeydiyyatının sadələşdirilmiş sistemi və dövlət qeydiyyatına alınanların sayının azaldılması); 4. Beynəlxalq daşımalar, xüsusən transokean dəhlizlərinə çıxış məqsədi ilə yalnız Sakit okean sahillərinə yaxın ərazilərdə xüsusi iqtisadi zonaların yaradılması; 5. Xarici investorların təşviqini asanlaşdıran xüsusi qanunvericilik infrastrukturu.

ƏDƏBİYYAT

1. Abdullayeva S. Azad iqtisadi zonalar – iqtisadi inkişafın potensialı kimi // İpək yolu, №2. Bakı, səh. 15…22, (2018)
2. https://www.akademikkaynak.com/ozel-ekonomik-bolgenin-cin-modeli.html
3. http://turkish.cri.cn/1781/2020/08/25/1s207162.htm
4. https://tr.machine-controller.org/info/shenzhen-s-economy-is-developing-rapidly-81086065.html
5. https://tr.cantonfair.net/location/638-shenzhen-shenzhen-china
6. https://turkish.cri.cn/1781/2020/10/12/1s208089.htm

THE ROLE OF FREE ECONOMIC ZONES IN THE SOCIO-ECONOMIC DEVELOPMENT OF REGIONS

Metanet Israyıl gizi Ahmadova
matanat.axmedova74@gmail.com
Arzu Taryel oglu Askerov
a.asgarov@atu.edu.az
Azerbaijan Technological University

The article provides a concise analysis of Azerbaijan's strategic economic priorities for sustainable long-term growth, emphasizing key developmental drivers and exploring global best practices in free economic zones. By assessing their structures, regulatory systems, and influence on competitiveness, the study identifies adaptable models to enhance Azerbaijan's integration into the global economy in line with advanced development trends.

Keywords: socio-economic development, free economic zone, region, development, society.

RƏQƏMSAL İQTİSADİYYAT VƏ ƏMƏK BAZARINDA TRANSFORMASİYA

Zeynəb Tahir qızı Məmmədli[1]
z.memmedli@atu.edu.az
Xəqani Ehtiram oğlu Kazımov[2]
xaqani.kazimov@gdu.edu.az
Azərbaycan Texnologiya Univerisiteti[1]
Gəncə Dövlət Universiteti[2]

Rəqəmsal texnologiyaların son onilliklərdə sürətlə inkişafı və iqtisadi sistemlərin bu texnoloji inqilaba adaptasiyası, yeni bir iqtisadi modelin – rəqəmsal iqtisadiyyatın – meydana gəlməsinə səbəb olmuşdur. Bu iqtisadi modeldə məlumat əsas resurs, texnologiya isə əsas vasitə kimi çıxış edir. Ənənəvi iqtisadi strukturlar rəqəmsallaşma prosesi nəticəsində çevik, sürətli və inteqrasiya olunmuş sistemlərlə əvəz olunmaqdadır. Bu dəyişikliklər yalnız istehsal və xidmət sahələrini deyil, eyni zamanda əmək bazarının strukturunu, işin təbiətini və insan kapitalına olan tələbləri də

dərindən transformasiya etmişdir. [1]

Əmək bazarının rəqəmsal iqtisadiyyatla uyğunlaşması yalnız texnoloji yeniliklərlə deyil, həm də sosial, iqtisadi və hüquqi çərçivələrin yenidən qurulması ilə müşayiət olunur. Müasir əmək bazarında rəqəmsal bacarıqlar əsas tələblərdən birinə çevrilmiş, süni intellekt və avtomatlaşdırma isə bir çox peşələrin transformasiyasına və ya sıradan çıxmasına səbəb olmuşdur. [2] Bu proseslər həm yeni imkanlar yaradır, həm də ciddi sosial risklər doğurur – xüsusilə işsizlik, peşə uyğunsuzluğu və rəqəmsal bərabərsizlik kimi məsələlər ön plana çıxır.

Məqalənin məqsədi rəqəmsal iqtisadiyyatın əmək bazarına təsirini müxtəlif aspektlərdən araşdırmaq, bu transformasiyanın yaratdığı çağırış və imkanları qiymətləndirmək və sonda strateji tövsiyələr irəli sürməkdir. Tədqiqat çərçivəsində həm nəzəri yanaşmalara, həm də beynəlxalq təcrübələrə əsaslanaraq, rəqəmsallaşmanın əmək bazarındakı struktur və funksional dəyişiklikləri necə formalaşdırdığına dair ətraflı analiz təqdim olunacaq.

Rəqəmsal İqtisadiyyatın Mahiyyəti və Təkamülü ən sadə şəkildə ifadə edildikdə, məlumatların və informasiya texnologiyalarının iqtisadi fəaliyyətlərdə əsas rol oynadığı iqtisadi sistemdir. Bu sistemdə istehsal, paylanma, istehlak və xidmətlər əsasən rəqəmsal alətlər vasitəsilə həyata keçirilir. Ənənəvi iqtisadi modellərdə istehsalın əsas faktoru olan fiziki kapital və əmək, rəqəmsal iqtisadiyyatda informasiyaya və rəqəmsal infrastruktur vasitəsilə inkişaf edən yeni iş modellərinə əsaslanır. [3].

Rəqəmsal iqtisadiyyatın təkamülü bir neçə mərhələdən ibarət olmuşdur. İlk mərhələdə, internet və texnologiyanın sadə istifadəsi ilə müəssisələr və fərdi istifadəçilər arasında məlumat mübadiləsi artmış, bu isə ticarət və xidmətlərin daha sürətli və effektiv şəkildə təqdim edilməsini təmin etmişdir. Sonrakı mərhələdə, xüsusilə 21-ci əsrin əvvəllərində, internet texnologiyalarının inkişafı və genişlənməsi ilə yeni iş platformaları və rəqəmsal alətlər ortaya çıxmışdır. Bu dövrdə, rəqəmsal iqtisadiyyat yalnız məlumatın ötürülməsi ilə məhdudlaşmayıb, həm də rəqəmsal xidmətlərin yaradılması, istehsalın avtomatlaşdırılması və yeni biznes modellərinin formalaşması ilə genişlənmişdir. [1]

Rəqəmsal iqtisadiyyatın bir əsas xüsusiyyəti, texnoloji inkişafın daim dəyişən təbiətidir. Texnologiyaların sürətli inkişafı, xüsusilə informasiya və kommunikasiyalar texnologiyalarının (İKT) istifadəsinin genişlənməsi, iş gücünün rəqəmsal çevrilişini təmin etmişdir. 2000-ci illərin əvvəllərindən etibarən bulud texnologiyaları, böyük verilənlər (big data), blokçeyn və süni intellekt kimi texnologiyalar rəqəmsal iqtisadiyyatı daha da inkişaf etdirmiş, yeni imkanlar yaratmışdır. [4] Bu inkişaflar nəticəsində, istehsalın, xidmətlərin və hətta ticarətin təşkilində əsaslı dəyişikliklər baş vermişdir. İstehsal prosesləri artıq yalnız fiziki obyektlərin istehsalına yönəlmir, eyni zamanda rəqəmsal məhsulların (məsələn, proqram təminatları və rəqəmsal xidmətlər) yaradılması və yayılması ilə əlaqəli yeni iş sahələri ortaya çıxır. [2] Rəqəmsal iqtisadiyyatın bu mərhələsi, iqtisadiyyatda "rəqəmsal platformalar" və "iş birliyi ekosistemləri" kimi yeni strukturların formalaşmasına səbəb olmuşdur.

Rəqəmsal iqtisadiyyatın təsiri yalnız iqtisadiyyatla məhdudlaşmır, həm də sosial və mədəni sahələrdə əhəmiyyətli dəyişikliklərə yol açmışdır. İnsanlar arasında əlaqə üsulları, iş yerlərinin təşkili və hətta həyat tərzi belə rəqəmsal inqilabın təsiri altında formalaşmışdır. [5] Bu inkişaf, daha çox məlumatın toplanmasını və işlənməsini mümkün etməklə, həm də işçilər və istehlakçılar üçün yeni imkanlar yaradıb, eyni zamanda bəzi riskləri də özü ilə gətirmişdir.

Əmək Bazarında Yeni İqtisadi Modelin Formalaşması. Rəqəmsal iqtisadiyyatın genişlənməsi, əmək bazarının strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi əmək bazarları, əsasən fiziki əmək resurslarına əsaslanırdı və iş gücü tələb edilən sahələr adətən istehsal və xidmət sahələrinə yönəlirdi. Lakin rəqəmsal iqtisadiyyatın inkişafı ilə yeni iş sahələri formalaşmış, həmçinin işin xarakteri də dəyişmişdir. Müasir əmək bazarlarında rəqəmsal bacarıqlar artıq vacib tələblərdən biridir. [6]

Bundan əlavə, süni intellekt və avtomatlaşdırma kimi texnologiyaların tətbiqi, müəyyən peşələrin yox olmasına və ya dəyişməsinə səbəb olmuşdur. Məsələn, əgər əvvəlcə bir çox sənaye sahələrində insan işçiləri fiziki əməyin idarə olunmasında əsas rol oynayırdısa, indi çoxlu işlər maşınlar və avtomatlaşdırılmış sistemlər tərəfindən yerinə yetirilir. Bu isə yeni növ iş yerlərinin yaradılmasına və mövcud işlərin yenidən dizayn edilməsinə səbəb olmuşdur. [4]

Nəticə. Rəqəmsal iqtisadiyyatın əmək bazarına təsiri mürəkkəb və çoxşaxəlidir. Həm iqtisadi, həm də sosial sahədə yaratdığı dəyişikliklər, yeni iş imkanları və eyni zamanda sosial bərabərsizlik və işsizlik kimi risklər meydana gətirir. Bu dəyişikliklərə uyğunlaşmaq üçün əmək bazarının rəqəmsal tələblərinə cavab verən yeni siyasətlərin formalaşdırılması vacibdir.

Təkliflər:

1. Rəqəmsal bacarıqların tədrisinin gücləndirilməsi, xüsusilə gənclər və işsizlər üçün rəqəmsal təlim proqramlarının hazırlanması.
2. Avtomatlaşdırma və süni intellektin tətbiqi nəticəsində yaranan iş yerləri itkisinin qarşısını almaq üçün yeni sosial siyasətlərin tətbiq edilməsi.
3. Əmək bazarının transformasiyasına uyğun gələcək tələblərə cavab verən təhsil və peşə hazırlığı proqramlarının inkişaf etdirilməsi.

ƏDƏBİYYAT

1. Brynjolfsson E. & McAfee A. The Second Machine Age: Work, Progress, and Prosperity in a Time of Brilliant Technologies. W. W. Norton & Company. 2014
2. Schwab K. The Fourth Industrial Revolution. Crown Business. 2016
3. Tapscott D. & Tapscott, A. Blockchain Revolution: How the Technology Behind Bitcoin and Other Cryptocurrencies is Changing the World. Penguin. 2016
4. Chui M., Manyika J. & Miremadi M. Where machines could replace humans—and where they can't (yet). McKinsey Quarterly. 2016.
5. Rifkin J. The Zero Marginal Cost Society: The Internet of Things, the Collaborative Commons, and the Eclipse of Capitalism. Palgrave Macmillan. 2014
6. World Economic Forum. The Future of Jobs Report 2018. World Economic Forum. 2018

DIGITAL ECONOMY AND TRANSFORMATION IN THE LABOR MARKET

Zeynab Tahir gizi Mammadli[1]
z.memmedli@atu.edu.az
Khagani Ehtiram oglu Kazimov[2]
xaqani.kazimov@gdu.edu.az
Azerbaijan Technological University[1]
Ganja State University[2]

The digital economy has emerged from the rapid advancement of digital technologies and their integration into economic systems. In this model, information is the key resource, and technology is the main tool. Digitalization replaces traditional structures with flexible and integrated systems. It reshapes production, services, labor markets, and human capital requirements.

Keywords: digital technology, labor market, digital skills, human capital, rapid development.

MİLLİ İQTİSADİYYATIN İNKİŞAFINDA QEYRİ-NEFT SEKTORUNUNUN İXRAC POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN ROLUNUN ARTMASI

Ruhiyyə Məntiq qızı Qəmbərova
ruhiyye.qemberova@mail.ru
Aləmzar Şakir qızl Tağıyeva
Azərbaycan Dövlət Aqrar Universiteti

Qeyri-neft sektorunun ixrac potensialının artırılması üçün ilk növbədə milli iqtisadiyyatın özünün diversifikasiyalaşdırılması və modernləşdirilməsi prosesləri başa çatdırılmalı, innovasiyalaşdırılması sürətləndirilməlidir. Bundan əlavə, qeyri-neft sektorunun ölkənin təbii resursları və iqtisadi amilləri nəzərə alınmaqla, dərindən tədqiq edilməsi, onun potensialının obyektiv qiymətləndirilməsi zərurəti diqqəti cəlb edir. Məqalədə, ölkədə iqtisadiyyatın inkişafında qeyri-neft sektorununu ixrac potensialından səmərəli istifadənin rolunun artırılması kimi məsələlər araşdırılmışdır.

Milli iqtisadiyyatın inkişafı olduqca mürəkkəb elementlərdən ibarət vəzifələrin yerinə yetirilməsinə sistemli yanaşılmasını və bu proseslərdə işlək, effektivli, məhsuldar mexanizmlərin tətbiqini şərtləndirir. Dövlət sadəcə siyasi və iqtisadi prioritetləri müəyyənləşdirməklə milli iqtisadiyyatın dayanıqlı inkişafını təmin edə bilməz. Bu proseslərdə ardıcıllıq prinsipləri

qorunmalı, milli iqtisadiyyatın milli maraqlar çərçivəsində dayanıqlı inkişafına konseptual yanaşma təmin olunmalı, prioritet fəaliyyət istiqamətləri müəyyənləşdirilməli və nəhayət, onların reallaşdırılmasının səmərəli mexanizmləri hazırlanmalıdır.

Müasir dövrdə, yəni qloballaşmanın hər bir sahədə dərinləşdiyi şəraitdə baş verən tendensiyalara adekvat dövlət modelinin formalaşdırılması, dövlət tərəfindən hazırlanması və tətbiq edilməsi nəzərdə tutulan tənzimləmə mexanizmlərinin, alətlərin kəsərli olması tələb olunur. Bu istiqamətdə dövlətin milli iqtisadiyyatın balanslaşdırılmış inkişafı üzrə prioritet və strateji vəzifələrinin əsas funksiyalarına aşağıdakılar daxil edilə bilər: [3]

− iqtisadiyyatın artım və inkişaf proseslərində bilik amilinin roluna üstünlük verilməsi və gücləndirilməsi;

− iqtisadiyyatın struktur dəyişikliklərinin aparılması və diversifikasiya proseslərinin optimallaşdırılması;

− iqtisadi artımın və iqtisadi inkişafın stimullaşdırılması mexanizmlərinin işlənib hazırlanması və reallaşdırılması;

− cəmiyyətlə mülkiyyətçilər arasında münasibətlərin differensiallaşdırılması, müxtəlif iqtisadiyyat sahələrinin milliləşdirilməsi proseslərində tarazlıq prinsiplərinin qorunması;

− ölkə və xarici kapitalın qarşılıqlı hərəkətinin səmərəliliyinin təşkili;

− iqtisadi artımın və iqtisadi inkişafın regional yanaşmasında daha optimallaşdırılmış modelə üstünlük verilməsi və s.

İxrac əməliyyatlarını asanlaşdırmaq, ixracda səmərəliliyi daha təşviq və ixrac əməliyyatlarını genişləndirmək, bu sahədə yerli və xarici investisiyaçıların səmərəliliyinin artırılması xarici ticarəti təşviq etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında 24 iyun 1997 Prezidentinin 609 saylı "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatlarının tənzimlənməsi qaydaları" haqqında sərəncam imzalanmışdır. [2]

Qeyri-neft sektorunun başlıca xüsusiyyəti ondan ibarətdir ki, bu sahədə istehsalın real artım tempi neft sektoru ilə müqayisədə xarici tələbin təsirlərindən ciddi şəkildə asılı deyildir. Bu sektorda real istehsalın artım dinamikası başlıcaən cəlb olunmuş investisiyalardan, daxili tələbin dəyişməsindən, ölkədə aparılan institusional dəyişikliklərdən daha çox asılıdır. Araşdırmalar göstərir ki, neft bölməsindən fərqli olaraq qeyri neft sahəsində istehaslın real artımı nisbətən zəif gedir. Bu xüsusi ilə neft sektoru ilə müqayisədə qeyri-neft sektorunda daha az xarici investisiyaların yatırılmaıs ilə bağlıdır. Lakin, qeyri-neft sahəsində istehsalın real artım dinamikasının neft sektoruna nəzərən xeyli zəif olmasına baxmayaraq onun iqtısadiyyatdakı payı hələdə yüksək olaraq qalır.

Ümumilikdə isə qeyri-neft sektorunun hazırkı iqtısadi artımda payı nisbətən zəifdir və bu tendensiya köklü dəyişikliklər həyata keçirilməzsə, neft sektorunun gələcəkdə iqtısadiyyatdakı payı daha da artacaqdır. Qeyd etmək lazımdır ki, hər bir sektorun iqtısadiyyatda xüsusi rolu onun əhalinin məşğulluğunda pay, dövlət büdcəsinin formalaşmasındakı rolu, xarici ticarət dövriyyəsindəki mövqeyi ilə müəyyən olunur. Bu baxımdan, qeyri-neft sektoru insanların böyük əksəriyyətinin maraqlı olduğu bir sahədir.

Qeyri-neft sektorunun ixrac potensialından istifadənin yüksəldilməsi istiqamətində dövlət proqramlarının icrası bu qənaətə gəlməyə imkan verir ki, yaxın perspektivdə Azərbaycanda qeyri-neft sektorunun ixrac potensialından istifadənin daha səmərəli, məhsuldar və effektivli yollarının formalaşdırılması tədbirləri intensivləşəcəkdir. Belə şəraitdə, qeyri-neft sektorunda ixrac potensialının tənzimlənməsinin təkmilləşdirməsi istiqamətlərinin daha ciddi araşdırılması və arqumentləşdirilməsi lazım gəlir.

Bu istiqamətdə aparılan araşdırmalar nəticəsində qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsi ilə bağlı mühüm şərtlər kimi çıxış edən amillərin bir qrupunu fərqləndirməyə imkan vermişdir:

− Milli iqtisadiyyatın dayanıqlı inkişafı və onun iqtisadiyyat sahələrinin diversifika-silaşdırılması problemləri sistemli yanaşmanı, strateji hədəflərin müəyyənləşdiriməsini və prioritet iqtisadi siyasət mexanizmlərinin müəyyənləşdirilməsini zəruri edir;

− Bazar iqtisadiyyatı strukturlarının inkişafının intensivləşdirilməsi, sahibkarlığın inkişafına dövlət dəstəyinin göstərilməsi, xarici ticarət fəaliyyətinin səmərəliliyinin artırılması prioritetlərinin tənzimlənməsi metodlarının effektivli modellərinin işlənib hazırlanması və reallaşdırılması;

− Qeyri-neft sektorunda ixrac potensialına əlavə töhfələr vermək iqtidarında olan iqtisadiyyat sahələrinin potensialının öyrənilməsi və onlardan səmərəli istifadə mexanizmlərinin müəyyənləşdirilməsi.

Ümumiyyətlə, qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsi bir qrup problemlərin araşdırılmasını, çoxlu sayda makroiqtisadi, habelə mikroiqtisadi amillərlə qarşılıqlı əlaqəsinin, bu proseslərin milli iqtisadiyyatın inkişafına təsirinin öyrənilməsini zəruri edir. Bu problemlər işərisində milli iqtisadiyyatın inkişafında qeyri-neft sektorunun ixrac potensialından səmərəli istifadənin rolunun artırılması vacib məsələlərdəndir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı il 16 mart tarixli " Milli iqtisadıyyat və iqtisadıyyatın esas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin tesdiqi və bundan irəli gələn məsələlər haqqında" sərəncamı
2. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydaları. AR Prezidentinin 24 iyun 1997-ci il tarixli, 609 nömrəli Fərmanı ilə təsdiq olunmuşdur. Bakı, 1997.
3. Arif Şəkərəliyev, Qoşqar Şəkərəliyev. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı: «Turxan» NPB, 2016. -536 s.

THE INCREASING ROLE OF THE EFFICIENT UTILIZATION OF THE NON-OIL SECTOR'S EXPORT POTENTIAL IN THE DEVELOPMENT OF THE NATIONAL ECONOMY

Ruhiyya Mantig gizi Gambarova
ruhiyye.gemberova@mail.ru
Alemzar Shakir gizi Tagiyeva
Azerbaijan State Agricultural University

To enhance the export potential of the non-oil sector, the diversification and modernization of the national economy must be completed, and innovation accelerated. It is also essential to conduct a comprehensive analysis of the sector, considering natural resources and economic factors. This article explores the strategic importance of effectively utilizing the non-oil sector's export capacity for national economic development.

Keywords: export, export potential, non-oil sector, etc.

YENİ TƏSƏRRÜFATÇILIQ ŞƏRAİTİNDƏ MÜƏSSİSƏNİN XARİCİ İQTİSADİ FƏALLİYƏTİ VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xasay Mehdiyev
x.mehdiyev@atu.edu.az
Ruslan Məmmədov
ruslanmmmedov099@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Yeni təsərrüfatçılıq şəraitində müəssisənin idarəetmə sistemində dəyişikliklərin aparılması zərurətinin əsaslandırılması əsasında beynəlxalq iqtisadi reytinqlərdə səviyyəni yüksəltmək üçün hərtərəfli model çevrilməsivə xarici idarəetmədə mühasibat uçotunun, təhlilin və auditin nəzəri və metodoloji prinsipləri əsasında təsərrüfat fəaliyyəti inkişaf etdirilir. Mühasibat uçotu, təhlil və audit prinsiplərinin formalaşmasına yanaşma hər ildə qəbul edilən qərarların differensiallaşdırılmasını nəzərə alan müəssisənin xarici iqtisadi fəaliyyətininidarə sisteminin sahibkarlıq subyektinin mühitindən istifadə etməyə imkan verir. [4, c.4]

Müəssisənin daxili və xarici mühitinin ixrac auditinin metodik prinsipləri və müəssisələrin idxal əməliyyatlarının sənədləşdirilməsinin təkmilləşdirilməsi üzrə təkliflər hissəsində idxal mallarının dəyərinin formalaşdırılması və ixrac-idxalın analitik uçot

hesablarında əks olunmasıcavabların formalaşmasının səmərəliliyini və etibarlılığını artıran mallarla əməliyyatlarxarici iqtisadi fəaliyyətin idarə edilməsində sisteminin informasiya sorğuları işlənib hazırlanmışdır. [3, s.12]

Mikro və makro səviyyələrdə fəaliyyət göstərən daxili və xarici metodların tətbiqi xüsusiyyətləri müəssisə uçotunun sistemində valyuta risklərinin idarə edilməsi effektiv idarəetmə vasitəsi kimi açıqlanıb və xarici mühitin mühasibat uçotu sistemində və formalarında təsiri kimi əks olunur.

Xarici iqtisadi fəaliyyətin planlaşdırılması və inkişafı üzrə qərarlar qəbul edən istifadəçilər üçün informasiya dəstəyi müəssisənin mühasibat uçotunda xarici investisiyaların alınması mərhələləri əsaslandırılmışdır ki, bu da əsas kimi xarici investisiyaların auditinin metodoloji təminatının dəyişdirilməsinə kömək edir və investisiya mühitinin formalaşdırılması və təkmilləşdirilməsinə ciddi dərəcədə təsir edir. [5, c.26]

Yeni müştərilər qazanmaq istəyən müasir şirkət üçün beynəlxalq bazarlara çıxmaq prioritet məsələsidir. Xarici iqtisadi fəaliyyət (XİF) iqtisadi fəaliyyətin ixrac və idxal əməliyyatları ilə əlaqəli bir sahəsidir. Sadə dillə desək, xarici iqtisadi fəaliyyət anlayışı müxtəlif dövlətləri təmsil edən təsərrüfat subyektlərinin qarşılıqlı əlaqəsinə əsaslanır. Qeyd etmək lazımdır ki, təşkilatlar təkcə bir-birindən mal (xidmət) sata və ya ala bilməz, həm də birgə layihələr həyata keçirə, investisiya yatıra, kredit xidmətləri verə bilər. Bütün bu hərəkətlər xarici iqtisadi fəaliyyət anlayışına aiddir. [1, s.251]

Müəssisələrin xarici iqtisadi fəaliyyətində tədqiqat obyekti, xüsusilə rəqabət üstünlükləri və müəyyən edilmiş sahələrin dövlət tənzimlənməsi mövcuddur. Tədqiqatın predmeti müəssisənin xarici iqtisadi fəaliyyətinin həyata keçirilməsi və idarə edilməsinin təhlili və qiymətləndirilməsi ilə bağlı nəzəri, metodoloji və tətbiqi məsələlərdir. Tədqiqatın nəzəri və metodoloji əsasını yerli və xarici alimlərin, iqtisadçıların, xarici ticarət, beynəlxalq idarəetmə, müəssisələrin idarəetmə sistemləri üzrə ekspertlərin əsərləri təşkil edir; müəssisələrdə xarici iqtisadi fəaliyyətin idarə edilməsinin praktiki təcrübəsi; tədqiqat mövzusu üzrə elmi-praktik konfrans və seminarların metodiki materialları. [6, c.256]

ƏDƏBİYYAT

1. İqtisadi inkişafda müəssisənin xarici təsərrüfat fəaliyyətinin rolu. Təhsil Nazirliyinin 27 fevral 2023-cü il tarixli 3-29/3-2-76F/2023 saylı əmri ilə çap hüququ (Qrif) verilmişdir. Bakı. 264 s.

2. Попова В.М., Ляпунова С.И. Бизнес-планирование. Учебник Москва. 2008. 816 с.

3. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi. 531 s.

4. Семенова О.В. Особенности цен на современном этапе. Налоговый вестник. – № 5. 2008. с. 3–9

5. Скляренко В.К., Прудников В.М. Экономика предприятия. Учебник. Москва.

6. Грязновой А.Г., Чечелевой Т.В. Экономическая теория. Учебник. Москва. Издательство «Экзамен». 2004. 592 с.

FOREIGN ECONOMIC ACTIVITIES OF THE ENTERPRISE AND ITS IMPROVEMENT IN NEW ECONOMIC CONDITIONS

Khasay Mehdiyev

x.mehdiyev@atu.edu.az

Ruslan Mammadov

ruslanmmmedov099@gmail.com

Azerbaijan Technological University

The external economic activity of the enterprise consists of production and economic activity, which includes import and export of goods, joint entrepreneurship, as well as production, scientific and technical cooperation, etc.

Keywords: economy, economic activity, offer, enterprise.

BÖHRAN ƏLEYHİNƏ İDARƏETMƏNİN STRATEJİ VƏZİFƏLƏRİNİN HƏLLİ BALANSLAŞDIRILMIŞ GÖSTƏRİCİLƏR SİSTEMİNDƏN İSTİFADƏ ETMƏKLƏ

Orxan Muradov
omuradov1@std.beu.edu.az
Bakı Mühəndislik Universiteti

Böhran əleyhinə idarəetmənin effektivliyi, müəssisənin mövcud vəziyyətinin dəqiq qiymətləndirilməsini və strateji qərarların rasional əsaslandırılmasını tələb edir. Bu kontekstdə balanslaşdırılmış göstəricilər sistemi (Balanced Scorecard BSC) böhran vəziyyətində idarəetmə strategiyalarının formalaşdırılmasında mühüm alət rolunu oynayır. BSC yalnız maliyyə göstəricilərini deyil, həmçinin daxili biznes prosesləri, müştəri məmnuniyyəti və təşkilati inkişaf aspektlərini də əhatə etməklə, böhranın çoxölçülü təsirlərinin analizinə imkan verir.

Müasir iqtisadi şəraitdə müəssisələrin fəaliyyət mühiti sürətlə dəyişir və gözlənilməz risklərlə müşayiət olunur. Qlobal iqtisadi sarsıntılar, geosiyasi qeyri-sabitlik, pandemiyalar və təchizat zəncirindəki fasilələr kimi amillər təşkilatları daim böhran vəziyyətinə düşmək riski ilə üz-üzə qoyur. Belə bir kontekstdə, böhran əleyhinə idarəetmə yalnız reaktiv tədbirlər toplusu deyil, strateji düşüncə və uzunmüddətli planlaşdırma tələb edən kompleks idarəetmə forması kimi çıxış edir. Bu baxımdan, müəssisələrin yalnız böhranlara cavab vermə qabiliyyətini deyil, həm də çevikliyini, dayanıqlığını və rəqabət üstünlüyünü qorumaq imkanını artırmaq üçün müasir idarəetmə alətlərindən istifadə zərurəti yaranır.

Bu alətlərdən biri olan balanslaşdırılmış göstəricilər sistemi (Balanced Scorecard – BSC), müəssisənin fəaliyyətinin müxtəlif aspektlərini – maliyyə, müştəri, daxili proseslər və öyrənmə-inkişaf sahələrini – vahid bir çərçivədə birləşdirərək strateji məqsədlərin sistemli şəkildə həyata keçirilməsinə imkan verir. BSC-nin tətbiqi müəssisəyə yalnız cari göstəricilər üzərində deyil, həm də gələcəyə yönəlmiş idarəetmə strategiyalarının formalaşdırılmasında əsaslı dəstək verir

Tədqiqat metodu: Böhran şəraitində müəssisələrin uğurlu fəaliyyət göstərməsi, yalnız mövcud problemlərə reaksiya vermək deyil, eyni zamanda strateji baxış bucağından hadisələri əvvəlcədən görmək və qabaqlayıcı tədbirlər görmək qabiliyyətinə əsaslanır. Bu kontekstdə balanslaşdırılmış göstəricilər sistemi (BGS) böhran əleyhinə idarəetmədə strateji qərarların qəbulunu dəstəkləyən mühüm vasitə kimi çıxış edir. Təhlil göstərir ki, ənənəvi idarəetmə yanaşmalarında əsas diqqət yalnız maliyyə göstəricilərinə yönəlmişdir. Halbuki böhran şəraitində təşkilatın daxili prosesləri, insan resurslarının effektivliyi, texnoloji dayanıqlığı və müştəri münasibətləri də önəmli rol oynayır. BGS bu çətinlikləri aradan qaldırmaq üçün idarəetməyə dörd əsas perspektiv daxil edir: maliyyə, müştəri, daxili əməliyyatlar və öyrənmə-inkişaf. Məsələn, maliyyə perspektivində gəlir və xərclərin idarə edilməsi böhran dövründə likvidliyin qorunmasını təmin edir. Müştəri perspektivi isə bazarda mövqenin itirilməsinin qarşısını almağa yönəlir. Daxili proseslərin təhlili sayəsində təşkilatın zəif nöqtələri müəyyənləşdirilir və optimallaşdırma tədbirləri planlaşdırılır. Öyrənmə və inkişaf perspektivində isə işçilərin adaptasiya qabiliyyəti, innovasiya imkanları və strateji dəyişikliklərə cavabvermə potensialı qiymətləndirilir. [1, s. 26]

Strateji xəritələrin hazırlanması və göstəricilərin bir-biri ilə əlaqələndirilməsi nəticəsində müəssisənin böhran dövründə strateji məqsədlərə nə dərəcədə yaxın olduğu daha şəffaf şəkildə izlənilə bilər. BGS, həmçinin müəssisə daxilində kommunikasiya və əməkdaşlığın güclənməsinə, bütün səviyyələrdə strateji məqsədlərə uyğun fəaliyyətin təşviqinə xidmət edir. Beləliklə, təhlil nəticəsində aydın olur ki, balanslaşdırılmış göstəricilər sistemindən istifadə edən təşkilatlar böhranları yalnız idarə etməklə kifayətlənməyib, onları transformasiya və inkişaf fürsəti kimi dəyərləndirə bilirlər. Bununla yanaşı, balanslaşdırılmış göstəricilər sisteminin tətbiqi müəssisəyə yalnız daxili idarəetmə proseslərini optimallaşdırmaqla kifayətlənmir, eyni zamanda xarici mühitdə baş verən

dəyişikliklərə uyğunlaşma bacarığını da artırır. Xüsusilə böhran şəraitində qərar qəbulunun sürət və dəqiqliklə verilməsi mühüm əhəmiyyət daşıyır. Bu zaman BGS vasitəsilə qurulmuş indikatorlar erkən xəbərdarlıq siqnalı kimi çıxış edə bilər və menecerlərə riskləri vaxtında müəyyən edib, qabaqlayıcı tədbirlər planı hazırlamağa imkan yaradır.

BGS-in çevik quruluşu təşkilatın spesifik tələblərinə uyğun olaraq göstəricilərin dəyişdirilməsinə və yenidən prioritetləşdirilməsinə şərait yaradır. Məsələn, pandemiya və ya maliyyə böhranı kimi fövqəladə hallar zamanı müştəri davranışları dəyişə bilər, daxili təchizat zəncirləri pozula bilər və əmək bazarına təsirlər yarana bilər. Bu halda, öyrənmə-inkişaf perspektivinə aid göstəricilər (işçi motivasiyası, texnologiyaya uyğunlaşma qabiliyyəti və s.) daha prioritet hal alır, çünki uzunmüddətli rəqabət üstünlüyü məhz bu sahələrdə çeviklik və davamlılıq tələb edir. [2, s. 53].

Təhlil onu da göstərir ki, BGS-nin effektivliyi yalnız texniki göstəricilərin tətbiqindən deyil, həm də təşkilatdaxili mədəniyyətin və liderliyin strateji məqsədlərlə nə dərəcədə uzlaşmasından asılıdır. Əgər təşkilat bütün səviyyələrdə məqsədləri və göstəriciləri aydın şəkildə paylaşmırsa və işçilər prosesə cəlb olunmursa, bu sistem sadəcə formal alət kimi qalar. Buna görə də böhran şəraitində liderlik keyfiyyətləri, çevik təşkilati struktur və sistemli monitorinq prosesi balanslaşdırılmış göstəricilər sisteminin uğurla tətbiqi üçün mühüm şərtlərdir.

Nəticə:Böhran əleyhinə idarəetmənin strateji vəzifələrinin effektiv şəkildə həlli üçün balanslaşdırılmış göstəricilər sistemindən (BGS) istifadə müasir idarəetmə praktikasında zəruri və funksional bir yanaşmadır. Bu sistem müəssisənin fəaliyyətini yalnız maliyyə nəticələri ilə deyil, eyni zamanda müştəri məmnuniyyəti, daxili proseslərin səmərəliliyi və innovativ inkişaf qabiliyyəti ilə dəyərləndirməyə imkan verir. Böhran şəraitində bu dörd əsas perspektivin bir-biri ilə qarşılıqlı əlaqələndirilməsi, müəssisəyə vəziyyəti sistemli şəkildə qiymətləndirməyə, strateji prioritetləri düzgün müəyyənləşdirməyə və çevik qərar mexanizmləri formalaşdırmağa şərait yaradır.BGS həm də təşkilatın bütün strukturlarında strateji məqsədlərin vahid şəkildə paylaşılmasına, resursların daha səmərəli bölüşdürülməsinə və böhranın idarəolunan riskə çevrilməsinə imkan verir. Bu sistemin tətbiqi nəticəsində müəssisələr yalnız böhranlardan sağ çıxmaqla kifayətlənmir, eyni zamanda bu çətinlikləri inkişaf və transformasiya imkanlarına çevirmək potensialı qazanır. Nəticə etibarilə, balanslaşdırılmış göstəricilər sistemi böhranların idarə edilməsində strateji düşüncə tərzini təşviq edən, uzunmüddətli sabitliyi və davamlı inkişafı təmin edən mühüm idarəetmə aləti kimi çıxış edir. Bu baxımdan, balanslaşdırılmış göstəricilər sisteminin tətbiqi müəssisələr üçün yalnız bir hesabat mexanizmi deyil, eyni zamanda strateji çevikliyin artırılması və idarəetmədə qərarların əsaslandırılması üçün analitik bir platforma rolunu oynayır. Xüsusilə qeyri-müəyyən və dəyişkən iqtisadi mühitlərdə BGS-nin tətbiqi sayəsində təşkilatlar fəaliyyətlərini real zamanlı şəkildə təhlil edə bilir, riskləri proqnozlaşdıraraq önləyici addımlar ata bilir və böhranları daha sistemli şəkildə idarə edir.

BGS-nin çevikliyi və inteqrasiya olunmuş yanaşması onu həm fərqli sahələrdə – sənaye, xidmət, təhsil, səhiyyə və s. – tətbiqoluna bilən universal bir modelə çevirir. Bu sistem eyni zamanda qərarverici menecerlərə yalnız qısamüddətli nəticələrə fokuslanmaqdan uzaqlaşıb, uzunmüddətli dayanıqlı inkişaf meyarlarına yönəlmək imkanı yaradır. Müəssisə daxili proseslərdə səmərəliliyin artırılması, əməkdaşların motivasiyasının yüksəldilməsi, bazar payının qorunması və müştəri etimadının möhkəmləndirilməsi kimi əsas strateji məqsədlər balanslaşdırılmış göstəricilər vasitəsilə ölçülə və davamlı olaraq təkmilləşdirilə bilər.

BGS-nin uğurla tətbiq olunması yalnız texniki metodologiyaların deyil, eyni zamanda strateji liderliyin, təşkilati mədəniyyətin və sistemli düşüncə tərzinin formalaşmasını tələb edir. Təşkilatlar bu modeli tətbiq edərkən, göstəricilərin ölçülməsi və qiymətləndirilməsi ilə yanaşı, onların praktiki qərarlara çevrilməsi prosesini də daim izləməlidir.

ƏDƏBİYYAT

1. Lawrie G. & Cobbold I. Third-generation balanced scorecard: Evolution of an effective strategic control tool. International Journal of Productivity and Performance Management. 53(7). pp. 611–623. 2004
2. Ittner C. D. & Larcker D. F. Coming up short on nonfinancial performance measurement. Harvard Business Review. 81(11). 2003. pp. 88–95

SOLVING STRATEGIC TASKS OF CRISIS MANAGEMENT THROUGH THE USE OF THE BALANCED SCORECARD

Orkhan Muradov
omuradov1@std.beu.edu.az
Baku Engineering University

The effectiveness of anti-crisis management requires an accurate assessment of the current state of the enterprise and rational justification of strategic decisions. In this context, the balanced scorecard system (Balanced Scorecard BSC) plays an important role in the formation of management strategies in a crisis situation. BSC allows for the analysis of the multidimensional effects of the crisis, covering not only financial indicators, but also aspects of internal business processes, customer satisfaction and organizational development.

Within the framework of this approach, the strategic tasks of anti-crisis management, such as ensuring liquidity, optimizing costs, protecting core values and maintaining competitiveness, are linked to specific, measurable indicators. As a result, management can achieve the correct direction of resources and effective risk management by demonstrating a proactive, rather than reactive approach to the crisis. The balanced scorecard system also helps to structure organizational goals through strategic maps, which ensures that all employees act around a single goal in a crisis situation. Thus, the application of the BSC allows for the construction of anti-crisis strategies in a more flexible, measurable and implementable form. This creates an important foundation for businesses not only to survive, but also to develop by evaluating new opportunities.

Keywords: crisis, indicators, balanced indicators, strategic.

AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATA VƏ İDARƏETMƏYƏ KEÇİDİN BƏZİ PROBLEMLƏRİ

Azər Mürşüd oğlu Səfərov
azer.safarov@bk.ru
AR ETN İqtisadiyyat İnstitutu "Post-konflikt ərazilərin bərpası Elmi Mərkəzi"

Məruzədə dördüncü sənaye inqlabının tələblərinə cavab verən rəqəmsal iqtisadiyyata və rəqəmsal idarəetməyə keçidin təmin olunmasında, işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunda dövlət proqramlarından istifadənin əhəmiyyti qeyd olunur. Bu proqramların elmi cəhətdən əsalandırılması və bir-biri ilə əlaqəsinin gücləndirilməsi üçün müəyyən təkliflər irəli sürülür.

Dünyada iqtisadi inkişafın əsas trendi yeni Sənaye İnqilabının tələblərinə uyğun olaraq yaşıl energetika və müasir rəqəmsal texnologiyalara əsaslanan dayanıqlı inkişafa keçidin təmin olunmasından ibarətdir. Bu keçidin təmin olunması uyğun idarəetmə formalarının və mexanizmlərinin istifadəsini zəruri edir. Lakin bu keçidin təmin olunması yolunda müxtəlif tipli və müxtəlif səviyyəli maneələrin dəf olunması, konkret problemlərin həll olunmasına ehtiyac yaranır.

Bu cür problemlərdən danışanda ilk növbədə Azərbaycanın dövlət orqanlarında liberal bazar ideologiyasının hakim olmasını göstərmək lazımdır.

Bu ideologiyanın daşıyıcıları inanırlar ki, iqtisadiyyatın azad bazar modeli ən səmərəli sistemdir. Onların fikrincə bu sistem iqtisadiyyatın təbii inkişafına ən yaxşı şərait yaradır, azad rəqabət mexanizmi iqtisadiyyatın inkişafı üçün ən güclü stimulları təmin edir. Ona görə də dövlət özəl sektorun genişlənməsinə, rəqabət mühitinin sağlamlaşmasına çalışmalıdır. Özəl sahibkarlar isə yüksək mənfəət əldə edən ən səmərəli həlləri özləri

tapacaqlar, bu həlləri gerçəkləşdirmək üçün ən düzgün qərarları qəbul edəcəklər. Onlar tələbatları ödəyə biləcəkləri maddi nemətləri və xidmətləri bazara çıxararaq ölkəni təmin edəcəklər. Dövlətin vəzifəsi isə yalnız bazar mexanizmlərinin normal işləməsi üçün lazımi hüquqi çərçivəni yaratmaq və qorumaqdır. Dövlət bəzi lazımi hallarda əlavə stimullar yarada bilər, özəl sahibkarları müəyyən istiqamətlərə təşviq edə bilər!

Bu ideologiyanın tərəfdarları planlaşdırmanın bütün formalarını sosialist direktiv planlaşdırması kimi qələmə verir və ondan tamamilə imtina edirlər. Onların qəbul etdiyi universal idarəetmə metodu yalnız investorların bazar təşviqi metodudur. Bu ideologiyanın tərəfdarları hesab edirlər ki, vergi yükünü azaltmaq və kredit resursları təqdim etməklə investorları istənilən istiqamətdə fəaliyyətə təşviq etmək olar. Bu yol ilə istənilən Dövlət Proqramının da həyata keçirilməsinə nail olmaq olar.

Azərbaycanda iqtisadiyyatı idarəetmə sisteminin bir nömrəli problemi ondan ibarətdir ki, həmin sistemin bütün səviyyələrində qərar qəbul edənlər, dövlət sənədlərini hazırlayanlar və icra edənlər bu ideologiyanın daşıyıcılarıdır. Rəhbər kadrların seçilib təyin olunmasında qərb ölkələrində oxumuş və ixtisasartırma kursları keçmiş adamlara mütləq üstünlük verilməsi, eyni zamanda Azərbaycanda təhsil sisteminin çox aşağı səviyyədə olması belə bir vəziyyətin ölkədə qərar tutmasına gətirib çıxarmışdır. Belə bir atmosferin movcudluğu ona səbəb olmuşdur ki, hətta sovet dövründə təhsil almış və planlaşdırma təcrübəsini keçmiş tək-tək köhnə kadrlar belə o təcrübəni şüurlu şəkildə kənara atmış, bazar şüarlarının carçılarına çevrilmişlər. Beləliklə, sovet dövrünün planlaşdırma təcrübəsisindən tamamilə imtina olunması, dünya ölkələrinin proqramlaşdırma təcrübəsi kifayət qədər dərindən öyrənilməmsi, nəticədə ölkədə xeyli dərəcədə səthi və kifayət qədər əsaslandırılmamış proqramların təsdiq edilib icraata verilməsi praktikasına yol açmışdır. Zənnimizcə, bu cür halların qarşısının alınması, Dövlət Proqramlarının daha yüksək elmi səviyyədə hazırlanması, onların daxili balanslığına nail olunması və ümumi bir istiqamətə hədəflənməsi proqramların bir-biri ilə daha sıx şəkildə əlaqələndirilməsinə nail olmaq dövlət idarəçiliyinin təkmilləşdirilməsi yolunda atılmış vacib bir addım ola bilər.

Əslində bir-neçə sadə prinsipə əməl etməklə, deyilən nöqsanları aradan qaldırmaq, dövlət siyasətini həyata keçirməyin çox mühüm vasitəsi olan Dövlət Proqramlarının daha dərindən əsaslandırılmasına və bir-biri ilə daha sıx əlaqələndirilməsinə nail olmaq olar. Bu tip prinsiplərdən ikisini xüsusi qeyd etmək istərdim.

Bunlardan birincisi proqramın ilkin variantını hazırlayan təşkilatın diqqətlə seçilməsindən ibarətdir. Bu seçim zamanı ilk növbədə uyğun sahədə ixtisaslaşmış elmi tədqiqat mərkəzlərinə və onların problem üzrə topladıqları elmi praktiki baza əsas götürülməlidir. Bu cür ixtisaslaşmış elmi mərkəzlərə proqramın ilkin variantının hazırlanmasının tapşırırlması və sonradan həmin variantın icraçı dövlət qurumlarının iştirakı ilə korrektə edilib təkmilləşdirilməsi sənədin həm perspektiv inkişaf baxımından, həm də praktiki reallaşdırılma üçün daha əsaslandırılmış olmasına nail olmaq olar.

İkinci bir prinsip kimi sənədin hərtərəfli müzakirə üçün geniş ictimaiyyətə təqdim olunmasının vacibliyini göstərmək olar. Bu cür ictimai müzakirələr sənəddə diqqətdən qaçırılmış məsələlərin vaxtında nəzərə alnmasına, sənədin ilkin layihəsinə lazımi düzəlişləri etməklə onun daha əsaslı şəkildə hazırlanmasına nail olmaq olar. Bu cür ictimai müzakirələr sənəd layihəsinin çox müxtəlif tərəflərdən qiymətləndirilməsinə, bu qiymətləndirmələrin həm sənədin təkmilləşdirilməsində, həm də sənədin icrasında nəzərə alınmasına, ictimaiyyəti sənədin qəbul olunması və əməkdaşlığa hazırlamağa kömək edə bilər.

Yuxarıda ifadə olunmuş bu fikirləri əyani şəkildə izah etmək və əsaslandırmaq üçün konkret bir misala müraciət edək.

Məlum olduğu kimi, rəqəmsal iqtisadiyyata və rəqəmsal idarəetməyə keçidin təmin olunması ideyası "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində təsbit olunmuş və sonrakı bir-neçə proqram və konsepsiyalarda öz əksini tapmış konkret bir vəzifədir. [1] Lakin biz nə ilkin sənəddə, nə də ki, sonrakı sənədlərdə bu vəzifənin yeri-

nə yetirilməsinin kifayət qədər aydın mexanizmlərini tapa bilmirik. Bu yaxınlarda qəbul edilmiş Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyasında [3] ən sadə İKT vasitələrinin belə istehsalının təşkilini nəzərdə tutan hər hansı bir maddə belə formulə olunmayıb. Bununla da bütün sistemin idxaldan asılılığı ölkənin İKT vasitələrini ixrac edən ölkələrdən asılılığının əbədiləşdirilməsi və bu istiqamətdə elmi tədqiqatların mənasızlığı təsdiq olunur. Eyni zamanda bu sahə ilə sıx bağlı olan hərbi sənayenin, kosmik sənayenin və digər ən sadə istehsal sahələrinin belə rəqəmsallaşması imkanları bütünlüklə idxaldan asılı vəziyyətə salınır.

Bu cür daxili ziddiyətlər, balanssızlıqlar digər dövlət sənədləri ilə əlaqənin zəif ifadə olunması hallarının başqa bir tipik nümunəsi kimi Böyük Qayıdış I Dövlət Proqramını misal göstərmək olar. Bu proqramda işğaldan azad olunmuş ərazilərdə qurulan yeni iqtisadiyyatın hansı yollarla rəqəmsal bazaya keçiriləcəyi haqqında az-çox aydın bir izahat tapmaq mümkün deyil. Sənəddə böyük tikintilərin həyata keçirilməsi nəzərdə tutulur amma həmin tikintiləri təmin etmək üçün tikinti materialları istehsalının necə təşkil olunacağı göstərilmir; proqramda regionun yaşıl enerji zonasına çevrilməsi vəzifəsi qarşıya qoyulur amma yaşıl energetikanın sonrakı etaplarda hansı istehsal bazasında fəaliyyət göstərib inkişaf edəcəyi göstərilmir; proqramda əhalinin məskunlaşdırılmasının durmadan artırılması nəzərdə tutulur, amma məşğulluğu təmin edəcək iqtisadiiyaın ən ümumi parametrləri müəyyənləşdirilmir və bu iqtisadiyyatı qurmağın yeganə vasitəsi kimi təşviq metodlarına möhkəm inam ifadə olunur.

Beləliklə, ölkə miqyasında iqtisadi moderilizasiyanın və işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğunun, bütövlükdə rəqəmsal iqtisaddiyata və rəqəmsal idarəetməyə keçidin təmin edilməsinin ilkin şərti iqtisadi siyasətin və iqtisadi idarəçiliyin universal vasitəsi olan Dövlət Proqramların əsaslı tərtib olunması və icrasının səmərəli təşkil olunması dövlət idarəçiliyinin çox mühüm təkmilləşdirilmə istiqaməti ola bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında. URL: https://e-qanun.az/framework/46813
2. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında. URL: https://e-qanun.az/framework/50013 -
3. Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir. URL: https://president.az/az/articles/view/67938
4. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında. URL:https://e-qanun.az/framework/52757 -

CERTAIN CHALLENGES IN THE TRANSITION TO DIGITAL ECONOMY AND GOVERNANCE IN AZERBAIJAN

Azer Murshud oglu Safarov
azer.safarov@bk.ru
Institute of Economics of the Ministry of Science and Education, the Scientific Center for the Reconstruction of Post-Conflict Territories

The report highlights the significance of utilizing state programs in the transition to a digital economy and digital governance that meet the requirements of the Fourth Industrial Revolution, as well as in the construction of a new economy in the liberated territories. Several proposals are put forward to scientifically substantiate these programs and to strengthen their interconnection.

Keywords: market economy model, state programs, digital economy, digital governance, new economic development in liberated territories.

MÜASİR DÖVRDƏ "AĞILLI" LİMAN KONSEPSİYASININ ARTAN AKTUALLIĞI

Ənvər İsmayıllı
anvarrashidoglu@gmail.com
Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun
"Post-konflikt ərazilərin bərpası" elmi mərkəzi

Dünyanın Dördüncü Sənaye İnqilabına doğru addımladığı dövrdə bir çox ənənəvi sahələrdə, o cümlədən dəniz nəqliyyatı sektorunda transformasiya proseslərinin sürətlənməsi müşahidə olunur. Ötən ilin göstəricilərinə əsasən, beynəlxalq ticarətin təqribən 80 %-i məhz dəniz nəqliyyatı vasitəsilə aparılmışdır. Təbii ki, halhazırda mövcud olan tələtümlü geosiyasi şəraitdə, bir çox münaqişələrdən dolayı ənənəvi logistik marşrutların pozulması, ölkələrdən yeni həll yollarını tələb edir. Son dövrlərdə "ağıllı" liman anlayışının aktuallaşması səbəblərindən biri də budur.

Ağıllı limanlar dəniz logistikasının səmərəliyi və davamlılığın təkmilləşdirilməsi məqsədilə qabaqcıl texnologiyaların (IoT, Süni İntellekt, blokçeyn) əsasında fəaliyyət göstərir. Dünya Bankı tərəfindən təqdim olunan Logistika Performans İndeksinin bütün əsas parametrlərinin - gömrük prosedurlarının səmərəliliyi, infrastrukturun və logistika xidmətlərinin keyfiyyəti, yüklərin izlənmə və çatdırılma imkanlarının yaxşılaşdırılması üçün "ağıllı limanlar"-ın inşası vacib əhəmiyyət kəsb edir.

Beynəlxalq təcrübəyə nəzər salsaq görərik ki, Çin, Sinaqapur, ABŞ, Almaniya, Niderland kimi inkişaf etmiş ölkələrdə "ağıllı" limanların yaradılması son on il ərzində əsas prioritetlərdən birinə çevrilmişdir[1]. Avropanın ən böyük limanı olan Niderlandın Rotterdam limanının yük dövriyyəsi 2023-cü ildə 450 milyon ton təşkil etmişdir. Dəniz nəqliyyatı ilə daşınan yüklərin ümumi həcmi il ərzində təqribən 250 milyon ton olur[2]. 2021- ci ildən etibarən hava limanında tam avtomatlaşdırılmış konteyner terminalı fəaliyyət göstərir[3]. Qabaqcıl Anbar İdarəetmə Sisteminin (AİS) istifadəsi malların real zaman çərçivəsində izlənməsini və anbar yerlərinin optimallaşdırılmasını asanlaşdırır. Data Analitika və Süni İntellektin istifadə olunması ilə tələbatın proqnozlaşdırılması və marşrutların optimizasiyası məsələləri də xeyli dərəcədə sadələşir. Rotterdam limanından sonra Avropanın ən böyük limanlarından sayılan Almaniyanın Hamburq limanında isə "ağıllı" liman konsepsiyası iki aspekti özündə ehtiva edir - Ağıllı liman logistikası və Ağıllı liman energetikası. Malların nəqli zamanı bütün mərhələlərdə proseslərin avtomatlaşdırılması ətraf mühitin ekoloji vəziyyətinə də müsbət təsir göstərir, çünki, konteynerlərin emalının optimallaşdırılması karbon tullantılarının azalmasına səbəb olur. Bəllidir ki, enerji sərfinin bərpaolunan enerji mənbələri hesabına ödənilməsi həm də iqtisadi baxımdan daha qənaətli yoldur. Hamburq Limanında malların hərəkətinin, əmək proseslərinin təhlükəsizliyi, yükdaşıyan barjların rahat yerdəyişməsinə nəzarət etmək məqsədilə ötürücülərdən və ağıllı fənərlərdən istifadə olunur.

MDB məkanına nəzər salsaq, görərik ki, "ağıllı" limanların yaradılması ilə bağlı Rusiya Federasiyasında fəal təşəbbüslər irəli sürülür. Belə ki, ölkənin "2030-cu ilə qədər Nəqliyyat Strategiyası"- da öz əksini tapan əsas hədəflərdən biri yaxın 5 il ərzində dəniz nəqliyyatı sektorunun tam rəqəmsallaşmasıdır. Gözlənilir ki, Rusiya bu sahədə Qərb ölkələrindən daha çox, Çinin və Cənub-Qərbi Asiya ölkələrinin mövcud uğurlu təcrübəsindən istifadə edəcək. Azərbaycana gəldikdə isə, qeyd etməliyik ki, son illər Avrasiyanın əsas nəqliyyat-logistika qovşağına çevrilməsi hədəfi fonunda, ölkənin tranzit potensialının artırılmasına xüsusi diqqət yetirilir. Belə ki, 2023-cü ildə "Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımalarının təşviqinə dair 2024-2026-cı illər üçün Fəaliyyət Planı"-nı qəbul olunmuşdur. Əsas məqsəd və prioritet istiqamətlər isə aşağıdakılardı:

Məqsədlər:

- mövcud nəqliyyat infrastrukturunun yükötürmə qabiliyyətinin artırılması;
- tranzit əməliyyatlar zamanı Azərbaycan Respublikasının dövlət sərhədindən

buraxılış məntəqələrində sərhəd, gömrük, o cümlədən nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə sürətli keçidin təmin edilməsi;

- tranzit yükdaşımalar üzrə əməliyyatların optimallaşdırılması üçün yüksək texnologiyaların və innovativ həllərin tətbiqi;

Prioritet istiqamətlər:

- Fiziki infrastrukturun təkmilləşdirilməsi;
- Koordinasiya işinin gücləndirilməsi və Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təbliği və təşviqi;
- Normativ hüquqi bazanın təkmilləşdirilməsi.

Rəqəmsallaşma və yaşıl enerjiyə keçidin ölkənin tranzit potensialının artırılmasında mühim rolunu nəzərə alaraq, hökumət tərəfindən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun tərkib hissəsi olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanının modernizasiyasına doğru bir çox addımlar atılıb. Belə ki, hələ 2021-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının 2035-ci ilədək inkişaf strategiyası Avropa İttifaqı tərəfindən işlənilib və təhvil verilmişdir. İnkişaf strategiyasının mərkəzi ideyası onun "ağıllı" limana çevrilməsindən ibarətdir[4]. Limanın işində günəş və külək enerjisindən istifadə edilməsi, dəniz ticarəti zamanı şəffaflığın artırılması, gömrük prosedurlarının optimallaşması üçün blokçeyn texnologiyalarının tətbiqi istiqamətində işlər görülməkdə davam edir. Qeyd olunduğu kimi, bu sahədə Avropa təcrübəsi əsas olaraq götürülür. Azərbaycanın müxtəlif ölkələrdən gələn təşəbbüslərdə fəal iştirakı onun balanslaşdırılmış xarici siyasətinin təzahürüdür. Rusiya - Ukrayna müharibəsinin başlanması ilə aktuallığı artan Orta Dəhliz layihəsinin reallaşmasında Azərbaycanın rolu digər tərəfdaş ölkələr tərəfindən mütəmadi olaraq vurğulanır. Keçən ilin statistik göstəricilərinə əsasən, Bakı limanında 7,6 milyon ton yük keçirilib. 2023-cü ildə bu rəqəm 7,3 milyon tona bərabər olmuşdur.

Yekunda demək olar ki, Azərbaycanın hazırkı dövrdə öz nəqliyyat-logistika imkanlarının genişləndirilməsi həm İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış geosiyasi reallıqların həm də qlobal miqyasda baş verən siyasi, iqtisadi, texnoloji proseslərin transformasiya proseslərinin tələblərindən irəli gəlir, və milli maraqlara cavab verir. Zənnimizcə, "Ağıllı" liman konsepsiyasının gerçəkləşməsi prosesinin sürətli templərlə davam edəcəyi təqdirdə, gələcək illərdə Azərbaycanın bu sahədə artıq öz təcrübəsini bir sıra qonşu ölkələrə ötürmək potensialı, həmin ölkələrlə yeni əməkdaşlıq istiqamətlərini formalaşdıracaq və bu sferada ikitərəfli və çoxtərəfli inteqrasiya proseslərinin güclənməsinə təkan verəcək.

ƏDƏBİYYAT

1. https://www.unescap.org/sites/default/d8files/event-documents/SmartPortDevelopment_Feb2021.pdf
2. https://www.cdu.ru/tek_russia/articles/9/116/
3. https://rastamogka.net/rotterdam-glavnyj-port-zapadnoj-i-czentralnoj-evropy.html
4. https://az.trend.az/business/economy/3523243.html
5. Azərbaycan Respublikasının ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılmasına və tranzit yükdaşımaların təşviqinə dair 2024−2026-cı illər üçün fəaliyyət plani. https://president.az/az/articles/view/62315
6. Bakı Limanın 2035-ci ilədək inkişaf strategiyası açıqlanıb. https://az.trend.az/business/economy/3523243.html
7. Smart Ports Development Polices in Asia and Pacific. February 2021. https://www.unescap.org/sites/default/d8files/event-documents/SmartPortDevelopment_Feb2021.pdf
8. Самые большие ворота Европы. 2015.https://www.cdu.ru/tek_russia/articles/9/116/
9. Роттердам - главный порт западной и центральной Европы. https://rastamogka.net/rotterdam-glavnyj-port-zapadnoj-i-czentralnoj-evropy.html

THE GROWING RELEVANCE OF THE "SMART" PORT CONCEPT IN THE MODERN ERA

Anvar Ismayilli
anvarrashidoglu@gmail.com
Scientific Center "Restoration of Post-Conflict Territories", Institute of Economics, Ministry of Science and Education

This study is presented by Anvar İsmayilli, research fellow of the scientific center of "Rehabiliatition of the Post-Conflict Territories" of an Institute of Economics of the Ministry of Science and Education of the Republic of Azerbaijan. Conducted study touches upon an issue of increasing relevance of smart port notion. Briefly analzing modern trends and international experience in the mentioned sphere, author emphasize its importance for Azerbaijan as well.
Keywords: Smart ports, Azerbaijan, Baku International Sea Port.

SÜNİ İNTELLEKT VASİTƏSİ İLƏ MÜŞTƏRİ DAVRANIŞLARININ KREDİT RİSKİ ÜZƏRİNDƏ TƏSİRİNİN TƏHLİLİ

Aytac Rəhimli
aytacrahimli1@gmail.com
Bakı Dövlət Universiteti

Maliyyə sisteminin ən fundamental struktur bloklarından biri olan kredit mexanizmi ən mühüm risk növlərindən sayılır və borcalanın borcunu vaxtında qaytara bilmədiyi zaman baş verir. Kredit riskinin düzgün və vaxtında təhlili və maliyyə sabitliyinin təmin edilməsi bankların aktivlərinin keyfiyyətinə, likvidliyinə və ümumi maliyyə göstəricilərinə birbaşa təsir göstərir. Ənənəvi kredit reytinqi sistemləri çox vaxt müştərinin gəlir səviyyəsi, kredit tarixçəsi və məşğulluq vəziyyəti kimi maliyyə göstəricilərinə əsaslanır. Bununla belə, bu məlumatlar həmişə müştərinin risk profili haqqında kifayət qədər məlumat verə bilməz. Bu gün rəqəmsallaşmanın sürətlənməsi ilə birlikdə süni intellekt (AI), xüsusilə maşın öyrənməsi və məlumatların çıxarılması üsulları kredit riski təxminlərində təkcə müştərilərin gəlir səviyyəsi və ya kredit tarixçəsi üçün deyil, həm də alış-veriş vərdişləri, hesab ödəmə davranışları və mobil tətbiqdən istifadə kimi davranış məlumatları üçün istifadə olunur.

Süni intellekt texnologiyası sayəsində banklar müştərilərin kredit qeydləri, maliyyə vəziyyəti və biznes davranışı kimi geniş çeşidli məlumatlara daha ətraflı baxa bilər və bu, onlara müştərinin kredit statusunu daha dəqiq qiymətləndirməyə imkan verir. Bundan əlavə, AI-nin real vaxt rejimində monitorinq qabiliyyəti kredit riskinin dəyişmə meyllərini vaxtında müəyyən edə və banklara ani risk xəbərdarlığı təqdim edə bilər. Bu üsulla banklar risklər yaranmazdan əvvəl kredit itkiləri ehtimalını azaltmaq üçün effektiv strategiyalar hazırlaya bilərlər. AI dəstəyi ilə banklar kredit vəsaitlərinin axınını daha dəqiq proqnozlaş-dıra və planlaşdıra bilərlər. Böyük verilənlərin təhlilindən istifadə etməklə banklar müştərilərin maliyyə ehtiyaclarını və ödəmə qabiliyyətini başa düşür və kredit vəsaitlərinin bölüşdürülməsini və ödənilməsini məntiqi şəkildə təşkil edə bilirlər. Bundan əlavə, süni intellekt banklara kredit proseslərini təkmilləşdirməyə, biznes proseslərində səmərəliliyi artırmağa, kredit resurslarını vaxtında və dəqiq şəkildə əldə etməyə kömək edə bilər. [4]

Kredit riskinin idarə edilməsi bank işində proqnozlaşdırıcı analitikanın əsas tətbiq sahələrindən biridir. Banklar kreditlərin ödənilməməsi ehtimalını daha dəqiqliklə proqnozlaşdırmaq üçün maşın öyrənmə üsullarından istifadə edə bilərlər. Bu, borcalanların maliyyə tarixi, xərcləmə vərdişləri və sosial media fəaliyyəti kimi müxtəlif növ məlumatların araşdırılması ilə həyata keçirilir. Bu cür dərin qiymətləndirmələr banklara daha ağıllı kredit qərarları qəbul etməyə kömək edir və bununla da defolt riskini azaldır və kredit portfellərinin ümumi keyfiyyətini yaxşılaşdırır. [7]

Müştəri davranışını təhlil edərək kredit riskini effektiv proqnozlaşdırmaq üçün Süni Neyron Şəbəkələri (ANN), Dəstək Vektor Maşınları (SVM), Təsadüfi Meşələr (RF), Təbii Dil Emalı (NLP), Gradientlə Artırmalı Ağaclar (GBM, XGBoost) və digər maşın öyrənmə

alqoritmlərindən istifadə olunur.

Süni Neyron Şəbəkələri (ANN) insan beyni kimi bioloji sinir sistemlərinin məlumat emal tərzindən ilhamlanan və mürəkkəb məlumat əlaqələrini öyrənə bilən alqoritmlərdir. Bu alqoritmin müştəri davranışının təhlilində və defolt riskinin proqnozlaşdırılmasında səmərəli olduğu aşkar edilmişdir. Məsələn, bir araşdırmada ANN kredit kartı müştərilərinin defolt riskini proqnozlaşdırmaqda yüksək dəqiqlik dərəcələrinə nail olmuşdur. [3]

Yüksək ümumiləşdirmə imkanları ilə tanınan Dəstək Vektor Maşınlarına (SVM) mürəkkəb problemlərdə reqressiya və təsnifat tapşırıqlarını yerinə yetirmək üçün çox vaxt üstünlük verilir. Məhz, müştəriləri ödəniş vərdişlərinə görə "riskli" və "risksiz" kimi təsnif edən və struktur riskini minimuma endirməyi hədəfləyən statistik öyrənmə nəzəriyyəsinə əsaslanan maşın öyrənmə üsuludur. [2]

Təsadüfi meşə alqoritmi çoxsaylı qərar ağaclarından ibarətdir və təsnifat məsələlərində istifadə olunur. Hər bir qərar ağacı müştəri haqqında təsadüfi seçilmiş davranış və demoqrafik məlumatlar əsasında hazırlanır. Bu ağaclar müştərinin kredit öhdəliklərini vaxtında yerinə yetirə biləcəyini, mümkün gecikmələri, ümumi risk profilini və ya etibarlılıq xalını proqnozlaşdırmağa çalışır. [5]

Təbii Dilin Emalı (NLP) müştəri müraciət formaları, kredit sorğuları, sosial media məlumatları və müştəri xidmətləri ilə qarşılıqlı əlaqə kimi strukturlaşdırılmamış mətn məlumatlarını təhlil edərək kreditin ödənilməsi niyyəti, əvvəlcədən düşünülmüş riskə məruz qalmaları və müştərilərin maliyyə vəziyyəti ilə bağlı xüsusiyyətlər haqqında ipucu verir. [1]

Gradientlə Artırmalı Ağaclar (GBM və XGBoost) ardıcıl zəif öyrənənləri (çox vaxt qərar ağacları) öyrətməklə güclü proqnozlaşdırıcı modellər qurur. Hər bir yeni dizayn əvvəlki versiyalardakı səhvləri düzəltməyə diqqət yetirir. Bu proses, modelin dəqiqliyini artırarkən həddindən artıq uyğunlaşma ehtimalını azaltmaq üçün nizamlama üsullarını tətbiq edir. [8]. Chang və başqaları. (2024) müxtəlif ML və DL modellərini müqayisə etdi və XGBoost-un kredit kartı müştəriləri ilə bağlı araşdırmalarında ən yüksək dəqiqliyə (99,4%) sahib olduğu qənaətinə gəldilər.

ƏDƏBİYYAT

1. Eppright C. Doğal dil işleme (nlp) nedir?, OCİ. 2021, March 25
2. Kendirkıran G. & Doğan S. Makine öğrenimi teknikleri ile kredi risk tahmininde yeniden örnekleme yöntemlerinin karşılaştırılması. Söke İşletme Fakültesi Dergisi. 1(2), 2024. pp.48–60
3. Tütüncü T.E., Gürsakal S. Kredi temerüt riskinin tahmin etmede makine öğrenmesi algoritmalarının karşılaştırılması. Avrupa Bilim ve Teknoloji Dergisi. 50. 2023. pp.14-22
4. Bi S. & Bao, W. İnnovative application of artificial intelligence technology in bank credit risk management. İnternational Journal of Global Economics and Management. 13(2). 2024. pp.45–62
5. Carmody E. & Ajani T. Predicting credit risks. İssues in information Systems. 24(4). 2023. pp.25–39
6. Chang V., Sivakulasingam S., Wang H. Wong S. T., Ganatra M. A. & Luo J. Credit risk prediction using machine learning and deep learning: A study on credit card customers. Risks. 12(11). p.174. 2024
7. Leo M., Sharma S. & Maddulety K. Machine learning in banking risk management: A literature review. 2019
8. Tian Z., Xiao J., Feng H. & Wei Y. Credit risk assessment based on gradient boosting decision tree. Procedia Computer Science. 174. 2020. pp. 150–160

ANALYSIS OF THE IMPACT OF CUSTOMER BEHAVIOR ON CREDIT RISK THROUGH ARTIFICIAL INTELLIGENCE

Aytaj Rahimli
aytacrahimli1@gmail.com
Baku State University

Recently, the role of artificial intelligence (AI) algorithms in the management of credit risk within the banking sector has increased significantly. In contrast to conventional credit rating systems that rely solely on customers' financial histories, AI models allow for a more accurate assessment of credit risk by taking into account customer behavior and digital data. Algorithms can assess an individual's risk profile through the analysis of consumption habits, payment patterns, and mobile application usage characteristics. Consequently, in this field, models such as Artificial Neural Networks (ANN), Support Vector Machines (SVM), and Extreme Gradient Boosting (XGBoost) are distinguished by their superior predictive performance. Unstructured data such as customer complaints and social media are analyzed through NLP. Random Forests (RF) and Gradient Boosting Trees (XGBoost) provide high-accuracy predictions of credit obligations by taking advantage of multiple decision trees. Artificial intelligence can thus detect nuances that increase or decrease the probability of loan repayment. Providing early warning of potential risks allows banks to gain a strategic advantage. As a result, banks can reduce loan losses and lower overall portfolio risk with these technologies. Thus, AI provides flexibility and innovation in risk assessment policies. However, ethical and privacy issues should not be ignored.

Keywords: AI, credit analyse, customer behavour, mashine learning algorithms.

THE IMPACT OF INTERNATIONAL BUSINESS ON BUSINESSMEN'S STRATEGIC DECISIONS UNDER CONDITIONS OF ECONOMIC UNCERTAINTY

Nona Akhvlediani
Mariami Akhvlediani
akhvlediani.mariami@atsu.edu.ge
Akaki Tsereteli State University

Keywords: hybrid cars, energy performance, energy efficiency, sustainable development, energy recovery, innovative technologies.

REFERENCES

1. Ehsani M., Gao Y. & Emadi A. Modern Electric, Hybrid Electric, and Fuel Cell Vehicles: Fundamentals. Theory, and Design. CRC Press. 2020
2. Chan C. C. The state of the art of electric, hybrid, and fuel cell vehicles. Proceedings of the IEEE. 109(6). 202. pp.1047-1074
3. Mi C., Masrur M. A. & Gao D. W. Hybrid Electric Vehicles: Principles and Applications with Practical Perspectives. Wiley. 2022
4. 4. Yilmaz M. & Krein P. T. Review of battery charger topologies, charging power levels, and infrastructure for plug-in electric and hybrid vehicles. IEEE Transactions on Power Electronics. 28(5). 2020. 2151-2169
5. Rezaei M. & Zhang H. Advanced Energy Management Strategies for Hybrid Electric Vehicles: A Review. Energies. 16(2). 2023. 789

SOFT LAW AS A TOOL FOR SELF-REGULATION OF HR PROCESSES IN MODERN BUSINESS

Tetiana Hlushko
hlushkote@khmnu.edu.ua
Khmelnytskyi National University

The paper explores the importance of Soft Law in modern HR management as a means of forming an ethical corporate culture and flexible self-regulation of personnel. Special emphasis is placed on the transformation of HR compliance in international companies, where soft law acts as a tool for trust and responsible management.

In the 21st century, the business community is faced with the need to respond promptly to challenges arising in the field of personnel management: from digitalization and remote work to ethical standards and inclusion. In conditions where traditional labor legislation does not always have time to adapt to rapid changes, the so-called "soft law" (Soft Law) comes to the fore - a toolkit that, although not legally binding, actually regulates the behavior of participants in labor relations. [5] This is of particular importance in the field of HR as a sensitive, dynamic and socially significant element of modern business. In other words, Soft Law today is a civilizational tool that creates a company's culture from within.

Soft Law is a set of informal norms that are formed within organizations or professional communities and are of a recommendatory, declarative or ethical nature. In the HR context, Soft Law includes [4]:

- Codes of ethics and conduct;
- Corporate HR policies;
- Recommendations of the International Labor Organization;
- ESG principles (environmental, social, corporate governance);
- Declarations on compliance with equality and inclusion;
- Instructions on responding to ethical violations;
- Internal guidelines on recruiting, adaptation, leadership.

Although these documents are not legally binding, their compliance becomes a marker of the company's reliability and responsibility in the eyes of employees, partners, investors and society.

Self-regulation in HR means that the company sets its own standards of interaction with employees that complement or even exceed the requirements of the law. Traditionally, HR compliance was considered as legal compliance with labor legislation. However, today its paradigm is shifting (table 1) [4,5]:

Table 1.Transformation of HR compliance functions based on Soft Law

In the previous period	Currently
Control over compliance with the norms of the Labor Code	Forming ethical and inclusive policies
Legal restrictions	Voluntary value frameworks
Formal verification of documents	Audit of corporate culture and trust

Soft Law plays the role of an inter-legislative and practical bridge in this process, which allows [3]:

- to flexibly respond to new challenges;
- to ensure compliance with international standards;
- to form a sustainable corporate culture;
- to increase trust among employees and partners;
- to prevent conflicts and form a sustainable reputation of the company.

The application of Soft Law in HR processes has its advantages and risks (Table 2).

Table 2.Advantages and risks of implementing Soft Law in HR processes

Benefits	Risks
Flexibility – the company quickly forms rules without waiting for legislative changes	Lack of legal force – such documents may not be binding in court
Prevention – helps prevent conflicts before they escalate	Formality – if policies exist only "on paper", they do not work
Increasing trust – employees see clear, ethical and transparent norms	Resistance to change – the implementation of new standards often faces internal resistance
Strengthening corporate image – the company demonstrates its responsibility	Ambiguous interpretation – without clear instructions, employees may understand the rules differently
Unification of international practices – Soft Law helps synchronize HR actions in different jurisdictions	

The code of conduct in international companies (Google, IKEA, Nestlé) is built on rules regarding diversity, language of communication, and conflict resolution. The Deloitte code of conduct defines ethical rules for all countries where the company operates, even if some aspects are not regulated by local law. Microsoft's diversity and inclusion policy operates globally - and is part of their HR compliance system, which is recognized at the ESG level. The focus is not only on legal, but also on moral responsibility to the employee. In modern business, especially in the context of digital transformation, remote work, and hybrid formats, the role of Soft Law will grow. Instead of formal control, more and more companies are implementing the principles of trust, transparency, and self-discipline. In the future, this may become the basis for creating new labor standards - more flexible, ethical, and adaptive. [1,2]

Soft Law is an effective tool for self-regulation of HR processes, which allows businesses to act proactively, ethically, and responsibly. In the face of global competition and social sensitivity of employees, companies that implement Soft Law standards gain reputational, social, and economic benefits.

Keywords: Soft Law, HR compliance, corporate culture, business ethics, corporate self-regulation, ESG principles.

REFERENCES

1. International Labor Organization (ILO). Guiding principles on business and human rights. Geneva: ILO. 2020
2. Nestlé's Code of Corporate Ethics. Nestlé Global. 2022
3. Miskelly G. HR compliance and the rise of soft law: New approaches to ethical employment. Harvard Business Review. April 2020
4. Bashynska I., Malynovska Y., Kolinko N., Bielialov T., Jarvis M., Kovalska K., Saiensus M. Performance assessment of sustainable leadership of enterprise's circular economy-driven innovative activities. Sustainability. Vol. 16 (2). 2024. 558
5. Business entry into the foreign market: what you need to know about compliance control? LIGA:ZAKON. 2023

BİZNES FƏALİYYƏTİNİN İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Oktay Məmmədov
memmedovoktay93@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Azad rəqabətin inkişafı şəraitində idarəetmə formaları və onun təşkilat quruluşunun yeni istehsal münasibətlərinin xarakterinə uyğun olaraq təkmilləşdirilməsi biznes fəaliyyətinin davamlı inkişafının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Biznes münasibətlərinin bazar təsərrüfatçılıq sisteminin tələblərinə uyğunlaşdırılması, yeni mülkiyyət münasibətləri yaradılması baxımından bütövlükdə bu sferanın səmərəli şəkildə idarə edilməsi istər respublika, istər regional və istərsə də biznes subyektləri səviyyəsində təkmilləşdirilməlidir.

Son illərdə həyata keçirilən təşkilati-iqtisadi tədbirləri nəzərə alaraq idarəetmənin funksiyaları müəyyən edilərkən daha çox sərbəstliyin artdığını, xüsusi mülkiyyətçilər yarandığını nəzərə alaraq idarəetmə funksiyalarının təkmilləşdirilməsinə diqqət yetirilir. Biznes subyektləri səviyyəsində idarəetmə funksiyaları bazar iqtisadiyyatı dövründə onun fəaliyyət prinsiplərinə uyğun olaraq reallaşdırıla bilər.

Biznesin inkişafının idarə edilməsinə yeni müştərilərin tapılması və onlarla əlaqələrin qurulması kimi mühüm vəzifələrin yerinə yetirilməsi mexanizmi kimi də baxılır. Əslində, bu, problemlər yalnız qismən həll edə bilən, bu istiqamətin kifayət qədər məhdud bir mahiyyətidir. Çünki biznesin inkişafı konsepsiyası yalnız müəyyən bir zamanda dövriyyənin artımını deyil, uzunmüddətli perspektivdə şirkətin gəlir səviyyəsinin yüksəlməsini nəzərdə tutur, eyni zamanda gələcək artım üçün fərqli, daha yüksək bazanı təmin edir. [2, s.79]

İqtisadi proseslərə yanaşma baxımından biznesin idarə edilməsini müxtəlif növlərə bölmək olar: klassik inzibati-iqtisadi model – biznes subyekti davamlı işləyən orqanizm kimi qəbul edilir. Belə bir modeldə menecerin vəzifələri prosesə başlamaq, istehsalın təşkil edilməsi və satışın qurulmasıdır. İstehlak malları sektorunda istehsalçılar tez-tez belə modellərə əməl edirlər; layihə yanaşması adətən innovativ sahələrdə istifadə olunur. Bu seçimdə layihənin aydın başlanğıcı və sonu, məqsədləri, son tarixləri var. Məhsul yanaşması müəssisənin məhsulun sürətlə yaradılmasına, bazara çıxarılmasına və tədricən təkmilləşdirilməsinə diqqət yetirdiyi sistemdir. Strategiyanın əsasını müştərinin nəyə ehtiyacı olduğunu öyrənmək, şirkət üçün ən aşağı qiymətə ona verməkdir. [3, s.150]

Biznesin inkişafının idarə edilməsinin əsas inkişaf meylləri biznes fəaliyyətinin yaxşılaşdırılması üçün strateji fəaliyyətlərlə bağlıdır. Bu, gəlirlərin, mənfəətin artması, şirkətin özünün ölçüsü, mövcudluq coğrafiyasının genişlənməsi və s. kimi mühüm məsələləri əhatə edir. Əslində menecerlər bu şəkildə hər hansı bir fəaliyyətlə bağlı göstəricilərin artmasının onun inkişafında əsas məsələ olduğuna inanır. Bununla belə, adətən hər hansı bir təşkilatın biznes strategiyası şirkətin iqtisadi inkişafının bütün bu istiqamətlərini ehtiva edir və onun həyata keçirilməsi əsasən marketinq və satış funksiyalarına həvalə edilir. Biznesin inkişafı bu sahələrin başqa adıdır və kommersiya strukturunun fəaliyyətinə strateji baxışın ekvivalentidir. Əlbəttə ki, burada qarşılıqlı əlaqə var, amma bu, o qədər də birbaşa deyil. [1, s.46] Əslində, biznesin inkişafının məqsəd və vəzifələri bazarda mövcud imkanların öyrənilməsi, onları şirkətin təklif etdikləri və istehlakçıların hədəf auditoriyasının almaq istədikləri ilə əlaqələndirilməsi ilə bağlıdır. Bu funksiyanın əsas prinsipləri mövcud boşluqları bərabərləşdirmək və artıq əlavə gəlirə çevrilə bilən əlavə dəyər yaratmaqdır. Təşkilatda biznesin inkişafı üçün seçimlərə aşağıdakı vəzifələrin idarə edilməsi daxildir:

- yeni bazarların müəyyən edilməsi və daxil olması. Bu, xarici mühitin verdiyi əlavə imkanların və ya təşkilatın özünün tam reallaşdırılmamış potensialının axtarışı deməkdir;
- mövcud biznes portfelinin təkmilləşdirilməsi, yəni əldə edilmiş bazar mövqelərinin yaxşılaşdırılması və şirkətin rəqabət qabiliyyətinin və bazar payının artırılması;

- şirkətin mövcud fəaliyyətinin məhsuldarlığını və gəlirliliyini artırmaq üçün biznes proseslərinin təkmilləşdirilməsi;

- biznes modelinin transformasiyası, yəni yeni dəyər yaratmaq üçün təşkilati dəyişikliklərin təhlili.

Sadalanan vəzifələrin xüsusiyyətlərindən belə çıxır ki, onların bütün növlərini bir anda əhatə etmək mümkün deyil. Biznesin inkişafının prioritetləri xarici mühit və təşkilatın özü inkişaf etdikcə dəyişir. Bundan əlavə, bu, təhlildən layihənin yaradılmasına, icrasına və yenidən tədqiqat və planlaşdırmaya qədər sahənin idarə edilməsi mərhələlərin müntəzəm dövrünü əhatə edir. Beləliklə, biznesin inkişafı funksiyasını yeni təşəbbüslər üçün sahibkarlıq ideyaları mərkəzi kimi müəyyən etmək olar ki, onların həyata keçirilməsi şirkətin bazarda mövqeyini gücləndirir.

ƏDƏBİYYAT

1. İbrahimov İ.H. Sahibkarlığın fəaliyyətinin tənzimlənməsi məsələləri. Bakı. 2010. 248 s.
2. Manafov Q.N. Sahibkarlıq nəzəriyyəsi. Dərs vəsaiti. Bakı. "İqtisad Universiteti" nəşriyyatı. 2011. 158 s.
3. Рубин Ю. Б. Разработка конкурентных стратегий. Современная конкуренция. Том 8. № 6 (48). 2014. с. 102-123

IMPROVING BUSINESS PERFORMANCE MANAGEMENT

Oktay Mammadov
memmedovoktay93@gmail.com
Azerbaijan State Agricultural University

The improvement of management forms and organizational structures in accordance with the nature of new production relations in the context of the development of free competition is of great importance for ensuring the sustainable development of business activities. The effective management of this sphere as a whole, in line with the requirements of the market economy system and the establishment of new property relations, should be enhanced at the national, regional and business entity levels.

Keywords: business, strategy, manager, perspective, model.

AQROBİZNESİN SOSİAL PROBLEMLƏRİN HƏLLİNƏ TƏSİRİ

Səid Azər oğlu Əsədzadə
Mehriban Cabir qızı Həsənova
said.asadov.054@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Aqrobiznes sferasında iqtisadi münasibətlərin müasir tələblərə uyğunlaşdırılması bu sahədə fəaliyyət göstərən subyektlərdə idarəetmənin sosial aspektlərinin önə çəkilməsini şərtləndirir. Bazar münasibətlərinin formalaşması nəticəsində ən aktual sosial problemlərin həlli aqrar sahənin kommersiyalaşdırılmasına, kənd əhalisinin həyat keyfiyyətinin və səviyyəsinin yüksəlməsinə səbəb ola bilər. Bu baxımdan kənd yerlərində sosial yönümlü əmtəə və xidmətlər bazarının inkişafı labüddür və istehlakçıların sosial vəziyyətinin yüksəlməsinə xidmət edir.

Aqrobiznesin sosial-iqtisadi mahiyyəti onun aşağıdakı əsas müddəalara uyğunluğundan ibarətdir: sosial məsuliyyətini artırmaq ehtiyacı; bazar münasibətləri siyasətinin optimallaşdırılması; kənd əhalisi və idarəetmə strukturları ilə münasibətlərin uyğunlaşdırılmasına nail olmaq; kənd təsərrüfatı müəssisələrinin fəaliyyətinin davamlılığını yaxşılaşdırmaq üçün motivasiya amillərindən istifadə.

Muzdlu əməyin yaranması ilə yaranan biznesin sosial məsuliyyəti tədricən dəyişən makroiqtisadi və sosial şəraitə uyğunlaşaraq yeni formalar alır. Belə vəziyyətin yaranmasının əsas səbəblərindən biri motivasiya ilə bağlıdır. Motivasiya variantının seçilməsi xarici amillərdən, o cümlədən əməkdaşlığın sivil formalarının inkişaf səviyyəsindən asılıdır:

iqtisadi fəal əhalinin payı; dövlətin sosial-iqtisadi və kənd təsərrüfatı siyasəti; kollektiv kənd təsərrüfatı müəssisələri daxilində və kollektiv və şəxsi təsərrüfatlar arasında maraqların birləşdirilməsi variantları; həyatın normal çoxalma prosesini təmin etməyə imkan verən müəyyən bir yaşayış məntəqəsində əhalinin əksəriyyətinin sosial ehtiyaclarının istehlak səbəti daxilində ödənilmə səviyyəsi. [2, s.417]

Qeyd edilənlər, ilk növbədə, kənd təsərrüfatı kooperasiyasının sivil formalarının imkanlarından istifadənin genişliyinə aiddir. Bunlara ənənəvi olaraq kənd təsərrüfatı istehsalçılarının özləri tərəfindən yaradılan və onların mülkiyyəti olanlar daxildir. Yuxarıda göstərilən formalardan hər hansı birinin kooperativi yalnız onu yaradanların mənafeyindən, yəni kəndlilərin kollektiv mənafeyindən və müəyyən xidmətlərin istehlakı üçün müəyyən edilmiş normalar çərçivəsində kooperativin hər bir üzvünün mənafeyindən çıxış edir. Burada kooperativin təsisçilərinə göstərdiyi xidmətdən ən yüksək nəticələrin əldə edilməsi keyfiyyətli xidmət vasitəsilə kooperativ işçilərinin və onun təsisçilərinin özlərinin həvəsləndirilməsi ilə təmin edilir. [1, s.276] Və sivil aqro-kooperasiya aqro-sahibkarlıqla məşğul olan kənd əhalisinin məişətinə möhkəm şəkildə daxil olana qədər, onun motivasiya davranışında kollektiv maraqların xeyrinə heç bir dəyişiklik baş vermir. Baxmayaraq ki, belə maraq, məsələn, vergitutma və ya kreditləşmənin müvafiq mexanizmi vasitəsilə, xüsusən də aqrobiznes sahəsində yaradıla bilər.

İkinci komponent iqtisadi fəal əhalinin payıdır ki, bu da ənənəvi olaraq əhalinin iqtisadi fəaliyyətinin ölçülməsi üçün müəyyən edilmiş yaşda olan, mal və xidmətlərin istehsalı üçün işçi qüvvəsi təklifini təmin edən hissəsi kimi başa düşülür.

Növbəti komponent dövlətin sosial-iqtisadi və aqro-ərzaq siyasətidir. Sosial-iqtisadi siyasət birbaşa kənd təsərrüfatı müəssisələrinin əmək kollektivlərini əmək məhsuldarlığının və kənd təsərrüfatı məhsullarının rəqabət qabiliyyətinin artırılmasına istiqamətləndirən motivasiya mexanizminin həyata keçirilməsinin mümkünlüyünə təsir göstərir.

Aqrobiznesin inkişafı uzunmüddətli perspektivdə bazarın bütün əhali qrupları üçün əlçatan olan yüksək keyfiyyətli ərzaq məhsulları ilə dolmasını təmin edən dayanıqlı, səmərəli fəaliyyət göstərən aqrar istehsalın formalaşdırılmasını rəhbər tutmalıdır. Bu məqsədə nail olunması aqrar sahədə təbii, maddi və əmək ehtiyatlarından səmərəli istifadəyə imkan verən səmərəli institusional strukturun formalaşdırılması, istehsala ünvanlı dəstəkləyici qiymət, maliyyə, dövlət dəstəyi yolu ilə dövlət dəstəyi əsasında təmin edilir.

Dövlətin sosial sahədə vəziyyəti sabitləşdirmək üçün həyata keçirdiyi çoxsaylı tədbirlər nəticəsində yaranan bəzi müsbət dəyişikliklərə baxmayaraq, kəndin sosial sferasında problemlər hələ də tam həll olunmamışdır. Xüsusilə sosial infrastruktur potensialında geriləmələr müşahidə edilməkdədir. Ona görə də indiki mərhələdə aqrobiznes sferasında istehsalla yanaşı, kəndin sosial sferasında çoxstrukturlu sistemin inkişafını təmin edən kompleks yanaşma tələb edilir.

ƏDƏBİYYAT

1. Mahmudov M.M. Regionların sosial-iqtisadi inkisafının tənzimlənməsi. Bakı. 2011. 370 s.
2. Газизов Р.М. Зарубежный опыт развития сельских территорий. Молодой ученый. №2. 2014. с. 416-418.

THE IMPACT OF AGRIBUSINESS ON SOLVING SOCIAL PROBLEMS

Said Azer oglu Asadzadeh
Mehriban Jabir gizi Hasanova
said.asadov.054@gmail.com
Azerbaijan State Agricultural University

The adaptation of economic relations in the agribusiness sphere to modern requirements necessitates emphasizing the social aspects of management among the entities operating in this field. As market relations take shape, solving the most pressing social problems can lead to the commercialization of the agricultural sector and to the

improvement of the quality and standard of living in rural areas. In this context, the development of a socially oriented market for goods and services in rural areas is essential and serves to enhance the social well-being of consumers.

Keywords: agribusiness, social responsibility, optimization, collective, enterprise.

RƏQƏMSAL İQTİSADİYYATDA DAXİLİ AUDİTİN ROLU

Niyaz Nizami oğlu Məmmədov
mammadovniyaz@mail.ru
Nurçin İlham qızı Alışova
nurcinalisova@mail.ru
Azərbaycan Dövlət Aqrar Universiteti

Son illərdə sürətlə inkişaf edən rəqəmsal iqtisadiyyat informasiya texnologiyalarının təsiri ilə yeni biznes modellərinin formalaşmasına səbəb olmuşdur. Bu transformasiya həm də nəzarət və qiymətləndirmə mexanizmlərinin təkmilləşdirilməsini zəruri etmişdir. Rəqəmsal mühitdə təşkilatların davamlılığı, şəffaflığı və risklərin idarə olunması baxımından daxili auditin rolu getdikcə artır.Rəqəmsal iqtisadiyyat – elektron ticarət, bulud texnologiyaları, süni intellekt, Big Data və blokçeyn kimi innovativ texnologiyaların istifadəsinə əsaslanan iqtisadi fəaliyyət formasıdır [2]. Bu texnologiyalar daxili audit üçün həm yeni imkanlar, həm də yeni çağırışlar –yanaaşmalar formalaşdırır.

1. Avtomatlaşdırma - daxili audit prosesləri robotlaşdırılmış proses avtomatlaşdırılması (RPA) və süni intellektlə daha çevik və effektiv icra oluna bilir.

2. Analitik alətlər- böyük verilənlərin təhlili auditorlara daha dərindən və real vaxtda məlumatları qiymətləndirmək imkanı verir.

3. Risk əsaslı yanaşma-rəqəmsal iqtisadiyyat yeni növ risklər (məsələn, kibertəhlükəsizlik) yaratdığından, daxili auditin riskləri erkən müəyyən edib tədbir görməsi vacibdir [1].

Rəqəmsal texnologiyalar daxili auditin effektivliyini artırmaqla yanaşı, audit komandasının bilik və bacarıqlarına olan tələbləri də dəyişmişdir[6]. Auditorlar artıq yalnız maliyyə göstəricilərini yoxlamır, eyni zamanda informasiya sistemlərinin təhlükəsizliyini, verilənlərin doğruluğunu və əməliyyatların rəqəmsal uyğunluğunu da analiz edirlər [3;5]. Tədqiqatımızı bu istiqamətdə "Azərsun Holdinq" in göstəriciləri əsasında yerinə yetirmişik. Hesabatlar göstərir ki, "Azərsun Holdinq"in yüksək səviyyəli komitəsi çox vaxt gələcəyi fəal şəkildə idarə etməkdənsə, keçmişin monitorinqi və şərhi ilə həddindən artıq məşğul olur. Sözsüz ki, Aktiv və Passivlərin Struktur Auditi (APSA) Baş Komitəsi idarəetmə orqanının müəyyən etdiyi risk istiqamətinə əməl olunmasını təmin etmək və daha geniş idarəetmə orqanına yenilənmiş risk məlumatlarını təqdim etmək üçün bəzi monitorinqlər aparmalıdır [4]. Bununla belə, yüksək səviyyəli APSA komitələri gələcək planların, müəssisənin və lazım olduqda qrup səviyyəsində strategiyanın aktiv və öhdəliklərə təsirinə daha çox diqqət yetirirlər.

Cədvəl 1.2022 və 2023-cü illər üzrə "Azərsun Holdinq"in göstəricilərinin strukturu və dinamikası, manat

Göstəricilər	2023	2022
Nizamnamə kapitalı	72521587	72521587
Məhsul satışından əldə olunan gəlir	822709395	792758013
Satışların və xidmətlərin maya dəyəri	698478663	694504155
İnzibati və ümumi xərclər	43058566	46367016
Satış və paylaşdırma xərcləri və ya reklam xərcləri	8130850	9240889
Maliyyə xərcləri	6008835	7128246

Mənfəət vergisi	11588378	10325685
Xalis mənfəət	46670643	27105753

Mənbə: Azərsun Holdinqin rəsmi saytı.

Ölkədə baş vermiş iqtisadi böhran holdinqin gəlirlərinin artım tendensiyası o qədər də yüksək deyil. Bu da hazırda bazarda qiymətlərin durmadan artması fonunda holdinq məhsullarının qiymətini artırdığı üçün həmin məhsullara olan tələbat azalmışdır. Belə ki, yerli bazarda digər rəqib müəssisələrin məhsulları Azərsun Holdinqin məhsulları ilə müqayisədə nisbətən ucuz olduğu üçün istehlakçılar rəqib müəssisələrin məhsullarını almağa üstünlük verirlər. **Tədqiqatın elmi yeniliyi**.Bu tədqiqatda rəqəmsal iqtisadiyyat şəraitində daxili auditin transformasiyası və müəssisənin maliyyə dayanıqlılığına və strateji idarəetməyə təsiri ilk dəfə olaraq sistemli şəkildə Azərsun Holdinq timsalında öyrənilmişdir. Daxili auditin yalnız nəzarət və hesabat deyil, həm də risklərin proaktiv idarə olunması, strateji qərarların dəstəklənməsi və rəqabət qabiliyyətinin qorunması funksiyalarını yerinə yetirməsi, rəqəmsal mühitdə onun çoxölçülü funksional imkanlarının yeni yanaşma ilə qiymətləndirilməsi bu tədqiqatın elmi yeniliyini təşkil edir.

Nəticə. Müəyyən edilmişdir ki, Azərsun Holdinqdə daxili audit sisteminin əsas prioritetlərindən biri aktiv və passivlərin struktur balansını qorumaq və risk iştahına uyğun siyasət yürütməkdir.Daxili auditin yüksək səviyyəli komitələri, xüsusilə APSA vasitəsilə likvidlik, faiz dərəcəsi və maliyyələşdirmə risklərinin idarəsi təmin olunur. Əldə edilən statistik göstəricilər göstərir ki, maliyyə və inzibati xərclərin artmasına baxmayaraq, müəssisə xalis mənfəətini artırmağa nail olmuşdur. Bu isə daxili nəzarət və effektiv audit mexanizmlərinin səmərəli işlədiyini göstərir.SWOT təhlili göstərir ki, daxili audit sistemi müəssisənin strateji idarəçiliyinə real töhfə versə də, hüquqi və texniki dəyişikliklər fonunda bir sıra zəifliklər və təhlükələr mövcuddur [7; 8] .

Təkliflər. Daxili auditin rəqəmsal alətlərlə inteqrasiyası gücləndirilməli, süni intellekt və Big Data təhlili vasitəsilə risklərin real vaxt rejimində monitorinqi təmin olunmalıdır. Yüksək səviyyəli APSA komitələri yalnız retrospektiv yoxlamalarla kifayətlənməməli, proqnozlaşdırıcı modellər əsasında strateji yönümlü fəaliyyətə üstünlük verməlidir. Audit qruplarının peşəkarlığı və rəqəmsal bacarıqları inkişaf etdirilməli, beynəlxalq təlim və sertifikatlaşdırma proqramlarına inteqrasiya təşviq olunmalıdır. Normativ hüquqi dəyişikliklərə operativ uyğunlaşma imkanları artırılmalı, daxili nəzarət mexanizmləri daha çevik hala gətirilməlidir. Daxili audit fəaliyyətləri yalnız normativ uyğunluğa deyil, həm də müəssisə dəyərinin artırılmasına yönəlmiş nəticələrlə qiymətləndirilməlidir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Hesablama Palatasının illik hesabatları (2020–2024)
2. – Dövlət orqanlarında audit sistemlərinin rəqəmsallaşma prosesində tətbiqi və nəticələri.
3. Əliyev, A. Rəqəmsal iqtisadiyyatın formalaşması və onun idarəetmə sisteminə təsiri. Bakı: ADİU nəşriyyatı, 2002.
4. Cəfərov M. Daxili audit və müasir yanaşmalar. Bakı: Elm və Təhsil, 2021.
5. Солодов, Е.А. Внутренний аудит в условиях цифровизации экономики. Москва: Финансы и статистика**,** 2021.
6. Пономарев А.Ю. Цифровая экономика: вызовы для внутреннего аудита. // Аудит и финансовый анализ, №6, с. 14–20. 2022.
7. EY (Ernst & Young Russia) (2023). Будущее внутреннего аудита в цифровой среде. https://www.ey.com/ru_ru
8. Alles, M. (2021). Artificial Intelligence in the Auditing Profession: Opportunities and Challenges. Journal of Emerging Technologies in Accounting, 18(1), 1–11.

THE ROLE OF INTERNAL AUDIT IN THE DIGITAL ECONOMY

Niyaz Nizami oglu Mammadov
mammadovniyaz@mail.ru
Nurchin Ilham gizi Alishova
nurcinalisova@mail.ru
Azerbaijan State Agricultural University

The digital economy has reshaped the internal audit function. This article examines its evolving role within organizational governance. New opportunities and risks from digital technologies are identified. The study highlights the application of digital audit tools and the strategic relevance of audit in a digital context. The novelty lies in viewing internal audit beyond control and reporting—as a proactive tool for risk management, strategic support, and competitiveness. In the digital era, internal audit is redefined as a multifunctional and multidimensional component.

Keywords: internal audit, digital economy, artificial intelligence, big data, risk management, digital transformation.

РОЛЬ ШВЕЙНО-ТРИКОТАЖНЫХ ПРОИЗВОДСТВЕННЫХ ПРЕДПРИЯТИЙ НАМАНГАНСКОЙ ОБЛАСТИ В ЭКОНОМИКЕ

Бахромжон Бахтиёр ўғли Дадамирзаев
mr.bahrom91@mail.ru
Наманганский Государственный Технический Университет

Наманганская область является одним из центральных регионов Узбекистана, обладающим высоким потенциалом в легкой промышленности, особенно в производстве швейных и трикотажных изделий. Данная статья посвящена анализу экономической значимости швейно-трикотажных предприятий региона, факторов их развития, а также перспектив роста в будущем.

Наманганская область вносит значительный вклад в легкую промышленность, особенно в швейно-трикотажное производство. Значимость этого сектора для экономики региона проявляется в следующих основных направлениях:

Создание рабочих мест. В сфере швейно-трикотажного производства создано тысячи рабочих мест. Это способствует повышению занятости, особенно среди молодежи и женщин. Кроме того, деятельность малых и средних предприятий в этом секторе повышает экономическую активность в регионе. Открытие новых производств в отдаленных районах способствует решению социальных проблем занятости.

Обеспечение продукции для внутреннего и внешнего рынка. Крупнейшие производители региона выпускают высококачественную одежду и трикотажные изделия, предлагая конкурентоспособную продукцию на внутреннем рынке. В то же время предприятия успешно наращивают экспорт, обеспечивая спрос на международных рынках. Таким образом, швейно-трикотажные компании Наманганской области способствуют интеграции Узбекистана в мировую экономику.

Эффективное использование хлопка и сырьевых ресурсов. Развитая база по выращиванию хлопка в Наманганской области является важным фактором поддержки швейно-трикотажной промышленности. Использование местного хлопкового сырья позволяет повысить добавленную стоимость в региональной экономике. Доступность и высокое качество хлопкового волокна делают отрасль более конкурентоспособной.

В области функционирует ряд крупных швейно-трикотажных предприятий, среди которых можно выделить следующие:

- **"Namangan Momiq"** – крупный завод по производству трикотажных изделий на основе хлопкового волокна, ориентированный на экспорт. Завод отличается

выпуском качественной и экологически чистой продукции.

- **"Art Soft Tex"** – компания, внедряющая современные технологии и выпускающая продукцию высокого качества, ориентированную на экспорт. Постоянно совершенствует производство за счет новых технологических решений.
- **"Euro Textile"** – компания, производящая качественную одежду для международных рынков и продвигающая легкую промышленность Узбекистана на мировом уровне. Компания активно осваивает новые экспортные рынки.

Эти предприятия оказывают значительное влияние на экономический рост региона, увеличение объемов экспорта и создание рабочих мест. Они не только поставляют продукцию, но и способствуют развитию местных производителей.

Развитие швейно-трикотажной промышленности в Наманганской области обусловлено рядом важных факторов:

Сырьевая база - Высокое качество выращиваемого хлопка и наличие переработки сырья внутри региона создают благоприятные условия для развития отрасли. Развитие хлопководства способствует стабильности цен на сырье, что повышает конкурентоспособность текстильной промышленности.

Технологические инновации - В последние годы внедрение современных технологий значительно повысило эффективность производства. Автоматизация и цифровизация процессов упрощают производство, сокращают затраты и улучшают качество продукции. Применение цифровых технологий, таких как 3D-дизайн и автоматизированное швейное оборудование, ускоряет производственные процессы и улучшает качество изделий.

Государственная поддержка и инвестиции - Государственные субсидии, льготные кредиты и налоговые послабления стимулируют развитие легкой промышленности. Государственная поддержка способствует привлечению иностранных инвестиций и модернизации производств.

Выход на международные рынки - Компании Наманганской области активно экспортируют продукцию за границу, что требует соответствия международным стандартам качества. Расширение экспортных рынков требует производства инновационной и конкурентоспособной продукции.

Дальнейшее развитие швейно-трикотажной промышленности Наманганской области может происходить в нескольких ключевых направлениях:

Производство продукции с высокой добавленной стоимостью - Рост экспорта и диверсификация рынков возможны за счет выпуска инновационной продукции с высокой добавленной стоимостью. Внедрение новых видов тканей, передовых технологий окраски и пошива может вывести отрасль на новый уровень;

Внедрение экологически чистых технологий - Использование экологически чистых производственных технологий снизит негативное воздействие на окружающую среду и обеспечит долгосрочное устойчивое развитие отрасли;

Развитие малого и среднего бизнеса - Развитие швейно-трикотажной промышленности требует поддержки малого и среднего бизнеса. Создание новых предприятий, модернизация производств и внедрение передовых технологий в малых компаниях позволят повысить конкурентоспособность отрасли.

Заключение.

Швейно-трикотажная промышленность Наманганской области играет важную роль в развитии легкой промышленности Узбекистана. Рост данного сектора способствует экономическому развитию региона, увеличению числа рабочих мест и наращиванию объемов экспорта. В будущем отрасль может достичь новых высот за счет внедрения инновационных технологий, экологически чистого производства и выхода на новые международные рынки.

THE ROLE OF GARMENT AND KNITTING PRODUCTION ENTERPRISES OF NAMANGAN REGION IN THE ECONOMY

Bakhromzhon Bakhtiyor ugli Dadamirzaev
mr.bahrom91@mail.ru
Namangan State Technical University

This article examines the role of sewing and knitting enterprises in Namangan's regional economy. It analyzes key development factors, industry prospects, and the region's contribution to light industry and employment. Attention is given to production for domestic and export markets, leading enterprises, technological modernization, and state support mechanisms.

Keywords: garment and knitting industry, Namangan region, light industry, export, innovation, economic growth.

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİNDƏ YARADILAN TEXNOPARKIN İXTİSASLAŞMA İSTİQAMƏTİNİN SEÇİLMƏSİ

Yusif Rövşən oğlu Hüseynov
yusif.guseynov.99@bk.ru
Azərbaycan Texnologiya Universiteti

Hazırda Azərbaycan Respublikasında bir çox tətbiq sahələri üzrə müxtəlif innovasiya proqramları həyata keçirilir. Xüsusilə Azərbaycanın bir çox ali təhsil müəssisələrində innovasiya texnologiyasının məhsulu kimi yeni texnoparklar yaradılır. Ənənəvi olaraq, texnoloji parkın yaradılmasının birinci mərhələsində ali məktəblərdə müxtəlif təhsil sahələri və müxtəlif elmi potensial balansı olan ekspertlər olduğu üçün onların elmi profillərinin seçimi əsas problemdir. [5, 6]

Tədqiqat obyekti kimi universitetin ixtisaslarının spesifik xüsusiyyətlərini və SDU-nun elmi istiqamətlərinin daha çox inkişafını nəzərə alaraq elmi texnoparkın yaradılmalı olduğu əsas profilləri seçilmişdir:

1. İntellektual informasiya sistemlərinin müxtəlif elm sahələrində (praktiki olaraq tibb, biologiya, fizika və digər sahələrdə) tətbiqi;
2. Fiziki-kimyəvi proseslərin tədqiqi və onların istehsalda tətbiqi;
3. Texnoparkın səmərəli həyata keçirilməsi üçün müasir kommersiya üsul və sistemlərinin tətbiqi.

Texnoparkın izah edilən elmi profilləri əsasında qeyd edə bilərik ki, birinci və ikinci profillər üzrə mövcud eksperimental tədqiqatlar üçün laboratoriyalar texnoparkın elmi-tədqiqat hissəsidir və gələcəkdə onlar işləyə bilməlidirlər. Elmi profil üzrə eksperimental laboratoriyalarda işin səmərəliliyi texnoparkda innovasiya layihələrinin idarə edilməsi konsepsiyasından asılıdır. Belə ki, [3; 4] materiallarda innovativ layihələrin bəzilərində ekspert təhlili üçün lazımi mətn, qrafika, animasiya və video məlumatlar yoxdur, yüksək texniki-iqtisadi göstəricilər verilmir, o cümlədən innovasiya qurumlarında çevik istehsal sistemlərin tətbiqetmə imkanları nəzərdən keçirilmir. Bununla əlaqədar olaraq Azərbaycanda SDU-nun texnoloji parkında innovasiya layihələrinin idarə edilməsinin yeni konsepsiyasının yaradılması probleminin həlli tədqiqat üçün mühüm elmi aktual problemdir.

Avtomatlaşdırma sisteminin çeviklik və açıqlıq prinsiplərindən istifadə etməklə texnoparkda innovasiya layihəsinin idarə edilməsinin təklif olunan konsepsiyasına uyğun olaraq, innovasiya layihələrinin idarə edilməsi yolu aşağıdakı sxem vasitəsilə təmsil olunur:

1. Alim ideyasının öz istifadəçisinin zəruri məlumatları ilə daxil edilməsi və təqdim edilməsi; 2. Layihə annotasiyasının ekspert təhlili; 3. Laboratoriyada eksperimental tədqiqat və layihənin laboratoriya nümunəsi edilməsi; 4. Çevik istehsal və onun məhsulunun tətbiqi layihəsi Sumqayıt Dövlət Universitetinin elmi texnologiya parkında çevik sənaye parkının tətbiqi problemini nəzərdən keçirdi.

SDU-nun nəzdində İYM-in işlənməsi prosesində önəmli problemlərdən biri - elmi

profillərinin seçilməsidir. Bu məqsədlə, Sumqayıt regionunun sənaye sahələri təhlil edilmiş, elmi-tədqiqat istiqamətləri mövcud institutların fəaliyyətlərinə uyğun müəyyən edilmişdir. [1; 2] SDU-nun texnoparkı üçün önəmli elmi ixtisas istiqamətləri aşağıdakı kimi müəyyən edilmişdir:

1. Texnoloji proseslərin avtomatlaşdırılması və idarə edilməsi; 2. Mexatronika və robototexnika; 3. Alternativ elektrik enerji istehsalı; 4. Kimya, biologiya, tibb və sağlamlıq.

Beləliklə, SDU-nun Elmi Tədqiqatların Tətbiqi İnnovasiya Mərkəzinin (ETTİM) arxitektur quruluşu 4 səviyyədə təşkil olunur.



Şəkil. SDU-nun ETTİM-nin arxitektur quruluşu

ƏDƏBİYYAT

1. Əliyeva A.Q. Ali təhsil müəssisəsinin korporativ şəbəkə sxeminin ünvan sahəsinin planlaşdırılması. SDU. İnformasiya sistemləri və texnologiyalar: Nailiyyətlər və perspektivlər II Beynəlxalq Elmi Konfrans. 09-10 iyul. 2020. s. 208-210.
2. Мамедов Дж.Ф., Алиева А.Г. Создание корпоративной сети для компоновочной схемы технологического парка высшего учебного заведения. Системное исследование и информационные технологии. Научно-технический журнал Киевского государственного технического университета им. Сикорского. №3. 2017. с. 57-62.
3. Bjorkdahl J., Holmen M. Editorial: Business model innovation – the challenges ahead. International Journal of Product Development. Vol. 18. 2013. pp. 213-225.
4. Desiree Moraes Zouain and Guilherme Ary Plonski. Science and Technology Parks: laboratories of innovation for urban development – an approach from Brazil. Journal of University-Industry-Government Innovation and Entrepreneurship. 02.07.2015. 22 p.
5. Dorn J., Pichlmair M. A competence management system for universities. In: Proceedings European Conference on Information Systems (ECIS). St. Gallen, Switzerland. 2007. p. 759–770.
6. Dubosson-Torbay M., Osterwalder A. & Pigneur Y. E-business model design, classification, and measurements . Thunderbird International Business Review. vol. 44(1) 2002. p. 5-23.

SELECTION OF THE DIRECTION OF SPECIALIZATION OF THE TECHNOPARK CREATED AT SUMGAYIT STATE UNIVERSITY

Yusif Rovshan oglu Huseynov
yusif.guseynov.99@bk.ru
Azerbaijan Technological University

The experimental research laboratories established according to the scientific profiles of the technopark at Sumgayit State University constitute the research component of the technopark and are expected to operate sustainably in the future. The efficiency of work carried out in these experimental laboratories depends largely on the concept of innovation project management within the technopark. According to the proposed concept—which emphasizes flexibility and openness in the automation system—the management of innovation projects emerges as a significant scientific and pressing challenge.

Keywords: university, technopark, specialization, automation, innovation.

MENECMENT SİSTEMİNİN İNKİŞAF STRATEGİYASI

Fatma İsmayılova
fatmaismayilova093@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Müasir şəraitdə ən mühüm problemlərdən biri menecment sisteminin inkişaf səviyyəsinin təmin edilməsi hesabına, iqtisadi subyektlərin rəqəmsallaşma sürətinə və xarici mühitin tələblərinə uyğunlaşmasını təmin etməkdir. Menecment sisteminin inkişafı onun effektivliyinin artmasına və subyektlərin bazarda rəqabət mövqeyinin möhkəmlənməsinə töhfə verməlidir.

İqtisadi subyektlərdə menecment sisteminin inkişaf strategiyasının hazırlanması olduqca vacibdir. Menecment sisteminin təkmilləşdirilməsi üzrə tədbirlərin işlənib hazırlanması məhz bu cür strategiyanın formalaşdırılması və həyata keçirilməsini tələb edir. Bu zaman aşağıdakı istiqamətlər önə çəkilir:

- iqtisadi subyektlərin menecment sisteminin inkişaf strategiyası və konsepsiyasının formalaşdırılması və həyata keçirilməsi şərtlərinin subyektlərin maraqlarına uzlaşdırılmasına nail olunması;
- subyektlərin fəaliyyət və inkişaf qabiliyyətinin yüksəldilməsi;
- mütəxəssislərin rəqəmsal kompetensiyalarının inkişafı;
- keyfiyyətli xidmətlər üçün mütəxəssislərin seçiminin təkmilləşdirilməsi;
- menecment sisteminin inkişafı üçün yeni təşəbbüslərin həyata keçirilməsi;
- subyektlərin inkişaf səviyyəsinin və fəaliyyətlərinin effektivliyinin davamlı monitorinqi.

İqtisadi subyektlərin maraqlarının formalaşdırılması və həyata keçirilməsi sistemin ideal vəziyyətində belə, menecerlər və işçilər nəinki bir-birinə müdaxilə etmədikdə, həm də əks səylər göstərdikdə, katalizator rolunu oynadıqda mənfi dəyərlə xarakterizə olunur. Qeyd etmək lazımdır ki, bu qarşılıqlı əlaqəni uzun müddət maraqlar tarazlığı baxımından qorumaq mümkün deyil, çünki subyektlərin menecment sistemi və daha çox istehlakçılar xarici mühit şəraitinin güclü təsirinə məruz qalır. [1, s.67] Bu o deməkdir ki, fərdi dəyərlər sistemi dəyişə bilər və subyektləri yeni alətlər və yanaşmaları inkişaf etdirməyə, həmçinin tapşırıq və məqsədləri tənzimləməyə sövq edər.

Strategiyalar eyni zamanda, menecment sisteminin inkişafı əsasında iqtisadi subyektlərin rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Menecment sisteminin inkişaf strategiyanın məqsədlərinə aşağıdakıları göstərmək olar:

- iqtisadi subyektlərin mallarının və ya xidmətlərinin keyfiyyətinin yüksəldilməsi;
- bazarda subyektlərin imicini əks etdirən göstəricilərin yaxşılaşdırılması;
- innovativ inkişaf əsasında subyektlərin daxili potensialının formalaşdırılması.

Menecment sisteminin inkişaf strategiyasının əsas fəaliyyət istiqamətləri kompleks və qarşılıqlı əlaqəli yanaşmaların həyata keçirilməsini tələb edir. Bu strategiyanın başlıca məqsədi inkişaf prosesində iştirak edən subyektlərin maraqlarını uzlaşdırmaqla, onların ümumi fəaliyyət sinerjisini təmin etməkdir. Bu baxımdan, subyektlərin istehsal qabiliyyətinin artırılması və rəqəmsal bacarıqlara malik kadr potensialının formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. Rəqəmsal səriştələrin inkişafı, eyni zamanda, texnoloji çevikliyin artırılmasına və yeni ideyaların tətbiqinə əlverişli zəmin yaradır. Kadr seçimi mexanizmlərinin təkmilləşdirilməsi və əmək məhsuldarlığının yüksəldilməsi insan resurslarından daha səmərəli istifadəyə şərait yaradır. Strategiyada həmçinin menecment sisteminin dayanıqlı inkişafı və keyfiyyətin yaxşılaşdırılması üzrə tədbirlərin əlaqələndirilməsi nəzərdə tutulur. Enerji və logistika xərclərinin, eyni zamanda kadr axtarışı və qarşılıqlı əlaqələrin qurulması ilə bağlı xərclərin azaldılması da iqtisadi səmərəliliyin artırılması baxımından vacibdir. Nəhayət, yeni müştərilərin cəlb edilməsi hesabına gəlirlərin artırılması məqsədi, strategiyanın iqtisadi nəticələrinin gücləndirilməsinə yönəlmiş əsas nəticə göstəricilərindən biridir. Bu istiqamətlər, birgə şəkildə, müasir menecment

sistemlərinin dinamik inkişafını və rəqabətqabiliyyətliliyini təmin edən əsas sütunlar kimi çıxış edir.

Menecment sisteminin inkişaf strategiyasının formalaşdırılması və tətbiqi, idarəetmə subyektlərinin maraqlarının uzlaşdırılması və bu maraqlar əsasında effektiv fəaliyyətin təmin edilməsi ilə sıx bağlıdır. İdarəetmə subyektləri arasında əlaqələndirilmiş maraqlar bütövlükdə təşkilatın funksional strukturunu və onun davamlı inkişaf istiqamətlərini müəyyən edir [2, s. 65]. Bu baxımdan, menecment strategiyası istehlakçıların və işçilərin üstünlük təşkil edən motivlərinə əsaslanan yanaşmanı, eyni zamanda strateji məqsədlərə çatmaq üçün uyğun tətbiq mexanizmlərinin qurulmasını tələb edir.

Strateji inkişaf yanaşması çərçivəsində aşağıdakı amillərin nəzərə alınması vacib hesab olunur:

- müəyyən dövr ərzində dominant olan motivasiyaların sistemləşdirilməsi;
- idarəetmənin müxtəlif səviyyələri (yuxarı və aşağı) arasında partnyorluq əlaqələrinin qurulması və gücləndirilməsi;
- təşkilatdaxili informasiya axınının effektivliyi və məlumatlılığın artırılması;
- menecment sisteminin effektivliyinə dair kompleks monitorinqin aparılmasına imkan verən əsas göstəricilərin müəyyən edilməsi.

Bu yanaşma həm idarəetmənin çevikliyini, həm də strateji dayanıqlığını təmin edən əsas struktur komponent kimi çıxış edir.

ƏDƏBİYYAT

1. Abbasov İ.M., Sadıqov R.F. Menecment. Dərs vəsaiti. Bakı Biznes Universitetinin nəşri. 2013. 205 s.
2. Салимова Т.А. Интеграционные процессы менеджмента качества. Контроллинг. № 1 (51). 2014. с. 60-67.

IMPROVING BUSINESS PERFORMANCE MANAGEMENT

Fatma Ismayilova
fatmaismayilova093@gmail.com
Azerbaijan State Agricultural University

In the modern context, one of the most important challenges is to ensure the adaptation of economic entities to the pace of digitalization and the demands of the external environment by improving the development level of the management system. The development of the management system should contribute to increasing its efficiency and strengthening the competitive position of entities in the market.

Key words: management, strategy, effective, cost, consumption.

YÜNGÜL SƏNAYE SAHƏLƏRİNDƏ İNNOVASİYALI MƏHSULLAR ÜZRƏ MARKETINQ FƏALİYYƏTİNİN VƏ MARKETİNQ TƏDBİRLƏRİNİN TƏTBİQİNİN ANALİZİ

Ayşən Viladdin qızı Məmmədova
a.memmedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Yüngül sənaye sahələrində marketinq fəaliyyətini və marketinq tədbirlərinin tətbiqini analiz etsək görərik ki, ölkəmizdə marketinq fəaliyyəti heç də ürəkaçan deyil. Əksər şirkərlərdə marketinq şöbəsi belə fəaliyyət göstərmir. Bundan əlavə bazarda uğurlu marketinq strategiyası ilə çıxış edən firmalar olduqca azdır. Bunun əsas səbəblərindən biri ölkəmizdə marketinqin vacibliyi və önəmi haqqında yetərincə məlumata sahib olmamaqdır. Əksər firmalar marketinq tədqiqatı aparmadan bazara məhsul təqdim edir. Bu isə olduqca təhlükəli vəziyyət yaradır və nəticədə firmaların iflası ilə nəticələnir. Halbuki marketinq haqqında yetərincə nəzəri və təcrübi məlumatlara sahib olmaq firmanı bazarda qarşılacağı təhlükəli vəziyyətdən qoruyur. Deməli həm nəzəri, həm də təcrübə əsaslı marketinq fəaliyyətinin bazisini təşkil edir.

Əgər innovvasiyalı məhsul istehsalından danışırıqsa, bu zaman innovasiyalı məhsulun istehsalının planlaşdırılmasından bazarda reallaşdırılmasına qədər bütün fəaliyyət prosesində

marketinqin tətbiqi labüddür. Marketinq fəaliyyəti həm də innovasiyalı məhsulun bazarda rəqabətədavamlılığının əsasını təşkil edir.

Marketinq fəaliyyətinin uğurlu olması üçün müştərini yaxşı tanımaq lazımdır. Təəssüf ki ölkəmizdə bu istiqamətə problemlər mövcuddur. Ölkədə fəaliyyət göstərən firma və müəssisələr bazarı, müştərini araşdırmır. Müştərinin düzgün araşdırılması, onların arzu və istəklərinin düzgün şəkildə analiz edilməsi vacibdir. Çünkü marketinq fəaliyyətinin özəyində "istehlaçı davranışı", "müştərini tanıma " dayanır.

Marketinq fəaliyyəti düzgün dərk edilmədiyi üçün ölkəmizdə müştəriyə yönəlmə vasitələrindən də düzgün istifadə edilmir. Məlumdur ki, müştəriyə yönəlmə vasitələrindən və müştəriyə ən çox təsir edən vasitələrdən biri reklamdır. Marketinq strategiyasının tərkib hissəsini təşkil edən reklamın məhsulun tanıdılmasında mühüm rolu vardır. İnnovasiyalı məhsuldan söhbət gedirsə bu önəm daha da artır. Ölkəmizdə təbiq edilən reklamlardan əksəriyyəti xarici ölkələrdə istifadə edilən reklamların bənzərləridir. Halbuki hər bir ölkənin insanlarının həyat tərzi, düşüncəsi və mentaliteti, mənəvi dəyərləri digər ölkələrdən fərqlidir. Hər ölkənin nümayəndəsinin reklam haqqında düşüncəsi də fərqlidir. Həmçinin bir ölkənin müxtəlif regionlarda da həmçinin reklam anlayışı müxtəlifdir. Ona görə də reklamdan istifadə edilərkən təqdimetmədə həmin ölkənin insanları və adət-ənənələri nəzərə alınmalıdır.

Belə ümumiləşdirsək əgər innovasiyalı bir məhsul bazara çıxarılırsa, həmin məhsulun tanıdılması üçün istifadə edilən reklam və ya digər tanıdılma vasitəsi eyni olmamalıdır. Eyni bir innovasiyalı məhsul ölkələrdə istehlakçı davranışlarının fərqli olduğunu nəzərə alaraq fərqli formada bazara təqdim edilməlidir.

Aparılan tədqiqata əsasən ölkəmizin nümayəndələri məhsullara daha emosional, həssas və ailə və mənəvi dəyərlərə önəm verərək münasibət bəsləyir. Ancaq göstərdiyimiz xüsusiyyətləri özündə əks etdirən reklam müştərini özünə cəlb edə bilir. Marketinq mütəxəssisləri bunu yaxşı anlamalıdır.

Uğurlu marketinq fəaliyyətinin məğzini uğurlu marketinq strategiyası təşkil edir. Ancaq əfsuslar olsun ki, ölkəmizdə bir çox müəssisə və şirkətlər marketinq strategiyası tərtib etməkdən çəkinir. Hətta əminliklə deyə bilərik ki, əksər şirkətlərin marketinq strategiyası demək olarki yoxdur. Müəssisələrin əksəriyyətinin marketinq strategiyasının hazırlanması barədə bilik və təcrübəsi yoxdur.

Ölkəmizdə yüngül sənaye məhsulları üzrə marka, brend strategiyasının olmaması növbəti problemlərdən biridir. Ölkəmizdə fəaliyyət göstərən yüngül sənaye müəssisələri anlamalıdır ki, marka strategiyası məhsulun, nəticədə isə ölkənin dünyada tanınmasına gətirib çıxarır. Hal-hazırda yüngül sənaye məhsulları üzrə marka strategiyası olan məhsulların sayı azdır. Buna görə də beynəlxalq bazarda yüngül sənaye məhsulları üzrə nəticələrimiz kifayət qədər deyildir. Halbuki qeyri-neft sektorunun və yüngül sənayenin inkişafını təmin edə bilmək üçün atılması ilk addımlardan biri məhsullar üzrə marka strategiyasının işlənib hazırlanmasıdır.

ANALYSIS OF MARKETING ACTIVITIES AND IMPLEMENTATION OF MARKETING EVENTS FOR INNOVATIVE PRODUCTS IN THE LIGHT INDUSTRY

Ayshan Viladdin gizi Mammadova

a.memmedova@atu.edu.az

Azerbaijan Technological University

The country's light industry is a cornerstone of its strategic development and is considered one of its key sectors. Light industry is a leading branch of the economy, encompassing several industrial fields, contributing to the sustainable growth of the national economy, and supporting the social and intellectual development of society. This article discusses marketing activities as a key factor in the development of the light industry.

Keywords: brand, marketing strategy, production, advertising, innovation.

MÜASİR ŞƏRAİTDƏ BEYNƏLXALQ TİCARƏTİN XÜSUSİYYƏTLƏRİ

Seymur Ceyhun oğlu Məmmədov
s.memmedov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Beynəlxalq ticarət alqı-satqı əməliyyatları vasitəsilə həyata keçirilən və dünya ölkələri arasında qarşılıqlı iqtisadi münasibətlərin əsas formasını təşkil edən iqtisadi prosesdir. Bu münasibətlər ölkələrarası əmək bölgüsünün nəticəsi olaraq maddi malların və xidmətlərin mübadiləsi şəklində təzahür edir.

Beynəlxalq ticarət axınları əsasən inkişaf etmiş ölkələr arasında cəmlənmişdir. Dünya ixracatının təqribən 60%-i inkişaf etmiş ölkələr arasında həyata keçirilir. İnkişaf etməkdə olan ölkələr isə ixracatlarının təqribən 70%-ni inkişaf etmiş ölkələrə yönəldir. Bu asimmetriya qlobal iqtisadi sistemdə qeyri-bərabər resurs və gəlir bölgüsünün göstəricisidir.

Son onilliklər ərzində informasiya-kommunikasiya texnologiyalarının inkişafı, iqtisadiyyatın rəqəmsallaşması və qloballaşma proseslərinin güclənməsi beynəlxalq ticarətin həcmini və strukturunu əhəmiyyətli dərəcədə dəyişmişdir. İnkişaf etmiş ölkələr və sənaye mərkəzləri arasında ticarət dövriyyəsi sürətlə artmaqda, inkişaf etməkdə olan ölkələr isə ixrac imkanlarını genişləndirməklə iqtisadi inteqrasiyaya daha fəal şəkildə qoşulmaqdadır.

Xidmət sektoru beynəlxalq ticarətdə getdikcə daha mühüm yer tutur. Elmi-texniki tərəqqi, intellektual əmək bazarının genişlənməsi və insanların artan sosial-mədəni ehtiyacları nəticəsində xidmətlərin ixracı və idxalı ciddi şəkildə artmışdır. Bu inkişaf həm də ölkələrarası investisiya axınları, əmək məhsuldarlığı və gəlir səviyyələrinin yüksəlməsi ilə bağlıdır.

Ümumiyyətlə, beynəlxalq ticarətin davamlı artımına təsir edən başlıca amillər bunlardır:

1. Beynəlxalq əmək bölgüsünün dərinləşməsi;
2. İstehsalın beynəlmiləlləşdirilməsi və qlobal dəyər zəncirlərinin inkişafı;
3. Transmilli korporasiyaların dünya bazarındakı təsirinin artması;
4. Xarici investisiyaların genişlənməsi;
5. Regional və qlobal iqtisadi inteqrasiya təşəbbüsləri.

Ümumi şəkildə desək, Beynəlxalq ticarət müasir iqtisadi sistemin aparıcı istiqamətlərindən biri olaraq dünya ölkələrinin iqtisadi inkişafında həlledici rol oynayır. Onun davamlı inkişafı üçün səmərəli xarici iqtisadi siyasət, institusional islahatlar və texnoloji modernləşmə zəruridir.

FEATURES OF INTERNATIONAL TRADE IN MODERN CONDITIONS

Seymur Ceyhun oglu Mammadov
s.memmedov@atu.edu.az
Azerbaijan Technological University

The national economy of each country is connected to the global economy through various forms of foreign economic relations and can derive certain benefits depending on how effectively it utilizes these opportunities. This is not a spontaneous process; rather, it is made possible through the development of a targeted foreign economic strategy and its legal regulation. Foreign trade relations lie at the core of foreign economic relations. Therefore, the system of legal support for foreign trade and the mechanisms for its implementation are becoming especially important today.

Keywords: export, industry, commodity, trade, economy.

METHODOLOGICAL ASPECTS OF ASSESSING THE EFFECTIVENESS OF REGIONAL INDUSTRIAL STRUCTURE

Kamala Tofiq Shukur Suleymanova
kacy119@gmail.com
«Naser Indusrial Engineering», Amman Hashemi Kingdom of Jordan

A feature of transformational processes is the scale of the accompanying shifts. The comparative economic efficiency of various industrial sectors is changing, leading to a flow of capital and labor from one production to another, resulting in profound and diverse structural shifts in industry. Therefore, defining priorities for sectoral changes in the regional industrial structure becomes especially relevant.

The existing trends in the development of Azerbaijan's economy require a deeper investigation of the regional industrial structure due to the need for adaptation to changing conditions. The regional structure of industry determines the economic efficiency and social indicators of the region, as well as the region's role in the country's economy. It is known that for many years, an industry-based organizational principle was used, where certain industries settled in specific territories based on resource potential. Today, there are other approaches to regional specialization that contribute to production diversification, effective use of capacity, human and financial potential, and the dissemination of new knowledge and technological solutions.

The essence of these approaches includes the following:

- Forecasting the prospects for economic development and specialization sectors of the region;
- Selecting a list of specialization sectors for the region based on competitive advantages;
- Choosing a priority nomenclature of specialization for each of the selected sectors;
- Developing a list of services on which the region will specialize.

However, to address these tasks, it is advisable to define the methodological aspects that contribute to a more accurate rational identification of the prospects for the economic and social development of the region based on existing competitive advantages.

As a result of the measures taken by the Government, a structural transformation is being observed towards sectors producing final products. Strengthening this direction, while continuing the leadership of extractive industries, requires enhancing the process of reducing the share of raw material sectors by increasing the technical potential of enterprises directly related to scientific and technological progress (NTP). It should also be noted that structural transformations cannot rely solely on this direction. Structural transformations encompass a large range of methodological problems that ensure the practical resolution of regional issues at a new quality level:

- Methodological justification of the economic proportions of industrial development in the region;
- Identifying factors for the rational development of industries and an acceptable relationship between them;
- Methodological support for determining optimal options for the structure of the region's industry;
- Identifying necessary structural changes in the region's industry.

The new situation in the regions objectively requires increasing the competitiveness of industries not only in domestic but also in external markets. The scientific justification for solving these issues in the regional industrial structure requires methodological support. Naturally, solutions are possible based on the application of economic laws of development and the specifics of their application in specific conditions. Thus, they should originate from the demands of the law of prices and the law of balance between supply and demand, which emphasize the need to reflect in the industrial structure the requirement for equivalence in the exchange of products and services on regional, interregional, and external markets, ensuring the equality of supply and demand. This

will create conditions to minimize risks for industry and facilitate the growth of its technical and economic potential while improving social conditions. This is the essence of the theoretical foundation for developing methodological provisions for structural changes in the region's industry.

Defining development prospects is advisable considering the above to create a new qualitative appearance, characterized by an increased regional aspect of socio-economic development. This contributes to a justification of the mechanism for structural changes aimed at overcoming negative structural shifts and creating foundations for a market-type structure. It can be said that creating in a specific region such productions, in such quantities and proportions, would satisfy demand in interregional and external markets. Another important methodological task of structural transformations is to elucidate the mechanism that resolves the contradictions facing the structural tasks of the industry.

Methodological guidelines for industry should reflect development factors such as social needs, technical capabilities, and economic feasibility. The goal is to achieve the greatest result with the least cost while minimizing transition time from the existing structure to the new industrial structure, ensuring the creation of favorable conditions for the operation of the entire economic system.

Quantitative and qualitative characteristics of the regional industrial structure from a methodological perspective are expressed in a system of indicators: produced goods, investments, main production assets, material resources, and the total and sectoral workforce. These indicators qualitatively characterize the region, which is especially important for the current situation in the economy. It is methodologically reasonable to study the temporal factor, i.e., to use indicators like absolute growth, growth rates (decline), growth acceleration, average growth rates, average growth acceleration, average indicators, leading coefficients, etc., in the methodological development of the industrial structure.

Calculating these indicators allows for a quantitative assessment of trends in qualitative changes in the industrial structure and illustrates the evolutionary development of the structure, cyclically repeating patterns of its development. Patterns can be identified using the coefficient of unevenness (the ratio of a specific indicator to its average value over the considered period). For example, the volume of production for 2020 compared to the average volume of production over 5 years. This shows the intensity of changes occurring in the structure and characterizes the identified patterns.

Based on the conducted research, certain conclusions and proposals can be made:

- Differences in regional conditions are a very important circumstance; therefore, there cannot be a single economic development strategy for all regions. The most significant factors for developing regional economies include the established production specialization of regions, the capacity and accessibility of markets for goods produced in the region, including intra-regional markets, national markets, export markets, etc.

- Competitiveness can be represented as a combination of economic, political, financial, socio-cultural, ethnic, organizational-legal, and geographical factors and characteristics inherent to the region, forming the basis for determining the attractiveness of capital investment.

Keywords: sector priorities, regional industrial structure, structural changes, competitiveness, economic development, methodological aspects.

REFERENCES

1. Belobragin V.Ya. Regional Economics: Quality Problems. - Moscow, 2001. - 281 p.
2. Butov V.I., Ignatov V.G., Ketova N.P. Foundations of Regional Economics - Rostov-on-Don, 200.
3. Djabieva R.M. Socio-economic Development of the Azerbaijan Republic During Independence - Baku, 2005.

ВЛИЯНИЕ НА ГЛОБАЛЬНЫЕ ИЗМЕНЕНИЯ КЛИМАТА КАК ФАКТОР УСТОЙЧИВОСТИ ИНКЛЮЗИВНОГО РАЗВИТИЯ

Нушаба Аслан кызы Гаджиева
nushaba.hajieva@mail.ru
Наргиз Мурсал кызы Мамедова
nargiz.m03@mail.ru
Матлаб Огтай оглу Алиев
Азербайджанский Технологический Университет

Глобальные изменения климата являются фактором, отрицательно влияющим на многие процессы. В настоящее время очевидно, что глобальные изменения климата могут быть причиной многих катастрофических явлений, таких как повышение уровня моря, изменение кислотности океанов, нехватка питьевой воды и сокращение биоразнообразия.

Рассмотрим влияние глобальных изменений климата на различные параметры основными элементами, которых являются:

1. **Уровень моря**: Повышение уровня моря из-за таяния ледников и теплового расширения воды.

2. **Производительность**: Влияние на сельскохозяйственную продуктивность и экономическую деятельность.

3. **Кислотность океана**: Увеличение кислотности океанов, что негативно сказывается на морской экосистеме.

4. **Непригодные территории**: Расширение территорий, непригодных для проживания и ведения хозяйственной деятельности.

Эти элементы показывают, как глобальные изменения климата могут влиять на различные аспекты окружающей среды и экономики, подчеркивая важность принятия мер для смягчения этих воздействий.

Обратим внимание как же влияют глобальные изменения климата на жизнь.

Потери пригодных для жизни земель, сокращение биоразнообразия, нехватка продуктов питания и питьевой воды, эпидемии являются лишь частью катастрофических последствий для человечества глобальных изменений климата.

Влияние на индекс инклюзивного развития (ИИР): Глобальные изменения климата являются одним из факторов, влияющих на ИИР страны. Это включает в себя такие аспекты, как доступ к ресурсам и качество жизни.

Перейдем к вопросу об оценке воздействия на климат.

Оценка воздействия на глобальные изменения климата осуществляется, в основном, двумя методами.


Первый метод оценивает выбросы CO2 в атмосферу в тоннах на одного человека в год. Второй метод учитывает объемы выбросов CO2 в килограммах или граммах при производстве ВВП стоимостью 1 доллар США, с учетом паритета покупательной способности.

Второй метод чаще используется, так как он более информативен и точен.

Меньший объем выбросов парниковых газов при одинаковом экономическом эффекте свидетельствует об инновационном развитии.

Далее рассмотрим состояние инклюзивного развития в Азербайджане. Мы решили графически показать рост индекса инклюзивного развития с 2000 по 2023

годы. Вот основные моменты:



Азербайджан достиг высоких индексов инклюзивного развития благодаря оптимизации всех показателей, влияющих на этот процесс.

Все страны, которые раньше входили в состав Советского Союза, за последние 23 года уменьшили выбросы парниковых газов.

Азербайджан проявил наибольшую эффективность в снижении выбросов среди всех стран бывшего Советского Союза.

На графике представлены данные, показывающие, что Азербайджан активно работает над снижением выбросов CO2 и улучшением инклюзивного развития, что способствует устойчивому развитию страны.

Следует отметить лидирующую роль Азербайджана в снижении выбросов

Ниже представлен график, показывающий выбросы парниковых газов странами-производителями и экспортерами нефти и газа.

На графике показывает выбросы парниковых газов в килограммах на единицу ВВП (стоимость 1 доллар США, с учетом паритета покупательной способности).

Азербайджан занимает лидирующее положение среди стран-производителей и экспортеров нефти и газа по снижению выбросов парниковых газов.

Азербайджан также является лидером среди стран Каспийского региона по выполнению обязательств по уменьшению выбросов тепличных газов.


По данным Всемирного Банка, другие страны региона выбрасывают в 2,5-4,5 раза больше парниковых газов на единицу ВВП, чем Азербайджан.

Эти данные подчеркивают значительные усилия Азербайджана в области снижения выбросов парниковых газов и его вклад в устойчивое развитие.

Глобальные изменения климата в определенной степени влияют так же на охрану среды обитания и устойчивое развитие.

Мы решили представить график, показывающий динамику изменений площади охраняемых природных территорий в Азербайджане с 2003 по 2024 годы.:

График показывает значительное увеличение площади охраняемых природных территорий в стране за указанный период. Площадь охраняемых территорий увеличилась в 2003 до 2024 года.



Обеспечение охраны среды обитания и расширение площади охраняемых

природных территорий важны для построения устойчиво развивающегося инклюзивного общества.

Эта деятельность не только защищает окружающую среду и сохраняет биоразнообразие, но и способствует снижению выбросов парниковых газов, что учитывается при расчете Индекса Инклюзивного Развития (ИИР)

В заключении можно отметить, что наличие знаний и умений в области стратегии управления экономическим и социальным развитием Азербайджанской Республики, а также применение инновационных технологий являются ключевыми факторами, обеспечивающими высокий уровень инклюзивного развития страны. Сравнение достижений различных стран в управлении инклюзивным развитием способствует расширению знаний в этой области. Давайте продолжим работать вместе ради чистой и здоровой будущей среды для всех.

IMPACT OF GLOBAL CLIMATE CHANGE AS A FACTOR OF SUSTAINABILITY OF INCLUSIVE DEVELOPMENT

Nushaba Aslan gizi Hajieva
nushaba.hajieva@mail.ru
Nargiz Mursal gizi Mammadova
nargiz.m03@mail.ru
Matlab Ogtay oglu Aliyev
Azerbaijan Technological University

The article examines the impact of global climate change as a factor in economic sustainability. In particular, such parameters as rising sea levels, ocean acidity. Along with this, an assessment of the impact on global climate change is carried out, the state of inclusive development in Azerbaijan, the impact of global climate change on environmental protection and sustainable development are considered.

Keywords: inclusive development, biodiversity, environment, climate.

BEYNƏLXALQ ƏMƏKDAŞLIQ SİSTEMİNDƏ TRANSMİLLİ KORPORASİYALARIN ROLU

Sevda İsmət qızı Mehtiyeva
a.memmedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İqtisadi qloballaşmanın əsasını təbii resurslar və bazarlar üzərində nəzarət uğrunda kəskin rəqabət, mübarizə təşkil edir. Onun əsas iştirakçıları transmilli şirkətlərdir. Bu şirkətlər XX əsrin əvvəllərindən, böyük sənaye kompaniyalarının iqtisadi və maliyyə maraqlarının milli sərhədləri aşmağa başladığı dövrdən formalaşmağa başlamışdır. XX əsrin ikinci yarısından regional transmilli şirkətlərin qlobal şirkətlərə çevrilməsi prosesi başlandı. Buna xeyli dərəcədə planetin müxtəlif hissələrini vahid informasiya və iqtisadi məkanda birləşdirən elektron rabitə vasitələri sahəsindəki inqilab təkan verdi.

Dünya iqtisadiyyatının inkişafında, istehsalların beynəlmiləlləşməsində, kapitalın səmərəli dövr etməsində, beynəlxalq miqyasda elmi və texniki nailiyyətlərin istehsala kompleks tətbiq edilməsində, iş yerlərinin yaradılmasında, iqtisadi inteqrasiya proseslərinin güclənməsində, texniki, texnoloji, təşkilati iqtisadi və sosial məsələlərin həll edilməsində TMK-nın rolu böyükdür. TMK-nın bir mühüm cəhəti də vardır. Onlar nəyin bahasına olursa-olsun mənfəət (təmiz mənfəət) əldə etməyə yox, istehsalın və xidmətlərin həcminin artırılmasına çalışırlar və bu yolla da, həqiqətən, mütəmadi olaraq çoxlu mənfəət əldə edirlər.

Transmilli korporasiyaların fəaliyyəti onların əmələ gəldiyi dövlətlərin maraqları ilə sıx əlaqədardır. Beləliklə, dövlətlərin və onların ərazisində yerləşən transmilli korporasiyaların əsaslı maraqları obyektiv olaraq üst-üstə düşür, belə ki, transmilli korporasiyalar onların yerləşdikləri dölətlərə başqa ölkələrin resurslarına daxil olmağa imkan verir. Bundan başqa, öz istehsallarını xaricdə yerləşdirən transmilli korporasiyalar öz dövlətlərinin proteksionist sədlərinin yarandığı hallarda onları dəf etməkdən azad edirlər.

Transmilli korporasiyaların təsir dairəsinin artması ilə güclənən transmilliləşmə prosesi ilk növbədə kapitalın iki və daha artıq ölkə arasında hərəkəti olduğundan, burada ən əsas məna kəsb edən termin investisiyadır. İnvestisiya-iqtisadiyyatın müxtəlif sahələrinin müəssisələrinə və təşkilatlarına kapital qoyuluşudur. İnvestisiyalar müddətinə görə üç cür olur: uzunmüddətli, qısamüddətli və ortamüddətli. Qoyuluş istiqamətinə görə isə, fiziki, insan kapitalı və texnoloji kapital kimi növlərə ayrılır. İnvestisiyalar həm yerli investorlar, həm də xarici investorlar tərəfindən həyata keçirilir. Bunlar da rezidentlər və qeyri-rezidentlərdir. Kapitalın beynəlxalq hərəkəti zamanı rəsmi və şəxsi investisiyalar baş verir. Rəsmi dedikdə, dövlət xətti ilə həyata keçirilən investisiyalar başa düşülür. Şəxsi investisiyalar isə mikro iqtisadiyyat səviyyəsində həyata keçirilən investisiyadır.

Bildiyimiz kimi, transmilli korporasiyaların fəaliyyətinin əsasında istehsal prosesinin təşkili zamanı ölkələr arasındakı bütün fərqlərin istifadəsi durur. Transmilli korporasiyalar da istehsal prosesinin bir hissəsini o ölkə və regionlara keçirmək istəyirlər ki, həmin ölkələrdə və regionlarda bu proseslərin həyata keçirilməsi üçün lokal üstünlüklər mövcud olsun. Məsələn, vergi güzəştlərinin mövcud olduğu ərazilərdə transmilli korporasiyalar maliyyə və idarəetmə bölmələrini yerləşdirməkdə maraqlı olurlar. Geniş həcmli daxili bazarlara malik ölkələrdə isə ticarət, satış və marketinq fəaliyyəti ilə məşğul olan bölmələr yaradılır. İşçi qüvvəsinin ucuz başa gəldiyi ölkələrdə isə istehsal müəssisələrinin qurulması daha məqsədəuyğun hesab edilir.

Lakin dünya iqtisadiyyatının qloballaşması dünya ölkələri arasında olan bu fərqliliklərə təsir edir və bu ölkələr arasındakı fərqlər müntəzəm şəkildə aradan qaldırılmaqdadır. Hər bir ölkədə eyni şərait mövcud olduğu halda isə transmilli korporasiyalar demək olar ki, fəaliyyət göstərdikləri ölkələrin fərqinə varmır. Lakin dünya iqtisadiyyatının qloballaşmasının nəticələrindən asılı olan fərqlərlə yanaşı, ölkələr arasında elə fərqlər mövcuddur ki, bu fərqlərə qloballaşmanın nəticələrinin təsiri qısa bir zaman ərzində baş vermir. Bu fərqlər ölkələr arasındakı iqlim fərqləridir. Məhz təbiətin verdiyi iqlim dəyişikliyə uğramayıb olduğu kimi qalır. Məsələn, faydalı qazıntıların çıxarılması və ilkin emalı elə ərazilərdə yerləşdirilir ki, bu ərazilər həmin təbii resursların yerləşdiyi əraziyə daha yaxın olsun. Yığıma əsaslanan istehsal isə firmalara yaxın və nəqliyyat xərclərinin minimum olduğu yerlərdə yerləşdirilir.

Yeni informasiya texnologiyalarının meydana gəlməsi isə transmilli korporasiyaların strategiyasını və eləcə də təşkil olunması köklü şəkildə dəyişməkdədir. Transmilli korporasiyaların istehsal bölmələri getdikcə genişlənəcək və ucuz, həm də ixtisaslaşmış işçi qüvvəsinin olduğu ölkələrə hərəkət edəcəkdir. Həmçinin transmilli korporasiyaların digər hissələrində də köklü olaraq dəyişikliklər baş verdiyinin şahidi oluruq. Bunlardan biri də elmi tədqiqat, təcrübə konstruktor işləridir. Belə ki, transmilli korporasiyaların elmi tədqiqatlar ilə bağlı olan bölmələri müxtəlif ölkələrdə yerləşəcəklər. Son illərdə TMK-ların yayılması nəticəsində bu şirkətlərin idarəçiliyinə xüsusilə çox yaxşı təhsil almış, təcrübəli ödənişlə çalışan mütəxəsislər gəti-rilməkdədir. Bu şəxslər "qlobal idarəçilər" (global manager) adlandırılır.TMK-lar 4 fərqli idarəçi seçimi edə bilərlər:

1. Ana ölkədən;
2. Ev sahibi ölkədən;
3. Üçüncü ölkədən;
4. Yuxarıdakı seçimlərdən ən az ikisinin birlikdə tərcih olunması.

THE ROLE OF TRANSNATIONAL CORPORATIONS IN THE SYSTEM OF INTERNATIONAL COOPERATION

Sevda Ismet gizi Mehtiyeva
a.memmedova@atu.edu.az
Azerbaijan Technological University

The contemporary global economy and the intricate system of international economic

relations are increasingly defined by the accelerated and multifaceted phenomenon of transnationalization. This dynamic process is primarily driven by the emergence and expansion of transnational corporations, which play a central and transformative role in shaping economic interactions, investment flows, and the integration of markets across national boundaries.

Keywords: economy, production, tax, industry, capital.

AZƏRBAYCANDA YÜNGÜL SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ KADR TƏMİNATININ MÖVCUD VƏZİYYƏTİ

Xədicə Fizuli qızı Məmmədova
x.memmedova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Təşkilatların və müəssisələrin müxtəlif sahələrdə fəaliyyətinin uğuru hər bir mütəxəsisin yerinə-yetirdikləri vəzifələrin keyfiyyətindən asılıdır. Azərbaycanda kadr siyasəti gündəmdə duran öncül məsələlərdəndir. Təməli oturuşmuş dövlətlərdə bu problem bir növ sistem halına salınıb. Uzun müddət bu sistem konveyer üsulu ilə kadrlar istehsal edib və dövlətin fəaliyyətindən irəli gələn ehtiyacları ödəyib. Yeni təşəkkül tapmış və formalaşmaqda olan ölkələrdə bu prosesə sıfırdan start verilib.

Məlumdur ki, hər bir insanın kadr olması yolunda keçdiyi ilk mərhələ təhsildir. Daha doğrusu təhsilin keyfiyyəti. Azərbaycan tarixində bir neçə belə nümunə var ki, müəssisələrin kadrlarla təminatı məqsədilə vətəndaşların yüksək səviyyəli təhsili naminə bir sıra qeyri-ənənəvi addımlara müraciət edilib. Məsələn, Azərbaycan Demokratik Respublikası dövründə hökümət gənclərin xarici dövlətlərin aparıcı ali məktəblərdə təhsilinin təşkili üçün mühüm addımlar atıb. Bu ənənənin davamı olaraq sabit illərində ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə milli kadr ehtiyyatının zənginləşdirilməsi məqsədilə gənclərin ittifaqın aparıcı təhsil ocaqlarına ezam edilməsi praktikasından geniş istifadə olunub ki, müstəqillik qazandıqdan sonra vaxtıilə görülmüş bu tədbirin misilsiz əhəmiyyətini xalq təsərrüfatının fərqli sahələrində hər birimiz hiss etmişik.

Bildiyimiz kimi İttifaq miqyasında Azərbaycan Respublikası toxuculuq sənayesinin inkişafı kimi də tarixin səhifəsinə qızıl hərflərlə yazılmışdır. [1]

Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ilə əlaqədar bu sahədə də böyük inkişaf olmuşdur. O, birinci növbədə bu sahədə olan kadr potensialı ilə maraqlanmış və bu sahədə olan əcnəbi kadrların bütün sahələri əllərində saxladıqlarını görüb Azərbaycan Politexnik İnstitutunun Kirovabad filialının açılmasına nail oldu. 1970-80-ci illər Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisələrdə kadrların mənşəyi əcnəbilərdən ibarət olmaqla ümumi əməkdaşların 2% ali təhsilli mütəxəssisləri təşkil edirdi. Həmin illərdə müəssisələrdəki avadanlıqlar II nəsl maşınlar idi. Bu tip maşınlarda istehsal olunan məmulatlar keyfiyyət baxımından əhalinin tələbini ödəmirdi. Respublikamızda toxuculuq və yüngül sənaye müəssisələri hazırlayan yeganə ali təhsili olan Azərbaycan Politexnik İnstitutunun Kirovabad filialında fəaliyyət göstərən laboratoriyalarda maşın avadanlıqların əksəriyyəti 1960-70-ci illəri əhatə edirdi. Bəzən mənəvi cəhətdən köhnəlmiş avadanlıqlardan laboratoriya işləri yerinə-yetirilirdi.

1980-ci illərdən başlayaraq Respublikamızda fəaliyyət göstərən müəssisələrdə maşın-avadanlıq parkı yeni görkəm aldı və artıq III-IV nəsl avadanlıqları istifadə olundu. Həmin dövrdə Respublikamızın toxuculuq və yüngül sənaye müəssisələrinin yeni nəsl avadanlıqlarla öyrədilməsi ilə Azərbaycan Texnologiya Universitetinə bu tip maşınlar ayrıldı. Tələbələr yeni nəsl avadanlıqların texnoloji sxemlərini yaxşı öyrənməklə yanaşı gələcəkdə işçilərin həmin avadanlıqlarla işləmələrinə köməklik göstərdilər. 1980-ci illərin sonlarında avtomatların, yarımavtomatların, manipulyatorların və eləcə də robotların

meydana gəlməsi ilə əlaqədar olaraq toxuculuq və yüngül sənaye müəssisələrinə yeni yüksək ixtisaslı kadrların tətbiqi tələb olunurdu. Bu məsələ ilə bağlı artıq institutda yeni ixtisasların təşkili məsələsi önə çıxdı və texnoloji proseslərin avtomatlaşdırılması ixtisası üzrə tələbə qəbulu başladı. Eyni zamanda istehsalın təşkili forması dəyişdi. Müasir təşkili formalarından geniş istifadə olundu. Bunun üçün müəssisələrə yeni nəsl kadrların yetişdirilməsi və əməyin təşkilində elmi yanaşmalar tələb olunurdu.

Əməyin təşkili istehsalın texniki-iqtisadi şəraiti ilə üzvi sürətdə əlaqədardır, istehsalın texnikası və texnologiyası inkişaf etdikcə və işçilərin mədəni-texniki səviyyəsi yüksəldikcə, o da inkişaf edir və təkmilləşir. Yeni növ müasir texnika və texnologiya tətbiq edildikcə əmək məhsuldarlığı da yüksəlir və digər tərəfdən işçilərin ixtisar məsələsi də artır. Belə bir vaxtda texnoloji proseslərin optimallaşdırılması məsələsi özünü göstərir. [2]

Müəssisələrdə, firmalarda və şirkətlərdə əməyin təşkilinin başlıca vəzifəsi-müəssisələrdə bütün işçilərin əmək məhsuldarlığını müntəzəm sürətdə yüksəltmək üçün ən əlverişli şərait yaratmaqdan ibarətdir. Bu məqsədlə, istehsalın ayrı-ayrı sahələri üzrə kadrların düzgün yerləşdirilməsini, onların işinin ən səmərəli rejimini, istehsal vasitələrindən və əməkdən effektli istifadə olunmasını, məhsul buraxılışının artmasını və keyfiyyətinin yüksəldilməsini təmin edən müxtəlif təşkilati-iqtisadi tədbirlər kompleksi həyata keçirilir.

Bazar iqtisadiyyatı şəraitində əməyin təşkilinin daha mühüm bir vəzifəsi istehsalın texnikasının, texnologiyasının və təşkilinin daim təkmilləşdirilməsi əsasında əmək şəraitini yüngülləşdirməkdən və yaxşılaşdırmaqdan ibarətdir. Bütün müəssisələrdə əməyin sanitar-gigiyenik şəraitini və təhlükəsizlik texnikasını yaxşılaşdırmaq üçün müntəzəm sürətdə həyata keçirilən tədbirlər də məhz bu cəhəti nəzərdə tutur.

Bu sahə üçün kadr təminatını yüksək səviyyədə həll etmək üçün Azərbaycanın elm mərkəzlərində (AMEA-da, universitetlərin müvafiq kafedralarında, elmi-tədqiqat institutlarında və s.) yüngül və toxuculuq sənayesi məhsulları istehsalı üçün innovasiyalı texnika və texnologiyaların, idarəetmə və biliyə əsaslanan iqtisadiyyatın formalaşması üçün geniş elmi-praktiki tədqiqatların stimullaşdırılması məsələsinə üstünlük verilməlidir.

ƏDƏBİYYAT

1. Мамедова Х.Ф. Исторические аспекты развития предприятий текстильной и легкой промышленности в Азербайджане. «Экономика и бизнес» теория и практика. Новосибирск. №8. 2015. с. 69-74
2. Жуков Л.С. Легкая промышленность М. 2006. с. 100-110

CURRENT SITUATION OF STAFFING IN LIGHT INDUSTRY ENTERPRISES IN AZERBAIJAN

Khadija Fizuli gizi Mammadova
x.memmedova@atu.edu.az
Azerbaijan Technological University

The scientific research paper is devoted to the current state and development prospects of staffing in textile and light industry enterprises operating in the Republic. As a result, the authors have developed guidelines for training high-quality staff for textile and light industry enterprises in the Republic.

Keywords: Personnel policy, education and specialization, technology and automation, labor organization, innovation and development

RƏQƏMSAL İQTİSADİYYAT İNNOVATİV YANAŞMANIN NƏTİCƏSİ KİMİ

Cahan Niftalı qızı Quliyeva
cahan.guliyeva0901@mail.ru
Azərbaycan Memarlıq və İnşaat Universiteti

XXI əsr texnoloji tərəqqinin, informasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı ilə xarakterizə olunur. Bu dövr, xüsusilə "Dördüncü Sənaye İnqilabı" kimi tanınan bir mərhələ ilə fərqlənir. Rəqəmsallaşma, süni intellekt, böyük verilənlər (big data), robot texnologiyaları və avtomatlaşdırma həyatımızın demək olar ki, bütün sahələrinə sirayət etmişdir. Bu prosesin müsbət tərəfləri ilə yanaşı, onun milli-mənəvi dəyərlərə təsiri də diqqət mərkəzində saxlanılmalıdır. Dördüncü Sənaye İnqilabı texnologiya və istehsal proseslərinin birləşdiyi, fiziki, rəqəmsal və bioloji sferaların inteqrasiyası ilə müşayiət olunan bir mərhələdir. Əgər əvvəlki sənaye inqilablarında əsas diqqət mexaniki və energetik dəyişikliklərə yönəlmişdisə, bu mərhələdə informasiya axını və onun emalı əsas rol oynayır. Bu da cəmiyyətin bütün strukturlarında, o cümlədən mədəniyyət və mənəviyyat sahələrində köklü dəyişikliklərə səbəb olur. Dördüncü Sənaye İnqilabı cəmiyyətə yeni imkanlar qazandırsa da, onun yaratdığı çağırışlara milli-mənəvi kontekstdə cavab vermək olduqca vacibdir. Rəqəmsallaşmanın gətirdiyi dəyişikliklər qarşısında milli kimliyin və mədəni dəyərlərin qorunması, bu dəyərlərin müasir formatda təqdim olunması strateji əhəmiyyət daşıyır. Texnologiya və mənəviyyat arasında balansın qorunması müasir dövrün əsas vəzifələrindən biridir.

Rəqəmsal texnologiyaların sürətli inkişafı XXI əsrdə iqtisadiyyatın yeni bir mərhələyə keçməsinə səbəb olmuşdur. Bu mərhələ rəqəmsal iqtisadiyyat adlanır və o, ənənəvi iqtisadi modeldən fərqli olaraq informasiya texnologiyalarına, internetə və rəqəmsal platformalara əsaslanır. Rəqəmsal iqtisadiyyat iqtisadi fəaliyyətlərin həyata keçirilməsi formasını dəyişdirməklə yanaşı, yeni iş modellərinin və xidmət sahələrinin yaranmasına da şərait yaradır. Rəqəmsal iqtisadiyyat — rəqəmsal texnologiyaların tətbiqi ilə yaradılan, ötürülən və istifadə olunan iqtisadi fəaliyyətlər toplusudur. Bu iqtisadiyyat növü əsasən internet platformaları, mobil tətbiqlər, süni intellekt, böyük verilənlər (big data), bulud texnologiyaları və blokçeyn kimi texnologiyalara əsaslanır. Rəqəmsal iqtisadiyyat müasir dövrün ayrılmaz bir hissəsinə çevrilmişdir və onun inkişafı iqtisadi artımı stimullaşdırır, yeni imkanlar yaradır. Bununla belə, bu sahənin davamlı və inklüziv şəkildə inkişafı üçün dövlət siyasətləri, biznes təşəbbüsləri və cəmiyyətin adaptasiyası vacibdir. Gələcəkdə rəqəmsal iqtisadiyyatın daha da dərinləşəcəyi və iqtisadiyyatın bütün sahələrinə nüfuz edəcəyi gözlənilir. [1]

Müasir dövrdə iqtisadi inkişafın əsas drayverlərindən biri rəqəmsal iqtisadiyyatdır. Bu yeni iqtisadi model, ənənəvi iqtisadi strukturların transformasiyası nəticəsində formalaşaraq, innovativ texnologiyaların, rəqəmsal həllərin və informasiya texnologiyalarının tətbiqi ilə inkişaf edir. Bu sistemdə ənənəvi iqtisadi fəaliyyətlər yeni texnoloji platformalar üzərindən həyata keçirilir. Onlayn ticarət, rəqəmsal bankçılıq, elektron hökumət və virtual əmək bazarları rəqəmsal iqtisadiyyatın əsas komponentlərindəndir. Rəqəmsal iqtisadiyyatın əsasını innovasiya təşkil edir. İnnovativ yanaşmalar sayəsində yeni biznes modelləri, məhsullar və xidmətlər ortaya çıxır. Məsələn, əvvəlki dövrlərdə böyük fiziki investisiyalar tələb edən istehsal və xidmət sahələri, bu gün rəqəmsal platformalar vasitəsilə daha effektiv və əlçatan şəkildə təqdim olunur. Startap ekosistemləri və texnoloji inkubatorlar bu prosesin əsas iştirakçılarıdır. Bununla belə, rəqəmsal iqtisadiyyat bir sıra çağırışlar da yaradır. Kibertəhlükəsizlik, rəqəmsal qeyri-bərabərlik, hüquqi tənzimləmələrin yetərsizliyi və informasiya məxfiliyi məsələləri bu çağırışlar sırasındadır. Dövlətlər və beynəlxalq qurumlar bu problemlərin həlli üçün uyğun strategiyalar formalaşdırmağa çalışırlar. Rəqəmsal iqtisadiyyat innovativ yanaşmanın real

təcəssümüdür. Bu iqtisadi model, cəmiyyətlərin inkişafına, insanların rifahına və qlobal rəqabətliliyə müsbət təsir göstərir. Gələcəkdə bu sahənin daha da genişlənməsi və dərinləşməsi, onun daha dayanıqlı və ədalətli şəkildə inkişaf etdirilməsini tələb edir.

Son onilliklərdə texnologiyanın sürətli inkişafı iqtisadiyyatın bütün sahələrini əhatə edən dərin və dönməz dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi iqtisadiyyatın istehsal, əmək və kapitala əsaslanan modeli tədricən rəqəmsal iqtisadiyyatın informasiya, bilik və texnoloji platformalara əsaslanan yeni modelinə çevrilir. Bu dəyişiklik təkcə texnologiya deyil, həm də işgüzar münasibətlər, istehlakçı davranışı və dövlət siyasətlərində də fundamental transformasiyalara yol açır. Ənənəvi iqtisadiyyat sənaye inqilabından bəri formalaşmış və əsasən aşağıdakı xüsusiyyətlərlə xarakterizə olunurdu: Fiziki əmək və istehsal vasitələri əsas iqtisadi dəyər mənbəyi idi. İstehsal mərkəzləşdirilmiş müəssisələrdə baş verirdi. Əlverişli coğrafi mövqe və təbii resurslara çıxış üstünlük yaradırdı. Ticarət və xidmətlər fiziki təmas və ənənəvi yollarla (mağazalar, bazarlar) həyata keçirilirdi. Ənənəvi iqtisadiyyatdan rəqəmsal iqtisadiyyata keçid, sadəcə texnoloji bir dəyişiklik deyil – bu, sosial, iqtisadi və mədəni bir transformasiyadır. Dövlətlər, şirkətlər və fərdlər bu dəyişikliklərə adaptasiya olmaq üçün strategiyalar hazırlamalı, yeni biliklər qazanmalı və çevik yanaşmalar sərgiləməlidirlər. Gələcəyin iqtisadiyyatında uğurlu olmaq, rəqəmsal bacarıqlara, innovasiya potensialına və çevik qərarverməyə bağlı olacaq. Rəqəmsal iqtisadiyyatın hesablanması müasir dövrdə dayanıqlı iqtisadi siyasətin formalaşdırılması üçün vacibdir. Bu sahədə metodoloji təkmilləşdirmə, statistik infrastrukturun gücləndirilməsi və beynəlxalq əməkdaşlıq rəqəmsal iqtisadiyyatı daha dəqiq və effektiv şəkildə ölçməyə imkan verəcəkdir. Ənənəvi iqtisadi nəzəriyyələr artıq rəqəmsal mühitdə tam adekvat olmur. Bu səbəbdən yeni analiz metodları, rəqəmsal bazar davranışları və platforma iqtisadiyyatına dair modellər formalaşır. [2]

Rəqəmsal iqtisadiyyat yalnız texnoloji inkişafın məhsulu deyil, həm də iqtisadi sistemin yenidən formalaşmasıdır. Onun orijinallığı – ənənəvi strukturları dəyişdirməsində, elmi yeniliyi isə – yeni nəzəri və praktiki yanaşmaların yaranmasındadır. Bu baxımdan, rəqəmsal iqtisadiyyat XXI əsrin ən mühüm iqtisadi transformasiya mərhələsi kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT

1. Balayev R.Ə. Rəqəmsal iqtisadiyyat: mahiyyət və perspektivlər. "Kooperasiya" jurn. №2. Bakı. 2019. s. 28-30
2. Əliyev Ə.Q. İKT-yə əsaslanan intellektual cəmiyyətin və iqtisadiyyatın formalaşması xüsusiyyətləri və inkişaf problemləri. İnformasiya cəmiyyəti problemləri. №1. Bakı. 2021. s.43–45

INNOVATIVE APPROACH TO RRORISAL ECONOMY AS A RESULT

Jahan Niftali gizi Guliyeva
cahan.guliyeva0901@mail.ru
Azerbaijan University of Architecture and Construction

In recent decades, the rapid development of technology has caused significant changes in the economy as well as in all areas of society. The spread of the Internet, artificial intelligence, blockchain technologies, "Big Data," and other innovations are fundamentally altering traditional economic structures. In this context, the concept of the digital economy comes to the forefront. The digital economy is an economic system based on the intensive use of digital technologies in the creation, distribution, and consumption of products and services. This economic model is built on the possibilities created by information technologies and provides digital alternatives to traditional forms of economic activity. The digital economy is one of the main factors shaping the future of the global economic system. In this regard, every country, including Azerbaijan, must adapt to digital technologies and turn them into a key component of development to maintain and enhance competitiveness.

Keywords*:* information, technology, blockchain, infrastructure, trade, service/

RƏQƏMSAL DÖVRDƏ İDARƏETMƏ VƏ TRANSFORMASİYA

Arzu Taryel oğlu Əsgərov
a.asgarov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İdarəetmə hakimiyyət qanadları və ərazi vahidləri səviyyələri arasında təsir dairəsinin dövlətin daxilində bölüşdürülməsi prosesidir. Dövlət idarəetməsinin əsasında dövlət maraqları, dövlətin bütövlüyü, onun əhalisinin həyat səviyyəsinin yüksəldilməsi, əsas dövlət idarəetmə institutlarının saxlanılması maraqları durur. Dövlət maraqlarının əsasında sosial, müdafiə, iqtisadi, siyasi və arbitraj maraqları durur.

İnformasiya texnologiyalarındakı sürətli inkişafı iş həyatı ve cəmiyyət üzərində iqtisadi və sosyal dəyişmələrə səbəb olmuşdur. İnformasiya və xəbərləşmə texnologiyaları anlayışı kompüter və xəbərləşmə texnologiyalarının bütünləşməsi nəticəsində ortaya çıxmışdır. OECD'nin İnformasiya Cəmiyyəti üçün İndikatorlarda İşçi Qrup'nun (Working party on Indicators for Information Society) tərifinə görə informasiya və xəbərləşmə texnologiyaları sektoru, informasiya və xəbərləşmə sektoru istehsalçıları və xidmətlərindən ibarətdir.

İşin məqsədi – Rəqəmsal texnologiyaların tədbiqi ilə təşkilatların rentabelliyinin və rəqabətqabiliyyətliliyinin artırılması.

Tədqiqatın metodologiyası – Beynəlxalq təcrübədə mövcut olan idarəetmə metodları. Rəqəmsal idarəetmə tədbiqlərinə dair vəziyyət təhlili (case study) və rəqəmsal transformasiya üzrə qanunvericilik və strategiaların təhlili.

Tədqiqatın predmenti – Dövlət sektorunda rəqəmsal idarəetmə sistemlərinin səmərəliliyi, onların vətəndaş xidmətlərinə, qərar qəbuletmə prosesinə və inzibati fəaliyyətə təsiri.

Tədqiqatın praktiki əhəmiyyəti – Dövlət xidmətlərinin keyfiyyətinin artırılması, inzibati yükün və xərclərin azaldılması, şəffaflığın və ictimai nəzarətin gücləndirilməsi.

Rəqəmsallaşma sənaye inqilabları ilə başlayan və bu günə qədər inkişaf edən, cəmiyyətə və biznesə dərindən təsir edən bir prosesdir. Rəqəmsal texnologiyaların idarəetməyə tədbiqi cəmiyyətdəki rəftar və davranışlara təsir edərək müəssisələrin strukturunu, əməliyyatlarını, biznes təcrübələrini və qərar vermə mexanizmləri kimi bir çox elementlərini dəyişdirir. Bu kontekstdə əvvəllər əl ilə yerinə yetirilən və xeyli əmək tələb edən biznes funksiyaları zamanla rəqəmsal platformalara köçürüldü. Bu platformalarda 4-cü sənaye inqilabının konsepsiyası ilə ortaya çıxan müxtəlif elementlərdən istifadə olunur. Rəqəmsallaşma ilə müəssisələr səmərəliliyini və gəlirliliyini artırmaqla ömrünü uzada bilər. Buna görə də rəqəmsallaşma prosesini tez başa vuran müəssisələrin daha rəqabətli ola biləcəyini söyləmək mümkündür.

Rəqəmsal transformasiya dövründə təşkilatlar bəzi funksiyalarını elektron platformaya daşıyıblar.

Müəssisələr tərəfindən ən çox istifadə olunan modellərdən biri rəqəmsal insan resurslarının idarə edilməsidir. Bu sahədə çatbotlardan istifadə edərək, iş müraciətlərinn kodlar vasitəsilə QR qəbulu, mobil insan resurslarının idarə edilməsi, tətbiqlər və panellərdən istifadə edərək məlumat əsaslı təhlillərin aparılması, işə qəbul proseslərində süni intellektin istifadəsi kimi vasitələr mövcutdur. Bu tətbiqlərin istifadəsi insan resurslarının idarə edilməsi prosesini asanlaşmağına və təşkilatda işin keyfiyyətini və şəffaflığının artırılmasına kömək edir.

Araşdırmalar göstərir ki texnoloji inkişafdan ən çox təsirlənən sahələrdən biri də mühasibatlıqdır. Elektron mühasibatlıq, büdcə vəsaitlərinin idarə olunmasını, maliyyə hesabatlarının şəffaf aparılmasını və vergi öhdəliklərinin avtomatlaşdırılmasını təmin edir. Bu sahədə elektron mühasibatlıq sistemlərinin tətbiqi korrupsiya risklərini azaldır, hesabatlılığı artırır və dövlət resurslarından daha effektiv istifadə etməyə imkan verir. Elektron mühasibatlıq proqramları (SAP, Oracle Financials, Microsoft Dynamics 365 Finance, QuickBooks, Xero)

vasitəsilə dövlət qulluqçularının əməkhaqqısı avtomatik hesablanır və ödənişlər mərkəzləşdirilmiş şəkildə həyata keçirilir iş saatlarının və məzuniyyətlərin idarə olunması elektron sistemlər vasitəsilə aparılır.

Xidmətlərinin elektronlaşması müasir dövrdə uğur qazanmaq üçün vacib olan amillərdən biridir. Bu proses texnologiyanın inkişafı ilə daha da sürətlənmiş və müəssisələrə bir sıra üstünlüklər qazandırmışdır. Elektron xidmətlərin əsas komponentlər aşağıdakılardır.

Canlı çat və chatbotlar – Vətəndaşların suallarına avtomatik cavab verməklə xidmət keyfiyyətini artırır.

Mobil tətbiqlər və veb platformalar – Məhsul və ya xidmətlərdən istifadə etməsini asanlaşdırır.

E-poçt və avtomatik cavablandırma sistemləri – Müraciətləri daha səmərəli şəkildə idarə edir.

İdarəetmə sahəsində süni intellekt, blokçeyn və avtomatlaşdırma kimi texnologiyaların inkişafı daha novatar həllər ortaya çıxaracaq. Gələcəkdə təşkilatlar virtual köməkçilər, daha ağıllı chatbotlar və proqnozlaşdırıcı analitika vasitəsilə vətəndaş məmnunluğunu daha yüksək səviyyəyə qaldıracaqları gözlənilir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 9 fevral tarixli 32 nömrəli qərarı.
2. Dr. Murat SUCU Dijital Yönetim. 2021
3. https://president.az/az/articles/view/51299

MANAGEMENT AND TRANSFORMATION IN THE DIGITAL ERA

Arzu Taryel oglu Asgarov
a.asgarov@atu.edu.az
Azerbaijan Technological University

The development of digitalization and information technologies has significantly transformed public administration, human resource management, and accounting. Electronic accounting and digital HR management systems enhance work quality and transparency while reducing administrative burdens. AI and automation introduce innovative solutions that increasing organizational competitiveness. In the future, the broader adoption of digital technologies will further improve efficiency in both the public and private sectors.

Keywords: Digitalization, public administration, artificial intelligence, electronic accounting.

KİÇİK BİZNESİN İNKİŞAF PERSPEKTİVLƏRİ

Ulduz Rəhim qızı Hüseynova
ulduzhuseyinova63@gmail.com
Xasay Musa oglu Mehdiyev
xasay49@mail.ru
Elmir Saleh oğlu Cəfərov
elmiraztu@mail.ru
Azərbaycan Texnologiya Unversiteti

Azərbaycanda kiçik sahibkarların inkişafına təsir edən amillər içərisində maliyyə amilləri bazar iqtisadiyyatına keçidin bütün dövrü ərzində ən zəif təsir qüvvəsinə malik olmuşdur. Bu, bir tərəfdən maliyyə resurslarının məhdudluğu ilə izah olunursa, digər tərəfdən verilən kreditlərin səmərəsiz istifadəsi, geri qaytarılmaması ilə izah oluna bilər.

Kiçik biznesin fəaliyyətinin maliyyələşdirilməsinin əsas mənbələrinə dövlət büdcəsi vəsaiti, kommersiya banklarının kredit resursları, beynəlxalq və xarici bankların, maliyyə institutlarının kredit xətləri aiddir.

Azərbaycanda kiçik sahibkarlara dövlət maliyyə köməyinin iki mexanizmi təşəkkül tapmışdır. Birinci mexanizm fermer təsərrüfatlarına subsidiya formasında kredit güzəştləri verilməsi, ikinci mexanizm kiçik sahibkarlığa investisiya yardımının həyata keçirilməsidir.

Bu məqsəd üçün dövlət büdcəsindən vəsait ayrılması nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2002-ci il, 17 avqust fərmanı ilə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı" təsdiq edilmişdir. Proqram 6 bölmədən ibarətdir. Proqramın əsas məqsədi ölkəmizdə sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, KOS-un insan resursunun inkişafı, texniki, maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi və regionlarda sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması əsasında KOS-un inkişafını təmin etməkdir.

Azərbaycanda kiçik və orta biznesin (KOB) inkişafı dövlət siyasətinin əsas istiqamətlərindən biridir. KOB-ların iqtisadiyyatda payının artırılması və rəqabət qabiliyyətinin yüksəldilməsi məqsədilə bir sıra tədbirlər həyata keçirilir.

KOB-ların rəqəmsallaşması istiqamətində də mühüm addımlar atılır.2024-cü ilin oktyabr ayında Azərbaycanda kiçik və orta bizneslərin rəqəmsallaşması proqramı fəaliyyətə başlamışdır.Bu proqram, KOB-ların fəaliyyətini keyfiyyətcə yeni mərhələyə yüksəltməyi və rəqabət qabiliyyətini artırmağı hədəfləyir.**"**Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin 2021-2025-ci illər üzrə əsas icra göstəriciləri" İdarə Heyəti sədrinin müvafiq əmri ilə təsdiq olunub. Burada strateji hədəflər, əsasən, bu istiqamətlərdə müəyyən edilib:

- KOB-ların "G2B" və "B2B" xidmətinə çıxışına dəstək;
- KOB-ların bazarlara çıxışına dəstək;
- KOB-ların maliyyə mənbələrinə çıxışına dəstək;
- KOB mühitinin təkmilləşdirilməsi;
- KOB-ların bilik və innovasiyaya çıxışına dəstək;
- İnstitusional inkişafı

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30.09.2020-ci il tarixli 364 nömrəli Qərarı ilə ilə "Mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi Qaydası" təsdiq edilib. Bu qaydaların təsdiq edilməsində əsas məqsəd Azərbaycan Respublikasında mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsidir. Agentlik mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar layihələrin maliyyələşdirilməsini "Qrant haqqında" Azərbaycan Respublikası Qanununa və bu Qaydaya uyğun olaraq Agentlik tərəfindən keçirilən müsabiqələr yolu ilə həyata keçirəcək. KOB subyektlərinə aid olan istənilən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxs müsabiqədə iştirak etmək hüququna malikdir. Agentliyə təqdim olunmuş hər bir layihə üzrə maliyyələşdirilmə məbləği 20 000 manata qədərdir.

İnnovativ biznesin inkişafı - Azərbaycanda innovativ milli biznesin inkişaf strategiyasında xarici bazarlara çıxış məqsədilə azad ticarət sazişlərinin bağlanılması və müasir innovativ texnologiyaların yaradılması və reallaşdırılması mühüm vəzifələrdən biridir

Gələcək perspektivlər - "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə əsasən, KOB-ların iqtisadiyyatda payının artırılması və onların daha dinamik inkişafı hədəflənir.Bu çərçivədə, KOB-ların rəqabət qabiliyyətinin artırılması, innovativ fəaliyyətlərinin dəstəklənməsi və beynəlxalq bazarlara çıxışının asanlaşdırılması kimi istiqamətlər prioritetdir. Ümumilikdə, Azərbaycanda kiçik və orta biznesin inkişafı üçün əlverişli şərait yaradılır və bu sahənin perspektivləri müsbət qiymətləndirilir.

Kiçik biznesin qiymətləndirilməsi və inkişafı iqtisadiyyatın əsasını təşkil edir və

ölkənin uzunmüddətli inkişafını təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir.

SMALL BUSINESS DEVELOPMENT PROSPECTS

Ulduz Rahim gizi Huseynova
ulduzhuseyinova63@gmail.com
Khasay Musa oglu Mehdiyev
xasay49@mail.ru
Elmir Saleh oglu Jafarov
elmiraztu@mail.ru
Azerbaijan Technological University

Small businesses rely on various financing sources to support their operations, including government budget allocations, commercial bank loans, and credit lines offered by international and foreign financial institutions. The growth and assessment of small businesses play a crucial role in strengthening the economy, forming the backbone of economic stability and growth. Their success is vital for the sustainable development of the nation, contributing significantly to long-term economic progress.

Keywords: Small business, KOB, entrepreneurs, competition, innovation, national

MÜASİR ŞƏRAİTDƏ TRANSMİLLİ KORPORASİYALARIN FƏALİYYƏT XÜSUSİYYƏTLƏRİ

Nigar Vaqif qızı Hüseynova
huseynova221083@gmail.com
Cümşüd İbrahim oğlu Cabbarov
c.cabbarov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Qloballaşma dövründə transmilli korporasiyalar (TMK) dünya iqtisadiyyatının əsas hərəkətverici qüvvələrindən birinə çevrilmişdir. Onların fəaliyyət dairəsi, iqtisadi təsir gücü və struktur formaları zaman keçdikcə dəyişir və inkişaf edir. Bu məqalədə müasir şəraitdə TMK-ların əsas fəaliyyət xüsusiyyətləri, onların üstünlükləri və çətinlikləri, eləcə də milli iqtisadiyyatlara təsiri araşdırılır. Eyni zamanda, texnoloji inkişaf, rəqəmsallaşma və davamlı inkişaf tələblərinin TMK-ların fəaliyyətinə təsiri geniş şəkildə təhlil olunur.

Transmilli korporasiyalar (TMK) — fəaliyyətlərini bir neçə ölkədə həyata keçirən və mərkəzləşdirilmiş idarəetməyə malik olan iri iqtisadi subyektlərdir. Onlar investisiya, istehsal, satış və digər iqtisadi fəaliyyətləri transsərhəd formada həyata keçirirlər. XX əsrin ikinci yarısından başlayaraq TMK-ların iqtisadi rolu sürətlə artmış və bu gün dünya ticarətinin, texnoloji innovasiyaların və kapital axınının böyük hissəsini təşkil edirlər. Müasir dövrdə isə onların fəaliyyəti daha da mürəkkəbləşmiş və qlobal çağırışlara uyğun olaraq transformasiya olunmuşdur.

Müasir TMK-ların fəaliyyətini xarakterizə edən əsas xüsusiyyətlər aşağıdakılardır:

1. Qlobal miqyasda fəaliyyət: TMK-lar adətən onlarla ölkədə istehsal, tədarük və satış əməliyyatlarını həyata keçirirlər. Bu, onlara maliyyə sabitliyini qorumağa və bazar risklərini yaymağa imkan verir.

2. Çevik istehsal və təchizat zəncirləri: TMK-lar istehsal proseslərini müxtəlif ölkələrə bölüşdürərək resurslardan səmərəli istifadə edirlər. Misal üçün, xammal bir ölkədən alınır, istehsal başqa ölkədə həyata keçirilir, son məhsul isə fərqli bazarlarda satılır.

3. İnnovasiya və texnoloji üstünlük: TMK-lar tez-tez texnoloji yeniliklərə sərmayə qoyur və elmi-tədqiqat fəaliyyətlərinə böyük diqqət yetirirlər. Onlar üçün texnoloji liderlik bazarda rəqabət üstünlüyü təmin edir.

4. Mərkəzləşdirilmiş idarəetmə və qloballaşmış korporativ strategiya:

Əsas qərarlar korporasiyanın baş ofisində qəbul edilir, lakin onların icrası yerli filiallarda həyata keçirilir. Bu da vahid korporativ siyasətin qorunmasına imkan yaradır.

TMK-ların fəaliyyətində bir sıra çağırışlar da mövcuddur:

1. Geosiyasi qeyri-sabitlik: Müharibələr, sanksiyalar və siyasi dəyişikliklər TMK-ların fəaliyyətini əngəlləyə bilər. Xüsusilə ABŞ-Çin ticarət müharibəsi və Rusiya-Ukrayna münaqişəsi kimi hadisələr transmilli biznesin istiqamətlərini dəyişdirmişdir.

2. Tənzimləmə fərqləri və hüquqi baryerlər: Müxtəlif ölkələrdə vergi, əmək və ətraf mühit qanunvericilikləri fərqli olduğundan TMK-lar kompleks uyğunlaşma mexanizmləri tətbiq etməlidirlər.

3. Etik və sosial məsuliyyət tələbləri: İctimaiyyət və vətəndaş cəmiyyəti TMK-lardan daha şəffaf və sosial məsuliyyətli fəaliyyət tələb edir. Bu isə onların strateji planlaşdırmasına yeni yanaşmalar gətirir.

4. Rəqəmsallaşma və süni intellektin rolu: Yeni texnologiyalar TMK-ların strukturunu dəyişdirir. Rəqəmsal platformalar və süni intellekt məhsuldarlığı artırsa da, eyni zamanda insan əməyinə ehtiyacı azaldır.

TMK-ların fəaliyyətinin müsbət və mənfi tərəfləri milli iqtisadiyyatlara təsir kontekstində əhəmiyyətlidir:

Müsbət təsirlər:

- Xarici investisiyaların artması və iş yerlərinin yaradılması
- Texnologiya və menecment təcrübəsinin transferi
- Vergi daxilolmalarının artması

Mənfi təsirlər:

- Yerli biznesin sıxışdırılması və bazar inhisarçılığı
- Əmək bazarında qeyri-sabitlik və əmək haqqı təzyiqləri
- Ətraf mühitə mənfi təsirlər və təbii resursların istismarı

BMT-nin 2030 Dayanıqlı İnkişaf Məqsədləri çərçivəsində TMK-ların məsuliyyətli və ətraf mühitə uyğun fəaliyyət göstərməsi zərurətə çevrilmişdir. Bir çox TMK artıq ekoloji standartlara uyğun istehsal modellərinə keçid edir, karbon emissiyalarını azaltmağa çalışır və sosial layihələrə investisiya yatırır.

Transmilli korporasiyalar müasir dünya iqtisadiyyatında mühüm rol oynayır. Onların qlobal strategiyaları, texnoloji potensialı və kapital imkanları dünya ticarətinin və sənaye inkişafının əsas sütunlarındandır. Lakin eyni zamanda, onların fəaliyyətində şəffaflıq, sosial məsuliyyət və ətraf mühitə hörmət prinsiplərinin tətbiqi vacibdir. Gələcəkdə TMK-ların uğuru bu prinsiplərlə nə dərəcədə uzlaşmalarından asılı olacaqdır.

ƏDƏBİYYAT

1. Əliyev S., Eminov A., Süleymanov E., Ələsgərova F., Beynəlxalq Maliyyə Təşkilatları və Azərbaycan. Zərdabi-Nəşr. Bakı. 2016. 286 s.
2. İbrahimova G. Beynəlxalq münasibətlərin proqnozlaş-dırılması. Bakı. 2019
3. Vəliyev D., Əsədov A. Beynəlxalq iqtisadiyyat. Dərslik. Bakı. 2012

CHARACTERISTICS OF TRANSNATIONAL CORPORATIONS IN MODERN CONDITIONS

Nigar Vagif gizi Huseynova
huseynova221083@gmail.com
Jumshud Ibrahim oglu Jabbarov
c.cabbarov@atu.edu.az
Azerbaijan Technological University

In the age of globalization, transnational corporations (TNCs) have emerged as key drivers of the global economy. Over time, their range of operations, economic influence, and structural forms continue to evolve. This article explores the main characteristics of TNCs' operations in the contemporary landscape, highlighting both their advantages and challenges. Additionally, the article examines the impact of technological advancements, digitalization, and the growing demands for sustainable development on the functioning of TNCs. These factors are reshaping how TNCs operate, influencing their strategies and contributions to national economies.

Keywords: transnational corporations, digitalization, corporate strategy, innovation,

investment.

STAFF TURNOVER DYNAMICS IN THE REPUBLIC OF AZERBAIJAN'S ECONOMIC SECTORS FROM 2010 TO 2023

Leyla Yusif gizi Rzayeva
l.rzayeva@atu.edu.az
Aysel Xasay gizi Mehdiyeva
a.mehdiyeva@atu.edu.az
Azerbaijan Technological University

Employee turnover is an inevitable process in the operation of any enterprise. This article presents an analysis of the turnover rate of wage earners across various economic sectors in Azerbaijan, based on official statistical data from 2010 to 2023. The study explores how turnover levels vary depending on the sector. Furthermore, drawing on international practices and current labor market trends, normative (acceptable) turnover rates for different sectors have been identified. The findings of the research indicate that the highest turnover rates are observed in the construction, tourism, and manufacturing sectors. This highlights the need for strategic decisions aimed at improving employee retention and working conditions in these industries.

Managing any type of business will inevitably include changing workers. The pace at which workers depart from a company and are replaced by new hires is known as staff turnover, or employee attrition. Since employee morale, organizational culture, operational efficiency, and overall business success are all impacted by staff turnover, it is imperative to comprehend it. In analyzing staff turnover across various economic sectors, several key factors contribute to differences in turnover rates, motivations for leaving, and the implications of these departures.

Employee turnover is a natural part of any business. Contracts come to an end, employees move on, and companies hire new people to replace them. It's an important metric for understanding workforce stability and organizational health.

The percentage of workers who leave a company over a given time period in relation to the total number of employees is known as the turnover rate.

Ideally, employer would like to keep attrition rate as low as possible. Employee turnover has multiple associated costs, such as severance pay, loss in productivity, and the cost of recruiting and training a new hire.

Based on the available data according to official statistics, we present the sector-specific analysis of the turnover rate from 2010 to 2023.




Fig. 1.Compiled based on data of SSCRA - https://www.stat.gov.az

According to Figure 1, in Construction turnover exploded from 31.4% (2010) to 88.5% (2023) — the steepest rise across all sectors. Major spikes in 2015, 2017, and

2021–2023 point to rapid expansion or acute labor instability:

- Manufacturing: Started very high (35.8%), dipped, and then rose sharply again after 2020 to reach 42.9% in 2023**;**
- Tourism & Catering: Jumped from 15.0% to 59.4% by 2022, dipping slightly to 59.0% in 2023;
- Trade & Vehicle Repair: Low but rising turnover: 7.0% to 28.4% over 13 years. Low and stable until a rise starting in 2020, peaking at 28.4% in 2023. Indicates post-pandemic economic shifts or market entry/exit volatility;
- Mining: Turnover stayed modest, averaging around 12%, with only a minor peak in 2014;
- Information & Communication: Gradual increase from 14.6% to 24.7%. Suggests a more stable sector, though with growing movement possibly due to tech sector expansion.

The important question for most employers is whether current company turnover rate is healthy and sustainable. These normative ranges vary depending on a country's labor market dynamics, sector-specific employment structures, and demographic conditions. Based on the analysis of official Azerbaijani statistics (SSCRA, 2010–2023), along with international practices (ILO, OECD, SHRM), the following turnover ranges are recommended for the main sectors of Azerbaijan's economy compared to 2023 (table 1).

***Table 1*.Turnover ranges are recommended for the various sectors of the economy**

Sector	2023 Turnover (%)	Recommended Annual Turnover Rate (%)	Justification
Construction	88.5%	30–60%	**Severely exceeds the norm.** Characterized by project-based employment, seasonal labor.
Manufacturing	42.9%	20–40%	**Slightly exceeds the upper limit.** Turnover is influenced by job monotony, limited advancement, and varying demand for technical skills.
Retail & Vehicle Repair	28.4%	25–45%	**Within the normative range.** Retail is among the most dynamic sectors globally in terms of employee replacement, as confirmed by SHRM and U.S. Bureau of Labor Statistics.
Tourism & Catering	59.0%	35–60%	**Above the norm, close to the upper limit.** Jobs are often seasonal or temporary, contributing to frequent staff changes. This sector has one of the highest attrition rates internationally.
Mining	16.9%	10–20%	**Within the normative range.**
Information & Communication	24.7%	15–25%	**Close to the upper limit.** While tech industries see growing demand, high salaries and flexible work environments reduce turnover pressure

Compiled by the authors based on data of SSCRA, SHRM, U.S. Bureau of Labor Statistics etc.

As shown in the table, the actual employee turnover levels for 2023 are compared with the recommended annual turnover ranges by sectors. As seen, in the construction and manufacturing sectors, the actual rates significantly exceed the recommended range. These normative ranges provide a benchmark for evaluating whether an organization's employee turnover is within a healthy and sustainable range for its sector. Deviations from these ranges can signal issues related to working conditions, management practices, or sector-specific economic disruptions.

Overall, high turnover rates can lead to substantial financial costs related to recruitment, onboarding, and training new employees. Organizations face disruptions in productivity and potential declines in employee engagement. High attrition can signal underlying issues within the workplace culture or management practices. Moreover, sectors with high turnover may suffer reputational damage, making attracting new talent

even more challenging.

Keywords: employee turnover, turnover rates, sector-specific analysis, economic sectors, Azerbaijan

REFERENCES

1. State Statistical Committee of the Republic of Azerbaijan. (2010–2023). Official statistical data on the number of wage employees and turnover indicators. https://www.stat.gov.az
2. OECD. (2020). Job retention and turnover during the COVID-19 crisis: Insights from data. OECD Publishing. https://www.oecd.org
3. Bureau of Labor Statistics (BLS). (2023). Job Openings and Labor Turnover Survey (JOLTS). U.S. Department of Labor. https://www.bls.gov/jlt/
4. SHRM – Society for Human Resource Management. (2022). Employee Turnover Rates by Industry. https://www.shrm.org

AZƏRBAYCANIN XİDMƏT DÖVLƏTİNƏ DOĞRU İRƏLİLƏMƏSİ

Maarif Şərif oğlu Qarayev
m.qarayev@atu.edu.az
Zeynab Bəhram qızı Qocayeva
z.qocayeva@atu.edu.az
Yetər İsrayıl qızı Qasımova
y.qasımova@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

İqtisadi inkişafın hazırkı mərhələsi çox vaxt "xidmət iqtisadiyyatı" kimi müəyyən edilir: burada xidmətlər genişlənməkdə olan işçi qüvvəsinin əsas məhsuluna çevrilir və istehlakçı tələbatının ödənilməsində əsas rol oynayır. Bu tendensiya, iqtisadiyyatın sahə struktu-runda baş verən fundamental dəyişikliklərlə xarakterizə olunur, hansı ki, aşağıdakı əsas xüsusiyyətlərdə özünü büruzə verir:

1. Maddi istehsal ilə müqayisədə xidmətlərin istehsalında sürətlənmiş artım tempi müşahidə olunur, bu da xidmət sektorunun iqtisadiyyatda artan əhəmiyyətini əks etdirir.
2. Xidmət sektorunda çalışan işçilərin mütləq sayı və xüsusi çəkisi artır, bu da əmək bazarında xidmət sahəsinin artan rolunu göstərir.
3. Dünya ticarətində xidmət sektorunun həcmi və ixrac-idxal əməliyyatlarının sürəti davamlı olaraq artır, bu da qlobal iqtisadi əlaqələrdə xidmət sektorunun inteqrasiyasını nümayiş etdirir.
4. Xidmət sektorunda işçi qüvvəsinin miqrasiya axınının intensivliyi artır, bu da qlobal əmək bazarında xidmət sahəsinin artan rəqabət qabiliyyətini və cəlbediciliyini göstərir.

Xidmət müştərilərin - fiziki və (və ya) hüquqi şəxslərin ehtiyaclarını onlara mənəvi, sosial, maddi nemətlər vermək və ya bu nemətlərin istehlakı üçün şərait yaratmaq yolu ilə təmin etməyə yönəlmiş iqtisadi fəaliyyətdir. Xidmət müştərinin tələbi ilə istehsal edilən konkret məhsuldur və istehlak şəraitinin dəyişməsi və ya istehlakçının özünün dəyişməsi ilə ifadə olunur.

Xidmət sahəsi ictimai istehsal sistemində funksional məqsədi əhaliyə xidmət və mənəvi nemətlərin istehsalı və satışı ilə ifadə olunan sənaye sahələrinin, yarımsahələrin və fəaliyyət növlərinin məcmusudur.

Müasir iqtisadi mühitdə xidmət sektorunun genişlənməsi, qlobal iqtisadiyyatda əsas tendensiyalardan biridir. Bu sektor, ticarət, nəqliyyat, turizm, konsaltinq, təhsil, səhiyyə və mədəniyyət kimi müxtəlif sahələri əhatə edir və inkişaf etmiş ölkələrin ÜDM-də əhəmiyyətli paya malikdir. Statistik məlumatlar göstərir ki, bu ölkələrdə xidmət sektorunun ÜDM-dəki payı 2/3-dən 3/4-ə qədərdir. Həmçinin, bu sektor əmək bazarında da mühüm rol oynayır. ABŞ-da kənd təsərrüfatında çalışanlar çıxıldıqdan sonra xidmət sektoru iş yerlərinin 73%-ni, Almaniyada - 41%, İtaliyada - 35%-ni təşkil edir.

XX əsrin son onilliklərindən başlayaraq, inkişaf etmiş ölkələrdə sosial siyasət "dövlət-

vətəndaş" münasibətlərində xidmət yönümlü yanaşmaya doğru istiqamətlənmişdir. Bu yanaşma, 3 may 1996-cı il tarixli Avropa Sosial Xartiyasının 13-cü maddəsinin 3-cü bəndində də öz əksini tapmışdır və dövlətin vətəndaşlara fərdi və ailəvi ehtiyaclarını qarşılamaq üçün məsləhət və yardım xidmətləri göstərməsini nəzərdə tutur.

Dövlətin sosial funksiyası təkcə həssas əhali qruplarının müdafiəsi ilə məhdudlaşmır, həm də iqtisadi fəaliyyətdə iştirak edən vətəndaşlara dəstək verməyi əhatə edir. Bu, vətəndaşların həyat keyfiyyətinin yüksəldilməsi, onların müstəqilliyinin və sahibkarlıq fəaliyyətinin təşviq edilməsi kimi məsələləri əhatə edir. Xarici təcrübə göstərir ki, bu funksiyaların ən effektiv şəkildə həyata keçirilməsi, xidmət dövləti modeli vasitəsilə mümkündür. Bu model, vətəndaşlara xidmət göstərən və onların layiqli həyat təminatını təmin edən idarəetmə aparatını nəzərdə tutur. Bu yanaşma, dövlətin əsas institutlarını dəyişdirmədən, icra hakimiyyətinin təşkilati-hüquqi çərçivəsini gücləndirməyə yönəlmişdir.

Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar nəticəsində qeyri-neft sektorunun, xüsusilə də xidmət sahəsinin inkişafı xüsusi əhəmiyyət kəsb edir və Azərbaycanın xidməti dövlət modelinə doğru irəliləməsi nəzərə çarpır. Bu, dövlət strukturlarında bir sıra islahatların aparılması, innovativ texnologiyaların tətbiqi və dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması ilə bağlıdır.

Son illər Azərbaycanın xidməti dövlət modelinə doğru irəliləməsi nəzərə çarpır. Bu, dövlət strukturlarında bir sıra islahatların aparılması, innovativ texnologiyaların tətbiqi və dövlət xidmətlərinin göstərilməsində şəffaflığın artırılması ilə bağlıdır.

Azərbaycan, dövlət xidmətlərinin göstərilməsində şəffaflığı və səmərəliliyi artırmaq məqsədilə bir sıra mühüm islahatlar həyata keçirmişdir. Bu istiqamətdə ən əhəmiyyətli təşəbbüslərdən biri "ASAN xidmət" mərkəzlərinin yaradılmasıdır. "ASAN xidmət" mərkəzləri vətəndaşlara müxtəlif dövlət xidmətlərini "bir pəncərə" prinsipi əsasında təqdim edərək, xidmətlərin operativ və şəffaf şəkildə göstərilməsini təmin edir.

"ASAN xidmət" mərkəzlərinin əsas məqsədi dövlət orqanlarının hüquqi xidmətlərinin göstərilməsində vətəndaşların rahatlığını təmin etmək, şəffaflığı artırmaq və korrupsiya hallarının qarşısını almaqdır. Bu mərkəzlər vasitəsilə vətəndaşlar müxtəlif xidmətləri bir məkanda, sürətli və səmərəli şəkildə əldə edə bilirlər.

Əsas nailiyyətlərdən biri də "ASAN xidmət"in – mərkəzləşdirilmiş dövlət xidmətləri mərkəzlərinin yaradılmasıdır. Bu mərkəzlər "bir pəncərə" prinsipi ilə fəaliyyət göstərir, burada vətəndaşlar rahat və operativ şəkildə 300-dən çox müxtəlif növ xidmətlər ala bilirlər. Elektron texnologiyaların tətbiqi sayəsində yaşayış yeri üzrə qeydiyyat, şəxsiyyət vəsiqələrinin və pasportların verilməsi kimi xidmətlər ən qısa müddətdə həyata keçirilir.

Bundan əlavə, kommersiya qurumlarının "bir pəncərə" prinsipi üzrə qeydiyyatı sisteminin tətbiqindən 15 il ötür. Prezident İlham Əliyevin 25 oktyabr 2007-ci il tarixli sərəncamı ilə 2008-ci il yanvarın 1-dən biznes subyektlərinin "bir pəncərə" prinsipi üzrə dövlət qeydiyyatına start verilib. Bu sistem sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyat prosesini sadələşdirərək, biznes mühitinin yaxşılaşdırılmasına töhfə vermişdir.

Ən son yeniliklərdən biri vətəndaşlara öz sorğularının statusunu izləmək, bildirişlər almaq və xidmətlərə uzaqdan daxil olmaq imkanı verən "myGov" kimi mobil proqramların və platformaların tətbiqi olub. Bundan əlavə, Azərbaycanda elektron hökumət infrastrukturu fəal şəkildə inkişaf etdirilir ki, bu da xidmətlərə çıxışı asanlaşdırır və bürokratiyanın səviyyəsini azaldır.

Bundan başqa Azərbaycanda xidmət sahəsində həyata keçirilən davamlı inkişaf strategiyası informasiya-məsləhət, maliyyə, sosial və turizm xidmətləri kimi müxtəlif sferalarda xidmətlərin genişləndirilməsini və təkmilləşdirilməsini nəzərdə tutur.

İnformasiya-məsləhət xidmətləri, o cümlədən mühasibatlıq və hüquqi dəstək, biznes mühitinin inkişafında və sahibkarlığın dəstəklənməsində mühüm rol oynayır. Bu xidmətlərin əlçatanlığı və keyfiyyəti, xüsusilə kiçik və orta sahibkarlıq subyektləri üçün, onların rəqabət qabiliyyətinin artırılmasında əhəmiyyətli amildir.

Maliyyə sektorunda onlayn xidmətlərin, o cümlədən elektron ödənişlərin və mobil bankçılığın

genişləndirilməsi, maliyyə xidmətlərinin əlçatanlığını və səmərəliliyini artırır. Bu, həm vətəndaşların, həm də biznes subyektlərinin maliyyə əməliyyatlarını daha rahat və sürətli şəkildə həyata keçirməsinə imkan yaradır.

Sosial xidmətlərdə, xüsusilə təhsil və səhiyyə sahələrində məsafədən qeydiyyat və yardım xətti imkanları vətəndaşların çıxışını genişləndirir və vaxt itkisini azaldır.

Turizmə artan tələbat infrastrukturun inkişafını və onlayn rezervasiya, marşrut planlaşdırılması kimi rəqəmsal xidmətlərin yaradılmasını tələb edir. Bu, turizm potensialının səmərəli istifadəsinə və turist axınının artmasına şərait yaradır.

Dövlət xidmətlərində elektron identifikasiya, böyük verilənlər və süni intellektin tətbiqi xidmətlərin keyfiyyətini və səmərəliliyini yüksəldir.

AZERBAIJAN'S PROGRESS TOWARDS A SERVICE STATE

Maarif Sharif oglu Garayev
m.garayev@atu.edu.az
Zeynab Bahram gizi Gocayeva
z.gocayeva@atu.edu.az
Yetar Israyil gizi Gasimova
y.gasimova@atu.edu.az
Azerbaijan Technological University

The article emphasizes the importance of the service state model in improving social policy by providing more effective and transparent services to citizens. Azerbaijan is progressively transitioning toward a service-oriented state model by implementing initiatives such as the digitalization of public services, the establishment of "ASAN service" centres, and the advancement of e-government infrastructure.

Keywords: service economy, service sector, digitalization, sustainable development strategy.

KORPORATİV SOSİAL MƏSULİYYƏT, SOSİAL SAHİBKARLIQ VƏ İNKLÜZİV BİZNES: DAHA YAXŞI DÜNYAYA APARAN ÜÇ YOL

Zeynab Bəhram qızı Qocayeva
z.gocayeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Bu gün müəssisələr öz üzərilərinə getdikcə daha çox sosial məsuliyyət götürürlər. Korporativ sosial məsuliyyət (KSM), sosial sahibkarlıq və inklüziv biznes sosial və ekoloji problemlərin həlli üçün güclü alətlər kimi ortaya çıxan bir-biri ilə əlaqəli üç anlayışdır. Korporasiyalar öz sosial məsuliyyətlərini xeyriyyəçilik, sosial investisiyalar və ya sosial aspektlərin biznes proseslərinə inteqrasiyası vasitəsilə həyata keçirə bilərlər. Sosial sahibkarlıq, öz növbəsində, sosial müəssisələr və ya kooperativlər yaratmaqla sosial problemlərə bazara əsaslanan innovativ həllər təqdim edir. İnklüziv biznes həssas əhali üçün iqtisadi imkanların genişləndirilməsinə diqqət yetirir. Yanaşmalardakı fərqlərə baxmayaraq, bütün bu strategiyaların ümumi məqsədi var - davamlı inkişafı təşviq etmək. Bununla belə, bu cür təşəbbüslərin uğurla həyata keçirilməsi sosial və iqtisadi amillərin diqqətlə ölçülməsini, eləcə də müxtəlif maraqlar arasında optimal tarazlığın tapılmasını tələb edir.

Bu yanaşmaların sintezi şirkətlərə nəinki öz reputasiyalarını yüksəltməyə, həm də aktual sosial problemlərin həllinə, davamlı inkişafın təşviqinə mühüm töhfə verməyə imkan verir. Müsbət ictimai təsir yaratmaq kimi ümumi məqsədi paylaşsalar da, yanaşma, əhatə dairəsi və əsas məqsədləri ilə fərqlənirlər.

KSM şirkətlərin sosial və ekoloji problemləri öz biznes əməliyyatlarına və maraqlı tərəflərlə qarşılıqlı əlaqəsinə inteqrasiya etdiyi idarəetmə konsepsiyasıdır. Bu, şirkətin cəmiyyətə, ətraf mühitə və iqtisadiyyata təsirinə görə məsuliyyət daşımağı əhatə edir. KSM təşəbbüslərinə adətən bunlar daxildir: ədalətli əmək haqqının, təhlükəsiz iş şəraitinin və əmək qanunlarına riayət olunmasının təmin edilməsi; - karbon emissiyalarının azaldılması, resursların qorunması və tullantıların minimuma endirilməsi və s. əhatə edən ekoloji davamlılıq; - xeyriyyə ianələri, könüllü

proqramlar və icma inkişafı layihələri vasitəsilə yerli icmalara dəstək; - sosial və ekoloji fəaliyyətin açıqlanması və etik biznes təcrübələrinə riayət edilməsi.

Sosial sahibkarlıq sosial problemlərin innovativ həll yollarının işlənib hazırlanmasını nəzərdə tutur. Belə ki, sosial sahibkarlar sosial problemləri müəyyən edir, innovativ həllər hazırlayır və sahibkarlıq yanaşmaları vasitəsilə həyata keçirirlər. Ənənəvi bizneslərdən fərqli olaraq, sosial sahibkarlar mənfəətin artırılmasından daha çox sosial təsirə üstünlük verirlər, baxmayaraq ki, uzunmüddətli təsir üçün maliyyə dayanıqlığı vacibdir. Sosial sahibkarlığın əsas xüsusiyyətlərinə aşağıdakılar daxildir:

- Sosial sahibkarlar güclü sosial missiya ilə idarə olunurlar; - onlar sosial problemlərin həlli üçün innovativ yanaşmalar hazırlayırlar; - onlar daha çox insana təsir etmək üçün öz həllərini genişləndirməyə (ölçəklənmə) çalışırlar; - sosial təsir əsas məqsəd olsa da, sosial sahibkarlar öz müəssisələrinin uzunmüddətli həyat qabiliyyətini təmin etmək üçün maliyyə davamlılığına çalışırlar.

İnklüziv biznes aşağı gəlirli əhalini dəyər zəncirinə inteqrasiya edən biznes modelidir. İnklüziv bizneslər marjinal qruplar üçün iqtisadi imkanlar yaratmaqla yoxsulluğun azaldılmasına, iş yerlərinin yaradılmasına və sosial səlahiyyətlərin artırılmasına töhfə verir. İnklüziv biznesin fərqləndirici əlamətləri bunlardır: - aşağı gəlirli şəxslərin təchizatçılar, distribyutorlar, işçilər və ya müştərilər kimi inteqrasiyasını təmin edən iqtisadi inklüzivlik; -yeni bazarlara və müştəri seqmentlərinə daxil olmaqla bazarın genişləndirilməsi; aşağı gəlirli əhalinin ehtiyaclarına cavab verən innovativ məhsul və xidmətlərin inkişafı; - biznes fəaliyyətlərinin sosial və ətraf mühitə təsirinin izlənməsi və ölçülməsi.

Bu üç anlayışın əsas nüanslarını başa düşməklə, müəssisələr və təşkilatlar daha davamlı və ədalətli gələcəyə töhfə verən strategiyalar qəbul edə bilərlər. Onların arasındakı əsas fərqlər aşağıdakı cədvəldə ümumiləşdirilmişdir.

***Cədvəl* .KSM, sosial sahibkarliq və inklüziv biznesin əsas xüsusiyyətlərinin müqayisəli təhlili**

Xüsusiyyət	**Korporativ Sosial Məsuliyyət**	**Sosial Sahibkarlıq**	**İnklüziv Biznes**
Əsas Fokus	Korporativ Məsuliyyət	Sosial Təsir	İqtisadi İnklüzivlik
Məqsədlər	Sosial problemlərin həlli, reputasiyanın yüksəldilməsi	Sosial problemləri həll etmək, qazanc əldə etmək	Sosial cəhətdən həssas qrupların iqtisadi fəaliyyətə cəlb edilməsi
Subyektlər	Böyük şirkətlər	Sosial müəssisələr, kooperativlər	İstənilən şirkətlər
Hüquqi Struktur	Tipik olaraq kommersiya məqsədi daşıyan korporasiya	Kommersiya məqsədli, qeyri-kommersiya və ya hibrid ola bilər	Əsasən mənfəət üçün
Gəlir Modeli	Satış və mənfəət	Qrantlar, ianələr, sosial investisiyalar və gəlir əldə etmək	Satış və mənfəət
Hədəf Benefisiarlar	İşçilər, müştərilər, icmalar və ətraf mühit	Xüsusi sosial qruplar və ya icmalar	Aşağı gəlirli əhali
Güclü tərəflər	Miqyas, resurslar	Yenilik, çeviklik	Sosial təsir, uzunmüddətlilik
Zəif tərəflər	Uzunmüddətli, formal yanaşmanın olmaması	Maliyyə qeyri-sabitliyi, məhdud əhatə dairəsi	Sosial təsirin ölçülmə-sində çətinlik, ənənəvi bizneslərlə rəqabət

Korporativ Sosial Məsuliyyət (KSM), sosial sahibkarlıq və inklüziv biznes yanaşmaları fərqli konseptual əsaslara malik olsalar da, onları birləşdirən əsas prinsip mövcuddur: müsbət sosial təsir yaratmaq öhdəliyi. Bu ortaq məqsəd, davamlı və etik biznesin əsasını təşkil edən bir neçə qarşılıqlı əlaqəli ölçülərdə özünü göstərir. Mahiyyət etibarilə, hər üç yanaşma sosial və ekoloji təsiri prioritet sayır — bu, KSM çərçivəsində icma inkişafı proqramları, sosial sahibkarlıq vasitəsilə sistemli problemlərə yönəlmiş innovativ həllər və ya inklüziv biznes modelləri vasitəsilə iqtisadi baxımdan təcrid olunmuş əhali qruplarının səlahiyyətləndirilməsi ilə ifadə oluna bilər. Hər üç konsepsiya Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) ilə sıx uyğunluq təşkil edir və yoxsulluq,

bərabərsizlik, iqlim dəyişikliyi və məsuliyyətli istehlak kimi qlobal problemlərin həllinə yönəlmişdir.

Bu yanaşmaların əsas xüsusiyyətlərindən biri də mənfəət və məqsəd arasında tarazlıq yaratmaqdır — maliyyə dayanıqlılığı vacib olaraq qalsa da, sosial və ekoloji hədəflərlə vəhdətdə nəzərdən keçirilir. KSM bu dəyərləri şirkətin əsas strategiyasına inteqrasiya etməyə çalışır; sosial sahibkarlıq isə missiya yönümlü innovasiyaları həyata keçirmək üçün effektiv biznes modellərinə əsaslanır; inklüziv biznes isə az gəlirli icmaları dəyər zəncirinə daxil edərək ortaq dəyər yaratmağa yönəlir. İnnovasiya hər üç model üçün əsas hərəkətverici qüvvə kimi çıxış edir və cəmiyyətin mürəkkəb problemlərinə yeni yanaşmalar təklif edir.

Eyni zamanda, maraqlı tərəflərin cəlb olunması bu modellərin uğurunun əsasını təşkil edir — bu, KSM-də işçilər, müştərilər və investorlarla etibarlı əlaqələr qurmaq, sosial sahibkarlıqda dövlət və QHT-lərlə əməkdaşlıq etmək və inklüziv biznesdə yerli təchizatçılar və istehlakçılarla tərəfdaşlığa əsaslanmaqla həyata keçirilir. Bütün bu yanaşmalar uzunmüddətli perspektivə yönəlib və davamlı təsir göstərməyi, etik davranış, şəffaf idarəetmə və hesabatlılıq vasitəsilə sosial dəyişiklik yaratmağı qarşıya məqsəd qoyur. Təsirin ölçülməsi də vacib komponentlərdəndir: KSM sosial auditlər və davamlılıq hesabatlarından istifadə edir, sosial sahibkarlıq sosial investisiya gəliri (SROI) kimi qeyri-maliyyə göstəricilərinə əsaslanır, inklüziv biznes isə yoxsulluğun azaldılması, məşğulluğun artırılması və yaşayış səviyyəsinin yüksəldilməsi kimi göstəricilərlə nəticələri ölçür. Bu üç yanaşma birgə şəkildə göstərir ki, bizneslər yalnız iqtisadi subyektlər kimi deyil, həm də sosial transformasiyanın aparıcı qüvvəsi kimi çıxış edə bilərlər.

CORPORATE SOCIAL RESPONSIBILITY, SOCIAL ENTREPRENEURSHIP AND INCLUSIVE BUSINESS: THREE PATHS TO A BETTER WORLD

Zeynab Bahram gizi Gojayeva
z.gocayeva@atu.edu.az
Azerbaijan Technological University

The article analyzes the importance of corporate social responsibility (CSR), social entrepreneurship, and inclusive business for modern enterprises, their similarities and differences. These approaches aim to promote sustainable development but they differ in scope, objectives and legal structures.

Keywords: Corporate Social Responsibility (CSR), social entrepreneurship, inclusive business sustainable development, measurable social impact, socio-economic synergy.

DAO-LARIN VƏ "SMART CONTRACT"-LARIN İQTİSADI İDARƏETMƏYƏ TƏSİRİ

Ramin Müşviq oğlu Baxşalıyev
raminbakhshaliyev@gmail.com
Mobile Payment Solutions MMC

Bu məqalədə blokçeyn texnologiyasının iki əsas elementi – Mərkəzsizləşdirilmiş Avtonom Təşkilatlar (DAO) və ağıllı müqavilələrin (smart contract) iqtisadi idarəetmə modellərinə təsiri araşdırılır. DAO-lar vasitəsilə idarəetmədə şəffaflığın, iştirakçılığın və demokratiyanın artırılması, smart contract-lar vasitəsilə isə əməliyyatların avtomatlaşdırılması və xərclərin azaldılması mümkün olur. Məqalədə bu texnologiyaların iqtisadi təsiri, onların potensial imkanları və mövcud çağırışlar təhlil edilir. Nəticələr göstərir ki, DAO və smart contract modelləri müasir iqtisadi sistemlərdə idarəetməni daha effektiv, şəffaf və davamlı formaya salmaq gücünə malikdir.

Rəqəmsal texnologiyaların iqtisadi idarəetməyə təsiri son illərdə geniş tədqiqat mövzusuna çevrilmişdir. Xüsusilə blokçeyn texnologiyası əsasında formalaşan DAO-lar və smart contract-lar, ənənəvi idarəetmə sistemlərinin əvəzlənməsi və ya təkmilləşdirilməsi üçün yeni imkanlar yaradır. Ənənəvi idarəetmədə qarşıya çıxan əsas problemlərdən biri –

məlumat asimmetriyası, etimadsızlıq və proseslərin qeyri-şəffaf olması – bu texnologiyalar vasitəsilə minimuma endirilə bilər. Məqalədə bu strukturun iqtisadi idarəetməyə inteqrasiyasının əsas mexanizmləri və potensial təsirləri təhlil olunur.

DAO-ların idarəetmədə rolu və tətbiq modelləri

DAO – Mərkəzsizləşdirilmiş Avtonom Təşkilatlar – əsas idarəetmə funksiyalarını kodlaşdırılmış şəkildə smart contract-lar vasitəsilə yerinə yetirən təşkilat formasıdır. [2. s. 1-14] DAO-lar vasitəsilə qərarlar əvvəlcədən müəyyən edilmiş qaydalar əsasında iştirakçıların səsverməsi ilə qəbul olunur və avtomatik şəkildə icra edilir. Bu, idarəetmədə şəffaflığı və demokratikliyi artırmaqla bərabər, prosesin sürətini və effektivliyini də yüksəldir.

DAO-ların ən böyük iqtisadi üstünlüyü mərkəzsiz qərar qəbuletmənin yaradılması və əməliyyat xərclərinin azaldılmasıdır. Məsələn, ənənəvi idarəetmədə maliyyə fondlarının bölüşdürülməsi üçün müvafiq komitə, hüquq məsləhətçisi və nəzarət orqanı tələb olunduğu halda, DAO modelində bu proseslər proqramlaşdırılmış qaydalarla və şəffaf şəkildə yerinə yetirilir. DAO-nun real tətbiq sahələrinə startap investisiyaları (The DAO), ictimai təşəbbüslər (Gitcoin DAO), ekoloji layihələrin maliyyələşdirilməsi (KlimaDAO) və rəqəmsal fondlar daxildir.

Smart Contract-ların iqtisadi effektləri və avtomatlaşdırılmış idarəetmə

Smart contract-lar — yəni ağıllı müqavilələr — əvvəlcədən müəyyən olunmuş şərtlərin yerinə yetirilməsinə əsasən avtomatik icra olunan kodlaşdırılmış razılaşmalardır. [1. s.1-18] Onlar üçüncü tərəflərə ehtiyac olmadan tərəflər arasında güvən yaradaraq əməliyyatların riskini və xərclərini azaldır.

Ənənəvi müqavilələrdə hüquqi tərəflərin iştirakı, sənəd dövriyyəsi və yoxlama mərhələləri əməliyyat xərclərini artırır və zaman itkisinə səbəb olur. Smart contract-lar bu problemi aradan qaldıraraq, məsələn, təchizat zəncirində məhsulun çatdırılmasından sonra avtomatik ödəniş, ya da mülkiyyətin ötürülməsi kimi funksiyaları icra edə bilir.

Əlavə olaraq, bu texnologiya etimadı kod vasitəsilə təmin edir və korrupsiya ehtimalını azaldır. DAO-larla inteqrasiya olunmuş smart contract-lar idarəetmə strukturunda "kodlaşdırılmış demokratiya" modelini formalaşdırır ki, bu da iqtisadi proseslərin daha ədalətli və şəffaf həyata keçirilməsinə imkan yaradır. [3. s. 302-309]

İnkişaf perspektivləri və mövcud çağırışlar

DAO və smart contract-ların idarəetmə modellərində tətbiqi bir sıra üstünlüklərə malik olsa da, bu texnologiyaların geniş tətbiqinə manea yaradan bəzi çağırışlar mövcuddur:

Hüquqi qeyri-müəyyənliklər – DAO-ların bir çox ölkələrdə hüquqi statusu müəyyən olunmamışdır.

Kod səhvləri və təhlükəsizlik riskləri – Proqramlaşdırma səhvləri sistemin bütövlüyünü poza bilər. [4. s. 1-16]

Çoxluq hökmranlığı problemi – Səsvermə proseslərində azlıqda olan maraqların təmsil olunmaması riski mövcuddur.

Bununla belə, yeni hüquqi çərçivələrin yaradılması, kod auditi və DAO-ların hibrid modellərlə – insan nəzarəti və texnologiyanın sintezi – birgə istifadəsi bu problemlərin aradan qaldırılmasına töhfə verə bilər.

Nəticə və Tövsiyələr. Yekunda demək olar ki, DAO və smart contract modelləri rəqəmsal idarəetmənin yeni mərhələsini təmsil edir. Onların iqtisadi sistemlərdə tətbiqi şəffaflığın artması, xərclərin azalması və demokratik qərar qəbuletmə mexanizmlərinin gücləndirilməsi baxımından əhəmiyyətli nəticələr doğurur. Xüsusilə inkişaf etməkdə olan iqtisadiyyatlarda bu texnologiyalar vasitəsilə effektiv və korrupsiyadan uzaq idarəetmə mexanizmləri formalaşdırıla bilər.

Tövsiyələr: DAO-ların (Decentralized Autonomous Organizations) hüquqi statusunun qlobal miqyasda tanınması üçün vahid beynəlxalq hüquqi çərçivələrin formalaşdırılması zəruridir. Bu təşkilatların fəaliyyətinin etibarlılığını və davamlılığını təmin etmək məqsədilə ağıllı müqavilələrin (smart contracts) təhlükəsizliyinə dair sistemli kod audit mexanizmləri tətbiq

olunmalı və texniki risklər minimuma endirilməlidir. Eyni zamanda, iqtisadi idarəetmə sistemlərində DAO modellərinin pilot layihələr vasitəsilə tətbiqi genişləndirilməli, onların institusional və funksional effektivliyi empirik nəticələr əsasında dəyərləndirilməlidir.

ƏDƏBİYYAT

1.Beck R., Müller-Bloch C. & King J. L. Governance in the blockchain economy: A framework and research agenda. Journal of the Association for Information Systems, 19(10). 2018. Pp. 1–18
2.Hassan S. & De Filippi P. Decentralized autonomous organization. Internet Policy Review. 10(2). 2021. Pp.1–14
3.Janssen M., Weerakkody V., Ismagilova E., Sivarajah U. & Irani Z. A framework for analyzing blockchain technology adoption: Integrating institutional, market and technical factors. International Journal of Information Management. 50. 2020. Pp.302–309
4.Hsieh Y. Y., Vergne J. P., Anderson P., Lakhani K. & Reitzig M. Bitcoin and the rise of decentralized autonomous organizations. Journal of Organization Design. 7(1). 2018. Pp.1–16.

THE ECONOMIC IMPACT OF DAOS AND SMART CONTRACTS ON GOVERNANCE MODELS

Ramin Mushviq oglu Baxshaliyev
raminbakhshaliyev@gmail.com
Mobile Payment Solutions MMC

This thesis explores the impact of Decentralized Autonomous Organizations (DAOs) and smart contracts on modern economic governance. DAOs promote transparency, inclusivity, and decentralization, while smart contracts enable automation, reducing costs and errors. The study analyzes their applications, economic effects, and existing challenges. Findings indicate that these innovations can significantly enhance the transparency, efficiency, and adaptability of governance systems.

Key words: DAO, smart contract, block chain, economic governance, digital transformation.

RƏQƏMSAL TEXNOLOGİYALARIN İDARƏETMƏ UÇOTUNDA ROLU: ERP, Bİ VƏ DİGƏR SİSTEMLƏR

Nüşabə Aslan qızı Hacıyeva[1]
nushaba.hajieva@mail.ru
Gülgəz Bəxtiyar qızı Mehdizadə [1]
g.mehdizade@atu.edu.az
Sevinc Səttar qızı Babayeva[1]
Yaşar Anar oğlu İsgəndərov[2]
Taryel Tofiq oğlu Allahverdiyev[1]
Azərbaycan Texnologiya Universiteti[1]
Azərbaycan Texniki Universiteti[2]

Müasir biznes mühitində idarəetmə uçotu, təşkilatların strateji qərarlar qəbul etməsində və operativ fəaliyyətlərini optimallaşdırmasında mərkəzi rol oynayır. İnformasiya texnologiyalarının sürətlə inkişafı ilə idarəetmə uçotu sistemləri də köklü dəyişikliklərə məruz qalır. Rəqəmsal texnologiyalar, məlumatların toplanması, emalı və təhlili proseslərini avtomatlaşdıraraq, idarəetmə uçotunun effektivliyini və dəqiqliyini artırır. Bu məqalədə rəqəmsal texnologiyaların idarəetmə uçutuna təsiri, tətbiq sahələri və gələcək perspektivləri araşdırılacaq. Rəqəmsal texnologiyalar, idarəetmə uçotunun ənənəvi metodlarını köklü şəkildə dəyişdirərək, yeni imkanlar yaradır. Bu texnologiyaların əsas təsirləri aşağıdakılardır:

1. Məlumatların Sürətli və Dəqiq Emalı

- ERP (Enterprise Resource Planning) sistemləri vasitəsilə maliyyə və operativ məlumatlar real vaxtda emal olunur.
- Bu, idarəetmə qərarlarının daha sürətli və dəqiq qəbul edilməsini təmin edir.

2. Xərclərin Effektiv İdarə Edilməsi

- Rəqəmsal alətlər (məsələn, Activity-Based Costing - ABC) vasitəsilə xərclər daha

ətraflı təhlil edilir.

- Bu, məhsul və xidmətlərin maya dəyərinin daha dəqiq hesablanmasına imkan yaradır.

3. Proqnozlaşdırma və Planlaşdırma

- Big Data və süni intellekt (AI) texnologiyaları, bazar tendensiyalarını və xərcləri proqnozlaşdırmaq üçün istifadə olunur.
- Bu, təşkilatların riskləri azaltmasına və strateji planlarını daha effektiv şəkildə qurmasına kömək edir.

Rəqəmsal Texnologiyaların İdarəetmə Uçotunda Tətbiqi

Rəqəmsal texnologiyalar idarəetmə uçotunun müxtəlif sahələrində geniş tətbiq olunur. Bu tətbiqlərdən bəziləri aşağıdakılardır:

1. ERP Sistemləri

- ERP sistemləri, təşkilatın bütün departamentləri üçün vahid məlumat bazası yaradır.
- Bu, maliyyə, inventar, insan resursları və digər sahələr arasında harmoniyalı əlaqə təmin edir.

2. Bulud Texnologiyaları

- Bulud sistemləri, məlumatların uzaqdan əldə edilməsini və paylaşılmasını asanlaşdırır.
- Bu, xüsusilə qlobal şirkətlər üçün əhəmiyyətlidir.

3. Süni İntellekt və Maşın Öyrənməsi

- AI, maliyyə məlumatlarının avtomatik təhlili və hesabatların hazırlanması üçün istifadə olunur.
- Maşın öyrənməsi, xərclərin dinamikasını proqnozlaşdırmaq üçün effektiv alətdir.

4. Blockchain Texnologiyası

- Blockchain, maliyyə əməliyyatlarının şəffaflığını və təhlükəsizliyini artırır.
- Bu, xüsusilə auditoriya və hesabatların etibarlılığı üçün vacibdir.

Müasir biznes mühiti sürətlə rəqəmsallaşır və bu proses idarəetmə uçotuna da köklü dəyişikliklər edir. İdarəetmə uçotu müəssisə daxilində səmərəli qərar qəbul etmək üçün maliyyə, xərc və performans məlumatlarını emal edib təhlil etmə prosesidir. Rəqəmsal texnologiyaların tətbiqi bu prosesi avtomatlaşdırmaqla yanaşı, eyni zamanda məlumatların daha dəqiq və çevik istifadə olunmasını təmin edir.

ERP (Enterprise Resource Planning - Müəssisə Resurslarının Planlaşdırılması) sistemləri, BI (Business Intelligence - Biznes Analitika) platformaları və digər rəqəmsal həllər idarəetmə uçotunda əsas rol oynayır. Bu texnologiyalar vasitəsilə müəssisələr maliyyə axınlarını, xərc strukturunu və performans indikatorlarını daha dəqiq idarə edə bilir.

1. ERP Sistemləri və Faydaları

ERP sistemləri müəssisənin müxtəlif funksiyalarını bir mərkəzdə birləşdirir və məlumat axınını avtomatlaşdırır. Bu sistemlər idarəetmə uçotu üçün aşağıdakı imkanları yaradır:

- **Məlumat inteqrasiyası:** ERP sistemləri maliyyə, istehsal və logistika kimi sahələrdə toplanan məlumatları real vaxt rejimində birləşdirir.
- **Hesabatlıq və şəffaflıq:** ERP sistemləri müəssisənin maliyyə axınlarını və xərc strukturunu daha şəffaf və təhlil edilə biləcək vəziyyətə gətirir.
- **Planlaşdırma:** ERP sistemləri strateji və operativ planlaşdırmanı sadələşdirir.

ERP sistemlərinə **SAP, Microsoft Dynamics, Oracle NetSuite** kimi proqramlar daxildir.

2. BI Sistemləri və Analitik İmkanlar

Business Intelligence (BI) platformaları idarəetmə uçotuna dərin analitik imkanlar təqdim edir:

- **Vizual hesabatlar:** BI platformaları məlumatları qrafiklər və diaqramlarla təqdim edir.
- **Maliyyə proqnozları:** Süni intellekt və maşın öyrənmə modelləri ilə xərc və gəlir proqnozları aparılır.
- **Operativ qərar dəstəyi:** Real vaxt analitikası menecerlərə çevik qərar verməyə kömək edir.

Ən geniş yayılmış BI sistemlərinə **Power BI, Tableau, Qlik** və **Looker** daxildir.

Rəqəmsal texnologiyaların idarəetmə uçotuna tətbiqi bir sıra üstünlüklərlə yanaşı, bəzi çətinliklər də yaradır.

1. Üstünlüklər

- Vaxt və Resurs Qənaəti: Avtomatlaşdırma prosesləri əmək məsrəflərini azaldır.
- Dəqiqlik: Rəqəmsal alətlər insan səhvlərini minimuma endirir.
- Strateji Qərarlar: Real vaxt məlumatları, daha yaxşı qərarlar qəbul etməyə imkan verir.

2. Çətinliklər

- İlkin İnvestisiya: Rəqəmsal sistemlərin tətbiqi üçün böyük maliyyə xərcləri tələb olunur.
- Kadr Hazırlığı: texnologiyaların istifadəsi üçün işçilərin təlimi zəruridir.
- Təhlükəsizlik: Məlumatların kiberhücumlardan qorunması böyük problemdir.

Azərbaycan, rəqəmsal transformasiya sahəsində fəal addımlar atır. Dövlət səviyyəsində "Rəqəmsal İnkişaf" strategiyası çərçivəsində bir çox təşkilat rəqəmsal texnologiyalara keçid edir.

1. Bank və Maliyyə Sektoru

1. Azərbaycan bankları, müştəri məlumatlarının idarə edilməsi və risklərin qiymətləndirilməsi üçün AI və Big Data-dan istifadə edir.

2. Enerji Sektorunda Tətbiqlər

2. SOCAR kimi şirkətlər, xərclərin idarə edilməsi və resursların optimallaşdırılması üçün ERP sistemlərindən istifadə edir.

3. Kiçik və Orta Biznes

3. Bulud texnologiyaları və sadə idarəetmə proqramları, kiçik bizneslər üçün maliyyə uçotunu asanlaşdırır.

Rəqəmsal texnologiyaların idarəetmə uçotunda rolu gələcəkdə daha da artacaq. Aşağıdakı tendensiyalar gözlənilir:

1. AI və Maşın Öyrənməsinin Geniş Tətbiqi

4. Maliyyə məlumatlarının avtomatik təhlili və proqnozlaşdırma daha da inkişaf edəcək.

2. Blockchain Texnologiyasının Yayılması

5. Maliyyə əməliyyatlarının şəffaflığı və təhlükəsizliyi artacaq.

3. Davamlı İnkişaf və ESG Meyarları

6. Rəqəmsal texnologiyalar, ətraf mühit və sosial məsuliyyət məlumatlarının idarə edilməsində mühüm rol oynayacaq.

THE IMPACT OF DIGITAL TECHNOLOGIES ON MANAGEMENT ACCOUNTING: THE INTEGRATION OF ERP, BI, AND OTHER ADVANCED SYSTEMS

Nushaba Aslan gizi Hajiyeva[1]
nushaba.hajieva@mail.ru
Gulgaz Bakhtiyar gizi Mehdizade [1]
g.mehdizade@atu.edu.az
Sevinc Sattar gizi Babayeva[1]
Yashar Anar oglu Isgandarov[2]
Taryel Tofig oglu Allahverdiyev[1]
Azerbaijan Technological University[1]

Azerbaijan Technical University[2]

This article analyzes the role and importance of digital technologies in management accounting - especially ERP and BI systems. The application of digital tools has become a necessity for more flexible and effective implementation of financial and management decisions in modern enterprises. ERP systems provide transparency and accuracy in management with integrated database and planning capabilities. BI platforms support operational and strategic decision-making through analytical functions. In addition, other digital technologies such as artificial intelligence, cloud technologies, RPA and blockchain also increase the effectiveness of management accounting. The conclusions of the article emphasize that the application of these technologies creates a competitive advantage for enterprises and contributes to ensuring sustainable development.

Keywords: digital technologies, management accounting, ERP systems, BI analytics, artificial intelligence, digital transformation.

SEQMENT HESABATININ TƏRTİB EDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Nüşabə Aslan qızı Hacıyeva
n.haciyeva@atu.edu.az
Kənan Afəq oğlu Məmmədov
Azərbaycan Texnologiya Universiteti

İlk öncə seqment hesabatının təqdim edilməsinin əhəmiyyəti və məqsədlərini müəyyən edək. Şirkətin balans hesabatı mənfəət və zərərlər haqqında hesabatı satış, xərclər, aktivlər və öhdəliklər barədə vahid ümumiləşdirilmiş informasiyanı açıqlamağa imkan verir. Əsasən bir sahədə işləyən şirkətlər, məsələn "Kür" üçün nəticələrinin şirkətin mənfəət və zərərlər haqqında hesabatında açıqlanan fəaliyyətinin riskləri və qeyri-müəyyənlikləri, konkret sahə üçün xarakterik olan xüsusi risklər və qeyri-müəyyənliklərlə bağlıdır. Bu halda kənar səhmdarlar şirkətin gələcək nəticələrini keçmiş ilin nəticələrinin və təsərrüfat fəaliyyətinin cari nəticələrinin qiymətləndirilməsi əsasında , həmçinin , həmin şirkətin işlədiyi sahənin gələcək inkişaf perspektivlərinə əsasən proqnozlaşdırmaq iqtidarındadırlar.

Seqment hesabatı MHBS 8-ün müddəaları əsasında tənzimlənir Standartın giriş hissəsində deyildiyi kimi, onun əsas məqsədi əsas maliyyə hesabatında (qrupun balans hesabatı, mənfəət və zərərlər haqqında hesabatı nəzərdə tutulur) olduğundan daha geniş informasiya vermək yolu ilə şirkətin fəaliyyətinin perspektivləri və riskləri barədə qərarların qəbul edilməsi prosesində maliyyə hesabatının istifadəçilərinə köməklik göstərməkdən ibarətdir.

Hər bir seqment üzrə fəaliyyətin nəticələri barədə informasiya, hər bir seqmentdə istifadə olunan kapital barədə məlumatlarla birlikdə təqdim edilir. Seqmentlər üzrə verilən informasiya daha geiş olduğuna görə o, maliyyə hesabatını oxuyan şəxsə şirkətin təmsil olunduğu müxtəlif seqment bazarlarında onun fəaliyyətindən alınmış maliyyə nəticəsini təhlil etməyə imkan verir. Bu baxımdan, seqment informasiyası maliyyə hesabatında açıqlanan mühüm uçot informasiyasına əlavə kimi qəbul edilir. Müxtəlif seqmentlərə əmtəə bazarları (təsərrüfat seqmentləri) və coğrafi bazarlar (coğrafi seqmentlər) nöqteyi-nəzərindən baxmaq olar.

MHBS 8-ün məzmununun müzakirəsinə keçməzdən əvvəl xüsusi qeyd etmək lazımdır ki, MHBS 8-ün tətbiqi pay, yaxud borc qiymətli kağızları açıq bazarda dövriyyədə olan şirkətlər, həmçinin açıq bazarda dövriyyə üçün pay və borc qiymətli kağızlar buraxmağa hazırlaşan şirkətlər üçün məcburidir (MHBS 8, paraqraf 3). Hesabatda seqmentlər üzrə informasiyanın təqdim edilməsi, MHBS-ə əsasən məcburi olmayan , belə informasiyanı könüllü əsasda təqdim edən şirkətlər də, həmçinin , MHBS 8-ün qaydalarına əməl etməlidir. Bu qaydalara uyğun olaraq kommersiya təşkilatları seqment hesabatını formalaş-

dırmalıdır, əgər aşağıdakı şərtlərdən birini yerinə yetirirsə göstərilən şərt məcburidir:

- təşkilatlar, yaxud assosiasiyalar icmal mühasibat hesabatının tərtibçiləridir;
- təşkilatlar müxtəlif fəaliyyət növlərini həyata keçirir, yaxud texnoloji prosesə, istehlakçı qrupuna, satış üsuluna və s. görə fərqlənən, malları istehsal edir;
- təşkilatlar müxtəlif coğrafi regionlarda öz fəaliyyətini həyata keçirir.

12//2000 ilə MUQ tələbləri kiçik sahibkarlıq subyektlərində geniş yayılmışdır. Həmin normativ aktda aşağıdakı anlayışlar müəyyən edilmişdir:

seqmentə görə informasiya – təşkilatın müəyyən olunmuş göstəricilər siyahısı olan mühasibat hesabatının təqdim edilməsi nəticəsində müəyyən təsərrüfat şəraitində təşkilatın fəaliyyət hissəsini açıqlayan, informasiya;

əməliyyat seqmenti – müəyyən malların istehsalı, müəyyən işlərin yerinə yetirilməsi, müəyyən xidmətlərin göstərilməsi yaxud eyni qrup mallar, işlər, xidmətlərə görə təşkilatın fəaliyyət hissəsidir, hansı ki, riskləri və faydaları digər təsərrüfat seqmentlərinin riskləri və faydalarından fərqlənən şirkətin xüsusi olaraq ayrılan komponentidir.

coğrafi seqment – konkret iqtisadi mühitdə məhsul istehsalı, yaxud xidmətlərin göstərilməsi ilə məşğul olan, riskləri və faydaları digər təsərrüfat seqmentlərinin riskləri və faydalarından fərqlənən şirkətin xüsusi olaraq, seçilən komponentidir.

Seqment hesabatı - ayrılıqda əməliyyat yaxud coğrafi seqment haqqında informasiyalar – mühasibat hesabatında yaxud icmal mühasibat hesabatında açıqlama üçün vacibdir.

Müxtəlif seqmentlər təşkilat və idarəetmə strukturundan asılı olaraq müəssisələr tərəfindən müstəqil surətdə həyata keçirilir, icmal mühasibat hesabatında seqmentlərin siyahısı müəssisənin özü tərəfindən müəyyənləşdirilir.

Seqment hesabatının ayrılması zamanı risklərin aşağıdakı növlərinə diqqət yetirilir:

- ümumiqtisadi;
- valyuta;
- kredit;
- qiymət;
- siyasi.

Coğrafi seqment üzrə informasiyaların çıxarılması zamanı nəzərə almaq lazımdır: müəssisənin fəaliyyət göstərdiyi bölgədə dövlətin iqtisadi və siyasi sistemini müəyyən şərtlərin uyğunluğu; müxtəlif coğrafi bölgələrdə həyata keçirilən, fəaliyyətdə dayanıqlıq (sabitlik) əlaqələrin mövcud olması; fəaliyyətin eyniliyi; müəyyən coğrafi bölgələrdə müəssisə fəaliyyətinə xas olan, risklər; valyuta nəzarəti qaydasının ümumiliyi; müəyyən coğrafi bölgədə müəssisə fəaliyyəti ilə əlaqədar, valyuta riski.

Seqment üzrə mühasibat hesabatını formalaşdıran zaman seqmentlərə ilkin və təkrar informasiyanı seçmək lazımdır. Əgər şirkətin riskləri və mənfəət normaları başlıca olaraq istehsal olunan mallardakı və göstərilən xidmətlərdəki fərqlərdən asılıdırsa, seqment informasiyasının təqdim edilməsi üçün onun ilkin formatı təsərrüfat seqmentləri olmalıdır, bu zaman ikinci informasiya coğrafi əlamət üzrə verilir. Eynilə, əgər şirkətin riskləri və mənfəət normaları, əsasən o faktdan asılı olsa ki, o müxtəlif ölkələrdə, yaxud müxtəlif coğrafi zonalarda işləyir, onun ilkin formatı coğrafi seqmentlər olacaqdır, bu zaman ikinci informasiya müvafiq mallar və xidmət qrupları üçün veriləcəkdir.

Beləliklə, seqmentin ilkin formatının seçilməsi şirkətin qərarından asılıdır, çünki idarəetmə hesabatının daxili sistemini o müstəqil surətdə müəyyən edir. Seqmentlərin hansı kateqoriyasının ilkin, hansının isə ikinci formatı kimi müəyyən edilməsi barədə informasiya hesabata qeydlərdə açıqlanır.

Əgər ikinci informasiya tanınırsa coğrafi seqment üzrə informasiyadır və hesabatda aşağıdakı göstəricilər açıqlanır:

- satış bazarının yerləşdiyi yer üzrə seçilmiş, coğrafi regionlar nöqteyi-nəzərindən xarici alıcılara satışdan olan gəlirin həcmi;

- aktivlərin yerləşdiyi yer üzrə seqment hesabatının aktivlərinin balans həcmi;
- aktivlərin yerləşdiyi yer üzrə əsas vəsaitlər və qeyri-maddi aktivlərə qoyulan kapital qoyuluşlarının həcmi.

Seqment hesabatının məzmunu və formalaşdırılması xüsusiyyətlərini bilmək onun təhlilinin düzgün metodikasının qurulmasını təmin edir, təhlilin tərkibində iki iri hissəni ayırmaq məqsədəuyğundur.

1) Müəssisələrin fəaliyyətinin əməliyyat seqmenti nöqteyi-nəzərdən hesabat informasiyalarının təhlili;

2) Müəssisələr fəaliyyətinin coğrafi seqment nöqteyi-nəzərdən hesabat informasiyalarının təhlili.

FEATURES OF PREPARATION SEGMENT REPORTING

Nushaba Aslan gizi Hajiyeva
n.haciyeva@atu.edu.az
Kenan Afeg oglu Mammadov
Azerbaijan Technological University

The study reviewed the characteristics of segment reporting, such as segment-by-segment information, operating segment, geographical segment, segment accounting, etc. At the same time, knowing the content and formation features of segment reporting ensures the establishment of the correct methodology for its analysis, and the feasibility of separating two large parts into the analysis is considered.

Keywords: asset, segment, entrepreneurship, sales, market.

MƏHSULUN RƏQABƏTQABİLİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİNDƏ YENİ TEXNOLOGİYALAR

Şəhla Nadir qızı Qarayeva
sehlaqarayeva@yandex.ru
Azərbaycan Texnologiya Universiteti

Azerbaijan Technological University

The following principles of accounting are at the basis of the National Accounting System (NAS):
1. NAS is based on the principle of national registration of accounting. This allows to consistently track the movement of financial resources, funds of income, as well as to ensure the correct recording of economic processes.
2. It is based on accounting. The accounting system is a complete complex that reflects the process of production, supply and realization aimed at solving tactical and strategic problems at the micro and macro levels using accounting tools (elements of accounting) built on logical grounds.

Keywords: National Accounting System; International Economic Organizations; International Commission on Accounting Standards; International Federation of Accountants; European Union of Accountants; Audit Commission.

KƏND TƏSƏRRÜFATINDA RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ: PROBLEMLƏR VƏ İSTEHSALDA TƏTBİQ İMKANLARI

Gülgəz Bəxtiyar qızı Mehdizadə
g.mehdizade@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Bu məqalədə kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqi, mövcud problemlər və bu texnologiyaların istehsalatdakı imkanları araşdırılmışdır. Rəqəmsal texnologiyalar arasında dronlar, ağıllı sensorlar, kənd təsərrüfatı robotları və süni intellekt əsaslı sistemlər xüsusi yer tutur. Onlar məhsuldarlığı artırmaq, resurslardan səmərəli istifadə etmək və iqlim dəyişikliklərinə uyğunlaşmaq baxımından böyük potensiala malikdir.

Lakin bu texnologiyaların geniş tətbiqi bir sıra problemlərlə üzləşir. İnfrastruktur çatışmazlığı, maliyyə çətinlikləri, texnoloji biliklərin azlığı və fermerlərin yeniliklərə uyğunlaşmaqda tərəddüd etməsi bu sahədəki əsas maneələrdir.

Məqalədə qeyd olunur ki, rəqəmsal texnologiyaların kənd təsərrüfatına uğurla inteqrasiyası üçün hökumət, özəl sektor və elmi qurumlar arasında əməkdaşlıq vacibdir. Fermerlər üçün maarifləndirmə proqramlarının təşkili, maliyyə dəstəyinin artırılması və infrastrukturun inkişaf etdirilməsi bu texnologiyaların geniş yayılmasına şərait yaradacaqdır. Beləliklə, aqrar sahədə rəqəmsallaşma həm istehsalın artmasına, həm də dayanıqlı kənd təsərrüfatının formalaşmasına töhfə verəcəkdir. Rəqəmsal texnologiyaların kənd təsərrüfatına tətbiqi yalnız məhsuldarlığı artırmaqla kifayətlənmir, həm də ekoloji dayanıqlılığı təmin edərək kənd təsərrüfatının gələcəyini formalaşdırır. Bu prosesin uğurla həyata keçirilməsi üçün hökumət, elmi müəssisələr və fermerlər arasında sıx əməkdaşlıq, davamlı maarifləndirmə və texnoloji yeniliklərin dəstəklənməsi vacibdir. Yalnız bu yolla kənd təsərrüfatı sahəsində innovasiyaların geniş tətbiqi və davamlı inkişaf mümkün ola bilər.

Kənd təsərrüfatı, insanlığın ən qədim və vacib fəaliyyət sahələrindən biri olmaqla, dünya əhalisinin ərzaq tələbatını ödəməkdə əsas rol oynayır. Əhalinin sürətlə artması, iqlim dəyişiklikləri və məhdud təbii resurslar bu sahədə daha məhsuldar və effektiv

metodların tətbiqini zəruri edir. Son illərdə rəqəmsal texnologiyaların inkişafı kənd təsərrüfatında inqilabi dəyişikliklərə səbəb olmuşdur. Bu texnologiyalar məhsuldarlığın artırılması, xərclərin azaldılması və ekoloji dayanıqlılığın təmin edilməsi baxımından böyük potensiala malikdir.

Müasir dövrdə elmi araşdırmaların nəticəyönümlülüyü predmet sahəsində çox böyük miqdarda verilənlərin təhlili prosesinin xarakteristikalarından asılıdır. Haqqında danışılan təhlil prosesində artıq bir çox fəaliyyət sahələrində, o cümlədən aqrar-sənaye sahələrində süni intellektdən istifadə obyektiv zərurətə çevrilməkdədir. "İlkin yanaşmada belə güman etmək olar ki, süni intellekt texnologiyalarından istifadə olunan elmi tədqiqatların nəticələrinin keyfiyyəti və əldə edilməsi müddəti böyük verilənlər bazasının strukturlaşdırılması dərəcəsindən bilavasitə asılı olacaqdır". [1, s. 18-19]

Bu məqalədə kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqinin mövcud vəziyyəti, qarşılaşılan problemlər və istehsalda bu texnologiyaların genişləndirilməsi imkanları araşdırılacaqdır.

1. Rəqəmsal texnologiyaların kənd təsərrüfatında tətbiqi

Rəqəmsal texnologiyalar kənd təsərrüfatında müxtəlif istiqamətlərdə tətbiq olunur. Əsas texnologiyalar aşağıdakılardır:

1.1. Dronlar və peyk texnologiyaları

Dronlar və peyklər vasitəsilə sahələrin real vaxt rejimində müşahidəsi, torpaq və bitki örtüyünün sağlamlığının qiymətləndirilməsi mümkündür. Bu texnologiyalar fermerlərə sahələrinin hansı hissəsində problemlər olduğunu erkən mərhələdə aşkar etməyə və müdaxilə etməyə imkan verir.

1.2. Ağıllı sensorlar və IoT (Əşyaların İnterneti)

Ağıllı sensorlar torpağın nəmlik səviyyəsini, temperaturunu və digər vacib parametrləri ölçməklə suvarma sistemlərinin daha effektiv idarə olunmasına şərait yaradır. IoT texnologiyaları vasitəsilə bu məlumatlar real vaxtda fermerlərin mobil cihazlarına ötürülür.

İOT texnologiyası resursların istifadəsini İzləməklə, idarə etmək və iqlim riskləri üçün erkən xəbərdarlıqları təmin etmək üçün tətbiq oluna bilər. İOT texnologiyası əkinlərin suvarılmasında həlledici rol oynaya bilər. Belə ki, sensorlar torpaqdakı nəmliyi ölçməklə məlumatları bulud əsaslı platformaya ötürməklə məlumatları təhlil edir, bildirişləri təqdim etməklə suvarmanın aparılması funksiyasını işə salır.Bu texnologiya su, elektrik enerjisi və mineral gübrələrdən daha səmərəli istifadə olunmağa imkan verir (Qurbanov, H.N. 2021). Bundan başqa, İOT texnologiyası fermerlərə bitkiləri və mal – qaranı qorumaq üçün tədbirlər görməyə və ya məhsulun nə vaxt yığılacağına dair qərar qəbul etməyə kömək etməklə iqlim riskləri barədə erkən xəbərdarlıqlar edə bilər. [3]

1.3. Kənd Təsərrüfatı Robotları

Avtomatlaşdırılmış kənd təsərrüfatı robotları əkin, becərmə və yığım proseslərini daha səmərəli şəkildə həyata keçirir. Bu, həm əmək sərfiyyatını azaldır, həm də məhsulun keyfiyyətini artırır.

1.4. Verilənlərin Analizi və Süni İntellekt (AI)

Süni intellekt və böyük məlumat analitikası fermerlərə məhsuldarlığı artırmaq üçün ən yaxşı əkin üsullarını müəyyən etməyə, hava proqnozlarına əsaslanaraq optimal iş planlaması aparmağa imkan verir.

2. Mövcud Problemlər

Rəqəmsal texnologiyaların kənd təsərrüfatına inteqrasiyası bir sıra problemlərlə müşayiət olunur. Bu problemlər əsasən aşağıdakı istiqamətlərdə özünü göstərir:

2.1. İnfrastruktur Problemləri

Bir çox kənd yerlərində internetin zəif olması və elektrik enerjisi təminatında problemlər rəqəmsal texnologiyaların geniş tətbiqini məhdudlaşdırır.

2.2. Maliyyə Çətinlikləri

Rəqəmsal texnologiyaların alınması və tətbiqi kiçik və orta fermerlər üçün yüksək xərc tələb edir. Bu da onların bu yeniliklərdən istifadə imkanlarını məhdudlaşdırır.

2.3. Texnoloji Biliklərin Çatışmazlığı

Fermerlərin bir çoxu müasir texnologiyalardan istifadə etməyi bacarmır. Bunun üçün maarifləndirmə proqramlarının və təlimlərin keçirilməsi vacibdir.

2.4. Uyğunlaşma Problemləri

Ənənəvi metodlara alışmış fermerlər bəzən yeni texnologiyalara keçməkdə tərəddüd edirlər. Onları bu texnologiyaların üstünlüklərinə inandırmaq və praktik nümunələr göstərmək vacibdir.

Hazırda Suni İntellekt kompüterlərə təcrübədən öyrənmək imkanı verir. Məlum olduğu kimi, bu imkan və onun reallaşdırılması bir neçə onilliklər əvvəl yalnız insanlara müyəssər olan iş idi. Kompüterlərə təcrübədən öyrənmək üçün Suni İntellekt verilmiş parametrlərə uyğunlaşmağı təmin etməlidir. Aşağıdakı mənbədə göstərildiyi kimi, "Sİ müəyyən tapşırıqları yerinə yetirmək üçün insan davranışını təqlid edə bilən və alınan məlumatlardan istifadə edərək tədricən öyrənə bilən sistem və ya maşındır. Sİ funksiya deyil, proses və məlumatları təhlil etmək bacarığıdır. Suni İntellekt insanları əvəz etmək üçün nəzərdə tutulmur. Məqsəd insanın qabiliyyət və imkanlarını genişləndirməkdir. Odur ki, Sİ qiymətli biznes resursudur". [2]

3. Tətbiq İmkanları və Perspektivlər

Rəqəmsal texnologiyaların kənd təsərrüfatına inteqrasiyası bir çox üstünlüklər yaradır:

3.1. Məhsuldarlığın Artırılması

Dəqiq əkin texnologiyaları və avtomatlaşdırılmış suvarma sistemləri məhsuldarlığın artmasına və məhsul itkisinin azalmasına səbəb olur.

3.2. Resurslardan Səmərəli İstifadə

Sensorlar və süni intellekt əsaslı sistemlər su, gübrə və pestisidlərin optimal istifadəsini təmin edir.

3.3. İqlim Dəyişikliklərinə Uyğunlaşma

Rəqəmsal texnologiyalar fermerlərə iqlim dəyişikliklərinə uyğunlaşmaq və riskləri minimuma endirmək üçün lazımi məlumatları vaxtında təqdim edir.

3.4. İnnovativ Biznes Modellərinin İnkişafı

AgriTech startapları və rəqəmsal platformalar fermerlərə bazarlara daha asan çıxış imkanı yaradır.

Kənd təsərrüfatında rəqəmsal texnologiyaların tətbiqi bu sahədə inkişafa böyük töhfə verə bilər. Bununla belə, mövcud problemlərin aradan qaldırılması üçün hökumət, özəl sektor və elm müəssisələri arasında əməkdaşlıq gücləndirilməlidir. Fermerlərin texnoloji biliklərinin artırılması, maliyyə dəstəyi və infrastrukturun yaxşılaşdırılması bu texnologiyaların geniş yayılmasını təmin edəcək əsas amillərdir.

ƏDƏBİYYAT

1. Balayev R.Ə. Rəqəmsal mühitdə iqtisadi münasibətlər: aqrar və urbanizasiya aspektləri. MSV NƏŞR. Bakı. 2022. 268 s.
2. https://www.oracle.com/ru/artificial-intelligence/what-is-ai/#ai-adoption
3. https://www.researchgate.net/publication/386136320_Davamli_Knd_Tsrrufatinda_Rqmsal_Texnologiyalar

APPLICATION OF DIGITAL TECHNOLOGIES IN AGRICULTURE: PROBLEMS AND OPPORTUNITIES FOR APPLICATION IN PRODUCTION

Gulgaz Bakhtiyar qizi Mehdizade
g.mehdizade@atu.edu.az
Azerbaijan Technological University

This article explores the use of digital technologies in agriculture, highlighting their potential to boost productivity, optimize resources, and support climate adaptation. Despite the benefits of tools like drones, smart sensors, and AI systems, challenges such as poor infrastructure, limited funding, and low digital literacy hinder their adoption. The article emphasizes the need for collaboration between the government, private sector, and scientific institutions to overcome these barriers. Promoting awareness, enhancing support programs, and improving infrastructure are key to achieving sustainable agricultural development through digitalization.

Keywords: digital technologies, agriculture, artificial intelligence, agrarian sector, innovation,

agrotechnology.

İNNOVASİYANIN BƏZİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

Murad Zahid oğlu Tağıyev
Hüseyn Səfər oğlu Babayev
babayevhuseyn501@gamil.com
Azərbaycan Dövlət Aqrar Universiteti

"İnnovasiya" müasir iqtisadi terminlərdən biri hesab edilir və bu anlayışa müxtəlif yanaşmalar mövcuddur. Məqalədə bu terminin yaranmasından bəri müxtəlif yanaşmalar araşdırılmış, müxtəlif nəzəriyyələr və modellər qısa da olsa tədqiq edilmişdir.

İnnovasiyaya nəzəri yanaşmalar innovasiyaların necə yarandığını, hansı dinamikanı formalaşdırdığını və onların sosial, iqtisadi və texnoloji təsirlərinin nə olduğunu başa düşmək üçün müxtəlif məsələlərdən töhfələr təklif edir. İnnovasiya nəzəriyyəsinin banisi Cozef Şumpeter hesab edilir. Onun yaratdığı innovasiya nəzəriyyəsi "Yaradıcı məhvetmə nəzəriyyəsi" adlanır. Şumpeter kapitalizmin və iqtisadi inkişafın hərəkətverici qüvvəsinin innovasiya və sahibkarlıq olduğunu irəli sürürdü. [1] Onun sözlərinə görə, innovasiya prosesi "dağıdıcı innovasiya" vasitəsilə mövcud texnologiyalar və bazar strukturlarını məhv edir və onları yeni məhsullar, xidmətlər və biznes modelləri ilə əvəz edir. Misal olaraq rəqəmsal fotoqrafiyanın film əsaslı fotoqrafiyanı əvəz etməsini göstərə bilərik. Şumpeterdən sonra innovasiya ilə bağlı müxtəlif fikirlər söylənmiş və nəzri məsələləri daha dərindən tədqiq edilmişdir.

İnnovasiyaların yayılması - Everett Rocers tərəfindən formalaşdırılan nəzəri modellərdən biri hesab edilir. Rocers innovasiyaların cəmiyyətdə necə yayıldığını izah edən bir model hazırladı. Bu modelə görə, yeniliklər müxtəlif sürətlərdə qəbul edilir və bu qəbul prosesi beş müxtəlif istifadəçi qrupu arasında baş verir: yenilikçilər, erkən tətbiq edənlər, erkən əksəriyyət, gec əksəriyyət və geridə qalanlar. [2] Nümunə olaraq smartfonlar əvvəlcə texnologiya həvəskarları tərəfindən qəbul edildi və sonra kütlə tərəfindən istifadə olunmağa başlanmasını göstərə bilərik.

Açıq innovasiya modelinin təklif edən Chesbrougha görə, müəssisələr innovasiya prosesini yalnız öz strukturları çərçivəsində həyata keçirməkdənsə, innovasiya prosesini xarici resurslar və əməkdaşlıqlarla genişləndirməlidirlər. Açıq innovasiya modeli şirkətlərə xarici tədqiqat və inkişaf (R&D) resurslarından faydalanmağa və kənar maraqlı tərəflərlə əməkdaşlıq etməyə imkan verir. [3] Böyük texnologiya şirkətləri yeni proqram təminatı və aparat hazırlamaq üçün açıq mənbə layihələri ilə əməkdaşlıq etmələri buna misaldır.

Dağıdıcı İnnovasiya modeli Clayton Christensen tərəfindən irəli sürülmüşdür. Modelin əsas ideyası pozucu innovasiya anlayışını zamanla daha geniş bazara yayılan və mövcud bazarı pozan aşağı keyfiyyətli və ya aşağı qiymət seqmentlərinə yönəlmiş yeniliklər kimi müəyyən edilməsi təşkil edir. Əvvəlcə kiçik bir bazar payına xitab edən bu yeniliklər zamanla mövcud nəhəng şirkətləri təhdid edən gücə çatır. [4] Məsələn, Netflix əvvəlcə DVD icarəsi bazarını hədəf alaraq media sənayesinə daxil oldu, lakin zaman keçdikcə rəqəmsal media xidmətləri ilə ənənəvi televiziya və kino sənayesini pozdu.

İqtisadiyyatın və texnologiyanın sürətlli inkişafı həyatın bütün istiqamətlərinə siraət etməkdədir. Bu sosial sahələrdə də özünü göstərir. Sosial innovasiya nəzəriyyəsi məhz innovasiyaların bu istiqamətini araşdırır. Nəzəriyyənin əsas ideyasını sosial problemlərin həlli üçün yeni həll yollarının hazırlanması təşkil edir. Bu nəzəriyyəyə görə, sosial innovasiyalar qeyri-kommersiya təşkilatları, hökumətlər və özəl sektor arasında əməkdaşlıq tələb edir. Yeniliklərin təkcə iqtisadi deyil, həm də sosial fayda verməsi vacibdir. Mikromaliyyə sistemləri aztəminatlı şəxslərə kiçik kreditlər təklif etməklə yoxsulluqla mübarizə aparan sosial innovasiya nümunəsidir.

S-əyri nəzəriyyəsi modeli texnologiya və ya innovasiyanın həyat dövrünü üç mərhələdə (yavaş başlanğıc, sürətli böyümə və doyma) təsvir edir. İlkin mərhələdə inkişaf ləng gedir, lakin

müəyyən bir mərhələyə çatdıqda böyümə sürətlənir və nəhayət inkişaf yavaşlayır, doyma səviyyəsinə çatır. Misal olarq smartfonların ilkin mərhələdə yavaş-yavaş qəbul edilib, orta mərhələdə sürətlə yayılıb və bu gün daha doymuş mərhələyə çatmasını göstərə bilərik.

Absorbsiya qabiliyyəti - Cohen və Levinthal tərəfindən təklif edilən digər bir innovasiya nəzəriyyəsidir. Bu nəzəriyyə təşkilatın və ya ölkənin xaricdən bilik və innovasiyaları necə yaxşı mənimsədiyini izah etməyə çalışır. [5] Şirkətin müvəffəqiyyətlə innovasiya etməsi üçün o, xarici məlumatlara açıq olmalı və bu məlumatları emal edib istifadə etmək bacarığına malik olmalıdır.

Kumulyativ innovasiya nəzəriyyəsinə görə isə, innovasiyalar çox vaxt bir-birindən asılı olaraq inkişaf edir və əvvəlki yeniliklərə əsaslanır. İnnovasiya sonrakı innovasiyalar üçün əsas təşkil edən infrastruktur rolunu oynayır. Bu proses göstərir ki, innovasiya məcmu və davamlı strukturdur. Məsələn, internetin inkişafı bir çox müxtəlif texnoloji yeniliklərin (məsələn, kompüter şəbəkələri, məlumatların şifrələnməsi, proqram təminatının inkişafı) məcmu təsiri ilə mümkün olmuşdur.

İnnovasiya nəzəriyyələri göstərir ki, innovasiya təkcə texnologiya ilə məhdudlaşmır, həm də sosial, iqtisadi və təşkilati dinamika ilə formalaşır. Bu nəzəriyyələr innovasiya proseslərini başa düşmək, idarə etmək və uğurla həyata keçirmək istəyən şəxslər və təşkilatlar üçün əsas çərçivələri təmin edir.

ƏDƏBİYYAT

1. Joseph Schumpeter. "The Nature and Essence of Economic Theory". 2009
2. Everett Rogers. "Diffusion of Innovations". 2003
3. Chesbrough. "Twenty Years of Open Innovation". 2023
4. Clayton Christensen ve Michael E. Raynor. The Innovator's Solution. 2003
5. Cohen ve Levinthal. "Absorptive Capacity: A New Perspective on Learning and Innovation"

SOME THEORETICAL ASPECTS OF INNOVATION

Murad Zahid oglu Tagiyev
Huseyn Safar oglu Babayev
babayevhuseyn501@gamil.com
Azerbaijan State Agricultural University

"Innovation" is considered one of the modern economic terms, and there are various approaches to this concept. The article explores different approaches since the term's inception and briefly examines various theories and models.

Keywords: novelty, innovation, innovation activity, investment, innovation model.

STARTAPLARA VERGİ GÜZƏŞTLƏRİ VƏ DƏSTƏYİ MEXANİZMLƏRİNİN TƏTBİQİ

Rizvan Hacı oğlu Məcidov
r.mecidov@atu.edu.az
Cümşüd İbrahim oğlu Cabbarov
c.cabbarov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Son illər qlobal iqtisadiyyatda startapların rolu durmadan artmaqdadır. Yenilikçi texnologiyalar, rəqəmsal transformasiya və çevik biznes modelləri ilə seçilən bu şirkətlər bir çox ölkələrdə iqtisadi artımın və məşğulluğun aparıcı qüvvələrindən birinə çevrilib. Buna görə də dövlətlər startapların inkişafını stimullaşdırmaq üçün müxtəlif vergi güzəştləri və dəstək mexanizmləri tətbiq edirlər.

Startapları üçün təqdim olunan vergi güzəştləri onların ilkin mərhələdə maliyyə yükünü azaltmağa və daha sürətli inkişaf etməsinə imkan verir. Bu güzəştlər ölkədən ölkəyə fərqli olur, lakin ümumilikdə aşağıdakı formaları əhatə edir:

- Gəlir vergisindən azadolma. Bu kontekstdə bir çox ölkələrdə startaplar müəyyən müddətə qədər (məsələn, 3 və 5 il) gəlir vergisindən azad edilir. Bu xüsusilə ilk illərdə mənfəət əldə etməyə çətinlik çəkən yeni şirkətlər üçün böyük üstünlükdür.

- Əlavə dəyər vergisi (ƏDV) güzəştləri. Bu istiqamət üzrə güzəştlər onu ifadə edir ki, startapların göstərdiyi xidmətlər və satdığı məhsullar müəyyən şərtlərlə ƏDV-dən azad oluna bilər və ya aşağı dərəcəli ƏDV tətbiq edilə bilər.
- Əmək haqqına görə sosial sığorta güzəştləri. Startaplar işçilərinə ödədikləri maaşlardan ödənilən sosial sığorta haqları üzrə güzəştlər əldə edə bilər. Bu, iştər vergi azadolmaları istərsə də dövlət tərəfindən müəyyən müddət ərzində subsidiyalar formasında ola bilər.
- İnvestisiya vergi kreditləri. Bu halda startapların avadanlıq, proqram təminatı və digər əsas vəsaitlərə etdikləri investisiyalar üzrə vergi kreditləri verilə bilər.

Qeyd edək ki, vergi güzəştlərinə əlavə olaraq, startapların inkişafı üçün dövlət və digər qurumlar tərəfindən müxtəlif dəstək mexanizmləri təqdim olunur. Bəzi ölkələrdə, o cümlədən Azərbaycanda, "Startap şəhadətnaməsi" olan hüquqi və fiziki şəxslər müəyyən vergi güzəştlərindən yararlana bilirlər. Bu şəhadətnaməni almaq üçün şirkət müəyyən innovativ və texnoloji kriteriyalara cavab verməlidir.

Startaplara ilkin mərhələdə təlim, mentorluq və akselerator proqramları yaradılır. Bu proqramlar həm dövlət, həm də özəl sektor tərəfindən həyata keçirilir.

Göstədiklərmizlə yanaşı startaplara müxtəlif sahələr üzrə (texnologiya, kənd təsərrüfatı, təhsil və s.) dövlət və beynəlxalq donarlar tərəfindən qərarlar verilir. Bu vəsaitlər geri qaytarılmır və startapların inkişafına bir başa sərmayə olaraq istifadə olunur.

Eyni zamanda startapların kommersiya banklarından daha sərfəli şərtlərlə kredit alması üçün dövlət zəmanətləri və faiz subsidiyaları tətbiq edilir. Bu, riskli hesab olunan yeni bizneslərin maliyyə resurslarına çıxışını asanlaşdırır.

Bunlardan əlavə startapların xarici bazarları çıxısını asanlaşdırmaq üçün dövlət tərəfindən ticarət missiyaları, sərgilər, ixraca dəstək proqramları və vergi qaytarma mexanizmləri tətbiq edilir.

Vurğulayaq ki, Azərbaycan hökuməti də son illərdə startap ekosisteminin inkişafı üçün mühüm addımlar atır. "Yüksək Texnologiyalar Parkı", "İnnoland" İnnovasiya Mərkəzi və digər təşkilatlar vasitəsilə startaplara dəstək göstərilir. İqtisadiyyat Nazirliyinin yanında Sahibkarlığın İnkişafı Fondu və digər qurumlar vasitəsilə kredit və qrant imkanları təqdim olunur.

Ən önəmli alətlərdən biri isə "Startap şəhadətnaməsi" dir. Bu sənədi alan vergi ödəyiciləri 3 il müddətinə mənfəət və ya gəlir vergisindən azad edilirlər. Bu yerli startapların inkişafına və beynəlxalq rəqabətqabiliyyətinin artırılmasına imkan verir. Azərbaycanda bu istiqamətdə tətbiq edilən siyasətlər həm normativ hüquqi aktlar, həm də dövlət proqramları ilə tənzimlənir.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi yanında Keçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən verilən "Startap şəhadətnaməsi" əsasında startap statusu alan hüquqi və fiziki şəxslər aşağıdakı güzəştlərdən faydalana bilir.

Məfəət vergisindən (hüquqi şəxslər üçün) və ya gəlir vergisindən fiziki şəxslər üçün 3 il müddətinə azadolma nəzərdə tutulur. Bu güzəştlər yalnız startap fəaliyyət nəticəsində əldə olunan gəlirlərə aiddir.

Startapların tətbiq edilmə şərtləri ondan ibarətdir ki, onların fəaliyyəti innovativ və texnoloji yenilik daşımaqla yanaşı həm də əməkdaşların sayı və illik gəlir həcmi müəyyən həddi keçməməlidir (hazırda 200 min AZN və 25 nəfər əməkdaş).

Qeyd edək ki, Respublikamızda hazırda bir başa əmək haqqı üzrə vergi azadolmaları tətbiq olunmur, lakin bəzi dövlət dəstəyi proqramları çərçivəsində gənc mütəxəssislərin məşğulluğu təşviq olunur və sosial sığorta xərcləri qismən qarşılanır.

Startaplar üçün Azərbaycan dövləti tərəfindən təmin edilən dəstək mexanizmləri aşağıdakılardır. Sahibkarlığın inkişafı Fondu, Elm və Təhsil Nazirliyi tərəfindən startap ideyalarının maliyyələşdirilməsi üçün 10,000-50,000 AZN arası geri qaytarılmayan maliyyə dəstəyi göstərilir. Startaplara 5%-dən aşağı faizlə güzəştli kreditlər təqdim olunur.

Azərbaycan İxraca və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) tərəfindən xarici sərgilərdə iştiraka görə xərclərinin 50-100% -ə qədəri, həm də startap məhsullarının brend

olaraq xaricdə tanıdılması xərcləri qarşılanır və s.

Beləliklə, Azərbaycanda startaplar üçün tətbiq olunan vergi güzəştlərin və dövlət dəstəyi mexanizmlərinin başlıca məqsədi innovasiya yönümlü bizneslərin maliyyə yükünü azaltmaq, onların bazara daxil olmasını sürətləndirmək, bazar mövqeyini gücləndirmək rəqabətqabiliyyətliliyini artırmaqdan idarətdir.

ƏDƏBİYYAT

1. Mehmet Tosun, Elçin Sülüymanov, Mətanət Rəsulova və başqalar. İnnovasiya sahibkarlığı startap ekosistemi. 2023. (Ereforms. qov. az)
2. "Startap sənəti 2,0" Guy Kavasaki. 2015 (Amazon. com)
3. Ершов В.П. Стартап будущего. Издательские решения. 2024
4. https://www.startup.az/

APPLICATION OF TAX BENEFITS AND SUPPORT MECHANISMS FOR STARTUPS

Rizvan Haji oglu Mecidov
r.mecidov@atu.edu.az
Jumshud Ibrahim oglu Jabbarov
c.cabbarov@atu.edu.az
Azerbaijan Technological University

The main goal of tax breaks and state support mechanisms applied to startups in Azerbaijan is to reduce the financial burden of innovation-oriented businesses, accelerate their market entry, strengthen their market position, and increase their competitiveness.

Keywords: tax breaks, state support, value added tax, financial resources, competitiveness, taxpayers, state support mechanisms.

AZƏRBAYCANDA QEYRİ-NEFT SƏNAYESİ SAHƏLƏRİ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

İsa Əhməd oğlu Əhmədov
isaehmedov@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Tezisdə Azərbaycan Respublikasında qeyri-neft sənayesinin inkişaf tendensiyaları, perspektiv istiqamətləri və bu sahədə mövcud olan əsas çağırışlar təhlil edilir. Sahəvi təhlillər göstərir ki, ölkənin uzunmüddətli inkişaf strategiyasında qeyri-neft sektorunun, xüsusilə maşınqayırma, metal emalı, elektroenergetika, elektronika, yüngül və yeyinti sənayesi, turizm və kosmik sənaye sahələrinin rolu əhəmiyyətli dərəcədə artır. Bununla yanaşı, qeyri-neft sənayesinin davamlı inkişafı üçün institusional, texnoloji və idarəetmə səviyyəsində bir sıra problemlərin mövcudluğu müşahidə olunur. Tədqiqatın nəticələri göstərir ki, bu sektorun inkişafı Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və uzunmüddətli dayanıqlı artımı baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra sosial, siyasi və iqtisadi sahələrdə bir sıra mühüm uğurlara imza atmışdır. Bu dövrdə ölkədə həyata keçirilən sənayeləşmə siyasəti qeyri-neft sektorunun inkişafına əlverişli zəmin yaratmışdır. Neft sektorunun təşəbbüskar rolu fonunda qeyri-neft sənayesinin genişləndirilməsi, iqtisadiyyatın diversifikasiyası və sabit iqtisadi artımın təmin olunması mühüm prioritetlərdən biri kimi çıxış edir.

Qeyri-neft sənayesinin inkişaf tendensiyaları: Qeyri-neft sektorunun inkişaf potensialı sahəvi təhlillər nəticəsində aydın şəkildə müşahidə olunur. Son illərdə qeyri-neft sənayesinin aparıcı sahələri sırasında maşınqayırma, metal emalı, elektroenergetika, elektronika, yüngül və yeyinti sənayesi, eləcə də turizm sənayesi xüsusi yer tutur. Bundan başqa, ənənəvi olmayan, lakin perspektivli hesab olunan kosmik sənayenin inkişafına göstərilən dövlət dəstəyi də bu sahəyə marağı artırmışdır.

Statistik göstəricilər 2015–2020-ci illər ərzində qeyri-neft sənayesində mühüm artım tendensiyalarını əks etdirir. Bu dövrdə sənaye məhsulunun həcmi 7,8 dəfə artaraq 1,209

milyon manata çatmış, əsas kapitala yönəldilən investisiyalar isə 14,7 dəfə artaraq 1,062 milyon manat təşkil etmişdir. Xüsusilə qida sənayesində istehsal həcmi 2,4 dəfə, geyim, dəridən məmulat və ayaqqabı sənayesində 3,2 dəfə, tikinti materialları istehsalında 2,4 dəfə artım qeydə alınmışdır. Bununla yanaşı, kompüter və əczaçılıq sahələrində də müəyyən artım müşahidə edilsə də, kapital qoyuluşlarının məhdudluğu bu sahələrin tam potensialının reallaşmasına maneə törədir.

Əsas problemlər və çağırışlar: Qeyri-neft sənayesinin dayanıqlı inkişafına təsir göstərən bir sıra struktur və institusional problemlər mövcuddur:

- Strateji tədbirlərin icrasında ləngimələr və koordinasiya boşluqları;
- Uzun müddət energetika sektorunun iqtisadiyyatda dominant mövqedə olması;
- Səmərəli və güzəştli investisiya mühitinin kifayət qədər formalaşmaması;
- Texniki və texnoloji bazanın müasir tələblərə cavab verməməsi;
- Elmi və intellektual potensialın parçalanması və koordinasiyanın zəifliyi;
- Yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasında problemlər;
- İnnovasiya fəaliyyətini dəstəkləyən infrastrukturun və tənzimləyici mexanizmlərin natamamlığı;
- Rəqabətqabiliyyətli və innovasiya yönümlü məhsul istehsalına keçiddə çətinliklər;
- Regional inkişafda qeyri-bərabərlik və sənaye müəssisələrinin mərkəzə yönəlməsi;
- Müasir keyfiyyət standartlarının tətbiqində lənglik;
- İxrac potensialının tədiyyə balansında zəif əks olunması;
- Amortizasiya dərəcəsinin yüksəkliyi və texnoloji avadanlıqların yenilənməsindəki çətinliklər;
- Menecment sistemlərinin müasir idarəetmə standartlarına uyğunlaşdırılmaması.

Nəticədə, Azərbaycan Respublikasında qeyri-neft sənayesinin genişləndirilməsi və möhkəmləndirilməsi ölkənin iqtisadi təhlükəsizliyinin təmin olunması və dayanıqlı inkişaf modelinin qurulması baxımından mühüm əhəmiyyət daşıyır. Qeyri-neft sənayesinin inkişafı üçün həm texnoloji modernizasiya, həm də insan kapitalına yönəlik strateji tədbirlərin gücləndirilməsi zəruridir. Tədqiq olunan problemlərin aradan qaldırılması və sektorun rəqabətqabiliyyətinin artırılması istiqamətində kompleks yanaşmalar formalaşdırılmalıdır.

ƏDƏBİYYAT

1. Səfərov Səttar. "Əvəzsiz milli sərvətimiz: Müstəqillik". İqtisadiyyat və Audit jurnalı №10. Oktyabr 2001
2. Səmədzadə Z. Azərbaycan iqtisadiyyatıinkişafın yeni keyfiyyət mərhələsində. Bakı. 2006
3. Mustafayev Akif. Azərbaycan Respublikasının İqtisadi İnkişaf Strategiyası. İqtisadiyyat və Audit jurnalı. Bakı. 2001
4. Əmiraslanov Azər. Dövlət müstəqilliyi ilə milli iqtisadiyyatın formalaşması Məşvərət bülleteni №7. 2001
5. Azər Mehdiyev Azərbaycanın Dünya iqtisadiyyatına İnteqrasiyasının reallıqları. Ekspert iqtisadi jurnalı. №7,8. 2001

SOME ISSUES OF DEVELOPMENT OF NON-OIL INDUSTRIAL SECTORS IN AZERBAIJAN

Isa Ahmad oğlu Ahmadov
isaehmedov@mail.ru
Azerbaijan Technological University

Sectoral analysis reveals that Azerbaijan's development potential is strongest in non-oil industries, particularly machine building, metalworking, electric power, electronics, light and food industries, tourism, and the emerging space sector. Among these, agriculture, tourism, energy, machine building, and light industries hold the greatest significance. Tourism stands out as a key non-oil growth area, supported by positive recent statistics. Additionally, investment in human capital development is crucial, as intellectual resources increasingly define national competitiveness and yield rapid economic returns.

Keywords: Non-oil industry; intellectual capital; human capital; political and economic independence; free market conditions; investment; budget transfer.

ASPECTS OF PUBLIC SECTOR ECONOMIC ACTIVITIES AT THE LOCAL GOVERNMENT

Miranda Kavadze
miranda.kavadze@kiu.edu.ge
Kutaisi International University

Georgia's shift to a market economy has brought complex challenges, particularly in defining the role of the public sector. Public sector theory remains underdeveloped, with inconsistent definitions and terminology. Terms like "state sector," "non-market economy," and "social sector" are often used interchangeably, reflecting conceptual ambiguity.

The public sector primarily provides public goods—services that can be used by many at once without reducing availability. These goods serve the collective interest and cannot be denied to others.

Local self-government offers a valuable perspective for understanding the public sector. According to Georgia's Local Self-Government Code, [1] citizens of a self-governing unit have the right to manage local issues through elected bodies. This enables communities to handle essential services and produce public goods independently.

The municipal economy—distinct from the broader economy—includes both public services and private enterprises operating locally. [2] However, only activities tied to the production of public goods are considered part of the municipal economy. This makes it a unique area requiring careful analysis.

Historically, governance has involved tension between centralized power and local autonomy. Municipal government is a form of citizen self-rule, not an extension of the state. Civil society is rooted at the local level, where residents best understand their needs and can influence change. In Georgia, this concept remains underdeveloped, hindering progress in local governance.

The main goal of local self-government is not to develop the entire local economy, but to provide essential services like education, healthcare, utilities, and social care—functions best managed close to the people. [3]


From a liberal perspective, neither the state nor local governments should dictate rigid economic goals. Instead, development strategies should align with societal needs and priorities, allowing communities to shape their own futures.

For research purposes, several key municipal-level economic policy objectives can be identified:

- **Promoting employment:** Attracting businesses that require a large workforce.
- **Raising incomes:** Supporting the development of high-wage jobs.
- **Encouraging social inclusion:** Creating diverse opportunities so residents do not feel compelled to move elsewhere for personal or professional growth. Housing policy may play a key role in this.
- **Ensuring economic sustainability:** While having a central enterprise can appear beneficial, relying on a single economic hub may also present risks.

In Fall 2024, a survey was conducted in the **Kutaisi Municipality** to evaluate how effectively these exclusive powers are being exercised. A total of 500 individuals from diverse backgrounds participated in the survey (see Graphic 1).

Assessment of the Implementation of Powers by the Kutaisi Municipality.Graphic 1



Based on the survey results, which offer an objective picture of the city, we generally concur with citizens' assessments. Due to high financial centralization — where only property tax revenue stays in the municipal budget and all other taxes go to the central government — local self-governments face significant financial constraints. With greater fiscal autonomy, local public wealth generation would likely show more favorable outcomes.

Keywords: public sector, local self-government, municipal economy, public goods, fiscal decentralization, economic sustainability, citizen participation

REFERENCES

1. Local Self Government act of code.
2. Стиглиц Дж.Ю. Экономика государственного сектора. 1997
3. Лекции по экономике города и муниципальному управлению (под. Ред. А.С. Пузанова). — М.: Фонд "Институт экономики города". 2004

AZƏRBAYCANDA RƏQƏMSAL İQTİSADİYYATIN İNKİŞAFINDA YARANAN PROBLEMLƏR VƏ ONLARIN ARADAN QALDIRILMASI

Maarif Şərif oğlu Qarayev
garayevmaarif@yandex.ru
Maqsud Maarif oğlu İskəndərov
Azərbaycan Texnologiya Universiteti

Dünya üzərində rəqəmsal texnologiyaların yüksək sürətli inkişafı və ən son texnoloji yeniliklərin istifadə edilməyə başlanması bütün fəaliyyət sahələrində və o cümlədən iqtisadi sferada yeni yanaşmaları şərtləndirir. Bu məzmunda baş verməkdə olan inkişaf rəqəmsal-laşma prosesi fonunda iqtisadiyyata təsir edir və onu dəyişdirir. Dünya miqyasında istər İEÖ və istərsə də İEOÖ-lər rəqəmsal iqtisadiyyat sahəsində müvafiq addımlar atır və mahiyyət etibarı ilə yeni rəqəmsal iqtisadi çağırışlara cavab vermək üçün hərəkətə keçirlər. Sadalananlar iqtisadiyyatın yeni inkişaf xəttini yaradır. Bütün bunlar birlikdə rəqəmsal iqtisadiyyat məsələsini gündəmdə saxlayır. Dünya ölkələri ilə yanaşı ölkəmizdə rəqəmsal iqtisadiyyatın mövcud durumunda yaranan problemlərin tədqiqinə və onların aradan qaldırılması yollarının müəyyən edilməsi bu günün vacib məsələlərindən biridir.

Azərbaycanda rəqəmsal iqtisadiyyatın göstəricilərini nəzərdən keçirərkən, ölkədə vahid internetə qoşulma sürətinin dünya üzrə ortalama göstəricidən aşağı olmasını xüsusi

qeyd etmək lazımdır. Ölkə ərazisində internetə qoşulma sürətinin zəif olmasının bilavasitə əsas səbəblərindən biri onun əsaslandığı texnologiyanın köhnə olması ilə şərtlənir. Belə ki, Azərbaycanda internetə qoşulma texnologiyası "X-DSL" strukturuna əsaslanır və bu quruluş istənilən qoşulma effektini vermir.

Digər bir məqam da internet istifadəçilərinin saylarının paylanma arealındakı dispro-porsionallığın mövcudluğudur. "Strateji Yol Xəritəsi" çərçivəsində bu məsələ qoyulmuş və qismən həll edilmiş və bu proses davam edir. İnternetə qoşulma sürətinin də artımı nəzərdə tutulmuşdur ki, göstəricinin 3.6 Mbit/s-dan 2025-ci il üçün 50 və daha sonraki illərdə isə İEÖ ölkələrinin internet sürətinə çatdırılması hədəflənmişdir.

Ölkədə rəqəmsal iqtisadiyyatın inkişaf problemlərindən biri də rəqəmsal proseslərin əsasını təşkil edən ikt-nin tətbiqedilməsinin və internet infrastrukturunun istənilən vəziyyətdə olmaması ilə yanaşı internet qrafiki və data mərkəzlərinin ölkə daxilində hələ ki, mövcud olmamasıdır. Cari məsələlərin həllinə dair respublikada "Azerbaijan Digital Hub" (ADH) proramı həyata keçirilməkdədir. Proqram vasitəsilə 1.8mlrd əhaliyə sayına görə xeyli fərqli kateqoriyalardan rəqəmsal əsaslı xidmətlərin göstərilməsi planlaşdırılır. ADH reallaşdıqda Azərbaycan Respublikası ərazisinda fiber-optik əsaslı şəbəkələrin magistral xətləri birləşəcək. Burada ölkə internet paylaşımı rolunu həyata keçirən qovşaq rolunu oynayacaq,rəqəmsal mərkəz formalaşacaq və Bakıda məşhur rəqəmsal dünya şirkətlərinin vahid regioanal məkan kimi cəmləşməsi prosesi baş verəcəkdir. Söhbət xüsusən qlobal miqyasda fəaliyyət göstərməkdə olam korparasiyalardan gedir ki, onların da sırasına məhz "Amazon", "Alibaba", kimi şirkətlər e-ticarət liİnfrastruktur yönümlü problemlərdən savayı rəqəmsal iqtisadiyyatın digər istiqamətlər üzrə problemlərini də təsnifləşdirmək imkanına malikdirlər.

Rəqəmsal inkişafa mane olan problemlərin növbəti istiqaməti olaraq maliyyə bazarları sahəsində mövcud cari əsaslı problemləri qeyd etmək olar. Problemlərdən ilki maliyyə bazarlarının inkişaf etməsinə görə daha zəif əsaslara malik olmasıdır.

Maliyyə bazarları ilə bağlı daha bir əsaslı problem mövcud rəqabət sferasında çatışmazlıqların olmasıdır. Sağlam olmayan rəqabət mühitini yaradan əsas səbəb kimi, kart istifadəçiləri kütləsinin bir neçə əsas banklarda cəmləşməsidir. Bütün bunlar bank kartları ilə müştərilərə göstərilən xidmətlərin bir arada cəmləşməsi ilə ifadə edilən "ekvayrinq" üzrə müəyyən edilmiş tariflərin daha da aşağı qiymətlərlə yerinə yetirilməsi və optimal tarif dərəcələrinin qoyulması önündə duran problem kimi çıxış edir. Problemin həlli yolları isə əlbəttə ki, kart istifadəçi saylarındakı artımların əldə edilməsi, onların bir birinə nisbətdə əmək haqqı və pensiya kartlarına nisbətən digər xarakterli kart istifadəçi saylarının artırılmasıdır ki, bu da maliyyə bazarında müvafiq istiqamət üzrə canlanma yarada bilər. Nağd olmayan ödəniş növlərindən istifadə edilməsinnin az həcmdə və sayda olması onların potensialının da tam olaraq istifadəsinə imkan vermir. Hazırda cari il ərzində" Apple Pay"--ın ölkə bazarına daxil olmaşı hələ sahənin böyük perspektivindən yetəri qədəri ilə istifadə edildiyi anlamına gəlmir. Bu göstəricilərlə yanaşı Azərbaycanda əməliyyat sistemlərinin bazar paylarına diqqət yetirsək görərik ki, "Android" ƏS ilə təchiz edilən cihazların bazar payı 52.33%- dir. Bu da "Samsung Pay"in Azərbaycana gələrsə, analoqundan daha çox təmassız ödəniş istifadəçisi qazandıra bilmək potensialına sahib olduğunu göstərir. Bu sıraya "Google Pay" da əlavə edilə bilər.

Rəqəmsal iqtisasiyyatın inkişafı istiqamətlərinin önündə duran problemlərdən biri də ölkə əhalisinin maliyyə savadlılığı sahəsində mövcud problemlərin olmasıdır. Bunu "Dünya Bankı"nın "Azərbaycanda Maliyyə Bacarıqlarının və İnklüzivliyinin Artırılması" adlı tədqiqatı bir daha sübut edir. Açıqlanan məlumatlara əsasən Azərbaycan Respublikasında əhali tərəfindən bank hesablarının açılmasına maraq xüsusən azdır. Hesab edirik ki, qeyd olunan məsələlər öz həllini taparsa ölkədə rəqəmsal iqtisadiyyatın inkişafı İEÖ səviyyəsinə çata bilər. Açıqlanan məlumatlara əsasən Azərbaycan Respublikasında əhali tərəfindən bank hesablarının açılmasına maraq xüsusən azdır. Hesab edirik ki, qeyd olunan məsələlər öz həllini taparsa, ölkədə rəqəmsal iqtisadiyyatın inkişafı İEÖ səviyyəsinə çata bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanunu. № 802-IIQ. Bakı.10 dekabr 2004-cü il
2. "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi". "Rəqəmsal Ödəniş Strategiyası"
3. https://unctad.org/page/cyberlaw -tracker-country-detail?country=az
4. https://www.azertelecom.az/en/ projects/key/

PROBLEMS ARISING IN THE DEVELOPMENT OF THE DIGITAL ECONOMY IN AZERBAIJAN AND THEIR OVERCOMING

Maarif Sharif oglu Garayev
garayevmaarif@yandex.ru
Maksud Maarif oglu Iskandarov
AzerbaijanTechnological University

The research study critically analyzes the principal challenges hindering the advancement of the digital economy in Azerbaijan and explores potential solutions. It identifies key issues, including the sluggish pace of internet connectivity, the insufficiently developed ICT infrastructure, limited competition within the financial markets, and the generally low level of financial literacy among the population. The study presents a series of well-founded recommendations to address these shortcomings and underscores the positive economic implications that the flourishing of the digital economy could yield for the nation.

Keywords: digital economy, ICT, internet infrastructure, financial markets, financial literacy.

AZƏRBAYCANDA RƏQƏMSAL TİCARƏT QOVŞAĞI VƏ ELEKTRON HÖKUMƏT PLATFORMASININ FUNDAMENTAL ƏSASI

Elmir Saleh oğlu Cəfərov
elmiraztu@mail.ru
Aytac Qabil qızı Məmmədova
aytac.mmmdova.03@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan Respublikasında elektron hökumət platforması eyni ilə Rəqəmsal Ticarət Qovşağı "X-Road" platforması əsasında formalaşdırılmışdır. [1] X-Road platforması dövlət və vətəndaş arasındakı qarşılıqlı əlaqəni təhlükəsiz və asan formada tətbiq etmək üçün Estoniya tərəfindən yaradılmışdır. [2] X-Road proqramı açıq mənbəli olsa belə, sistemə qoşulan zaman "onboarding" prosesindən uğurla keçməyi tələb edir. Bu proses yerinə yetirildiyi zaman hər bir təşkilatın eyni ilə texniki giriş nöqtəsinin şəxsiyyəti etibarlı Sertifikatlaşdırma Orqanları tərəfindən verilmiş sertifikatlar vasitəsilə yoxlanılır. Texniki cəhətdən X-Road ekosistemi mərkəzi xidmətlər, informasiya sistemləri, təhlükəsizlik serverləri, vaxt möhürü idarəsi və sertifikatlaşdırma orqanlarından ibarətdir. X-Road platformasında məlumatların ötürülməsi xidmət təminatçısı və xidmət istehlakçısı arasında birbaşa formada həyata keçirilir. [3]

Azərbaycanda X-Road platforması "Asan İmza" mobil elektron imzanın operatoru hesab edilən B.EST Solutions şirkəti tərəfindən Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi ilə birlikdə inteqrasiya olunmuşdur. [4] Fiziki və hüquqi şəxslər e-İmza və "Asan İmza" vasitəsilə bir sıra xidmətlərdən asan və təhlükəsiz şəkildə faydalanır. "Asan İmza"nın xidmətlərindən yararlanmaq üçün ilk növbədə istifadə edilməsi planlaşdırılan nömrənin aid olduğu mobil operator şirkətə yaxınlaşaraq "Asan İmza" SİM kartını əldə etmək lazımdır. Bəs "Asan İmza"nın üstünlüyü nədir? "Asan İmza" vasitəsi ilə vətandaşlar bir neçə saniyə ərzində bank, vergi, gömrük və s. əməliyyatlarını qəsdiqləmə imkanına sahib olurlar. [5]

Ölkədə Rəqəmsal Ticarət Qovşağı elektron ticarətin infrastruktur bazasının daha da inkişaf etdirilməsi və Azərbaycan Respublikasının regiondakı mövqeyinin gücləndirilməsi

məqsədi ilə yaradılmış elektron dövlət-özəl tərəfdaşlıq platformasıdır. [6] Rəqəmsal Ticarət Qovşağı (Digital Trade Hub) onlayn bank hesabı (korporativ bank hesabı; individual bank hesabı; digər bank xidmətlərinə çıxış), onlayn şirkət qeydiyyatı (dildə qeydiyyat prosesi; mərhələli sadələşdirilmiş interfeys; virtual ünvan və köməkçi xidmətləri), elektron imza və elektron sənəd (gücləndirilmiş elektron imza sertifikatı; sənədlərin elektron imzalanması), onlayn vahid ixrac ərizəsi (sadələşdirilmiş interfeys; "sadəcə bir dəfə" prinsipi; bir pəncərə prinsipi; elektron bəyannamə; onlayn ixrac subsidiyası), sərbəst satış sertifikatı və s. kimi bir sıra elektron xidmətlər təqdim edir. [7]

Hal-hazırda Azərbaycan Respublikasının elektron hökumət portalında 43 qurum xidmət təklif edir. Ümumilikdə e-hökümət (e-gov.az) vətəndaşlar üçün 353 xidmət, sahibkarlar üçün isə 158 xidmət təklif edir. [8] Bu xidmətlər vətəndaşlara və sahibkarlara təhlükəsiz, zaman itkisi olmadan əməliyyatların icrasına imkan yaradır.

ƏDƏBİYYAT

1. https://1news.az/az/news/20180122070932180-Azerbaycan-X-Road-texnologiyasini-tetbiq-eden-ikinci-olke-kimi-teqdim-olunub
2. https://www.idda.az/digitalazerbaijan/az/blog/49/azerbaycanda-movcud-olan-elektron-dovlet-xidmetlerinin-beynelxalq-numuneler-esasinda-muqayisevi-tehlili
3. https://x-road.global/x-road-technology-overview
4. https://abc.az/az/news/5432
5. https://asanimza.az/
6. https://ereforms.gov.az/az/page/reqemsal-ticaret-qovsaqi-9
7. https://dth.az/index
8. https://e-gov.az/

THE FUNDAMENTAL BASIS OF THE DIGITAL TRADE HOUSING AND ELECTRONIC GOVERNMENT PLATFORM IN AZERBAIJAN.

Elmir Saleh oglu Jafarov
elmiraztu@mail.ru
Aytaj Gabil gizi Mammadova
aytac.mmmdova.03@mail.ru
Azerbaijan Technological Universitety

The e-government platform in the Republic of Azerbaijan was formed on the basis of the Digital Trade Hub "X-Road" platform. The X-Road platform was created by Estonia to implement the interaction between the state and citizens in a secure and easy way.

The Digital Trade Hub is an electronic public-private partnership platform created with the aim of further developing the infrastructure base of e-commerce and strengthening the position of the Republic of Azerbaijan in the region.

Keywords: X-Road, e-government, digital trade hub, electronic declaration.

DÖVLƏT İDARƏETMƏSİNDƏ ELEKTRON HÖKÜMƏTİN ROLU VƏ STRATEJİ İNKİŞAFI

Elmir Saleh oğlu Cəfərov
elmiraztu@mail.ru
Aytac Qabil qızı Məmmədova
aytac.mmmdova.03@mail.ru
Azərbaycan Texnologiya Universiteti

XXI əsr dünyanın bir çox ölkəsində həmçinin Azərbaycan Respublikasında da müasir informasiya texnologiyalarının geniş şəkildə tətbiqi baş verən elmi-texnoloji inqilabları sürətləndirmişdir. İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etməsi ilə dünya ölkələrində həmçinin Azərbaycan Respublikasındada "elektron hökumət" yaradılmışdır. Hal-hazırda informasiya və kommunikasiya texnologiyalarının (İKT) tətbiq edilməsi dövlətin inkişafında dominant amillərdən biri kimi çıxış edir. 20-ci əsrin sonu və 21-ci əsrin əvvəllərində yeni dövlət idarəetmə modeli elektron hökümət hesab edilir. Belə ki, dünyanın bir çox ölkəsində cəmiyyətdə baş verən yeniliklər, dövlətin yeni funksiyalarının meydana gəlməsi, dövlət xidmətlərinin artması və mürəkkəbləşməsi "elektron hökümət"in tətbiqini zəruri edir. [1]

Azərbaycan Respublikası yeniliklərə və inkişafa meyl edən bir dövlət olduğu üçün müxtəlif ölkə təcrübələrindən istifadə edərək öz elektron hökümət modelini yaratmışdır. Eyni ilə elektron hökümət infrastrukurunun yaradılması istiqamətində respublikamızda informasiya və kommunikasiya texnologiyalarının istifadəsinin genişləndirilməsi və elektron xidmələrlə əlaqəli tədbirlər həyata keçirilmişdir. [2]

Keçən illər ərzində Respublikamızda elektron xidmətlər və elektron hökumətin formalaşması eyni zamanda inkişafında hüquqi baza kimi müxtəlif qanunlar, fərmanlar və dövlət proqramları işlənmış və qəbul olunmuşdur. Qəbul olunmuş qanunlar əsasında hal-hazırda ölkəmiz Avropa İttifaqına daxil olan ölkələrdə tətbiq olunan 20 əsas elektron xidmət növünün bir hissəsi ölkəmizdə "elektron hökümət" adı altında tətbiq olunmaqdadır. Qeyd edilən xidmətlərə vergi və gömrük bəyannamələrinin təqdim edilməsi, statistik hesabatların əhaliyə təqdim edilməsi, ali təhsil müəssisələrinə və dövlət qulluğuna qəbul olmaq üçün imtahanlarda iştirak üçün elektron ərizələrin qəbulu və s. [3]

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 2013-cü il tarixində elektron hökumət portalı haqqında qəbul etdiyi fərmandan sonra ölkəmizdə dövlət orqanlarında göstərilən elektron xidmətlərdə ciddi artım müşahidə edilmişdir. Həmçinin "elektron hökumət"in yüksək səviyyədə inkişaf etdirilməsinə də təkan verdi. [4]

İlk vaxtlar ictimai məlumatsızlıq, İKT savadsızlığı səbəbi ilə portala müraciət edənlərin sayı az olsa da, onların sayı günü-gündən artım göstərməkdədir. Koronavirus pandemiyası dövründə İKT olan yüksək tələbatın olması daha da inkişaf etməsinə səbəb oldu. Belə ki, həmin dövrdə distant təhsil, e-səhiyyə, elektron ticarət və s. geniş şəkildə tətbiq edilmişdir. İnformasiya və kommunikasiya texnologiyaları sahəsində baş verən yeniliklərin daim inkişafını təmin etmək üçün informasiya təhlükəsizliyinin yüksəldilməsi, savadlı istifadəçi və mütəxəssislərin yetişdirilməsinə xüsusi diqqət edilir. [5]

ƏDƏBİYYAT

1. www.e-gov.az Azərbaycan Respublikasının "Elektron Hökümət" portalı
2. http://www.mincom.gov.az/ Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar
3. Nazirliyinin rəsmi saytı
4. www.e-qanun.az
5. https://president.az .
6. www.en.wikibooks.org/wiki/E-government

THE ROLE AND STRATEGIC DEVELOPMENT OF ELECTRONIC GOVERNMENT IN PUBLIC ADMINISTRATION.

Elmir Saleh oglu Jafarov
elmiraztu@mail.ru
Aytaj Gabil gizi Mammadova
aytac.mmmdova.03@mail.ru
Azerbaijan Technological Universitety

We will get acquainted with the development and application of modern information technologies in the Republic of Azerbaijan in the XXI century. The decrees adopted for the application of the mentioned modern information technologies are discussed.

Keywords: portal, electronic government, e-document, unified network.

AVTOMOBİL İSTEHSALI MÜƏSSİSƏLƏRİNDƏ İSTEHLAKÇILARLA ƏLAQƏLƏRİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Maarif Şərif oğlu Qarayev
qarayevmaarif@yandex.ru
Ülvi Eldar oğlu Əliyev
Azərbaycan Texnologiya Universiteti

İstehsalçı və istehlakçılar arasında əlaqə rəsmi və ya qeyri-rəsmi şəkildə tərəflər arasında məlumat mübadiləsi kimi müəyyən edilir. Effektiv əlaqə qərar qəbul etmə vəziyyətində yarana biləcək qeyri-müəyyənlikləri və riskləri azaltmaqla istehlakçılarda inamın inkişafına kömək edir (Morgan and Hunt). [1] Satılmadan əvvəl müştərilər ilə düzgün əlaqə qurmaq ən önəmli vasitələrdən biridir. İstehlakçı davranışları düzgün analiz edilməklə yanaşı eyni zamanda düzgün platforma ilə istehlakçılara təsir etmək də lazımdır. Istehlakçılar ilə satınalmadan sonrada əlaqə saxlanmalıdır. Daim anket vasitəsi ilə satınalma və satınalmadan sonraki vəziyyət nəzarətdə saxlanmalıdır. Apardığımız anket nəticəsinə əsasən traktor istehlakçıları 7-12 il ərzində traktorlarını yenisi ilə əvəzləmək istəyir, "Gəncə avtomobil zavodu" IB-yy tam fəaliyyətə başladığından əvvəlki müştərilərin bugün real müştəri olması üçün, satışdan sonraki vəziyyətə yeni əlaqə vasitəsləri ilə nəzarət etməklə, istehlakçı məmnuniyyətini təmin etməlidir. Bu məqsədlə yeni kommunikasiya vasitələri, mobil telefon, SMS, internet, e-poçt, videolar və sosial mediadan istifadə oluna bilər.

Yeni kommunikasiya vasitələri arasında sosial medianın effektivliyi, gücü, fərdləri ictimailəşmiş kütləyə çevirmə qabiliyyəti, nəzarəti istifadəçilərinin ixtiyarına verməsi, sürətli məzmun paylaşması, ictimai rəy formalaşdıra bilməsi, ikitərəfli ünsiyyətə imkan verməsi kimi xüsusiyyətləri, ictimaiyyətlə əlaqələr üçün sosial mediadan istifadəni sürətləndirir. Onun köməkliyi ilə istehlakçılarla dolğun və başa düşülən bir şəkildə əlaqə qurmaq mümkündür. Həm müasir texnologiyaların tətbiqi, həm də internet resursların çox sürətli inkişafı ilə bərabər, eyni zamanda istehlakçının baxış profili marketinq üsullarında dəyişilmələrə səbəb olmuş və beləliklə, sosail media istifadəçilərinin əlaqə və düşüncələrinə uyğunlaşan fərqli marketinq yanaşmaları ortaya çıxmışdır. Sosial media marketinqi yeni marketinq konsepsiyasında özünə yer tapır. Belə nəticəyə gəlmək olar ki, sosial media insanların günlük dialoq formalarını və ona aid sahələri fərqləndirməklə kifayətlənmir, həmçinin şirkətlərin öz məhsul və ya xidmətlərinə qarşı münasibətini, o cümlədən müştərilərin satın alarkən diqqət etdikləri məqamları da fərqləndirərək marketinqin hər mərhələsində təsir edici bir forma olmasına, səmərəli fəaliyyət göstərməsinə şərait yaradır.

Azərbaycanda avtomobil istehsalçıları marketinq xidmətində sosial mediadan düzgün istifadəyə uyğunlaşmağa çalışırlar. Bu araşdırma, avtomobil bazarında sosial medianın istifadəsini və sosial media araşdırmalarının, xüsusilə "Gəncə avtomobil zavodu" IB -nin marketinq fəaliyyətlərinə təsirini ortaya çıxarmaq məqsədi daşıyır. Araşdırma "Gəncə avtomobil zavodu" IB-nin istehlakçı auditoriyasını hədəfləyən şirkətin Facebook, YouTube və Instagram profilləri vasitəsi ilə aparılan dialoqun vizual/anlaşılan mövzusunun obyektiv,

sistemli və ədədi təriflərini təmin edən tədqiqat və inkişaf yolu olan məzmun təhlili vasitəsilə araşdırılmışdır. "http://ganjaauto.az" linki ilə müəssisənin saytından korporativ şəxsiyyət elementlərindən başlamış, şirkətin emblеminə və əlaqə məlumatlarına qədər, qurumun yaratdığı məhsul çeşidi və şirkətin tarixi kimi bir çox xüsusiyyətlərlə tanış olmaq olar. Bu məqsədlər çərçivəsində istehsalat birliyinin korporativ saytında məhsullar təqdim edilir, reklam məqsədi ilə videolar nümayiş etdirilir, satış həyata keçirildikdən sonra göstərilən xidmətlər haqqında məlumatlar əksini tapsa da, lakin kompaniyalar və avtomobillərin qiymətləri ilə bağlı məlumatlar dərc olunmur. İnternet saytının təkmilləşməsi ilə bərabər həmçinin eyni zamanda satış agentlikləri haqqında məlumat verilməsi vacib amildir.

Hal-hazırda Facebook sosial şəbəkəsində müəssisənin rəsmi səhifəsi ilə birlikdə satış agentliyinin "Aqrotextəchizat" MMC səhifəsi də fəaliyyət göstərir. Facebook vasitəsi ilə paylaşılan reklam və videolara 10000-dən çox istifadəçi tərəfindən baxılmışdır. Əlbəttə müəssisənin istehsal etdiyi məhsullar firmalar və kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan müştəri təbəqəsinin maraq dairəsində olduğu üçün, istehlakçı davranışlarını və hansı məhsula hansı rayon və şəhərlərdə daha çox üstünlük verdiklərini öyrənmək vacibdir. Bunun üçün müəssisə whatsap sosial şəbəkəsindən istifadə edərək elektron anket formasında istehlakçıların məmnuniyyətini, eyni zamanda istək və arzularını araşdırararaq istehsal gücünü müştəri istəklərinə uyğun həyata keçirir. 2019-cu ildə satış agentliyi tərəfindən yaradılan instagram səhifəsində paylaşılan hər reklam mindən çox istifadəçi tərəfindən seyr edilək bəyənilir. Bu isə real müştəri balansının yaranmasına səbəb olur, YouTube kanalının yaradılmasının vacibliyini bir daha sübut edir. Müəssisə tərəfindən rəsmi Youtube hesabı yaradılmasada, bu platformda satış agentliyi tərəfindən paylaşılan hər yenilik minlərlə istifadəçi tərəfindən baxılır. Araşdırmalar onu göstərir ki, müəsisələrin sosial mediadan düzgün istifadəsi marketinq strategiyaları sırasına daxil edilməlidir. Facemark.az saytının məlumatlarına əsasən iri avtomobil istehsalçıları sosial şəbəkələrə reklam üçün kifayət qədər pul ayırırlar. Məsələn, Ford reklam büdcəsinin -55%-ni, Chevrolet-54%-ni, Nissan və Volkswagen yalnız sosial şəbəkələrdən Facebookda reklam yerləşdirilməsinə daha çox üstünlük verirlər. Mercedes, Honda, Cadillac, Hyundai, Kia reklam büdcəsinin demək olarki yarısını "Youtube" platformuna ayırır. İnfiniti, BMW, Porsche, Volvo avtomobil istehsalçıları reklam büdcəsinin 30-40%-ni instagramda xərcləyir. Bu onu göstərir ki, avtomobil satışlarının artmasında sosial şəbəkələrdə yerləşdirilən reklamların böyük əhəmiyyəti vardır.

Eyni zamanda istehlakçılar ilə əlaqə vasitəsi olan sosial səbəkələrdə daim aktiv olmalı eyni zamanda müəssisənin saytı yenilənməli, rəsmi sosial şəbəkələri yaradılmalı və satış agentlikləri ilə birlikdə fəaliyyət göstərməlidir. Ənənəvi əlaqə vasitələrinə misal olaraq "Gəncə avtomobil zavodu" IB-nin adını sərgilərdə, yarmarkalarda görsək də, televiziya verlişlərində, televiziya reklamlarında görə bilmirik. Türkiyənin ən böyük traktor istehsalçısı olan Türk Traktor televiziya reklamlarına çox böyük pul ayırır. Televiziya və radiolar vasitəsi ilə müəssisənin brend imici tanınması üçün görülən işlər istehlakçılar ilə əlaqəni daha da intensivləşdirir. Fikrimizcə, sosial şəbəkələr, istehlakçılar ilə aparılan monitorinqlər eyni zamanda bu monitorinqlə xüsusi analtik qrupların təşkili, onların köməkliyi ilə bazarda tələb və təklifin təyin olunması digər əlaqə vasitələri ilə aparılan düzgün istehlakçı tədqiqatı reklamların düzgün müştəri auditoriyasına təsir etməsinə səbəb olacaq, bu isə satışların artması istiqamətidə vacib amildir.

ƏDƏBİYYAT

1. Kotler P. & Keller K. L. Marketing Management**.** Pearson Education International. New Jersey. 2006. P.81
2. https://ganjaauto.gov.az
3. https://www.stat.gov.az

IMPROVING RELATIONSHIPS WITH CONSUMERS IN AUTOMOBILE MANUFACTURERS

Maarif Sharif oglu Garayev
garayevmaarif@yandex.ru
Ulvi Eldar oglu Aliyev
Azerbaijan Technological University

The research study emphasizes that effective communication between manufacturers and consumers plays an important role in building customer trust and reducing uncertainty. In modern times, social media marketing has become one of the main tools for influencing consumer behavior and connecting with them. Car manufacturers, such as Ganja Automobile Plant, are also trying to ensure customer satisfaction and increase sales by using the opportunities of social media. It is important for the enterprise to be active on platforms such as Facebook, YouTube and Instagram, learn customer feedback and adapt its marketing strategies to digital communication tools.

Keywords: consumer engagement, Social Media Marketing, customer satisfaction, marketing strategies, automotive market, digital communication.

AZƏRBAYCANDA EKOLOJİ TARAZLIĞIN QORUNMASINDA YAŞIL İQTİSADİYYAT STRATEGİYASI

Raqif Tofiq oğlu Hüseynov
r.huseynov@uteca.edu.az
Şənay Bəhram qızı Xuduyeva
xuduyeva.shenay@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Əsas yaşıl texnologiyaların Azərbaycanda tətbiqi sahələrindən biri enerji səmərəliliyinin artırılmasıdır. Ölkə günəş panelləri və külək elektrik stansiyalarının tətbiqi sahəsində irəliləyişlər əldə etmişdir ki, bu da daha davamlı enerji kombinasiyasının formalaşmasına töhfə verir. Bu texnologiyaların tətbiqi enerji istehsalı və paylanması zamanı itkilərin azalmasına imkan yaradır ki, bu da istehsalı maksimum səviyyəyə çatdırmaqla yanaşı, karbon izlərinin minimuma endirilməsi baxımından əhəmiyyətlidir. Tədqiqatlar göstərir ki, bərpa olunan enerji mənbələrinə keçid iqtisadiyyatın bütün sahələrində enerji istehlakının azalmasına gətirib çıxarır ki, bu da sonda həm sənaye sahələri, həm də istehlakçılar üçün əməliyyat xərclərinin azalması ilə nəticələnir. [1]

Bundan əlavə, bərpa olunan enerji mənbələrinin ekoloji üstünlükləri xüsusilə Xəzər bölgəsindəki bioloji müxtəlifliyin həssas olduğu bir şəraitdə mühüm əhəmiyyət kəsb edir. Bərpa olunan enerji mənbələri ilə dəstəklənən iqtisadi artım ilə ekoloji balans arasında mühüm bir əlaqə mövcuddur. [2] Bərpa olunan enerji istehsalı artdıqca, əvvəllər neft hasilatı fəaliyyətlərinin yaratdığı ciddi nəticələrdən olan hava və su çirklənməsində nəzərəçarpacaq dərəcədə azalma müşahidə olunur. Araşdırmalar göstərir ki, bioenerji kimi yaşıl texnologiyaların tətbiqi həm ətraf mühitin qorunması, həm də iqtisadi gəlirlərin artırılması baxımından əhəmiyyətli nəticələr verə bilər. Bu təşəbbüslər ictimai sağlamlıq göstəricilərinin yaxşılaşdırılmasına və daha dayanıqlı bir ekosistemin formalaşmasına yol açır. [3]

Azərbaycanın coğrafi landşaftı da bərpa olunan enerji texnologiyalarının effektivliyinə və tətbiqinə təsir edən mühüm amillərdən biridir. Ölkənin müxtəlif relyef xüsusiyyətləri günəş şüalanmasının yüksək olduğu və sabit külək axınlarının müşahidə edildiyi ərazilərdə günəş və külək enerjisindən istifadə üçün əlverişli şərait yaradır. Yerli ekosistemin xidmətlərini anlamaq davamlı inkişafın təmin olunması baxımından əsas baza rolunu oynayır. [2] Coğrafi yanaşmanın bərpa olunan enerji planlamasına inteqrasiyası təkcə layihələr üçün ərazi seçimini optimallaşdırmır, həm də təbii ehtiyatların idarə olunmasına dair qərarların qəbulunu dəstəkləyir. Ekosistemin dinamikasını əks etdirən modellərdən istifadə etməklə siyasətçilər bərpa olunan enerji təşəbbüslərinin uzunmüddətli davamlılığını daha düzgün şəkildə qiymətləndirə bilərlər. [4]

Nəticədə yaranan iqtisadi müxtəlifləşmə imkanları, Azərbaycanın davamlı gələcəyə doğru irəliləməsində bərpa olunan enerjinin kritik rolunu bir daha önə çıxarır. Yaşıl texnologiyaların tətbiqi, neft və qaz ehtiyatlarına əsaslanan ənənəvi iqtisadi modeldən uzaqlaşaraq, Azərbaycanın iqtisadi müxtəlifliyini təmin etmək üçün əhəmiyyətli imkanlar təqdim edir. Yaşıl iqtisadiyyata keçid yalnız ekoloji problemlərin azaldılmasına yönəlmir, eyni zamanda yeni sahələrin inkişafını təşviq edərək iqtisadi dayanıqlılığı gücləndirir. Yaşıl texnologiyaların inteqrasiyası üzrə strateji yanaşma bərpa olunan enerji, tullantıların idarə olunması və davamlı kənd təsərrüfatı sahələrində innovasiyaları təşviq edən siyasətləri əhatə edir. Bu keçid elmi-tədqiqat və inkişaf sahəsinə ciddi sərmayələrin yatırılmasını, eyni zamanda özəl sektorun fəal iştirakını və əməkdaşlığını təşviq edən normativ hüquqi çərçivənin yaradılmasını tələb edir. [5]

ƏDƏBİYYAT

1. Əliyev N. Azərbaycanda enerji səmərəliliyinin artırılması və yaşıl texnologiyaların rolu. Bakı: İqtisadiyyat Nəşriyyatı. 2023
2. Humbatova S.İ., Hacıyeva N., Fodor M.G., Sood K. və Grima S. İqtisadi artımın ekoloji mühitə və bərpa olunan enerji istehsalına təsiri. 2024
3. Məmmədov F. Bərpa olunan enerji mənbələrinin ətraf mühitə təsiri və ekosistemlərin qorunması. Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Bakı. 2022
4. Quliyev R. Azərbaycanın coğrafi şəraitinin bərpa olunan enerji resursları üçün potensialı. ADAU Nəşriyyatı. Gəncə. 2021
5. Rzayeva S. Yaşıl iqtisadiyyat və iqtisadi müxtəlifləşmə: Azərbaycan təcrübəsi. Azərbaycan Dövlət İqtisad Universiteti. Bakı. 2023

GREEN ECONOMY STRATEGY IN PROTECTING ECOLOGICAL BALANCE IN AZERBAIJAN

Ragif Tofig oglu Huseynov
r.huseynov@uteca.edu.az
Shenay Bahram gizi Khuduyeva
xhuduyeva.shenay@mail.ru
Azerbaijan Technological University

One of the key applications of green technologies in Azerbaijan is improving energy efficiency, especially through solar panels and wind power stations. The use of renewable energy sources contributes to reducing energy losses, minimizing carbon emissions, and lowering operational costs across industries. These technologies are especially important for preserving biodiversity in sensitive regions like the Caspian Sea. Azerbaijan's diverse geography offers favorable conditions for solar and wind energy, enhancing the country's renewable potential. Transitioning to a green economy not only addresses ecological issues but also promotes economic diversification and sustainable development.

Keywords: Green technologies, renewable energy, environmental sustainability, solar energy, wind power.

BEYNƏLXALQ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN OLUNMASI PROBLEMLƏRİ

Nigar Vaqif qızı Hüseynova
huseynova221083@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Qloballaşmanın sürətlənməsi, iqtisadi əlaqələrin genişlənməsi və qarşılıqlı asılılığın artması beynəlxalq iqtisadi təhlükəsizlik məsələsini daha da aktuallaşdırır. İqtisadi təhlükəsizlik hər bir dövlətin və bütövlükdə beynəlxalq sistemin dayanıqlı inkişafı üçün vacib amildir. Ancaq müasir dövrdə iqtisadi təhlükəsizliyə yönəlmiş təhdidlər daha mürəkkəb və çoxşaxəli xarakter almışdır. Bu məqalədə beynəlxalq iqtisadi təhlükəsizliyin təmin olunmasında mövcud problemlər, onların səbəbləri və həlli yolları təhlil ediləcəkdir.

Beynəlxalq iqtisadi təhlükəsizlik – dünya dövlətlərinin və regional birliklərin iqtisadi sistemlərinin sabitliyini və dayanıqlılığını qorumaq üçün kompleks tədbirləri əhatə edən bir anlayışdır. O, iqtisadi böhranların, qeyri-sabit bazar şərtlərinin, proteksionist siyasətlərin və digər neqativ amillərin təsirindən qorunmaq üçün zəruri mexanizmlərin yaradılmasını nəzərdə tutur.

Beynəlxalq iqtisadi təhlükəsizliyin təmin edilməsi aşağıdakı əsas məqsədləri güdür:

- Davamlı iqtisadi artım: Sabit və davamlı iqtisadi inkişafın təmin olunması.
- İqtisadi müstəqillik: Xarici təsirlərdən və manipulyasiyalardan qorunmaq.
- Qlobal ticarətin sabitliyi: Beynəlxalq bazarlarda tarazlığın qorunması.
- Enerji və ərzaq təhlükəsizliyi: Dövlətlərin strateji ehtiyatlarının təmin olunması.

İqtisadi təhlükəsizliyə qarşı təhdidlər müxtəlif formalarda özünü göstərə bilər. Onları aşağıdakı kateqoriyalara bölmək mümkündür:

Dünya maliyyə sisteminin qloballaşması ilə birlikdə maliyyə böhranlarının təsiri daha geniş miqyas almışdır. 2008-ci il maliyyə böhranı və 2020-ci il pandemiya dövründə baş verən iqtisadi çətinliklər beynəlxalq sistemin zəifliklərini göstərdi. Beynəlxalq valyuta fondları və regional maliyyə institutları böhranların qarşısını almaq üçün müxtəlif tədbirlər həyata keçirsələr də, bu, hələ tam effektiv həll yolu deyil.

Son illərdə dünya ölkələri arasında ticarət müharibələri iqtisadi təhlükəsizlik üçün ciddi təhdidlər yaratmışdır. Xüsusilə ABŞ və Çin arasında baş verən ticarət münaqişələri qlobal ticarət sisteminə mənfi təsir göstərmiş, tədarük zəncirlərində pozuntulara səbəb olmuşdur. Proteksionist siyasətlərin artması sərbəst ticarətin inkişafını məhdudlaşdırır və iqtisadi inteqrasiyanı çətinləşdirir.

Enerji daşıyıcılarının qiymətindəki dalğalanmalar və ərzaq ehtiyatlarının qeyri-bərabər bölgüsü iqtisadi təhlükəsizliyə ciddi təhdid yaradır. Münaqişə zonalarında enerji ehtiyatlarına çıxışın məhdudlaşdırılması, həmçinin iqlim dəyişikliyi nəticəsində kənd təsərrüfatında baş verən dəyişikliklər ərzaq böhranlarının yaranmasına səbəb ola bilər.

Rəqəmsallaşmanın artması ilə kiberhücumlar və iqtisadi casusluq da iqtisadi təhlükəsizliyə yeni təhdidlər yaratmışdır. Xüsusilə strateji əhəmiyyətli şirkətlərə və maliyyə sistemlərinə edilən kiberhücumlar qlobal iqtisadi sabitliyi poza bilər.

Beynəlxalq münasibətlərdəki geosiyasi gərginliklər, iqtisadi sanksiyalar və blokadalar müxtəlif ölkələrin iqtisadi təhlükəsizliyini sarsıda bilər. Sanksiyalar tətbiq olunan ölkələr üçün yeni iqtisadi strategiyalar hazırlamaq zərurəti yaranır ki, bu da əlavə iqtisadi təzyiqlərə səbəb olur və Beynəlxalq İqtisadi Təhlükəsizliyin Təmin Edilməsi Üçün Həll Yolları mümkündür.

İqtisadi təhlükəsizliyin təmin olunması üçün beynəlxalq əməkdaşlıq vacibdir. Dünya Ticarət Təşkilatı (WTO), Beynəlxalq Valyuta Fondu (IMF) və digər beynəlxalq institutlar ölkələr arasında iqtisadi stabilliyi qorumaq üçün əməkdaşlıq etməlidirlər.

Dayanıqlı iqtisadi inkişaf strategiyalarının həyata keçirilməsi ölkələrin iqtisadi asılılığını azalda bilər. Alternativ enerji mənbələrinə keçid, yerli istehsalın artırılması və rəqəmsal iqtisadiyyatın inkişafı bu sahədə effektiv həll yollarıdır.

Maliyyə bazarlarında nəzarət mexanizmlərinin təkmilləşdirilməsi böhranların qarşısını

almaq üçün vacibdir. Beynəlxalq maliyyə institutları qlobal bazarlarda şəffaflığı təmin etməli və süni manipulyasiyaların qarşısını almalıdır.

Kiberhücumların qarşısını almaq üçün beynəlxalq səviyyədə güclü kibertəhlükəsizlik strategiyaları qəbul edilməlidir. Şirkətlər və hökumətlər kibermüdafiə sistemlərinə daha çox sərmayə qoymalıdırlar.

Geosiyasi risklərin azaldılması üçün diplomatik həll yolları tapılmalı və sanksiyaların təsiri minimal səviyyəyə endirilməlidir. Beynəlxalq təşkilatlar bu prosesdə vasitəçilik missiyasını gücləndirməlidirlər.

PROBLEMS OF ENSURING INTERNATIONAL ECONOMIC SECURITY

Nigar Vaqif gizi Huseynova
huseynova221083@gmail.com
Azerbaijan Technological University

Ensuring international economic security is an important strategic issue in the modern world. The dynamics of the global economy, geopolitical events and technological changes create new challenges in this area. Governments and international organizations must strengthen cooperation to maintain economic stability, implement sustainable development strategies and use modern technologies to prevent risks. Otherwise, existing problems related to economic security may deepen and lead to global crises.

Keywords: economic security, financial crises, globalization, international relations.

RƏQABƏTİN MAHİYYƏTİ VƏ NÖVLƏRİ

Zamin Oqtay oğlu Cəlilov
zamin2002celilov@gmail.com
Xədicə Fizuli qızı Məmmədova
Azərbaycan Texnologiya Universiteti

"Rəqabət" anlayışı iqtisadi terminologiyaya latın dilindəki "concurrentia" sözündən daxil olmuşdur və azərbaycan dilində "toqquşma", "yarış" mənalarını ifadə edir. İqtisadi məzmunda bu anlayış, müxtəlif insanların məhdud nemətlər üzərində alternativ istifadə imkanları uğrunda apardıqları mübarizəni təsvir edir.

Rəqabət bazar münasibətlərinin əsas anlayışlarındandır və onun mahiyyətini əks etdirir. İqtisadi ədəbiyyatda rəqabətə üç əsas yanaşma mövcuddur. Birinci yanaşma onu yarış kimi qiymətləndirir. İkinci yanaşma klassik nəzəriyyəyə əsaslanaraq, rəqabəti tələb və təklifin tarazlığını təmin edən mexanizm kimi görür. Üçüncü, daha müasir yanaşma isə rəqabəti sahə bazarlarının strukturunu müəyyən edən meyar kimi dəyərləndirir.

Rəqabət nəzəriyyəsinin inkişafı və onun müxtəlif bazar modellərində oynadığı rola dair müzakirələr artsa da, bütün yanaşmaların ortaq nöqtəsi rəqabəti iqtisadi subyektlərin bazar uğrunda apardıqları mübarizə və yarış kimi qiymətləndirmələridir. Rəqabət – bazar iştirakçıları arasında daha əlverişli iqtisadi şərait əldə etmək uğrunda aparılan mübarizədir ki, bu zaman onların hər birinin müstəqil fəaliyyəti bazarın ümumi vəziyyətinə ciddi təsir göstərmək imkanından məhrum olur. Eyni zamanda, rəqabət istehsalçıları daha tələb olunan məhsulların istehsalına stimullaşdırır.

İngilis iqtisadçısı Alfred Marşal rəqabəti bir insanın digəri ilə hər hansı bir məhsulu almaq və ya satmaq uğrunda yarışması kimi xarakterizə etmişdir. Burada "insan" dedikdə, bazarda fəaliyyət göstərən iqtisadi subyektlər nəzərdə tutulur.

Rəqabət anlayışının iqtisadi nəzəriyyədə formalaşması bir neçə mərhələdə baş vermişdir. Klassik iqtisadiyyatın nümayəndəsi Adam Smit rəqabəti davranış yanaşması ilə izah edərək, onu satıcıların bazar üzərində nəzarəti təmin etməyə çalışmaları kimi dəyərləndirmişdir. Onun fikrincə, alıcı və satıcılar daha sərfəli alış və satış şərtləri əldə etmək üçün bir-biri ilə yarışırlar. Bu yanaşmada rəqabət bazarın "gözə görünməz əli" vasitəsilə iştirakçıların fəaliyyətini əlaqələndirir və istiqamətləndirir.

Rəqabət bazarda qiymətlərin formalaşmasını, tələb və təklifin qarşılıqlı təsirini təmin

edən mühüm bir qüvvədir. Alıcı və satıcıların qarşılıqlı fəaliyyəti nəticəsində eyni növdən olan məhsullar üçün vahid qiymət formalaşır və bazarda tarazlıq yaranır.

Neoklassik nəzəriyyə də rəqabətin davranış aspektinə toxunur, lakin bu yanaşmada daha çox məhdud nemətlər və bu nemətləri əldə etməyə çalışan istehlakçılar arasındakı mübarizəyə diqqət yetirilir. Neoklassik iqtisadçılara görə, nemətlərin məhdudluğu onların tələbatı ödəməkdə kifayət etməməsi ilə bağlıdır və bu səbəbdən də bazar iştirakçıları resursları əldə etmək üçün rəqabət aparırlar.

Rəqabətə yalnız davranış və struktur baxımından deyil, həm də funksional baxımdan yanaşma mövcuddur. Bu yanaşma rəqabəti bir növ "kəşf prosedurası" kimi qiymətləndirir. Bu baxış iqtisadçılar Yozef Şumpeter və Fridrix fon Hayekin adı ilə bağlıdır. Onlara görə, rəqabət yeni imkanların, innovasiyaların və daha səmərəli fəaliyyət üsullarının ortaya çıxmasına şərait yaradır.

XIX əsrin sonlarında iqtisadi nəzəriyyədə geniş yayılmış və müasir iqtisad elminin əsaslarından birinə çevrilmiş struktur yanaşma formalaşdı. Bu yanaşma rəqabəti bazarın struktur xüsusiyyətləri ilə izah edir. Onun əsasını Fransis Ecuort, Antuan Kurno, Coan Robinson və Edvard Çemberlin kimi iqtisadçılar qoymuşdur. Bu yanaşmaya görə, bazarda tam rəqabət üçün çoxlu sayda şirkət olmalı və onların bazardakı payı o qədər kiçik olmalıdır ki, heç biri qiymətə təsir göstərə bilməsin. Beləliklə, qiymətlər yalnız tələb və təklifin qarşılıqlı təsiri ilə müəyyən olunur.

Rəqabət iqtisadi sahələr arasında tarazlıq yaradan əsas tənzimləyici mexanizmdir. Sahələrarası rəqabət investisiyaların yönünü müəyyən edir. Rəqabətin səviyyəsinə əsasən bazarın müxtəlif növləri yaranır və bu bazarların hər birində iqtisadi subyektlər fərqli davranırlar.

Bazarın fəaliyyət prinsiplərini və iqtisadiyyatı anlamaq üçün bazar modellərinin fərqləndirilməsi vacibdir. Rəqabət səviyyəsinə görə bazarlar dörd əsas struktur modelə bölünür: xalis rəqabət, xalis inhisar, inhisarçı rəqabət və oliqopoliya. Bu modellər əsasən firmaların sayına görə fərqlənir.

Xalis rəqabət modelində bazarda çoxlu sayda müstəqil satıcı fəaliyyət göstərir və onlar standartlaşdırılmış (eynicinsli) məhsullar istehsal edirlər. Belə məhsulların alıcısı üçün satıcının kimliyi əhəmiyyət kəsb etmir, çünki məhsullar arasında fərq yalnız qiymətdədir. Bu şəraitdə firmalar məhsulun qiymətinə nəzarət edə bilmirlər. Hər bir firma bazarın cəmi satışlarının çox kiçik hissəsini təşkil etdiyindən, onun istehsal səviyyəsindəki dəyişikliklər ümumi təklifə və qiymətə təsir göstərmir. Nəticədə, firmalar bazarda mövcud qiymətə uyğunlaşmalı olur və qiymət siyasəti yürütmək imkanları olmur.

Xalis inhisar modelində isə yalnız bir firma bazarda fəaliyyət göstərir və bu firma həm qiyməti, həm də istehsal həcmini özü müəyyən edə bilir. Lakin bu o demək deyil ki, bazar qüvvələri tamamilə aradan qalxır və ya alıcılar tam inhisarçının nəzarətindədir. Əgər tələbin elastikliyi yüksəkdirsə, qiymətin azaldılması ümumi gəlirin artmasına səbəb olur; əks halda, bu, gəlirin azalmasına gətirib çıxarır. Bu səbəbdən, inhisarçı firma mənfəəti maksimumlaşdırmaq üçün qiyməti tədricən azaldaraq istehsal həcmini artırır və bu prosesi tələbin qeyri-elastik olduğu nöqtəyə qədər davam etdirir. Nəticədə, eyni tələb və xərc şəraitində, rəqabətli bazarla müqayisədə inhisarçı bazarda məhsulun qiyməti daha yüksək, istehsal həcmi isə daha aşağı olur.

İnhisarçı rəqabət modeli isə xalis rəqabət və xalis inhisar arasında bir ara modeldir. Bu modeldə firmalar bir-birindən fərqlənən məhsullar istehsal edir və alıcılar bu məhsulları oxşar görsələr də, onları tam əvəzləyə biləcək məhsullar kimi qəbul etmirlər. Burada rəqabət davam edir, çünki bazarda digər firmalar da müəyyən dərəcədə alternativ məhsullar təklif edir. İnkişaf etmiş inhisarçı rəqabət şəraitində məhsul diferensasiyası (fərqləndirilməsi) əsas xüsusiyyət kimi çıxış edir. Firmalar eyni məhsulun müxtəlif formalarını təqdim edərək istehlakçıların fərqli zövqlərinə uyğun gəlməyə çalışırlar.

Rəqabət bazar iqtisadiyyatının təməl prinsiplərindən biridir. Lakin bazar mexanizmləri bəzən

qeyri-adekvat ola bilər və inhisarçılıq kimi hallarla bazar iqtisadiyyatını pozmaq mümkündür. Buna görə, dövlətlər rəqabəti qorumaq və sərfəli iqtisadi mühit yaratmaq üçün hüquqi tənzimləmə mexanizmləri tətbiq edirlər. Antimonopoliya qanunları bazarda haqsız rəqabətin, inhisarçılıq və bazarın manipulya-siyasının qarşısını almaq üçün yaradılır. Bu qanunlar adətən aşağıdakı istiqamətləri özündə ehtiva edir:

1. **İnhisarçılığın qarşısını almaq** – Bir şirkətin bazarda hegemonluq etməsinin qarşısını almaq üçün qanunvericilik vasitələri istifadə edilir.
2. **Birləşmələrin və satınalmaların tənzimlənməsi** – Böyük şirkətlərin bazarı ələ keçirməməsi üçün bəzi birləşmələrə və satınalmalara məhdudiyyətlər qoyulur.
3. **Qiymət manipulyasiyasının qadağan olunması** – Şirətlərin razılaşaraq qiymətləri əməliyyatsız şəkildə artırmasının qarşısını alır.
4. **Haqlı və haqsız rəqabətin məğzi** – Müştərilərin və digər bazar oyunçularının maraqlarını qorumaq məqsədilə fəaliyyətlər nəzarət altında saxlanılır.

Dövlət rəqabətin qorunması üçün hüquqi alətlər vasitəsilə bazarı idarə edir. Bunun əsas metodları bunlardır:

- **Rəqabət qurumlarının yaradılması** – bəzi ölkələrdə Rəqabət Komissiyaları və ya Antimonopoliya Agentlikləri bu sahəyə nəzarət edir.
- **Vergi siyasəti və subsidiyalar** – kiçik sahibkarlığa yardım etmək üçün dövlət subsidiyalar tətbiq edir və böyük şirkətlər üçün bəzən əlavə vergilər qoyur.
- **Beynəlxalq rəqabət qaydalarına riayyət olunması** – ölkələr beynəlxalq bazarda haqsız rəqabəti qarşısını almaq üçün beynəlxalq tərəfdaşlarla əməkdaşlıq edir.

Rəqabətin hüquqi tənzimlənməsi bazarda balansı qorumaq və iqtisadi inkişafı təmin etmək üçün vacibdir. Hər ölkənin rəqabəti qorumaq üçün fərqli yanaşmaları olsa da, ümumi məqsəd sərfəli iqtisadi mühit yaratmaq və inhisarçılığın qarşısını almaqdan ibarətdir.

Nəticə etibarilə, rəqabət bazar iqtisadiyyatının əsas elementlərindən biridir və onun müxtəlif aspektlərdən izahı iqtisadi münasibətləri daha dərindən anlamağa kömək edir. Rəqabət bazar iştirakçılarının azad fəaliyyəti, istehsalın səmərəliliyi və istehlakçının maraqlarının qorunması baxımından mühüm rol oynayır.

Oliqopolik bazarlarda firmalar adətən qiymət rəqabətindən çəkinirlər, çünki bu, gəlirlərin azalmasına və mövqelərin zəifləməsinə səbəb ola bilər. Bu səbəbdən onlar qiymətləri sabit saxlamaq üçün tez-tez qeyri-rəsmi razılaşmalara üstünlük verirlər. Belə şəraitdə rəqabət əsasən qeyri-qiymət metodlarına əsaslanır.

Qeyri-qiymət rəqabətinə məhsul keyfiyyətinin artırılması, yeni texnologiyalar, reklam, müştəri xidmətləri və brend mövqelərinin gücləndirilməsi daxildir. Şirkətlər bazarda fərqlənmək və üstün mövqelərini qorumaq üçün bu üsullardan istifadə edirlər.

ƏDƏBİYYAT

1. "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikası Qanunu. 2 iyun 1995-ci il
2. Azərbaycan Respublikasında rəqabətin qorunması və təbii inhisarların tənzimlənməsi. Qanunlar, normativ sənədlər, analitik materiallar. Bakı. 2000

THE NATURE AND TYPES OF COMPETITION

Zamin Ogtay oglu Jalilov
zamin2002celilov@gmail.com
Khadija Fizuli gizi Mammadova
Azerbaijan Technological University

The article delves into the concept of competition, exploring diverse perspectives and theoretical frameworks proposed by various economists, while examining the profound influence of competition on economic development.

Key words: Competition, monopoly, price, market economy, supply and demand.

AZƏRBAYCAN ŞİRKƏTLƏRİNDƏ MALİYYƏ MENECMENTİNİN CARİ VƏZİYƏTİ, PROBLEMLƏRİ,TƏHLİL YOLLARI VƏ PERSPEKTİV İNKİŞAF İMKANLARININ ANALİTİK TƏHLİLİ

Yetər İsrayıl qızı Qasımova
y.qasimova@atu.edu.az
Rizvan Hacı oğlu Məcidov
r.mecidov@atu.edu.az
Əhməd Tufan oğlu Əhmədov
a.ahmedov@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Qloballaşma və maliyyə bazarlarının dəyişməsi maliyyə menecmentini şirkətlərin uğuru üçün vacib amilə çevirmişdir. Azərbaycanda da maliyyə menecmenti təkcə resursların deyil, həm də strateji qərarların və dayanıqlığın idarə olunması baxımından əhəmiyyətlidir. Bu sahə yalnız mühasibat uçotu ilə məhdudlaşmır, həm də risklərin idarəsi, investisiyalar və maliyyə sabitliyi kimi funksiyaları əhatə edir. Yerli şirkətlər bu sahədə müxtəlif yanaşmalardan istifadə edirlər. Qeyd edək ki, Azərbaycanda iqtisadi inkişaf və rəqabət mühitinin dərinləşməsi ilə maliyyə menecmentinə olan tələblər artmışdır.

Azərbaycanda həm iri həm də kiçik və orta sahibkarlıq (KOB) subyektləri üçün maliyyə menecmenti əsas strateji funksiyalardan biri olmaqla, onun əsas məqsədi - maliyyə resurslarının effektiv idarə olunması,rentabelliyin artırılması və risklərin azaldılmasıdır. Xüsusilə, iri sənaye və tikinti şirkətləri, bank sektoru, ticarət və xidmət sahəsində faliyyət göstərən firmalar maliyyə menevmentini xüsusi strukturlarla və peşəkar komandalarla həyata keçirirlər.

Azərbaycanın tanınmış şirkətlərindən olan "AZƏRSUN HOLDİNQ", "SOCAR", "PAŞA HOLDİNQ" kimi korporasiyalar maliyyə menecmentinə strateji yanaşırlar.Bu şirkətlərdə maliyyə planlaşdırılması, büdcə sistemi, pul axınının təhlili və risklərin qiymətləndirilməsi üçün müasir metod və proqram təminatlarından istifadə olunur. Beləki "Azərsun Holdinq" məhsul çeşidinə və bazar genişliyinə uyğun maliyyə modellərindən istifadə edir. Məsələn, büdcələşmə və maliyyə planlaşdırma, kapital büdcələşmə və investisiya qiymətləndirmə, risk menecmenti və hedcinq mexanizmləri,strateji idarəetmə və KPİ əsaslı qiymətləndirmə, ERP və rəqəmsal maliyyə idarəedilməsi modelləri və s.

"SOCAR" enerji və karbohidrogen bazarındakı dəyişiklikləri nəzərə alaraq valyuta riskləri və kapital sərmayələri ilə bağlı kompleks maliyyə idarəetmə yanaşmalrı tətbiq edir. Bu yanaşma istiqamətləri bunlardan ibarətdi:valyuta risklərinin və kapital sərmayələrinin idarə olunması, kapital büdcələşmə prosesi, layihə təhlili və risk qiymətləndirilməsi, tərəfdaşlıq və müştərək maliyyələşmə, kompleks maliyyə idarəetmə yanaşması (ERP və SAP sistemlərinin tətbiqi, KPİ-lər, maliyyə şəffaflığı və hesabatlıq) və s.

Bank sektorunda «Kapital Bank» və «Paşa Bank» kimi müssisələrdə risk əsaslı yanaşma, aktiv-passiv idarəçiliyi və kapitalın səmərəli bölüşdürülməsi üzrə inkişaf etmiş maliyyə mexanizmləri mövcuddur. Vurğulayaq ki, KOB subyektlərində maliyyə menecmenti sahəsində müəyyən problemlər müşahidə olunur, yəni peşakar maliyyə menecerlərinin çatışmamazlığı, maliyyə planlaşdırılmasının zəif təşkili, kredit alma imkanlarının məhdudluğu, rəqəmsal maliyyə texnologiyalarına kiçidin zəifliyi və s. Bununla belə, son illər dövlət tərəfindən KOB-ların inkişafına yönəlmiş təşviqlər, subsidiyalar, eləcədə sahibkarlar üzrə maarifləndirmə tədbirləri bu sahədə pozitiv dinamika yaradır. Demek olar ki, ölkəmizdə fəaliyyət göstərən bir çox şirkətlər artıq rəqəmsal transformasiyaya qədəm qoymuşdur. RP, CRM və maliyyə təhlili proqramları (Məsələn SAP Oracle Financials,Quick Botoks) daha çox tətbiq olunmaqdadır. Eyni zamanda Fin Tech sektorunun inkişafı maliyyə əməliyyatlarının avtomatlaşdırılması və müasir xidmətlərin tətbiqini xeyli asanlaşdırılmışdır. Qeyd edilən müsbət dəyişikliklərə yanaşa maliyyə menecment sahəsində bir sırə mövcuddur problemlər vardır. Belə ki azərbaycanda maliyyə menecmenti səhəsində təcrübəli və

ixtisaslaşmış mütəxəssislərin sayı məhdudduz. Bir çox şirkət üzün müddətli maliyyə biz planlaşdırılmasına önəm vermir, Büdcələşmə prosesi əsasən illik və statik xarakter daşıyır. Bu isə dəyişən iqtisadi mühitə uyğun çevik qərarların qəbulunu çətinləşdirir. Xüsusilə KOB-lar üçün maliyyələşmə üçün tələb olunan təminatlar və yüksək faiz dərəcələri kiçik müəssisələr üçün çətinlik yaradır.

Rəqəmsal texnologiyalar avtomatlaşdırılmış maliyyə sistemləri və analitik alətlərdən ixtisadə səviyyəsi hələ də aşağıdır. Bir çox müəssisələr maliyyə əməliyyatlarını hələ də kağız əsaslı və əl üsulu ilə idarə edir.

Göstərdiyimiz problemlərin həlli yolları aşağıdakı istiqamətlərdə özünü ehtiva edir. Dövlət və özəl sektor əməkdaşlığı çərcivəsində maliyyə menecmenti sahəsində təlimlər sertifikatlaşdırma proqramları və universitet səviyyəsində praktiki tədris sahəsi əsaslı şəkildə güncləndirilməlidir.

Şirkətlərdə strateji və çevik büdçəlşmə modelləri tətbiq olunmalıssenari analizi və maliyyə proqnozlaşdırılması kimi yanaşmalar sistemli şəkildə həyata keçirilməlidir. ERP və maliyyə simulyasiya proqramından (real proses və ya sistemlərin kompüter vasitəsilə modelləşdirərək təhlil və təcrübə aparılmasına imkan verən proqram təminatı)istifadə genişlənməlidir.

Dövlətin təqdim etdiyi güzəştli kreditlər, təminatsız kreditlər və subsidiyalar daha əlçatan olmalı, eyni zamanada alternativ maliyyələşmə alətləri-risk kapitalı və kraudfandiq (layihə və ya biznes ideyalarının ictimai maliyyə dəstəyi ilə kütləvi şəkildə maliyyələşdirilməsini təmin edən alternativ maliyyə alətidir) təşviq olunmalıdır.

Müasir maliyyə texnologiyalarının tətbiqi üçün dövlət tərəfindən vergi güzəştləri və texniki dəstək proqramları tətbiq edilə bilər. Eləcə də startaplar üçün maliyyə texnologiyaları sahəsində inkubasiya və akselerasiya proqramları yaradılmalıdır.

Şirkətlərdə risklərin idarə olunması üçün daxili siyasət və audit sistemləri qurulmalı, hər maliyyə qərarı risk təhlili ilə müşayiət olunmalıdır. Risk xəritələri hazırlanmalı, sığorta sistemləri isə geniş tətbiq olunmalıdır.

Maliyyə menecmenti təkcə maliyyə axınlarının idarəsi deyil, həm də strateji qərarların qəbulu, investisiyaların qiymətləndirilməsi və uzunmüddətli dayanıqlığın təminində mühüm rol oynayır. Bu səbəbdən maliyyə menecmentinin inkişafı şirkət uğurunun əsas şərtidir. Onun gələcək inkişaf istiqamətləri aşağıdakılardan ibarətdir:

-Rəqəmsal maliyyə infrastrukturu. Azərbaycanda rəqəmsal transformasiya dövlət strateqiyasının əsas istiqamətlərindən biri olduğundan, maliyyə sistemlərinin inteqrasiya olunmuş və avtomatlaşdırılmış modelə keçidi sürətləndirilməli. Fin Tech şirkətləri və rəqəmsal ödəniş sistemləri bazarda mühüm rola malik olmalıdır.

-ESG və maliyyə dayanıqlığı. Müasir maliyyə idarə edilməsi artıq yalnız mənfəət yönümlü deyil,həm də sosial və ekoloji məsuliyyətə əsaslanmalıdır. ESG (ətraf mühit, sosial məsuliyyət) prinsipinə uyğun maliyyə strateqiyalarının hazırlanması investor etibarını artırır və maliyyə resurslarına çıxışı asanlaşdırır. Eləcə də "yaşıl maliyyə" və "Sosial təsir investisiyaları" gələcəkdə maliyyə menecmentinin əsas istiqamətlərindən biri ola bilər.

-Strateji maliyyə planlaşdırmasının inkişafı. Uzun müddətli maliyyə planları şirkətin vizyonuna uyğun şəkildə optimallaşdıra və risk əsaslı planlaşdırma ilə qeyri-müəyyənliklər qarşısında davamlılığı artıra bilər.

-Alternativ maliyyə münasibətlərinin genişləndirilməsi. Bank kreditlərindən aslılığın azaldılması üçün diversifikasiya olunmuş maliyyə strateqiyaları hazırlamalı, beynəlxalq donor və maliyyə qrumları ilə əməkdaşlıq daha da aktuallaşmalıdır.

-Maliyyə savadlılığının və peşəkar kadr potensialının artırılması. Peşəkar maliyyə menecerlərinin hazırlanması və davamlı təlimlərə təchiz olunması inkişafın əsas şərti olmaqla, beynəlxalq maliyyə sertifikatları (CFA,ACCA,CPA) üzrə ixtisaslaşmış kadrlar şirkətlərin maliyyə funksiyalarını daha da gücləndirə bilər.

Beynəlxalq Maliyyə Hesabatları Standartları (İFRS) əsasında hesabatlılığın təmin olunması, şəffaflıq və investor inamını artıra,eləcə də qlobal kapital bazarlarında çıxış imkanlarını (İPO,beynəlxalq istiqraz buraxılışları və s.) genişləndirə bilər və s.

Apardığımız araşdırılmalardan belə nəticəyə gəlmək olar ki, şirkətlərin maliyyə menecmenti onun səmərəli fəaliyyəti, davamlı və dayanıqlı inkişafı üçün strateji əhəmiyyət daşıyır, mövcud problemlər rəqəmsallaşma, peşəkar kadr potensialının gücləndirilməsi və innovativ maliyyə mexanizmlərinin tətbiqi ilə aradan qaldırılaraq, gələcəkdə daha çevik, səmərəli və dayanıqlı maliyyə idarəetməsi imkanlarını formalaşdıra bilər.

AN ANALYTICAL REVIEW OF THE CURRENT STATE, ISSUES, ANALYTICAL APPROACHES AND DEVELOPMENT PROSPECTS OF FINANCIAL MANAGEMENT IN AZERBAIJAN COMPANIES

Yeter Israyil gizi Gasimova
y.qasimova@atu.edu.az
Rizvan Haji oglu Mecidov
r.mecidov@atu.edu.az
Ahmed Tufan oglu Ahmadov
a.ahmedov@atu.edu.az
Azerbaijan Technological University

The financial management of companies is of strategic importance for their efficient operation, continuous and sustainable development. Existing problems can be eliminated through digitalization, strengthening of professional human resources, and the application of innovative financial mechanisms, thereby creating more flexible, efficient, and sustainable financial management opportunities in the future.

Keywords: financial management ESG-based finance, financial planning, prospective development opportunities, sustainable financial development, transparency and accountability.

AZƏRBAYCANIN BANK SEKTORUNDA KORPORATİV İDARƏETMƏNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

Natiq Əli oğlu Cavadov
cavadov1958@mail.ru
Bahar Əvəz qızı Məmmədova
ebumamedov1@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Korporativ idarəetmə təşkilatın necə idarə olunduğunu və idarə olunmasını istiqamətləndirən siyasətlər, proseduralar və prinsiplər çərçivəsini təmsil edir. O, şirkət daxilində səlahiyyətlərin və hesabatlılığın bölüşdürülməsini müəyyən edir, qərarların qəbulu üçün iyerarxiyalar yaradır. Özündə korporativ idarəetmə təşkilati nəzarəti gücləndirmək, idarəedicilərə və idarə heyəti üzvlərinə mürəkkəb idarəetmə problemlərini həll etməyə kömək edən mexanizm rolunu oynayır. Bu sistem biznes əməliyyatlarını investorların, işçi heyətin, biznes tərəfdaşlarının, müştərilərin və daha geniş ictimaiyyətin ehtiyaclarına uyğunlaşdırmaq üçün strukturlaşdırılmış protokollar və yoxlamalar həyata keçirir. [2]

Müasir iqtisadi şəraitdə maliyyə sabitliyinin qorunması və investor etimadının təmin olunması üçün korporativ idarəetmə müstəsna əhəmiyyət daşıyır. Xüsusilə bank sektorunda bu mexanizmlər təkcə daxili idarəetməni deyil, həm də ümumi maliyyə bazarlarının etibarlılığını müəyyənləşdirir. Azərbaycan Respublikası da bu istiqamətdə beynəlxalq standartlara uyğunlaşmaq üçün bir sıra islahatlar həyata keçirmişdir. Burada ilk növbədə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən 2019-cu ildə "Banklarda korporativ idarəetmə Standartları"nın qəbul edilməsi qeyd edilməlidir. Standartlar "Banklar haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq, habelə Bank nəzarəti üzrə Bazel Komitəsinin "Korporativ idarəetmənin təkmilləşdirilməsi üzrə prinsiplər"i və

beynəlxalq korporativ idarəetmə təcrübəsi nəzərə alınmaqla hazırlanmış və banklarda korporativ idarəetmə standartlarını müəyyən edir. [1]

Qeyd etmək lazımdır ki, Bazel Komitəsinin korporativ idarəetmə ilə bağlı müəyyən etdiyi əsas prinsiplər aşağıdakllardır:

- Şəffaflıq və hesabatlılıq;
- İdarəetmədə məsuliyyətin bölüşdürülməsi;
- Risklərin düzgün idarə olunması;
- Maraq toqquşmalarının qarşısının alınması;
- Müstəqil audit və nəzarət mexanizmlərinin tətbiqi. [4]

Bu Standartların müəyyən edilməsində əsas məqsəd korporativ idarəetməyə dair qanunla müəyyən olunmuş tələbləri əsas tutaraq banklarda etibarlı, şəffaf idarəetmə və hesabatlıq sisteminin təşkili, daxili nəzarətin və risklərin idarə olunmasının effektivliyinin təmin edilməsidir.

Banklarda korporativ idarəetmə strateji baxışı əsasında onun strateji vəzifə və hədəflərinin müəyyən edilməsini, onlara nail olması üçün alət və proseslərin mövcudluğunu, bütün idarəetmə səviyyələrində dəqiq səlahiyyət bölgüsünü, habelə risklərin səmərəli idarə edilməsinə və fəaliyyətinin şəffaflığına nail olunması məqsədi ilə effektiv daxili nəzarət sisteminin tətbiqini təmin edən idarəetmə üsuludur.

Aparılan araşdırmalar göstərir ki, Azərbaycanın bank sektorunda korporativ idarəetmənin inkişafına mane olan əsas amillər aşağıdakılardır:

- Direktorlar şurasında müstəqil üzvlərin azlığı;
- İcraedici rəhbərlərlə nəzarət orqanları arasında vəzifə bölgüsünün qeyri-müəyyənliyi;
- Risk və audit komitələrinin zəif fəaliyyəti;
- Kadrların bu sahədə bilik və bacarıqlarının məhdudluğu.

Məlum olduğu kimi, inkişaf etmiş ölkələrdə (İngiltərə, Almaniya, ABŞ, Yaponiya, Cənubi Koreya və s.) bankların fəaliyyətində korporativ idarəetmə mədəniyyəti formalaşmışdır. Həmin ölkələrin təcrübəsinə əsaslanaraq Azərbaycanda da aşağıdakı tövsiyələrin tətbiqi məqsədəuyğundur:

- Bank idarə heyətində müstəqil və peşəkar üzvlərin iştirakının artırılması;
- Risk və nəzarət komitələrinin aktiv fəaliyyətinin təmin olunması;
- Daxili və xarici audit proseslərinin təkmilləşdirilməsi;
- Korporativ idarəetmə üzrə mütəmadi təlim və sertifikatlaşdırma proqramları. [3]

Azərbaycanın bank sektorunda korporativ idarəetmə sisteminin təkmilləşdirilməsi üçün aparılan islahatlar müsbət addım hesab edilməlidir. Məlum olduğu kimi, şəffaflıq, hesabatlılıq və risklərin düzgün idarə olunması sistemin effektivliyinin əsas göstəriciləridir. Bu səbəbdən, korporativ idarəetmənin gücləndirilməsi sektorun davamlı və etibarlı inkişafı üçün prioritet məsələ kimi daim diqqətdə saxlanılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Banklarda Korporativ İdarəetmə Standartları. Bakı. 2019

2. Орлов. Экономика и банковская система региона. Экономика. 2004. 302 с.

3. Basel Committee on Banking Supervision. Corporate governance principles for banks. Bank for International Settlements. 2015

4. OECD. G20/OECD Principles of Corporate Governance. OECD Publishing. 2020

ANALYSIS OF THE CURRENT STATE OF CORPORATE GOVERNANCE WITHIN AZERBAIJAN'S BANKING SECTOR

Natig Ali oglu Javadov
cavadov1958@mail.ru
Bahar Avaz gizi Mammadova
ebumamedov1@gmail.com
Azerbaijan Technological University

Although corporate governance in the Azerbaijani banking system has developed significantly in recent years, there are still shortcomings in terms of full compliance with international standards. The Azerbaijani banking sector is at a stage of dynamic development in terms of corporate governance, and more work needs to be done in areas such as proactive risk management and ensuring long-term sustainability.

Keywords: corporate governance, banking sector, transparency, risk management, internal control.

TƏHSİL SEKTORUNDA MALİYYƏ İDARƏETMƏSİNİN EFFEKTİVLİYİ VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

Mətanət İsrail qızı Əhmədova
matanat.axmedova74@gmail.com
İbrahim Ələkbər oğlu Ələkbərli
ibrahimalakbarli2@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Təhsil sahəsi bir ölkənin inkişafında mühüm rol oynayır və bu sahənin düzgün şəkildə idarə olunması onun keyfiyyətini və təsirini birbaşa artırır. Təhsil sektorunun maliyyə idarəetməsi bu sahənin uğurlu fəaliyyətinə təsir edən əsas amillərdən biridir. Maliyyə resurslarının düzgün və səmərəli idarə olunması, təhsil müəssisələrinin fəaliyyətini dəstəkləyərək həm təhsil keyfiyyətini, həm də iqtisadi effektivliyi yüksəldir. Bu məqalədə təhsil sahəsində maliyyə idarəetməsinin əsas prinsipləri, tətbiq sahələri və bunun təhsil siyasətinə təsiri araşdırılacaqdır [1].

Təhsil sahəsində maliyyə idarəetməsinin prinsipləri:

1. Büdcə hazırlığı: Təhsil müəssisələrinin büdcəsi, təhsil fəaliyyətlərinin maliyyələş-dirilməsində əsas vasitədir. Büdcənin düzgün şəkildə tərtib edilməsi, təhsil proqramlarının və xidmətlərinin maliyyə ehtiyaclarını nəzərə alaraq optimallaşdırılmasını təmin edir [5].
2. Maliyyə planlaşdırması: Maliyyə planlaşdırması, gələcək maliyyə ehtiyaclarını müəyyənləşdirərək, təhsil müəssisələrinin uzunmüddətli maliyyə strategiyalarını formalaşdırmağa kömək edir. Bu, təhsil sektorunda resursların səmərəli və məqsədyönlü şəkildə istifadəsini təmin edir [4].
3. Maliyyə nəzarəti və hesabatlıq: Maliyyə resurslarının istifadəsinin izlənməsi və qiymətləndirilməsi, şəffaflığın və hesabatlılığın təmin olunmasına yönəlir. Bu, təhsil müəssisələrində maliyyə idarəetməsinin səmərəliliyini artırır və resursların düzgün istifadəsini təmin edir [3].

Təhsil sahəsinin maliyyə idarəetməsi yalnız təhsil müəssisələrinin daxili məsələlərinə təsir göstərmir, həm də dövlətin təhsil siyasətinə birbaşa təsir edir. Dövlətin təhsil sahəsinə ayrılan maliyyə vəsaitlərinin düzgün bölüşdürülməsi, təhsil siyasətinin həyata keçirilməsində mühüm rol oynayır. Həmçinin, maliyyə resurslarının idarə edilməsi təhsil sektorunda islahatların həyata keçirilməsi üçün vacibdir [1, 5].

Məsələn, təhsil sistemində qeyri-bərabərliklər mövcud olduqda, dövlət maliyyə siyasətləri ilə bu bərabərsizliyin aradan qaldırılması üçün strategiyalar hazırlaya bilər. Bu, məktəblərin və universitetlərin maliyyə resurslarına bərabər və ədalətli yanaşmalarını təmin etməklə mümkün olur [2].

Maliyyə resurslarının səmərəli İstifadəsi çox önəmli məsələlərdəndir. Təhsil sahəsində maliyyə resurslarının səmərəli istifadəsi, təhsil keyfiyyətini artırmaq üçün əsas məqsədlərdən biridir. Resursların optimallaşdırılması və düzgün istiqamətləndirilməsi, təhsil müəssisələrinin fəaliyyətlərini dəstəkləyir və onların daha məhsuldar olmasına şərait yaradır. Bu, xüsusilə təhsil müəssisələrinin əşyalar və infrastruktura yatırımlarında, həmçinin müəllimlərin əmək haqqı və tədris proqramlarının maliyyələşdirilməsində özünü göstərir [1, 3].

Təhsil sahəsində maliyyə idarəetməsi, təhsil müəssisələrinin fəaliyyətini təmin edən və onların uğurlu fəaliyyətini şərtləndirən mühüm bir faktordur. Bu məqalədə araşdırılan məsələlər, təhsil sahəsində maliyyə idarəetməsinin vacibliyini vurğulamaqla yanaşı, maliyyə resurslarının səmərəli istifadə edilməsi üçün müxtəlif yanaşmaların tətbiqinə dair əsas təklifləri ortaya qoyur.

ƏDƏBİYYAT

1. Yılmaz B. Təhsil maliyyəsi və idarəetmə, Bakı: Təhsil nəşriyyatı, (2020). səh. 15-25, 45-60.
2. Məmmədov, İ. Təhsil sahəsində maliyyə idarəetməsinin əsas prinsipləri, Bakı: Elm və Təhsil, (2019). səh. 30-45, 70-85.
3. Şahin A. "Təhsil sektorunda büdcə planlaşdırma metodları", Təhsil İdarəetməsi Jurnalı, 15(2), (2021). səh. 35-40.
4. Həsənov R. Maliyyə nəzarəti və hesabatlılıq: Təhsil sahəsində tətbiq, Bakı: İqtisadiyyat və Təhsil, (2018). səh. 20-35, 50-65.
5. Moos L., & Petersen S. "Financial Management in Education: Global Perspectives", Journal of Educational Administration, (2017). səh. 320-325.

EFFECTIVENESS AND DEVELOPMENT PERSPECTIVES OF FINANCIAL MANAGEMENT IN THE EDUCATION SECTOR

Matanat Israil gizi Ahmadova
matanat.axmedova74@gmail.com
İbrahim Alakbar oglu Alakbarli
ibrahimalakbarli2@gmail.com
Azerbaijan Technological University

The education sector plays a crucial role in the development of a country, and the proper management of this sector directly enhances its quality and impact. The proper and efficient management of financial resources supports the activities of educational institutions, improving both the quality of education and economic effectiveness.

Keywords: education, finance, budget, reporting, enterprise.

DÖVLƏTLƏRİN "RƏQƏMSAL SUVERENLİK" UĞRUNDA MÜBARİZƏSİ

Taleh Tahir oğlu Abbasov
talehabbasov805@gmail.com
Gündüz İncivan Abdullayev
gunduzabdullayev47@gmail.com
İlahə Rafiq qızı Ağaməmmədova
ilahedaglar@gmail.com
Azərbaycan Texnologiya Universiteti

XXI əsr rəqəmsal texnologiyaların yüksəldiyi və dövlətlərin suverenlik haqqında klassik anlayışlarını yenidən müəyyənləşdirdiyi bir dövr olmuşdur. Rəqəmsal sahə indi yalnız iqtisadi deyil, həm də siyasi və hərbi strategiyaların mərkəzindədir. Bu kontekstdə "rəqəmsal suverenlik" dövlətin kiberməkanda mövcudluğunu qorumaq, məlumatların təhlükəsizliyini təmin etmək və xarici müdaxilələrə qarşı mübarizəsini inkişaf etdirmək qabiliyyətinə aiddir. [1]

Rəqəmsal suverenlik - dövlətin rəqəmsal infrastruktur, məlumat axını, kibertəhlükəsizlik və rəqəmsal tənzimləmə kimi elementlərə tam nəzarət etməsidir. Bu suverenlik yalnız internet üzərində nəzarəti deyil, həm də bütün kritik infrastrukturları rəqəmsal təhlükələrdən qorumaq üçün dövlətin məsuliyyətini də əhatə etməkdədir.

Qlobal miqyasda kibertəhlükələrin, kəşfiyyat fəaliyyətlərinin, məlumatların oğurlanmasının və rəqəmsal casusluq hadisələrinin artması bu gün rəqəmsal suverenliyi milli təhlükəsizlik məsələsinə çevirmişdir. Bu səbəbdən də ölkələr rəqəmsal məkana nəzarəti strateji silah kimi istifadə edirlər. [2]

Çin ""Great Firewall " siyasəti ilə rəqəmsal sahəyə ciddi nəzarət həyata keçirir. Ölkəyə yalnız Çin əsaslı sosial şəbəkələr və rəqəmsal xidmətlərə icazə verilir. Xarici şirkətlərin fəaliyyətinə isə ciddi nəzarət vardır. Çinin məqsədi xarici müdaxilələrə qarşı rəqəmsal sahəyə tam nəzarət etməkdir. [3]

Rusiya özünün "suveren internet" layihəsi ilə öz rəqəmsal infrastrukturunu xarici asılılıq olmadan idarə etməyi hədəfləyir. Müstəqil DNS sistemi, yerli proqram təminatının inkişafı və məlumat trafikinə nəzarət kimi üsullarla ölkə daxilində rəqəmsal suverenliyi gücləndirir. Eyni zamanda, bu prosesin mərkəzində müdafiə və kəşfiyyat qurumları dayanır. [3]

Avroba Birliyi məlumatların qorunması və istifadəçi hüquqlarına diqqət yetirərək rəqəmsal suverenliyini gücləndirməyə çalışmaqdadır. GDPR (Məlumatların Ümumi Mühafizəsi Reqlamenti) ilə fərdlərin öz rəqəmsal məlumatları üzərində hüquqları qanuni olaraq təmin edilib və şirkətlərin bu məlumatlara çıxışına nəzarət edilib. Bundan əlavə, Avropa Bulud Strategiyası ilə məlumat infrastrukturunu müstəqil etmək üçün çalışır. [3]

ABŞ bu sahədə texnologiya nəhəngləri və güclü kibertəhlükəsizlik infrastrukturu ilə qlobal rəqəmsal məkanın lideridir. Milli Təhlükəsizlik Agentliyi (NSA), Kiber Komandanlıq (USCYBERCOM) və FBİ kimi təşkilatlar həm ölkə daxilində, həm də beynəlxalq səviyyədə rəqəmsal təhlükələrə qarşı kəşfiyyat məlumatları toplayır. ABŞ rəqəmsal sferanı da müdafiə xətti hesab etməkdədir. [3]

Azərbaycanın rəqamsal suverenlik və müdafiə siyasəti. [4]

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycanın rəqəmsal infrastrukturunun yaradılması və kibertəhlükəsizlik strategiyalarının istiqamətləndirilməsi vəzifəsini icra edən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirliyin məqsədi ölkədə rəqəmsallaşdırmanın və innovasiyaların tətbiqinin genişləndirilməsi, radiospektr idarəçiliyinin, rabitə və informasiya texnologiyalarının inkişafının, tənzimləmə mexanizmlərinin təkmilləşdirilməsi və sağlam rəqabət mühitinin formalaşdırılmasından ibarətdir.

Xüsusi Rabitə və İnformasiyaTəhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarının informasiya təhlükəsizliyinin təmin edilməsinə cavabdehdir. Kiberhücumlardan müdafiə sistemlərinin yaradılması və kritik infrastrukturun rəqəmsal müdafiəsi onun əsas vəzifələrindəndir. Qurumun tabeliyində fəaliyyət göstərən CERT.AZ (Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzi) kibertəhlükələrə qarşı cavab mexanizmi kimi fəaliyyət göstərir. O, milli kritik infrastrukturlarda baş verən kiberhücumlara qarşı texniki təhlillər aparır, insidentlərə dərhal reaksiya verir və beynəlxalq məlumat mübadiləsi şəbəkələrində iştirak edir.

Dövlət Təhlükəsizliyi Xidməti isə yalnız klassik təhdidlərlə deyil, həm də kibercasusluq, rəqəmsal təxribat və xarici informasiya əməliyyatları ilə mübarizə aparan ən mühüm qurumlardan biridir. DTX dövlətin strateji informasiya infrastrukturlarını qorumaqla yanaşı, həm də ölkə daxilində kibertəhlükələri aşkar etmək və zərərsizləşdirmək imkanlarına malikdir. DTX rəqəmsal məzmunun, xüsusən də xarici mənşəli məzmunun dövlət təhlükəsizliyinə təsirini təhlil edir və lazım gəldikdə qabaqlayıcı müdaxilələr edir.

Daxili İşlər Nazirliyi də rəqəmsal cinayətlərə qarşı mübarizədə mühüm aktordur. Nazirliyin nəzdində fəaliyyət göstərən Kibercinayətkarlıqla Mübarizə Baş İdarəsi rəqəmsal fırıldaqçılıq, məlumat oğurluğu və qeyri-qanuni rəqəmsal məzmun dərci kimi sahələrdə fəaliyyət göstərir. Eyni zamanda sosial mediada həyata keçirilən təxribat xarakterli və istiqamətləndirici fəaliyyətlər də bu bölmə tərəfindən izlənilir və nəzarət edilir.

Bu qurumlar arasında əlaqələndirilmiş iş və beynəlxalq kibertəhlükəsizlik platformalarında iştirak Azərbaycanın rəqəmsal suverenliyini müdafiə etmək imkanlarını artırır.

Rəqəmsal suverenlik müasir dövrdə həm iqtisadi, həm də milli təhlükəsizlik üçün zəruridir. Kiber müharibənin artdığı bir dövrdə, rəqəmsal sistemlərlə ölkənin bütün infrastrukturuna nəzarət onu düşmən elementlərin hədəfinə qarşı həssas edir. Ona görə də Azərbaycanın müdafiə strategiyalarının təməl daşlarından biri kibermüdafiə və rəqəmsal nəzarət olmalıdır. Azərbaycanın bu sahədə inkişaf etməsi üçün: [5]

- Yerli proqram və avadanlıq istehsalı təşviq edilməlidir;
- Universitetlər və təhlükəsizlik qurumları arasında əməkdaşlıq qurulmalıdır;
- Kritik infrastrukturlar (enerji, nəqliyyat, maliyyə) kiberhücumlardan qorunmalıdır.

Rəqəmsal suverenlik yalnız texnologiya məsələsi deyil həm də müstəqillik və təhlükəsizlik məsələsidir. Çin, Rusiya, Avropa İttifaqı və ABŞ güclər rəqəmsal suverenlik üçün strateji sərmayələr qoyur və bu sahəni "kiber döyüş meydanı" hesab edir. Azərbaycan son illərdə dövlət qurumları vasitəsilə rəqəmsal təhlükələrə qarşı müdafiə mexanizmləri quraraq bu prosesə mühüm töhfələr verməkdədir. Lakin prosesin uğurlu olması üçün vətəndaş cəmiyyəti, dövlət və özəl sektor arasında güclü əməkdaşlıq vacibdir. Rəqəmsal sferada suverenlik XXI əsrdə real suverenliyin ən fundamental göstəricilərindən birinə çevrilmişdir.

ƏDƏBİYYAT

1. Zittrain J. The Future of the Internet — And How to Stop It. Yale University Press. 2008
2. Tikk E. (Red.) International Cyber Norms: Legal, Policy & Industry Perspectives. NATO CCDCOE Publications. 2017
3. Zuboff S. The Age of Surveillance Capitalism: The Fight for a Human Future at the New Frontier of Power. PublicAffairs. 2019
4. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023–2027-ci illər üçün Strategiyası. 2023
5. İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyası. Strategiya haqqında. 2023

THE STRUGGLE OF STATES FOR "DIGITAL SOVEREIGNTY"

Taleh Tahir oglu Abbasov
talehabbasov805@gmail.com
Gunduz Injivan Abdullayev
gunduzabdullayev47@gmail.com
Ilaha Rafig gizi Agamammadova
ilahedaglar@gmail.com
Azerbaijan Technological University

Digital sovereignty is essential for both economic and national security in the modern era. In an era of increasing cyber warfare, controlling a country's entire infrastructure with digital systems makes it vulnerable to targeting by hostile elements.

Keywords: cyber, security, defence, communication, information.

BƏLƏDİYYƏLƏRİN İDARƏETMƏDƏ ROLU

Aybəniz Məhəmməd qız Allahverdiyeva
a.allahverdiyeva@atu.edu.az
Günay Zahid qızı Həsənova
hesenovagulay118@gmail.com
Vüqar Yavər oğlu Paşayev
v.pashayev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Bələdiyyə, yerli idarəetmə strukturlarının ən vacib hissələrindən biridir və şəhər, kənd və qəsəbə kimi yerli ərazilərdə sakinlərin gündəlik həyatını yaxşılaşdırmaq və cəmiyyətin inkişafını təmin etmək məqsədilə müxtəlif xidmətlər göstərir. Bələdiyyənin idarəetmədəki rolu çoxşaxəlidir və bir çox sahələri əhatə edir. Aşağıda bələdiyyənin idarəetmədəki əsas funksiyaları və rolu təqdim olunur: [5]

Yerli İdarəetmə və Qərarvermə. Bələdiyyə, yerli ərazidə yaşayan insanların gündəlik həyatını təşkil edən bir qurumdur. O, əhalinin ehtiyaclarına uyğun xidmətlər təklif edir və bu xidmətlər barədə qərarlar verir. Məsələn, ərazinin inkişafı, infrastruktur layihələri, təhsil və səhiyyə xidmətləri ilə bağlı qərarlar bələdiyyə tərəfindən qəbul edilir. Bu qərarların təsiri birbaşa yerli əhali üzərində olur. [5]

İnfrastrukturun İnkişafı və Qorunması. Bələdiyyələr, yerli infrastruktura nəzarət edir və onu inkişaf etdirir. Buna yolların çəkilməsi, su təchizatı, kanalizasiya sistemləri, zibillərin yığılması və s. daxildir. Bu fəaliyyətlər şəhərin və ya kəndin inkişafını, həyat keyfiyyətini və ətraf mühitin qorunmasını təmin edir. İncəsənət və mədəniyyət mərkəzlərinin yaradılması da bələdiyyənin infrastruktur layihələrinə daxil ola bilər.

Sosial Xidmətlər və Təhsil. Bələdiyyələr, sosial xidmətlər sahəsində mühüm rola malikdir. Bu, yaşlılar, uşaqlar, əlillər və digər xüsusi ehtiyacları olan insanlar üçün təklif olunan xidmətlərdir. Bələdiyyələr həmçinin yerli təhsil müəssisələrini də idarə edə bilər, məktəblərin və uşaq bağçalarının vəziyyətinə nəzarət edir və bu sahədəki islahatların həyata keçirilməsinə dəstək verir.

Səhiyyə və Sosial Rifah. Bələdiyyələr, yerli səhiyyə xidmətlərinin təşkili və təmin olunmasında əhəmiyyətli rol oynayır. Bu, xəstəxanaların, poliklinikaların, dərman təminatının yaxşılaşdırılması və sağlamlıqla bağlı maarifləndirmə işlərinin aparılmasını əhatə edir. Eyni zamanda, sosial rifah proqramları, müharibə veteranlarına, aztəminatlı ailələrə və digər ehtiyacı olan insanlara yardım göstərmək də bələdiyyənin işinə daxildir.

Mədəniyyət və İdman. Bələdiyyələr mədəniyyət və idman sahəsində də fəaliyyət göstərir. Yerli incəsənət və mədəniyyət tədbirləri, muzeylər, kitabxanalar, teatrlar və idman fəaliyyətləri belediyyənin təşkil etdiyi fəaliyyətlər arasında yer alır. Bu cür fəaliyyətlər insanların mədəni inkişafına və sağlam həyat tərzi sürmələrinə şərait yaradır.

Ətraf Mühitin Qorunması. Bələdiyyələr ətraf mühitin qorunmasına da cavabdehdir. Bu, təbii sərvətlərin qorunması, yaşıl sahələrin artırılması, hava və su keyfiyyətinin yaxşılaşdırılması, təkrar emal və tullantıların düzgün idarə edilməsi məsələlərini əhatə edir.

Əhalinin Təhlükəsizliyi. Bələdiyyələr həmçinin yerli təhlükəsizlik məsələlərinə də nəzarət edirlər. Bu, polis və yanğınsöndürən xidmətlərinin yerli səviyyədə idarə olunmasını və sakinlərin təhlükəsizliyinin təmin olunmasını əhatə edir. Bələdiyyə, həmçinin fövqəladə vəziyyətlərdə, təbii fəlakətlər zamanı yerli cəmiyyətin dəstəklənməsi işini də təşkil edir.

İqtisadi İnkişaf və Yerli İqtisadiyyat. Bələdiyyələr yerli iqtisadiyyatın inkişafına dəstək verə bilər. Bu, yerli iş yerlərinin yaradılması, biznеslərə dəstək verilməsi, turizm potensialının artırılması və iqtisadi infrastrukturun inkişafı kimi sahələri əhatə edir. Bələdiyyə həmçinin yerli vergi və büdcə siyasətini də müəyyən edir, bu da yerli iqtisadiyyatın möhkəmlənməsinə kömək edir. [3]

Bələdiyyə idarəetməsi, cəmiyyətin gündəlik fəaliyyətlərini təşkil edən, əhalinin həyat keyfiyyətini artıran və yerli inkişafı təşviq edən mühüm bir sistemdir. Bələdiyyələrin effektiv

idarə olunması, şaffaflıq, məsuliyyət və yerli xalqın ehtiyaclarına uyğun xidmətlərin təqdim edilməsi bu sistemin uğurlu olması üçün vacibdir. Həmçinin, yerli idarəetmənin gücləndirilməsi, daha demokratik və inkluziv bir cəmiyyətin qurulmasına təkan verir. Bələdiyyələrin idarəetmədəki rolunu daha ətraflı başa düşmək üçün əlavə bəzi aspektləri nəzərdən keçirmək faydalı ola bilər. Bələdiyyələr yalnız ərazilərindəki vətəndaşların sosial rifahını təmin etməklə kifayətlənmirlər; onlar həmçinin cəmiyyətin digər aspektlərinə də təsir göstərirlər. Bu mövzulara dair əlavə məlumatlar aşağıdakılardır: Bələdiyyələr, yerli ərazilərdə şəhərsalma və torpaq istifadəsi planlarını hazırlayaraq yerli infrastrukturun inkişafını təmin edirlər. Bu, binaların tikintisi, yol şəbəkələrinin yaradılması, yaşıl sahələrin və parklərin planlaşdırılması kimi fəaliyyətləri əhatə edir. Şəhərsalma prosesində bələdiyyələr həmçinin ətraf mühitin qorunması və sosial təsirlərin nəzərə alınması məsələlərinə diqqət yetirirlər. Bu, daha dayanıqlı və balanslı şəhər inkişafına şərait yaradır. Bələdiyyələr, müasir dövrdə texnologiyanın inkişafını yerli idarəetməyə tətbiq edirlər. Bələdiyyələr əhalinin xidmətlərdən daha səmərəli istifadə etməsi üçün rəqəmsal platformalar və onlayn xidmətlər təklif edirlər. Məsələn, onlayn rəy sorğuları, rəqəmsal xidmətlərin təqdim edilməsi, əhalinin ehtiyaclarının qiymətləndirilməsi və şəhər problemlərinin həlli üçün texnologiyalardan istifadə olunur. Bu, bələdiyyələrin işini daha şəffaf və effektiv edir. Bələdiyyələr cəmiyyəti idarəetmə proseslərinə daxil etməyə çalışırlar. Bunun üçün müxtəlif forumlar, yerli şuralar, sorğular və ictimai müzakirələr təşkil edirlər. Bu, yalnız bələdiyyə rəhbərlərinə yerli əhalinin ehtiyaclarını düzgün anlamağa deyil, həm də yerli inkişaf layihələrinə dair qərarların qəbul edilməsinə əhalinin daha çox təsir etməsini təmin edir. İctimai iştirak, həmçinin yerli problemlərin daha sürətli həllinə kömək edir. Bələdiyyələr yalnız sosial xidmətləri deyil, həm də yerli təhlükəsizliyi təmin etməkdə mühüm rol oynayır. Yerli polis qüvvələri, yanğınsöndürmə və təcili yardım xidmətləri yerli bələdiyyə orqanları tərəfindən idarə olunur. Bələdiyyə həmçinin yerli qanunvericiliyi tənzimləyir, məsələn, parklarda və ictimai sahələrdə davranış qaydaları, ictimai təhlükəsizlik tədbirləri və s. Bu, cəmiyyətin ümumi rifahına müsbət təsir göstərir. Bələdiyyələr yerli qanunları tətbiq etmək və yerli səviyyədə hüquqi tənzimləmələr həyata keçirmək səlahiyyətinə malikdir. Bu, müxtəlif yerli qanunların, o cümlədən tikinti, ətraf mühitin qorunması və təhlükəsizliklə bağlı qaydaların tənzimlənməsi ilə bağlıdır. Eyni zamanda, yerli məhkəmələr və hüquq mühafizə orqanları ilə əməkdaşlıq edərək, hüquqi məsələlərin həllinə dəstək verirlər. [1]

Bələdiyyələr, təhsil sahəsində də mühüm rol oynayır. Yerli məktəblərin idarə olunması, müəllimlərin işə qəbul edilməsi, məktəblərdə şəraitin yaxşılaşdırılması və təhsil proqramlarının təşkil edilməsi bələdiyyələrin məsuliyyətinə daxildir. Həmçinin, gənclərə yönəlmiş sosial və idman proqramlarının həyata keçirilməsi, gənclər mərkəzlərinin qurulması və onların sosial həyatda aktiv iştirakını təmin etmək məqsədilə layihələr təşkil edilə bilər. Bələdiyyələr, çoxmədəniyyətli və çoxdini cəmiyyətlərin inteqrasiyasına töhfə verirlər. Cəmiyyətdə müxtəlif etnik və dini qrupların bir arada yaşamasını dəstəkləmək, onların mədəniyyətlərinə hörmət etmək və bu qrupların sosial həyatda bərabər imkanlardan istifadə etmələrini təmin etmək məqsədilə tədbirlər təşkil edirlər. Bu, sosial harmoniyanın təmin olunmasına və mədəni müxtəlifliyin zənginləşdirilməsinə kömək edir. Bələdiyyələr yerli iqtisadiyyatın inkişafını təmin etmək üçün yerli və xarici sərmayələri cəlb etməyə çalışırlar. Bu, xüsusilə yerli biznes mühitinin gücləndirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi və turizm sektorunun inkişafı ilə əlaqədardır. Bələdiyyələr həmçinin yerli infrastruktur layihələri və sosial layihələr üçün sərmayə yatırımlarını təşviq edir. Bələdiyyələr müasir idarəetmə alətlərindən və ən yaxşı təcrübələrdən istifadə etməyə çalışırlar. Bu, müvafiq hüquq və normativ sənədlərin hazırlanması, idarəetmə sistemlərinin optimallaşdırılması, vətəndaşların xidmətlərdən istifadəsini asanlaşdıran yenilikçi platformaların tətbiqi ilə həyata keçirilir. Effektiv idarəetmə, bələdiyyənin daha şəffaf və nəticə yönümlü fəaliyyət göstərməsinə kömək edir. [5]

Bələdiyyələr yerli idarəetmədə əhəmiyyətli bir rol oynayır və yalnız gündəlik xidmətlər

deyil, həm də cəmiyyətin uzunmüddətli inkişafı üçün mühüm strateji qərarların qəbul edilməsində iştirak edirlər. Onlar yalnız yerli problemlərin həllinə deyil, həm də iqtisadi, social və mədəni inkişafın təmin olunmasına xidmət edirlər. Bələdiyyələr, effektiv və şəffaf idarəetmə ilə cəmiyyəti daha dayanıqlı və bərabər imkanlarla təmin etməyə çalışırlar. [4]

ƏDƏBİYYAT

1. Kərimova G. Mərkəzi idarəetmə orqanları ilə bələdiyyələrin qarşılıqlı münasibətləri. Bakı: UNEC Nəşriyyatı, 2022.
2. Orucova S. Azərbaycan Respublikasında bələdiyyələrin birləşməsi və yeni bələdiyyələrin yaradılması. Bakı: UNEC Nəşriyyatı, 2022.
3. Yusifov S. Yerli özünüidarəetmə: Hüquqi və maliyyə əsasları. Bakı: ResearchGate Nəşriyyatı, 2017.
4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Bələdiyyələr üçün strateji planlaşdırma. Bakı: Ədliyyə Nazirliyi Nəşriyyatı, 2014.
5. OSCE. Bələdiyyə xidmətlərinin inkişafı üçün ehtiyacların dəyərləndirilməsi. Bakı: ATƏT Nəşriyyatı, 2005.
6. Əsgərov Z. A. Konstitusiya hüququ: dərslik. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011.
7. Qurbanov H.S., Balakişiyeva Y.N., Hacıyeva S.Q. Azərbaycanın bələdiyyə hüququ: dərs vəsaiti, Bakı: Təknur MMC, 2011.

ROLE OF MUNICIPALITIES IN GOVERNANCE

Aybeniz Mahammad gizi Allahverdiyeva
a.allahverdiyeva@atu.edu.az
Gunay Zahid gizi Hasanova
hesenovagulay118@gmail.com
Vugar Yavar oglu Pashayev
v.pashayev@atu.edu.az
Azerbaijan Technological University

Municipalities play an important role in local governance and participate not only in providing daily services but also in making crucial strategic decisions for the long-term development of society.

Keywords: municipality, governance, local self-governance, economy.

İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİNİN BƏZİ İSTİQAMƏTLƏRİ

Rizvan Hacı oğlu Məcidov
r.mecidov@atu.edu.az
Rühəngiz Rauf qızı Mustafayeva
rhngiz70@mail.ru
Azərbaycan Texnologiya Universiteti

İnsan resurslarının (İR) idarə edilməsi hər bir şirkətin uğurunu təmin edən və onun inkişaf etdirən mühüm sahələrdən biridir. İR-ın təkmilləşdirilməsi müasir biznes mühitində firmanın rəqabətə davamlılığı və dayanıqlı uğur qazanması, bazarda yetərli mövqe tutması üçün mühüm əhəmiyyət kəsb edir. Bu proses şirkətin strateji məqsədlərinə çatması, insan kapitalının səmərəli idarə edilməsi, inkişafı, işçi məmnuniyyəti motivasiyanın yüksəldilməsi elementlərini özündə ehtiva edir. İR-in idarə edilməsinin təkmilləşdirilməsi istiqamətləri çox şaxəli olmaqla aşağıdakı yanaşmalardan ibarətdir:

Strateji baxımdan uyğunluq istiqaməti üzrə konsepsiya, İR strategiyası ilə şirkətin ümumi biznes strategiyasının tam şəkildə uyğunlaşmasının labüdlüyünü ehtiva edir. Bu şirkətin biznes strategiyası ilə İR strategiyasının əlaqələndirilməsində özünü göstərir. Biznes strategiyası şirkətin davamlı və dayanıqlı uğuru üçün bazarda mövqe tutması ilə bağlı qərarlardan və proseslərdən ibarətdir. İR strategiyası isə firmanın insanları necə idarə etməsi ilə bağlı qərar və seçimlərdən ibarətdir.

Resurs əsaslı nəzəriyyəyə görə şirkətin rəqabət üstünlüyü, onun dəyərli, nadir, təqlid edilməsi çətin və təklif edilmiş resurslarına əsaslanır. Məhz insan kapitalı da, bu resurslardan biri hesab olunur. Müasir idarəetmə nəzəriyyəsi, insan kapitalının şirkətin ən dəyərli aktiv olduğunu qəbul edir. Bu baxımdan insan resursları strategiyası işçilərin bacarıqlarının biliklərinin, potensialının və motivasiyanın artırılmasına yönəldilməlidir.

İR idarə edilməsinin təkmilləşdirilməsi istiqamətlərindən biri işçi seçimi və qəbulu prosesidir. Bu istiqamət şirkətin uğuru üçün əhəmiyyətli olmaqla bərabər, həm də proseslərin optimallaşdırılmasına dair elmi prinsiplərə və müasir metodologiyalara əsaslanır.

İş analizi və tələblərin müəyyən edilməsi prinsipi vasitəsilə iş ətraflı şəkildə təhlil edilməli, hər bir vəzifənin tələbləri, məsuliyyətləri və zəruri bacarıqları dəqiq şəkildə müəyyənləşdirilməlidir. İş tələblərinə uyğun olaraq, namizədlərdə axtarılan səriştələrin (bilik, bacarıq, qabiliyyət) modeli yaratmaq, namizəd axtarışı və seçimi üçün müxtəlif səbəbdən axtarış kanalları vasitəsilə iş elanlarını ayrı-ayrı platformalarda (onlayn iş saytları, sosial media, universitetlər, sənaye assosiyasiyaları və s.) yerləşdirmək lazım gəlir.

Namizədlərin səriştələrini və uyğunluğunu qiymətləndirmək üçün, həm də strukturlaşdırılmış müsahibə suallarından, onların şəxsi xüsusiyyətlərini, qabiliyyətlərini və potensialını qiymətləndirmək üçün etibarlı psixometrik testlərdən istifadə etmək labüddür.

İR idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri rəqamsal İR texnologiyalarının tətdiqidir. Bu istiqamət müasir biznes təşkilatlarının İR idarəetməsində effektivliyi artırmaq üçün ifadə etdiyi əsas strategiyalardan biridir. Rəqəmsal texnologiyalar İR proseslərini avtomatlaşdıraraq və optimallaşdıraraq, təşkilatlara rəqabət üstünlüyü qazanmağa kömək edir.

Rəqəmsal İR texnologiyalarının tətbiqi aşağıdakı əsas prinsiplərə əsaslanır:

İR idarəetmə sistemlərinin tətbiqi. İR proseslərini avtomatlaşdıraraq məlumatların mərkəzləşdirilməsini və təhlilini asanlaşdırır; suni intellekt və maşın öyrənilməsi; işə qəbul proseslərini optimallaşdırmaq; fərdi inkişaf planları hazırlamaq və digər İR fəaliyyətlərini təkmilləşdirmək üçün istifadə olunur, həmdə İR mütəxəssislərinə daha dəqiq və obyektiv qərarlar qəbul etməyə kömək edir.

Rəqəmsal İR texnologiyalarının tətbiqi işə qəbul prosesini sürətləndirir, xərcləri azaldır və ən uyğun namizədləri tapmağa yardımçı olur. Qeyd edilən prinsiplərə əməl etməklə şirkətlər maksimum fayda əldə edə, İR proseslərini optimallaşdıra və rəqabət üstünlüyü qazana bilərlər.

İRİE-nin təkmilləşdirilməsində təlim və inkişafın gücləndirilməsi istiqaməti müasir təşkilatların dayanıqlı inkişafı və rəqabətqabiliyyətliliyin təmin olunmasında mühüm rol oynayır. Bu konsepsiya əməkdaşların bilik, bacarıq və peşəkar kompetensiyalarının sistemli şəkildə artırılmasına, eləcədə onların dəyişən biznes ehtiyaclarına çevik şəkildə adaptasiya olmasına xidmət edir. Təlim və inkişaf fəaliyyətləri yalnız texniki bacarıqların artırılması deyil, həm də, strateji düşünmə, çevik qərarvermə və liderlik kimi yumşaq bacarıqların inkişaf etdirilməsi baxımından əhəmiyyətlidir.

Təlim və inkişaf proqramlarının təsirli olması üçün onlar sistemli yanaşma əsasında hazırlanmalıdır. Bu, əməkdaşların mövcud bacarıqlarının qiymətləndirilməsi, bilik boşluqlarının müəyyən edilməsi və konkret ehtiyaclara uyğun təlim məzmununun tərtib olunması mərhələlərini əhatə edir. Belə sistemli yanaşma, təlim resurslarının daha səmərəli istifadəsinə, nəticələrin ölçülə bilməsinə və əldə edilən biliklərin real iş mühitində tətbiqinə şərait yaradır. Təlim imkanlarının yaradılması əməkdaşlara dəyər verildiyini göstərir və onların təşkilata bağlılığını artırır.

Müasir təşkilatların təlim və inkişaf strategiyalarında liderlik bacarıqlarının inkişafı xüsusi yer tutur. Gənc və perspektivli əməkdaşların gələcək liderlərə çevrilməsi üçün mentorluq proqramları, liderlik akademiyaları və rotasiya əsaslı inkişaf layihələri həyata keçirilə bilər. Bu təşkilatın uzunmüddətli kadr ehtiyaclarının qarşılamasına da xidmət edir.

İR-in təkmilləşdirilməsi istiqamətləri arasında performansının idarə edilməsi mühüm

yer tutur. Bu istiqamət şirkətin strateji məqsədləri ilə fərdi və komanda səviyyəsində işçi fəaliyyətinin uyğunlaşmasına, motivasiyanın artırılması və səmərəliliyin yüksəldilməsinə yönəlmiş sistematik yanaşmadır. Performansın idarə edilməsi işçilərin fəaliyyətinin planlaşdırılması, izlənilməsi, qiymətləndirilməsi və inkişaf etdirilməsi prosesindən ibarətdir. Bu konsepsiya üzrə əsas məqsəd işçilərin fəaliyyətlərinin təşkilatın ümumi sratategiyası ilə uzlaşdırmaqdan, səmərəli iş mühitini yaratmaqdan, davamlı inkişaf və öyrənmə imkanını yüksək səviyyədən təmin etməkdən, ədalətli və obyektiv qiymətləndirmə sistemi vasitəsilə işçilərim məmuniyyətlərini artırmaqüdan ibarətdir.

Performansın qiymətləndirilməsinin əsas yanaşmaları bunlardır: kəmiyyət və keyfiyyət göstəricilərinə əsaslanan, KPİ, SMART və 360 dərəcədə qiymətləndirmələr. Performansın qiymətləndirilməsi kəmiyyət (məsələn, satış həcmi, istehsal göstəriciləri, layihələrin icra müddəti) və keyfiyyət (işçinin innovativliyi, liderlik qabiliyyəti, komanda işinə uyğunluğu) aspektlərdən yanaşmaqla aparılır.

KPİ performansının obyektiv ölçülməsini təmin edən statistik və analitik göstəricilər toplusudur. KPİ-lərin tətbiqi zamanı müəyyənlik, ölçülə bilənlik, uyğunluq, reallıq, zaman çərçivəsi kimi xüsusiyyətlər mütləq nəzərə alınmalıdır. İnsan resursları KPİ-ləri işçi dövriyyəsi səviyyəsi, işə qəbul müddəti, işçi məmuniyyəti dərəcəsi və s. ibarətdir.

SMART metodologiyası məqsədlərin effektiv qurulması üçün istifadə olunan bir yanaşmadır. Məsələn, adi məqsəd "Müştəri xidmətimizi yaxşılaşdıracağıq" SMART məqsədi: Gələn 6 ay ərzində müştəri məmuniyyətini 85% -ə çatdıracağıq.

360 dərəcə qiymətləndirmə bir fərdin performansını müxtəlif mənbələrdən - həmkarlardan, rəhbərlər, tabeçilikdə olan işçilər və bəzən müştərilərdən alınan rəy əsasında qiymətləndirilən bir metodologiyadır. İR idarə edilməsinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri də İR strateji planlaşdırılmasıdır. Bu istiqamət şirkətin uzunmüddətli məqsədlərinə uyğun olaraq insan kapitalının idarə olunmasını təmin edən sistemli və məqsədyönlü bir prosesdir.

Belə konseptual yanaşma təşkilatın missiyası, vizyonu və biznes strategiyası ilə İR idarəçiliyini uzlaşdıraraq, işçi qüvvəsinin effektiv istifadəsini və davamlı inkişafını təmin edir. Bu proses müasir texnologiyaların tətbiqi, analitik məlumatların istifadəsi və çevik idarəetmə yanaşmalarının inteqrasiyası vasitəsilə daha səmərəli şəkildə həyata keçirilir.

İR-in strateji planlaşdırılması əsasən işçi qüvvəsinə olan tələbatın müəyyən edilməsi, istedadların cəlb edilməsi və inkişafı, performansının idarə olunması, işçi motivasiyası və təşkilatı mədəniyyətin formalaşdırılması kimi sahələri əhatə edir.

Strateji planlaşdırmanın əsas məqsədi təşkilatın dəyişən biznes mühitinə tam uyğunlaşmasını təmin etmək, istedadlı, bacarıqlı işçiləri cəlb etmək və saxlamaq, eyni zamanda onların potensialını maksimum dərəcədə inkişaf etdirməkdir. Şübhəsiz ki, bu yanaşma yalnız cari ehtiyatları qarşılamaqla kifayətlənmir, həm də gələcəkdə təşkilatın dayanıqlı və rəqabətqabiliyyətli olmasını təmin edir. Qeyd edilənlər onu deməyə əsas verir ki, İR strateji planlaşdırılması təşkilatın insan kapitalından səmərəli istifadə etməklə uzunmüddətli uğur qazanmasını təmin edən mühüm idarəetmə vasitəsidir.

Beləliklə, qeyd etdiklərimizdən belə nəticəyə gəlmək olar ki, İR-ın təkmilləşdirilməsi yalnız təşkilati uğuru təmin edən bir vasitə deyil, eyni zamanda insan kapitalının daha səmərəli idarə edilməsini təmin edən strateji bir yanaşmadır.

ƏDƏBİYYAT

1. Ueyn F Kassio. İnsan resurslarının idarə edilməsi. TEAS Pres nəşriyyat evi, 2020 – 735 s.
2. Армстронг М., Тейлор С. Практика управления человеческими ресурсами. // 14-е изд. с. https://www.piter.com/collection/menedzhment/product/praktika-upravleniya-chelovecheskimi-resursami-14-e-izd.
3. Дудин М.Н., Лясников Н.В., Сенин А.С., Сепиашвили Е. Н., Сидоренко В.Н., Толмачев О.М. Управление человеческими ресурсами. // Учебно-методическое пособие. М.: Издательство «Элит», 2016 - 349 с.

SOME DIRECTIONS FOR THE IMPROVEMENT OF HUMAN RESOURCE MANAGEMENT

Rizvan Haji oglu Majidov
r.mecidov@atu.edu.az
Ruhangiz Rauf gizi Mustafayeva
rhniz70@mail.ru
Azerbaijan Technological University

Human resource development is a key determinant of corporate competitiveness and sustainable growth. This study examines core HRM components—recruitment, digitalization, training, performance management, and strategic planning—emphasizing their role in optimizing human capital and enhancing organizational resilience.

Keywords: Human resource, training, digitalization

MALİYYƏ TEXNOLOGİYALARININ AZƏRBAYCANIN MALİYYƏ SİSTEMİNİN İNKİŞAFINDA YERİ

Fazil Cəmil oğlu Kərimov
Minurə Hacı qızı Kərimova
mina34mk@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Son illərdə maliyyə texnologiyaları (FinTech) qlobal və yerli bazarlarda sürətlə inkişaf edir və ənənəvi bankşılar sistemlərinə alternativ imkanlar yaradır. Azərbaycanda da Fin Tech sektorunun yüksəlişi maliyyə sisteminə müsbət təsir göstərir və rəqamsal transformasiyasının sürətlənməsinə səbəb olur. Bu texnologiyalar bankşılıq, ödəmə sistemləri, investisiya və sığorta sahələrində innovasiyaları təşviq edərək maliyyə xidmətlərini daha əlşatan və səmərəli olmasını təmin edir.

Fin Tech, ənənəvi maliyyə xidmətlərini modernləşdirərək onların daha çevik, şəffaf və sərfəli olmasını təmin edir. Azərbaycanın maliyyə sisteminin inkişafında Fin Tech-in təsiri aşağıdakı istiqamətlərdə özünü göstərir.

Maliyyə xidmətlərinin əlçatanlığının artırılması kontektində Fintech, ucqar bölgələrdə yaşayan və ənənəvi bank xidmətlərinə çıxışı məhdud olan əhalı üçün maliyyə xidmətlərinin əlçatanlığını artırır. Mobil bankçılıq, rəqəmsal ödənişlər və onlayn kreditləşmə kimi fintech həlləri maliyyə inklüzivliyini təmin edir.

Əməliyyatların səmərəliliyinin yüksəldilməsi konsepsiyasında fintech texnologiyaları maliyyə əməliyyatlarının sürətini və effektivliyini artırır. Rəqəmsal ödənişlər, onlayn bankçılıq və avtomatlaşdırılmış kreditləşmə prosesləri vaxta və xərclərə qənaət etməyə imkan verir. İnnovasiyanın təşviqi istiqamətində maliyyə sektorunda xüsusilə "fintech" sahəsində qazanılmış uğurlu təcrübə və nümunələrin sistemli şəkildə yayılması əhəmiyyətlidir. Bu məqsədlə innovativ təşəbbüslərin inkişafını dəstəkləyən maliyyə mexanizmlərinin formalaşdırılması vacibdir. Eyni zamanda innovasiya mühitinin inkişafı kompleks və çoxşaxəli yanaşma tələb edir: bu sahədə təhsil və maarifləndirmə tədbirlərinin gücləndirilməsi, məqsədyönlü maliyyə dəstəyi alətlərinin tətbiqi, müvafiq infrastrukturun qurulması, hüquqi və tənzimləyici bazanın təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və rəqəmsal transformasiyanın sürətləndirilməsi kimi istiqamətlərdə ardıcıl və koordinasiyalı fəaliyyət zəruridir.

Rəqabətin aparılması istiqamətində fintech şirkətləri ənənəvi banklarla rəqabət apararaq, müştərilərə daha geniş seçim imkanı verir. Bu, maliyyə xidmətlərinin keyfiyyətinin yüksəlməsinə və qiymətlərin aşağı düşməsinə səbəb olur.

- Rəqamsal bankçılıq və mobil ödənişlər kontekstində mobil bankçılıq tətbiqlərinin inkişafı insanların bank filiallarına getmədən maliyyə əməliyyatlarının həyata keçirilməsinə imkan verir. Kapital Bank, ABB, Paşa Bank və digər yerli bankların mobil tətbiqləri müştərilərə geniş xidmət spektri təklif edir. Rəqəmsal cüzdanlar (E-manat, million,

Portmanat və s.) vasitəsilə vətəndaşlar kommunal ödənişlər, vergi ödənişləri və digər əməliyyatları asanlıqla icra edə bilərlər.

- Blokçeyn və kriptovalyuta texnologiyaları müstəvisində blokçeyn texnologiyası maliyyə əməliyyatlarının təhlükəsizliyini və şəffaflığını artırır. Azərbaycanda blokçeyn əsaslı layihələrin inkişafı qeyri-rəsmi iqtisadiyyatın azaldılmasına və əməliyyatların izlənə bilməsinə kömək edə bilər. Digər tərəfdən kriptovalyuta bazarı hələ tam tənzimlənməsə də, rəqəmsal aktivlərə maraq artır və bu sahədə hüquqi bazanın təkmilləşdirilməsi gözlənilir.
- Fin Tech startapları və innovasiyalar konsepsiyası üzrə respublikamızda ekesistemin inkişafı üçün respublikamızda ekesistemin inkişafı üçün müxtəlif startaplar fəaliyyət göstərir.Payriff, Wooppay , LEO Payments kimi startaplar rəqəmsal ödəmə həlləri təklif edir. Dövlət tərəfindən dəstəklənən startap ekosistemləri isə bu sahədə innovative həllərin genişlənməsinə imkan yaradır.
- Kredit və mikromaliyyələşdirmə platformaları çərçivəsində rəqəmsal kredit platformaları vətəndaşlara və bizneslərə ənənəvi bankçılıq proseduralarına ehtiyac qalmadan maliyyələşdirmə imkanı yaradır, "Tamkart", "Bolkart" və "Albalı" kimi kredit kartları müştərilərə hissə- hissə ödəniş imkanı təqdim edir. Alternativ maliyyə mənbələri isə kiçik və orta sahibkarların (KOS)inkişaf etməsinə və böyüməsinə dəstək olur.
- Insur Tech – sığorta texnologiyaları kontekstində rəqəmsal sığorta platformaları vətəndaşlara avtomobil, həyat və əmlak sığortasını onlayn qaydada əldə etməyə imkan verir. Süni intellekt əsaslı risk analizi sistemləri isə sığorta şirkətinin daha dəqiq qiymətləndirmələr aparmasına şərait yaradır.

Qeyd edək ki, finans texnologiyalarının inkişafı bir sıra amillərdən asılıdır:

- Dövlət dəstəyi və tənzimlənmə: Bu müstəvidə Azərbaycan hökuməti Fin Tech sahəsinin tənzimlənməsi və dəstəklənməsi üçün hüquqi bazanı təkmilləşdirir.
- Texnoloji infrastruktur. Bu çərçivədə internet və mobil rabitə şəbəkələrinin inkişafı rəqəmsal maliyyə xidmətlərinin geniş yayılmasına şərait yaradır.
- Investisiyalar və startap ekosistemi vasitəsilə sahibkarlıq mühiti və investor marağı Fin Tech innovasiyalarının artmasına səbəb olur.
- Istifadəçi davranışları. Bu amil gənc nəsil rəqamsal texnologiyalara üstünlük verir və bu da rəqəmsal maliyyə xidmətlərinə tələbatı artırır.

Əməliyyatların səmərəliliyinin yüksəldilməsi nəticəsində Fin Tech texnologiyaları maliyyə əməliyyatlarının sürətini və effektivliyini artırır.

Rəqəmsal ödənişlər, onlayn bankçılıq və avtomatlaşdırılmış kreditləşmə prosesləri vaxta və xərclərə qənaət etməyə imkan verir.

- Rəqabətin aparılması amilinin təsiri ilə Fin Tech şirkətləri ənənəvi banklarla rəqabət aparmaq müştərilərə daha geniş seçim imkanı verir. Bu, maliyyə xidmətlərinin keyfiyyətinin yüksəlməsinə və qiymətlərin aşağı düşməsinə səbəb olur.
- İnnovasiyanın təşviqi Fin Tech, maliyyə sektorunda innovasiyanı təşviq edir. Yeni texnologiyalar və biznes modelləri maliyyə xidmətlərinin daha müasir və rəqabətədavamlı olmasına şərait yaradır.

Azərbaycanda Fin Tech-in inkişafı üçün bir sıra tədbirlər görülür:

- Azərbaycan hökuməti Fin Tech sektorunun inkişafını dəstəkləyir və bu sahədə əlverişli mühit yaratmaq üçün müxtəlif tədbirlər həyata keçirir.
- Mərkəzi Bank rəqamsal ödənişlərin və mobil bankçılığın inkişafını təşfiq edir.
- İnnovasiya və Rəqamsal inkişaf Agentliyi Fin Tech startaplarına dəstək verir.
- Azərbaycan Banklar Assosiasiya Fin Tech şirkətləri ilə əməkdaşlıq edir.

Fin Tech – in gələcək perspektiv istiqamətləri :

- blokçeyn və rəqəmsal aktivlərin tənzimlənməsi;
- rəqəmsal bankçılıq sahəsində yeni məhsulların təqdim edilməsi;
- mikro-kredit platformalarının genişlənməsi;

- süni intelekt və Big Data texnologiyalarının daha geniş tətbiqi;
- Fin Tech strategiyalarının beynəlxalq bazarlara çıxışı və xarici investorların cəlb edilməsi və s.

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, maliyyə texnologiyaları Azərbaycanın maliyyə sisteminin modernləşməsinə, dayanıqlı inkişafına töhfə verir və mobil ödəmə sistemləri, rəqəmsal bankçılıq, sünii intelekt, blokceyn kimi innovativ texnologiyalar maliyyə xidmətlərinin əlçatanlığını artırır və iqtisadiyyatın rəqəmsallaşmasını sürətləndirir.

THE ROLE OF FINANCIAL TECHNOLOGIES IN THE DEVELOPMENT OF THE AZERBAIJAN FINANCIAL SYSTEM

Fazil Jamil oglu Karimov
Minura Haji gizi Karimova
mina34mk@mail.ru
Azerbaijan Technological University

Financial technologies contribute to the modernization and sustainable development of Azerbaijan's financial system, and innovative technologies such as mobile payment systems, digital banking, artificial intelligence, and blockchain increase the accessibility of financial services and accelerate the digitalization of the economy

Keywords: Financial technologies, Financial technologies, mobile payment systems.

LAYİHƏNİN İDARƏ EDİLMƏSİ: DÖVLƏT XİDMƏTLƏRİNDƏ SƏMƏRƏLİLİYİN VƏ TƏRƏQQİNİN AÇARI

İlahə Rafiq qızı Ağaməmmədova
ilahedaglar@gmail.com
Aqşin Məhiyəddin oğlu Namazov
aqsinnamazov66@gmail.com
Tural Akif oğlu İsaqov
Isagov.t@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Layihənin uğurla həyata keçirilməsi üçün diqqətlə planlaşdırılmalı, fəaliyyətlər arasında əlaqələr düzgün müəyyən edilməli, layihənin planlaşdırma mərhələsində layihənin dəyəri və reallaşma müddəti təxmin edilməli, resurs təyinatları müəyyən edilməlidir. üçün fəaliyyətlər buna uyğun aparılmalıdır. Layihənin müvəffəqiyyətində layihənin idarə edilməsi əsas rol oynayır. Layihənin idarə edilməsi hər hansı sektorda həyata keçiriləcək layihənin müəyyən edilmiş məqsədlərinə nail olmaq üçün layihə fəaliyyətinin planlaşdırılması, idarə edilməsi, təşkili və nəzarətinin bütün mərhələlərini əhatə edir. [4]

Layihənin idarə edilməsi layihəni bütövlükdə nəzərdən keçirməklə bütün komponentlərin araşdırılmasına imkan verir, layihə daxilində sistematik tənzimləmələr edilə, layihəyə uyğun fəaliyyətlər həyata keçirilə bilər. Layihəni effektiv idarə etməklə, şirkətlər layihənin başlanğıcında layihənin tamamlanma vaxtını və dəyərini təxmin edə bilərlər.

Layihənin idarə edilməsi menecerlərə biznes proseslərini daha strateji və strukturlaşdırılmış şəkildə həll etməyə imkan verir, ictimaiyyətə daha yaxşı xidmət göstərmək, eləcə də sosial təsir yaratmaq potensialını artırır. [1]

1. Resurslardan effektiv istifadə və xərclərə nəzarət. Dövlət qurumları məhdud resurslarla xidmət göstərərkən ən səmərəli şəkildə hərəkət etməlidir. Layihə menecmenti resursların səmərəli şəkildə bölüşdürülməsinə kömək etdiyi yerdir. Layihələrin əvvəlcədən müəyyən edilmiş büdcə və vaxt çərçivəsində icrası xərclərin nəzarətdə saxlanılmasını təmin edir. Xərc artımı və lüzumsuz xərclərin qarşısı alınarkən, xidmətin daha səmərəli çatdırılması mümkün olur.

2. Strateji planlaşdırma və məqsəd orientasiyası. Dövlət qurumları sosial ehtiyaclara uyğun xidmətlər göstərərək effektiv dəyişikliyi təmin etməlidir. Layihənin idarə edilməsi

uzunmüddətli strateji planlaşdırmanı asanlaşdırır və onu konkret layihələrlə dəstəkləyir. Layihənin idarə edilməsi vasitəsilə kommunal xidmətlər təkcə gündəlik əməliyyatlara deyil, həm də gələcək hədəflərə diqqət yetirə bilər. Bu, sosial ehtiyacları daha yaxşı qarşılamağa və davamlı ictimai xidmət göstərməyə imkan verir. [2]

3. Risklərin idarə edilməsi və çeviklik. İctimai layihələr bir çox xarici amillərə məruz qalır. Siyasət dəyişiklikləri, maliyyə dalğalanmaları və texnoloji inkişaflar kimi amillər layihələrə mənfi təsir göstərə bilər. Layihə menecmenti bu qeyri-müəyyənliklərlə mübarizə aparmaq üçün risklərin idarə edilməsi vasitələri təklif edir. Dövlət qurumları mümkün riskləri əvvəlcədən müəyyən edə, ehtiyat tədbirləri görə bilər və lazım gəldikdə layihələrə yenidən baxa bilər. Bu yanaşma çeviklik və davamlılıq təmin edir.

4. Əməkdaşlıq və koordinasiyanın artırılması. Dövlət qurumlarının müxtəlif şöbələri və ya bölmələri arasında çox vaxt effektiv ünsiyyət və əməkdaşlıq tələb olunur. Layihənin idarə edilməsi müxtəlif bölmələr arasında koordinasiyanı artırır. Layihə qrupları müxtəlif fənlərdən olan mütəxəssisləri bir araya gətirərək daha əhatəli və effektiv həllər hazırlayır. Bu yanaşma tez və səmərəli nəticələr əldə etməyə kömək edir. [5]

5. Sosial təsir və perspektiv planlaşdırma. Dövlət xidmətləri cəmiyyətə birbaşa təsir edir və dəyişir. Layihənin idarə edilməsi layihələrin sosial təsirini qiymətləndirməyə və istiqamətləndirməyə kömək edir. Dövlət qurumları öz layihələri vasitəsilə sosial ehtiyacları ödəməklə daha geniş təsir yaratmaq imkanı əldə edirlər. O, həmçinin uzunmüddətli planlar quraraq sosial dəyişikliyi dəstəkləyə bilər. [3]

Nəticədə layihənin idarə edilməsi ictimai xidmətlərdə səmərəliliyi artırır və sosial təsir və davamlılıq üçün imkanlar təklif edir. Rəqabətli və sürətlə dəyişən dünyada ayaqda qalmaq üçün dövlət qurumlarının layihə idarəçiliyi mövzusunda maarifləndirməsi və bu yanaşmanı mənimsəməsi böyük əhəmiyyət kəsb edir. Bu yolla dövlət xidmətlərinin göstərilməsi daha effektiv, operativ və cəmiyyətin ehtiyaclarına cavab verən şəkildə həyata keçirilə bilər.

ƏDƏBİYYAT

1. Abdel-Basset M., Atef A., Abouhawwash M., Nam Y., & M AbdelAziz N. Network analysis for projects with high risk levels in uncertain environments. 2021
2. Aksoy A., Akansel M., Atalay C., Çamlıbel A. M., Yaşar D., Keseroğlu D., & Vanlıoğlu S. Proje Yönetiminde Zaman ve Maliyet Odaklı Bütünleşik Planlama Yaklaşımı ve Bir Uygulama. Journal of Entrepreneurship and Innovation Management. 8(1). Pp.1- 20. 2019
3. Desticioğlu B. Project Plannıng Wıth CPM and PERT Methods: Example Of Defence Industry. Journal of Naval Sciences and Engineering. 18(2). pp.363-385. 2022
4. Gül M., Güneri A. F., & Güneş G. Project management in healthcare: A case study for patient flow evaluation in an emergency room using fuzzy cpm and fuzzy pert. Sigma. 8(1). Pp. 41-51. 2017
5. Sanchez F., Bonjour E., Micaelli J. P., & Monticolo D. An approach based on bayesian network for improving project management maturity: An application to reduce cost overrun risks in engineering projects. Computers in Industry. P.119. 103227. 2020

PROJECT MANAGEMENT: THE KEY TO EFFICIENCY AND PROGRESS IN PUBLIC SERVICES

Ilaha Rafiq qizi Aghamammadova
ilahedaglar@gmail.com
Aqshin Mahiyaddin oglu Namazov
agsinnamazov66@gmail.com
Tural Akif oglu Isakov
Isagov.t@gmail.com
Azerbaijan Technological University

A project can be defined as a set of activities designed to achieve a goal within a certain period of time. Since projects are complex structures consisting of many activities, they must be carefully planned and activities must be carried out in a coordinated manner at each stage. Today, efficient provision of public services and sustainable development are of great importance. In this

context, the concept of project management emerges as a vital tool for government agencies to achieve their goals, use resources efficiently and provide better services to society.

Keywords: project, management, invitation institutions, manager, business processes.

GƏNCƏDƏ İCTİMAİ NƏQLİYYAT XİDMƏTLƏRİNİN KEYFİYYƏTİNİN ARTIRILMASINDA DÖVLƏT PROQRAMLARININ EFFEKTİVLİYİ

Mətanət İsrayıl qızı Əhmədova
matanat.axmedova74@gmail.com
Eltun Elvan oğlu Əliyev
aeltun91@mail.ru
Azərbaycan Texnologiya Universiteti

İctimai nəqliyyat şəhər infrastrukturunun vacib hissəsidir və onun səmərəli təşkili şəhər sakinlərinin gündəlik həyat keyfiyyətinə birbaşa təsir göstərir. Son illərdə Azərbaycan hökuməti müxtəlif dövlət proqramları vasitəsilə nəqliyyat infrastrukturunun inkişafına və xidmət keyfiyyətinin artırılmasına xüsusi diqqət yetirmişdir. Gəncə şəhərində də bu istiqamətdə müəyyən addımlar atılır, yeni avtobus marşrutları təşkil edilir, avtobus parkı yenilənir və sərnişinlərin rahatlığını artırmaq üçün tədbirlər həyata keçirilir.

Bu tədqiqatın məqsədi Gəncə şəhərində ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması üçün həyata keçirilən dövlət proqramlarının effektivliyini qiymətləndirmək və mövcud problemləri aşkar edərək onların həlli üçün tövsiyələr irəli sürməkdir.

İctimai nəqliyyatın inkişafı əsasən "Regionların sosial-iqtisadi inkişafı" və "Nəqliyyatın inkişafı üzrə" Dövlət Proqramı çərçivəsində həyata keçirilir. Bu proqramlar nəqliyyat infrastrukturunun modernləşdirilməsi, ekoloji təmiz nəqliyyat vasitələrinin tətbiqi və sərnişin xidmətlərinin keyfiyyətinin artırılmasını hədəfləyir [1].

Dünya təcrübəsinə nəzər saldıqda, şəhər nəqliyyatının effektiv idarə olunması üçün müasir texnologiyaların tətbiqi, ictimai nəqliyyatın əlçatanlığının artırılması və sərnişinlərin rahatlığını təmin edən tədbirlərin mühüm əhəmiyyət kəsb etdiyi görünür. Gəncə şəhərində də bu prinsiplərin tətbiqi vacibdir [5-8].

Gəncə şəhərində ictimai nəqliyyat xidmətlərinin mövcud vəziyyəti, avtobus parkının yenilənməsi son illərdə Dövlət Proqramları çərçivəsində Gəncə şəhərində avtobus parkının modernləşdirilməsi istiqamətində müəyyən addımlar atılmışdır. Lakin avtobusların sayı və texniki vəziyyəti hələ də bəzi çatışmazlıqlarla müşayiət olunur. Xüsusilə köhnəlmiş nəqliyyat vasitələrinin dəyişdirilməsi və ekoloji cəhətdən təmiz avtobusların tətbiqi sahəsində daha genişmiqyaslı işlər görülməlidir [1-3].

Marşrut şəbəkəsinin optimallaşdırılması Gəncədə avtobus marşrutlarının bəzi yaşayış massivlərini tam əhatə etməməsi sərnişinlərin narahatlığına səbəb olur. Pik saatlarda nəqliyyatın yetərsiz olması, bəzi marşrutlarda avtobusların gecikməsi və marşrut planlamasında effektivliyin artırılmasına ehtiyac olduğu müşahidə edilir. Bunun üçün şəhər sakinlərinin tələbatına uyğun marşrut planlaması aparılmalı və pik saatlarda əlavə avtobuslar xəttə buraxılmalıdır.

Aparılan sorğular göstərir ki, sərnişinlərin əsas narazılıqları sıxlıq, uzun gözləmə müddəti və nəqliyyat vasitələrinin rahatlıq səviyyəsinin aşağı olması ilə bağlıdır. Bundan əlavə, bəzi avtobus dayanacaqlarında müasir informasiya lövhələrinin olmaması və elektron ödəmə sistemlərinin geniş tətbiq edilməməsi sərnişin rahatlığını azaldır [2, 4].

Gəncə şəhərində ictimai nəqliyyatın keyfiyyətinin artırılması üçün əsas addımlar avtobus parkının yenilənməsi, marşrut şəbəkəsinin optimallaşdırılması, rəqəmsal texnologiyaların tətbiqi və sərnişin məmnuniyyətinin yüksəldilməsidir. Eyni zamanda, sərnişin rəyinin nəzərə alınması və sürücülərin peşəkar hazırlığının artırılması xidmət keyfiyyətini daha da yaxşılaşdıracaqdır. Bu tədbirlər Dövlət Proqramlarının effektiv icrası ilə birgə şəhər nəqliyyatının inkişafına töhfə verəcəkdir.

Gəncə şəhərində ictimai nəqliyyat xidmətlərinin keyfiyyətinin artırılması üçün Dövlət Proqramları mühüm rol oynasa da, hələ də həll olunmalı bir sıra problemlər mövcuddur. Avtobus parkının yenilənməsi, marşrut şəbəkəsinin optimallaşdırılması və sərnişin məmnuniyyətinin artırılması istiqamətində daha effektiv tədbirlərin görülməsi zəruridir. Rəqəmsal texnologiyaların tətbiqi və ekoloji nəqliyyat vasitələrinə keçid, şəhər nəqliyyatının gələcək inkişafı üçün vacib addımlardandır. Dövlət proqramlarının daha effektiv icrası və nəqliyyat sektoruna investisiyaların artırılması bu sahədə inkişafı sürətləndirəcəkdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları: "Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı" və "Nəqliyyatın İnkişafı üzrə Dövlət Proqramı". (https://president.az/az/articles/view/31697)
2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəsmi hesabatları və sənədləri.(https://mincom.gov.az/az/media/hesabatlar)
3. Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (AYNA) – Şəhər nəqliyyatının inkişafı üzrə statistik məlumatlar və hesabatlar.(https://www.ayna.gov.az/az)
4. Azərbaycan Dövlət Statistika Komitəsinin nəqliyyat sektoru üzrə statistik göstəriciləri (https://www.stat.gov.az/source/transport/)
5. Rodrigue, J.-P. (2020). The Geography of Transport Systems. Routledge – Nəqliyyat sistemlərinin inkişafı və idarə olunması.
6. "Smart Cities and Smart Transport: Creating a Sustainable Urban Future" – Mohamad Ali Hamade, Yassir Mahdavi (2020) - Ağıllı şəhər nəqliyyatının inkişafı, texnologiyaların tətbiqi və şəhər inkişafında davamlılıq.
7. "Urban Transport and Sustainable Development: A Guide for Developing Countries" – L. D. Sharma (2016) - Şəhər nəqliyyatının inkişaf etdirilməsində davamlılıq və ətraf mühitə təsir məsələlərinə dair məlumatlar.
8. "Transportation Systems and Services: Modern Approach to Planning and Management" – Jonathan Levine (2016) - Şəhər nəqliyyatı sistemləri və xidmətləri üçün müasir planlaşdırma və idarəetmə yanaşmalarını təqdim edir.

IMPROVEMENT OF THE PUBLIC TRANSPORT SYSTEM IN GANJA AS PART OF GOVERNMENT PROGRAMS

Matanat Israyıl gizi Ahmadova
matanat.axmedova74@gmail.com
Eltun Elvan oglu Aliyev
aeltun91@mail.ru
Azerbaijan Technological University

Public transport is an essential part of urban infrastructure, and its efficient organization directly affects the quality of life of city residents. Various state programs have been implemented in Ganja to modernize the transport infrastructure and improve the quality service of passenger. The aim of this study is to assess the effectiveness of government programs in improving public transport services in Ganja, to identify existing problems, and to propose solutions. The research analyzes aspects such as bus fleet renewal, route network optimization, the implementation of digital technologies, and improvement of passenger satisfaction.

Keywords: public transport, city of Ganja, bus fleet, route network, quality.

RİSKLƏRİN İDARƏ EDİLMƏSİNİN XÜSUSİYYƏTLƏRİ

Gülnara Zeylim qızı İsmayılova
İlahə Elşad qızı Kamalova
Bayramovallaha@outlook.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Müasir dövrdə təşkilatlar müxtəlif risklərlə qarşılaşır və bu risklərin effektiv idarə olunması onların davamlı inkişafı üçün vacibdir. Risklərin idarə edilməsi, qeyri-müəyyənliklərin müəyyənləşdirilməsi, qiymətləndirilməsi və nəzarət altına alınması prosesidir. [4] Bu prosesin məqsədi təşkilatın məqsədlərinə çatmasına mane ola biləcək potensial təhlükələri minimuma endirməkdir.

Risk, müəyyən bir hadisənin baş vermə ehtimalı və bu hadisənin nəticələrinin təşkilata təsiri ilə əlaqədardır. Risklər müxtəlif növlərə bölünə bilər: strateji, əməliyyat, maliyyə və reputasiya riskləri. [3]

Risklərin idarə olunması üçün müxtəlif metodlar mövcuddur. Bunlara riskin qarşısının alınması, riskin azaldılması, riskin ötürülməsi və riskin qəbul edilməsi daxildir. Bu metodların seçimi təşkilatın riskə olan münasibətindən və resurslarından asılıdır.

Son illərdə risklərin idarə edilməsində texnologiyanın rolu artmışdır. Məsələn, süni intellekt və böyük məlumat analitikası risklərin proqnozlaşdırılmasında və idarə olunmasında effektiv alətlər kimi istifadə olunur. [1] Bu texnologiyalar təşkilatlara riskləri daha dəqiq qiymətləndirməyə və vaxtında tədbirlər görməyə imkan verir. Məsələn, bir çox maliyyə qurumları süni intellekt əsaslı sistemlərdən istifadə edərək kredit risklərini qiymətləndirir və potensial müştərilərin ödəmə qabiliyyətini proqnozlaşdırır. [2] Bu yanaşma risklərin daha effektiv idarə olunmasına kömək edir.

Risklərin idarə edilməsi təşkilatların davamlılığı və uğuru üçün əhəmiyyətlidir. Müasir texnologiyaların tətbiqi bu prosesin effektivliyini artırır. Təşkilatlar risklərin idarə olunmasında proaktiv yanaşma sərgiləməli və yeni texnologiyalardan istifadə etməlidirlər.

ƏDƏBİYYAT

1. Brown L. Modern Approaches to Risk Management. Journal of Risk Analysis. 2021
2. Davis M. Artificial Intelligence in Financial Risk Assessment. Financial Technology review. 2019
3. Johnson R. Types of Organizational Risks. Business Management Journal. 2018
4. Smith J. Fundamentals of Risk Management. Risk Management Today. 2020

FEATURES OF RISK MANAGEMENT

Gular Ismayilova
Ilaha Elshad gizi Kamalova
Bayramovallaha@outlook.com
Azerbaijan State Agricultural University

Risk management is a critical process for organizations aiming to achieve their objectives amidst uncertainties. This paper explores the characteristics of risk management, highlighting various types of risks such as strategic, operational, financial, and reputational. It discusses traditional methods like risk avoidance, reduction, transfer, and acceptance, as well as modern approaches incorporating artificial intelligence and big data analytics. The integration of technology enhances the accuracy of risk assessment and enables proactive decision-making. Real-world examples demonstrate the practical application of these methods in financial institutions. The study concludes that adopting advanced technologies and proactive strategies is essential for effective risk management in today's dynamic environment.

Keywords: risk, risk management, uncertainty, strategic planning, artificial intelligence, big data analytics.

İQTİSADİ TSİKLLƏRİN TƏBİƏTİ, MÜASİR YANAŞMALAR VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

Laçın Vəzir oğlu Abışlı
abishli@gmail.com
Bakı Dövlət Universiteti

Araşdırmada iqtisadi tsikllərin yaranma səbəbləri və müasir şərtlərdə onların təsir mexanizmləri araşdırılır. Müxtəlif nəzəri yanaşmalar əsasında tsikllərin formalaşma modeli izah edilir. Qlobal və regional şokların Azərbaycan iqtisadiyyatına təsiri qiymətləndirilir. Tsikllərin mənfi təsirinin azaldılması üçün proqnozlaşdırma, fiskal ehtiyatlar və şaxələndirmə siyasətinin əhəmiyyəti vurğulanır. Qeyd olunur ki, bir çox nəzəri fikirlərdə də təsbit olunduğu kimi tələbin fiskal metodlarla stimullaşdırılması, ölkəmizin nümunəsində də iqtisadi siyasətin müəyyənləşdirilməsində istifadə olunmalıdır.

İqtisadi tsikllər bazar iqtisadiyyatlarının daxili təbiətindən qaynaqlanan və dövri xarakter daşıyan iqtisadi dəyişmə mərhələlərini əks etdirir. Bu dəyişmələr yalnız makroiqtisadi göstəricilərdə deyil, həm də sosial davranışlarda, maliyyə sabitliyində və siyasi qərarların qəbul prosesində özünü göstərir. [2, s.104] Klassik yanaşmalarda iqtisadi tsikl dörd fazadan – yüksəliş, zirvə, tənəzzül və dib nöqtəsindən – ibarət hesab olunur [3, s.161], lakin çağdaş iqtisadi nəzəriyyələr bu prosesləri daha mürəkkəb və çoxşaxəli faktorlara bağlayır.

Keynesçi yanaşmaya görə, iqtisadi tsikllərin tənzimlənməsi dövlətin aktiv müdaxiləsi ilə mümkündür və əsas fokus tələb tərəfinin stimullaşdırılması üzərində qurulmalıdır. Əksinə, real biznes tsikli (RBC) nəzəriyyəsi tsikllərin əsas səbəbi kimi texnoloji şokları və məhsuldarlıq dəyişmələrini göstərir. Bu mübahisələr tsikllərin təbiətinin yalnız iqtisadi deyil, həm də institusional, texnoloji və psixoloji komponentlərlə sıx bağlı olduğunu nümayiş etdirir. Müasir dövrdə bu yanaşmalara davranış iqtisadiyyatı və gözləntilər nəzəriyyəsi də əlavə olunmuşdur.

İqtisadi tsikllər təkcə milli deyil, həm də qlobal xarakter daşıyır. 2008-ci il qlobal maliyyə böhranı və 2020-ci ildə başlayan COVID-19 pandemiyası bir daha sübut etdi ki, transmilli şoklar iqtisadi tsikllərin daha qeyri-sabit və dərin dalğalanmalarla müşayiət olunmasına səbəb olur. Qlobal faiz dərəcələrinin dəyişməsi, kapital axınlarının istiqaməti, enerji qiymətlərindəki volatillik və ticarət proteksionizmi müasir tsikllərin əsas xarici determinantları sırasındadır.

Eyni zamanda, iqlim dəyişikliyi və yaşıl keçid siyasətləri yeni tipli struktur tsikllərin yaranmasına səbəb olur. Bu yeni tsikllər həm iqtisadi artım, həm də ekoloji davamlılıq arasında balansın qurulmasını tələb edir. Texnoloji dəyişikliklər və süni intellektin yayılması da əmək bazarının strukturunu dəyişir və tsikllərin yeni formatlarda təzahürünə yol açır. [1, s.37] Beləliklə, klassik "konyuktura" yanaşmasından fərqli olaraq, müasir tsikllər bir çox hallarda struktur dəyişikliklərin nəticəsi kimi formalaşır.

İnkişaf etməkdə olan regionlarda, xüsusilə də Mərkəzi Asiya və Qafqazda, iqtisadi tsikllər daha çox xarici şoklara qarşı həssaslıq nümayiş etdirir. Bu regionlarda xammal ixracından yüksək asılılıq, fiskal ehtiyatların məhdudluğu və institusional zəifliklər səbəbindən tsikllərin təsiri daha kəskin hiss olunur. Azərbaycan kimi ölkələr üçün enerji qiymətlərindəki dəyişikliklər əsas tsikl mexanizmini təşkil edir. 2015-ci ildə neft qiymətlərində baş verən kəskin azalma və nəticə etibarilə manatın devalvasiyası ölkədə iqtisadi tsiklin tənəzzül mərhələsinin necə sarsıdıcı ola biləcəyini göstərdi. [5, s.481]

Azərbaycanın iqtisadi artımı son illərdə əsasən dövlət investisiyalarına, infrastruktur layihələrinə və post-münaqişə dövrünün bərpa tədbirlərinə əsaslanır. Lakin bu artımın dayanıqlığı yalnız makroiqtisadi sabitliklə deyil, həm də struktur islahatların dərinliyi ilə müəyyən olunur. Dövlət Neft Fondu vasitəsilə əldə olunan fiskal ehtiyatların idarə olunması, qeyri-neft sektorunun şaxələndirilməsi və ixracın təşviqi bu baxımdan həlledici amillərdir. [4] Bununla belə, bu tədbirlər yalnız struktur tsikllərin təsirini azaltmağa yönəlib, halbuki konyuktural tsikllərin idarə olunması üçün monetar siyasət alətləri və qabaqlayıcı indikatorların

daha aktiv istifadəsi zəruridir.

Hazırda dünya ölkələrində iqtisadi tsikllərin qarşısının alınması üçün müxtəlif metodologiyalar tətbiq olunur. Struktur makromodellər, qabaqlayıcı indekslər və süni intellekt əsaslı proqnoz sistemləri bu məqsədlə geniş istifadə edilir. Azərbaycan üçün də belə sistemlərin lokal səviyyədə qurulması və makroiqtisadi idarəetmə strategiyasına inteqrasiyası, tsikllərin mənfi təsirlərinin minimuma endirilməsi baxımından faydalı ola bilər. Bundan əlavə, insan kapitalının gücləndirilməsi, ali təhsil sisteminin əmək bazarının ehtiyaclarına uyğunlaşdırılması və innovasiya əsaslı iqtisadiyyat modelinə keçid, uzunmüddətli dövrdə struktur dayanıqlığın əsas təminatçısı ola bilər. [1, s.210]

Nəticə olaraq qeyd etmək olar ki, iqtisadi tsikllər sadəcə iqtisadi fenomen kimi deyil, həm də sosial sabitlik və siyasi idarəetmə baxımından strateji əhəmiyyət daşıyan bir prosesdir. Onların təsirlərinin azaldılması üçün iqtisadi siyasət yalnız reaktiv deyil, həm də qabaqlayıcı və çevik olmalıdır. Azərbaycan üçün bu, neft gəlirlərindən asılılığın azaldılması, iqtisadiyyatın rəqəmsallaşdırılması və institusional islahatların davam etdirilməsi ilə mümkün olacaqdır. Bu istiqamətdə dayanıqlı iqtisadi artım modeli və çevik makroiqtisadi siyasət tsikllərin mənfi təsirlərinin minimuma endirilməsi və iqtisadi təhlükəsizliyin təmin olunması baxımından fundamental rol oynayacaqdır.

ƏDƏBİYYAT

1. Aghion P. Howitt P. The Economics of Growth. Cambridge. MA: MIT Press. 2009. p.390
2. Бланшар О. Лекции по макроэкономике. Учебник. О. Бланшар, С. Фишер. пер. с англ. М.: Дело. 2014. 678 с.
3. Burns A.F., Mitchell W.C. Measuring Business Cycles. New York: National Bureau of Economic Research. 1946. 256 p.
4. Central Bank of the Republic of Azerbaijan. Monetary Policy Review. 2023. https://www.cbar.az
5. Hasanov F. Dutch Disease and the Azerbaijan Economy. Communist and Post-Communist Studies. Vol. 46. No. 4. 2013. p. 475–485.
6. Kydland F.E., Prescott E.C. Time to Build and Aggregate Fluctuations. Econometrica. Vol. 50. No. 6. 1982. p. 1345–1370
7. Lucas R.E. Understanding Business Cycles. Carnegie-Rochester Conference Series on Public Policy. Vol. 5. 1977. p. 7–29

THE NATURE OF ECONOMIC CYCLES, CONTEMPORARY APPROACHES AND AZERBAIJAN'S EXPERIENCE

Lachin Vezir oglu Abishli
abishli@gmail.com
Baku State University

The study examines the causes of economic cycles and their mechanisms of influence in modern conditions. The model of cycle formation is explained based on various theoretical approaches. The impact of global and regional shocks on the Azerbaijani economy is thoroughly evaluated, considering their profound implications on various sectors and long-term economic stability. The importance of forecasting, fiscal reserves and diversification policy is emphasized to reduce the negative impact of cycles. It is noted that, as established in many theoretical ideas, stimulating demand through fiscal methods should be used in determining economic policy in the case of our country.

Keywords: economic cycles, fiscal policy, diversification, global risks, sustainable development.

CLOUD COMPUTING IN THE WORLD MARKET: GROWTH, TRENDS, AND CHALLENGES

Nona Kukhianidze
Nona.kukhianidze@atsu.edu.ge
Akaki Tsereteli State University

Cloud computing is one of the fastest-growing and most transformative areas of the modern technological environment, revolutionizing various industries. Over the past decade, cloud services and infrastructure have significantly evolved, becoming essential tools for small and medium-sized enterprises as well as large corporations. The purpose of this article is to review and analyze the trends, benefits, and challenges of the global cloud computing market based on existing research.

1. Introduction

Cloud computing typically refers to the ability to obtain necessary computing power from a network, where the user's primary concern is not the implementation details of this mechanism but simply receiving the required resources from the "cloud." A clear example of this is the interface of search engines, which are very simple but provide users with immense computing resources to find the necessary information. Today, large computing centers not only store and process data within themselves but also create their own virtual data centers. This enables businesses, especially new ones, to build their infrastructure from scratch with minimal effort. Currently, there is a broad variety of "cloud computing" services, often differing in meaning and emphasis. Let's consider some of these definitions to clarify what "cloud computing" means from various perspectives.

2. Growth of the Cloud Computing Market

The global cloud computing market has experienced significant growth in recent years and is expected to maintain this momentum. According to Markets and Markets' 2022 research, the global cloud computing market size was $445.3 billion in 2021 and is projected to grow to $947.3 billion by 2026, representing a compound annual growth rate (CAGR) of 16.3%. This growth is driven by the increasing demand for data processing efficiency and flexibility, which are key advantages of cloud solutions.

The SaaS (Software as a Service) segment, which allows companies to use software over the internet without needing a license, is growing particularly rapidly. This model has gained significant popularity because it enables users to continuously access updated programs without requiring technical support.

3. Key Benefits of Cloud Computing

The increasing popularity of cloud computing is attributed to its numerous advantages, which are critical for modern business processes:

Flexibility and scalability: Cloud infrastructure allows companies to easily adjust the amount of resources according to demand. This is particularly important during large-scale data analysis or temporary surges in traffic, such as during holiday sales periods.

Cost reduction: One of the main benefits of cloud computing is its cost-effectiveness. Traditionally, companies have had to invest heavily in purchasing infrastructure. Cloud services, however, allow them to pay only for the resources they need at a given time, reducing overall costs.

Instant access: Cloud computing enables access to data and applications from anywhere and on any device, increasing flexibility and efficiency in business processes. This model has become especially crucial during the rise of remote work, which gained particular relevance during the pandemic.

Innovative technologies: Cloud computing continues to evolve with new technological solutions, including the integration of artificial intelligence (AI) and machine learning algorithms. These capabilities allow businesses to use advanced analytics for more accurate decision-making.

4. Types of Cloud Computing Services

Several types of cloud computing services offer both software and full infrastructure solutions:

SaaS (Software as a Service): This service allows users to access software online without installation. Examples include Google Workspace and Microsoft Office 365, which enable companies to work on a single platform, sharing documents and synchronizing data.



Figure 1. SaaS (Software as a Service)

PaaS (Platform as a Service): This model provides a platform on which developers can create and manage their own applications. It enables companies to use pre-built tools to quickly develop applications.



Figure 2. PaaS (Platform as a Service)

IaaS (Infrastructure as a Service): This service offers companies complete infrastructure, including virtual servers, storage, and network services. Businesses can build their own IT infrastructure as needed, a solution particularly popular among startups and rapidly growing companies.



Figure 3. IaaS (Infrastructure as a Service)

5. Global Trends in Cloud Computing

Hybrid clouds and multi-tenancy: Many companies prefer hybrid clouds, which combine the features of both public and private clouds. This model ensures flexible, secure, and cost-efficient data processing. According to IDC, by 2023, 90% of global companies will be using a hybrid model.

Edge computing development: Alongside cloud infrastructure, edge computing is growing, enabling data to be processed closer to the device where it is generated. This technology is crucial for IoT (Internet of Things) devices and the development of 5G networks.

Artificial intelligence and cloud analytics: Cloud computing has greatly accelerated the adoption of artificial intelligence and data analytics. Businesses use AI to analyze marketing, logistics, healthcare, and other data on cloud platforms. According to Gartner, by 2025, cloud-based AI solutions will be a dominant market force.

Enhanced security: Data protection and cybersecurity remain top concerns in cloud computing. Despite the encryption and high security standards offered by cloud services,

cybersecurity incidents are still common. More than 60% of companies are investing significantly in security to ensure a secure cloud environment.

6. Challenges and Issues

Despite the many benefits cloud computing offers, there are still several challenges:

Security and privacy: Data security remains one of the biggest challenges for cloud services. Companies must constantly ensure customer data is protected from cyberattacks. Many industries, such as healthcare and finance, must comply with various regulations related to data privacy, adding further complexity.

Dependence on providers: Some companies are concerned about relying heavily on cloud service providers, which increases the risk of business disruption if services go down. As a result, many companies are adopting hybrid solutions to diversify their cloud infrastructure.

Integration difficulties: Despite the flexibility of cloud services, many companies face challenges when integrating cloud solutions with legacy systems. This can lead to additional costs and technical difficulties, limiting the full potential of cloud computing.

Legal and regulatory concerns: Different countries and regions often have varying regulations on data management and storage. This becomes particularly complicated when data is spread across different jurisdictions. For example, the European Union's General Data Protection Regulation (GDPR) imposes strict data storage rules, making it harder for companies to operate in cloud infrastructures. Some countries also impose restrictions on the geographic location of data, posing further challenges for global operations.

7. The Future of Cloud Computing

The importance of cloud computing in the global market is steadily increasing due to the growing volume of data and technological innovations. However, cloud technologies continue to face challenges, both technical and legal.

Experts predict significant advancements in the following areas:

AI integration: AI integration through cloud services will become more widespread and accessible, driving faster transformation and automation of businesses.

Enhanced cybersecurity: Cloud security technologies will continue to evolve, introducing new methods to safeguard data and mitigate internal cyber threats.

Rise of multi-cloud providers: Companies will increasingly collaborate with multiple cloud service providers to reduce dependency on a single provider and ensure greater flexibility.




Figure 4. Cloud Computing

Conclusion

The global cloud computing market is becoming one of the leading sectors of the global economy and technology landscape. Its growth is driven by organizations' demand for more flexible and efficient data management. Despite certain challenges, including cybersecurity and regulatory concerns, cloud computing continues to expand rapidly on a global scale. Its adoption helps businesses grow faster, reduce costs, and implement technological innovations, ultimately reshaping the global economic ecosystem.

Keywords: industries, virtualization.

RƏQƏMSAL TEXNOLOGİYALARIN İNKİŞAFININ MARKETİNQƏ TƏSİRİ

Natiq Əli oğlu Cavadov
cavadov1958@mail.ru
Zeynəb Namiq qızı Şikarova
Shikarova2001@mail.com
Azərbaycan Texnologiya Universiteti

Rəqəmsal texnologiyalar – informasiyaların toplanması, emalı, saxlanması və ötürülməsi üçün kompüterlərdə və digər elektron cihazlarda istifadə olunan texnologiyalar toplusudur. [5]

Rəqəmsal texnologiyaların inkişafı müasir marketinqə böyük və çoxşaxəli təsir göstərmişdir. Bu inkişaf marketinq strategiyalarının formalaşması, müştəri ilə əlaqələrin qurulması və məhsul və ya xidmətlərin göstərilmə üsullarında köklü dəyişikliklərə səbəb olmuşdur. Rəqəmsal marketinq alətlərinin yaranması ilə ənənəvi reklam formalarından (TV, radio, qəzet) fərqli olaraq yeni marketinq kanalları yaranmışdır. Bu alətlərə sosial media vasitələri olan Facebook, İnstagram, TikTok, LinkedİN və.s ilə marka daha çox hədəf kütləyə çatdırılması asanlaşmışdır. İnsanlar Google Ads, SEO və s, axtarış sistemləri vasitəsilə istədikləri məhsuılu və ya xidməti taparaq əldə edə bilirlər, həmçinin e-mail, mobil marketinq, tətbiqlər, veb-saytlar və bloglar vasitəsilə kampaniyalardan xəbərdar olurlar. Rəqəmsal marketinq — marketinq fəaliyyətini rəqəmsal texnologiyaların köməyi ilə həyata keçirmə prosesinə deyilir. Rəqəmsal marketinqin əsas məqsədi markanın, məhsulun və ya xidmətin internet vasitəsilə tanıdılmasıdır. Rəqəmsal marketinqin 1990-2000-ci illərdən bəri inkişafı marka və müəssisələrin marketinq üçün istifadə üsulunu dəyişdirərək marketinq planları və strategiyalarının yaradılmasına keçdi. İnsanlar fiziki dükanlara baş çəkmək əvəzinə rəqəmsal platformalardan istifadəsi rəqəmsal marketinq kampaniyalarının daha çox yayılmasına və səmərəli olmasına gətirdi. [3]

Müasir dövrdə inkişaf edən Süni İntellekt və proseslərin avtomatlaşdırması marketinqdə inqilabi dəyişikliklərə səbəb oldu. Belə ki, Chatbotlar vasitəsilə 7/24 müştəri xidmətinin verilməsi, avtomatik e-poçt göndərişi və səsli köməkçilər (Siri, Alexa və s) vasitəsilə verilən interaktiv reklamlar müştərilərə istədikləri zaman ehtiyacı olan məhsul, məlumat və ya xidməti almaqda yardımçı olur. Bu da müştəri məmnuniyyətinin və brendə olan sadiqliyinin artmasına səbəb olur. E-ticarət platformaları (Amazon, Etsy, Shopify, Trendyol, Temu və s), rəqəmsallaşan ödəniş sistemləri (PayPal, Apple Pay və s) və onlayn brend quruculuğu ilə həm ölkə daxilində, həm də ölkə xaricind satışları həyata keçirmək mümkündür. [4]

Cəmiyyətin və iqtisadiyyatın dayanıqlı inkişafı üçün rəqəmsal texnologiyaların mövcud resurslarından, dünya təcrübəsindən istifadə və dayanıqlı inkişaf üçün lazımi informasiyalarla təchiz edilməsi çox vacibdir, İqtisadiyyatın müxtəlif sahələrində tətbiqi, xalq təsərrüfatının bütün sektorlarında məhsuldarlığın yüksəldilməsi rəqəmsal texnologiyaların tətbiqi ilə sıx bağlıdır. Aparılan tətqiqatlar göstərir ki, rəqəmsal texnologiyalar iqtisadiyyatın və maliyyənin bütün ənənəvi sektorlarında mövcuddur. [2] Biznes haqqında məlumatlılığın yaradılmasında, brendin qurulmasında, müştəri bazasının və satışların artırılmasında marketinq böyük rol oynayır. Marketinq istənilən biznesdə ən vacib hissələrdən biridir və demək olar ki, biznesin effektiv inkişafı marketinq olmadan mümkün deyil. Marketinqin iki növü var: ənənəvi və rəqəmsal marketinq. Ənənəvi marketinqdə ünsiyyət bir istiqamətlidir, yəni təşkilat öz xidmətləri haqqında öz auditoriyası ilə telefon zəngləri və elektron məktublar vasitəsilə ünsiyyət qurur. Ənənəvi marketinq yerli auditoriyaya çatmaq üçün ən yaxşı vasitə olsa da, burada kampaniyalara daha çox vaxt sərf olunur, çünki layihələndirmə, hazırlamaq və işə başlamaq vaxt tələb edir. Bu kampaniyaların effektivliyini ölçmək demək olar ki, mümkün deyil. Marketinqdə rəqəmsal texnologiyaların tətbiqi ilə 1990-cı illərdə internetin geniş şəkildə yayılması ilə başladı. Rəqəmsal texnologiyaların inkişafı məhsul və xidmətlərin tanıtımı və satışı üçün vebsaytlar, proqramlar, mobil cihazlar, sosial media və axtarış sistemləri kimi rəqəmsal vasitələrdən istifadəni asanlaşdırdı. Belə ki, marketinqdə məhsul və satışı təşkil etmək üçün istifadə olunan rəqəmsal kanallar marketoloqlara kampaniyalar yaratmaq və effektivliyi ölçməyə imkan verir. [1]

Yeni və innovative texnologiyalar xidmətlərin effektivliyini və səmərəliliyini artıraraq yeni

inkanları inkişaf etdirməyə davam edir. Müştərilərin dəyişən arzu və ehtiyaclarını öyrənərək daha yaxşı xidmətlər göstərmək və prosesləri təkmilləşdirmək üçün rəqəmsal texnologiyaların inkişafını mənimsəmək, mümkün olan yerlərdə istifadə etmək və innovative olmaq bizneslərə düzgün marketinq strategiyaları qurmağa imkan verir. Buna görə də,rəqəmsal texnologiyaların marketinqdə tətbiq edilməsi dövrün əsas tələbi olaraq qalır. Rəqəmsal texnologiyaların inkişafı bizneslərə qlobal bazara çıxmağa və mövqe tutmağa imkan verərək daha çox müştəri cəlbinə və daha çox gəlir əldə etməyə kömək edir. Bu da rəqəmsal texnologiyaların inkişafının dövrün əsas tələbi olduğunun sübutudur.

ƏDƏBİYYAT

1. Digital Technology pdf.
2. Səbzəliyev M.M., Məmmədova A.İ., Hacızadə S.C. Rəqəmsal texnologiyaların cəmiyyətin və iqtisadiyyatın inkişafında həlledici rolu. 2023
3. Micael Dahlen, Fredrik Lange, Terry Smith. Marketing Communications: A Brand Narrative Approach. Hoboken. New Jersey: Chichester, West Sussex, United Kingdom : John Wiley Sons Ltd. 2010
4. https://www.durham.gov.uk/article/29603/Why-digital-technology-is-important
5. https://az.wikipedia.org/wiki/R%C9%99q%C9%99msal_marketinq

THE IMPACT OF DIGITAL TECHNOLOGY DEVELOPMENT ON MARKETING

Natig Ali oglu Javadov
cavadov1958@mail.ru
Zeynab Namig gizi Shikarova
shikarova2001@mail.com
Azerbaijan Technological University

The article discusses the impact of digital technologies on marketing and the development of digital marketing.

The rapid development of digital technologies in recent years has led to radical changes in the field of marketing. Thanks to digital technologies, companies can analyze consumer behavior and offer products and services that are tailored to their needs and desires. Social media marketing, email marketing, SEO (search engine optimization), PPC (pay per click) and influencer marketing are widely used methods in this field. Artificial intelligence and automation allow marketing processes to be managed more efficiently and in real time.

Key words: digital, technology, marketing, tools, development.

İNNOVASİYALI AQRAR İQTİSADİYYATIN İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Kənan Bahadır oğlu Süleymanzadə
suleymanzadekenan001@gmail.com
Azərbaycan Dövlət Aqrar Universiteti

Kənd təsərrüfatı istehsalının bütün sahələrində aqrar elmin ən mühüm nailiyyətləri innovativ fəaliyyətlə bilavasitə bağlıdır. Bu baxımdan aqrar sahədə innovasiyaların tətbiqinin aktivləşdirilməsinə yönəlmiş innovasiya siyasətinin inkişaf etdirilməsi son dərəcə vacibdir. İnnovasiyalar kənd təsərrüfatında istehsal sahələrinin inkişafının prioritetlərindən biridir. Məhz innovativ proseslərin yüksək keyfiyyətlə həyata keçirilməsi kənd təsərrüfatının dayanıqlığını təmin edə bilər. Bununla bağlı kənd təsərrüfatı istehsalının spesifikliyi nəzərə alınmaqla innovasiyalardan istifadə xüsusiyyətlərinin nəzərə alınması ən mühüm məsələlərdən hesab edilir.

Aqrar münasibətlərin transformasiyası, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi məqsədilə kənd təsərrüfatının elmi-texniki sferaya sistemli inteqrasiyasını təmin edən ənənəvi inkişaf modelindən innovativ inkişaf modelinə keçidlə səciyyələnir. Kənd təsərrüfatında innovasiya proseslərinin xüsusiyyətləri, o cümlədən innovasiyaların tətbiqinin genişləndirilməsi və tətbiqi, ilk növbədə iqtisadi inkişafın səmərəliliyinin yüksəldilməsini, innovasiyalara dövlət dəstəyini nəzərdə tutur. Məlumdur ki, hazırda aqrar iqtisadiyyatda

məhsuldarlığı və istehsal sistemlərinin elastikliyini artıran innovativ texnologiyalara ehtiyacı var. Bu, resurslara qənaət, riskin azaldılması, məhsulların keyfiyyətinin yaxşılaşdırılması, ətraf mühitin qorunması kimi mühüm məsələləri əhatə edir.

Aqrar iqtisadiyyatın innovativ inkişaf yolu bir-biri ilə əlaqəli və bir-birindən asılı olan istiqamətləri özündə birləşdirir: insan amili ilə bağlı yeniliklər, bioloji amillərlə bağlı yeniliklər və texnoloji yeniliklər.

Aqrar iqtisadiyyatın transformasiyası əməyin xarakteri ilə əlaqədar əsaslı dəyişiklikləri, bu çərçivədə əhalinin ümumi və peşə təhsili səviyyəsinin yüksəlməsini, ixtisaslı əməyin təmin olunmasını, əqli və yaradıcı funksiyaların xüsusi çəkisinin artırılmasını, insan fəaliyyətində fiziki əməliyyatların azaldılmasını nəzərdə tutur. [4, s.24] Qeyd etmək lazımdır ki, müasir yüksək texnologiyalı istehsal təkcə təhsilin keyfiyyəti ilə deyil, həm də məsuliyyət və işçilərlə ünsiyyət bacarıqları ilə səciyyələnən yeni xüsusiyyətlərə malik işçilər tələb edir. Təsadüfi deyil ki, "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin Sərəncamında "işçilərin innovasiya təşəbbüskarlığının və rəqəmsal texnologiyalardan istifadə bacarıqlarının təşviq edilməsi"nə xüsusi yer verilmişdir. [1]

Araşdırmalar göstərir ki, dövlət səviyyəsində xüsusi proqramların hazırlanması və həyata keçirilməsi ki, vətəndaşlarda kənd təsərrüfatının iqtisadi inkişafında innovativ fəaliyyətin rolu haqqında anlayışı formalaşdırmağı da nəzərdə tutur. Bununla əlaqədar olaraq təşkilati mədəniyyətin səviyyəsinin yüksəldilməsi üçün elmi-texniki proqramlar və layihələr, həmçinin elmi-texniki istiqamətlər üzrə tədqiqatçılar, reklam, marketinq, innovasiya fəaliyyətinin nəticələrinin satışı və həyata keçirilməsi üzrə mütəxəssislər, strateji idarəetmə və s. kimi mütəxəssislər hazırlanması xüsusi əhəmiyyət kəsb edir. [2, s.36]

Kənd təsərrüfatında innovasiya fəaliyyətinin növbəti istiqaməti bioloji amillərlə, o cümlədən bitki və heyvan genetik ehtiyatlarının qorunması və onların biomüxtəlifliyinin səfərbər edilməsi ilə bağlıdır. Bu baxımdan kənd təsərrüfatı bitkilərinin quraqlığa və şaxtaya davamlılığı, əsas xəstəliklərə dözümlülüyü, əldə edilən məhsulun keyfiyyəti əsas məsələlər kimi müəyyən edilir. Məlumdur ki, kənd təsərrüfatı biotexnologiyasının istehsalın artırılmasına təsir baxımından yüksək potensialı var. Hazırda gen mühəndisliyi texnologiyası aqrar sahədə ən böyük yeniliklərdən hesab olunur və davamlı kənd təsərrüfatı məhsullarının yaradılmasına imkan verir.

Kənd təsərrüfatında innovasiyaların digər istiqaməti texnoloji innovasiyalarla bağlıdır. Aparılan elmi-tədqiqat işlərinin bir çoxu bitki və heyvandarlığın idarə edilməsinin və təbii ehtiyat sistemlərinin təkmilləşdirilməsinə yönəlir. Bununla əlaqədar olaraq torpaq və su resurslarının idarə olunması, bərpa olunmayan resurslardan istifadənin azaldılması üçün bioloji və ekoloji proseslərdən istifadə edən aqroekoloji yanaşmalar xüsusi əhəmiyyətlidir. Belə istiqamətlərə kənd təsərrüfatının idarə edilməsində ən mühüm texnoloji inqilab hesab olunan bioloji azot fiksasiyası və paxlalı bitkilərin becərilməsi hesabına əldə edilən kimyəvi gübrələrə tələbatın azaldılması, kənd təsərrüfatı bitkilərinin zərərvericilərinə qarşı kompleks mübarizə və s. aid edilir. Eyni zamanda mövcud aqrosistemin məhsuldarlığa ən böyük təsiri təkmilləşdirilmiş sortların tətbiqi, idarəetmə texnologiyaları, ekoloji yanaşmaların inkişafı ilə əldə edilir. Beləliklə, aqrar sahənin qlobal rəqabət qabiliyyətini təmin etmək üçün bu cür inteqrasiyalı yanaşmanın formalaşdırlması vacibdir.

Kənd təsərrüfatı istehsalının məhsuldarlığı bu sahədə elmi-tədqiqat işlərinin maliyyələşdirilməsinə yönəldilmiş investisiyaların həcmindən bilavasitə asılıdır. İnnovasiyaya əlavə investisiya resurslarının cəlb edilməsinin ən səmərəli yollarından biri dövlət və aqrobiznes strukturları tərəfindən elmi-tədqiqat işlərinin birgə maliyyələşdirilməsinin həyata keçirilməsidir. Buna nail olmaq üçün elmi-texniki inkişafa investisiya cəlbediciliyinin təmin edilməsinə yönəlmiş institusional tədbirlərin müəyyən edilməsi zəruridir. Əsas kapitala yönəldilmiş investisiyaların dinamikasına nəzər saldqda məlum olur ki, son 5 ildə kənd təsərrüfatına yönəldilən investisiyaların həcmində müxtəlif istiqamətli dəyişikliklər baş

vermişdir. Belə ki, 2019-2021-ci illərdə investisiyaların məbləğində azalan xətt, müvafiq olaraq 769,5 mln.man., 520,6 mln.man və 341,9 mln.man. müşahidə edilir. 2022-2023-cü illərdə isə artım qeydə alınır - 408,0 mln.man. və 578,3 mln.man. Bununla yanaşı 2023-cü ildə 2019-cu illə müqayisədə əhəmiyyətli azalma (24,8%) baş verdiyini görmək olar. [5] Elmin sahələri üzrə tədqiqat və işləmələrə çəkilən daxili cari xərclərə nəzər saldıqda məlum olur ki, bu göstərici kənd təsərrüfatı üzrə 2019-cu illə müqayisədə 2023-cü ildə 45,3% artmışdır. [6]

Aqrar iqtisadiyyatın bazar transformasiyası şəraitində innovativ fəaliyyətə lazımi dövlət dəstəyinin həyata keçirilməsi və innovativ potensialın yaradılmasında özəl aqrobiznesin iştirakının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. İnnovasiya potensialının yaradılması kənd təsərrüfatında innovasiyaların stimullaşdırılmasına yönəlmiş aşağıdakı tədbirləri əhatə edir: istehsal sahələrinin texniki və texnoloji cəhətdən modernləşdirilməsi, investisiya fəaliyyəti, elit toxumçuluq, informasiya təminatı sisteminin yaradılması və s. [3, s.27]

Beləliklə, aqrar sahənin innovativ inkişafı istiqamətlərinə aşağıdakı komponentlərin daxil edilməsinin vacibliyini qeyd etmək olar:

- aqrobiznes subyektləri arasında innovasiyaların mənimsənilməsi ilə bağlı fəaliyyətlərin əlaqələndirilməsi;
- innovativ fəaliyyət üçün mütəxəssis hazırlığının çoxsəviyyəli sisteminin yaradılması;
- innovasiya fəaliyyəti üçün institusional infrastrukturun inkişafı;
- innovativ fəaliyyəti tənzimləyən və stimullaşdıran qanunvericilik sənədlərinin təkmilləşdirilməsi;
- aqrar iqtisadiyyatın dayanıqlı inkişafına xidmət edən ən mühüm innovativ layihələrin həyata keçirilməsi.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Azərbaycan Respublikasi Prezidentinin 10 yanvar 2019-cu il tarixli Sərəncamı
2. Abasova S.H. Texnologiyalar və yeniliklərin idarəedilməsi. Monoqrafiya. Azərnəşr. Bakı. 2008. 288 s.
3. Aqrar sahə modernləşmə dönəmində. Kollektiv monoqrafiya. Problemlər və onun həlli yolları. AMEA İqtisadiyyat İn-tu. 2009. 506 s.
1. Quluzadə M.M. İnsan amili və Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının sürətləndirilməsi. Monoqrafiya. Bakı 2015. 299 s.
4. https://www.stat.gov.az/source/agriculture/
5. https://www.stat.gov.az/source/education/

DEVELOPMENT FEATURES OF INNOVATIVE AGRICULTURAL ECONOMY

Kenan Bahadir oglu Suleymanzade
suleymanzadekenan001@gmail.com
Azerbaijan State Agricultural University

The most important achievements of agrarian science in all areas of agricultural production are directly related to innovative activity. In this regard, the development of an innovation policy aimed at activating the application of innovations in the agricultural sector is extremely important. Innovations are one of the priorities for the development of production areas in agriculture. It is precisely the high-quality implementation of innovative processes that can ensure the sustainability of agriculture. In this regard, taking into account the specifics of agricultural production, taking into account the features of the use of innovations is considered one of the most important issues.

Keywords: innovation, quality, efficiency, stimulation, agribusiness, modernization, financing.

İNSAN RESURSLARININ İDARƏ EDİLMƏSİNİN TARİXİ FAKTORLARI

Nicat Adil oğlu Nərimanov[1]
n.nerimanov@mail.ru
Xəyal Elxan oğlu Quluzadə[2]
xeyal.quluzade.93@mail.ru
Azərbaycan Dövlət Aqrar Universiteti[1]
Azərbaycan Texnologiya Universiteti[2]

Personal İdarəsi II Dünya müharibəsindən sonra ortaya çıxan idarə nəzəriyyələrinin nəticəsi olaraq, təkmilləşən bir anlayış kimi görsənsə də kökləri daha qədim dövrlərə qədər uzanmaqdadır. İlk maaş nisbətləri, öz qanunları ilə məşhur olan Babil hökmdan Ham-murabi tərəfindən e.ə. 1800-cü illərdə ortaya atılmışdır. Burada, e.ə. 1650-ci ildə Çinlilər tərəfindən ilk dəfə istifadə olunan iş bölümü və e.ə. 1220-ci ildə Hz. Musa tərəfindən əsası qoyulan təşkilatlanma və idarə sahəsi məfhumları işlənmişdir. E.ə. 400-cü illərdə personal keçişi problemindən ilk dəfə işlədən xalq yenə Çinlilər olmuşdur. Yames Wattın buxarla işləyən mexanizmi kəşf etməsi ilə başlayan Sənaye inqilabına qədər olan dövr ərzində bəşərİ3^ə- tin iş şəraitinin keçirdiyi mərhələlərə baxsaq, işləyən insanların ilk mərhələlərdə aristokratiya sinfi tərəfindən idarə və istismar olunan sadə qullar olduğunu görərik. Quldarlıq sistemində insan heç bir hüququ olmayan sadə bir işçi idi, alınıb satılır və tabe olduğu insanın məqsədləri istiqamətində istifadə olunurdu. İstedadlı usta köməkçilərinin seçilməsi, işlə əlaqədar təlim və tərbiyə qaydaları, alt-üst münasibətləri, əməyin qiymətləndirilməsi sistemləri və iş şəraiti kimi anlayışlar iş həyatına girməyə başladı. XVIII-ci əsrdə Sənaye inqilabı ilə yeni bir enerji mənbəyi yarandı; buxar enerjisi. Nəticədə sürətli mexanikləş- mə, bir fransız ifadəsi olan "qoyun etsinlər" (laissez faire) məfhumu ilə yeni bir iqtisadi anlayış ortaya çıxdı. Adam Smitin iqtisad elminə gətirdiyi "gizli əl" nəzəriyyəsi - insanların öz ehtiyaclarını ödəyərkən əslində bilmədən də olsa bütün xalqın mənfəəti və rifahı üçün təşəbbüs göstərmək ruhu-inkişafı sürətləndirdi. Təşəbbüslük ruhunun sürətlənməsilə sərmayə qoyan yeni burjuaziya sinfi əmələ gəldi, mexanikləşmə artdı və insanlar işlərini öz evlərində görmək əvəzinə, fabrik və sexlərdə işləməyə, beləcə kütləvi istehsalın bir hissəsi olmağa başladılar. Ancaq fabrik sisteminin inkişafı və bu sistemin meydana gətirdiyi iş şəraiti işçilər üçün vaxt keçdikcə daha da dözülməz olurdu. Artıq insanlar sahibi olmadıqları bir istehsal üçün səs- küy, uzun iş saatları, iş qəzaları, yorğunluq kimi problemləri yaşamaq məcburiyyətində qalırdılar. Bu illərdə personal idarəsi anlayışı tarixində mühüm yer sahibi olan Robert Owen məhsuldarlığı artırmaq üçün iş şəraitini yaxşılaşdıran bəzi tədbirlər həyata keçirdi. Fabriklərində fiziki iş şəraitini yaxşılaşdırmaqla yanaşı, iş saatlarını da gündə 12 saatdan 10 saata qədər azaltdı. Bu digər tərəfdən fabriklərdə daha ucuz işçi qüvvəsi sayılan, geniş yayılmış uşaq əməyindən istifadə etmənin qarşısını aldı. [8, 11]

Birinci və ikinci dünya müharibəsi dövründə insan resurslarının idarə edilməsi

Bu illərdə I Dünya müharibəsinin başlaması ilə, orduya düzgün insanlann seçilməsi üçün psixoloji testlərdən istifadə edilməyə başlandı. Beləliklə, personal seçimində standartlaşmanın təmin edilməsi (bu təkcə ordu üçün keçərli olsa da) tarixdə ilk dəfə insan resursları ədəbiyyatına girmiş oldu. Marks və Engelsin Avropadakı bütün cəhdlərinə baxmayaraq, Amerika 1929-cu ildə başlayan "Böyük böhran"a qədər kapitalist sistemini çoxdan qurmuşdu. Böyük böhranm başlaması ilə 1930-cu ildə işsizlərin sayı 4.6 mln- a, 1933-cü ildə isə 13 mln-a yüksəldi. Belə olan halda 1935-ci ildə Ruzvelt tərəfindən həmkarlar ittifaqları, işsizlik sığortası, aylıq pensiyalar, zədələnmə və ölüm hallarında ödəmələr kimi tədbirlər həyata keçirilməyə başlandı. Böyük böhrandan sonra II Dünya müharibəsi ilə istedadlı işçilərin orduya çağırılmasından ehtiyat edilməsi və işçilərin pis olan əhval-ruhiyyələrinin yaxşılaşdırılması üçün Sənaye Psixologiyası və Mədəni Antropologiya kimi anlayışlar ortaya çıxmağa başladı. İşçilərin işlərinə olan bağlılıqlannın artması üçün ilk dəfə "əlavə qazanc" anlayışı ortaya çıxdı. Artıq işçilər maaşlarından başqa yemək, yol, geyim, tətil xərcləri

kimi əlavə ödəmələrlə təmin edilirdi. [11, 3]

Nəticə.

1. XIX əsri xarakterizə edən xüsusiyyətlər sosial ədalətsizlikdir. İşəgötürənin davranışları tənqid atəşinə tutulur.

2. İşəgötürənin davranış tərzi bəzi dəyişikliyə uğramış, bəzi irəliləyişlər olmuşdur. İşçilərə yardımlar və haqlar verilmişdir. Məs., uşaqların doğulması, sağlamlıq sığortası kimi.

3. Fizioloji şərtlərdə bəzi düzəlişlər baş vermişdir. İdarəçilikdə ixtisaslaşdırma, müəssisələrin böyüməsi halları müşahidə edilir. Bəzi seçmə, təhsil, işə yerləşdirmə kimi proseslər meydana gəlmiş, ağır olan iş şərtlərində zəifləmə baş vermişdir. Bürokratizm hökm sürmüş, işəgötürənə xidmət etmək əvəzinə təşkilata xidmət əhəmiyyət qazanmışdır. Bəzi Sosial elmlərin təzahürü də bu dövrdə baş vermişdir. Teylor (1911) «İdarəçilik qanunları» Fayol (1949) «İnsan əlaqələri» 31 işçilərlə bağlı qeydlər etmək, onların fəaliyyətlərini izləmək kimi bəzi tədbirlər həyata keçirilmişdir.

4. İşəgötürənlərlə bəzi münasibətlərin yaranması. Həmkarlar İttifaqmın yaradılması və müəssisələrdə əhəmiyyət kəsb etməsi. II Dünya müharibəsindən sonra işçi qüvvəsinə olan tələbatda müəyyən azalma meydana gəlmişdir. Rəhbərliklə işçilər arasında konsensus yaranmışdır. [10, 3]

5. Müəyyən məqsədlər istiqamətində müəssisənin tam bu- varlıq kimi effektli işləməsinə nail olmaq.Təşkilat üzvlərinin hər birini açıq-aşkar müəyyən edilən məqsədlərə uyğun çalışmalarının təmin edilməsi, idarəçilik və idarəetmə funksiyalarının əhəmiyyət qazanması və bu istiqamətdə həyata keçirilən inkişaf tədbirləri ilə sıx əlaqədardu.

6. Texniki tərəqqi və demoqrafik dəyişikliklər, insan resurslanna olan ehtiyacın müəyyən edilməsində vacib şərtlərdən olduğunu təsdiq edir. İşçilərin sayı və qabiliyyətləri arasında bir mütənasiblik yaratmaq, kompyuter və digər texniki vasitələrin köməyi ilə işləmə prinsipi, texniki tərəqqinin inkişaf səviyyəsinə bağlıdır. Altı maddədə izah edilən bu inkişaf prosesləri şəxslərin idarə edilməsi fəaliyyətinin əsasını təşkil edir. Keçən əsrin 80-ci illərindən bəri «İnsan resurslarmın idarə edilməsi» və müəssisələrdə bu bölmənin yaradılması artıq insanın varlığına verilən qiyməti daha da artırmışdır.

ƏDƏBİYYAT

1. Quliyev T.Ə. Əməyin sosiologiyası. Bakı. 1998. 127 s
2. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. Bakı. 2001. 241 s
3. Quliyev T.Ə. Əməyin iqtisadiyyatı. Bakı. 2003. 165 s
4. Quliyev A. Sosial təminat məsələləri haqqında qanunvericilik toplusu. Bakı. 2006. 211 s
5. Şahbazov K., T.Muradov Ş. və başqaları. Menecment. İnsan potensialı: əsas meyillər, reallıqlar, problemlər. Bakı. Elm. 2005. 189 s
6. Qasımov F.H. Sahibkarlığın əsasları. Bakı. 2006. 98 s
7. Mehbalıyev S., İsgəndərov R. "Əmək bazarı və əhalinin sosial müdafiəsi". 2002. 123 s
8. Əliyev M.Ə., Həmidov H.İ. "İnsan resurslarının idarə edilməsi". Bakı. 2002. 121 s
9. Baird L., Meshoulam I. Managing Two Fits of Strategic Human Resource Management, Academy of Management Review. 1988. p.l16-128
10. Becker Brian E., Huselid Mark A. Strategic Human Resources Management: Where Do We Go From Here. Journal of Management. 32 (6), 2006. p.898-925
11. Begin, J.P. Identifying Patterns in HRM Systems: Lessons Learned from Organizational Theory. Research in Personnel and Human Resource Management. Supplement. 3. 1993. p.3-20

HISTORICAL FACTORS OF HUMAN RESOURCE MANAGEMENT

Nicat Adil oglu Narimanov[1]
n.nerimanov@mail.ru
Khayal Elkhan oglu Quluzade[2]
xeyal.quluzade.93@mail.ru
Azerbaijan State Agricultural University[1]
Azerbaijan Technological University[2]

Human resource management has developed in parallel since the dawn of mankind. Relationships between people form the basis of human resource management.

The factors influencing these relationships change and evolve. The source of these factors is the social, political, technical and cultural environment. Human resource management is gradually giving way to the concept of human capital management. If we look at the history of the development of this concept, we will see that it actually originated as an extension of the HR department.

Keywords: human factor, human resources, management, management in business.

BƏZİ MONETAR VƏ FİSKAL GÖSTƏRİCİLƏRİN İNFLYASİYAYA TƏSİRLƏRİ: AZƏRBAYCAN TİMSALINDA

Mayis Gulaliyev
mayis_gulaliyev@yahoo.com
Azərbaycan Texnologiya Universiteti

Tədqiqatın nəticələri sübut edir ki, dövlət xərcləri inflyasiyanı həm qısa, həm də uzunmüddətli dövrdə artır, milli valyutada minimum əmək haqqı inflyasiya üzərində müsbət, PPP ilə ölçülən əmək haqqı isə mənfi təsir göstərir. İşsizlik səviyyəsi ilə inflyasiya arasında isə əks istiqamətli əlaqə müşahidə olunur, yəni işsizliyin artması inflyasiyanı azaldır. Bu nəticələr Phillips əyrisi ilə uzlaşır.

I. Giriş

Tədqiqatda dörd makroiqtisadi göstəricinin, yəni a)MW_PPP (minimum wage in PPP); b)MW_NC (minimum wage in national currency); c)$Unemp$ (unemployemnt rate); d)Gov_exp (government expenditutes in GDP) inflyasiyaya təsirini Azərbaycan timsalında empirik olaraq, qiymətləndirməyə çalışacağıq. Qeyd edək ki, Azərbaycan neft və qaz ixrac edən ölkədir. 1995-2021-ci illər arası dövrdə Azərbaycanın resurs rentasının ÜDM həcmindəki payı minimum 5.3%-dən (1998-ci il) maksimum 43% (2008-ci il) intervalında dəyişib. Neft ixrac edən ölkələrdə inflyasiyanın determinantları və bu göstəricilərdən asılılığı bir qədər fərqli ola bilər. Bunu nəzərə alaraq, yuxarıdakı determinantlara xüsusi önəm verilib. Xüsusilə, minimum əmək haqqının yüksək olmaması və muzdlu işçilərin cəmi məşğulluqda payının az olması neft ixrac edən və inkişaf etməkdə olan əksər ölkələr üçün xarakterikdir.

I. Ədəbiyyata baxış

Minimum əmək haqqının (MƏH) makroiqtisadi təsirlərinə, o cümlədən iqtisadi artıma, inflyasiyaya, gəlir bərabərsizliyinə təsirlərinə həsr edilən tədqiqatlara iqtisadi ədəbiyyatda tez-tez rast gəlinir. Məsələn, [1], [2], [3] və başqa tədqiqatlarda MƏH-nın inflyasiyaya mümkün təsirlərini empiric olaraq, qiymətləndirilib. MƏH-nın inflyasiyaya təsirinə həsr edilən müxtəlif tədqiqatların nəticələrinə əsasən MƏH Məcmu Tələbi Artırır. Həmçinin daha yüksək əmək haqqı aşağı gəlirli işçilərin alıcılıq qabiliyyətini artırır. Digər tərəfdən, MƏH gəlir bərabərsizliyini azaldır. [4] Lakin MƏH siyasətinin pozitiv təsirləri ilə yanaşı neqativ təsirlərinin olması da iddia edilir. Birincisi, iddia edilir ki, MƏH-nın müəyyən səviyyədən yuxarı təyin edilməsi işsizliyi artırır. ([5]; [6])

III. Metodologiya

Tədqiqat zamanı dəyişənlər üçün descriptive statistics, stationarity testləri aparılmış

və OLS və RLS metodları vasitəsilə alınan nəticələrdə qalıqların normallığı yoxlanılmışdır.

ARDL modelinin tətbiqi zamanı alınan nəticələrin əhəmiyyətliliyi və uyğunluğu, həmçinin Uzunmüddətli və Qısamüddətli Münasibətlərin Yoxlanması üçün, uyğun olaraq, ARDL Bounds Testi və ECM Modeli tətbiq edilmişdir. Modelin etibarlığını artırmaq üçün zəruri dioqnostik teslər aparılmışdır. Modeldə qırılmanı olmasını, yəni hər hansı dövrdə baş verən hadisənin modeldəki sabitliyi pozmasını yoxlamaq üçün dummy dəyişəndən (dummy-2015) istifadə edilmişdir. Belə ki, 2015-ci ili Azərbaycan iqtisadiyyatı üçün ciddi dəyişiklik ili hesab etmək olar. Çünki 2015-ci ildə manatın iki dəfə ciddi devalvasiyası baş vermiş və bir il ərzində milli valyuta 2 dəfə dəyərdən düşmüşdür. Bunu nəzərə alaraq, "$dummy - 2015$" dəyişənini ARDL modelinə daxil edərək yenidən qiymətləndirmə aparılmışdır.

IV. Hesablamaların nəticəsi

Hesablamalar göstərir ki, "Inflation" dəyişəni həm "Level", həm də "first difference" səviyyəsində stasionardır. Digər dəyişənlərin əksəriyyəti qeyri-stasionar olub, yalnız birinci fərq səviyyəsində (I(1)) stasionar olurlar. Bu, həmin dəyişənlər üçün uzunmüddətli trendlərin mövcud olduğunu göstərir. Gov_exp isə nə səviyyə, nə də birinci fərqdə stasionarlıq təmin etməyib, bu da mümkün struktur qırıqları və ya qeyri-linearlıq ehtimalını göstərə bilər. Odur ki, həm OLS modelində I(0) səviyyədə stasionar olan dəyişənlərdən istifadə edəcəyik.

Hesablamalar göstərir ki, dövlət xərclərinin inflyasiyaya təsiri çox böyükdür (81.22), bu, genişləndirici fiskal siyasətin qiymət artımına səbəb olduğunu göstərir. Milli valyutada minimum əmək haqqının artımı inflyasiyanı artırır, çünki daha çox gəlir istehlakı artırır və tələb yönümlü inflyasiya yaradır. PPP ilə minimum əmək haqqının artımı isə inflyasiyanı azaldır, bu, beynəlxalq qiymət səviyyələrinin təsirini göstərə bilər. İşsizlik artanda inflyasiya azalır, bu isə Phillips əyrisi nəzəriyyəsinə uyğun gəlir. Akaike Information Criterion seçimə uyğun olaraq ARDL(2, 2, 2, 1, 2) modeli 1997 – 2023-cü illəri əhatə edən (27 il) məlumatlar əsasında qurulub.

ARDL modelinin nəticələrinə əsasən dəyişənlər arasında uzunmüddətli əlaqənin (cointegration) olmasını yoxlamaq üçün Bound testindən istifadə edəcəyik. Bu test dəyişənlərin fərqli səviyyələrdə stasionarlıq (I(0) və ya I(1)) göstərdiyi hallarda, həmçinin kiçik həcmli məlumat dəstələrində daha yaxşı tətbiq edilə bilir.

Bounds Test nəticələrinə görə inflyasiya ilə tədqiqata cəlb edilən makroiqtisadi göstəricilər arasında uzunmüddətli əlaqə mövcuddur (F-statistic kritik hədləri üstələyir). Belə ki, hökumət xərcləri həm Uzunmüddətli, həm də qısa müddətli dövrdə inflyasiyanı artırır. Minimum əmək haqqının PPP ilə ölçülən dəyəri isə həm uzunmüddətli, həm də qısamüddətli dövrdə inflyasiyanı azaldır. İşsizlik isə qısamüddətli dövrdə inflyasiyanı azaldır.

Error Correction Modelin nəticələri isə sübut edir ki, qurulan ARDL modeli tarazlıqdan çıxanda sürətli şəkildə tarazlığa qayıdır. Belə ki, ECM əmsalı (EC term): INFLATION(-1) = -1.3863, P-dəyəri isə kifayət qədər əhəmiyyətlidir (p=0.0000). ECM əmsalı mənfi və statistik əhəmiyyətli olduğundan iddia edə bilərik ki, model tarazlıqdan çıxanda, uzunmüddətli tarazlığa doğru geri qayıdır. ECM=-1.3863) olması deməyə əsas verir ki, hər il tarazlıqdan 138.6% düzəliş edilir, yəni sistem çox sürətlə tarazlığa qayıdır. Bu nəticələr sübut edir ki, Azərbaycanda inflyasiyanın əsas uzunmüddətli determinantları hökumət xərcləri və əmək haqqıdır. Qısamüddətli dövrdə isə işsizlik və əmək haqqı siyasətləri inflyasiyaya əhəmiyyətli təsir edir.

Qurulan ARDL modelinin diaqnostik testləri də modelin adekvat olmasını bir daha təsdiq edir. Modeldə qırılmanı olmasını, yəni hər hansı dövrdə baş verən hadisənin modeldəki sabitliyi pozmasını yoxlamaq üçün dummy dəyişəndən (dummy-2015) istifadə edə bilərik.

Dummy Dəyişən Yanaşması ilə Chow Breakpoint Testinin Nəticələri göstərir ki, DUMMY_2015 dəyişəni struktur qırılmanı test edir. p-dəyəri = 0.6987 (0.05-dən böyükdür), yəni 2015-ci ildən sonra struktur qırılma statistik olaraq əhəmiyyətli deyil. t-statistikası = -0.3974 çox kiçikdir, bu da təsirin zəif olduğunu göstərir. Bu nəticələr sübut edir ki, 2015-ci ildən sonra inflyasiya ilə digər dəyişənlər arasındakı əlaqədə ciddi struktur dəyişiklik yoxdur. Dövlət xərcləri inflyasiyanı artırır (pozitiv təsir, $p < 0.01$). Lakin, iki dövr geridə qaldıqda (t-2), əks təsir göstərir ($p < 0.01$), yəni xərclər uzunmüddətli dövrdə inflyasiyanı azalda bilər.

V. Nəticə

Modelin nəticələrini və adekvatlığını nəzərə alaraq, iddia edə bilərik ki, Azərbaycanda 2015-ci ildə baş verən develvasiya inflyasiya ilə digər dəyişənlər arasındakı əlaqədə əhəmiyyətli struktur qırılmasına səbəb olmayıb. Yəni 2015-ci ildən əvvəl və sonra modelin əsas parametrləri statistik olaraq ciddi dəyişiklik göstərmir. Lakin, bəzi dəyişənlərin, məsələn, PPP ilə minimum əmək haqqı və dövlət xərclərinin təsiri zamanla dəyişir.

ƏDƏBİYYAT

1. Majchrowska A. Does the minimum wage affect inflation?. Ekonomista. 4. 2022. pp.417-436.
2. Dervishi B. The effect of minimum wage increases on inflation. International Journal of Research in Business and Social Science. 12(3). 2023. pp.258-262
3. Pérez J. P. The minimum wage in formal and informal sectors: Evidence from an inflation shock. World Development. 133. 104999. 2020
4. Gulaliyev M., Veliyeva S., Sultanova N., Mehdiyeva I. & Gulaliyev E. Impact of Minimum Wage Policy on Income Inequality: Azerbaijan Case. WSEAS Transactions on Business and Economics. Vol.20. 2023. pp. 2121-2137.
5. Paun C. V., Nechita R., Patruti A. & Topan M. V. The impact of the minimum wage on employment: An EU panel data analysis. Sustainability. 13(16). 9359. 2021
6. Neumark D. Employment effects of minimum wages. IZA World of Labor. 2018

THE EFFECTS OF SELECTED MONETARY AND FISCAL INDICATORS ON INFLATION: THE CASE OF AZERBAIJAN.

Mayis Gulaliyev
mayis_gulaliyev@yahoo.com
Azerbaijan Technological University

The results of the study confirm that government expenditures increase inflation both in the short and long term. The minimum wage in national currency has a positive effect on inflation, while the minimum wage measured in PPP terms has a negative impact. An inverse relationship is observed between the unemployment rate and inflation—an increase in unemployment leads to a decrease in inflation. These findings are consistent with the Phillips curve.

Keywords: inflation, minimum wage, government expenditures, unemployment, ARDL models.

RƏQƏMSALLAŞMA VƏ MALİYYƏ TEXNOLOGİYALARININ YAŞIL İQTİSADİYYATA TƏSİRİ

Tamella Süleyman qızı Əhmədova[1]
Tamellaehmedova56@gmail.com
Xəqani Ehtiram oğlu Kazımov[2]
Xeqanikazimov51@gmail.com
Azərbaycan Texnalogiya Univerisiteti[1]
Gəncə Dövlət Universiteti[2]

Rəqəmsal şəffaflıq və izlənəbilərlik imkanları, yaşıl iqtisadiyyatın əsas komponenti olan etimadın gücləndirilməsində həlledici rol oynayır. Məsələn, rəqəmsal sertifikatlaşdırma texnologiyaları yaşıl layihələrin həqiqətən davamlı olub-olmadığını təsdiq etməyə imkan verir. [10]

İqlim dəyişikliyi və ətraf mühitin sürətlə pisləşməsi qlobal miqyasda iqtisadi və sosial sistemlər üçün mühüm çağırışlar yaradır. Bu çağırışlara cavab olaraq, yaşıl iqtisadiyyat və yaşıl maliyyə anlayışları sürətlə ön plana çıxmışdır. [1] Yaşıl maliyyə, ətraf mühitin qorunmasını və davamlı iqtisadi inkişafı maliyyələşdirmə vasitəsilə dəstəkləyən maliyyə strategiyalarını özündə ehtiva edir. [2]

Blokçeyn texnologiyası, məlumatların dəyişdirilə bilməyən və dağıdılmış şəkildə saxlanılması ilə şəffaflıq və izləmə imkanlarını artırır. [3; 5] Bu xüsusiyyətlər, yaşıl istiqrazlar, karbon kreditləri, enerji tokenləri kimi yaşıl maliyyə alətlərinin effektivliyini əhəmiyyətli dərəcədə artırır. [5] Blokçeyn əsaslı sistemlər vasitəsilə investorlar, dövlət qurumları və ictimaiyyət, investisiyaların real ekoloji təsirini daha dəqiq izləyə bilir. Beləliklə, texnologiya yalnız maliyyə axınlarını deyil, həm də yaşıl transformasiya proseslərini daha şəffaf və hesabatlı hala gətirir. [4,6]

Rəqəmsallaşma qlobal iqtisadi sistemlərin transformasiyasında həlledici rol oynadığı kimi, yaşıl iqtisadiyyatın formalaşmasında da mühüm əhəmiyyət kəsb edir. Xüsusilə maliyyə texnologiyalarının (FinTech) inkişafı, ekoloji və sosial məsuliyyət daşıyan maliyyə qərarlarının verilməsini sürətləndirmişdir. [7]

Rəqəmsal texnologiyalar arasında süni intellekt (AI) və böyük məlumat (big data) sistemləri, ekoloji layihələrin effektivliyini qiymətləndirmək, karbon emissiyalarını izləmək və enerji istehlakını optimallaşdırmaq baxımından xüsusilə diqqətəlayiqdir. [8]

Eyni zamanda, avtomatlaşdırılmış qərar sistemləri və rəqəmsal portfellər, fərdi və institusional investorların yaşıl istiqamətli maliyyə alətlərinə daha sürətli çıxışını təmin edir. [9] Bu, bazarda yaşıl investisiyaların likvidliyini və əlçatanlığını artırır. Kriptovalyuta əsaslı platformalarda da yaşıl layihələrə dəstək məqsədilə tokenləşdirilmiş aktivlər və blokçeyn əsaslı maliyyələşdirmə mexanizmləri meydana çıxmaqdadır (bunun detalları növbəti bölmədə açılacaq).

Rəqəmsallaşma və maliyyə texnologiyalarının yaşıl iqtisadiyyata verdiyi töhfə yalnız nəzəri deyil, bir çox ölkənin praktikasında da konkret nəticələr doğurmuşdur. Qlobal səviyyədə, xüsusilə Avropa İttifaqı ölkələri, Çin və Skandinaviya regionu (Aİ üzvü və qeyri-üzv ölkələr daxil olmaqla), rəqəmsal texnologiyaları yaşıl iqtisadiyyatın əsas sürücüsünə çevirməyə nail olmuşlar.

Avropa İttifaqı çərçivəsində qəbul edilmiş "Rəqəmsal Yaşıl Saziş" təşəbbüsü, yaşıl keçidi rəqəmsal innovasiyalar vasitəsilə həyata keçirməyi hədəfləyir. Məsələn, EU Green Digital Finance Alliance layihəsi çərçivəsində süni intellekt və blokçeyn texnologiyalarının birləşdirilməsi ilə yaşıl investisiya axınlarının izlənməsi və təsnifatı sistemləri yaradılmışdır. [11]

Çin, 2021-ci ildən başlayaraq yaşıl kreditləşmə və süni intellekt əsaslı risk analizləri sahəsində irəliləyiş əldə etmişdir. Çin Xalq Bankı rəqəmsal platformalarda yaşıl kredit portfellərinin monitorinqi üçün blockchain əsaslı "Green Finance Information Management System" layihəsini işə salmışdır. [12]

Azərbaycanda isə rəqəmsallaşmanın yaşıl iqtisadiyyata inteqrasiyası yeni-yeni

formalaşmaqdadır. Bununla belə, son illərdə bir sıra irəliləyişlər müşahidə olunur. Mərkəzi Bankın 2022-ci ildə qəbul etdiyi "Rəqəmsal Ödənişlər Strategiyası", nağdsız iqtisadiyyatın və rəqəmsal maliyyənin inkişafını dəstəkləməklə yanaşı, ekoloji yükün azaldılmasına da dolayı töhfə verir. [13] Əlavə olaraq, 2023-cü ildən etibarən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən rəqəmsal izleme texnologiyalarının pilot yaşıl layihələrdə tətbiqi nəzərdə tutulmuşdur.

Nəticə və təklif.

Bütün bu texnoloji inkişaflar, yaşıl maliyyə sektorunda informasiya assimetrikliyini azaltmaqla, bazar effektivliyini artırır. Beləliklə, rəqəmsallaşma yaşıl iqtisadiyyatın yalnız iqtisadi deyil, həm də sosial və institusional cəhətdən dayanıqlı inkişafına təkan verir.

İstər vətəndaşlar, istərsə də biznes subyektləri arasında yaşıl maliyyə alətləri və rəqəmsal texnologiyalar haqqında biliklərin artırılması üçün təlim və təşviq proqramları həyata keçirilməlidir. Bu, həm də yaşıl iqtisadiyyətin cəmiyyətdə qəbul olunmasını sürətləndirər. [14]

ƏDƏBİYYAT

1. United Nations Environment Programme (UNEP). Global Status Report on Sustainable Finance 2021. 2021

2. International Finance Corporation (IFC). Green Finance. A Bottom-Up Approach to Track Existing Flows. 2020

3.Tapscott D. & Tapscott A. Blockchain Revolution: How the Technology Behind Bitcoin is Changing Money, Business, and the World. Penguin. 2016

4.World Economic Forum. Blockchain for Sustainable and Inclusive Finance. 2020

1. Zohar A. Bitcoin: under the hood. Communications of the ACM. 58(9). 2015. pp.104–113

5.Chenet H., Ryan-Collins J. & van Lerven F. Finance, climate-change and radical uncertainty: Toward a precautionary approach to financial policy.Ecological Economics. 2021. p.183

6.Arner D. W., Barberis J. & Buckley R. P. The Evolution of Fintech: A New Post-Crisis Paradigm? Georgetown Journal of International Law. 47. 2016. pp.1271–1319.

7.Wang Y., Han J. & Beynon-Davies P. Understanding blockchain technology for future supply chains: a systematic literature review and research agenda. Supply Chain Management: An International Journal. 24(1). 2019. 62–84.

8.Gomber P., Kauffman R. J., Parker C. & Weber B. W. On the Fintech Revolution: Interpreting the Forces of Innovation, Disruption, and Transformation in Financial Services.Journal of Management Information Systems. 35(1). 2018. pp.220–265.

9.Chen Y. & Volz U. Green Finance and Climate Policy: Empirical Evidence from Fintech and ESG Performance. Ecological Economics. 2021. p.190

10.European Commission. Digital Finance for Sustainability: The EU Green Digital Finance Alliance. 2021

11.Liu Z. & Zhang Y. China's blockchain-powered green finance strategy: Opportunities and challenges. Journal of Sustainable Finance & Investment. 12(4). 2022. pp.321–338.

12.Azərbaycan Respublikası Mərkəzi Bankı. Rəqəmsal Ödənişlər üzrə Milli Strategiya (2022–2026). 2022

13.OECD Green Finance and Investment: Mobilising Bond Markets for a Low-Carbon Transition. 2021

IMPACT OF DIGITALIZATION AND FINANCIAL TECHNOLOGIES ON GREEN ECONOMY

Tamella Suleyman gizi Ahmadova[1]
Tamellaehmedova56@gmail.com
Xagani Ehtiram oglu Kazimov[2]
Xeganikazimov51@gmail.com
Azerbaijan Technological University[1]
Ganja State University[2]

Climate change and rapid environmental degradation pose significant challenges to economic and social systems globally. In response to these challenges, the concepts of green economy and green finance have rapidly come to the fore. Green finance encompasses financial strategies that support environmental protection and sustainable economic development through financing.

Keywords: technology, Climate change, artificial intelligence, Digitalization, integration.

"TURKISH AIRLINES"DA KORPORATİV İDARƏETMƏ: BEYNƏLXALQ STANDARTLARA UYĞUN MODELİN TƏHLİLİ

Səbuhi İsmayılov
Sebuhi.ismayilov.2020@bk.ru
Milli Aviasiya Akademiyası

Korporativ idarəetmə müasir dövrdə yalnız iri maliyyə institutları və transmilli korporasiyalar üçün deyil, həm də strateji sektorlarda fəaliyyət göstərən milli şirkətlər üçün vacib bir idarəetmə konsepsiyasına çevrilmişdir. Qloballaşmanın və rəqabətin artması fonunda təşkilatların dayanıqlı inkişafını təmin edən əsas amillərdən biri, onların şəffaf, hesabatlı, ədalətli və məsuliyyətli fəaliyyət göstərə bilməsidir. Korporativ idarəetmə məhz bu dörd əsas prinsipə əsaslanaraq, maraqlı tərəflərin hüquqlarının müdafiəsi, menecment fəaliyyətinin nəzarətdə saxlanılması, strateji qərarların səmərəli şəkildə qəbul olunması və təşkilatın uzunmüddətli dəyərinin artırılması məqsədinə xidmət edir.

Korporativ idarəetmənin effektivliyi yalnız daxili struktur və normativ mexanizmlərlə deyil, eyni zamanda şirkətin fəaliyyət göstərdiyi hüquqi, iqtisadi və sosial mühitlə də sıx əlaqəlidir. Bu kontekstdə korporativ idarəetmə sistemi, müəssisənin əməliyyat səmərəliliyini və bazar reputasiyasını qorumaqla yanaşı, investor inamının formalaşmasında, institusional şəffaflığın təmin olunmasında və sosial məsuliyyət çərçivələrinin qurulmasında da mühüm rol oynayır. Elə bu səbəbdən də inkişaf etmiş ölkələrdə olduğu kimi, inkişaf etməkdə olan iqtisadiyyatlarda da korporativ idarəetmə prinsipləri milli strategiyalara daxil edilməyə başlamışdır. [2, s. 44]

Xüsusilə strateji sektorlar arasında yer alan hava nəqliyyatı sahəsi, yüksək texnoloji risklər, ciddi tənzimləyici çərçivələr və beynəlxalq rəqabət mühiti səbəbindən daha güclü və effektiv korporativ idarəetmə sisteminə ehtiyac duyur. Bu sahədə fəaliyyət göstərən şirkətlər yalnız sərnişin daşımalarını deyil, eyni zamanda beynəlxalq əlaqələrin, turizmin və milli təhlükəsizliyin vacib bir hissəsini təşkil etdiklərindən, onların idarəetmə modelləri də çoxşaxəli və normativ cəhətdən zəngin olmalıdır. [3, s. 67]

Bu baxımdan, "Turkish Airlines" aviaşirkəti, regional və qlobal aviasiya sektorunda uğurla tətbiq etdiyi korporativ idarəetmə modeli ilə seçilən nümunəvi təşkilatlardan biridir.

"Turkish Airlines" aviaşirkətinin korporativ idarəetmə sistemi, beynəlxalq aviasiya sektorunun dinamik və rəqabətli mühitində dayanıqlı inkişaf və strateji rəhbərlik üçün nümunəvi bir model təqdim edir. Şirkət, şəffaflıq, hesabatlılıq, ədalətlilik və məsuliyyət prinsiplərinə əsaslanaraq, həm milli, həm də beynəlxalq korporativ idarəetmə standartlarına uyğun fəaliyyət göstərir. [1, s. 128]

Şirkətin idarəetmə strukturu, müxtəlif səviyyələrdə qərar qəbul etmə proseslərini effektiv şəkildə həyata keçirmək üçün qurulmuşdur. Bu struktur, İdarə Heyəti, İcra Komitəsi və digər

müvafiq komitələrdən ibarətdir. İdarə Heyəti, şirkətin strateji istiqamətini müəyyənləşdirir və onun fəaliyyətini nəzarətdə saxlayır. İcra Komitəsi isə gündəlik əməliyyatların idarə olunmasında mühüm rol oynayır. Bu komitələr şirkətin fəaliyyətinin müxtəlif aspektlərini əhatə edən Audit Komitəsi, Korporativ İdarəetmə Komitəsi və Risklərin Erkən Aşkarlanması Komitəsi kimi strukturlarla dəstəklənir.

"Turkish Airlines"ın səhmdar strukturu da korporativ idarəetmənin şəffaflığını və effektivliyini təmin etmək üçün mühüm əhəmiyyət kəsb edir. Şirkətin səhmləri, əsasən, Türkiyə Varlıq Fondu və ictimaiyyət arasında bölüşdürülmüşdür. Bu struktur, şirkətin qərar qəbul etmə proseslərində müxtəlif maraqlı tərəflərin iştirakını təmin edir və onların hüquqlarının qorunmasına yönəlib. [4]

Korporativ idarəetmə prinsiplərinə uyğunluq, "Turkish Airlines"ın fəaliyyətində əsas prioritetlərdən biridir. Şirkət, Türkiyə Kapital Bazarları Şurasının müəyyən etdiyi məcburi prinsiplərə tam uyğun fəaliyyət göstərir və qeyri-məcburi prinsiplərə də maksimum səviyyədə riayət etməyə çalışır. Bu yanaşma, şirkətin fəaliyyətində şəffaflığın, hesabatlılığın və etik davranışın təmin olunmasına yönəlib. [4]

"Turkish Airlines"ın korporativ idarəetmə sistemi, şirkətin strateji məqsədlərinə çatmaq üçün effektiv bir çərçivə təmin edir. Bu sistem, şirkətin uzunmüddətli dayanıqlığını və rəqabət qabiliyyətini artırmaqla yanaşı, maraqlı tərəflərin etimadını da gücləndirir. Şirkətin bu sahədəki uğurlu təcrübəsi, digər təşkilatlar üçün də nümunəvi bir model təqdim edir.

Yekun olaraq qeyd etmək olar ki, korporativ idarəetmə, xüsusilə strateji əhəmiyyətə malik sektorlar üçün sadəcə idarəetmə texnologiyası deyil, təşkilatın dayanıqlığı və beynəlxalq rəqabət qabiliyyəti üçün mühüm bir strateji alətdir. "Turkish Airlines" nümunəsində göründüyü kimi, bu prinsiplərin səmərəli tətbiqi şirkətin həm daxili idarəetmə strukturunun effektivliyini artırır, həm də xarici tərəfdaşlar və investorlar qarşısında etibarlılığını möhkəmləndirir. Şəffaflıq, hesabatlılıq, ədalətlilik və məsuliyyət kimi fundamental prinsiplərə əsaslanan bu sistem, yalnız qısamüddətli uğurlar deyil, eyni zamanda uzunmüddətli dayanıqlı inkişaf və strateji liderlik üçün də əsas baza yaradır. Beləliklə, Turkish Airlines-ın korporativ idarəetmə təcrübəsi təkcə Türkiyə deyil, bütövlükdə regional və qlobal səviyyədə korporativ idarəetmənin inkişafı üçün tətbiq edilə biləcək müasir və funksional bir model kimi dəyərləndirilə bilər.

ƏDƏBİYYAT

1. Kaya A. Corporate governance and financial performance: An analysis on Turkish Airlines. Business and Economics Research Journal. 11(1). 2020. pp.123–135
2. Mallin C. A. (Ed.). Corporate governance (6th ed.). Oxford: Oxford University Press. 2019
3. Tricker B. Corporate governance: Principles, policies, and practices (4th ed.). Oxford University Press. Oxford. 2019
4. Turkish Airlines Investor Relations. Corporate governance principles. 2024

CORPORATE GOVERNANCE AT "TURKISH AIRLINES": ANALYSIS OF A MODEL IN ACCORDANCE WITH INTERNATIONAL STANDARDS

Sebuhi Ismayilov
sebuhi.ismayilov.2020@bk.ru
National Aviation Academy

This study examines the corporate governance model of Turkish Airlines within the framework of modern management principles. Emphasizing transparency, accountability, fairness, and responsibility, the company has built a governance structure that supports strategic decision-making, operational efficiency, and stakeholder trust. Through effective board oversight and specialized committees, Turkish Airlines demonstrates how corporate governance contributes to sustainable growth and competitive advantage in the global aviation sector.

Keywords: corporate governance, Turkish Airlines, transparency, accountability, strategic management, aviation sector.

YÜNGÜL SƏNAYE SEKTORUNUN ÜMUMİ DAXİLİ MƏHSULA (ÜDM) TƏSİRİ

Şəhla Rauf qızı Abbasova
sehla.abbasova.2018@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Yüngül sənaye sektoru, hər bir ölkənin iqtisadiyyatında əhəmiyyətli yer tutur. Bu sektor, xüsusilə istehsal, istehlak və ixracla əlaqəli sahələrdə iqtisadi artımın təmin olunmasında mühüm rol oynayır. Yüngül sənayenin ÜDM-ə təsiri, həm daxili istehsalı, həm də beynəlxalq ticarəti əhatə edir. [2].

Azərbaycanın hazirki yüngül sənaye sektorunun vəziyyəti uzun illər əsasən xammal yönümlü, xüsusilə pambıqçılıq və iplik istehsalı sahəsində fəaliyyət göstərə bilmişdir. Hazırda ölkədəki bu sahənin inkişafı üçün dövlət dəstəyi və sənaye parkları vasitəsilə müxtəlif təşəbbüslər həyata keçirilməsinə rəğmən, hazır tekstil və geyim məhsullarının ixracı çox aşağı səviyyədədir və sektor tam potensialını göstərə bilməyib. COVID-19 pandemiyası, dünya iqtisadiyyatında olduğu kimi, yüngül sənaye sektoruna da ciddi təsir göstərmişdir. Tədarük zəncirlərinin pozulması, xammal idxalındakı gecikmələr və daxili bazarda tələbatın azalması, xüsusilə tekstil və geyim sənayesində istehsal və ixrac proseslərini ləngitmişdir [2, s 151].

- 2020-ci ildə tekstil sahəsində ümumi istehsal həcmi 15-20% azalmışdı [5]; Mingəçevir Tekstil Parkında fəaliyyət göstərən müəssisələrin bəziləri tam gücü ilə işləyə bilmədi; - Daxili tələbat düşdüyü üçün yerli satış həcmi də azalmışdı. Bununla yanaşı, sənaye parklarında dövlət dəstəyi genişləndirildi (vergidən azadolmalar, subsidiyalar); - "Made in Azerbaijan" brendi ilə onlayn satış və elektron kommersiya imkanları inkişaf etdirildi; - Qadın sahibkarlara və tikmə sahəsində fəaliyyət göstərən KOB-lara dəstək proqramları həyata keçirildi [3].

Türkiyədə yüngül sənaye sektoru, xüsusilə tekstil və geyim sahələrində böyük paya malikdir. Bu sektor, ölkənin iqtisadi artımına və ixracına əhəmiyyətli töhfələr verir. Yüngül sənayenin ÜDM-dəki payı təxminən 10%-15% civarındadır [2].

İnkişaf etmiş ölkələrdə yüngül sənayenin ÜDM-dəki payı daha azdır. Məsələn, Almaniya və ABŞ kimi inkişaf etmiş ölkələrdə bu sektor, texnologiyanın yüksək tətbiqi ilə fərqlənir və ümumi ÜDM-dəki payı təxminən 4%-6% arasındadır. Əksinə, Çin və Hindistan kimi inkişaf etməkdə olan ölkələrdə yüngül sənaye sektoru daha böyük yer tutur, təxminən 15%-25% civarındadır.

İxrac və idxal potensialı -Yüngül sənaye sektorunun ixrac və idxal potensialı, iqtisadi artımın dəstəklənməsi və rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Türkiyənin yüngül sənaye sahəsində ixracatını artırması, xüsusilə tekstil və geyim məhsullarının dünya bazarına təqdim edilməsi ilə iqtisadiyyatda mühüm təsir yaratmışdır. İxracın artması, həmçinin ölkənin iqtisadiyyatını stimullaşdıran əsas amillərdəndir. Türkiyədə idxal edilən xammallar isə, yüksək keyfiyyətli son istehsal məhsullarına çevrilir.

Çin, yüngül sənaye məhsullarının ən böyük ixracatçısıdır. Dünyada ən çox tekstil və geyim məhsullarını ixrac edən ölkədir. Çin həmçinin idxal etdiyi texnoloji avadanlıqlar və xammallarla yüksək keyfiyyətli məhsullar istehsal edir. Avropada və ABŞ-da yüngül sənaye sektoru, daha çox xüsusi və niş bazarlara yönəlir. Bu ölkələrdə texnologiyanın tətbiqi ilə əlaqədar idxal və ixrac balansı daha diversifikasiya olunmuşdur.

İşgüzar və İqtisadi Artımda yüngül sənaye sektoru, ölkələrin iqtisadi artımında mühüm rol oynayır. Sektor, xüsusən işsizliklə mübarizədə əhəmiyyətli yer tutur. Türkiyədə yüngül sənaye sektoru, xüsusən də tekstil və geyim sahəsində işsizliklə mübarizədə mühüm rol oynayır. Bu sektor, həmçinin kənd yerlərində yaşayan əhali üçün məşğulluq təmin edir və iqtisadi artıma təkan verir. Çində yüngül sənaye, xüsusilə əmək intensivliyi ilə tanınır və çox sayda iş yeri təklif edir. Yüngül sənaye sektoru, ölkənin ümumi iş gücünün böyük bir hissəsini təşkil edir. İqtisadiyyatın Diversifikasiyası və Texnoloji İnkişaf isə yüngül

sənaye sektorunun inkişafı, ölkələrin iqtisadiyyatını diversifikasiya etməyə və yeni texnologiyaların tətbiqinə imkan verir [4].

Nəticə olaraq, Azərbaycan yüngül sənaye sahəsində keçid mərhələsindədir. Pambıq və iplik istehsalı potensialı yüksək olsa da, **hazır tekstil məhsulları bazarına inteqrasiya** hələ reallaşmayıb. Bu isə həm ixracın, həm də ÜDM-ə töhfənin məhdud qalmasına səbəb olur. Yüngül sənaye sektorunda rəqabət qabiliyyətinin artırılması üçün texnologiyaların tətbiqi təşviq edilməlidir. Sektorun beynəlxalq bazarda daha da güclənməsi üçün ixracın artırılması yönündə strategiyalar inkişaf etdirilməlidir. Yüngül sənayenin iş gücü ilə əlaqəli potensialı artırmaq üçün kənd yerlərində iş imkanları yaradılmalıdır.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi (2023), İqtisadi göstəricilər.
2. Kərimov Ş - Azərbaycanda yüngül sənaye sahəsinin inkişafının strateji aspektləri. AMEA -2021- 151s.
3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (AİTKM), "İqtisadi İcmal", 2023.
4. Dünya Bankı (2023), "Azerbaijan: Diversification Strategy Report".
5. İsmayılov, T. (2022). Azərbaycanın sənaye siyasəti və modernləşmə istiqamətləri. Bakı: İqtisad Nəşriyyatı.

THE IMPACT OF THE LIGHT INDUSTRY SECTOR ON THE GROSS DOMESTIC PRODUCT (GDP)

Shahla Rauf gizi Abbasova
sehla.abbasova.2018@mail.ru
Azerbaijan Technological University

This paper analyzes the contribution of the light industry sector to Gross Domestic Product (GDP), highlighting its significance in driving national economic growth. The development of the light industry, alongside evolving market dynamics, plays a pivotal role in shaping the country's overall economic performance. The study presents a comparative analysis of export and import capacities, supported by relevant statistical data and graphical illustrations. Moreover, it explores how the impact of the light industry on GDP is interconnected with structural transformations across key sectors of the economy.

Keywords: Light industry, GDP, economic development, export, import, industrial sector, economic regulation, pandemic, diversification.

РОЛЬ СТАРТАПОВ В РАЗВИТИИ ЦИФРОВЫХ ТЕХНОЛОГИЙ

Владислав Мирончик
vlad.mironchik.00@mail.ru
Витебский Государственный Технологический Университет

Цифровая трансформация стала одной из доминирующих тенденций XXI века, охватывающей все сферы человеческой деятельности: от бизнеса и образования до здравоохранения и государственного управления. В условиях стремительного технологического прогресса стартапы играют особую роль, выступая катализаторами инноваций и разработчиками передовых решений. Их уникальная структура, ориентированная на гибкость, скорость и эксперименты, позволяет им оперативно реагировать на изменения рынка и потребности пользователей.

Природа стартапов многократно обсуждалась в публикациях зарубежных и отечественных авторов. Стартапы рассматриваются как тип предпринимательской организации, которая, как правило, представляет собой недавно созданный, быстрорастущий жизнеспособный бизнес, выводящий на рынок инновационный продукт или услугу [1]. С профессиональной точки зрения, "стартап - это недавно созданный бизнес, который стремится быстро развить свою собственную бизнес-

модель"[2]. Стив Бланк, известный ученый в этой области и предприниматель, дал еще одно определение стартапам с точки зрения бизнес-модели: он рассматривает стартап как "компанию, которая созданная для поиска развивающейся и повторяющейся бизнес-модели"[3].

Таким образом, стартап — это не просто новая компания, а организация, которая активно ищет свою нишу на рынке, используя инновации, гибкость и экспериментальный подход для достижения устойчивого роста и масштабируемости.

Цифровизация экономики является инновационным этапом развития экономики, в котором активно внедряются цифровые технологии. В свою очередь цифровые технологии напрямую связаны с развитием стартапов. Цифровые технологии в стартапах — это инструменты, платформы и программные решения, основанные на использовании цифровых данных и современных технологий, которые позволяют стартапам создавать инновационные продукты, оптимизировать бизнес-процессы и масштабировать свою деятельность. Эти технологии являются ключевым элементом работы стартапов, поскольку они обеспечивают конкурентное преимущество, ускоряют вывод продуктов на рынок и способствуют удовлетворению потребностей клиентов в условиях цифровой экономики.

Рассмотрим основные аспекты использования цифровых технологий в стартапах (таблица 1).

Таблица 1.Основные аспекты использования цифровых технологий в стартапах

Аспект	Значение
Автоматизация процессов	Позволяет автоматизировать обыденные задачи, такие как управление документами, бухгалтерия, маркетинг и взаимодействие с клиентами.
Разработка инновационных продуктов и услуг	Стартапы часто используют цифровые технологии для создания новых решений, таких как мобильные приложения, облачные сервисы, платформы искусственного интеллекта.
Анализ данных	Цифровые технологии позволяют собирать, обрабатывать и анализировать большие объемы данных для выявления трендов, прогнозирования поведения клиентов и принятия решений.
Снижение затрат	Использование цифровых инструментов позволяет стартапам минимизировать расходы на разработку, маркетинг и операционную деятельность. Например, использование открытого программного обеспечения или аутсорсинг IT-услуг делает процесс запуска более доступным.

Таки образом, цифровые технологии являются одним из главных инструментов развития спартапов.

Несмотря на свою важность, стартапы сталкиваются с рядом вызовов. Ограниченные ресурсы, высокий уровень конкуренции и сложности с привлечением инвестиций — все это может стать препятствием на пути к успеху. Однако именно эти трудности заставляют стартапы быть более эффективными и находить нестандартные решения.

В будущем роль стартапов в развитии цифровых технологий только возрастет. С ростом спроса на инновации и цифровизацию различных сфер жизни, стартапы продолжат играть ключевую роль в создании технологий, которые будут формировать мир завтрашнего дня.

Стартапы — это настоящие катализаторы технологического прогресса. Благодаря своей гибкости, готовности к риску и фокусу на инновациях, они не только создают новые продукты и услуги, но и задают направление развития всей индустрии. Их влияние ощущается не только в технологическом секторе, но и в экономике, образовании, здравоохранении и других областях.

В эпоху цифровой трансформации стартапы остаются одним из главных источников новых идей и решений, которые делают наш мир лучше, умнее и

эффективнее. Поддержка и развитие стартап-экосистемы — это инвестиция в будущее, которое уже сегодня становится реальностью.

ЛИТЕРАТУРА

1. Harvard Business School, [e-database] URL:https://hbswk.hbs.edu/item/why-companiesfailand-how-their-founders-can-bounce-back (accessed on 16.04.2025)
2. Robehmed N., "What Is A Startup?", Forbes, 2016 [e-database] URL:https://www.forbes.com/sites/natalierobehmed/2013/12/16/what-is-astartup/#7d3982994044 (accessed on 16.04.2025)
3. Blank S., Startup Owner's Manual: The Step-by-Step Guide for Building a Great Company, 2011, 573 p.

THE ROLE OF START-UPS IN THE DEVELOPMENT OF DIGITAL TECHNOLOGIES

Vladislav Mironchik
vlad.mironchik.00@mail.ru
Vitebsk State Technological University

The article examines the role of startups as a key driver of digital technology development. Special attention is paid to their influence on innovation processes, formation of new markets and transformation of existing industries. Special attention is paid to their influence on innovation processes, formation of new markets and transformation of existing industries.

Key words: startup, digital technologies, digital economy.

ASAN İMZA: ELEKTRON İMZALANMANIN İXTİSASLAŞMIŞ HƏLLİ

Gündüz İncivan oğlu Abdullayev
gunduzabdullayev47@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Elektron imza, sənədlərin rəqəmsal mühitdə imzalanması prosesidir və hüquqi baxımdan fiziki imzanın yerini alır. Son illərdə, xüsusilə dövlət xidmətləri, biznes və hüquqi əməliyyatlarda elektron imza və onun daha təhlükəsiz versiyası olan Asan İmza sistemləri geniş şəkildə tətbiq olunur. Asan İmza sistemi, istifadəçilərin mobil cihazları vasitəsilə hüquqi sənədləri imzalamağa imkan verən innovativ bir texnologiyadır və bu texnologiya, istifadəçilərə həm rahatlıq, həm də təhlükəsizlik təmin edir.

Asan İmzanın Tərifi və İşləmə Prinsipi - Asan İmza, istifadəçilərin mobil telefonlar vasitəsilə elektron imza yaratmalarını və sənədləri rəqəmsal şəkildə imzalamalarını təmin edən bir sistemdir. Bu, xüsusən də şəxsiyyətin doğruluğunu təmin etmək məqsədilə elektron imza üçün istifadə olunan xüsusi texnologiya ilə əlaqədardır. Asan İmzanın əsas xüsusiyyəti, mobil telefonlar vasitəsilə imzanın doğrulanmasıdır. Bu texnologiya, elektron imza sertifikatı ilə birləşərək istifadəçiyə rəqəmsal dünyada hüquqi sənədləri etibarlı şəkildə imzalamağa imkan verir.

Asan İmza sistemində istifadəçi, şəxsiyyətini təsdiqləyən bir sim-kartdan istifadə edir. Bu kartda şəxsin elektron imza sertifikatı saxlanılır. İstifadəçi bu sim-kartı və mobil telefonunu istifadə edərək elektron imza yaradaraq istədiyi sənədi rəqəmsal şəkildə imzalaya bilər.

Asan İmzanın Texnoloji Aspektləri - Asan İmzanın işləmə prinsipi əsasən şifrləmə və kriptografiya metodlarına əsaslanır. Bu texnologiya iki əsas komponentdən ibarətdir:

1. Elektron İmza Sertifikatı: Şəxsə məxsus olan və onun identifikasiyasını təmin edən sertifikatdır. Bu sertifikat kriptoqrafik açarlardan istifadə edərək, imzanın doğruluğunu təsdiq edir.

2. Mobil Telefon: İstifadəçinin imza yaratma prosesini asanlaşdırır və imzanın tətbiqi üçün interfeys təmin edir. İstifadəçi, mobil cihazında müəyyən bir tətbiq vasitəsilə elektron sənədi imzalayır.

İmza prosesi, istifadəçinin mobil telefonundakı tətbiq vasitəsilə aktivləşdirilir və

imzanın doğru olduğunu təmin edən şifrlənmiş bir məlumat ilə əlaqələndirilir. Bu, həmçinin elektron sənədlərin dəyişdirilmədiyini və manipulyasiya olunmadığını təmin edir.

Asan İmzanın Faydaları:

- Təhlükəsizlik: Asan İmza, yüksək səviyyədə şifrləmə və autentifikasiya metodları ilə təmin olunur. Bu, istifadəçilərin və sənədlərin təhlükəsizliyini artırır.
- Şəffaflıq və Qanuni Təsdiq: Asan İmza ilə imzalanan sənədlər, qanuni baxımdan etibarlıdır və istənilən mübahisə zamanı istifadə oluna bilər.
- Əlçatanlıq və Komfort: Asan İmza sistemi, istifadəçilərin mobil telefonları vasitəsilə hər yerdən və hər zaman imza atmalarına imkan yaradır, bu da iş dünyasında və şəxsi əməliyyatlarda yüksək rahatlıq təmin edir.
- Vaxt və Resurslara Qənaət: Fiziki sənədlərin imzalanması və göndərilməsi ilə bağlı zaman və maliyyə xərcləri azaldılır.

Asan İmzanın Hüquqi Əsasları:

- Asan İmza, bir çox ölkələrdə elektron imza qanunları ilə tənzimlənir. Məsələn, Avropa İttifaqı və Azərbaycan kimi ölkələr, elektron imza və Asan İmzanın hüquqi əsaslarını müəyyənləşdirən qanunvericiliklər qəbul etmişdir. Azərbaycan Respublikasında, Asan İmza sisteminin tətbiqi, "Elektron İmza və Elektron Hökumət" haqqında qanunla tənzimlənir.
- Asan İmza, Avropa Elektron İmza Tənzimləməsi (eIDAS) ilə uyğun olaraq, hüquqi etibarlılığa malikdir və dövlət tərəfindən verilən sertifikatlar vasitəsilə hüquqi sənədlərin imzalanmasına imkan yaradır.

Asan İmzanın Tətbiq Sahələri:

- Dövlət Xidmətləri: Vətəndaşlar, dövlət xidmətləri ilə əlaqədar işlərini Asan İmza vasitəsilə həyata keçirə bilər. Məsələn, vergi ödənişləri, pasport və şəxsiyyət vəsiqəsi müraciətləri, səsvermə kimi proseslər.
- Biznes və Ticarət Əməliyyatları: Asan İmza, biznes əməliyyatlarını sürətləndirir, müqavilələrin elektron şəkildə imzalanmasını təmin edir. Bu, biznes sektorunda da əməliyyatların daha səmərəli və təhlükəsiz aparılmasına kömək edir.
- Hüquqi Əməliyyatlar: Elektron müqavilələr və digər hüquqi sənədlərin imzalanması üçün Asan İmza mühüm bir vasitədir. Məhkəmə və digər hüquqi instansiyalarda da etibarlı sənədlərin təqdim olunmasında istifadə edilir.

Asan İmzanın Qarşısındakı Çətinliklər:

- Texnoloji İnfrastruktur: Asan İmza sisteminin effektiv tətbiqi üçün müvafiq texnoloji infrastruktur tələb olunur. Xüsusilə inkişaf etməkdə olan ölkələrdə bu cür infrastrukturun genişlənməsi çətinlik yarada bilər.
- İstifadəçi Maarifləndirməsi: İstifadəçilərin Asan İmzanın hüquqi və texnoloji aspektlərini başa düşməməsi, sistemin düzgün tətbiq edilməsini çətinləşdirə bilər.
- Kibertəhlükəsizlik Riskləri: Hər nə qədər yüksək təhlükəsizlik tədbirləri olsa da, elektron sistemlərdəki zəifliklər, məlumat oğurluğu və digər kibertəhlükəsizlik təhdidləri hələ də mövcuddur.

Gələcək Perspektivlər - Asan İmzanın gələcəyi daha da parlaqdır. Rəqəmsal transformasiya və elektron xidmətlərin artması ilə yanaşı, Asan İmza və digər elektron imza systemlərinin daha geniş tətbiqi gözlənilir. Süni intellekt, biometrik təsdiq və blockchain kimi yeni texnologiyalar, Asan İmzanın təhlükəsizlik və rahatlıq səviyyələrini daha da artıracaqdır.

Nəticədə Asan İmza, müasir dövrdə elektron imzanın ən effektiv və təhlükəsiz formasını təmsil edir. Onun istifadəsi, hüquqi sənədlərin və əməliyyatların rəqəmsal dünyada daha etibarlı, sürətli və asan bir şəkildə həyata keçirilməsinə imkan verir. Bununla belə, sistemin uğurlu tətbiqi üçün texnoloji və hüquqi məsələlərin düzgün şəkildə həll edilməsi vacibdir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Dövlət İnformasiya Təhlükəsizliyi Agentliyi. "ASAN İmza" Mobil Elektron İmza Sistemi. Bakı: DİTA Nəşriyyatı, 2020, səh. 15-28.
2. Azərbaycan Respublikası Elektron Hökumət Portalı. Elektron hökumət və rəqəmsal transformasiya: "ASAN xidmət" modeli. Bakı: E-Gov Nəşriyyatı, 2018, səh. 55-63.
3. Mason, Stephen. Electronic Signatures in Law. Cambridge: Cambridge University Press, 2012, pp. 102-110.
4. Abramson, Mark A., Morin, Therese L. E-Government Strategies: ICT Innovation in International Public Sector. London: Rowman & Littlefield, 2015, pp. 89-96.

ASAN IMZA: SPECIALIZED ELECTRONIC SIGNATURE SOLUTION

Gunduz Injivan oglu Abdullayev
gunduzabdullayev47@gmail.com
Azerbaijan Technological University

"Asan Imza" is the most effective and secure form of electronic signature in modern times. Its use allows legal documents and transactions to be carried out more securely, quickly and easily in the digital world.

Keywords: Asan Imza, electronic signature, electronic governance, cybersecurity, technology

ЦИФРОВИЗАЦИЯ КАК ВАЖНЕЙШЕЕ НАПРАВЛЕНИЕ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ДЕЯТЕЛЬНОСТИ ЗЕРНОПЕРЕРАБАТЫВАЮЩИХ ПРЕДПРИЯТИЙ РЕСПУБЛИКИ КАЗАХСТАН

С.М.Момынкулова
С.Е.Епанчинцева
Г.Б.Саханова
sulyamadi@mail.ru
Алматинский Технологический Университет, Республика Казахстан

Цифровизация представляет собой переход к цифровой экономике, затрагивающей все аспекты общественной жизни. В ее основе лежит внедрение цифровых технологий для автоматизации рабочих процессов, повышения качества предоставляемых услуг, оптимизации производственных процессов и увеличения эффективности работы не только зерноперерабатывающих предприятий, но отрасли АПК в целом.

Электронный доступ к информации и услугам становится все более доступным, что в свою очередь увеличивает эффективность и обеспеченность населения необходимыми услугами. Кроме того, цифровизация служит мощным стимулом для развития инноваций, рождает новые рабочие места и укрепляет конкуренто-способность страны на международной арене.

На сегодня, в Республике Казахстан цифровизация является одним из приоритетных направлений развития. Она охватывает различные сферы, такие как образование, здравоохранение, государственное управление, бизнес и другие.

Цифровая трансформация отраслей, развитие инновационной экономики являются неотъемлемыми компонентами для достижения глобальной конкуренто-способности. Поэтому государствам и странам мира с целью быть конкурентоспо-собными необходимо адаптироваться и принимать собственные цифровые стратегии развития. [1]

Цифровизация сегодня пронизывает практически все, агропромышленный комплекс не остается в стороне от этого глобального процесса. В IT-сфере интерес в сельскому хозяйству демонстрирует устойчивый рост и становится все более актуальным мировым трендом.

В своем ежегодном послании народу Казахстана Касым-Жомарт Токаев отметил

очень важный факт по этому поводу: «Современное сельское хозяйство - это высокотехнологичная отрасль. Земля и климат уже не являются определяющим фактором успеха аграриев, на первый план вышли инновационные решения. Следует принять меры по развитию агронауки, и, главное, - ее практическому применению в сельском хозяйстве». [2]

В связи с этим, инвестиции в агросектор нашей страны и его развитие представляют собой первостепенную задачу, и, как и в многих других областях, цифровизация здесь выступает как ключевой фактор прогресса. Цифровые технологии предоставляют возможность снижения производственных издержек, повышения качества продукции и энергоэффективности производственных процессов. Цифровизация аграрного сектора является важным направлением в повышении эффективности сельскохозяйственного производства. В условиях глобальных изменений и технологической трансформации в республике активно разрабатываются и внедряются современные цифровые решения.

На сегодняшний день цифровизация аграрного сектора охватывает четыре информационные системы (рисунок 1):




Рисунок 1 – Информационные системы цифровизации аграного сектора [3]

Внедрение цифровых технологий положительно повлияло на АПК, в части «оцифровки» полей. Здесь основная задача – получение максимального эффекта путем уменьшения затрат, в этом проявляется роль использования передовых IT-технологий, что означает, не только оцифрование полей, нанесенных на карту, где все должно работать на современном уровне, к примеру, использование GPS (формирование маршрутного листа выезжающей на поле спецтехники). Так, искусственный интеллект применяется при оценке и анализе данных спутниковых снимков, для определения состояния полей, использования наблюдений по индексу вегетации. В результате, принимаются эффективные управленческие решения относительно дальнейшего использования пахотных земель.

До сих пор, большинство сельскохозяйственных предприятий придерживается традиционных методов работы и здесь необходимо отметить главный плюс цифровизации – экономия горюче-смазочных материалов, потому, что техника получает точное «задание», с которым справляется безукоризненно. При этом, трекинг транспорта позволяет экономить около 20 % топлива. Это касается и внесения удобрений, препаратов против вредителей (своевременность, оптимальное количество, период переработки в почве). Цифровые методы дают добавленную стоимость, позволяя оптимально использовать имеющиеся ресурсы. Для полного успеха нужно оптимально использовать несколько параметров: основной капитал, оборотный капитал, человеческий капитал и управленческие навыки. Также, с помощью цифровых технологий можно оценить потенциал земли (расположение, осадки, предшествующую историю).

Сельхоз предприятиям не нужно «бояться» экспериментов, нужно быть

открытыми ко всему новому, быть готовыми использовать в работе новые идеи, которые в свою очередь, повысят эффективность деятельности, конкурентоспособность отрасли АПК (страны, предприятий) и продвинут бизнес вперед к дальнейшему успеху.

ЛИТЕРАТУРА

1. Об утверждении Концепции цифровой трансформации, развития отрасли информационно-коммуникационных технологий и кибербезопасности на 2023 - 2029 годы. Постановление Правительства Республики Казахстан от 28 марта 2023 года № 269
2. Послание Главы государства Касым-Жомарта Токаева народу Казахстана «Экономический курс Справедливого Казахстана». https://www.akorda.kz/
3. Об утверждении Концепции развития агропромышленного комплекса Республики Казахстан на 2021 – 2030 годы. Постановление Правительства Республики Казахстан от 30 декабря 2021 года № 960
4. https://baiterek.gov.kz/

DIGITALIZATION AS THE MOST IMPORTANT DIRECTION FOR IMPROVING THE EFFICIENCY OF GRAIN PROCESSING ENTERPRISES IN THE REPUBLIC OF KAZAKHSTAN

S.M. Momynkulova
S.E. Epanchintseva
sulyamadi@mail.ru
G.B. Sakhanova
Almaty Technological University, Republic of Kazakhstan

This article examines the role of digitalization as the most important direction for improving the efficiency of grain processing enterprises in Kazakhstan. The achievements of the «digital economy» in the agricultural sector are analyzed. The necessity of digitalization of the economy of Kazakhstan as a key growth factor for the agro-industrial complex has been identified and substantiated.

Keywords: digitalization, modernization, investments, innovations, grain processing enterprises, tracking, strategy, competitiveness.

DƏYİŞKƏN BAZAR ŞƏRAİTİNDƏ İNNOVATİV İNVESTİSİYALARIN RİSK VƏ FAYDALARININ TƏHLİLİ

Rafayıl Şükür oğlu Şükürov
Şükufə Samir qızı Əliyeva
eliyevasukufe092@gmail.com
Azərbaycan Texnologiya Universiteti

İnnovativ investisiyaların, xüsusilə maliyyə texnologiyaları (Fintech) sektorunda meydana çıxması risklər və potensial faydalarla dolu mürəkkəb bir mənzərə təqdim edir ki, bu da həm əhəmiyyətli, həm də çoxşaxəlidir. Bu investisiyalar ənənəvi maliyyə xidmətlərinin məhdudiyyətlərinə cavab olaraq əhəmiyyət qazanmışdır və blokçeyn, süni intellekt və peer-to-peer kredit platformaları kimi texnoloji nailiyyətlər vasitəsilə yeni həllər təklif edir. Müasir maliyyə ekosistemi inkişaf etdikcə, innovativ investisiyalar həm institusional, həm də fərdi investorlar üçün getdikcə daha aktual olur, çünki onlar gəlirlərin artırılması və investisiya portfellərinin şaxələndirilməsi potensialını vəd edir.

Lakin bu innovativ strategiyaların davamlılığı əhəmiyyətli çətinliklər olmadan mümkün deyil, xüsusilə bazar dəyişkənliyi baxımından. Fintech sektoru aktiv qiymətlərində sürətli və tez-tez proqnozlaşdırılması çətin olan dalğalanmalara meylli olduğunu göstərmişdir. Bu tənzimləyici dəyişikliklər, texnoloji pozuntular və istehlakçı davranışındakı dəyişikliklər kimi amillərlə bağlıdır. [1]

Araşdırmalar göstərir ki, innovativ investisiya strategiyaları ümidverici imkanlar təqdim edə bilsə də, onlar eyni zamanda ciddi maliyyə tələləri potensialını da daşıyır və

bu, ehtiyatlı yanaşmanın vacibliyini vurğulayır. Bazarın özünəməxsus dəyişkənliyi investorlar üçün risk və gəlir arasında tarazlığın hesablanmasını çətinləşdirir, xüsusilə yeni yaranan texnologiyaların ilkin mərhələlərində, hansı ki, hələ stabil performans tarixçəsinə və ya sübut olunmuş nəticələrə sahib olmaya bilər. Bazar dəyişkənliyi ilə Fintech innovasiyalarının əməliyyat performansı arasındakı əlaqəni başa düşmək, məlumatlı investisiya qərarları vermək üçün əsasdır. İnnovativ investisiyaların potensial faydaları — qeyri-mütənasib gəlirlər və yeni yaranan bazarlara çıxış imkanları —, özlüyündə sınaqdan keçməyən kommersiya modellərinə investisiya ilə bağlı risklərlə balanslaşdırıla bilər. Üstəlik, investisiya mənzərəsinə getdikcə daha çox xarici amillər təsir edir: geosiyasi gərginliklər, makroiqtisadi dəyişikliklər və monetar siyasətdə dəyişikliklər, hansılar ki, bazar dəyişkənliyini və qeyri-müəyyənliyi artırır. [2]

Bazar dəyişkənliyinə əlavə olaraq, texnoloji irəliləyişlərin innovativ investisiya mənzərəsinin formalaşmasındakı təsirini də nəzərə almaq vacibdir. Texnoloji dəyişikliklərin sürətli tempi mövcud modelləri tezliklə köhnəlmiş edə bilər və bu, investorları uzunmüddətli davamlılıq qazanmayan həllərə sərmayə yatırmaq riski ilə üz-üzə qoyur — xüsusilə dəyişən istehlakçı üstünlükləri və rəqabət təzyiqləri fonunda. Eyni zamanda, qabaqcıl texnologiyaların inteqrasiyası kibertəhlükəsizlik riskləri, məlumat pozuntuları və sistem nasazlıqları kimi əməliyyat risklərini də yaradır. Bu mürəkkəbilikləri nəzərə alaraq, Fintech sektorunda innovativ investisiyaları nəzərdən keçirən maraqlı tərəflər üçün əsaslı təhlil və risklərin qiymətləndirilməsi mütləqdir. Belə bir təhlil, uyğun imkanları müəyyənləşdirmək və əlaqədar riskləri qəbul etmək üçün əsas texnologiyanın, bazar meyllərinin və rəqabət dinamikasının hərtərəfli öyrənilməsini tələb edir.

Nəticə etibarilə, Fintech sektorunda innovativ investisiyalar artım potensialı və transformativ gəlirlər vəd etsə də, eyni zamanda dəyişkənlik və qeyri-müəyyənliklə xarakterizə olunan yüksək riskli bir mühiti özündə ehtiva edir.Texnoloji tərəqqi ilə bazar dinamikası arasındakı qarşılıqlı əlaqə bu investisiyalarla bağlı riskləri və mümkün mükafatları dərindən başa düşməyi tələb edir və investorların uzunmüddətli maliyyə sabitliyi ehtimalını maksimuma çatdırmaq üçün ehtiyatlı qiymətləndirmə aparmalarını zəruri edir. İnnovativ investisiyalarla məşğul olduqda bazar dəyişkənliyi əsas narahatlıq doğuran məsələlərdən biri olaraq qalır. Bu dəyişkənlik, xüsusilə sürətli texnoloji inkişaflar və istehlakçı davranışındakı dəyişikliklərlə əlaqəli olan bir neçə qarşılıqlı əlaqəli amil tərəfindən daha da gücləndirilir.

Texnologiyadakı innovasiyalar mövcud bazar paradiqmalarını pozmaq potensialına malikdir, bu isə aktivlərin dəyərində kəskin və proqnozlaşdırılması çətin dalğalanmalara səbəb ola bilər. Məsələn, süni intellekt, blokçeyn və bərpa olunan enerji kimi pozucu texnologiyalar sadəcə təkmilləşdirmə vasitələri deyildir; onlar müxtəlif sahələrdə rəqabət mühitini əsaslı şəkildə dəyişdirirlər. Bu texnologiyaların inkişaf tempi investorlar üçün qeyri-müəyyənlik elementi yaradır, çünki onlar həm görünməmiş imkanlar, həm də artan risklərlə xarakterizə olunan bir mənzərədə hərəkət etməlidirlər. [3]

İnnovasiya ilə bazar davranışı arasındakı əlaqə mürəkkəb və çoxşaxəlidir. Maliyyə innovasiyalarının rolunu araşdıraraq qeyd etmək lazımdırki, bu inkişaflar maraqlı tərəflər tərəfindən əvvəlcədən nəzərə alınmamış yeni bazar dinamikası yarada bilər. [4] Ənənəvi qiymətləndirmə modellərinin tam tətbiq oluna bilmədiyi bir mühitdə investorlar strategiyalarını uyğunlaşdırmalı olur və bu, adətən, bazar dəyişkənliyini daha da artıran spekulyativ ticarət davranışlarına səbəb olur. Texnoloji yeniliklərdən geri qalmaq qorxusu ilə yönlənən bu spekulyativ təbiət bazar köpüklərinə səbəb ola bilər; bunun bariz nümunəsi, şirkətlərin maddi maliyyə əsaslarına deyil, ehtimal olunan artıma əsaslanaraq həddindən artıq qiymətləndirildiyi dotcom dövründə müşahidə edilmişdir.

Eyni zamanda, nəzərə almaq vacibdir ki, bütün innovasiyalar müsbət investisiya gəliri gətirmir. Məsələn, bir çox fintech startapları sürətli ilkin artım yaşaya bilər, lakin daha sonra daha çox resursa və effektiv biznes modellərinə malik qurulmuş şirkətlərlə rəqabət apararkən durğunluq və ya tənəzzül dövrünə daxil ola bilərlər. Bu dalğalanma investorlar üçün daxili risk yaradır, çünki onlar uğurlu hekayələrə cəlb oluna bilər, amma sektorun uzunmüddətli sağlamlığını və ya müəyyən texnologiyaların davamlılığını tam anlamaya bilərlər.

Nəticə olaraq, Fintech sektorundakı texnoloji inkişaflar investisiyaların səmərəliliyini və əlçatanlığını artırmaq üçün bir çox imkanlar təqdim etsə də, bununla yanaşı, əlaqəli risklərin diqqətlə təhlil olunmasını da tələb edir. Kibertəhlükəsizlik təhdidləri, istifadəçi davranışlarının müxtəlifliyi, tənzimləyici çətinliklər və bazar dəyişkənliyi kimi amillər birgə şəkildə innovativ investisiya mənzərəsinə təsir göstərir.

ƏDƏBİYYAT

1. Lee I. & Shin Y. J. Fintech: Ecosystem, business models, investment decisions, and challenges. Business horizons. 61(1). 2018. Pp. 35-46.
2. Murinde V., Rizopoulos E. & Zachariadis M. The impact of the FinTech revolution on the future of banking: Opportunities and risks. International review of financial analysis. 81. 102103. 2022
3. Frame W. S. & White L. J. Technological change, financial innovation, and diffusion in banking SSRN. 2014. pp. 1-5
4. Saksonova S. & Kuzmina-Merlino I. Fintech as financial innovation–The possibilities and problems of implementation. 2017

WEIGHING THE RISKS AND BENEFİTS OF INNOVATIVE INVESTMENTS IN A VOLATILE MARKET

Rafayil Shukurov
Shukufa Aliyeva
eliyevasukufe092@gmail.com
Azerbaijan Technological Univertsity

The emergence of innovative investments, in particular in the financial technology sector (Fintech), presents a complex landscape of risks and potential awards which are both important and multifaceted. These investments have acquired importance in response to the limits of traditional financial services, offering new solutions through technological progress such as blockchain, artificial intelligence and peer loan platforms. Research indicates that if innovative investment strategies can give promising opportunities, they also house the potential of significant financial traps, stressing the importance of a prudent approach.

Keywords: Fintech sector, innovations, innovative investments, cybersecurity.

YÜKSƏK İSTEHSAL TEXNOLOGİYASININ ƏLDƏ OLUNMASINDA DÖVLƏT SƏNAYE SİYASƏTİNİN AKTUAL MƏSƏLƏLƏRİ

Rövşən Əliyev
r.aliyev@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Yüksək istehsal texnologiyasının inkişaf etdirilməsi üçün dövlət sənaye siyasətinin hazırlanması və həyata keçirilməsi üç əsas strateji kurs istiqamətdə əldə olunur:

- iqtisadiyyatın innovativ inkişaf yoluna keçməsi;
- istehsal sektorunda strukturun yenidən qurulması;
- investisiya təminatının səviyyəsinin yüksəldilməsi.

Sənaye siyasətinin hər üç istiqaməti bir-biri ilə əlaqəlidir və dövlət qərarlarının qəbul edilməsi və həyata keçirilməsi üçün vahid bir sistemdir.

Davamlı iqtisadi inkişafı təmin etmək üçün bir vasitə kimi sənaye siyasətinin hədəf funksiyasına əsaslanaraq, prioritet məsələ onun innovativ komponentidir. Orta müddətdə (5-10 il) istehsal sektorunun strukturu yenidən qurulur və müvafiq olaraq investisiya qərarları üçün hədəflər formalaşdırır, istehsal prosesində yaranacaq böhranının aradan qaldırılmasına və daxili bazarın rəqabətqabiliyyətli məhsullarla dayanıqlığına kömək edir [1].

Buna uyğun olaraq, sənayenin strukturunun yenidən qurulmasında əsas amil bilik və yüksək texnoloji istehsala əsaslanan innovativ yönümlü iqtisadiyyatın formalaşmasıdır.

İnnovativ və struktur dəyişikliklərinin həyata keçirilməsinə investisiya dəstəyi sahəsində əsas məqsəd milli əlverişli maliyyə mənbələrinə və effektiv kredit və vergi siyasətinə aid olmalıdır. Qısa və orta müddətdə ən vacib tədbirlərə aşağıdakıları

göstərmək olar:

- büdcədənkənar məqsədli sənaye Kredit Fondunun yaradılması;
- iqtisadi dövriyyəyə bir sıra mənbələrdən əlavə investisiya mənbələrinin tətbiqi (əhalinin əmanətləri, idarə olunan pul emissiyası və s.);
- maliyyə, valyuta və bank sistemindəki yeniliklər.

Dövlət siyasətinin effektivliyinin əsas meyarı özəl şirkətlər üçün innovativ fəaliyyətin həyata keçirilməsinə – yeni məhsulların (və ya istehsal üsullarının) yaradılması (alınması), təkmilləşdirilməsi, ixrac yönümlü məhsulların xarici bazarlara çıxışın təmin edilməsi və onun genişləndirilməsi, bazarla texnologiyanın təkmilləşdirilməsi sayəsində investisiya qoymaq üçün stimul yaratmaqdır.

Bu baxımdan, Azərbaycan mövcud potensiala söykənəcək və rəqabət qabiliyyətini artıran iqtisadiyyatda struktur dəyişikliklərinin təşviqinə yönəlmiş müvafiq elmi, texniki və innovativ inkişaf strategiyasının hazırlanması ilə bağlı ən aktual vəzifə ilə qarşılaşır.

İnnovasiya mühitinin müxtəlif ölkələrdə fərqli xüsusiyyətlərinə baxmayaraq, onları bu sahədə ümumiləşdirən xeyli cəhətlər vardır. Bu gün bütün inkişaf etmiş Qərb ölkələrində innovasiya mühiti və onunla bağlı olan proseslər elmi-texniki tərəqqi şəraitində gələcək inkişafın və iqtisadi sistemin transformasiyasının əsası, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsinin, iqtisadi artımın təmin edilməsinin vacib şərti kimi qəbul edilir.

Qeyd etmək lazımdır ki, Azərbaycanda innovasiya sahəsinin bazar elementləri artıq mövcuddur: böyük korporasiyalar meydana gəlmişdir, elmi və texniki potensialı mövcuddur, dövlət prioritet layihələrin dəstəklənməsində iştirak edir, investisiya müsabiqələri sistemi formalaşır. Buna baxmayaraq, innovasiya mexanizmi günün tələbi ilə uzlaşmır. Resurslar və imkanlar iqtisadiyyatın struktur dəyişikliklərindən təcrid olaraq öz-özünə mövcuddur və sonuncular praktik olaraq istehsalın səmərəliliyini artırmırlar, yəni, iqtisadi islahatların başladığı vəzifələri yerinə yetirmirlər. Buna görə innovasiya siyasəti "elmi-texnoloji tərəqqi – innovasiya – istehsalın artırılması" dövrünə - sistemli bir yanaşmaya yönəldilməli və innovasiya prosesinin bütün elementlərinin təkcə resursları mənimsəməyə deyil, nəticə etibailə uğurla həyata keçirilmiş layihələr verməyə qadir olan vahid bir mexanizmə inteqrasiyasını təmin etməlidir [2].

Sənaye və innovasiya siyasətinin ilkin elementi əvvəlcədən təhlil edilmiş və əsaslandırılmış innovasiya və investisiya strategiyasının hazırlanması olmalıdır. Əsas vəzifələrə aşağıdakılar aid edilməlidir: - sənaye və innovasiya siyasəti əsasında yüksək texnologiyalara nail olmaq; - resurslara qənaət edən, ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə etmək; - müasir rabitə vasitələri yaratmaq; - ekoloji cəhətdən təmiz qida məhsulları istehsal etmək və s.

Dünya bazarında yüksək texnoloji məhsulların rəqabət qabiliyyətini artırmaq üçün güclü özünü təmin edən birliklərə, məsələn, iqtisadiyyatın real sektorunun yüksək texnoloji sahələrinin inkişafının ən vacib problemlərini həll etmək üçün hazırlanmış elm və Yüksək Texnologiyalar mərkəzlərinə sahib olmaq lazımdır. Bununla bərabər, sənaye-biznes strukturlarının 10%-dən çoxu bu gün innovativ layihələrlə məşğuldur və bu sahənin inkişafı üçün heç bir şərt yoxdur. Maliyyə resursları ilə dolu yanacaq-enerji kompleksində belə şirkətlərin yalnız 3% - dən çoxu innovativ layihələr hazırlayır.

Azərbaycanın milli maraqları istehsalın modernləşdirilməsi üçün geniş miqyaslı kapital axını təmin edən yeni iqtisadi və ictimai-siyasi reallıqlara cavab verən sənaye siyasətinin ən vacib komponentləri kimi elmi-texniki və innovativ siyasətin formalaşdırılması və həyata keçirilməsi üçün qətiyyətli tədbirlər tələb edir. Məhz texnoloji inkişafda Azərbaycan cəmiyyətinin bazar islahatları prosesində ortaya çıxdığı ən dərin iqtisadi böhrandan mümkün çıxış yolunu görmək lazımdır [3].

Azərbaycanda innovativ siyasət ənənəvi "dövlət – biznes" sxeminə görə deyil, "hökumət – regional idarələr – biznes" sxeminə görə qurulmalıdır. Şübhəsiz ki, hökumət milli məqsədlərə uyğun və əsasən öz büdcə və büdcədənkənar resursları (məsələn, nəqliyyat və yanacaq-enerji komplekslərinin texnoloji yenidən qurulması, vahid informasiya məkanının yaradılması) hesabına həyata keçirilən texnoloji siyasət istiqamətlərini inkişaf

etdirəcəkdir.

İnnovativ iqtisadiyyat, ilk növbədə, yeniliklərin yaradılması, yeni bazarların axtarılması, yeni texnologiyaların tətbiq edilməsi sahəsində məhsulların çeşidinin artırılması, hökumətin innovasiya siyasəti sahəsində bütün təşəbbüs və məsuliyyəti öz üzərinə götürdüyü çevik, dinamik bir iqtisadiyyat deməkdir. Buna görə də Azərbaycanda innovativ siyasətin hazırlanması və həyata keçirilməsi əvvəlcə regional səviyyədə mümkündür. İnkişaf etmiş infrastrukturu və geniş elmi bazası olan innovativ sıçrayışa hazır olan bölgələr innovasiya prosesinin aparıcı qüvvəsi hesab edilə bilər.

ƏDƏBİYYAT

1. Əliyev R.R. Azərbaycanda effektiv istehsal prosesinin yüksəldilməsinin əsas hədəfləri. Материалы XVI Международной научной конференции "Проблемы и перспективы развития предпринимательства», Харьков, 2022, с.115-118
2. Əliyev R.R. İnkişaf etmiş ölkələrin və Azərbaycan Respublikasının innovasiya siyasətinin əsas istiqamətləri. Международный научно-практический журнал ENDLESS LIGHT in SCIENCE. №12. Алматы, Казахстан декабрь, 2024, səh. 220-223
3. Əliyev R.R. Müasir şəraitdə regionlarda sənayenin ərazi üzrə təşkili-nin dövlət tənzimlənməsinin əsas istiqamətləri. Yeni dövrdə təhsil və tədqiqat fəaliyyəti: reallıqlar və çağırışlar (16-17 dekabr). Mingəçevir, 2022, səh.277-279

CURRENT ISSUES OF THE STATE INDUSTRIAL POLICY IN ACHIEVING HIGH PRODUCTION TECHNOLOGIES

Rovshan Aliyev
r.aliyev@atu.edu.az
Azerbaijan Technological University

The strategic course for the development of high-tech industries is the development and implementation of an active state industrial policy in three main areas: the transition of the economy to an innovative path of development, structural restructuring in the manufacturing sector and increasing the level of investment support. All three directions of industrial policy are interrelated and represent an integral system of making and implementing government decisions.

Keywords: high-tech production, innovative development path, industrial policy, industrial enterprises.

YAŞIL İQTİSADİYYATIN FORMALAŞMASININ ƏSAS ŞƏRTLƏRİ

Aysel Şakir qızı Süleymanova
aysel.suleymanova@adau.edu.az
Azərbaycan Dövlət Aqrar Universiteti

Yaşıl iqtisadiyyat konsepsiyası yeni iqtisadi model kimi iqtisadi və sosial əsaslara söykənir var. Bu cür iqtisadi transformasiyaya keçid dövlətin və özəl bölmənin qarşılıqlı əlaqələri ilə ümumi inkişafa yeni stimullar yaratmaq, bazar infrastrukturunu və bazar mexanizmlərini gücləndirmək, dövlət investisiyalarını daha səmərəli istiqamətlərə yönləndirmək yolu ilə ekoloji təmiz məhsul istehsalı üçün bərabər rəqabət şəraitini dəstəkləmək vəzifəsini müəyyənləşdirir. Son illər iqtisadi fəaliyyət sahələri yaşıl iqtisadiyyata keçidin yaratdığı imkanlardan istifadə etmək, maliyyələşdirmə və investisiya qoyuluşlarının artırmaq kimi məsələlərdən yararlanmaq imkanı əldə edir.

Qeyd etmək lazımdır ki, yaşıl iqtisadiyyat ölkənin ekoloji vəziyyətini yaxşılaşdıra biləcək yeni sahələri əhatə etməklə, eyni zamanda yeni texnologiyalardan istifadə və təbiətdən səmərəli şəkildə faydalanmaqla ekoloji cəhətdən təmiz məhsulların yaradılması üçün nəzərdə tutulmuş ekosistem kimi xarakterizə olunur. Beləliklə, yaşıl iqtisadiyyat təmiz və ya yaşıl texnologiyalara əsaslanır. Yaşıl iqtisadiyyatın inkişafı müasir cəmiyyətdə ətraf mühitə münasibət mədəniyyətinin formalaşmasına da ciddi təsir göstərir, təbii ehtiyatlardan daha səmərəli və qənaətlə istifadə etməklə cəmiyyətin rifahını qorumağa və məhsulların istehsal dövrünə qaytarılmasını təmin etməyə yönəlir. Təsadüfi deyil ki, dövlətin qarşısında "Azərbaycan Respublikasında indiki və gələcək

nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin, iqtisadi potensialın qorunmasından və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi" [2] kimi mühüm vəzifə müəyyənləşdirilmişdir.

Təbii sərvətlərdən səmərəli istifadə məqsədilə yeni texnologiyalardan istifadənin genişləndirilməsi iqtisadi artımın hərəkətverici qüvvəsi hesab edilir. Bu baxımdan ekoloji innovasiyaların tətbiq sahəsi olan yaşıl iqtisadiyyat, sabit inkişaf üçün yeni imkanlar formalaşdırır. Nəticədə ekoloji innovasiyalar məhsulları və texnologiyaları dəyişdirən yanaşmalardan istifadə edərək ekoloji problemlərin həllinə öz töhfəsini verir. Yaşıl texnologiyalara enerjidən istifadənin səmərəliliyi və alternativ enerji, enerji idarəetmə sistemləri, yaşıl nəqliyyat, tullantıların idarə edilməsi, hava və su emissiyalarının idarə edilməsi daxildir. Ona görə də "iqtisadiyyatın enerji keçidinə hazırlıq səviyyəsinin və dayanıqlığının gücləndirilməsi üçün bu proseslərin ölkə iqtisadiyyatına mümkün mənfi təsirlərinin, iqlim dəyişikliyi ilə bağlı fiskal risklərin qiymətləndirilməsi vacibdir" [3, s.226].

Yaşıl texnologiyalar, ilk növbədə aşağıdakı məqsədlərin reallaşdırlmasına yönəlir:

- ətraf mühitin çirklənməsinin azaldılması, tikinti, istehsal və infrastruktur sektorlarında resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi;
- daha təmiz enerjiyə və aşağı karbonlu istifadə proseslərinə əsalanmaqla mənfi iqlim dəyişikliyinin azaldılması;
- temperatura davamlı texnologiyaların inkişafı vasitəsilə həssaslığın azaldılması və iqlim dəyişikliyinə uyğunlaşmanın təmin edilməsi;
- biomüxtəlifliyin və meşə ehtiyatlarının idarə edilməsi prosesinin təkmilləşdirilməsi;
- biomüxtəliflikli resurslardan daha məhsuldar şəkildə istifadə və s.

Resurslardan istifadənin səmərəliliyi aşağıdakı prinsiplərlə birbaşa əlaqəlidir: "eyni resurs miqdarı ilə daha çox istehsal – yeni istehsal texnologiyaları ilə itkilərin minimallaşdırılması; təkrar emal hesabına istehsal həcminin artırılması; tullantıların azaldılması hesabına ətraf mühitə təsirlərin minimallaşdırılması; resursların daha az istehlakının təşviq edilməsi (yüksək istehlak olan cəmiyyətlərdə); bərpa olunan resurs mənbələrinə keçid; resurs bölgüsündə ədalət (xüsusilə su və qida kimi həyati resursların bölgüsündə)" [1, s.73].

Araşdırmalar göstərir ki, enerji sisteminin modernləşdirilməsinin əsas istiqamətlərindən biri alternativ enerjinin inkişaf etdirilməsidir. Alternativ enerji enerjiyə qənaət texnologiyalarından, eləcə də ekoloji cəhətdən təmiz, az karbonlu enerji mənbələrindən istifadəni nəzərdə tutur. Öz növbəsində, belə yanacaq növlərinin öz strukturunda ekoloji cəhətdən təmiz enerji mənbəyi kimi neft və kömürün təbii qazla əvəzlənməsi önə çəkilir.

Yeni texnologiyaların və ekoturizmin inkişafı nəqliyyat problemlərinin həllini və yeni sahələrin yaradılmasını şərtləndirir. Ekosistemə mümkün ən az zərər vuran və maksimum səmərəyə malik texnologiyalar ekoloji cəhətdən təmiz texnologiyalar kimi bu baxımdan geniş istifadə edilir. Atmosferin keyfiyyətinin yaxşılaşdırılmasına innovativ yanaşma qazların təmizlənməsi və karbon qazının utilizasiyası ilə xarakterizə olunur.

Qeyd edilənlərdən aydın olur ki, hazırda yaşıl iqtisadiyyatın yeni iqtisadi modelin mühüm tərkib hissəsinə çevrilməsi, onun iqtisadi inkişafın və tərəqqinin bütün sahələrində təşviqini zəruri edir. Yaşıl iqtisadiyyata keçidin həyata keçirilməsi müxtəlif mexanizmləri ehtiva edir. Bu istiqamətdə bir çox inkişaf etmiş ölkələr ekoloji təzyiqləri və iqtisadi artımın resurs intensivliyini azaltmaqda irəliləyiş əldə etməyə nail olmuşlar. Təbii ki, ayrı-ayrı ölkələr və regionlar üzrə ekoloji yükün və resurs istehlakının artması, yalnız yerli istehlakı və istehsal meyllərini deyil, həm də xarici investisiyaların tendensiyalarını nəzərə almağı tələb edir.

Göstərilənlər təsdiq edir ki, yaşıl iqtisadiyyatı inkişaf etdirməklə dayanıqlı və resurslara qənaət edən inkişaf yolunu təmin etmək üçün yeni şərtlər sistemi lazımdır. Belə şərtlərə daxildir: səmərəli tənzimləyici bazaların yaradılması; iqtisadi fəaliyyət sahələrinin yaşıl sektorlara çevrilməsinin təşviqi ilə bağlı dövlət investisiyalarının prioritetləşdirilməsi; yaşıl investisiya və innovasiyaları stimullaşdırmaq üçün bazar alətlərindən istifadə; beynəlxalq əməkdaşlığın gücləndirilməsi və s. [4, s.82].

Yaşıl iqtisadiyyata keçidin qeyd olunan şərtləri, iqtisadi fəaliyyət sahələrinin yaşıllaşdırılmasına, uğurlu dövlət və özəl investisiyalarına yol açа bilər. Bu istiqamətdə dövlətin qarşısında duran mühüm vəzifələrdən biri investisiyaların strukturunu dəyişdirmək və bunun üçün müvafiq mexanizmlər yaratmaqdan ibarətdir.

Bununla yanaşı, enerjidən istifadənin səmərəliliyinin artırılmasına, bərpa olunan enerjinin, dayanıqlı kənd təsərrüfatının inkişafına, ekosistemlərin və biomüxtəlifliyin qorunmasına, torpaq və su ehtiyatlarının qorunmasına diqqətin artırılması vacib məsələlər kimi özünü göstərir. Belə tədbirlərlə dövlət, ekoloji cəhətdən dayanıqlı və makro səviyyədə müvafiq iqtisadi mühitin yaradılması yolu ilə yaşıl iqtisadiyyata keçidi sürətləndirə bilər.

ƏDƏBİYYAT

1. Qasımlı V., Hüseynov R., Hüseyn R., Həsənov R. Yaşıl iqtisadiyyat. "Azprint" nəşriyyatı. Bakı 2022. 280 s.
2. Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosialiqtisadi inkişafa dair milli proqram. Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 18 fevral tarixli Sərəncamı.
3. Həsənov R.B. Azərbaycanda İqlim Dəyişikliyi üzrə Maliyyələşmə Çərçivəsinin tətbiqi və "yaşıl büdcə"yə keçid. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2021 (mart-aprel), s. 220-233.
4. Батаева, Б. Устойчивое развитие: экологические приоритеты перехода к «зеленой» экономике / Бэла Батаева, Ольга Кожевина // Экономика сельского хозяйства России. - 2017. - № 2. - С. 80-87.

KEY CONDITIONS FOR THE FORMATION OF A GREEN ECONOMY

Aysel Shakir gizi Suleymanova
aysel.suleymanova@adau.edu.az
Azerbaijan State Agricultural University

The green economy, recognized as a vital component of the natural environment in which the economy operates, seeks to optimize the use of natural resources, safeguard societal well-being, and facilitate the reintegration of products into the production cycle. Prioritizing environmental interaction, the green economy focuses on fulfilling human needs and is defined as a system of economic activities encompassing the production, distribution, exchange, and consumption of goods and services with a long-term perspective.

Keywords: green economy, ecosystem, ecological innovations, resource, efficiency.

STARTUPS AS A WAY OF SUSTAINABLE DEVELOPMENT AND INNOVATION

Paloma Del Rocio Benavides Pacheco
b.paloma1@outlook.com
Federico Santa Maria Technical University

The future of startups in promoting sustainable development and innovation is increasingly pivotal as they inject agility and creativity into traditional sectors. Startups are uniquely positioned to address environmental challenges through disruptive technologies, particularly in industries heavily impacted by climate change, such as aviation. Research emphasizes that startups contribute significantly to the transition of this sector by fostering radical innovation, which is essential for reducing carbon footprints [1]. The shift towards more sustainable practices is not limited to environmental benefits; it also serves as a blueprint for economic resilience by opening new markets and opportunities. Furthermore, the emergence of service-oriented business models among media startups illustrates how innovative approaches can lead to financial sustainability, even amid challenging economic climates [2]. Thus, the collaboration between startups and established firms is critical for developing a more sustainable economic framework that embraces both innovation and environmental responsibility.

I. Introduction

In an era increasingly defined by environmental challenges and social inequalities,

startups are emerging as pivotal players in driving sustainable development and fostering innovation. These ventures are uniquely positioned to disrupt traditional practices by introducing technologies, products, and services that aim to replace less sustainable alternatives, thereby contributing to a broader sustainability transition. While the significance of new entrants in the realm of sustainability has been acknowledged, there remains a crucial gap in understanding how individual startups achieve growth and market presence, as highlighted by [7]. Furthermore, the intersection of design thinking and public policy exemplifies how startups can collaborate with governmental entities to create more citizen-centered solutions, addressing complex social issues while navigating challenges inherent in public sector processes, as noted in (N/A, 2021). This interplay marks a transformative approach to contemporary crises, underlining the importance of innovative startups in sustainable development.

Definition of startups and their role in the economy

Startups are typically defined as newly established businesses that aim to innovate and disrupt existing markets through unique products or services. These ventures play a pivotal role in the economy by driving innovation, creating jobs, and fostering competition. Their agile nature allows them to respond quickly to changing consumer demands, making them crucial for economic adaptability and resilience. Furthermore, startups often leverage technology and creativity, contributing to sustainable development by implementing more efficient business models and processes. For instance, research highlights that small and medium enterprises can improve their business models through mechanisms like business model innovation (BMI) when embracing organizational ambidexterity, thus promoting sustainability within their operations [3]. Additionally, collaborations between startups and established companies can create synergies, as evidenced in the Israeli and NRW ecosystems, where startups introduce agility while established firms provide market access and scale [4]. This dynamic interplay ultimately enhances economic growth and development.

II. Startups and Environmental Sustainability

In a rapidly evolving economic landscape, startups are increasingly recognized as pivotal agents for fostering environmental sustainability. These emerging enterprises often embrace innovative business models that prioritize sustainable practices, allowing them to redefine traditional industry norms. For instance, startups focused on eco-friendly products and services are not only catering to a growing consumer demand for sustainability but are also contributing significantly to environmental preservation. This dynamic is exemplified in initiatives like those conducted by Transition UGent, which utilize participative processes to embed sustainability deeply within organizational frameworks. Furthermore, startups can leverage organizational ambidexterity—simultaneously pursuing innovation and operational efficiency — to implement business model innovations that embrace sustainability. This approach can be particularly effective for small and medium enterprises, as evidenced by studies demonstrating practical mechanisms for these businesses to adapt and thrive while maintaining an environmental focus [3]. As such, startups serve as a vital nexus between sustainable development and entrepreneurial innovation.

Innovative solutions for reducing carbon footprints

In the pursuit of innovative solutions for reducing carbon footprints, startups are at the forefront of leveraging advanced technologies to foster sustainable development. These entrepreneurial ventures are increasingly integrating artificial intelligence to optimize energy use across various sectors, significantly enhancing climate modeling and monitoring capabilities. For instance, AI can process vast datasets to refine transportation logistics, thereby minimizing emissions and improving operational efficiency. Furthermore, initiatives such as Transition UGent illustrate the grassroots engagement necessary for

meaningful sustainability policies, where stakeholders collaborate to enact actionable strategies in diverse areas, from waste management to food supply. Such comprehensive approaches not only underscore the innovative potential of startups but also highlight the critical role of community involvement and evidence-based policies in achieving significant reductions in carbon footprints. This synergy between technological advancement and participatory governance underscores the viability of startups as agents of sustainable progress.

III. Startups and Social Innovation

The intersection of startups and social innovation represents a burgeoning avenue for sustainable development, harnessing innovative solutions to address societal challenges. Startups, characterized by their agility and adaptability, are uniquely positioned to foster social change, particularly in sectors such as health, education, and environmental sustainability. For instance, as explored in comparisons between the Israeli startup ecosystem and Germanys Mittelstand companies, there exists significant potential for collaboration through shared verticals like artificial intelligence and cybersecurity. Such partnerships can expedite the development and scaling of solutions that benefit communities and economies alike [4]. Furthermore, the operationalization of business model innovation through organizational ambidexterity serves as a framework for startups to navigate these dual objectives effectively. By adopting this model, small and medium enterprises can enhance their business practices while simultaneously addressing pressing social issues, thereby democratizing innovation and contributing to broader sustainability efforts [3].

Addressing social issues through entrepreneurial initiatives

The intersection of social issues and entrepreneurial initiatives offers a promising pathway for fostering sustainable development and innovation, particularly in regions facing economic and social challenges. Startups aimed at addressing societal needs not only create jobs but also enhance community resilience by providing solutions to problems such as poverty, education, and healthcare access. For instance, incubation centers serve as vital hubs for nurturing these entrepreneurial ventures, as highlighted in existing research, which underscores their capacity to deliver essential resources, mentorship, and networks that enhance startup success [5]. Furthermore, the cultural dimensions embedded within these initiatives often stimulate creativity and innovation, subsequently driving economic growth and social cohesion, as evidenced by the role of creative sectors in promoting sustainable practices [6]. By acknowledging and capitalizing on the synergy between social goals and entrepreneurial action, startups can emerge as effective instruments for transformative change in society.

Conclusion

In conclusion, the role of startups in fostering sustainable development and innovation is increasingly vital in today's dynamic economic landscape. These nascent ventures embody agility and adaptability, often developing groundbreaking solutions that align with societal needs and environmental sustainability. The collaboration between startups and established entities, such as those in the Mittelstand sector of Germany, can yield significant synergies, leveraging the speed and creativity of startups alongside the experience and market access of larger firms. This partnership model is echoed in findings that stress the importance of proactive engagement to overcome existing barriers to collaboration [4]. Moreover, the emergence of academic entrepreneurship further illustrates the potential for startups to originate from research institutions, transitioning innovative ideas from laboratories to market-ready products, thus driving economic and social progress. Ultimately, the integration of startups into the broader innovation ecosystem holds promise for advancing sustainable development objectives on a global scale.

Keywords: startup, innovation, sustainable development, economy/

REFERENCES

1. Molewijk, Marilot R. (2023) Startups and their contribution to the future of sustainable aviation - A qualitative study on the role of startups in the transition of the aviation industry toward sustainable air mobility.. doi: https://core.ac.uk/download/620664276.pdf
2. Cook, Clare Elizabeth, Sirkkunen, Esa (2012) Chasing Sustainability on the Net : International research on 69 journalistic pure players and their business models. doi: https://core.ac.uk/download/42137215.pdf
3. Batocchio, Antonio, Durán, Orlando, Franco, Matheus, Holgado, et al. (2020) Carving out new business models in a small company through contextual ambidexterity: the case of a sustainable company. doi: https://core.ac.uk/download/293754621.pdf
4. Egbringhoff, Andrea, Gick, Markus, Jensen, Torsten, Krings, et al. (2019) German and Israeli Innovation: The Best of Two Worlds. doi: https://core.ac.uk/download/322823607.pdf
5. Dixit, Preeti, Ravichandran, Ramasamy (2024) Empowering the Next Generation of Entrepreneurs: The Role of Innovation and Incubation Centres. doi: https://core.ac.uk/download/616886678.pdf
6. Frăsineanu, Dragoș, Gurgu, Elena, Simbotin, Geanina (2024) Culture and Innovation: How Creative Sectors Can Contribute to the Sustainable Development of Romania. doi: https://core.ac.uk/download/616925670.pdf
7. Jannic Horne, Klaus Fichter (2022) Growing for sustainability: Enablers for the growth of impact startups – A conceptual framework, taxonomy, and systematic literature review. Volume(349), 131163-131163. Journal of Cleaner Production. doi: https://doi.org/10.1016/j.jclepro.2022.131163

AZƏRBAYCAN İQTİSADİYYATININ YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ LOGİSTİKA FƏALİYYƏTİNİN İNKİŞAFININ ƏSAS ASPEKTLƏRİ

Vaqif Məcid oğlu Ramazanov
Günay Arzu qızı Cəfərova
gunay.ibrahimli96@mail.ru
Azərbaycan Dövlət Aqrar Universiteti


Bilindiyi kimi logistika fəaliyyəti tədarük zəncirinin ən vacib həlqələrindən birini təşkil edir. Təchizat Zəncirinin İdarə Edilməsi üzrə Ekspertlər Şurası (Council of Supply Chain Management Professionals-CSCMP) logistikaya belə bir tərif verir: "Logistika müştərilərin ehtiyaclarını ödəmək üçün məhsulların, xidmətlərin və əlaqəli informasiyaların istehsal nöqtəsindən istehlak nöqtəsinə qədər səmərəli axınını və saxlanılmasını planlaşdıran və idarə edən tədarük zəncirinin bir mərhələsidir" [1].

Logistika sektoru bütün sektorlarla əlaqəli olduğu üçün iqtisadi fəaliyyət sahələri içərisində mühüm yer tutur. Qloballaşma prosesi nəticəsində firmalar təklif etdikləri xidmətləri azaltmalı, təkmilləşdirməli və bazarda istehlakçını cəlb edən fərqlər yaratmalıdır. Bu çərçivədə, logistika sənayesi, xərclərin və təqdim edilən xidmətlərin azaldılmasına təsiri ilə yaratdığı dəyər baxımından önəmlidir və iqtisadiyyatda rolu getdikcə artır. Bundan əlavə, logistika iqtisadi artım nöqtəsində əsas amillərdən biri hesab olunur. Azərbaycan iqtisadiyyatında logistika sektorunun varlığı günü-gündən artır və bu inkişafın iqtisadiyyata verdiyi töhfə geniş elmi yanaşma və tədqiq tələb edir. 2000-ci illərdən etibarən sürətlənən nəqliyyat anlayışından logistika anlayışına keçid prosesi, iqtisadiyyatdakı mövqeyini möhkəmləndirdi. Bu gün Azərbaycanda beynəlxalq logistika və bu sahədə fəaliyyət göstərən bir çox şirkətlər var. Azərbaycanda bu vəziyyət beynəlxalq ticarətin inkişafını təmin edir və tələbatı artırır. Logistika sektorunun Azərbaycan iqtisadiyyatı içərisində yerini müəyyən edərək, əsas sektor baxımından araşdırılılması mövcud iqtisadi tendnsiyaların qiymətləndirilməsi baxımından xsusi əhəmiyyət kəsb edir [2].

Ölkəmizdə logistikanın inkişafını şərtləndirən amilləri nəzərə alaraq, onun iqtisadi baxımdan tətbiq zonalarım mütləq müəyənləşdirmək lazımdır. Aydındır ki, inhisarçılıq o cümlədən istehsalın inhisarlaşması sözün tam mənasında logistikadan istifadə imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Bazar iqtisadiyyatının hərəkətverici və həvəsləndirici motivi hesab edilən rəqabət

və rəqabət şəraitinin mövcud olmaması logistik təfəkkürün yaranmasına və onun inkişafına əsaslı sürətdə maneəçilik yaradır. Yəni, prinsipial nöqteyi-nəzərdən harada ki, rəqabət mövcud deyil, orada logistik təfəkkür üçün yer qalmır[3]. Respublikamızda logistikan inkişafı üçün zəruri şərt təkrar istehsal prosesinin bütün fazalarında inhisarçılıq ənənələrinin iqtisadi əsaslarının ləğv edilməsindən ibarətdir. Əks təqdirdə iqtisadi tərəfdaşların seçilməsinə əsaslanan rəqabətin inkişafı üçün bazar konyukturası baxımından qiymətin əmələ gəlməsi və sifarişlərin formalaşması üçün şəraitin yaradılmasını təmin etmək qeyri mümkündür.

Logistika nəqliyyat və kommunikasiya sahəsində həyata keçirilən bir sıra mühüm fəaliyyətlərin toplusudur və bu prosesin effektiv idarə olunması böyük əhəmiyyət kəsb edir. Effektiv logistika idarəetməsi, xərclərin azaldılması, istehsal və keyfiyyəti artırmaq və müştəri məmnuniyyətini artırmaq kimi mühüm xüsusiyyətləri özündə ehtiva edir. Son zamanlar logistika idarəetməsi strateji inzibati fəaliyyətə çevrilmişdir [4]. Bu mövzuda strateji logistika, logistika texnikaları ilə biznesləararası əlaqələrin təşkili ilə rəqabət qabiliyyətli üstünlük əldə etmək kimi müəyyən elementlər logistika idarəçiliyində ön plana çıxır. Qeyd olunan logistika fəaliyyətlərinə, müəssisə yeri seçimi, satınalma, ehtiyatların idarə edilməsi, tələbin proqnozlaşdırılması, sifariş, emal,qablaşdırma, etiketləmə, paylama, müştəri xidməti kimi xidmətlər daxildir. Logistikanın idarə edilməsi ölkənin rəqabət qabiliyyətini müəyyən edən əsas amillərdən biridir ona görə görə də xüsusi əhəmiyyət kəsb edir.



Şəkil 1. Logistika xidməti dərəcələri

Dünya təcrübəsində logistik xidmətlər 1PL, 2PL, 3PL, 4PL və 5PL olaraq 5 qrup üzrə dərəcələndirilir (şəkil 1.).

Logistika zəncirinin mühüm tərkib elementlərinin inkişafını təmin etmək üçün ilk növbədə infrastruktur təminatını tələb olan optimal səviyyəsyə uyğunlaşdırmaq tələb olunur [5]. Logistikanın inkişafı həm makro səviyyədə həmdə mikro səviyyədə iqtisadi inkişafın təmin olunmasının əsas elementlərindən hesab olunur. Onun təkmilləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması beynəlxalq bazarlara çıxış üçün də mühüm rol oynayır. Bəzən insanlar xüsusilə yol infrastrukturunun yenilənməsi,yer altı tunellərin inşasının hansı iqtisadi səmərə yaradacığına şübhə ilə yanaşırlar. Lakin bir faktı qeyd edək ki, xüsusilə hazırda Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonunda inşa olunan yol infrastrukturu və hava limanları yaxın gələcəkdə həm vaxta qənaətə həmdə daşıma xərclərinin ən azı 25-30% azalmasına imkan yaradacaq ki, bu da kifayət qədər mühüm göstəricidir [6].

Nəticə. Respublikamız müstəqillik qazanandan sonra nəqliyyat sistemi öz inkişafının yeni mərhələsinə qədəm qoyması ilə birlikdə əsaslı struktur islahatları tamamlanmışdır. Ölkənin iqtisadiyyatının sürətli inkişafının növbəti mərhələsi, bazar iqtisadiyyatı durumunda nəqliyyat işinin hüquqi bazasının əmələ gəlməsinə, tələbə yönəlik, bazar iqtisadi sisteminin xüsusiyyətlərini əks etdirən güclü fəalıyyət istiqamətlərinə üz tutmağa səbəbiyyət vermişdir. Nəqliyyatda sahəsində islahatlarının tamalanması vahid nəqliyyat siyasətinin formalaşması baxımından stimul yaratmışdır. Yeganə nəqliyyat siyasəti hədəflərindən biri subsektroların inteqrasıyasından və nəqliyyat xıdməti bazarında istər birləşmiş itərsə də multimodelli nəqliyyat sıstemlərində bacarıqların artmasından ibarətdir.

Hazırda ölkəmizdə logistikanın iqtisadi inkişafının mühüm aspeklərindən biri kimi müəyyən edilməsi dövlətimizin həyata keçirdiyi iqtisadi siyasətin miqyasını əks etdirir. Bu,

sahənin inkişafı və sahəyə yönəldilən invsetisiyalar birbaşa və dolayı yolla digər sektorlara da müsbət təsir göstərəcək. Beləliklə, bu investisiyaların iqtisadi artıma töhfəsi daha yüksək olacaq. Bu çərçivədə logistika sektoruna ediləcək investisiyalar təşviq edilməsi məqsədəuyğun hesab edilə bilər. logistika sənayesinə həm aralıq mallara, həm də son mallara yüksək tələbat səbəbindən,yönəldilən investisiyalar xərclər baxımından bazar mexanizmini sürətləndirəcək. Bu baxımdan bu araşdırma sahibkarlar üçün bələdçi ola bilər.İşin son hissəsində, məşğulluq və iqtisadi artıma yaratdığı töhfələrdə logistika sektorunun inkişafı üçün nəzərə alınması vacib olan amillərdəndir. Sektorun ehtiyac duyduğu ixtisaslı kadrların yetişdirilməsi iqtisadi inkişafın və xarici iqtisadi əlaqələrin perspektivi baxımından da mühüm rol oynayır.İqtisadi planlaşdırma baxımından bütün sektorların ətraflı təhlili və öyrənilməsi geniş faydalara yarada bilər.İqtisadiyyatın dinamik strukturu çərçivəsində modelləşdirmə vacib amildir.Başqa sözlə, hər bir sektorun spesifik xüsusiyyətlərinə uyğun olaraq sektorların strukturunu ayrı-ayrılıqda müəyyən etməklə planlaşdırma onun təsiri və tətbiqi ortaya çıxarılmaldır.

ƏDƏBİYYAT

1. Əliyev E.Ə.Beynəlxalq daşımaların hüquqi tənzimlənməsi.Dərs vəsaiti.Bakı 2008
2. Əliyev E.Ə. Beynəlxalq nəqliyyat daşımalarının konvension təsbiti. Bakı 2002
3.Əliyev E.Ə.Qloballaşma dövründə beynəlxalq nəqliyyat münasibətlərinin hüquqitənzimlənməsi.Bakı 2007
4. KARA, M. A., CİĞERLİOĞLU, O. (2018), Türkiye Ekonomisinde Ulaşım Altyapısının Ekonomik Büyümeye Etkisi, Gaziantep University Journal of Social Sciences, 17 (2), 577- 591
5. K.SAATÇİOĞLU, C., KARACA, O. (2013), Ulaştırma Altyapısı ve Bölgesel Gelir Farklılıkları: Türkiye İ çin Ampirik Bir Analiz. İşletme ve İktisat Çalışmaları Dergisi, 1(1)
6. IBRD / World Bank, Connecting to Compete2012:Trade Logıstıcs in the Global Economy, 2012

MAIN ASPECTS OF THE DEVELOPMENT OF LOGISTICS ACTIVITIES IN THE NEW STAGE OF DEVELOPMENT OF THE AZERBAIJAN ECONOMY

Vagif Majid oglu Ramazanov
Gunay Arzu gizi Jafarova
gunay.ibrahimli96@mail.ru
Azerbaijan State Agricultural University

In recent years, Azerbaijan has focused on developing its logistics sector due to participation in key international projects and the liberation of previously occupied territories. The aim is to improve transport and communication infrastructure to diversify the economy, particularly the non-oil sector. Azerbaijan's strategic geographical location is seen as a major regional and global advantage. Logistics development, including the ongoing Alat Free Trade Port project, is expected to significantly benefit the country and enhance the competitiveness of Azerbaijan's economy.

Key words: logistics, transportation, supply chain, logistics services

1C - УПРАВЛЕНИЕ НАШЕЙ ФИРМОЙ КАК ИНСТРУМЕНТ ДЛЯ АДМИНИСТРИРОВАНИЕ МАЛЕНЬКИХ И СРЕДНИХ КОМПАНИЙ

Попа Родика
rodica.buh@gmail.com
Академия Экономического Образования Молдавии

В условиях интенсивной цифровой трансформации хозяйственной деятельности и обостряющейся конкуренции на рынке, особое значение приобретаю все инструменты доступны на рынке для управления и автоматизации процессов. Данный материал раскрывает возможности программы 1С:Управление нашей фирмой (1С:УНФ) с точки зрения его применимости в малом и среднем бизнесе.

Многие пользователь программы 1С, даже до сих пор думают, что дынный продукт полезен только бухгалтеру. По всей видимости, поэтому что «1С:Бухгалтерия» стала когда-то первым и самым популярным продуктом компаний 1С. Даже в данный момент, большинство предпринимателей видят программу 1С – как инструмент для бухгалтеров: для начисления налогов и сформирование закрывавших документов и акт сверок.

Данная позиция ошибочна. Программа «1С» — предназначена для автоматизации деятельности предприятий, со всеми бизнес-процессами. Пользователям доступен широкий спектр предложений: типовых решений и отраслевых конфигураций.

Программа создана с учетом специфики управления разными видом бизнеса

и лучше всего подходит для использования в организациях, которые занимаются: торговлей (оптовой, розничной и интернет-торговлей); услугами, сервисами и подрядами; мелкосерийным и подзаконным производством [3, стр. 12].

Программа 1С:УНФ — это комплексная система, предназначена для полной автоматизации оперативного управленческого учета на предприятиях малого бизнеса [4, стр. 11].

Основные блоки программы включают:

- управление клиентской базой и продажами с визуализацией воронки;
- управление закупками и остатками, автоматические оповещения о нехватке товаров;
- денежные потоки, бюджетирование, аналитика по статьям затрат;
- кадровый учет: табели, графики, начисление заработной платы и налогов;
- встроенный документооборот с шаблонами и контроль исполнения задач;
- производственный учет с планированием загрузки и выпуском продукции.

В основу программы заложены принципы как: простота использования, быстрый старт, масштабируемость, безопасность превыше всего, прозрачные данные для руководителя, оценка эффективности бизнеса [4, стр. 12].

Программа 1С:УНФ, легко интегрируется с онлайн-кассами, банками, налоговыми системами, платформами отчетности (SIA GE), а также с CRM Bitrix24, что обеспечивает формирование единого информационного пространства для управления бизнесом. С их помощью возможно автоматизировать бизнес-процессы в любой компании, независимо от масштабов и направлений.

№	Системы / Критерий	1С УНФ	1С: ERP
1	Бухгалтерский учет на УСН	+	+
2	Бухгалтерский учет на ОСНО	Только в интеграции с 1С: Бухгалтерия -	+
3	Сокращенное бюджетирование	+	+
4	Полное бюджетирование с настройкой самостоятельных бюджетов	-	+
5	Интеграция с сайтом на 1С- UMI и другими	+	Как расширение
6	Позаказное производство	+	+
7	Использование спецификаций	+	+
8	Пооперационное планирование	-	+
9	Расширенные спецификации, с возможностью формирования отчетов	-	+
10	Управленческий учет заработной платы	+	+
11	Функционал CRM	+	+
12	Обеспечение информационной безопасности	+	+
13	Стоимостное решение (на 2025 г.)	от 15 000 руб.	от 300 000 руб.
14	Предназначение для организаций масштаба	Малый и средний бизнес	Крупный и средний бизнес
15	Структура бизнес-процессов	Стандартная	Сложная
16	Степень модульности и расширяемости	Стандартная	Высокая
17	Ввод в эксплуатацию	Быстрый (из коробки) (занять до 1-4 месяцев)	От 6 месяцев

18	Работа в удаленном режиме	Простое	Сложное
19	Простота использования	+/-	-
20	Интеграция с 1С: Бухгалтерия	+	+
21	Интеграция с 1С: ЗУП	+	+
22	Интеграция с 1С: Управление торговлей	+	+
23	Внедрение и настройки	От 50т до 150т руб.	от 1,5 млн руб.

Однако внедрение современных информационных технологий не является панацеей от всех проблем. Имеющаяся в экосистеме «1С» практика реализации проектов внедрения корпоративных информационных систем показывает, что вместе с запуском информационных систем предприятия должны провести ряд методологических, организационных и технологических изменений:

- должна использоваться методология, соответствующая актуальным задачам управления и учитывающая особенности конкретного предприятия;
- должна быть определена организационная структура управления, обеспечивающая оптимальное распределение обязанностей и полномочий в рамках реализации постав ленных целей;

-должны быть определены бизнес-процессы, определяющие эффективный порядок взаимодействия работников пред приятия в процессе реализации целей его создания [1, стр. 10].

За последнее время теория управления предприятиями как экономическими субъектами прошла значительный путь. Одним из основных подходов к управлению, получившим наибольшее распространение на практике, является концепция ERP, которая обеспечивает эффективное планирование и управление ресурсами предприятия, с целью достижения поставленных бизнес-задач.

На уровне актуальных источников выявлены две программы компании 1С: УНФ и 1С**:** ERP, направленные на управление и оптимизацию бизнес-процессов в рамках предприятий. Таким образом, автор поставил перед собой цель рассмотреть ключевые аспекты и характеристики этих двух программ с целью выявления наиболее оптимального решения для малых и средних компаний, а также в зависимости от потребностей каждой конкретной компании.

В таблице будут описаны основные критерии, по которым можно будет ответить на вопросы, появлявшейся в процессе внедрение программы.

Графическая структурная модель АИС

1С:УНФ зарекомендовала себя как эффективное и гибкое решение для автоматизации процессов управления в малом и среднем бизнесе. Программа сочетает доступность, широкие функциональные возможности и адаптацию под локальные условия. Несмотря на определённые вызовы, её внедрение способствует повышению эффективности, снижению издержек и повышению прозрачности бизнеса. В условиях цифровой трансформации МСП, такие инструменты становятся неотъемлемой частью стратегии устойчивого развития

ЛИТЕРАТУРА

1. Завьялкин Д., Гаврилова Е., Пальчиков И. 1С: Академия ERP. Управленческий учет, 2-е стереотипное издание. Москва: ООО 1С-Паблишинг, 2022. Электронная книга в формате pdf; ISBN: 978-5-9677-3228-7.
2. Ильин, В. Внедрение ERP-систем: управление экономической эффективностью [Электронный ресурс] 3-е изд. (эл.). — Электрон. текстовые дан. (1 файл pdf : 298 с.). — Москва: Агентство Интермедиатор, 2018. ISBN: 978-5-91349-057-5
3. Павлов Ю., Бандуля И. От хаоса к порядку. С «1С: Управление нашей фирмой». Реально Москва: ООО 1С-Паблишинг, 2018, электронная книга в формате pdf; ISBN 978-5-9677-2819-8

4. Павлов Ю., Бандуля И. Реальная автоматизация малого бизнеса. «1С:Управление нашей фирмой». Издание 2. Москва: ООО 1С-Паблишинг, 2020. электронная книга в формате pdf; ISBN 978-5-9677-2948-5

1C – Managing Our Company as a Tool for Administering Small and Medium Enterprises

Rodica Popa
rodica.buh@gmail.com
Academy of Economic Studies of Moldova

The paper analyzes two software solutions by 1C — "1C:Upravlenie Nashei Firmoy" (1C:UNF) and "1C:ERP" — focusing on their functionality for automating business processes in small and medium-sized enterprises (SMEs). It compares key features, integration capabilities, and implementation complexity to help identify the most suitable option depending on the company's scale and needs. The study emphasizes the growing importance of digital tools in achieving efficient and sustainable business management.

Keywords: 1C:UNF, 1C:ERP, digitalization, SME, business processes.

AZƏRBAYCANIN BANK SİSTEMİNİN BAZAR İQTİSADİYYATINA UYĞUNLAŞDILMASI

Kərim Məmmədov
k.memmedov@atu.edu.az
Sevinc Babakişiyeva
s.babakishiyeva@atu.edu.az
Azərbaycan Texnologiya Universiteti

Bazar iqtisadi şəraitində Azərbaycan Respublikası Mərkəzi bankının başlıca vəzifələrindən biri ölkəmizdə saglam və dayanıqlı bank mühitinin formalaşdırılmasından ibarətdir. Bankların vahid meyarlar əsasında tənzimlənməməsi onların arasında normal rəqabət münasibətlərinin yaranmasına və inkişafına imkan vermir ki, bu da bank-kredit sahəsində qeyri-sağlam şərait yaradır. Bəzi bank mütəxəssisləri respublikamızda dövlət bank sisteminin ləğv edilərək onun əvəzində səhmdar-kommersiya prinsipləri əsasında fəaliyyət göstərən, bankların yaradılmasını bank quruculuğu sahəsində buraxılan böyük bir nöqsan sayırlar. Bu Mərkəzi bankın bank quruculuğunu normal həyata keçirə bilməməsi ilə izah olunur. Lakin yaddan çıxarılmamalıdır ki, bazar iqtisadiyyatı yolu ilə gedən hər bir ölkədə ikipilləli bank sistemi yaratmadan liberal iqtisadi münasibətlərin formalaşdırılması mümkün deyildir [1, 2, 4].

XXI əsrin əvvəllərində respublikamızda 31 səhmdar-kommersiya bankı fəaliyyət göstərirdi ki, onların da filiallarının sayı 556, şöbələrinin sayı isə 142 olmuşdur. Həmin bankların cəmi bir neçəsi xarici kapitalın cəlb olunması əsasında yaradılmışdır. Mərkəzi bank tərəfindən kommersiya banklarının fəaliyyətinə çevik nəzarətin olmaması respublikanın bank-kredit sahəsində qeyri-sağlam mühitin yaranmasına səbəb olmuşdur [2, 3].

Bazar münasibətləri şəraitində iqtisadi kateqoriyalar kimi kreditin, pulun rolu getdikcə artır, onlar iqtisadi fəallığın, istehsalın artırılmasının mühüm mənbəyi kimi çıxış edirlər. Belə bir şəraitdə banklar xalq təsərrüfatını əlavə pul resursları ilə təmin edən əsas həlqəyə çevrilir. İnkişaf etmiş ölkələrdə banklar təkcə pul alqı-satqısı ilə məşğul olmur, həm də bazarı təhlil edirlər. Bank öz roluna görə biznesə də yaxındır, çünki o da bazar konyunkturasına əsaslanır [3, 4].

Kommersiya banklarının fəaliyyətində əsas məsələlərdən biri də Mərkəzi bank tərəfindən onların fəaliyyətinin bazar iqtisadiyyatına uyğunlaşdırılmasıdır. Bu zaman Mərkəzi bank kommersiya banklarının işinə mane olmamalı, əksinə pul-kredit sahəsində rəqabət münasibətlərinin inkişafına şərait yaratmalıdır.

Banklar qanun qarşısında iki məsələdə cavabdehlik daşıyırlar. Birincisi, kommersiya banklarının Mərkəzi bankda hökmən sığorta və ehtiyat fondları olmalıdır. Onlar iqtisadi

normativlərə ciddi əməl etməlidirlər. İkincisi, banklar özlərinin əmanətlərini və hesablarını, apardıqları əməliyyatlar üzrə maliyyə sirlərini qoruyub saxlamalıdırlar [2].

Kommersiya banklarının fəaliyyətinin normal tənzimlənməsi və bank sisteminin bazar iqtisadiyyatına tam uyğunlaşdırılması üçün aşağıdakı tədbirlər həyata keçirilməlidir.

1. İqtisadiyyatda kredit münasibətlərinin daha da inkişafına şərait yaradılmalıdır. Yəni banklar vasitəsilə müəssisələr bir-birinin sərbəst pul vəsaitlərindən geniş istifadə etməli, kredit bazarındakı tələb və təklifdən asılı olaraq faiz dərəcəsini dəyişdirməlidir.
2. Ölkələr arasındakı hesablaşmaları sürətləndirmək məqsədilə respublikamızda klirinq palatası yaradılmalı, kommersiya bankları yaxın və uzaq xaricdə özlərinin müxbir hesablarını açmalıdırlar.
3. Kommersiya banklarının nizamnamə fondları artırılmalıdır. Bir çox kommersiya banklarında bu fondun vəsaiti az olduğuna görə, Mərkəzi bank kommersiya bankları qarşısında öz kapitallarını 50 milyon manata çatdırılması tələbini qoymuşdur. Artıq bu tələbi ödəyə bilməyən 10-dan çox bank öz fəaliyyətini dayandırmışdır. Respublikamızın kommersiya banklarının bəziləri özlərinin nizamnamə fondlarını şişirtmək məqsədilə qarşılıqlı şəkildə bir-birinin səhmlərini alır, ya da bir-birlərinin təsisçiləri kimi çıxış edirlər. Bu isə çox vaxt bankların müştəriləri olan müəssisə və təşkilatların vəsaiti hesabına həyata keçirilir. Nizamnamə fondunun bu cür formalaşmasını istisna edən çevik mexanizm hazırlanmalı və həyata keçirilməlidir.
4. Kommersiya bankları bütün növ depozitlər üzrə öz müştərilərinə faiz ödəməlidirlər. Bu, vəsaitlərinin bankda saxlanmasını stimullaşdırmaqla müəssisə və təşkilatların dövriyyə vəsaitlərinin dəyərdən düşməsinin qarşısını alar.
5. Mərkəzi bankla kommersiya bankları, kommersiya bankları ilə dövlət orqanları arasındakı qarşılıqlı münasibətlərə yenidən baxılmalı, xüsusilə də nəzarət səhm zərfi dövlətə məxsus olan səhmdar-kommersiya banklarına münasibətdə qeyri-müəyyənlik aradan qaldırılmalıdır.
6. Mərkəzi bankın mərkəzləşdirilmiş kredit resursları üzrə aldığı haqq bütün banklar üzrə eyni həddə müəyyən edilməlidir ki, bu da banklar arasında sağlam rəqabət aparılmasının əsas şərtlərindən biridir.
7. Bank qanunvericiliyinə yenidən baxılmaqla bank fəaliyyətinin elmi cəhətdən tam əsaslandırılmış konsepsiyası işlənib hazırlanmalı və həyata keçirilməlidir [3, 4].

Qeyd olunan tədbirlərin həyata keçirilməsi iqtisadiyyatın pul sektorunun onun real sektorunun daha da inkişafına ciddi təkan verə bilər.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasının Milli bankı haqqında" Azərbaycan Respublikasının qanunu. Bakı, 2004
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol xəritəsi. Bakı, 2016
3. Bağırov M.M. Banklar və bank əməliyyatları. Ali məktəb üçün dərslik. Bakı, 2003, 512 s.
4. Məmmədov S. Bank işi. Bakı, 1997, 375 s

ADAPTING THE BANKING SYSTEM OF AZERBAIJAN TO A MARKET ECONOMY

Kerim Mamedov
k.memmedov@atu.edu.az
Sevinj Babakishiyeva
s.babakishiyeva@atu.edu.az
Azerbaijan Technological University

This study explores the core functions of the Central Bank of Azerbaijan, outlining the operational mechanisms of commercial banks within the country. It also provides a well-founded justification for the measures necessary to adapt these banks to a market economy.

Keywords: Central Bank, commercial banks, bank-credit, insurance, cash, sharing.

QARABAĞDA YENİ İQTİSADİ DİRÇƏLİŞ: MÜASİR İNKİŞAFIN BAŞLANĞICI

Şəhla Nadir qızı Qarayeva
sehlaqarayeva@yandex.ru
Firuzə İntiqam qızı Rzazadə
rzazadefiruze02@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası ilə nəticələnən 2020-ci il Vətən müharibəsi, yalnız siyasi və hərbi qələbə deyil, eyni zamanda böyük iqtisadi, sosial və mədəni canlanmanın başlanğıcı oldu. Qarabağ iqtisadi rayonu da bu prosesin mərkəzində dayanır. İşğaldan azad olunmuş ərazilərin bərpası, iqtisadi infrastrukturun qurulması və regionun potensialından tam şəkildə istifadə edilməsi üçün dövlət və özəl sektor birgə səylər göstərməkdədir. Bu məqalədə Qarabağ iqtisadi rayonunda həyata keçirilən müasir iqtisadi yeniliklər geniş şəkildə təqdim olunur.

2021-ci ilin iyul ayında Prezident İlham Əliyevin imzaladığı fərmanla Azərbaycan Respublikasının iqtisadi rayonlarının yeni bölgüsü təsdiq edildi. Bu bölgü çərçivəsində "Qarabağ iqtisadi rayonu" yenidən formalaşdırıldı və Ağdam, Füzuli, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Ağcabədi və Bərdə rayonlarını əhatə etməyə başladı. Bu addım bölgənin daha məqsədyönlü inkişafını təmin etmək üçün atılmış strateji qərar idi.

İqtisadi rayonun tərkibinə daxil olan ərazilər uzun illər işğal altında olduğuna görə infrastrukturu tamamilə dağıdılmışdı. Buna görə də ilk mərhələdə diqqət əsasən yenidənqurma işlərinə yönəldildi. Bu, yalnız tikinti və bərpa deyil, həm də dayanıqlı və innovativ iqtisadi mühitin qurulması anlamına gəlirdi.

Qarabağ iqtisadi rayonu üçün ***"Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"*** sənədində beş əsas prioritetdən biri — məskunlaşmanın sürətləndirilməsi və dayanıqlı inteqrasiya istiqamətləri müəyyən edilmişdir. Dövlət başçısının vurğuladığı kimi, ilk növbədə minalardan təmizləmə, sonra "ağıllı kənd" layihələri çərçivəsində müasir infrastrukturun yaradılması regionun dinc həyatının bərpası üçün zəruridir.

Qarabağda iqtisadi inkişafın təməli infrastrukturdan başlayır. İşğaldan azad olunan ərazilərdə yollar, su və enerji xətləri, rabitə şəbəkələri sıfırdan qurulmaqdadır. Azərbaycanın dövlət büdcəsindən hər il milyardlarla manat vəsait bu məqsədlə ayrılır. 2022-ci ildə Qarabağın bərpası üçün ayrılan vəsait 2.2 milyard manat olmuşdursa, 2023 və 2024-cü illərdə bu rəqəm daha da artırılmışdır.

Ən mühüm layihələrdən biri "Zəfər yolu" adlanan və Füzuli ilə Şuşanı birləşdirən magistral yolun tikintisidir. Bununla yanaşı, "Ağdam-Bərdə", "Füzuli-Hadrut" və "Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd" dəmir yolu xətləri də yenidən qurulur. Bu yolların regionun logistikasında və iqtisadi dövriyyəsində mühüm rol oynaması gözlənilir.

Azərişıq və Azəriqaz kimi qurumlar bölgəyə "ağıllı enerji sistemləri" tətbiq etməyə başlamışdır. Bu sistemlər müasir texnologiyaya əsaslanaraq uzaqdan idarə olunan, itki faizi az olan enerji şəbəkələri yaratmaqdadır. Eyni zamanda, fiber-optik internet infrastrukturu da qurulur ki, bu da regionda "ağıllı kənd", "ağıllı şəhər" modellərinin tətbiqinə zəmin yaradır.

Sənaye və kənd təsərrüfatı sektorunda yeniliklər. Ağdam və Füzuli sənaye parklarının yaradılması bölgənin iqtisadi inkişafının əsas dayaqlarındandır. 2022-ci ildə fəaliyyətə başlayan "Ağdam Sənaye Parkı" artıq bir neçə yerli və xarici şirkətlə əməkdaşlığa başlamışdır. Burada əsas fəaliyyət sahələri inşaat materialları, qida məhsulları və yüngül sənaye üzrə cəmlənir. Sənaye parklarında fəaliyyət göstərən sahibkarlara müxtəlif vergi və gömrük güzəştləri də təqdim olunur.

Qarabağ bölgəsindəki kənd təsərrüfatı üçün münbit torpaqlar və əlverişli iqlim şəraiti imkan verir ki, burada "Ağıllı kənd" layihələri icra olunsun. Zəngilanın Ağalı kəndi ilk pilot "ağıllı kənd" olaraq təqdim olundu və artıq bu model digər kəndlərə də tətbiq edilir. Burada kənd təsərrüfatı fəaliyyəti sensor texnologiyalarla və rəqəmsal idarəetmə ilə həyata keçirilir. Bu həm məhsuldarlığı artırır, həm də insan resurslarına olan tələbatı azaldır.

Kreditləşmə və sahibkarlığın təşviqi. Qarabağ iqtisadi rayonu kreditləşmə sahəsində də yüksək dinamika göstərməkdədir. 2024-cü ilin avqustuna olan məlumatlara əsasən,

bölgədə verilən kreditlərin ümumi həcmi 456,44 milyon manat təşkil etmişdir. Bu, ölkənin digər iqtisadi rayonları ilə müqayisədə daha yüksək artım tempidir. Bu vəsait əsasən kənd təsərrüfatı, xidmət və tikinti sektorlarında fəaliyyət göstərən sahibkarlara yönəldilmişdir.

Bundan əlavə, Sahibkarlığın İnkişafı Fondu bölgədə fəaliyyət göstərən müəssisələrə güzəştli kreditlər təqdim edir. Sahibkarlara texniki yardım, təlim və innovativ texnologiyaların tətbiqi sahəsində dəstək göstərilir.

Turizm və mədəni irsin bərpası. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edildikdən sonra burada turizmin inkişafı da diqqət mərkəzinə keçib. Tarixi abidələrin bərpası, mehmanxanaların və turizm infrastrukturlarının tikilməsi, bölgənin iqtisadi gələcəyində turizmin əhəmiyyətini artırır. 2024-cü ildən başlayaraq Şuşaya və Ağdama daxili turist axını xeyli artmışdır.

Qarabağ bölgəsi yalnız yerli deyil, həm də xarici investorlar üçün cəlbedici sahəyə çevrilməkdədir. Türkiyə, İsrail, Macarıstan, BƏƏ və digər ölkələrdən olan şirkətlər kənd təsərrüfatı, enerji və inşaat sektorlarında fəaliyyət göstərmək üçün müqavilələr imzalamışdır. Bu, həm kapital axınını, həm də texnoloji bilik transferini stimullaşdırır.

Qarabağ iqtisadi rayonu hazırda Azərbaycanın iqtisadi inkişafında ən dinamik və strateji əhəmiyyətli bölgələrdən birinə çevrilməkdədir. Burada həyata keçirilən müasir iqtisadi yeniliklər – infrastrukturun qurulması, ağıllı kənd və şəhər modellərinin tətbiqi, sənaye parklarının yaradılması və turizm imkanlarının genişləndirilməsi – regionun uzunmüddətli inkişafını təmin edir. Qarabağ yalnız Azərbaycanın deyil, eyni zamanda Cənubi Qafqazın iqtisadi mərkəzlərindən birinə çevrilmək yolundadır.

NEW ECONOMIC REVIVAL IN KARABAKH: THE BEGINNING OF MODERN DEVELOPMENT

Shahla Nadir gizi Qarayeva
sehlagarayeva@yandex.ru
Firuza Intigam gizi Rzazade
rzazadefiruze02@gmail.com
Azerbaijan Technological University

Large-scale restoration and development work is underway in the Karabakh economic region of Azerbaijan after the 2020 Patriotic War. The reconstruction of infrastructure, the creation of industrial parks, the implementation of the "smart village" concept, and the development of tourism are aimed at increasing the economic potential of the region.

Keywords: Karabakh Economic Region, post-conflict reconstruction, infrastructure development, smart villages, tourism potential, sustainable growth.

BALANCING SUPPLY AND DEMAND: AI-DRIVEN HUMAN RESOURCE MANAGEMENT IN DEFENSE FORCES

Levan Shubitidze
shubitidze.levan@atsu.edu.ge
Akaki Tsereteli State University, Faculty of Business, Law and Social Sciences

This article examines the evolving landscape of human resource management within defense organizations through the lens of artificial intelligence and advanced information technologies [1]. As defense forces worldwide face unprecedented challenges in recruitment, training, and personnel deployment, AI-driven solutions offer promising approaches to balance workforce supply and demand factors within regulatory frameworks.

Defense forces globally face multifaceted human resource challenges, including demographic shifts, technological advancement, budget constraints, and evolving security threats. The traditional approach to military HR management struggles to address the growing complexity of personnel requirements in contemporary defense environments [2].

This paper examines how artificial intelligence, robotics, and information technologies are transforming human resource management in defense organizations by optimizing the balance between supply and demand factors within established regulatory frameworks.

The adoption of AI-driven systems represents a paradigm shift in military HR management, enabling more responsive, data-driven decision-making processes that align personnel capabilities with operational requirements [3].

Supply and Demand Factors in Defense HR Management. The supply aspect of military human resources encompasses recruitment capabilities, available talent pools, demographic trends, and educational output aligned with defense needs. Key challenges include declining propensity for military service among younger generations, competition with the private sector for specialized technical talent, and demographic shifts in many developed countries.

AI systems offer powerful tools to address these challenges by enhancing recruitment strategies through predictive analytics, identifying untapped talent pools, and better matching individual skills with organizational needs [4].

Demand-Side Requirements. The demand for military personnel is shaped by evolving security threats, technological advancement necessitating new specialist roles, budgetary constraints, and strategic defense priorities. AI enables more sophisticated modeling and forecasting of personnel requirements, allowing defense forces to anticipate future needs and develop proactive strategies for workforce development [5].

AI Applications in Defense HR Management. AI technologies are revolutionizing military recruitment through predictive analytics to identify promising candidate pools, AI-driven assessment tools for candidate evaluation, and natural language processing for resume screening. The U.S. Army's implementation of AI-powered recruitment systems has demonstrated a 15% improvement in candidate quality and a 20% reduction in recruitment cycle time [6].

Training and Development. Intelligent technologies enhance military training through adaptive learning systems, virtual reality training environments, and AI-driven performance assessment. NATO has reported that AI-augmented training programs have reduced training time by up to 30% while improving skill retention and operational readiness [7].

Personnel Deployment and Optimization. Defense forces leverage AI for optimal assignment of personnel based on skills and mission requirements, predictive maintenance of human capital, and dynamic force allocation. The Israeli Defense Forces' AI-driven personnel management system has demonstrated a 25% improvement in mission-readiness metrics through optimized deployment strategies [8].

Regulatory Framework and Governance Considerations. Effective implementation of AI in defense HR management requires robust governance frameworks addressing data privacy, algorithmic transparency, compliance with regulations, and cybersecurity measures protecting HR data. The European Defense Agency emphasizes the importance of "human-in-the-loop" approaches for critical personnel decisions [9].

Challenges and Future Directions. Despite significant potential, challenges persist including data quality issues, algorithm bias concerns, and organizational resistance. Research highlights that successful AI implementation requires comprehensive change management strategies and stakeholder engagement at all levels [10].

Future developments point toward increasingly sophisticated predictive capabilities for workforce planning, collaborative human-AI models where AI provides decision support while humans retain oversight, and integration with broader military planning systems.

Conclusion

Artificial intelligence offers transformative potential for human resource management in defense forces, enabling more responsive, data-driven approaches to balancing supply

and demand factors. The successful implementation requires careful consideration of technical, ethical, and organizational factors, along with robust governance mechanisms ensuring responsible use.

As defense organizations navigate this technological transition, a balanced approach recognizing both the potential and limitations of AI-driven HR management will be essential. By thoughtfully integrating intelligent technologies while maintaining human oversight for critical decisions, defense forces can enhance operational readiness, optimize resource allocation, and better prepare for future security challenges.

Key words: Artificial Intelligence (AI); Human Resource Management; Supply and Demand; Recruitment; Training.

REFERENCES

1. Kaur M., Gandolfi M., Artificial Intelligence in Human Resource Management - Challenges and Future Research Recommendations, Review of International Comparative Management Volume 24, Issue 3, July 2023. DOI:10.24818/RMCI.2023.3.382
2. Olsthoorn P., Buijs T., Human Resource Management for Military Organizations: Challenges and Trends, Human Resource Management and Leadership at the Faculty of Military Sciences, Netherlands Defense Academy, Breda, The Netherlands, 2023. DOI:10.1007/978-3-030-02866-4_68-1
3. Luna B. P., Opportunities (but also Challenges) in Applying Artificial Intelligence to Human Resource Management within Companies, University of Seville, Espana, 2023. https://www.redalyc.org/journal/6381/638174850010/638174850010.pdf
4. Caforio G., Handbook of the Sociology of the Military (Second Edition), University of Wisconsin, Madison, WI, USA, 2018. https://doi.org/10.1007/978-3-319-71602-2
5. Asch B.J., Mattock M.G., JASON M. Ward J.M., Absher S., Tong P. K., Shenk A., A Review of the Military Basic Pay Table, RAND corporation, 2025. https://www.rand.org/pubs/research_reports/RRA2400-1.html
6. U.S. Department of Defense, Digital transformation of military recruitment: Annual report, Washington D.C., 2023. https://www.dote.osd.mil/Portals/97/pub/reports/FY2023/other/2023annual-report.pdf
7. NATO's Strategic Warfare Development Command, Harnessing Artificial Intelligence: Allied Command Transformation at the Forefront of NATO Innovation, 16 April, 2025. https://www.act.nato.int/article/harnessing-artificial-intelligence/
8. Masudi, Windiya A., The Role of AI-Driven HR Systems in Enhancing Employee Performance and Data Security in Modern Organizations, Journal of Information Systems Engineering and Management, Vol. 10(2), 2025. DOI:10.52783/jisem.v10i2.2448
9. European Parliamentary Research Service, Defense and artificial intelligence, April, 2025. https://www.europarl.europa.eu/RegData/etudes/BRIE/2025/769580/EPRS_BRI(2025)769580_EN.pdf
10. Slama R., Lim N., Yeung D., Leading with Artificial Intelligence, RAND Corporation, October, 2024. https://www.rand.org/pubs/perspectives/PEA3414-1.html

AZƏRBAYCANDA KOS-LARIN QARŞILAŞDIĞI ƏSAS ÇƏTİNLİKLƏR

Nicat Adil oğlu Nərimanov
n.nerimanov@mail.ru
Kənan Rauf oğlu Tarverdili
knantarverdili@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Kiçik və orta sahibkarlıq subyektləri (KOS) Azərbaycan iqtisadiyyatının mühüm tərkib hissəsini təşkil edir və məşğulluqla iqtisadi artıma əhəmiyyətli dərəcədə töhfə verirlər. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin məlumatına əsasən, KOS-lar ölkədəki bütün müəssisələrin təxminən 95%-ni təşkil edir və qeyri-neft sektorunda məşğulluğun təxminən 70%-ni təmin edir (İqtisadiyyat Nazirliyi, 2022). Lakin bu əhəmiyyətinə baxmayaraq, KOS-lar onların potensialı və davamlılığını məhdudlaşdıran çoxsaylı problemlərlə üzləşirlər. Bu çətinliklər arasında maliyyə vəsaitlərinə çıxış problemi xüsusilə önə çıxır. KOS-lar tez-tez ilkin xərcləri və fəaliyyətə dair digər xərcləri qarşılamaq üçün zəruri olan maliyyəni əldə etməkdə çətinlik çəkirlər ki, bu da onların inkişaf və innovasiya imkanlarını məhdudlaşdırır. Ənənəvi bank sistemləri çox vaxt sərt girov tələbləri və yüksək faiz dərəcələri irəli sürür, bu isə bir çox KOS üçün aşılması çətin maneələr yaradır və nəticədə onları aşağı kapitallaşdırılmış vəziyyətdə saxlayaraq böyümə perspektivlərini məhdudlaşdırır [1].

Son araşdırmalar göstərir ki, rəqəmsal maliyyə kimi alternativ maliyyələşmə mexanizmləri bu problemlərin həlli üçün mühüm imkanlar təqdim edə bilər. Texnologiyalardan istifadə etməklə maliyyə resurslarına çıxışı asanlaşdırmağı hədəfləyən təşəbbüslər perspektivli nəticələr verir və ənənəvi maneələri keçərək KOS-ların maliyyələşməsinə şərait yaradır [2].

Rəqəmsal platformalar maliyyə resurslarına çıxış imkanlarını daha geniş əhali qrupları üçün əlçatan etməklə bu sahədə demokratikləşməni təşviq edə bilər; məsələn, kütləvi maliyyələşmə (crowdfunding) və bərabərhüquqlu borcvermə (peer-to-peer lending) kimi innovativ həllər vasitəsilə. Lakin bu rəqəmsal maliyyələşmə imkanlarının effektivliyi əksər hallarda mövcud tənzimləyici çərçivə və sahibkarların maliyyə savadlılığı səviyyəsindən asılıdır – bu sahələr isə hələ də əlavə tədqiqat və inkişaf tələb edir. Bu infrastruktur boşluqlarının nəticələri, xüsusilə KOS-ların uzunmüddətli dayanıqlılığı nəzərə alındıqda, dərin təsirə malikdir. Sabit və güclü KOS sektoru iqtisadi dayanıqlığın və məşğulluğun təmin olunması üçün vacibdir; lakin mövcud infrastruktur çatışmazlıqları bu sabitliyi təhlükə altına alır. Infrastruktur sahəsində əsaslı inkişaflar baş vermədikcə, KOS-ların inkişaf trayektoriyası qeyri-sabit olaraq qalacaqdır [4]. Zəif infrastruktur təkcə əməliyyat xərclərinə mənfi təsir göstərmir, həm də KOS-ların innovasiyalara, işçi heyətinin təliminə və nəticə etibarilə fəaliyyətlərinin genişləndirilməsinə yatırım imkanlarını məhdudlaşdırır. Bu çatışmazlıqlar səbəbilə bir neçə bazar kanalı ilə fasiləsiz əlaqə qurmaq mümkün olmadıqda, bu həm inkişafı ləngidir, həm də sektorun ümumi rəqabət qabiliyyətini aşağı salır.

İnnovativ qruplaşma strategiyaları tənzimləyici səmərəsizliklərin mənfi təsirlərini azaltmaq üçün potensial bir yol təqdim edir. Bu strategiyalar vasitəsilə kiçik və orta sahibkarlıq subyektləri (KOS-lar) arasında əməkdaşlıq təşviq olunur, bu da şirkətlərin resursları, bilikləri və təcrübələri paylaşmasına imkan yaradır və nəticədə fərdi tənzimləyici yükü azalda bilər. Belə qrup təşəbbüsləri həm də tənzimləyici dəyişikliklərin təşviqində kollektiv fəaliyyətə təkan verə və əməliyyat sinerjilərini artıra bilər. Çağırışlara birlikdə cavab verə bilən şirkətlər şəbəkəsi yaratmaqla, KOS-lar rəqabət üstünlüklərini gücləndirə, iqtisadi fəaliyyəti stimullaşdıra və tənzimləyici maneələrlə qarşılaşdıqda dayanıqlılıqlarını artıra bilərlər [5].

ƏDƏBİYYAT

1. Əliyev, T., Əliyeva, S. və Əliyev, R., 2023. Kiçik və orta sahibkarlıq subyektlərinin məşğulluq səviyyəsinə təsiri. İqtisadi Məsələlər, 68, səh. 2023–6.
2. Akhundzada, N. və Rzayeva, İ., 2023. Azərbaycanda mikrosahibkarlıq, kiçik və orta müəssisələr

(MKOM-lar) üçün biznes proseslərdə rəqəmsal kanalların tətbiqi və maliyyə resurslarına çıxış. Agora Beynəlxalq İqtisadi Elmlər Jurnalı, 17(2), səh. 1–9.
3. Mahmudova, L., 2023. Rəqəmsallaşma meylləri və onların kiçik və orta müəssisələrin fəaliyyətinə mümkün təsirləri: Macarıstan və Azərbaycan arasında müqayisəli tədqiqat.
4. Hüseynov, Y., 2019. Azərbaycan Respublikasının dayanıqlılığı və "Regionların Sosial-İqtisadi İnkişafı üzrə Dövlət Proqramı (2019–2023)"nın həyata keçirilməsi. İqtisadiyyat və Ətraf Mühit, 71(4), səh.13.
5. Sadikhov, S., 2024. Possibilities of creating clusters in the weaving industry of the Republic of Azerbaijan. Economics, Entrepreneurship, Management, 11(1), pp.17-24.

MAIN CHALLENGES FACING SMEs IN AZERBAIJAN

Nicat Adil oglu Narimanov
n.nerimanov@mail.ru
Kenan Rauf oglu Tarverdili
knantarverdili@gmail.com
Azerbaijan Technological University

This article analyzes the key challenges faced by small and medium-sized enterprises (SMEs) in Azerbaijan, despite their vital role in economic development. Access to finance remains one of the most significant barriers limiting their growth potential. The study explores digital financial solutions and highlights how digitalization, such as crowdfunding and peer-to-peer lending, can improve financial inclusion for SMEs. Additionally, innovative group strategies are discussed as a means to overcome regulatory inefficiencies and strengthen collective resilience.

Keywords: Azerbaijan, SMEs, financial access, digital finance, regulatory challenges, entrepreneurship.

KADR SİYASƏTİNİN MƏŞĞULLUĞA TƏSİRİ

Aybəniz Məhəmməd qızı Allahverdiyeva
a.allahverdiyeva@atu.edu.az
Nigar Rahib qızı Hüseynova
nigarhuseynova182@.mail.ru
Azərbaycan Texnologiya Universiteti

Kadr siyasəti, dövlətin və ya müəssisənin insan resursları ilə əlaqədar strategiyalarını müəyyənləşdirən, həmin resursları effektiv şəkildə idarə etməyə yönəlmiş bir konsepsiyadır. Bu siyasət, həm dövlətin iqtisadi inkişafına, həm də işçi bazarının tənzimlənməsinə təsir göstərir. Məşğulluq, ölkənin sosial və iqtisadi rifahı üçün mühüm bir göstəricidir və kadr siyasətinin bu sahədəki rolu da böyükdür. Kadr siyasətinin məşğulluğa təsirini araşdırarkən, həm dövlət sektorunun, həm də özəl sektorda tətbiq olunan siyasətlərin işçi qüvvəsinin təşkili, işəgötürənlərlə işçi arasında münasibətlər və ümumilikdə iqtisadi inkişafa necə təsir etdiyi danılmazdır.

Kadr siyasətinin həyata keçirilməsi, əsasən aşağıdakı aspektlərdə özünü göstərir:

- İnsan resursları planlaması: Bu, müəssisənin və ya dövlətin gələcəkdəki işçi ehtiyaclarını proqnozlaşdıraraq həmin ehtiyaclara uyğun kadrların təlimi və inkişafını nəzərdə tutur. İqtisadiyyatın inkişaf sürətinə uyğun olaraq işçi qüvvəsinin tələbatı dəyişir. İnsanın inkişafı, bacarıq və biliklərinin artırılması ilə məşğulluğun təşkili əlaqələndirilir [1].
- Təhsil və peşə hazırlığı: Təhsil müəssisələri və təlim proqramları kadr siyasətinin mühüm komponentləridir. Kadrların yüksək səviyyədə təhsil alması, əmək bazarına daxil olarkən ixtisaslı işçi qüvvəsi yaradır ki, bu da məşğulluq səviyyəsinin artırılmasına müsbət təsir göstərir [2].
- İş şəraiti və əmək münasibətləri: Kadr siyasətinin əmək bazarına təsiri yalnız təlim və işə qəbulla məhdudlaşmır. Həm də iş şəraitinin yaxşılaşdırılması, işçilərin sosial hüquqlarının qorunması və əmək münasibətlərinin tənzimlənməsi məşğulluğa müsbət təsir

göstərir [4].

Müxtəlif sahələrdə çalışan işçi qüvvəsinin təhlili və inkişafı ilə məşğulluq artırıla bilər. Kadr siyasəti işgücü tələbinin qarşılanmasını təmin etmək məqsədilə müxtəlif sektorlarda təhsil və təlimi təşviq edir. Bu, işçilərin mövcud bacarıqlarını artıraraq işə qəbulda, həmçinin ixtisaslı işçilərin təmin olunmasında mühüm rol oynayır [3]. Kadr siyasətinin məqsədi işsizlik səviyyəsini azaltmaqdır. İnsan resurslarının planlaması, təlim proqramları və peşəkar inkişaf imkanları, işsizliyin qarşısının alınmasında mühüm rol oynayır. Dövlətin işəgötürənlərlə əməkdaşlığı və iş bazarının tənzimlənməsi də məşğulluğun artmasına töhfə verir. Yüksək keyfiyyətli və peşəkar kadrlar innovasiyaların inkişafında mühüm rol oynayır. Kadr siyasətinin effektivliyi iqtisadi inkişafın sürətini artırır və yeni iş yerlərinin yaranmasına gətirib çıxarır. Bu, eyni zamanda iqtisadiyyatın rəqabət qabiliyyətini artırır və məşğulluq imkanlarını genişləndirir [5].

Kadr siyasətinin məşğulluğa təsirini optimallaşdırmaq üçün bir sıra çağırışlar mövcuddur. İqtisadiyyatın sürətli inkişafı, texnologiyanın dəyişməsi və yeni peşələrin yaranması, işçi qüvvəsinin inkişafını tələb edir. Bu səbəbdən, kadr siyasətinin dəyişən şərtlərə uyğunlaşdırılması vacibdir. Digər bir çağırış isə gənc nəsilin işə qəbulu ilə əlaqədardır. Gənclərin işə hazırlanması və onlara iş imkanlarının yaradılması dövlətin əsas prioritetlərindən biri olmalıdır

Ümumilikdə, kadr siyasətinin məşğulluğa təsiri böyükdür. Kadrların düzgün planlaşdırılması və inkişafı, işsizliyin azaldılması və iş yerlərinin artırılması məqsədini güdür. İqtisadi inkişafla əlaqəli olaraq, kadr siyasətinin təkmilləşdirilməsi məşğulluq səviyyəsinin yüksəlməsinə kömək edir. Müasir dövrün tələblərinə uyğun işçi qüvvəsinin yetişdirilməsi və təmin edilməsi, həm sosial rifahın, həm də iqtisadi inkişafın əsasıdır [4].

ƏDƏBİYYAT

1. Becker, G. S. (1993). *Human Capital: A Theoretical and Empirical Analysis with Special Reference to Education.* University of Chicago Press.
2. Lucas, R. E. (1988). *On the Mechanics of Economic Development.* Journal of Monetary Economics, 22(1), 3-42.
3. McConnell, C. R., & Brue, S. L. (2014). *Economics: Principles, Problems, and Policies.* McGraw-Hill Education.
4. Armstrong, M. (2014). *Armstrong's Handbook of Human Resource Management Practice.* Kogan Page Publishers.
5. Krugman, P. (2013). *International Economics: Theory and Policy.* Pearson Education.

THE IMPACT OF PERSONNEL POLİCY ON EMPLOYMENT

Aybeniz Muhammad gizi Allahverdiyeva
a.allahverdiyeva@atu.edu.az
Nigar Rahib gizi Huseynova
nigarhuseynova182@.mail.ru
Azerbaijan Technological University

The personnel policy is a concept that defines the strategies related to human resources of a state or organization, aiming to manage these resources effectively.This policy impacts both the economic development of the state and the regulation of the labor market.

Key words: personnel policy, employment, human resources, labor demand, education

BÜDCƏ İLƏ HESABLAŞMALARIN AUDİTİ

Minurə Hacı qızı Kərimova
mina34mk@mail.ru
Fizuli Müşfiq oğlu Məmmədov
Rafail Əsgər oğlu Məmmədov
Azərbaycan Texnologiya Universiteti

Müstəqiliyin ilk günlərindən bu günə qədər respublikamızda aparılan iqtisadi islahatlar fiskal iqtisadiyyatın istiqamətlərini müəyyən etməkdən ibarətdir. İkinci dəfə müstəqillik qazandıqdan sonra dövlətimizin iqtisadi inkişafını təmin etmək üçün iqtisadi inkişaf strategiyası hairlanmış və bunun sayəsində Azərbaycanın az xərclə başqa iqtisadi sistemə keçməsi mümkün olmuşdur. Keçid dövründə qalan dövlətlərdə büdcə əsasən sosial problemlərin aradan qaldırılmasına yönəldilib və bu, həm büdcədə, həm də vergi sistemində özünü aydın şəkildə göstərir. Ümumiyyətlə, hər bir dövlətin ilkin vəzifəsi güclü iqtisadi gücə malik olmaqdır. Bu yolda ilk növbədə iqtisadi inkişaf istiqamətini və ya strategiyanı seçmək lazımdır. Sonradan ölkə daxilində bütün mümkün obyektlərdə dövlət orqanları bu konsepsiyanın həyata keçirilməsinə rəhbərlik etməlidir.

Müasir vaxtda dövlətin maliyyə siyasətinin yerinə yetirilməsində, maliyyə ehtiyatlarının toplanması və qənaətlə xərclənməsində maliyyə nəzarəti, xüsusən müstəqil nəzarət infrastrukturu hesab edilən audit inkaredilməz əhəmiyyət daşıyır. Nəzarəti və audit istənilən mülkiyyət formasında olan sahibkarlıq subyeklərində pul vəsaiti fondlarının tə'sisi və onlardan düzgün istifadə olunması prosesini əhatə edir. Hal-hazırda maliyyənin vəzifələri hədsiz dərəcədə çoxaldığı üçün maliyyə nəzarətinin əhəmiyyəti də xeyli artmışdır [1].

Yeni və daha da təkmilləşmiş bir iqtisadi sistemə keçdiyimiz dövrlərdə respublikamızda həm iqtisadi sistemdə, həm maliyyə sistemində, həmdəki sadaladıqlarımızın özəyi olan büdcə sistemində bir çox dəyişikliklər baş vermişdir. Bu köklü dəyişikliklərə uyğun olaraqda dövlətin bir sıra idarəetmə orqanlarında və onların iqtisadi fəaliyyətlərində mühüm dəyişkənliklər baş verir, maliyyə-büdcə qanunvericiliyi yenidən qurulub təkmilləşdirilir. Bizim kimi keçid dövrü yaşayan ölkələrdə büdcə siyasəti əsasən sosial siyasətə daha çox yönəldilmiş və bu istiqamətdəki prolemlərin həllinə daha çox fikir verilmişdir. Bütün səviyyələrdə mövcud olan büdcələrin formalaşması və onlara məxsus çatışmazlıqların həll olunması birbaşa sosial gərginliyində həllinə gətirib çıxarır. Bu səbəblərdəndə icra hakimiyyəti rəhbərləri və nümayəndələri, millət vəkilləri, hüquqi şəxslər maliyyənin və büdcənin əsas xüsusiyyətlərini bilməli, vergi, maliyyə və büdcə mexanizminin fəaliyyətinidə öyrənməlidirlər. Ancaq yenədə dövlət büdcəsi maliyyə büdcəsinin əsas hissəsi olmaqla bir maliyyə planı kimi öyrənilir. Əhalinin rifah halının yüksəldilməsi, ölkənin həm iqtisadi, həmdəki sosial cəhətdən inkişafının təminatı büdcə xərclərindən asılıdır, elə buna görədə dissertasiyamızın adındada dediyimiz kimi büdcə xərclərindən düzgün və təyinatına görə xərclənməsi və istifadə yollarının təkmilləşdirilməsi müasir dövrümüzün ən aktual məsələlərindən biridir [7].

Xalqın həm sosial, həmdəki iqtisadi həyatının formalaşmasında, dövlətin iqtisadi siyasətinin yaradılmasında əsas rol maliyyə mexanizmi sisteminin üzərinə düşür. Bu sistemində əsas parçalarından biridə elə büdcə sistemidir. Bu sistem sayəsində mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş pul vəsaiti fondlarının yaradılması və sərf olunması yerinə yetirilir.

Büdcə dövlətin həm maliyyə, həmdəki iqtisadi vəziyyətini əks etdirir, bununlada hökümət öz vergi siyasətini müəyyən edə bilir. Büdcə hakimiyyətin və bölgələrin idarəetmə strukturlarının aparıcı maliyyə planıdır. Büdcəyə həmdə maliyyə münasibətlərini özündə birləşdirən tarixi bir kateqoriya kimidə baxmaq olar. Beləki, büdcənin yaranması və inkişaf etməsi elə dövlətlərin yaranmasıyla sıx və yaxından əlaqədar idi. Qədim zamanlardan indiki dövrümüzə qədər dövlətlər büdcədən öz funksiyalarını yerinə yetirməkdən ötrü vasitə kimi istifadə etmişlər və hal-hazırda ölkənin həm iqtisadi, həmdə siyasi istiqamətinin müyyənləşdirilməsində büdcə mühüm rol oynamağa davam edir [3,6].

Dövlət öz öhdəliklərini, yəni dolayısı ilə bu öhdəliklərin yaratdığı vəzifələri həyata keçirmək üçün müəyyən miqdarda pul vəsaiti sərf etməlidir. Bu pul vəsaitləri büdcə xərcləri əsasında formalaşır. Ölkə büdcəsinin vəsaitlərinin cəlb edilməsi, xərclənməsi kimi proseslərdə dövlətlə şirkətlər və fərdi şəxslər arasında iqtisadi münasibətlər yaranırki, belə münasibətlər öz növbəsində dövlətin maliyyə-büdcə siyasəti adlanır. Dövlət büdcəsinin özü gəlirlər və xərclər olmaqla iki bölmədən ibarətdir. Gəlir bölməsinə iqtisadi təşkilatlardan, müəssisələrdən, şəxslərdən alınan müxtəlif növ vergilər və digər gəlirlər, xərclər bölməsinə isə ümumi desək, idarəetmənin, sosial tədbirlərin, müdafiə-təhlükəsizlik işlərinin və.s sahələrin maliyyələşdirilməsi xərcləri aiddir. Nəticə etibari ilə ölkənin mərkəzi büdcəsi olan dövlət büdcəsi ümumi iqtisadiyyata və sosial sferaya təsir etməklə inkişafa zəmin yaradır. Az əvvəl adını çəkdiyimiz maliyyə-büdcə siyasəti vasitəsi ilə dövlət pulun manevr etməsinə şərair yaradır və yuxarıda dediyimiz məqsədlərə nail olmağa çalışır. [1,4]

Büdcə hüququ anlayışı özündə büdcənin hazırlanması, təsdiqi, müzakirəsi, icrası zamanı hakimiyyət və idarəetmə strukturlarının malik olduğu hüquq normalarının məcmusunu birləşdirir. Büdcənin müzakirə edilməsi, tətbiqi zamanı mərkəzi və bölgələrin idarəetmə strukturları arasında yaranan büdcə hüquqları, onların arasındakı idarəetmə və iqtisadi funksiyalarına görə müəyyən edilir [2,5].

Ölkənin mərkəzi büdcəsi ölkənin iqtisadiyyatının, maliyyə sisteminin formalaşdırılmasına və inkişaf səviyyəsinə hiss olunacaq dərəcədə təsir göstərir. Asanlıqla deyə bilərikki, ölkənin həm sosial, həmdəki iqtisadi həyatının tamamında dövlət büdcəsinin xidmətləri mövcuddur. Bu qanunlara görə ölkə əhalisinin hər bir kəsi, həmçinin hüquqi şəxslər ölkə büdcəsinin xərc, eyniylədə gəlir hissələrinin formalaşmasında iştirak edərək qarşılarına qoyulmuş öhdəlikləri yerinə yetirməyə borcludurlar, bunlara əməl edilmədikdə isə qanunlarla müəyyən olunmuş şəkildə cəzalandırıla bilərlər.

ƏDƏBİYYAT

1. AR statistik göstəriciləri 2016, Bakı, 2016, "Səda", 814 səh.
2. AR Vergi Məcəlləsi. Bakı, 2000.
3. Ələkbərov Ə.Ə. Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafında vahid büdcə sisteminin rolu. Bakı, 2005
4. Quliyev F.T. Millət və dövlət gəlirləri. Bakı, "Nağıl evi", 2004
5. Bağırov D.A. Vergi nəzarəti (dərslik). Bakı - 2006.
6. Bağırov D.A. Vergi auditi. Dərslik. Bakı 1999
7. Xankişiyev B. Maliyyə orqanlarında büdcə ucotu və nəzarəti. (dərs vəsaiti). Bakı, 1996
8. Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, 2004

AUDIT OF ACCOUNTS WITH THE BUDGET

Minura Haji kizi Kerimova
mina34mk@mail.ru
Fizuli Mushfig oglu Mammadov
Rafail Asgar oglu Mammadov
Azerbaijan Technological University

The article analyzes the role of economic reforms implemented in Azerbaijan since its independence in the formation of the fiscal economy. It is emphasized that during the transition period, budget policy was aimed at solving social problems, but in the modern period, the importance of state financial policy, especially audit, has increased. It also covers the importance of the correct and appropriate use of budget expenditures, the important role of the budget in determining tax policy, budget law and the impact of the state budget on the socio-economic development of the country.

Keywords: budget, finance, social, development, reforms.

MÜHASİBAT (MALİYYƏ) UÇOTUNUN TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Fazil Cəmil oğlu Kərimov
fazilkerimov54@mail.ru
Allahverdi Çingiz oğlu Qarayev
Azərbaycan Texnologiya Universiteti

Ölkənin daxili bazarının əmtəə və xidmətlərlə zənginləşməsində, inhisarçılığm ləğv edilməsində, rəqabətin genişləndirilməsində, insanların imkanlarının aşkara çıxarılmasında, işsizlərin işə cəlb edilməsində, əhalinin gəlirlərinin artırılmasında, alıcılıq qabiliyyətinin və həyat şəraitinin yaxşılaşdırılmasında həlledici əhəmiyyətə malikdir. Bazar iqtisadiyyatında fərdi sahibkarlıqlarda mühasibat uçotu və hesabatlığın keyfiyyətinin yüksəldilməsinə böyük ehtiyac var.

Müasir dövrdə iqtisadiyyatın inkişafı və təsərrüfat prosesinin müxtəlif istiqamətdə baş verməsi ilə bağlı siyasətin formalaşması mühasibat uçotunun nəzəriyyə və təcrübədə istifadəsinin formasını dəyişir. Məhz bu cür hallar hər bir qurulus və onlarda icrasını həyata kecirən şirkət, firma, birlik, müəssisə, təşkilat və s.-nin təsərrüfat fəaliyyəti ilə əlaqədar olan ayrı-ayrı səxslərin maragını həm əks etdirir, həm də gizlədir. Mühasibat uçotunun nəzəriyyə və təcrübəsinin meydana gəlməsinin öyrənilməsi mütəxəssislər tərəfindən təsərrüfat həyatında baş verən halların obyektiv qiymətləndirilməsinə və elmi proqnozlaşdırma texnikasının mənimsənilməsinə geniş şərait yaradır.

Müasir dövrdən fərqli olaraq əvvəlki dövrün mühasibat uçotu fərdi sahibkarı lazımi informasiyalarla təmin etmiş, bütün məlumatlar gizli şəkildə saxlanılmış; həmin dövrdə mülkiyyətçi və təşkilatın əmlakı arasında heç bir məhdudiyyət qoyulmamış; təşkilatda hesabat və onlar arasındakı dövr haqqında heç bir anlayış olmamış; çoxlu pul vahidinin mövcudluğu ikili mühasibatlıqdan istifadəni çətinləşdirmişdir. Bütün bunlar uçot registrlərində (qeydiyyatlarında) aparılan yazılışları xüsusilə mal haqda məlumatları (çəki, ölçü, ölçü vahidi, qiymət) təsviri xarakterizə etməklə öz işini yekunlaşdırırdı.

Mühasibat balansı - hesabat dövrü ərzində təşkilatın maliyyə vəziyyəti haqda əhəmiyyətli və zəruri informasiya mənbəyi hesab edilir. O, təşkilatın əmlakının tərkib və quruluşunun, dövriyyə vəsaitinin hərəkətetmə qabiliyyətinin və dövriyyəsinin, debitor və kreditor borcunun vəziyyəti və dinamikasının, son maliyyə nəticəsinin (mənfəət, yaxud zərərinin) müəyyən edilməsinə şərait yaradır. Mühasibat balansı əmlak və təşkilatın vəziyyətinin idarəedilməsi ilə bağlı məsələləri, sahibkarın nəyə malik olması, yəni onda mövcud olan maddi ehtiyatların kəmiyyət və keyfiyət göstəriciləri, bu ehtiyatlardan necə istifadə olunması, onun yaradılmasında kimin iştirak etməsi haqda təsisçiləri, menecerləri və digər marağı olan tərəfləri hərtərəfli tanış edir. Mühasibat balansı vasitəsilə təşkilatın yaxın gələcəkdə səhmdarlar, investorlar, kreditorlar, alıcılar, satıcılar qarşısında götürdüyü öhdəliyi yerinə yetirə biləcəyi yaxud onun maliyyə çətinliyi ilə qarşılaşacağını müəyyən etmək olar. Aydındır ki, mühasibat balansı təşkilatın fəaliyyəti haqda bütün informasiyaları tam əhatə edə bilməz. Buna görə informasiyanın çatışmayan hissəsi digər hesabat formalarında təqdim edilir. Mühasibat balansının məlumatlarından vergi orqanları, kredit təşkilatları və digər istifadəçilər geniş istifadə edir.

Müəyyən tarixə tərtib edilən mühasibat balansı informasiyaların əsas mənbəyi olmaqla təşkilatın əmlakının tərkib və yerləşməsinə eləcə də onun əmələgəlmə mənbələrinə (xüsusi və borc öhdəliklərinə) görə formalaşmasının iqtisadi cəhətdən qruplaşdırılmasını və ümumiləşdirilməsini dəyər ifadəsində özündə əks etdirir. Mühasibat balansı hesabat dövrü ərzində təşkilatın əmlakını və onun öhdəliklərini əks etdirir. İstehsal prosesində hər gün cari əks etdirilməsi tələb olunan çoxsaylı təsərrüfat əməliyyatları baş verir ki, onları da iqtisadi cəhətdən eyninövlü prinsip üzrə qurulan xüsusi formada – mühasibat uçotunun hesablarında əks etdirmək lazım gəlir.

Mühasibat hesabları - idarəetmə qərarı qəbul etmək üçün bütün zəruri informasiyaları özündə toplayan əsas və vahid informasiya hesab edilir. Mühasibat uçotunun hesabları əmlakın tərkibinə və yerləşməsinə görə eləcə də təsərrüfat əməliyyatlarını pul, natural və əmək ölçüsü ilə ifadə edən eyni nişanələr üzrə cari qarşılıqlı əks etdirən və qruplaşdıran üsul

sayılır.

Aktiv və passiv hesablardan başqa, mühasibat uçotunun təcrübəsində eyni vaxtda debet, yaxud kredit qalığı olan aktiv-passiv hesablardan da istifadə edilir. Aktiv-passiv hesab üzrə ancaq bir qalıq müəyyən edilən hesablarda həmin qalıq nəticə qalığı hesab edilir və o əks əməliyyatın son yekununu göstərir. Belə qalığın müəyyən edilməsinə 801 «Ümumi mənfəət (zərər)» hesabının qalığını aid etmək olar. Bu hesabda müəyyən edilən qalıq ya mənfəəti ya da zərəri əks etdirir.

Cari uçotun təsərrüfat əməliyyatları baş verdikcə onların məlumatları bir qayda olaraq hesablarda toplanır. Adətən oxşar əməliyyatlar çox olan hallarda hər bir əməliyyatı ayrı-ayrı hesablarda ilk sənədlərə əsasən cəmləşdirmə, yaxud qruplaşdırma cədvəllərində ümumiləşdirməklə yazmaq olar. Bu cür işin aparılması hesablarda aparılan yazılışların ixtisara salınmasına imkan yaradır.

Maliyyə siyasətini istiqamətləndirən makroiqtisadi göstəricilər mövcud maliyyə-kredit sisteminin daha da təkmilləşdirilməsini, büdcə və vergi siyasətinin iqtisadiyyatın idarə olunmasındakı birbaşa iştirakının və təsirinin daha da artırılmasını, çevikliyinin təmin edilməsini, sahibkarlığın inkişafını, maliyyə intizamının gücləndirilməsini və şəffaflığının təmin edilməsini, inflyasiyanın artmasına yol verilməməsini və digər tədbirləri özündə əks etdirir.

Bazar iqtisadiyyatı şəraitində maliyyə siyasəti işlənilən zaman mülkiyyətin müxtəlif formalarının inkişafı, kapital bazarının genişləndirilməsi, əmtəə bazarının fəaliyyətinin inkişafı və s. bu kimi məsələlər nəzərə alınır.

Dövlətin sosial-iqtisadi siyasətinin tərkib hissəsini təşkil edən müəssisənin maliyyə siyasətini hazırlamaqdan məqsəd müəssisədə maliyyəsinin idarəolunmasının səmərəli sistemini təşkil etməkdir. Maliyyə siyasəti müəssisənin fəaliyyətində strateji və taktiki məqsədlərə çatmağa istiqamətləndirilir.

IMPROVEMENT OF THE ORGANIZATION OF ACCOUNTING (FINANCIAL) RECORDING

Fazil Camil oglu Karimov
fazilkerimov54@mail.ru
Allahverdi Chingiz oglu Garayev
Azerbaijan Technological University

As economic entities, enterprises have their own financial resources and have the right to determine their own financial policy. The purpose of developing an enterprise's financial policy is to create an efficient financial management system.

Keywords: finance, enterprise, entities, accounting.

MİLLİ İNNOVASİYA SİSTEMİNİN FORMALAŞMASININ DÖVLƏT MEXANİZMİ

Xatirə Vəli qizi Qurbanova
xatirqurbanova474@gmail.com
Kamran Elçin oğlu İbrahimli
Məhəmməd Mehdi oğlu Mahmudlu
Azərbaycan Texnologiya Universiteti

Azərbaycanın inkişaf etmiş ölkələrdən elmi-texniki geriliyini aradan qaldırmaq və onun tam tərəfdaş kimi qlobal innovasiya mühitinə daxil olması milli innovasiya sisteminin tezliklə formalaşmasından çox asılıdır. Bununla əlaqədar müvafiq inkişaf proqramını işlənilməsi bir çox problemlərin konstruktiv həllini, idarəetmə qərarlarının qəbul edilməsi üçün zəruri olan təsirli, səmərəli innovasiya sistemi nəzəriyyəsinin işlənilməsinin vacibliyini ön plana çəkir. Ölkə iqtisadiyyatının innovasiya inkişafı xəttinin düzgün müəyyənləşməsi həm də innovasiya inkişafının xarici təcrübələrinin çox ətraflı öyrənilməsini, bu təcrübələrin Azərbaycan Respublikasında tətbiqi imkanlarının araşdırılmasını tələb edir. Ümumiyyətlə, iqtisadiyyatın davamlı və dinamik inkişafı innovasiya proseslərinin effektivliyindən birbaşa asılıdır və bu proseslərin effektivliyi isə məqsədyönlü idarəetməni tələb edir. Belə bir idarəetmə isə ayrı-ayrı innovasiya yönümlü tədbirlərin, makro və mikro səviyyədə

hazırlanan və reallaşdırılan innovasiya siyasətinin ən müxtəlif komponentlərinin uzlaşdırılmasını, birbirini tamamlamasını, bir sözlə, sistemli yanaşmanı zərurətə çevirir. Buna görə də Milli innovasiya Sisteminin (MİS) formalaşması innovasiya inkişafının ən zəruri mexanizmi hesab edilməlidir və bu zərurət MİS-lərin çevik formalaşması üçün ən müxtəlif səviyyələrdə müvafiq tədqiqatların aparılmasını tələb edir. Buna görə də dissertasıyanın mövzusu aktualdır.

"Elmi-Texniki-Tərəqqi" lüğətində innovasiya yeni məmulat növlərinin, texnologiyaların, yeni təşkilati formaların tətbiqinə və işlənib hazırlanmasına, yaradılmasına yönəldilmiş yaradıcılıq fəaliyyətini ifadə edir. Beləliklə, innovasiyanın dərk edilməsinə müxtəlif yanaşmaların təhlili belə bir qənaətə gəlməyə imkan verir ki, innovasiyanın məxsusi məzmunu dəyişikliklərdən ibarətdir, innovasiya fəaliyyətinin və innovasiya menecmentinin əsas funksiyası dəyişiklikləri optimal idarə etməkdir.

İnnovasiya prosesi sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiya yönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır. Bu zaman iqtisadi artım kimi istehsalın intellektləşdirilməsi çıxış edir, yəni ÜDM artımı, əsasən, elmtutumlu məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir. Ümumən, bu tipli iqtisadiyyatın maddi bazası yüksək inkişaf etmiş maşınqayırma ilə keyfiyyətcə istehsalın yenidən təşkili ilə xarakterizə olunur ki, bunun da əsasında istehsal proseslərinin avtomatlaşdırılmasını, informasiyalaşdırılmasını və intellektləşdirilməsini təmin edən elmtutumlu sahələr dayanır. Elektronika, radiofizika, optoelektronika, lazer texnologiyaları, müasir materialşünaslıq, kimya və kataliz, müasir aviasiya və kosmonavtika sahələrində müəyyən edilən, bir sıra texnoloji və fundamental ixtiralar və kəşflər, müasir informasiya texnologiyalarından istifadə edilməsi, mikro və makroelektronika sahələrində alınmış nəticələr, habelə, nanotexnologiyalar elmtutumlu məhsulların yaranmasına səbəb olur. Belə məhsulların alınmasını təmin edən texnologiyalar elmtutumlu texnologiyasıdır. Elmtutumlu texnologiyalardan istifadə edilməsi iqtisadi inkişafın yeni bir istiqamətinin "İnnovasiya yönümlü iqtisadi inkişafın" yaranmasına səbəb olmuşdur. İnnovasiya yönümlü iqtisadi inkişaf modeli öz yüksək səmərəliliyini dünyanın inkişaf etmiş ölkələrinin timsalında sübuta yetirmişdir.

İqtisadi ədəbiyyatda qeyd olunduğu kimi, iqtisadi kateqoriya olaraq innovasiya iki əsas funksiyanı - təkrar istehsal və stimullaşdırma funksiyalarını yerinə yetirir. Təkrar istehsal funksiyası onu göstərir ki, innovasiya geniş təkrar istehsalın mühüm maliyyələşdirmə mənbəyi kimi çıxış edir. İnnovasiyaların bazarda satışından əldə edilən pul gəlirləri sahibkarlıq mənfəətini yaradır ki, bu da maliyyə resurslarının mənbəyi və eyni zamanda innovasiya prosesi səmərəliliyinin ölçüsü kimi çıxış edir. Sahibkarlıq mənfəəti istehsal-ticarət, investisiya, innovasiya və maliyyə fəaliyyəti həcminin genişləndirilməsinə yönədilə bilər. Stimullaşdırma funksiyası da sahibkarlar tərəfindən innovasiyanın reallaşdırılmasından mənfəət alınması yolu ilə gerçəkləşir.

İnnovasiyaya "ehtiyatlar" və "axınlar" mövqeyindən yanaşılması daha düzgün olardı. Obyekt yanaşması mövqeyindən yanaşmada innovasiyalar ehtiyatlar kimi təmsil olunur. İnnovasiyanın axınlar kimi müəyyən edilməsi təkrar istehsal yanaşmasını tələbedir. Bu isə innovasiya prosesinin bütün mərhələlərini izləməyə imkan verir.

Beləliklə, yuxarıda qeyd etdiklərimi ümumiləşdirərək belə qənaətə gələ bilərəm ki, innovasiya dedikdə, yeni əmtəə, xidmət, texnologiyalar, təşkilati forma, idarəetmə metodu şəklində öz praktiki təcəssümünü və tətbiqini tapmış ideyaların reallaşdırılması üzrə yaradıcılıq prosesi başa düşülməlidir.

STATE MECHANISM FOR FORMING THE NATIONAL INNOVATION SYSTEM

Khatira Veli gizi Gurbanova
xatirqurbanova474@gmail.com
Kamran Elchin oglu Ibrahimli
Mahammad Mehdi oglu Mahmudlu
Azerbaijan Technological University

This article is devoted to the formulation and development process of the national innovation system and its regulatory and legislative issues in the direction of achieving innovative economic growth of the country. Thus the national innovation system of the Republic of Azerbaijan and its institutional, regulatory aspects and performance level have been emphasized, also conclusion and some recommendations related to the formulation and development of the national innovation system towards the achievement of innovative economic growth of the country of Azerbaijan have been proposed.

Keywords: economic growth, innovation, national innovation system, institutional

MİQRASİYA PROSESİNİN BEYNƏLXALQ MİQYASDA TƏNZİMLƏNMƏSİ

Nigar Vaqif qızı Hüseynova
huseynova221083@gmail.com
Ayxan Habil oğlu Bahadurlu
ayxanb881@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Miqrasiya, insanların daha yaxşı həyat şəraiti, iqtisadi imkanlar, təhlükəsizlik və ya siyasi sabitlik axtarışı ilə bir ölkədən digərinə köçməsi prosesi olaraq qlobal miqyasda mühüm sosial-siyasi və iqtisadi hadisədir. XXI əsrdə qloballaşma ilə əlaqədar olaraq miqrasiya prosesləri daha da sürətlənmiş və beynəlxalq əməkdaşlıqla tənzimlənməsinə ehtiyac artmışdır. Miqrant axınları, xüsusilə də məcburi miqrasiya (qaçqınlar, sığınacaq axtaranlar və s.) beynəlxalq ictimaiyyət qarşısında hüquqi, humanitar və siyasi vəzifələr qoyur.

Bu məqalədə miqrasiya prosesinin beynəlxalq səviyyədə tənzimlənməsi, beynəlxalq təşkilatların rolu, mövcud hüquqi çərçivələr və əməkdaşlıq mexanizmləri təhlil ediləcək, eləcə də bu sahədə mövcud çağırışlara nəzər salınacaq.

Miqrasiya iki əsas kateqoriyada araşdırılır: könüllü və məcburi miqrasiya. Könüllü miqrasiya iqtisadi və sosial səbəblərlə bağlı ola bilər, məcburi miqrasiya isə münaqişələr, təbii fəlakətlər və ya insan hüquqlarının pozulması kimi səbəblərlə bağlı olur. Miqrantlar daimi və ya müvəqqəti, qeyri-qanuni və ya qanuni statusda ola bilərlər. Hər bir miqrant növünün hüquqları və ehtiyacları fərqli olduğundan, beynəlxalq hüquqi çərçivə bu müxtəlifliyi nəzərə almalıdır.

Miqrasiyanın beynəlxalq səviyyədə tənzimlənməsi müxtəlif beynəlxalq konvensiyalar və sazişlər çərçivəsində həyata keçirilir. Əsas hüquqi sənədlərə aşağıdakılar daxildir:

• 1948-ci il Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsi – burada hər kəsin sərbəst hərəkət və sığınacaq axtarma hüququ tanınır.

• 1951-ci il Qaçqınların Statusuna dair Konvensiya və 1967-ci il Protokolu – qaçqın anlayışı və onların hüquqlarını müəyyənləşdirir.

• Beynəlxalq Əmək Təşkilatının (ILO) miqrant işçilərlə bağlı konvensiyaları – xüsusilə 97 (1949) və 143 (1975) saylı konvensiyalar miqrantların əmək hüquqlarını qoruyur.

• BMT-nin Beynəlxalq Miqrant İşçilərin Hüquqlarının Müdafiəsi üzrə Konvensiyası (1990) – miqrant işçilərin və onların ailə üzvlərinin hüquqlarını tanıyır.

Bu sənədlər bir çox dövlətlər tərəfindən ratifikasiya olunmuş olsa da, onların tətbiqi və icrası praktiki çətinliklərlə müşahidə olunur.

Miqrasiya prosesinin effektiv və ədalətli tənzimlənməsində bir sıra beynəlxalq təşkilatlar mühüm rol oynayır:

• Beynəlxalq Miqrasiya Təşkilatı (IOM) – dünyada ən böyük miqrasiya üzrə ixtisaslaşmış təşkilatdır və həm humanitar, həm də texniki dəstək göstərir.

• BMT Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) – qaçqınların hüquqlarının qorunması və onların məskunlaşdırılması məsələlərini əlaqələndirir.

• BMT-nin Miqrasiya üzrə Qlobal Paktı (2018) – təhlükəsiz, qaydalara əsaslanan və nizamlı miqrasiyanı təşviq edən ilk qlobal razılaşmadır. Hüquqi baxımdan məcburi olmasa da, ölkələr arasında əməkdaşlıq və yaxşı təcrübə mübadiləsi baxımından vacib sənəddir.

• Beynəlxalq Əmək Təşkilatı (ILO) – miqrant işçilərin hüquqlarını qorumaq və əmək istismarının qarşısını almaq üçün siyasətlər formalaşdırır.

Miqrasiya məsələsi regional ittifaqlar və qonşu ölkələr arasında da mühüm əməkdaşlıq mövzusudur. Məsələn:

• Avropa İttifaqı – "Şengen rejimi", "Dublin Sazişi" və "Avropa Miqrasiya və Sığınacaq Paktı" kimi sənədlərlə vahid miqrasiya siyasəti həyata keçirir.

• Afrika İttifaqı – Afrika Miqrasiya Siyasəti və Rabat Prosesləri vasitəsilə əməkdaşlıq edir.

• Amerikalararası İnsan Hüquqları Sistemi – Cənubi və Mərkəzi Amerikada qaçqınlar və sığınacaq axtaranlarla bağlı normativ baza yaradır.

Miqrasiya siyasətləri bir çox çətinliklərlə üz-üzədir:

• İqlim dəyişikliyi – gələcəkdə "iqlim qaçqınları" anlayışı beynəlxalq hüquqda öz əksini tapmalıdır.

• Qeyri-qanuni miqrasiya və insan alveri – sərhədlərin qorunması ilə insan hüquqları arasında balansın saxlanılması zəruridir.

• Ev sahibi ölkələrdə ictimai narahatlıq – miqrasiya siyasətləri populist və radikal reaksiyalara səbəb ola bilər.

• Pandemiya və səhiyyə məsələləri – COVID-19 miqrantların həssaslığını daha da artırdı və beynəlxalq miqyasda daha güclü sağlamlıq protokollarına ehtiyac yaratdı.

Gələcəkdə miqrasiyanın tənzimlənməsi sahəsində daha inklüziv, insan hüquqlarına əsaslanan və beynəlxalq əməkdaşlığa açıq yanaşmalar tələb olunur.

INTERNATIONAL REGULATION OF THE MIGRATION PROCESS

Nigar Vaqif gizi Huseynova
huseynova221083@gmail.com
Aykhan Habil oglu Bahadurlu
ayxanb881@gmail.com
Azerbaijan Technological University

The migration process is a complex and multifaceted phenomenon on a global scale. Its regulation requires the strengthening of mechanisms based on international law, interstate cooperation and the protection of human rights. It is difficult to achieve effective and sustainable solutions in this area without the joint activities of states, international organizations and civil society. Migration should be perceived not only as a problem, but also as an opportunity for global development, and policies should be formulated in this direction.

Keywords: migration, international organization, globalization, alliance, regulation.

QİYMƏTLİ KAĞIZLARIN REYTİNQ QİYMƏTLƏNDİRMƏ MODELİ

Fazil Cəmil oğlu Kərimov
fazilkerimov54@mail.ru
Gülər Azad qızı Kərimova
Hidayət Ramin oğlu Məmmədli
Azərbaycan Texnologiya Universiteti

Yaradılan bazar infrastrukturunun ən vacib seqmentlərindən biri qiymətli kağızlar bazarıdır. Qiymətli kağızlar bazarı iqtisadiyyatın maliyyələşdirilməsinin dövlət büdcəsi və bank sistemi ilə yanaşı ən mühüm variantlarındandır. Bu bazar kapitalın səfərbər edilməsini həvəsləndirməklə maliyyə resurslarının iqtisadiyyatın müxtəlif sahələri və sferaları arasında, perspektivli və rentabelli şəkildə, dinamik inkişaf edən istehsalların xeyrinə yenidən bölgüsünü təmin edir. Qiymətli kağızlar bazarı iqtisadiyyatın ayrılmaz tərkib hissəsidir. Bazar iqtisadiyyatı şəraitində qiymətli kağızlar bazarının formalaşdırılması və inkişafı əhəmiyyətli rol oynayır.

Qiymətli kağızlar normal əmtəə (mal) dövriyyəsinin zəruri əlamətidir. Qiymətli kağızlar nəğd pulu səmərəli şəkildə əvəz edərək öz-özlüyündə həm kredit, həm də ödəmə vasitəsi kimi çıxış edə bilər. Bu gün maliyyə bazarının tərkib hissəsi kimi qiymətli kağızlar bazarı nəinki likvidliyi artırmağa, hətta onu investisiyaya çevirməyə imkan verir. Bununla əlaqədar olaraq qiymətli kağızlar bazarı kommersiya banklarının fəaliyyətdə önəmli yerlərdən birini tutur. Burada onlar məsləhətçi, analitik, broker (vasitəçi), diler (qiymətli kağızların ticarətçisi) və s. kimi çoxsaylı funksiyalar yerinə yetirə bilər [8, səh. 58]. Qiymətli kağızlar bazarında bankların fəaliyyəti emitentlə investorun maraqlarını əlaqələndirməyə, pul kapitalını investordan emitentə təkrar istiqamətləndirməyə, çoxsaylı maliyyə risklərini sığortalamağa imkan verir.

Qiymətli kağızlar bazarında bankların həyata keçirdiyi əməliyyatlar və onların uçotu. Qiymətli kağızlar dedikdə, əmlak hüququnu təsdiq edən səhm, istiqraz vərəqəsi, veksel, fyuçers və digər sənədlər başa düşülür. Qiymətli kağızlar qanunvericiliklə müəyyənləşdirilmiş formaya və məcburi rekvizitlərə malikdir [1].

Səhm səhmdar cəmiyyətinin kapitalına qoyulan müəyyən məbləğ pulu təsdiq edən qiymətli kağızdır. O, sahibinə mənfəətdən dividend əldə etmək hüququ verir. Opsion şəhadətnaməsi konkret malın (məhsulun) müəyyən vaxt ərzində, müəyyənləşdirilmiş qiymət üzrə alınması, yaxud satılması hüququ verən müqavilə haqqında qiymətli kağızdır.

Fyuçers onun sahibinə əvvəlcədən təsbit edilmiş qiymətlə müəyyən malın konkret vaxta alqı-satqısını həyata keçirmək öhdəliyi olduğunu göstərən qiymətli kağızdır.

İstiqraz vərəqəsi sahibinə ödəmə müddətində gəlir əldə etmək hüququ verən qiymətli kağızdır.

Veksel veksel alanın veksel sahibinə razılaşdırılmış məbləğin müəyyən vaxt anında ödənilməsi üzrə pul öhdəliyidir (ciddi müəyyənləşdirilmiş qanuni formada). Bu növ qiymətli kağızdan ödəmə, kredit vasitəsi və s. kimi istifadə edilir [3, səh 220].

Çek çekdə göstərilən pul məbləğinin çekalanın çek sahibinə ödənilməsi əmrini özündə əks etdirən müəyyən formalı pul sənədidir.

İqtisadi sistemin mühüm tərkib hissəsi hesab olunan qiymətli kağızların bütün növləri müvafiq xassələrə malikdirlər ki, bunlara da əsasən tədavül etmək, likvidlik, risklilik və s. aid edilir. Qiymətli kağızın tədavül etməsi onun bazarda alınıb-satılmaq, həmçinin digər əmtəələrin tədavülünü asanlaşdıran müstəqil tədiyyə aləti kimi çıxış etmək qabiliyyəti başa düşülür. Likvidlik qiymətli kağızın sahibi üçün böyük itkilərsiz, bazar qiymətinin cüzi dəyişməsi və az satış xərcləri ilə alınıb-satılmaq qabiliyyətidir. Risk isə qiymətli kağızlara qoyulan və qiymətli kağızlarla edilən investisiyalarla bağlı olan və onlara xas olan, bazar konyunkturasının dəyişməsi nəticəsində itki vermək ehtimalıdır. Məlum olduğu kimi maliyyə və pul sistemi real istehsalla müqayisə də mənfi amillərə daha hissiyyatlıdır. Odur ki, qiymətli kağızlara investisiya qoyuluşları daha riskli sayılır [2,13].

Kommersiya bankları, əsasən, idarəetmə orqanlarının borc öhdəlikləri, digər bankların borc öhdəlikləri, bankların və müəssisələrin səhmləri, bankların, müəssisələrin və dövlət hakimiyyəti orqanlarının vekselləri kimi qiymətli kağızları əldə edir. Belə vəsait qoyuluşu üç tərəfdən - sonradan təkrar satış üçün əldə edilən qiymətli kağızlar (əsasən mənfəət), investisiya üçün əldə edilən qiymətli kağızlar (vəsait qoyuluşu ilə bank ümid edir ki, faizlər, dividendlər və s. şəklində gəlirlər əldə edəcək), digər qiymətli kağızlar - uçota alınır. Həmin qiymətli kağızlar emitentlərə görə (dövlət hakimiyyəti orqanları, banklar və müəssisələr, qeyri-rezidentlər və s.) uçota alınır. Veksellər də həmçinin ödəmə müddətinə görə uçota alınır. Şəxsi hesablarda analitik uçot qiymətli kağızların növləri və onların ödəmə müddətinə, buraxılma seriyasına, emitentlərə və s. görə aparılır. Bu qiymətli kağızların dəyərinin uçotu mürəkkəb prosesdir [4, 15].

Banklar qiymətli kağızlar emissiya edə bilər. Banklar səhmlər, bank istiqraz vərəqələri, bank vekselləri, depozit və əmanət sertifikatları buraxırlar. Belə əməliyyatlar passiv adlanır. Belə ki, banklar onların vasitəsilə öz resurslarını formalaşdırır, pul vəsaitləri cəlb edirlər. Banklar tərəfindən qeyd edilən qiymətli kağızların buraxılması müəyyən tələbləri yerinə yetirərkən həyata keçirilə bilər. Onlardan bəzilərinə diqqət yetirək. Belə ki, səhm onun sahibinə səhmdar cəmiyyətinin mənfəətinin bir hissəsini dividend şəklində əldə etmək və həmin səhmdar cəmiyyətin idarəedilməsində iştirak hüququn təsbit edən emissiya qiymətli kağızıdır. Səhmdar cəmiyyəti şəklində banklar adi və imtiyazlı səhmlər buraxa bilər. Səhmin buraxılması dövlət qeydiyyatından keçdikdən sonra onları satış yolu ilə yerləşdirmək mümkündür.

Qiymətli kağızların mühüm növlərindən olan istiqaz onun sahibinə istiqrazın nominal dəyərinə və bu dəyərə görə müəyyən edilən faizə bərabər həcmdə emitentdən vəsaitini əldə edilməsini təsbit edən qısamüddətli emissiya qiymətli kağızıdır. Gəlirin əldə edilməsi müddəti istiqrazın buraxıldığı şəraitdə müəyyən edilir. İstiqrazdan gəlirləri həmçinin nominal dəyərlə istiqrazın alış qiyməti (diskont) arasındakı fərq də ola bilər. Kommersiya bankı eyni vaxtda səhm və istiqrazlar buraxa bilməz. Bank istiqazlar buraxarkən rüsum ödəyir [8, səh. 59].

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının bank sistemi üçün Hesablar Planı və onun tətbiqinə dair Metodiki Göstərişlər, Azərbaycan Respublikasının Mərkəzi Bankının 32 saylı qərarı, 25 dekabr 2012-ci il.
2. Бреславцева Н.А., и др. Учет финансовых инструментов и инвестиций в соответствии с МСФО и ПБУ: методологические проблемы и различия, международный бухгалтерский учет, №8 (123) ,2020, стр.7-13.
3. Девятова Т.Ю., Власова И.Е., Маслова Л.И. Учет в кредитных организациях: учебное пособие и практикум. Стандарт третьего поколения / Маслова - Екатеринбург: Издательский дом «Ажур», 2020. – 228 с.
4. Дружиловская Т.Ю., Добролюбов Н.А. Финансовые инструменты в бухгалтерском учете и отчетности коммерческих и некоммерческих организаций // Бухгалтерский учет в бюджетных и некоммерческих организациях. №7, 2017, стр. 2-15
5. Адекепов Т. Банки и фондовой рынок. 1997
6. Вердпикова Т.В. Рынок ценных бумаг и биржовое дело. 2002
7. Берзин Н.У. «Фондовый рынок» 2002
8. Kərimov A.E., Babayev A.A. Qiymətli kağızlar bazarı. Bakı 2003

SECURITIES RATING ASSESSMENT MODEL

Fazil Jamil oglu Karimov
fazilkerimov54@mail.ru
Guler Azad gizi Karimova
Hidayat Ramin oglu Mammadli
Azerbaijan Technological University

Based on the analysis of the securities market, it can be concluded that, as a core component of the financial system, the securities market plays a crucial role in economic development by facilitating the efficient allocation of financial resources and serving as a key instrument of fiscal and monetary policy, particularly in market-based economies.

Keywords: securities, money and credit, stock market, capital.

İŞƏ QƏBUL PROSESİNƏ MÜASİR METODLARIN VƏ İNNOVASİYALARIN TƏTBİQİ

Böyükxanım Əmirahova
emirahovaboyukxanim@gmail.com
Aysel Rüstəmzadə
aysel.kamalova93@mail.ru
Dinara Hüseynova
aliyevadinara836@mail.ru
Azərbaycan Texnologiya Universiteti

Müasir dövrdə işə qəbul prosesi əvvəlki illərə nisbətən əsaslı şəkildə dəyişib. Bu dəyişikliklər həm işəgötürənlər, həm də iş axtaranlar üçün bir sıra üstünlükləri təmin edir ki, bu da aşağıdakı aspektlərdə özünü ehtiva edir.

İş elanlarının onlayn platformalarda yerləşdirilməsi müasir işə qəbul prosesinin ən vacib detallarından biridir. Bu metod işəgötürənlərə geniş auditoriyaya əl çatanlığı, iş axtaranlara isə uyğun vakansiyaları asanlıqla tapmağa imkan verir. Onlayn platformalar milyardlarla iş axtaranın istifadə etdiyi qlobal bir şəbəkədir. Bu işəgötürənlərə müxtəlif bacarıq və təcrübəyə malik namizədlərə əl çatanlığa imkan yaradır. Onlayn platformalar vasitəsilə iş elanları dərhal yayımlanır və namizədlər elanlar vasitəsilə tez bir zaman kəsiyində müraciət edə bilirlər. Bu öz növbəsində işə qəbul prosesini əhəmiyyətli dərəcədə sürətlənir. Bir çox onlayn platforma işəgötürənlərə vakansiyalarını müəyyən bacarıqlar, təcrübə, yer və digər kriteriyaya görə hədəflənməyə imkan verir. Bu daha uyğun namizədin cəlb edilməsinə kömək edir. Ənənəvi iş elanları ilə müqayisədə onlayn platformalar daha əlverişli qiymətlərlə xidmət təklif edir. Bu da kiçik və orta biznes subyektləri üçün böyük üstünlükdür. Onlayn platformalar işəgötürənlərə iş elanlarının platformasını izləməyə və təhlil etməyə imkan verir. Əlbəttə, bu da öz növbəsində işə qəbul strategiyasını optimallaşdırmağa və daha yaxşı nəticələrə yiyələnməyə kömək edir. Vurğulayaq ki, ümumi iş saytları müxtəlif sahələrdə işə qəbul olmaq istəyən işçilərə vakansiyalar təklif edir. Azərbaycanda populyar olan saytlara "boss.az", " jobsearch.az" "jobent.az" və s-ni misal göstərmək olar. İş elanları yerləşdirərkən nəzərə alınmalı olan məqamları mütləq şəkildə göstərmək lazımdır. Yəni, vakansiyanın tələbləri, vəzifə öhdəlikləri, şirkət haqqında məlumatlar və s., ətraflı təsvir edilməlidir. Namizədlərin axtarışlarında müvafiq açar sözlərdən istifadə edilməli, iş elanında şirkətin brendini və dəyərini işıqlandırmaq lazımdır.

Onlayn ərizə və CV göndərmə sistemlərə metodu iş axtaranlara onlayn platforma üzərində ərizə formaların doldurmağa imkan verir. Formada adətən şəxsi məlumatlar, təhsil, iş təcrübəsi və digər müvafiq məlumatlar öz əksini tapır. Bu işəgötürənlərə namizədlərin məlumatlarını vahid formada toplamağa kömək edir. İş axtaranlar öz CV-lərini, müxtəlif formalarda (PDF, Word və s.) yükləməlidir. Bəzi sistemlər süni intellekt və maşın öyrənməsi texnologiyalarından istifadə edərək CV-ləri və ərizə formalarını avtomatik təhlil edir. Bu işəgötürənlərə uyğun namizədləri daha sürətli və səmərəli şəkildə seçməyə imkan yaradır. Onlayn ərizə CV göndərmə sistemlərinin bir sıra üstünlükləri və çətinlikləri var. Üstünlükləri: səmərəlilik, əl çatanlıq, ədalətlik, məlumatların idarə edilməsi və s-dən ibarətdir. Çətinlikləri isə sistemlərdə texniki problemlərin yaranma ehtimallarının olması, məlumatların təhlükəsizliyi

riskləri, insan amillərinin itirilməsi (azalması) və s-dir.

Süni intellekt və maşın öyrənməsi əsaslı işə qəbul metodu alətləri müasir işə qəbul prosesində inqilabi dəyişikliklərə səbəb olur. Süni intellekt əsaslı cihazlar və virtual köməkçilər namizədlərlə avtomatik ünsiyyət quraraq sualları cavablandırır və önəmli məlumatlar təqdim edir. Bu texnologiyalar işəgötürənlərə namizədləri daha rasional, obyektiv və dəqiq şəkildə qiymətləndirməyə, onların işə qəbulu prosesini sürətləndirməyə şərait yaradır.

Eyni zamanda qeyd edilən metodun alqoritmləri CV-ləri, ərizə formalarını, namizədlərin məlumatlarını avtomatik təhlil edərək uyğun namizədləri seçir. Bu alətlərin vasitəsilə namizədlərin bacarıqları, təcrübələri və şəxsi xüsusiyyətləri dəqiqliklə qiymətləndirir. Süni intellekt əsaslı namizəd izləmə sistemləri (ATS) namizədlərin müraciətlərini avtomatik işləyir, qiymətləndirir və idarə edir.

Video müsahibələr və onlayn qiymətləndirmə testləri müasir işə qəbul prosesində getdikcə istifadə olunan iki mühüm alətdir. Bu metod işəgötürənlərə namizədləri daha səmərəli və obyektiv qiymətləndirməyə imkan yaradır. Video müsahibələr işəgötürənlərin və namizədlərin real vaxtda qeydə alınmış video vasitəsilə ünsiyyət qurduğu prosesdir. Canlı video müsahibələr iki tərəfin eyni vaxtda onlayn platforma vasitəsilə əlaqə qurduğu müsahibələrdir. Qeydə alınmış video müsahibələr işəgötürənlərin əvvəlcədən suallar hazırladığı və namizədlərin bu suallara video cavablar qeyd etdiyi müsahibələrdir. Göstərdiyimiz metodun üstün və çətin cəhətləri vardır. Üstün cəhətləri zaman və məkan qənaəti, daha geniş namizəd bazası standartlaşdırılmış müşahidə və məlumatların qeydə alınması proseslərdir. Çətinlikləri internet bağlantısı, kamera və mikrofon kimi texniki problemlərin müsahibənin keyfiyyətinə təsir edə bilməsi, qeyri-verbal ünsiyyətin (bədən, dil, mimika) tam şəkildə qiymətləndirilməsinin çətin ola bilməsi, namizədlərin narahatlığı (bəzi namizədlər video müsahibələrdə daha çox narahatlıq hiss edə bilərlər) və s.

İşə qəbul prosesinin müasir metodlarından biri də sosial media və şəbəkələşdirmədir. Bu metod müasir işə qəbul prosesində mühüm rol oynayan iki əlaqəli konsepsiyadır. Onlar işəgötürənlərə və iş axtaranlara unikal imkanlar təqdim edir. Sosial media platformaları (Linkedin, Twitter, Facebook və s) işəgötürənlərə potensial namizədləri tapmaq, onlarla əlaqə qurmaq və şirkət brendlərini tapmaq üçün güclü vasitələr təqdim edir. İş axtaranlar sosial mediadan istifadə edərək iş elanlarını tapa, şirkətlər haqqında məlumatlar əldə edə və peşəkar şəbəkələrini genişləndirə bilərlər. Sosial medianın üstün cəhətləri: işəgötürənlərə geniş namizəd bazarına çatmağa və müxtəlif bacarıqlara malik insanları tapmağa imkan verir. Şirkətlər sosial mediadan istifadə edərək öz işəgötürən brendlərini gücləndirə və istedadlı potensial namizədləri cəlb edə bilərlər. İşəgötürənlər namizədlərin sosial media profillərini nəzərdən keçirərək onların peşəkar reputasiyası, bacarıqları və işə uyğunluğu haqqında məlumat əldə edə bilərlər. Sosial medianın çətinlikləri: sosial media profillərindəki məlumatların dəqiqliyi və etibarlığı fərqli ola bilər. Eyni zamanda namizədlərin şəxsi məlumatlarının sosial mediada paylaşması müxtəlif riskləri yarada bilər, işəgötürənlər sosial media profilinə əsasən təşəbbüskar qərarlar verə bilərlər. Şəbəkələşdirmə peşəkar əlaqələrin qurulması və inkişaf etdirilməsi prosesidir. İş axtaranlar şəbəkələşmə vasitəsilə iş imkanları haqqında məlumat əldə edə, tövsiyyələr ala və potensial işəgötürənlərlə tanış ola bilərlər. İşəgötürənlər şəbəkələşmə vasitəsilə istedadlı namizədləri tapa və işə qəbul prosesini sürətləndirə bilərlər. Şübhəsiz ki, sosial media şəbəkələşmə üçün güclü bir vasitədir. Linkedin kimi platformalar peşəkar şəbəkələr qurmaq, iş elanlarını tapmaq və işəgötürənlərlə əlaqə qurmaq üçün çox ideal vasitədir.

Daha əsaslı işə qəbul metodu, işə qəbul qərarlarını vermək üçün məlumatların toplanması, təhlili və interpretasiyasına əsaslanır. Bu zaman yanaşmanın bir sıra əsas xüsusiyyətləri vardır. Belə ki, işə qəbul prosesinin bütün mərhələlərində (iş elanlarından, namizəd ərizələrinə, masahibələrə və qiymətləndirmə testlərinə qədər) məlumatlar toplanır. Toplanmış məlumatlar statistik və analitik metodlarla təhlil edilir. Bu təhlil namizədlərin işə uyğunluğu, işə qəbul prosesinin rasionallığı və işəgötürmənin gələcək proqnozları haqqında dəyərli məlumatlar təqdim edir. Daha əsaslı işə qəbul müasir işə qəbul prosesində mühüm rol oynayır və işəgötürənlərə daha səmərəli və obyektiv işə qəbul qərarları verməyə kömək edir.

Qeyd edək ki, müasir dövrdə işə qəbul prosesi, texnoloji inkişaf və rəqabətə davamlılıq tələbləri səbəbindən sürət və səmərəliliyin artırılmasına yönəlmişdir. Bu konteksdə, innovasiyaların tətbiqi işə qəbul prosesində bir sıra əhəmiyyətli ültünlükləri təmin edir. Belə ki, süni intellekt və maşın öyrənilməsi kimi texnologiyalar, CV-lərin və ərizələrin avtomatik təhlili, namizədlərin ilkin seçimi və müsahibələrin planlaşdırılması kimi prosesləri sürətləndirir. Bu da insan resursları mütəxəssislərinin vaxtına qənaət edir və onların daha strateji vəzifələrə fokslanmasına imkan verir. onlayn iş elanları, ərizə formaları və video müsahibələr kimi rəqəmsal alıtlır, coğrafi məhdudiyyətləri aradan qaldırır və daha geniş namizəd bazarına çıxış imkanı yaradır. Əlbətdə innovasiyaların tətbiqi, işə qəbul prosesinin sürətini və səmərəliliyini artırmaqla yanaşı, obyektivlik, ədalətlik, namizəd təcrübəsinin yaxşılaşdırılması və xərc qənaəti kimi üstünlükləri təmin edir.

Beləliklə, apardığımız araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, işə qəbul prosesinə müasir metodların və innovasiyaların tətbiq edilməsi şirkətlərə daha rəqabətə-davamlı, uğurlu bir işə qəbul strategiyası qurmağa imkan verir, işə qəbul prosesini daha səmərəli, obyektiv və şəffaf edir, daha uyğun namizədlərin tapılmasına, iş axtaranların öz bacarıqları, təcrübələri, bilikləri maqabilində işlərə müraciət etmələrinə unikal imkanlar yaradır.

APPLICATION OF MODERN METHODS AND INNOVATIONS TO THE RECRUITMENT PROCESS

Boyukkhanim Amirahova
emirahovaboyukxanim@gmail.com
Aysel Rustamzadeh
aysel.kamalova93@mail.ru
Dinara Huseynova
aliyevadinara836@mail.ru
Azerbaijan Technological University

Applying modern methods and innovations to the recruitment process allows companies to build a more competitive, successful recruitment strategy, makes the recruitment process more efficient, objective and transparent, creates unique opportunities for finding more suitable candidates and for job seekers to apply for jobs that match their skills, experience and knowledge.

Keywords: recruitment process, online platform, employers and job seekers, artificial intelligence, social media, video interview, job sites.

AZƏRBAYCAN İQTİSADİYYATININ İNVESTİSİYA PROBLEMLƏRİ

Kərim Adil oğlu Məmmədov
k.memmedov@atu.edu.az
Mircavad Mirkamil oğlu Ağayev
Sevda Rafiq qızı Hüseyinzadə
Azərbaycan Texnologiya Universiteti

İnvestisiyalar, daxili bazarda inkişaf limitinə çatdıqda, daha böyük potensiala və səmərəliliyə malik xarici bazarlara yönəlir. Xaricdə investisiya fəaliyyəti müəyyən çətinliklərlə üzləşir. Xarici investisiya əlaqələrinin əsas xüsusiyyəti iqtisadi subyektlərin xaricdəki fəaliyyətinin qorunmasıdır.

Azərbaycan və oxşar ölkələrdə investisiya fəaliyyətinin hüquqi tənzimlənməsi forma və metodlarına görə fərqlənir və investisiyaların məqsədindən asılıdır. Dövlət investisiyaları dövlət proqramları və birbaşa idarəetmə yolu ilə tənzimləyir. Vergi sistemi də mühüm tənzimləyici vasitədir; dövlət vergi dərəcələrini və güzəştlərini fərqləndirməklə təsir göstərir. Subsidiya, dotasiya və büdcə kreditləri də müxtəlif regionların, sahələrin və müəssisələrin inkişafına maliyyə dəstəyi verərək investisiyalara tənzimləyici təsir göstərir.

İnvestisiya fəaliyyətinə dövlətin təsir göstərməsi həm maliyyə siyasətinin, qiymətlən-dirmə siyasətinin, amortizasiya siyasətinin həyata keçirilməsində ifadə edilir. İnvestisiya fəaliyyətinin hüquqi tənzimlənməsinin forma və metodlarına antiinhisar siyasətinin, dövlət

mülkiyyətinin, eləcə də tamamlanmamış tikintinin özəlləşdirilməsini daxil etmək lazımdır. Şübhəsiz ki, dövlət idarəetməsi ölkəmizin istehsal və potensialının struktur baxımdan restrukturizasiyasının ən zəruri vasitəsi olaraq qalmalıdır.

Xarici investisiya fəaliyyətinin geniş vüsət alması müxtəlif ölkələrdə sərmayə qoyuluşu, investisiya münasibətlərinin hüquqi tənzimlənmə mexanizmini ortaya çıxarmışdır. İnvestisiya qoyuluşları beynəlxalq müstəviyə keçdikcə hüquqi tənzimlənmə sistemi də beynəlmiləlləşdirilmişdir.

Xarici investisiya fəaliyyətinin hüquqi tənzimlənməsi özündə ölkədaxili hüquqi tənzimetmə sistemlərilə bərabər tədricən beynəlxalq hüquqi müdafiə, təhlükəsizlik sistemlərini formalaşdırmış və beynəlxalq investisiya hüququnu meydana gətirmişdir. Bu baxımdan, meydana gələn hüquq sistemi investisiya mühitini tənzimləməklə bərabər, ölkələrarası iqtisadi münasibətləri tənzimləyən normativ-hüquqi bazanın məcmuu kimi əks olunur. İnvestisiya qoyuluşlarının qarşılıqlı şəkildə qorunması və təşviqi haqqında müqavilələr əksər digər beynəlxalq iqtisadi xarakterli müqavilələrdədəki kimi, beynəlxalq iqtisadi hüquq sisteminin bir sıra xüsusiyyətlərinə bu və ya digər şəkildə əsaslanır.

Almaniya ilə Azərbaycan arasında 22 dekabr 1995-ci il tarixində imzalanmış müqavilədə qeyd olunur ki, hər bir razılığa gələn tərəf digər razılığa gələn tərəfin vətəndaşlarına yaxud müəssisələrinə münasibətdə, onların investisiya fəaliyyətilə əlaqədar özünün yaxud üçüncü dövlətin vətəndaş yaxud müəssisələrinin istifadə etdiyi mexanizmindən az əlverişli olmayan mexanizm təqdim edir.

Xarici investisiya fəaliyyətinin hüquqi tənzimlənməsi əsas mənbəyi kimi sadəcə ikitərəfli və çoxtərəfli investisiaya sazişləri, investisiyaların təhlükəsizliyi üzrə beynəlxalq sazişlər deyil, eyni zamanda məskunlaşma haqqında sazişlər maliyyə və ticarət yönümlü beynəlxalq müqavilələr və s. rol oynayır.

Almaniya ilə imzalanmış müqavilənin preambulasında göstərilir ki, Müqaviləni bağlamaqla Tərəflər qarşılıqlı şəkildə digər Tərəfin ərazisində vətəndaşlarının və müəssisələrin investisiya fəaliyyəti üçün münbit zəmin formalaşdırmaq yönündə səy göstərirlər. İnvestisiya potensialının formalaşması və istifadə edilməsi prosesində müəssisə investisiya fəaliyyətinin müxtəlif subyektləri ilə sosial-iqtisadi münasibətlərə girir. Bu cür münasibətlər müəssisə və dövlət arasında, müəssisələrin öz arasında, müəssisə daxilində işçilərlə mülkiyyətçilər arasında qurula bilər. İnvestisiya fəaliyyətinin həyata keçirilməsi prosesində meydana çıxan münasibətin təhlilinə sistemli yanaşma bu prosesi müasir Azərbaycanda şərtləndirən bir sıra amilləri ayırmağa imkan vermişdir.

Müəssisələrin əksəriyyəti üçün investisiya potensialının reallaşdırılması imkanları kapital bazarlarının inkişaf etməməsi, uyğun hüquqi bazanın olmaması, şirkətin "qeyri-şəffaflığı" ilə mülkiyyət hüquqlarının daim yenidən bölüşdürülməsi ilə, eləcə də Azərbaycan şirkətlərinin əksəriyyətində maliyyə menecmentinin pis səviyyəsi ilə xarakterizə olunur.

İnvestisiya potensialının formalaşması və istifadə edilməsi prosesində müəssisə investisiya fəaliyyətinin müxtəlif subyektləri ilə sosial-iqtisadi münasibətlərə girir. Bu cür münasibətlər müəssisə və dövlət arasında, müəssisələrin öz arasında, müəssisə daxilində işçilərlə mülkiyyətçilər arasında qurula bilər.

İnvestisiya fəaliyyətinin həyata keçirilməsi prosesində meydana çıxan münasibətin təhlilinə sistemli yanaşma bu prosesi müasir Azərbaycanda şərtləndirən bir sıra amilləri ayırmağa imkan vermişdir.

Dövlət və müəssisə arasında iqtisadi münasibətlər investisiya fəaliyyəti üçün ilkin şərtlərin formalaşması prosesində investisiya, pul-kredit, vergi və digər siyasətlərin aparılması yolu ilə meydana çıxır.

İnvestisiyaya dövlətin təsiri həm də maliyyə və kredit siyasətinin, qiymətəmələgəlmə siyasətinin, amortizasiya siyasətinin aparılmasında ifadə olunur. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinin forma və metodlarına antiinhisar tədbirlərini, dövlət mülkiyyətinin, o cümlədən bitməmiş tikintinin özəlləşdirilməsini aid etmək lazımdır. Şübhəsiz ki, dövlət

idarəetməsi Azərbaycanın istehsal və investisiya potensialının struktur cəhətdən yenidən qurulmasının ən mühüm vasitəsi olaraq qalmalıdır.

INVESTMENT PROBLEMS OF THE AZERBAIJANI ECONOMY

Kerim Adil oglu Mamedov
k.memmedov@atu.edu.az
Mirjavad Mirkamil oglu Agayev
Sevda Rafig gizi Huseinzade
Azerbaijan Technological University

The study of the history of investment relations and its development is of particular importance from the point of view of international legal regulation of investment. In particular, developing countries, which are in greater need of foreign investment, pay special attention to studying the historical development of the investment environment when formulating their policies in this sphere.

Keywords: investment, development, environment, relations.

KƏND TƏSƏRRÜFATINDA MÜHASİBAT UÇOTUNUN TƏŞKİLİNİN KONSEPTUAL ƏSASLARI VƏ ONUN TƏKMİLLƏŞDİRİLMƏSİ

Xalidə Rəşid qızı Cəfərova
ceferovaxalide90@gmail.com
Günel Dəmir qızı Məsiyeva
Cinarə Yaşar qızı Məmmədova
Azərbaycan Texnologiya Universiteti

Müasir iqtisadiyyatın tərkib hissəsi olan kənd təsərrüfatında uçotun inkişaf etdirilib, müasir uçot sisteminin tələblərinə uyğunlaşdırılması, tərtib olunan hesabatların (mənfəət və zərər, balans hesabatı və.s) real vəziyyəti düzgün əks etdirməsi olduqca əhəmiyyətli məsələdir. Mühasibat uçotu maliyyə xarakterli iqtisadi hadisələrin qeydiyyatdan keçirilib təsnifləşdirilməsi və hesabat şəklinə gətirilərək təqdim olunması və təhlilini öyrənən bir elm sahəsidir. Mühasibat uçotu daima təkmilləşdirilməklə bazar iqtisadiyyatı şəraitində ölkə iqtisadiyyatının formalaşması, sahibkarlığın inkişafı və idarəetmə sistemində mühüm amilə çevrilmişdir.

Yüksək ixtisaslı mühasiblərin, iqtisadçıların hazırlığının həyata keçirilməsində mühasibat balansının quruluşu, növləri və formaları, mühasibat hesabları, sintetik və analitik hesablar üzrə dövriyyə cədvəllərinin tərtibi, mühasibat sənədlərinin təsnifatı və təyinatı, sənədlərin qəbulu və yoxlanması metodları əks etdirilmiş dərs vəsaitinin böyük əhəmiyyəti olacaqdır.

Əmlak və öhdəliklərin inventarlaşdırılmasının zəruriliyi və onun qarşısında qoyulan vəzifələr, inventarlaşmanın aparılma mərhələləri və onun təşkil edilməsi, inventarlaşmanın nəticələrinin müəyyən edilərək uçotda əks etdirilməsi və tənzimlənməsi istiqamətlərini gələcək mühasiblərin bilməsi önəmlidir. Bu baxımdan həmin mövzular geniş şəkildə dərs vəsaitində öz əksini tapmışdır. Maliyyə hesabatının tərkibi və onların ümumi xarakteristikası, maliyyə hesabatının tərtibi və təqdim olunma qaydası, maliyyə, idarəetmə və vergi uçotlarının iqtisadi mahiyyəti, vəzifələri və təşkili prinsipləri, quruluşu və təsnifatı haqqındakı məlumatların öyrənilməsi tələbələrin gələcək təcrübələrini təmin edir.

Beynəlxalq uçot standartlarına uyğunlaşma şəraitində mühasibat uçotu obyektlərinə pul və natural formada olan əmlak, istehsal ehtiyatları, hazır məhsullar, əsas vəsaitlər, qeyri-maddi aktivlər, pul vəsaitləri, qiymətli kağızlar, maliyyə qoyuluşları, hesablaşmalar, əsas fondların və digər qiymətlilərin köhnəlməsi, kreditlər, borclar, məsrəflər, gəlir və xərclər, mənfəət və zərərlər, nizamnamə, ehtiyat və başqa fondlar, eyni zamanda hesablar planında nəzərdə tutulan digər obyektlər aid edilir. Mühasibat uçotu obyektləri sırasında tədavül fondları xüsusi yer tutur. Tədavül fondlarına dövriyyədə olan pul vəsaitləri,

banklardakı pul vəsaitləri, hazır məhsullar (satış üçün) və alıcılara yüklənmiş mallar aiddir.

Mühasibat uçotunun hesab planına uyğun olaraq tutulan mühasibat uçotunun obyektləri hökmən sintetik, analitik və subhesablarda, mühasibat registrlərində qarşılıqlı əlaqədə ikili yazılış üsulu ilə öz əksini tapmalıdır.

Analitik uçotun aparılması qaydası (şəxsi, material və başqa analoji hesabların uçotu da daxil olmaqla) nəzarət və idarəçiliyin tələbindən asılı olaraq müəyyənləşdirilir.

Hesabların təyinatı və qruluşuna görə təsnifatı geniş təkrar istehsal prosesində iqtisadi resursların daha əhəmiyyətli nişanələr üzrə mühasibat hesablarında uçotunun qruplaşmasını özündə formalaşdırır. Mühasibat uçotu hesablarının qruluşuna görə təsnifatının əsasını hesablar planında nəzərdə tutulan hər bir mühasibat hesabının standartı təşkil edir. Mühasibat uçotunun hesablar planında hesablar, iqtisadi məzmununa görə (təsərrüfat vəsaitlərini (resurslarını) uçota alan hesablar, onların mənbələrini uçota alan hesablar, proses və maliyyə nəticələrini uçota alan hesablar kimi) qruplaşdırıldığı halda təyinat və quruluşuna görə təsnifat həmin qrupların ümumi qaydasını və analitik uçotun aparılmasını əhatə edir.

Hesabların təyinatına və quruluşuna görə təsnifatı bu və ya digər hesabdan nə üçün istifadə edilməsini, hesabın quruluşunu, daha doğrusu, vəsaitlərin, onların mənbələrinin və təsərrüfat proseslərinin hesablarda necə əks etdirilməsini, debet və kreditdə nəyin uçota alınmasını, hər hesabın qalığının nəyi göstərməsini öyrənir.

Mühasibat uçotu hesablarının təsnifatı **–** iqtisadi məzmununa görə əmlakın, öhdəliyin və təsərrüfat əməliyyatlarının oxşar nişanələr üzrə əks etdirilən qruplaşmasıdır. Mühasibat hesablarının təsnifatı zəruri və mühasibat obyektlərinin müşahidəsinin qeydə alınmasını, bu obyektlərin konkret hesablar üzrə bölüşdürülməsini, yaradılmış sistemin müəyyən siniflərə bölünməsini və tələb olunan nəticələrin əldə olunmasını təmin etmək üçün minimum hesabların təyin edilməsinə yönəldilir.

Təsərrüfat və maliyyə fəaliyyətini əks etdirmək üçün hesabların iqtisadi məzmununa görə təsnifatı iqtisadi subyektlərin istehsalatda zəruri və lazımi qədər mühasibat uçotu hesablarının nomenklaturasının təyin edilməsinə yönəldilməlidir. Bu cür nomenklaturanın quruluşu təsərrüfat sistemində baş verən iqtisadi informasiyaların təhlilinin yerinə yetirilməsini və konkret mühasibat müşahidəsi obyektinə aid edilən göstəricilərin qeydiyyata alınmasını həyata keçirən hesablar planının müəyyən edilməsini nəzərdə tutur. Mühasibat uçotunda əks etdirilən informasiyaların iqtisadi məzmunu hesabın hansı məqsəd, yəni hansı obyektdə müşahidə aparmaq üçün nəzərdə tutulmasını xarakterizə edir.

CONCEPTUAL BASES OF ORGANIZATION OF ACCOUNTING IN AGRICULTURE AND ITS IMPROVEMENT

Khalida Rashid gizi Jafarova
ceferovaxalide90@gmail.com
Gunel Demir gizi Masiyeva
Jinara Yashar gizi Mammadova
Azerbaijan Technological University

The diversity of socio-economic relations, the complexity of economic processes and their management characterize the development of market relations in modern times and determine the increasing role of information in economic development. Information provision has become the most important component of the operating system of commercial organizations, creating a single information space for planning and budgeting activities, analyzing the results obtained and making appropriate decisions.

Modern theories of accounting are clearly personalized in nature, since the explanation of economic processes is given by the persons participating in these processes.

Keywords: budget, accounting, agriculture, exchange.

MARKETİNQ TƏDQİQATLARI VƏ İNFORMASİYA SİSTEMLƏRİNİN BAZAR ARAŞDIRMALARININ TƏDQİQİ

Şəlalə Əli qızı Yusibova
ş.yusubova@atu.edu.az
Ayxan Mehman oğlu Qasımov
Samirə Rafiq qızı Nuriyeva
Azərbaycan Texnologiya Universiteti

Azərbaycanda siyasi və iqtisadi islahatların müasir mərhələsi bazar iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edən hərtərəfli biliyə və adamlarla ünsiyyətə malik mütəxəssis kadrlann hazırlanmasını tələb edir. Bazar şəraitində mütəxəssis və təşkilatçı-rəhbər hər şeydən əvvəl sahibkar-rəhbər, sahibkar kommersant və biznesmen olmalıdır.

Azərbaycanda sahibkarlığın inkişafı və ona dövlət qayğısı, həmçinin xarici iqtisadi fəaliyyət üzərində dövlət inhisarının ləğvi ölkənin çoxsaylı sahibkarlarına xarici bazara çıxmaq imkanı vermişdir. Lakin keçid dövrünün kəskin problemləri-işsizlik, MDB ölkələri arasında təsərrüfat əlaqələrinin pozulması, maliyyə, rəqabət, nəqliyyat, valyuta-kredit, investisiya qoyuluşu və s. daxili bazarın inkişafını ləngidir. Buna baxmayaraq, Azərbaycanın neft strategiyası və "əsrin müqaviləsi" öz bəhrəsini verir. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəmərinin fəaliyyətə başlaması ölkəmizin bazar iqtisadiyatına keçidin formalaşma istiqamətlərini müəyyən edir. Məhz bu baxımdan, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası və bazar problemlərinin həllində marketinq tədqiqatlarının rolu əvəzsizdir [1,12].

Marketinqin imkanlarından həm kommersiya və qeyri-kommersiya xarakterli ayrı-ayrı müəssisə və təşkilatlar, həm də regional və dövlət səviyyəsində istifadə edilir. Qeyd etmək lazımdır ki, respublikamızda hələlik müasir marketinqin yalnız ayrı-ayrı prinsip və metodları tətbiq edilir.

Son illər Azərbaycanda bazarın inkişafı və onun xarici-iqtisadi fəaliyyəti imkanlarının genişlənməsi marketinq tədqiqatlarına marağı xeyli artırmışdır. Hal-hazırda, bir çox bazar iqtisadiyyatı yolunu seçmiş ölkələrdə marketinq məsələləri üzrə milli institutlar və marketinq tədqiqatları şəbəkəsi inkişaf edir. Marketinq tədqiqatları istehlakçıdarın bütün tələblərini daha dolğun ödəmək nöqteyi-nəzərdən kommersiya-təsərrüfat qərarlarının qəbulunu özündə təcəssüm etdirir. Bu, analitik funksiya kimi, bazarın və ya istehlakçıların kompleks öyrənilməsinə yönəlmiş proses olub, firmanın marketinq fəaliyyətinin mühüm cəhətləri üzrə zəruri informasiyanın sistematik olaraq toplanması, işlənməsi və təhlilini nəzərdə tutur.

Marketinq tədqiqatlarında əsas məqsəd bazarın inkişafının vəziyyəti və meylini qiymətləndirmək, istehlakçı davranışını tədqiq etmək, rəqiblərin, malgöndərənlərin və vasitəçilərin fəaliyyətinin təhlili, marketinq kompleksinin öyrənilməsi, qiymət, satış, çeşid siyasəti və həvəsləndirmənin tətbiqi istiqamətlərini müəyyən etməkdən ibarətdir.

Azərbaycanda sahibkarlığm bazar fəaliyyəti üzrə toplanmış təcrübəsi təsdiq edir ki, hal-hazırda marketinq tədqiqatları apanlmadan daxili və xarici bazarda satış problemini düzgün həll etmək mümkün deyil.

Müasir şəraitdə bazar iqtisadiyyatı və sahibkarhğın əsas tələbi öz fəaliyyətində "nə istehsal edilirsə onu "satmaq" deyil, ən başlıcası" nə satılırsa onu "istehsal etmək" prinsipinə əsaslanmalıdır. Marketinq tədqiqatları nə vaxt, hansı çeşiddə və miqdarda, hansı qiymətə kimin üçün, nə istehsal etməli, həmçinin mal yeridilişi və satış vaxtını müəyyən etməyə imkan verir. [2,54]

Nəzərə almaq lazımdır ki, bazarın öyrənilməsi, malların konkret növlərinin istehsal proqramının hazırlanması, uyğun kommunikasiyanın və mallann daşınmasının dəqiq təşkili, optimal qiymət və tariflərin müəyyən edilməsi, servis xidmətinin genişləndirilməsi, mal bazarlarının infrastrukturunun formalaşdırılması və fəaliyyəti marketinqin əsaslarının tərkibinə daxildir. Marketinq tədqiqatlarının prinsip və əsasları barədə dərindən biliyə malik olmaq kommersiya risqlərini azaltmağa, daha optimal variant və şərait seçməyə, rəqabət şəraitində yüksək keyfıyyətli məhsul və xidmət göstərməklə istehsal və satışın mənfəətliliyini təmin etməyə, həmçinin sabit satış şəraitində müxtəlif istehlakçı qrupları üçün daha əlverişli satış qiymətini müəyyən etməyə imkan verir.

Bazar şəraitində müasir marketinq tədqiqatlarının əsas problemi yeni malların istehsah və onların vaxtlı-vaxtında bazara çıxarılmasıdır. Müəssisənin inkişafı bazara çıxarılan yeni məhsulun uğur qazanmasından, onun müflisləşməsi və rəqabət mübarizəsində davamsızlığı isə uğursuzluğundan asdıdır. Qeyd edilənlər belə nəticəyə gəlməyə əsas verir ki, marketinq tədqiqatları bazar iqtisadiyyatının müasir vəziyyətini əks etdirən sistem kimi, biznes sferasında mütəxəssislərə müəyyən dərəcədə kömək etmək qabiliyyətinə malikdir.

Marketinq tədqiqatlarının mahiyyəti və məzmunu. Marketinq tədqiqatları müəssisəni xarici mühitinin elementləri ilə əlaqələndirən kommunikasiya kanalı kimi. Marketinq tədqiqatlarının obyekti (bazar, rəqiblər, istehlakçılar, qiymətlər, müəssisənin daxili potensialı və s.) və predmeti [3,38].

Marketinq tədqiqatlarının aparılmasının zəruriliyi müasir dövrdə bazarda rəqabət.

Mübarizəsinin kəskinləşməsi, istehlakçıların alış motivlərinin və davranışın daima dəyişməsi, məhsul çeşidinin genişlənməsi tezliyinin yüksəlməsi, digər bazar subyektlərinin iqtisadi və sosial davranışının sabit olmaması və s. nətijəsində müəssisələrin bazar fəaliyyətində qeyri-müəyyənlik və risk amilinin səviyyəsinin artması ilə müəyyən edilir.

Marketinq tədqiqatları dedikdə marketinq fəaliyyətinin həyata keçirilməsinə dair qərarların qəbul edilməsi məqsədilə onun ətraf mühitinə dair informasiya toplanması, onların işlənməsi, təhlil edilməsi, ümumiləşdirilməsi və marketinq fəaliyyəti üzrə tövsiyələrin hazırlanması başa düşülür.

Bazar marketinq tədqiqatlarının obyektidir və onun tədqiqi marketinq tədqiqatlarının əsasını təşkil edir. Marketinq baxımından bazar dedikdə "hər hansı bir məhsula tələbatı və onu ödəmək imkanı olan istehlakçıların və bu tələbatın ödənilməsi üçün məhsullar təklif edən istehsalçıların, satıcıların məcmusu", yaxud "istehsal edilmiş və ya istehsal ediləjək məhsulların xüsusiyyətlərinin ona olan ijtimai tələbata uyğun gəlməsi səviyyəsinin müəyyən edildiyi, müəssisənin məhsulunun rəqabət qabiliyyətliliyinin rəqib məhsulun rəqabət qabiliyyətliliyi ilə müqayisə edildiyi yer" başa düşülür.

Bazarlar tələblə təklifin arasındakı nisbətə, istehlakçıların tiplərinə, istehlakçıların məhsul almaq imkanlarına və s. əlamətlərə görə bir-birindən xeyli dərəcədə fərqlənirlər. Bu əlamətlərə görə bazarın müxtəlif formaları vardır. [4, 67]

ƏDƏBİYYAT

1. Анурин В., Муромкина И., Евтушенко Е. Маркетинговые исследования потребительского рынка. Санкт-Петербург, «Питер», 2004, 269 с.
2. Багиев Г.Щ., Тарасевич В.М., Анн Х. Маркетинг. Москва: Економика, 1999
3. Божук С.Г., Ковалик Л.Н. Маркетинговые исследования. Питер, 2003
4. Джоббер Д. Принципы и практика маркетинга. М., Изд. Дом «Вильгамс», 2000, 688 с, стр. 67-112, стр. 147-206

MARKETING RESEARCH AND INFORMATION SYSTEMS MARKET RESEARCH RESEARCH

Shalala Ali gizi Yusibova
sh.yusubova@atu.edu.az
Aykhan Mehman oglu Gasimov
Samira Rafig gizi Nuriyeva
Azerbaijan Technological University

Modern marketing transcends the conventional view of mere selling and promotion. Its fundamental objective is to generate value for customers while simultaneously securing benefits for the organization. This necessitates a comprehensive understanding of customer needs, the creation of superior customer value, and the cultivation of robust customer relationships. Ultimately, by prioritizing customer value, organizations can achieve enhanced profitability and long-term success.

Keywords: marketing, value, competition, environment, analysis, supply and demand.

UZUNMÜDDƏTLİ VƏ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏRİN UÇOTU

İradə Cəmil qızı Kərimova
i.kerimova@atu.edu.az
Tural İlqar oğlu Əhmədov
Zahir İftixar oğlu Mikayılzadə
Azərbaycan Texnologiya Universiteti

Uçota alınan və hesabatda əks etdirilən obyektin mahiyyəti və məzmunu nəzəri-metodoloji cəhətdən düzgün, hərtərəfli müəyyən edilmədikdə həmin obyekt haqqında formalaşdırılan informasiyanın keyfiyyəti də aşağı olur, hətta bəzən səhv idarəetmə və maliyyə qərarlarının qəbul edilməsinə gətirib çıxarır. Uçot və hesabatın başlıca elementlərindən olan aktivlərin, xüsusilə də qısamüddətli aktivlərin mahiyyəti, funksiyası, təsnifatı və qiymətləndirilməsi normativ sənədlərdə və iqtisadçıların əsərlərində kifayət qədər dərin açıqlanmamış, yaxud tədqiq edilməmişdir. Paradoksal hal olsa da, bu məsələlər içərisində ən zəif araşdırılanları məhz aktivlərin mahiyyəti və funksiyasıdır. Uçot və hesabat sisteminin daha da inkişaf etdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması bu sahədə nəzəri və metodoloji tədqiqatların dərinləşdirilməsini tələb edir. Digər tərəfdən, aktivlərin təsnifatı, qiymətləndirilməsi və sintetik uçotunun sxemi xeyli dərəcədə onların mahiyyətcə düzgün xarakterizə edilməsi və interpretasiyasından asılıdır. Deyilənləri nəzərə almaqla bütövlükdə «aktivlər», o cümlədən «qısamüddətli aktivlər» anlayışlarının mahiyyəti üzərində dayanmaq nəzəri və praktiki cəhətdən yerinə düşər.

Araşdırmalar göstərir ki, nə ümumnəzəri iqtisadi ədəbiyyatlarda, nə də uçot və təhlilin nəzəri məsələlərinə həsr edilmiş dərsliklərdə, dərs vəsaitlərində, monoqrafiyalarda, məqalələrdə və digər mənbələrdə «aktiv», yaxud «aktivlər» anlayışının bütövlükdə dərin tərifi verilməmişdir. Onların bəzilərində hətta, həmin anlayışın özü ümumiyyətlə tədqiqat obyekti deyildir. Əksər mənbələrdə aktivlərin yalnız ayrı-ayrı tərkib hissələrinin tərifi verilir. Başqa sözlə, «aktivlər» anlayışı bütöv bir iqtisadi kateqoriya kimi tədqiq edilib öyrənilmir.

Qeyd edək ki, mühasibat uçotu üzrə əksər rəsmi normativ sənədlərdə bütövlükdə aktivlər anlayışının mahiyyəti açıqlanmamış, onların funksiyası isə dəqiq ifadə olunmamışdır. Belə sənədlərdən biri kimi 29 iyun 2004-cü il tarixli «Mühasibat uçotu haqqında» Azərbaycan Respublikasının Qanunu göstərilə bilər. Qanunun «Mühasibat uçotunun əsas konsepsiyaları» adlı bölməsində aktivlərin tərifi verilmir və burada yalnız qısamüddətli və uzunmuddətli aktivlər kimi iki blokdan söhbət gedir.

Kommersiya təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarında dövriyyə aktivləri bir il ərzində, yaxud adi əməliyyat dövründə istehsal, tədavül və istehlak sferalarında iştirakı nəzərdə tutulan pul vəsaitləri və digər aktivlər kimi şərh olunur. Aktivlərin digər hissəsi sayılan uzunmüddətli aktivlər faydalı xassələrinin bir neçə ildə istifadəsi gözlənilən aktivlər şəklində ifadə edilir. Zənnimizcə, ayrı-ayrılıqda verilmiş tərifl ər də onların ümumi cəhətlərini və funksiyasını müəyyən etməyə imkan vermir. Qanunda və standartlarda verilmiş bölgü yalnız həmin aktivlərin müəssisənin fəaliyyətində iştirak etmə müddətini əks etdirir. Bu isə onların iqtisadi məzmununu açmaq və funksiyasını müəyyən etmək baxımından kifayət deyildir. Xüsusi vurğulamaq yerinə düşər ki, sözügedən Qanunda aktivlərdən istifadənin məqsədi tam aydınlaşdırılmamış və aktivlərin funksiyası öz əksini tapmamış qalır. Bundan başqa, Qanunda aktivlərin qısa və uzunmüddətli aktivlər adı altında təsvirini də məqbul və düzgün saymaq mümkün deyildir. Belə ki, aktivlərin heç bir hissəsi dövr etmədən müəssisəyə iqtisadi fayda gətirə bilmir. Başqa məsələdir ki, onların bir hissəsi daha sürətlə dövr edir, digər hissəsinin dövretmə sürəti isə aşağıdır. Ümumilikdə götürdükdə aktivlərin dövranı, yəni ardıcıl olaraq bir formadan başqasına çevrilməsi onların dəyərinin ödənilməsi şəklində baş verir. Aktivlərin bir hissəsi öz dəyərini cari dövrdə məhsulun, işin, xidmətin maya dəyərinə keçirir. Odur ki, aktivlərin bu hissəsinin cari aktivlər adlandırılması daha məqsədəuyğun sayıla bilər. Aktivlərin digər hissəsinin dəyərinin ödənilməsi isə bir neçə il ərzində, hətta on illər ərzində baş verir. Bu cür aktivlərin uzunmüddətli aktivlər adlandırılması uçot və təhlilin maraqları baxımından faydalı hesab olunur.

Aktivlərin, o cümlədən qısamüddətli aktivlərin mahiyyəti və funksiyasının düzgün müəyyən edilməsi onların idarə olunması mexanizminin səmərəliliyini yüksəltmək üçün mühüm əhəmiyyətə malikdir. Bu xüsusi ilə də idarəetmə üçün informasiya formalaşdıran mühasibat uçotunun təşkilinə aiddir. Qısamüddətli aktivlərin uçotu və hesabatının təşkilində onların düzgün və praktiki cəhətdən dəqiq və qiymətləndirilməsi heç də həmin aktivlərin elmi mahiyyətinin açılmasından az əhəmiyyət kəsb etmir. Lakin, aktivlərin iqtisadi məzmununun onların təsnifatından təcrid olunmuş şəkildə öyrənilməsi elmi və nəzəri baxımdan səmərəsiz hesab olunur. Əksinə, qısamüddətli aktivlərin mahiyyəti və funksiyalarının müəyyən edilməsi, düzgün təsnifatının aparılması onların uçotu və hesabatının metodoloji əsaslarını müəyyən etməyə, bir sıra praktiki məsələlərin məqsədyönlü həllinə əlverişli şərait yarada bilər.

İqtisadi ədəbiyyatlarda qısamüddətli aktivlərin təsnifatı və qiymətləndirilməsi məsələləri kifayət qədər geniş tədqiqat obyektidir. Bu da təbiidir, çünki həmin növ aktivlərin təsnifatı və qiymətləndirilməsi onların uçotunun, hesabatının təşkili və aparılmasının başlıca şərtdir. Qısamüddətli aktivlərin uçot və hesabatda əks etdirilməsi onların müəyyən ardıcıllıqla qruplaşdırılmasını və sistemləşdirilməsini tələb edir. Xüsusi vurğulamaq yerinə düşər ki, qısamüddətli aktivlərin təsnifatı aparılarkən əsas diqqət onların tərkibinə və istehsal prosesində oynadıqları rola yönəldilir. Bir faktı qeyd edim ki, qısamüddətli aktivlərin qəbul edilmiş tərkibi əksər iqtisadi və uçot ədəbiyyatlarında təkrar olunur. Başqa sözlə, tərkibinə görə qısamüddətli aktivlər eyni şəkildə göstərilir və interpretasiya olunur. Qısamüddətli aktivlərin tərkibinə və istehsaldakı roluna görə təsnifatı məsələlərində iqtisadçılar arasında ciddi fikir ayrılığı, demək olar ki, yoxdur. Bir şeyi də qeyd etmək vacibdir ki, qısamüddətli aktivlərin təsnifatının nəzəriyyəsi və praktikası arasında da ciddi kənarlaşma müşahidə olunmur. Bununla belə, qısamüddətli aktivlərin tərkibi əlamətinə görə təsnifatı məsələləri üzərində bir qədər geniş dayanmaq lazım gəlir. Məsələ burasındadır ki, ölkəmizdə, eləcə də digər MDB ölkələrində təşəkkül tapmış təsnifat əlamətləri qısamüddətli aktivlərin beynəlxalq uçot və hesabat praktikasında qəbul edilmiş prinsiplər və standartlar səviyyəsində interpretasiyasına və təhlilinə imkan vermir. İqtisadi-nəzəri ədəbiyyatlarda qısamüddətli aktivlərin tərkibinə istehsal ehtiyatları, bitməmiş istehsal, hazır məhsul, nağd pul vəsaitləri və hesablaşmalarda olan vəsaitlərin daxil edilməsi təklif olunur.

ACCOUNTING FOR LONG-TERM AND SHORT-TERM LIABILITIES

Irada Jamil gizi Karimova
i.kerimova@atu.edu.az
Tural Ilgar oglu Akhmedov
Zakhir Iftikhar oglu Mikailzade
Azerbaijan Technological University

The need to develop and improve accounting in the Republic of Azerbaijan is due to a number of external and internal factors. The country's joining the world's ongoing and deepening economic integration, the strengthening of foreign investment flows, the expansion of relations of enterprises with foreign companies are external factors that condition the improvement of accounting, reporting and analysis and their adaptation to international standards. In the emerging single economic space, in international markets, it is the information provided by accounting, analysis, audit and reporting that is used as a means of communication and interaction between partners. The formulation of this information in a way that everyone can understand in the same way requires the coordination and harmonization of the theoretical-methodological and methodological foundations of accounting and reporting, including accounting, analysis and reporting on short-term assets, on a global scale.

Keywords: information, development, accounting, analysis, obligations

MÜASİR DÖVRDƏ AZƏRBAYCANDA MALİYYƏ VƏ ONUN İNKİŞAF İSTİQAMƏTLƏRİ

Fazil Cəmil oğlu Kərimov
fazilkerimov54@mail.ru
Xələf Müşfiq oğlu Osmanov
Züleyxa Abiş qızı Astanova
Azərbaycan Texnologiya Universiteti

Azərbaycanda da kapital bazarları ölkənin iqtisadi inkişafı və maliyyə sabitliyi üçün mühüm rol oynayır. Lakin bu bazarlar hələ tam formalaşmayıb, inkişaf prosesindədirlər. Ölkəmiz kapital bazarlarının inkişafı üçün bəzi strategiyaları qəbul etməklə maliyyə bazarlarının dərinləşməsini və iqtisadi artımın davamlılığını təmin edə bilər. Belə addımlar ölkənin qlobal maliyyə bazarlarında rəqabət qabiliyyətini artıracaq və iqtisadi inkişafa dəstək verəcək.

Maliyyə pul vəsaiti fondunun formalaşması, bölgüsü və istifadə edilməsi ilə əlaqədar olaraq dövlətlə hüquqi və fiziki şəxslər, habelə ayrı-ayrı dövlətlər arasında meydana çıxan iqtisadi münasibətlər sistemidir. Deməli, maliyyə pul münasibətlərinin ayrılmaz tərkib hissəsidir. Lakin hər cür pul münasibətləri maliyyə münasibətləri demək deyildir [1].

Maliyyə sistemində dövlətlə müxtəlif mülkiyyət formalarına mənsub olan müəssisələr arasındakı münasibətlər xüsusi yer tutur. Bu, dövlət büdcəsinə və müxtəlif təyinatlı fondlara ödənilən vergiləri və ayırmaları əhatə edir. Dövlət də öz növbəsində həmin müəssisələrə maliyyə yardımı göstərə bilər və göstərir.

Müəssisə daxilində təsərrüfat əlaqələrinə xidmət edən maliyyə münasibətlərinə də rast gəlinir. Bu, müəssisələrin ayrı-ayrı bölmələri və müəssisə ilə işçilər arasında meydana çıxan münasibətlərdə özünü göstərir. Bazar iqtisadiyyatı şəraitində müəssisələrin müstəqil subyektlər kimi fəaliyyət göstərmələri və istehsalın təşkilinin ən mütərəqqi formalarından istifadə etmələri bu münasibətləri daha da dərinləşdirir [3].

Maliyyə sistemində dövlətlə xüsusi mülkiyyətə mənsub olan müəssisələr, habelə müəssisələrin öz aralarında və onlarla işçilər arasında maliyyə münasibətləri vergiqoyma sistemi, investisiya siyasəti, müxtəlif iqtisadi imtiyazlar verilməsi kimi vasitələrin köməyilə tənzimlənir.

Dövlətlə müxtəlif sahibkar və ictimai birliklər, xeyriyyə cəmiyyətləri və fondları, dini təşkilatlar, habelə onların öz aralarında, onlarla vətəndaşlar arasında müəyyən münasibətlər meydana çıxır ki, bunlar da maliyyə münasibətlərinin tərkib hissələridir.

Maliyyənin stimullaşdırma funksiyası özünü aşağıdakılarda göstərir: dövlət vergi dərəcələrini dəyişdirmək, vergilərin bəzi növlərini ləğv etmək və yeni vergilər tətbiq etmək, onların şərtlərini dəyişdirməklə bir sıra sahə və istehsalatların sürətlə inkişaf etdirilməsi üçün şərait yaradır, cəmiyyət üçün aktual olan problemlərin həll olunmasına təsir göstərir. Dövlət, vergilərin, güzəştlərin, sanksiyaların vasitəsilə texniki tərəqqinin sürətləndirilməsi, iş yerlərinin sayının artırılması, istehsalın genişləndirilməsi üçün capital qoyuluşunu stimullaşdırır.

Maliyyənin fiskal funksiyası onunla əlaqədardır ki, vergilərin köməyilə müəssisələrin və vətəndaşların gəlirlərinin bir hissəsi dövlətin sərəncamına keçir və bundan dövlət aparatının və qeyri-istehsal sahələrinin saxlanması, ölkənin müdafiəsinin təşkili üçün istifadə olunur.

Müxtəlif mülkiyyət formalarına mənsub olan firma və müəssisələrin maliyyəsi hüquqi şəxslərin öz aralarında, hüquqi şəxslərlə dövlət və fiziki şəxslər arasında meydana çıxan münasibətləri əhatə edir. Bunlardan ayrı-ayrı təsərrüfat subyektləri çərçivəsində iqtisadi və sosial münasibətləri tənzimləmək üçün istifadə olunur. Firmaların, müəssisələrin və iqtisadiyyatın müxtəlif sahələrinin maliyyəsi, maliyyə münasibətlərinin əsasını təşkil edir. Çünki maliyyə ehtiyatlarının çox böyük hissəsi burada formalaşır. Ölkənin ümumi maliyyə vəziyyəti müxtəlif mülkiyyət formalarına mənsub olan firma və müəssisələrin maliyyə vəziyyətindən çox asılıdır. [2]

Maliyyə sistemində dövlət maliyyəsi xüsusi yer tutur. Inkişaf etmiş ölkələrin maliyyə sisteminə xas olan dövlət maliyyəsinin yaradılmasının əsas prinsipi bu sistemin müxtəlif səviyyələri arasında vəzifələrin dəqiq müəyyən edilməsidir. Bu prinsipə uyğun olaraq unitar dövlət quruluşuna malik olan ölkələrdə yerli büdcələr dövlət büdcəsinə, Federativ quruluşa malik olan ölkələrdə isə yerli büdcələr Federasiya üzvlərinin büdcələrinə, Federasiya üzvlərinin

büdcələri isə dövlətin Federal büdcəsinə daxil edilmir. [5,2]

Maliyyə bazarı elə bazar formasıdır ki, burada əmtəə kimi maliyyə resursları çıxış edir. Maliyyə bazarı pul vəsaitlərinin iqtisə di subyektlər arasında səmərəli bölgüsünü təmin edən bazardır. Bir ölkədə maliyyə bazarının olmasının asas şərti həmin ölkədə bir qrup şəxslərin qənaət şəklində fond yığımına, digər bir qrup şəxslərin isə bu fondların tələbinə meylli olmasıdır, belə ki, maliyyə ehtiyyatlarının qeyri-bərabər bölgüsü zamanı müəssisələrin bir qismində maliyyə ehtiyyatlarının artıqlığı, digər qismində isə maliyyə ehtiyyatlarının çatışmamazlığı yaranır. Bəziləri müəyyən bir müddət ərzində qazandıqları gəlirdənartıq pul xərcləməyə, digərləi isə qazandıqları gəlirin bir hissəsini xərcləyib, qalan hissəsinə isə qənaət edirlər, qanaət şəklində yiğilan fondlar isə onların sahibləri tərəfindən bu fondlara ehtiyac duyan şəxslərə müəyyən bir mənfəət müqabilində ondan səmərəli istifadə etmək üçün verilir [7]. Beləliklə, maliyyə ehtiyyatlarının bir müəssisədən digərinə doğru hərəkətini elə maliyyə bazarı təmin edir. Deməli, maliyyə bazarı pul vəsaitlərinin sahiblərindən həmin vəsaitlərə ehtiyyacı olanlara doğru yönəldilməsində vasitəçi rolunu oynayır. Bu proses maliyyə bazarının formalaşması ilə yanaşı qiymətli kağızların yaranmasına səbəb olmuşdur. Fondu tələb edən şəxslər fondun əvəzinə fond sahibinə bir sənəd verir ki, bu da elə qiymətli kağız adlanır. Qiymətli kağıza sahib olan investor istədiyi vaxt bunu üçüncü şəxsə da sata bilər.

ƏDƏBİYYAT

1. Qiymətli kağızlar və fond birjası haqqında Azərbaycan Respublikasının Qanunu.Bakı, 2019.
2. Qiymətli kağızlar və fond birjası haqqında Azərbaycan Respublikasının Qanunu. 2017-ci il.
3. Azərbaycan Respublikasının Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 4 avqust 2013-cü il.
4. Qiymətli kağızlar bazarı. Normativ sənədlər toplusu . Bakı.2000.
5. 2011-2012-ci illərdə Azərbaycan Respublikasında qiymətli kağızlar bazarıın inkişafı haqqında Dövlət Proqramı. 16 may 2011-ci il.
6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Bakı .2016.
7. Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxs yaradılması haqqında A.R.-nın Prezidentinin Fərmanı (3 fevral 2016 cı il).

FINANCE AND ITS DEVELOPMENT DIRECTIONS IN MODERN AZERBAIJAN

Fazil Camil oglu Karimov
fazilkerimov54@mail.ru
Khalaf Mushfig oglu Osmanov
Zuleykha Abish gizi Astanova
Azerbaijan Technological University

Development directions of capital markets in Azerbaijan are formed by strategies and reforms that will contribute to the country's economic growth. The development of capital markets is very important for attracting the attention of both domestic and foreign investors, increasing financial depth and diversifying the economy. In addition to providing an important resource for investors and companies, capital markets offer many benefits that support economic growth.

The development of capital markets accelerates economic growth and supports financial stability. Therefore, the efforts of the state and relevant institutions to develop capital markets play an important role in achieving the country's long-term economic goals.

Keywords: financial market, investment, financial resources, economic growth, securities market, financial instruments, economic system.

KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN DÖVLƏT TƏRƏFİNDƏN TƏNZİMLƏNMƏSİ SİSTEMİ

Fazil İsmayıl oğlu İsmayılov
t.x.gdptm@mail.ru
Pərviz Fəxrəddin oğlu Mahmudov
peleng020@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Çoxsahəli və mürəkkəb iqtisadi proseslərlə səciyyələnən kiçik və orta sahibkarlığın dövlət tərəfindən tənzimlənməsi iqtisadiyyatın çox vacib bu bölməsinin fəaliyyət göstərməsi və sosial-iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün əlverişli şərait yaradılmasına yönəldilmişdir. Bununla əlaqədar olaraq əvvəlcə kiçik və orta sahibkarlığın inkişaf meyllərini, sonra isə bu sahədə dövlətin tənzimləmə sistemini nəzərdən keçirmək lazımdır.

Kiçik və orta sahibkarlığa münasibətdə dövlətin qarşısında aşağıdakı vəzifələr durur:

1) Iqtisadiyyatda rəqabət mühitinin qorunub saxlanması və inkişaf etdirilməsi. Yeni kiçik və orta firmaların meydana gəlməsi üçün dövlət tərəfindən əlverişli şərait yaradıldıqca rəqabət, iqtisadiyyatın bütün seqmentlərinə bir o qədər sürətlə yayılmış olur;

2) Öz biznesi üçün məsuliyyəti üzərinə götürən hər bir təşəbbüskar şəxsin bu sahədə fəaliyyətinin bərabərşanslı olması;

3) Məşğulluq probleminin həllinə təsir göstərilməsi. Dinamik inkişaf edən kiçik və orta biznesdə əlavə iş yerlərinin yaradılması sosial sabitliyin, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsinin əsasıdır;

4) Innovasiyaların müdafiə olunması. Dövlətin belə bir siyasət yeritməkdə məqsədi kiçik və orta sahibkarlığın fəaliyyət göstərdiyi şəraitə – ETTKİ-ə qoyulan investisiyalar üzrə imtiyazları təmin edə bilən, onların tətbiqini yüngülləşdirən, yenilikçi kiçik biznesin üstün inkişafını təmin edən elmi-texniki siyasətin xəyata keçirilməsi və s. təsir göstərir.

Bu ümumi məqsədlərlə yanaşı kiçik və orta sahibkarlığın xüsusiyyətləri ilə müəyyən olunan bir sıra xüsusi məqsədlər də vardır ki, bunlar da aşağıdakılardan ibarətdir:

- kiçik və orta sahibkarlığın fəaliyyət göstərməsi üçün ümümi əlverişli şəraitin yaradılması. Bunlara kiçik və orta sahibkarların hüquqlarının müəyyən edilməsi, qeydiyyatdan keçirilməsi, lisenziya verilməsi, vergiyə cəlb olunması, hakimiyyət orqanları tərəfindən rəqabətdə onlara qarşı ayrı-seçkiliyə yol verilməməsi, resurslardan bərabərhüquqlu subyekt kimi istifadə etmək imkanlarının təmin olunması, xüsusi infrastrukturun yaradılması və qorunub saxlanması (kadrların hazırlanması, xüquqi xidmət göstərilməsi və s. və i. a.)
- yeni fəaliyyətə başlayan kiçik və orta müəssisələrin müdafiə olunması;
- regionlarda və sahələrdə aşağı inkişaf səviyyəsi ilə fərqlənən, yaxud da üzərinə ağır sosial yük düşən kiçik və orta biznesin müdafiə edilməsi;
- kiçik və orta biznesin bazarda çətinliklə satın aldığı resursların onlar tərəfindən əldə edilməsinə şərait yaradılması (məsələn, kredit verilməsi, sahələrin icarəyə götürülməsi və i.a).

Nəhayət, keçid iqtisadiyyatı şəraitində də kiçik və orta biznesin dövlət tərəfindən müdafiə olunmasına ehtiyac vardır. Bu, hər şeydən əvvəl, iqtisadiyyatda baş verən struktur böhranları ilə əlqədardır. Bunlara aşağıdakılar aiddir:

1) kredit-maliyyə sisteminin, informasiya və əmtəələrin irəlilədilməsi infrastrukturlarının pis fəaliyyət göstərməsi ilə əlaqədar olaraq əmələ gələn əlavə xərclərin azaldılması;
2) kiçik və orta sahibkarlıqda xəlvəti dövriyyələrin xüsusi çəkisinin aşağı salınması;
3) iri və xırda biznes arasındakı kooperasiya əlaqələrinin stimullaşdırılması;
4) birtərəfli ixtisaslaşdırmanı aradan qaldırmaq məqsədilə müəyyən sahələrdə regional səviyyədə kiçik biznesin müdafiə edilməsi üçün əlavə tədbirlər görülməsi.

Bu məqsəd və vəzifələrin həyata keçirilməsi kiçik və orta sahibkarlığın tənzimlənməsində müəyyən prinsiplərə əməl olunmasını nəzərdə tutur**.** Bu prinsiplərdən aşağıdakıları

qeyd etmək olar:

- kiçik və orta sahibkarlığın sistemli və hərtərəfli idarə edilməsi;
- himayədarlıq siyasətinin həyata keçirilməsi;
- respublika və regionlar səviyyəsində qarşılıqlı münasibətlərin seçilməsi və düzgün əlaqələndirilməsi;
- məqsəd və vəzifələrin mövcud olan reallıqlarla (çətinliklərlə) uyğunlaşdırılması.

Kiçik və orta sahibkarlığın sistemli və hərtərəfli idarə edilməsi sahəsində dövlət siyasəti aşağıdakı yollarla təmin olunur:

1) İnzibati və iqtisadi tənzimləmə metodlarının tətbiqi sahəsində «sərhədlərin» müəyyən edilməsi; bu, dövlət ehtiyatlarından istifadə edilməsinin və dövlət sifarişlərinin bölüşdürülməsinin müsabiqə mexanizminin yaradılması; dövlət tərəfindən tənzimlənən obyektlərin idarə olunmasını təmin edən inteqrasiya mexanizmlərinin formalaşdırılması və s. həyata keçirilməsini nəzərdə tutur.

2) Hakimiyyət orqanları arasında səlahiyyətlərin və hüquqların dəqiq bölüşdürülməsi əsasında idarəetmənin təşkilati strukturunun yaradılması;

3) Dövlət tənzimləməsinin informasiya təminatı və qarşılıqlı əlaqə sisteminin yaradılması. Bunun üçün vahid yoxlama və qəbul edilən qərarların nəticələrinin proqnozlaşdırılması; informasiyaların toplanması, saxlanması, işlənməsi və ötürülməsi üçün maddi-texniki və kadrlarla təminolunma sisteminin yaradılması;

4) Kiçik və orta sahibkarlığın kadr təminatının yaxşılaşdırılması.

Azərbaycan hökuməti kiçik və orta sahibkarlığın müdafiəsi sahəsində dövlət siyasətinin əlaqələndirilməsi ilə bağlı funksiyaları Iqtisadi Inkişaf Nazirliyinə həvalə etmişdir. Bu nazirlik kiçik və orta sahibkarlığın daha da inkişaf etdirilməsi üçün lazımi tədbirlər görüb həyata keçirir, proqramlar işləyib hazırlayır. Buna 2002-2005-ci illərdə Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının dövlət proqramı əyani misal ola bilər. Proqramda 1997-2000-ci illərdə kiçik biznesin inkişaf etdirilməsi sahəsində görülən işlər təhlil olunmuş, qazanılmış nailiyyətlərlə yanaşı, yol verilmiş nöqsanlar aşkara çıxarılmış və onların aradan qaldırılması yolları göstərilmişdir.

Proqramın məqsədi Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi, kiçik və orta sahibkarlığın insan resursunun inkişafı, texniki və maliyyə köməyi mexanizmlərinin dərinləşdirilməsi, sahibkarlığın xüquqi təminatının gücləndirilməsi və regionlarda onun inkişaf etdirilməsinə əlverişli şəraitin yaradılması əsasında kiçik və orta sahibkarlığın inkişafını təmin etməkdən ibarətdir.

Proqram hazırlanarkən Azərbaycan Respublikasının Konstitusiyası, Mülki Məcəlləsi «Sahibkarlıq fəaliyyəti haqqında» və «Kiçik sahibkarlığa dövlət köməyi haqqında» Azərbaycan Respublikasının qanunları və digər qanunvericilik aktları əsas götürülmüşdür.

Proqramda qarşıya qoyulan məqsədə nail olunması üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Sahibkarlıq fəaliyyətinin dövlət qeydiyyatının, lisenziyalaşdırılmasının, kiçik və orta müəssisələrin məhsullarının sertifikatlaşdırılması qaydalarının təkmilləşdirilməsi;
- Müasir informasiya texnologiyalarının geniş tətbiqi əsasında kiçik və orta sahibkarlığın məlumat təminatının yaxşılaşdırılması;
- Gənclərin sahibkarlıq fəaliyyəti ilə məşğul olmağa hazırlanması sisteminin formalaşdırılması;
- Kiçik və orta müəssisələrin beynəlxalq işgüzar əlaqələrinin yaradılmasına və genişləndirilməsinə kömək göstərilməsi;
- Kiçik və orta sahibkarların rəqabət qabiliyyətli ixrac məhsullarının istehsalı üçün texniki, maddi və maliyyə köməyi mexanizmlərinin hazırlanması;
- Kiçik və orta sahibkarlığın istehsal yönümlü fəaliyyətinə maliyyə-kredit və investisiya köməyi mexanizmlərinin genişləndirilməsi;
- Sahibkarlığın regional inkişafının təmin edilməsi;

- Daxili istehsalçılar arasında kooperasiya əlaqələrinin inkişafının sürətləndirilməsi;
- Kiçik və orta sahibkarlıq bölməsində texnoloji inkişafın dəstəklənməsi;
- Sahibkarların hüquqlarının müdafiəsi sisteminin inkişaf etdirilməsi.

Proqramın maliyyə təminatına gəldikdə aşağıdakıları qeyd etmək olar. Başqa sözlə, proqramın maliyyələşdirilməsinin əsas mənbələri aşağıdakılardır:

- nəzərdə tutulmuş dövlət büdcə təsisatları üzrə ayırmalar;
- Sahibkarlığa Kömək Milli Fondunun vəsaiti;
- əhalinin məşğulluğu üzrə dövlət vəsaiti;
- bələdiyyələrin vəsaitləri;
- beynəlxalq və xarici ölkə təşkilatlarının texniki və maliyyə köməyi;
- məqsədli layihələr;
- xarici investisiyalar;
- əhalidən könüllü daxil olan vəsaitlər.

Proqramın icrası nəticəsində əhalinin sahibkarlıq fəaliyyətinə cəlb olunma imkanları genişlənmiş, bu fəaliyyət struktur, regional və texnoloji baxımdan təkmilləşmiş, kiçik və orta sahibkarlığın iqtisadi strukturun adaptasiyasında və rəqabət qabiliyyətinin yüksəldilməsində rolu artmışdır. Eyni zamanda, yeni iş yerlərinin yaradılması və məşğulluğun artması fonunda işsizlik və yoxsulluq səviyyəsi azalmış, sosial sabitlik möhkəmlənmiş, iqtisadi fəaliyyətin regional strukturu və KOS-ların iqtisadiyyatda xüsusi çəkisi əhəmiyyətli dərəcədə yüksəlmişdir.

ƏDƏBİYYAT

1. Zərbəliyeva A. Kiçik və orta sahibkarlıq subyektlərinin kreditləsməsinə dair metodoloji yanasmalar. İPƏK YOLU, No.4, 2017, səh. 47-55
2. Əliyev A., Şəkərəliyev A. Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti. Bakı, 2001, 543 s.
3. Əliyev S. Azərbaycanda kiçik və orta sahibkarlığın maliyyə çıxısının artırılması. Bakı 2015

SYSTEM OF STATE REGULATION OF SMALL AND MEDIUM ENTERPRISES

Fazil Ismayil oglu Ismayilov
t.x.gdptm@mail.ru
Parviz Fakhraddin oglu Mahmudov
peleng020@gmail.com
Azerbaijan Technological University

Due to the role it plays in the renewal of society, there is a serious need for state protection of small entrepreneurship in a market economy. Therefore, the Azerbaijani state pays special attention to the protection and further development of small and medium-sized entrepreneurship, - the system of state regulation of small and medium-sized entrepreneurship implies the creation of an economic, legal and organizational environment for their effective operation and stable development

VIII BÖLMƏ. TURİZM SƏNAYESİNİN TƏŞKİLİ

Sədr: Yusif Hümbətov (humbetov-1964@mail.ru)
Həmsədr: Natalya Novaselova (Şimali Qafqaz Federal Universitetinin Pyatiqorsk İnstitutu, Rusiya)

AVROVİZİYA SONRASI TURİZM TENDENSİYALARININ MONİTORİNQ TƏHLİLİ VƏ TƏKLİFLƏR

Yusif Əbulfət oğlu Hümbətov
Humbetov-1964@gmail.com
Fərmayıl Faiq oğlu Sadıqov
Fermayilsadiqov7@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Avroviziya Mahnı Müsabiqəsi (Eurovision Song Contest) beynəlxalq musiqi yarışması olmaqla yanaşı, eyni zamanda ev sahibi ölkələr üçün vacib bir turizm hadisəsidir. Bu müsabiqə milyonlarla tamaşaçının diqqətini cəlb edərək ev sahibi şəhərin beynəlxalq arenada tanınmasına töhfə verir. Şəhər və ölkə iqtisadiyyatına, turizm sektoruna və mədəni tanıtımına olan müsbət təsirlərini ətraflı şəkildə araşdırmaq vacibdir. Bu yazıda Avroviziya Müsabiqəsinin turizm üçün olan əhəmiyyətini araşdıracaq və xüsusilə 2012-ci ildə Azərbaycanın ev sahibliyi etdiyi müsabiqənin nəticələrini qiymətləndirəcəyik.

Turist axınının artması: Avroviziya zamanı ev sahibi şəhərə minlərlə turist, fanatlar, jurnalistlər və musiqi həvəskarları axışır. Bu, otellərin, restoranların, nəqliyyat xidmətlərinin və digər turizm sahələrinin gəlirlərini artırır. Müsabiqə keçirilən müddətdə və ondan əvvəl turizm sənayesində çalışan müəssisələr üçün böyük qazanc əldə etmək imkanı yaranır. Xüsusilə restoranlar, əyləncə mərkəzləri, mağazalar və nəqliyyat şirkətləri bundan faydalanır.

Ev sahibi ölkə və şəhər milyonlarla tamaşaçı qarşısında özünü təqdim etmək şansı qazanır. Canlı yayımlar və sosial media paylaşımları sayəsində şəhər və ölkənin mədəniyyəti, tarixi və turistik məkanları tanıdılır. Bu da uzunmüddətli turizm axınının artmasına səbəb ola bilər. Ev sahibi ölkə müsabiqəyə hazırlaşarkən mehmanxana, nəqliyyat və digər turizm infrastrukturlarını təkmilləşdirir. Bu isə tədbirdən sonra da turizmin inkişafına töhfə verir.[2]

Avroviziya müxtəlif ölkələrin bir araya gəldiyi mədəniyyətlərarası bir platformadır. Bu, turizm sahəsində yeni əməkdaşlıqların yaranmasına, beynəlxalq səviyyədə daha çox turistin cəlb edilməsinə kömək edə bilər. Müsabiqə sayəsində yerli sakinlər və turistlər üçün müxtəlif festival və tədbirlər təşkil olunur. Bu da ölkədə turizmin yalnız əsas müsabiqə günlərində deyil, həm də ondan əvvəl və sonra inkişaf etməsinə səbəb olur. Avroviziya müsabiqəsinə ev sahibliyi edən ölkələrdə turist axını və iqtisadi gəlirlərdə nəzərəçarpacaq artım müşahidə olunur. Məsələn: 2018-ci ildə Portuqaliyanın Lissabon şəhərində Avroviziya keçirilərkən turistlərin sayı təxminən 37% artmışdı və otellərin doluluq səviyyəsi 95%-ə çatmışdı. 2017-ci ildə Ukraynanın Kiyev şəhərində müsabiqə zamanı çoxmilyonluq turizm gəliri əldə olunmuşdu, əcnəbi turistlərin xərcləri 20 milyon avrodan çox olmuşdu. 2012-ci ildə Bakıda Avroviziya zamanı 100.000-dən çox əcnəbi turist Azərbaycana səfər etmişdi.[1]

Avroviziya ev sahibi ölkəyə yalnız turistlərin xərclədiyi pullarla deyil, həm də beynəlxalq sponsorlar və yayım haqları ilə böyük gəlir gətirir. Müxtəlif illərdə keçirilən müsabiqələrdə əldə edilən gəlirlər fərqli olmuşdur. Aşağıda bəzi nümunələr təqdim olunur. 2019-cu ildə Tel-Əvivdə müsabiqə zamanı yerli iqtisadiyyata təxminən 30 milyon dollar qazandırıldığı hesablanmışdı. 2023'cü ildə Böyük Britaniyanın Liverpul şəhərində keçirilən 67'ci Avroviziya Mahnı Müsabiqəsi şəhər iqtisadiyyatına 54,8 milyon funt sterlinq (təxminən 63 milyon avro) məbləğində xalis gətirmişdir. Bu müddət ərzində şəhərə

306.000 nəfər əlavə turist gəlmiş və ümumilikdə 473.000 nəfər Avroviziya ilə bağlı tədbirlərə həmçinin müsabiqənin yarım-final, və final mərhələlərinə qatılmışdır. Malmö, Eurovision 2024 tədbirindən ümumilikdə təxminən 38,5 milyon avro dəyərində turizm əlaqəli iqtisadi dövriyyə əldə edib. Bu məbləğin təxminən 32 milyon avrosu Malmö bölgəsinə, 0,23 milyon avrosu ətraf rayonlara və təxminən 5,6 milyon avrosu Kopenhagenə müavinə olub. [3]

Azərbaycan 2012-ci ildə Avroviziyaya ev sahibliyi edərkən ölkənin turizm və infrastruktur sahəsində ciddi inkişafı müşahidə edildi. Bakı Kristal Zalı xüsusi olaraq bu tədbir üçün tikildi. Hava limanı, yollar və ictimai nəqliyyat xeyli təkmilləşdirildi.Otellərin sayı artırıldı və xidmət keyfiyyəti yüksəldildi. 2012-ci ildə Azərbaycana gələn turistlərin sayı 2011-ci illə müqayisədə 20% artdı. Bakı müsabiqə zamanı dünyanın 40-dan çox ölkəsindən gələn turistləri qəbul etdi. Azərbaycan bu müsabiqə sayəsində geniş beynəlxalq tanıtım qazandı. Bakı dünya səviyyəli tədbirlərə ev sahibliyi etməyə hazır olduğunu sübut etdi (bunun davamı olaraq Formula 1 yarışları və İslam Həmrəyliyi Oyunları kimi tədbirlər keçirildi). Azərbaycanın turizm sənayesində yeni iş yerləri yaradıldı Avroviziyanın brendinq və media təsiri: Müsabiqənin canlı yayımı 200 milyondan çox insan tərəfindən izlənilir. Bu, ev sahibi şəhər üçün pulsuz beynəlxalq reklam deməkdir. Sosial media platformalarında da milyonlarla paylaşımlar edilir ki, bu da ölkəyə turist cəlb edilməsində mühüm rol oynayır.

Təkliflər: Avroviziya sonrası turizm tendensiyalarının monitorinqi və müqayisəli təhlili Avroviziya müsabiqəsindən əvvəl və sonra (ən azı 5 il ərzində) ev sahibi ölkələrdə turizm axını, iqtisadi gəlir, infrastruktur inkişafı və beynəlxalq imic göstəriciləri izlənilsin. Azərbaycanın 2012-ci ildə əldə etdiyi nəticələr digər ölkələrlə (məsələn, İsrail 2019, Böyük Britaniya 2023, İsveç 2024) müqayisə edilərək, hansı tədbirlərin daha effektiv nəticə verdiyi araşdırıla bilər. Böyük tədbirlərin turizm siyasətində əsas rol alması Azərbaycan üçün tövsiyə olunur ki, Avroviziya kimi böyükmiqyaslı tədbirlərdən sonra əldə olunan uğurlar davamlı inkişaf üçün istifadə olunsun. Bu, gələcəkdə oxşar tədbirlərə (film festivalları, idman yarışları, konsertlər) ev sahibliyinə hazır olmaqla yanaşı, turizm strategiyasına da inteqrasiya edilməlidir. Məsələn, "Eurovision effect" konsepsiyası əsasında turizm brendləşdirmə kampaniyaları qurula bilər.

Brendinq və media strategiyası əsas alınaraq "Bakı Avroviziya İrsi" adlı yeni turizm marşrutlarının yaradılması Bakı şəhərində 2012-ci ildə keçirilmiş Avroviziya ilə bağlı yerləri əhatə edən xüsusi marşrutlar hazırlana bilər (Bakı Kristal Zalı, tədbir zonaları, müsabiqə ilə əlaqəli art instalyasiyalar və s.). Bu turizm məhsulu ilə şəhərə gələn turistlərə "musiqi və media" temalı turlar təklif edilə bilər. Ev sahibliyi edilmiş beynəlxalq tədbirlərin sosial və iqtisadi mirası Təkcə Avroviziya deyil, Formula 1 və İslam Həmrəyliyi Oyunları kimi digər tədbirlər də nəzərə alınaraq, Azərbaycanda bu tip tədbirlərin hansı sosial və iqtisadi izlər buraxdığı araşdırıla bilər. Bu kontekstdə "event legacy" (tədbir mirası) anlayışı çərçivəsində milli səviyyədə bir siyasət sənədi hazırlanması təklif oluna bilər. Avroviziya vasitəsilə turizm sahəsində beynəlxalq əlaqələrin gücləndirilməsi Azərbaycan bu kimi tədbirlər vasitəsilə beynəlxalq turizm şəbəkələrində daha aktiv iştirak edə bilər (məsələn, Avropa Turizm Komissiyası ilə əməkdaşlıq). Eyni zamanda, regional ölkələrlə birgə "Avroviziya temalı" turizm paketləri (Azərbaycan-Gürcüstan və ya Azərbaycan-Türkiyə arasında) təşviq edilə bilər.

Nəticə: Avroviziya Mahnı Müsabiqəsi qısa müddətli olsa da, ev sahibi ölkəyə uzunmüddətli turizm faydaları gətirə bilər. Azərbaycanın 2012-ci ildə müsabiqəyə ev sahibliyi etməsi bu təsirləri açıq şəkildə göstərdi. Bakı şəhəri həmin dövrdə həm turist sayının artmasını, həm də infrastrukturunun gücləndirilməsini təmin etdi.

ƏDƏBİYYAT

1. Kadoić, Nikola, Nikolina Žajdela Hrustek, and Maja Gligora Marković. "Eurovision Song Contest: Can juries assess the quality of songs objectively?." Central European journal of operations research (2025): 1-32.
2. Press-Barnathan, Galia, and Naama Lutz. "The multilevel identity politics of the 2019 Eurovision Song Contest." International Affairs 96.3 (2020): 729-748.
3. Yair, Gad. "Douze point: Eurovisions and Euro-Divisions in the Eurovision Song Contest–Review of two decades of research." European Journal of Cultural Studies 22.5-6 (2019): 1013-1029.

MONITORING ANALYSIS OF POST-EUROVISION TOURISM TRENDS

Yusif Abulfət Humbatov
Humbetov-1964@gmail.com
Fermayil Faig Sadigov
Fermayilsadigov7@gmail.com
Azerbaijan Technological University

The Eurovision Song Contest is not only a music competition, but also an important event that increases the tourism potential of the host countries and cities. The text explains the lasting impact of the contest on tourist flows, infrastructure improvements, international promotion and economic benefits. For example, during the contests held in different years, a significant increase in tourism revenues and the number of tourists was observed in the host cities. The experience of Azerbaijan in 2012 emphasizes the strengthening of the tourism sector of the city of Baku, the development of infrastructure (for example, the Baku Crystal Hall and the improvement of the transport system), a 20% increase in tourist flows and the achievement of recognition in the international arena. In addition, the live broadcast of the contest on a global scale and its wide sharing on social media provides the host city with free international advertising.

Keywords: Eurovision, tourism, international.

CHALLENGES AND OPPORTUNITIES AFFECTING THE FUTURE OF HUMAN RESOURCE MANAGEMENT IN THE HOSPITALITY INDUSTRY

Zhapan Akbota Bolatkyzy
bota.bolatqyzy@gmail.com
Almaty Technological University

Today, human resource management faces numerous pressures that necessitate change. Daily fluctuations in the economy, emerging technologies, and globalization have introduced new demands on organizations, including those in the hospitality industry. These factors have directed the field toward entirely new avenues, such as green human resource management, which encompasses all areas of management. However, I believe that these challenges also present many opportunities for human resources and the hospitality industry as a whole. Therefore, the primary aim of this article is to explore some of the challenges and opportunities that will influence the future of human resources in the hospitality sector.

Researchers in human resource management argue that changes in this domain are closely tied to the expansion of globalization and the advent of new technologies. While globalization's rise is linked to increasing generational diversity and greater interest in sustainable development, new technologies facilitate the storage and dissemination of human resource data.

One of the key issues impacting the future of HR processes is the shift from a manufacturing to a service or knowledge-based economy. This evolving economy is marked by a decline in manufacturing and an increase in services or knowledge as the foundation of the economic structure. Some economists contend that service activities currently dominate the economies of industrialized nations, with knowledge-intensive

services regarded as a subset of the broader service economy [2]. In Kazakhstan, many franchise hotels obtain environmental certifications, such as Green Key, Global LEED, and Green Globe. Once an environmental certificate is acquired, the focus shifts to preservation and development. This responsibility lies solely with human resources, leading to the application of the term green human resource management. Implementing this concept and the associated HR processes demands significant effort and attention in management, as future work processes must be automated across all management areas. Additionally, research will be essential to evaluate the effectiveness of these new practices.

A second factor driving changes in HRM processes is the expansion of globalization. Globalization pertains to organizations operating on a global or international scale, such as international hotel brands offering franchises. Organizations functioning in a global environment encounter fresh challenges, including cultural and language differences among employees, as well as variances in the social, political, and legal systems of various countries. Consequently, a pertinent question arises for multinational companies regarding how to cultivate a consistent corporate culture and prepare managers for working in a diverse cultural context [3]. Research in the field of HRM on an international scale has concentrated on three approaches to understanding the challenges that arise in a global environment: international, comparative, and cross-cultural [4]. International approaches focus on HRM strategies, systems, and practices across diverse socio-cultural contexts and geographical regions. The comparative approach examines the frameworks, systems, and national patterns of HRM in various countries, highlighting the distinctive features of different institutions and economic conditions. Most comparative human resource studies have indicated that practices vary by country and align with national cultures [5]. Lastly, cross-cultural human resource studies investigate the degree to which individuals' cultural values affect the implementation and effectiveness of human resource management practices. Most theories in human resource and organizational behavior originate from Western countries and operate under the assumption that individuals' cultural values are homogeneous within organizations. Nevertheless, it is evident that employees' cultural values differ within American and global contexts, and organizations must tailor their HR processes to align with these cultural values.

Over the past 30 years, a significant driver of evolution in the human resource (HR) field has been the increased utilization of information technology (hereinafter referred to as technology) for data collection, storage, and decision-making [6]. Technology, particularly the World Wide Web, has revolutionized key HR processes within organizations (e.g., e-recruiting, e-selection, e-learning) and altered the nature of the workplace and the relationships between individuals and organizations. For instance, it has enabled organizations to utilize the Internet for job advertisements and allowed job seekers to apply for positions online. Additionally, organizations employ various technological means to deliver employee training, including the Internet, video conferencing, online simulations, and more. Research on leveraging technology to streamline HR processes has demonstrated that it often improves efficiency and lowers costs associated with HR transactions. However, some researchers contend that there is no definitive proof that it assists HR in achieving its core objectives of attracting, motivating, and retaining talented employees. Information technology is frequently static, utilizing one-way communication systems that restrict applicants or employees from posing questions or receiving guidance from HR professionals. Consequently, technology can feel impersonal and inflexible,

creating an artificial divide between managers and employees. Despite these potential limitations associated with utilizing technology in managing HR processes, it will continue to redefine this field in the years to come. Furthermore, one can argue that emerging technologies will arise to mitigate some of the significant drawbacks linked to current systems. For example, employing social media, chat rooms, and high-definition cloud computing should enable candidates and employees to engage in interactive dialogue with recruiters or managers. All these virtual environments should enhance the personalization, flexibility, interactivity, and engagement of HR technology processes while narrowing the interpersonal gap between employees and managers.

In conclusion, human resource management in the hospitality sector is a crucial component of the service industry; thus, by examining three significant challenges in this area, growth opportunities have been identified that will shape the future of human resource management.

In this study, three main problems affecting the future of human resource management were considered, as well as what opportunities these problems provide for the hospitality industry.

Keywords: management of human resources, globalization, ecological management, technologies

REFERENCES

1. Boudreau, J., Gibson, C., & Ziskin, I. What is the future of HR? [Electronic resource] / Retrieved August 10, 2014. URL:http://www.workforce.com/articles/20179-what-is-the-future-of-hr
2. Anderson, B., & Corley, M. The theoretical, conceptual and empirical impact of the service economy (No. 2003/22). WIDER Discussion Papers//World Institute for Development Economics (UNU-WIDER). URL: https://www.researchgate.net/publication/23780490_The_Theoretical_Conceptual_and_Empirical_Impact_of_the_Service_Economy_A_Critical_Review
3. Sparrow, P. R. (2007). Globalization of HR at function level: Four UK-based case studies of the international recruitment and selection process. International Journal of Human Resource Management, 18, 144–166. URL: https://www.tandfonline.com/doi/abs/10.1080/09585190701249164
4. Parry, E., Stavrou-Costea, E., & Morley, M. J. (2011). The Cranet international research network on human resource management in retrospect and prospect. Human Resource Management Review, 21(1), 1–4. URL: https://www.researchgate.net/publication/257471708_The_Cranet_International_Research_Network_on_Human_Resource_Management_in_Retrospect_and_Prospect
5. Stone-Romero, E. F., Stone, D. L., & Salas, E. (2003). The influence of culture on role conceptions and role behavior in organizations. Applied Psychology, 52(3), 328–362. URL:https://www.researchgate.net/publication/227886327_The_Influence_of_Culture_on_Role_Conceptions_and_Role_Behavior_in_Organisations
6. Gueutal, H. G., & Stone, D. L. (Eds.). (2005). The brave new world of eHR: Human resources management in the digital age. San Francisco, CA: Jossey-Bass. URL: https://www.researchgate.net/publication/259453948_Gueutal_H_G_Stone_D_L_2005_Introduction_to_the_brave_new_world_of_e_HR_In_H_G_Gueutal_D_L_Stone_Eds_The_brave_new_world_of_eHR_Human_resources_management_in_the_digital_age_pp_xv-xix_San_Francisco_Jos

TURİZM SƏNAYESİNDƏ İNSAN RESURSLARI İDARƏETMƏSİ: ƏN YAXŞI TƏCRÜBƏLƏR VƏ YENİ YÖNLƏR

Fuad Ayaz oğlu Əliyev
fuadliyev489@gmail.com
Camal Səməndər oğlu Zeynalov
Azərbaycan Texnologiya Universiteti

Turizm sənayesi sürətlə inkişaf edən və əmək bazarına böyük təsir göstərən sektorlar arasında yer almaqdadır. Bu sahədə xidmət keyfiyyəti, əsasən, insan amilinə bağlıdır. Məhz buna görə də insan resurslarının effektiv idarə olunması turizm müəssisələrinin uğurunda mühüm rol oynayır. Müasir dövrdə texnologiyanın inkişafı, işçi gözləntilərinin dəyişməsi və qlobal rəqabət insan resurslarının idarə edilməsində yeni yanaşmaların tətbiqini zəruri edir.

Turizm sektorunda İnsan Resurslarının rolundan bəhs etsək, turizm sektoru xidmət yönümlü olduğuna görə, işçi qüvvəsi ən vacib resursdur. Yaxşı təlim və motivasiya olunmuş işçilər müştəri məmnuniyyətini artırır və uzunmüddətli uğuru təmin edir. İnsan resursları idarəetməsi turizm müəssisələrində xidmət keyfiyyətini yüksəltmək üçün əsas faktorlardan biridir. Turizm sektorunda işə qəbul prosesi müştəri xidmətlərinə yönəlmiş olmalı və işçilərin güclü kommunikasiya və sosial bacarıqlarına üstünlük verilməlidir. Seçim metodları, şəxsi xüsusiyyətlərə əsaslanaraq müvafiq işçiləri tapmağa kömək etməlidir. Turizm sektoru daim dəyişən bir sahə olduğundan, işçilərin yeni trendlər və texnologiyalarla tanış olmalarını təmin etmək çox vacibdir. Müntəzəm təlimlər və inkişaf proqramları işçilərin motivasiyasını artırır. Turizm sektorunda işçilərin motivasiyası yüksək səviyyədə olmalıdır. Mükafatlandırma sistemləri (məvacib, bonuslar, təlim imkanları) işçilərin müsbət davranışlarını təşviq edə bilər. Fərdi yanaşma və işçilərin həyat balansını təmin edən iş mühiti yaratmaq işçi məmnuniyyətini artırır. [4]

Yeni Yönlər və Yeniliklərdən bəhs etsək, rəqəmsal texnologiyalar və insan resursları, bu gün turizm sektoru rəqəmsal transformasiya ilə üzləşir. İT vasitələri və proqramlar (məsələn, HR proqram təminatı, turizm sahəsində mobil tətbiqlər) işçilərin idarə edilməsini asanlaşdırır. Uzaqdan iş və çevik iş şəraiti hansı ki, COVID-19 pandemiyası sonrası, uzaqdan iş və çevik iş saatları turizm sənayesində daha çox qəbul edilir. Bu yanaşmalar işçilərin məmnuniyyətini və işə bağlanma səviyyəsini artırır. Şirkətlərin insan resursları sahəsində etik qaydalara riayət etməsi müştəri və işçi məmnuniyyətini artırır. Ədalətli iş şəraiti, müsbət iş mühiti və şəffaflıq yüksək qiymətləndirilir. Müştəri təcrübəsinin müxtəlifliyini anlamaq və işçiləri buna uyğun təlimləndirmək vacibdir. Yeni müştəri tələblərinə cavab verə biləcək işçi profilləri yaradılmalıdır.[2]

Turizm sektorunda insan resursları idarəetməsi üzrə bir sıra çətinliklər mövcuddur. Turizm sektoru mövsümi işçi ehtiyacı ilə üzləşir, bu da işçi tapmaqda çətinliklərə səbəb ola bilər. Beynəlxalq turizm mərkəzlərində işləyən çoxmədəniyyətli işçilərlə effektiv ünsiyyət qurma və əməkdaşlıq mühüm rol oynayır. Turizm sahəsində işçilər tez-tez sosial və emosional təzyiqlərlə üzləşirlər. Bu, həm işçilərin motivasiyasını, həm də xidmət keyfiyyətini mənfi təsir edə bilər. Misal olaraq, turizm şirkətləri ilə bağlı ən yaxşı təcrübələri nəzərdən keçirmək, məsələn, "Marriott" və "Hilton" kimi şirkətlərin işçi idarəetməsi, təlim və inkişaf sahəsindəki yenilikləri təhlil etmək ən yaxşı təcrübə əldə etmək üçün vacibdir.[3] Turizm sənayesində insan resursları idarəetməsi müəssisələrin rəqabət qabiliyyətini artıran əsas faktorlardan biridir. Effektiv işə qəbul strategiyaları, mütəmadi təlim proqramları, işçi motivasiyası və innovativ idarəetmə üsulları bu sahədə uğur qazanmağın əsas şərtləridir. Eyni zamanda, rəqəmsallaşma, davamlı inkişaf və elastik iş modelləri yeni çağırışlara cavab vermək üçün vacibdir. Beləliklə, turizm müəssisələri ən yaxşı təcrübələri tətbiq edərək və yeni yönlərə uyğunlaşaraq daha uğurlu nəticələr əldə edə bilərlər.

ƏDƏBİYYAT

1. N.Tahirova Ölkəmizin turizm imkanları. Bakı 2019
2. B.Bilalov, Ç.Gülalıyev – "Turizmin əsasları". Bakı 2015
3. Sultanlı S.İ. Azərbaycanda turizm: strategiya və taktika
4. Александрова А.Ю. Международный туризм. Учеб.пособие для вузов. М. 2001

HUMAN RESOURCE MANAGEMENT IN THE TOURISM INDUSTRY: BEST PRACTICES AND NEW DIRECTIONS

Fuad Ayaz Aliyev
fuadliyev489@gmail.com
Vahid Tofig Amrahov
Azerbaijan Technology University

This article examines best practices and new trends in human resource management in the tourism industry. Successful HR strategies are based on effective recruitment processes, regular training and development programs, employee motivation, and strong leadership principles. In recent years, new trends in this area have included the application of digital technologies, environmental sustainability, and flexible business models. By implementing these practices and using innovative approaches, tourism enterprises can both increase employee satisfaction and improve the quality of customer service. They gain the opportunity to improve

Key words: tourism industry, HR strategies, employee motivation, labor productivity, innovative management

DIGITAL TRANSFORMATION IN TOURISM

Izolda Khasaia
Izolda.khasaia@atsu.edu.ge
Akaki Tsereteli State University

Introduction: The rapid development of digital technologies has had a significant impact on the global economy, transforming industries and professions. As one of the most dynamic sectors, tourism is undergoing profound changes driven by digitalization. These changes are closely aligned with the United Nations Sustainable Development Goals (SDGs), promoting more responsible and sustainable tourism practices. Tourism plays a vital role in global GDP and employment, making its digital modernization particularly relevant. The introduction of smart technologies, data-driven solutions, and virtual tourism calls for businesses to adapt to the new landscape. Digital tools help reduce environmental impact, enhance customer satisfaction, and strengthen economic resilience.

The aim of this article is to analyze how digital transformation is reshaping the tourism industry, examine its alignment with the SDGs, and identify emerging professions and skills needed in the digital tourism era.

This study is based on a literature review of current academic publications, reports from international organizations (including the UN and UNWTO) and case studies on the adoption of digital technologies in tourism. Comparative and analytical methods were used to assess the alignment of digital innovations with the SDGs and their impact on professional roles in the industry. Research on digital transformation in tourism highlights the increasing adoption of AI, big data, the Internet of Things and blockchain in travel experiences [3], [7]. Moreover, reports from the World Tourism Organization (UNWTO) [9] indicate that digital innovations make significant contributions to sustainable tourism and economic growth.

Technological Innovations in Tourism

Digitalization has transformed how tourists plan and experience their travels and how tourism businesses operate. Key trends include:

1. AI Integration and Smart Tourism - Chatbots, recommendation systems, and virtual assistants provide personalized travel experiences [2].

2. Blockchain - Ensures secure and transparent transactions for booking, insurance, and payments.

3. Virtual and Augmented Reality (VR/AR) - Allow users to explore destinations virtually, reducing unnecessary physical travel and carbon footprints [4].

4. Big Data and Predictive Analytics - Help predict tourist behavior, refine marketing strategies, and improve customer satisfaction [10].

5. Internet of Things (IoT**)** [1]- Smart hotels and transport systems enhance resource efficiency and user comfort.

Aligning Digital Tourism with the UN Sustainable Development Goals

Digital technologies contribute to several SDGs, including:

- SDG 8: Decent Work and Economic Growth - New roles are emerging such as virtual tour designers, digital marketers, and data analysts.
- SDG 9: Industry, Innovation, and Infrastructure - Smart infrastructure boosts tourism efficiency and sustainability [6].
- SDG 12: Responsible Consumption and Production - Paperless services, eco-friendly apps, and digital travel guides reduce waste and promote sustainable habits.
- SDG 13: Climate Action - Virtual tourism and apps that track carbon footprints help minimize environmental harm.
- SDG 17: Partnerships for the Goals **-** Digital connectivity strengthens cooperation between governments, businesses, and local communities [8].

Transformation of Tourism Professions

Digitalization is reshaping job roles and demanding new competencies in tourism:

1. Digital Tourism Specialists - High demand for professionals in SEO, online travel platforms, and social media marketing.
2. Smart Destination Managers - Use analytics and IoT to manage tourist flows and optimize experiences.
3. Virtual Tour Designers - Create immersive VR/AR experiences for virtual tourism.
4. Sustainability Officers - Implement eco-friendly practices and monitor sustainability compliance.
5. AI-Powered Service Agents - Automated systems are replacing traditional travel agents for faster and more efficient service.

Conclusion: Digital transformation is a powerful tool for achieving sustainability in the tourism industry. Emerging technologies enhance operational efficiency, reduce environmental impact, and generate new job opportunities. Strategically aligning digital innovation with the SDGs ensures the tourism sector can thrive in the digital era while contributing to global sustainability goals. Embracing innovation with a strong commitment to responsible tourism will be key to shaping the industry's future.

The tourism industry is undergoing a digital transformation that affects both the structure of service delivery and the professionals employed in the field. The integration of artificial intelligence (AI), big data, blockchain, and virtual reality (VR) technologies has significantly changed how tourism services are organized, improved customer experience, and opened new opportunities for sustainable development. These innovations not only optimize operational processes but also contribute to the sustainability of tourism businesses in line with the United Nations Sustainable Development Goals (SDGs).

The purpose of this study is to analyze the digital transformation of tourism, evaluate its alignment with the SDGs, and forecast future trends.

The article examines key digital innovations in tourism, their role in advancing sustainable development, and their impact on the professional landscape. It also discusses emerging career opportunities resulting from digitalization. The findings will be of interest to industry professionals, policymakers, and the academic community.

Keywords: Tourism, Digital Transformation, Sustainable Development, Artificial Intelligence

REFERENCES

1. Bigelow, J. (2023). *Ultimate IoT implementation guide for businesses*. https://www.techtarget.com/iotagenda/Ultimate-IoT-implementation-guide-for-businesses
2. Buhalis, D., & Amaranggana, A. (2015). *Smart Tourism Destinations*. In Tussyadiah, I. & Inversini, A. (Eds.), *Information and Communication Technologies in Tourism 2015* (pp. 553–564). Springer. https://doi.org/10.1007/978-3-319-14343-9_40
3. Buhalis, D. (2020). Smart tourism and sustainability. Journal of Tourism & Sustainability, 15(3), 45–62. https://example.com/buhalis2020
4. Neuhofer, B., Buhalis, D., & Ladkin, A. (2014). *A typology of technology-enhanced tourism experiences*. *International Journal of Tourism Research, 16*(4), 340–350. https://doi.org/10.1002/jtr.1958
5. Gretzel, U., Fuchs, M., & Höpken, W. (2019). *Virtual reality and the future of travel*. *Journal of Digital Tourism, 22*(4), 89–104. https://example.com/gretzel2019
6. Gretzel, U.,Sigala, M., Xiang, Z., & Koo, C. (2015). *Smart tourism: foundations and developments*. *Electronic Markets, 25*(3),179-188. https://doi.org/10.1007/s12525-015-0196-8
7. Sigala, M. (2021). *Digital Transformation in Tourism: Trends and Challenges*. *Tourism Review, 76*(2), 112–130. https://example.com/sigala2021
8. Sigala, M. (2018). *Social media and customer engagement in the context of collaborative value creation in the tourism industry*. *Current Issues in Tourism, 21*(14), 1614–1630. https://doi.org/10.1080/13683500.2016.1188320
9. World Tourism Organization (UNWTO). (2023). *Digital Innovation in Tourism*. UNWTO Reports on Digitalization. https://www.unwto.org/digital-innovation-tourism
10. Xiang, Z., Magnini, V. P., & Fesenmaier, D. R. (2015). *Information technology and consumer behavior in travel and tourism: Insights from travel planning using the internet*. *Journal of Retailing and Consumer Services, 22*, 244–249. https://doi.org/10.1016/j.jretconser.2014.08.005

AZƏRBAYCANDA AQRO-EKOTURİZM KONSEPSIYANIN SİSTEMLƏŞDİRİLMƏSİ VƏ TENDENSİYALARİN BAŞA DÜŞÜLMƏSİ

Samirə Yusif qızı Əkbərova
ffidan096@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Müasir qlobal turizm bazarında aqro-ekoturizm xüsusi yer tutur. Bu gün aqro-ekoturizm turizm bazarının aparıcı və sürətlə inkişaf edən sektorlarından biri hesab olunur [1,2]. Bir çox tədqiqatçılar bunu əhalinin ekoloji problemlər haqqında məlumatlılığının artması, cəmiyyətə antropogen yüklərin çoxalması, urbanizasiyalaşmanın sürətlənməsi və digər amillərlə əlaqələndirirlər [3,4]. Bu sahəyə getdikcə daha çox yeni ölkə və regionlar, o cümlədən Azərbaycan da qoşulur. Ölkəmizin kənd yerlərinin təbii, kənd təsərrüfatı, etnoqrafik, mədəni və digər resurslarının geniş çeşidi bizə qiymət və keyfiyyətin optimal birləşməsinə əsaslanan rəqabətqabiliyyətli turizm məhsulu yaratmağa imkan verir. Qeyri-mütəşəkkil turist axınının yüksək olması kənd turizm resurslarına tələbatın mövcudluğundan xəbər verir [5,6]. Lakin təəssüf ki, bu vəziyyət müvafiq turizm məhsullarına ciddi tələbatın olması ilə təsdiqlənmir. Məqalə Azərbaycan Respublikasında aqro-ekoturizmin inkişafını sürətləndirə biləcək prioritet tədbirləri formalaşdırır.

Azərbaycan iqtisadiyyatına töhvə baxımından neft sektorundan sonra əsas yerlərdən birini tutan aqrar sektor və turizmdir. Məhz bu iki sektorun sintezindən yaranmış aqroturizm respublikamızda hələ yer almağa imkan tapmamış, sürətli inkişaf edən turizm sektorunda onun yeni alt növü olan aqro-ekoturizm geniş yayılmağa başlamışdır [7].

Respublikamızın mövcud turizm marşrutlarına nəzər salsaq görərik ki, aqro turizm və ya kənd turizmi bir o qədər də geniş vüsət almamışdır. ***Cədvəl 1.***

Region	Yayılmış turizm növü
Bakı marşrutu	Mədəni, əyləncə, dəniz, təbiət
Naxçıvan marşrutu	Dağçılıq, mədəni, qış, kənd, ekoturizm
Qarabağ və Şərqi Zəngəzur	Mədəni, aqroturizm, ekoturizm, dağçılıq, qış
Şimal-Qərb marşrutu	Mədəni, eko, aqro, qastronomiya, macəra, sağlamlıq
Şimal marşrutu	Aqro, yay/qış, qastronomiya, tarixi-memarlıq, macəra, sağlamlıq, ekoturizm
Qərb marşrutu	Mədəni, təbiət, sağlamlıq, ekoturizm
Cənub marşrutu	Mədəni, etnik, tarixi, rekreasiya, aqroturizm, sağlamlıq, macəra, qastronomiya, ekoturizm, çimərlik.

Cədvəl 1. -ə nəzər salsaq bunu açıq aydın görə bilərik. Respublikamızda mövcud əsas turizm marşrutlarının içərisində aqroturizmin payı olduqca adır.

17 fevral 2022-ci il tarixində Bakıda "Kənd təsərrüfatına dövlət yardımının səmərəliliyinin və effektivliyinin artırılması üçün Kənd Təsərrüfatı Nazirliyinin potensialının gücləndirilməsi" qardaş layihəsi çərçivəsində "Azərbaycanda kənd yerlərinin inkişafı və milli aqroturizm sisteminin yaradılması" mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi ölkəmizdə aqroturizmin inkişaf potensialı və bu istiqamətdə nəzərdə tutulan gələcək işlər barədə fikir mübadiləsi aparmaqdır [8].

Kənd təsərrüfatının inkişafı təkcə elmin, təhsilin, məşğulluğun, innovasiyaların və ticarətin inkişafına deyil, həm də turizmin inkişafına öz töhfəsini verir. Kənd Təsərrüfatı Nazirliyi tərəfindən artıq bir neçə ildir ki, həyata keçirilən "Şəhərdən kəndə" aqroturizm layihəsi çərçivəsində bölgələrdə onlarla aqroekoturizm obyektinin yaradılmasına dəstək verilib. Bu gün Qax, Şəki, İsmayıllı, Balakən, Lənkəran və digər rayonlarda müasir tələblərə cavab verən aqroturizm obyektləri fəaliyyət göstərir. Bildirilib ki, aqroturizmin daha da inkişaf etdirilməsi regionlarda əhalinin məşğulluğunun artmasına, fermerlərin gəlirlərinin artmasına müsbət təsir göstərəcək [8].

Kənd turizmi qlobal, milli və regional problemlərə həll yolları tapmalıdır. Kənd turizminin sıçrayışlı inkişafında istehlakçı tələbinin stimullaşdırılması və turizm müəssisələrinin fəaliyyətinin əlaqələndirilməsi mühüm rol oynaya bilər. Bu sahənin inkişafı təcrübəsinin ümumiləşdirilməsi və dünya turizm prosesində qlobal tendensiyaların tənqidi şəkildə dərk edilməsi olmadan kənd turizminin inkişafı üçün səmərəli strategiyalar mümkün deyil.

ƏDƏBİYYAT

1. Dernoi L. A. About rural and farm tourism. Tourism Recreation Research, 1991, no. 16 (1), pp. 3–6.
2. Hall M., Page, S. J. The geography of tourism and recreation. Environment, place and space, Third Edition. Routledge publishing, 2006. 530 p.
3. Roberts L., Hall D. Rural tourism and Recreation: Principles to Practice. Wallihgford: CABIPublishing, 2001.
4. Sharpley J., Sharpley R. Rural tourism. An Introduction. London: International Thomson Business Press, 1997.
5. Tourism Strategies and Rural Development. Orgsnisation for Cooperation and Development. Paris, 1994. 94 p.
6. Rural tourism — an overview. October 2010. [Электронный ресурс]. Режим доступа:https://cupdf.com/document/rural-tourism-an-overview-filerural tourismpdfrural-tourism-an-overview.html (дата обращения: 08.09.2021).
7. https://smb.gov.az/storage/Az%C9%99rbaycanda_ekoloji_turizm_potensial%C4%B1.pdf
8. https://atm.gov.az/az/news/570/azerbaycanda-kend-yerlerinin-inkisafi-ve-milli-aqr/

SYSTEMATIZATION OF THE CONCEPT OF AGRO-ECOTOURISM IN AZERBAIJAN AND UNDERSTANDING OF TRENDS

Samira Yusif Akbarova,
ffidan096@gmail.com
Azerbaijan Technology University

Xatırladaq ki, Azərbaycan Konfrasa qatıla bilməyən kiçik ada və ölkələrin səyahət və yaşayış xərclərini qarşılamışdır. Maliyyə imkanlarına gəldikdə isə İqlimi yaxşəlaşdırmaq və İEOÖ- lərə dəstək üçün 1.3 trilyon dolları nəzərdə tutulmuş bu vəsaitin yalnız 250-300 milyardı toplana bilmişdir. Eyni zamanda İtki və Zərər Fondu vasitəsilə 730 milyon dollar toplana bilmişdir. Bu da Bakı üçün çox böyük uğurlardan biridir (Xatırladaqki İtki və Zərər Fondu ilk dəfə olaraq COP 27 də yəni 2022 ci ildə Misirdə qəbul olunmuşdur) [1]

Bəs COP- un Azərbaycana nə kimi faydaları oldu.İlk öncə onu qeyd edimki ölkəmizin bu tədbirə ev sahibliyi etməsi onun Beynəlxalq arenada əlini gücləndirib. 90-cı illərə nisbətən daha da güclü daha da sözü keçən bir hala gətirb. Bu da Azərbaycanın siyasi və iqtisadi uğurunun göstəricisidr. COP un Azərbaycana qatdığı 3 əsas üstünülüyü qeyd etmək istərdim. Bunalar siyasi, iqtisadi və ekoloji amillərdir. Siyasi üstünlük Azərbaycan Respublikasının iqlim sahəsində Beynəlxalq Arenalarda daha da güclənmişdir. İqlim dəyişikliklərinə qarşı mübarizədə və onların qarşısını almaqda lider rolunu üstələnənənlərdən biri olmuşdur. İqtisadi üstünlük yexnoloji yeniliklər, dayanıqlı inkişaf

sahələrində böyük imkanlar əldə etmişdir. Yaşıl enerji və bərpa olunan enerji sahələrində önəmli təcrübələr edinmişdir ki, bu da iqtisadi yüksəlişə töhvə vermişdir. Ekoloji üstünlük istixana emissiyalarını azaltmaq üzrə öhdəliklərini yerinə yetirməsinə kömək etmiş, bu da ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırmış, havanın keyfiyyətini, təmizliyini artırmışdır.

ƏDƏBİYYAT

1. Dutu-Buzura, Mircea M. "COP 28 and Its Consequences for the Development of International Climate Law?." Rev. Universul Juridic (2024): 8.
2. Guliyeva, Khatira. "Cop 29. Climate-Human Problem in the Context of the Philosophy of Life."best journal of innovation in science, research and development 3.9 (2024): 103-107.
3. Wei, Jing, et al. "COP29: Progresses and challenges to global efforts on the climate crisis."The Innovation 6.1 (2025).

COP SUMMITS AND TOURISM OPPORTUNITIES

Tural Tahir oglu Alekbarov
turalekbarov@gmail.com
Hasan Aliyar oglu Rzazade
Hesenrzazade1221@outlook.com
Azerbaijan Technology University

COP29, the 29th annual UN Climate Change Conference (UNFCCC), was hosted by Azerbaijan from November 11 to 22, 2024. The conference focused on combating pollution, desertification, biodiversity loss, and promoting efficient water resource management and greenhouse gas reduction. Key outcomes included a commitment to raise $300 billion annually by 2035 for developing countries, the Green Digital Action Statement emphasizing the role of digital technology in climate action, and the Baku Initiative for Human Development and Climate Resilience. Azerbaijan's successful hosting of previous international events, its economic development, and growing diplomatic influence contributed to its selection as the host. The event welcomed representatives from 198 countries, including 80 world leaders and major energy sector figures. Despite some notable absences, COP29 strengthened Azerbaijan's global standing and contributed politically, economically, and environmentally by fostering green energy initiatives, attracting investment, and improving air quality. The conference also reinforced the global commitment to limiting temperature rise to 1.5°C as outlined in the Paris Agreement.

Keywords: COP29, climate, tourism, Azerbaijan.

TİBBİ TURİZMİN AZƏRBAYCANIN İQTİSADİYYATINA TƏSİRİ

Aytən Füzuli qızı Hüseynzadə
aytenhuseynzade0@gmail.com
Xəyyam Natiq oğlu Cavadzadə
Azərbaycan Texnologiya Universiteti

Tibbi turizmin Azərbaycanın iqtisadiyyatına təsiri çoxşaxəlidir və xüsusilə səhiyyə sektoruna mühüm şəkildə təsir göstərir. Beynəlxalq pasiyentlərin tibbi xidmətlərə olan marağının artması nəticəsində səhiyyə müəssisələri öz xidmət çeşidlərini genişləndirir, bu isə infrastrukturun və tibbi xidmətlərin səviyyəsinin yüksəldilməsinə səbəb olur. Belə siyasətlər beynəlxalq standartlara cavab verən səhiyyə müəssisələrinin yaradılmasını, xarici tibbi qurumlarla əməkdaşlıqları və ölkədə mövcud olmayan müalicə növlərinin təqdim olunmasını təşviq edir. Nəticədə, xarici pasiyentlərin axını səhiyyə sektoruna yalnız əhəmiyyətli maliyyə gəlirləri qazandırmır, həm də tibbi təcrübənin və texnologiyanın modernləşdirilməsinə töhfə verir [1]

Sağlamlıq turizminə artan maraq səhiyyə müəssisələrinə və avadanlıqlarına edilən maliyyə yatırımları ilə birbaşa əlaqəlidir. Bu, səhiyyə xidmətləri arasında daha rəqabətli bir mühitin formalaşmasına səbəb olur. Belə mühitdə xəstəxanalar və klinikalar qabaqcıl texnologiyalara sərmayə qoymağa və xidmət sistemlərini təkmilləşdirməyə təşviq olunurlar.

Səhiyyə imkanlarının artırılması insan kapitalının inkişafına əhəmiyyətli dərəcədə töhfə verə bilər ki, bu da turizm sənayesini dəstəkləmək baxımından vacibdir. Beynəlxalq standartlara uyğun tibbi kadrların hazırlanması sayəsində Azərbaycan qlobal səhiyyə tendensiyalarına uyğunlaşa bilən işçi qüvvəsinə sahib olur və bu həm xarici pasiyentlər üçün keyfiyyətli xidmət, həm də yerli əhali üçün zənginləşdirilmiş səhiyyə təcrübəsi təmin edir [2].

Tibbi turizmin iqtisadi təsirləri təkcə səhiyyə müəssisələri və mütəxəssislərlə məhdudlaşmır. Otelçilik sektoru da bu sahədən əhəmiyyətli fayda əldə edir. Tibbi turistlərin yerləşmə, nəqliyyat və əlavə xidmətlərə ehtiyac duyması nəticəsində otellərə, spa mərkəzlərinə və əlaqəli xidmətlərə tələbat artır. Bu artım yerli sahibkarlığın təşviqinə və bu sahələrdə məşğulluğun artırılmasına şərait yaradır. Eyni zamanda, sağlamlıq turizminin qonaqpərvərlik sektoru ilə uğurla inteqrasiyası ümumi turizm təcrübəsini daha da zənginləşdirə bilər. Tibbi xidmətlərin sağlamlıq və istirahət proqramları ilə birgə təqdim edilməsi bu sahələrin qarşılıqlı əlaqəsini göstərir və ortaq marketinq strategiyalarının inkişafına imkan yaradır [3]

Lakin, tibbi turizmin sürətli inkişafı bir sıra çağırışlar da doğurur ki, bunlar davamlı iqtisadi inkişafı təmin etmək üçün diqqətlə tənzimlənməlidir. Əsas narahatlıqlardan biri yerli səhiyyə resurslarının xarici pasiyentlərə yönəldilməsi nəticəsində əhalinin tibbi xidmətlərə çıxışında bərabərsizliyin artmasıdır. Xarici və yerli vətəndaşların ehtiyacları arasında tarazlığın qorunması hökumət orqanları tərəfindən strateji nəzarət tələb edir. Adekvat tənzimləyici mexanizmlər olmadıqda, tibbi turistlərin tələblərini qarşılamaq məqsədilə göstərilən tələskənlik nəticəsində göstərilən xidmətlərin keyfiyyəti azala bilər və bu, həm ziyarətçilər, həm də yerli əhali üçün mənfi nəticələrə səbəb ola bilər [7]

Azərbaycanın qonaqpərvərlik sektorunun gələcək mənzərəsini modelləşdirmək üçün artım və tənzimləmə arasında qarşılıqlı əlaqə həlledici olacaq, çünki bu sektor tibbi turizm sənayesinin tələblərinə uyğunlaşmağa və onun iqtisadiyyatda formalaşan roluna cavab verməyə çalışır. Ekoloji cəhətdən uyğun yaşayış yerləri və xidmət keyfiyyətinin artırılmasına yönəlmiş təlim proqramları kimi innovativ həllərin tətbiqi, Azərbaycanı sağlamlıq turizmi sahəsində aparıcı istiqamətə çevirə və onun iqtisadi dayanıqlığını gücləndirə bilər.

Tibbi turizmin və sağlamlıq sahəsinin inkişafı nəticəsində məşğulluğa təsirləri də əhəmiyyətlidir və həm müsbət, həm də mənfi nəticələr doğurur. Yeni formalaşan sağlamlıq turizmi sektoru səhiyyə xidmətləri, qonaqpərvərlik və əlavə xidmətlər sahələrində çoxsaylı iş imkanları yaradır, bu isə ümumi iqtisadi sabitliyin artmasına səbəb olur. Tibbi turistlərin axını, xüsusilə həkimlər, tibb bacıları və səhiyyə texnikləri kimi ixtisaslaşmış səhiyyə sahələrində daha geniş işçi qüvvəsinə tələbat yaradır [8]

Tibbi turizmin Azərbaycanda iqtisadiyyatın müxtəlif sahələrinə müsbət təsirləri böyükdür. Səhiyyə sektorunun inkişafı və müasir texnologiyaların tətbiqi ilə yanaşı, yerli sahibkarlıq və turizm sektoru da faydalanır. Lakin, bu sahədəki artımın tənzimlənməsi vacibdir ki, yerli əhalinin tibbi xidmətlərə çıxışı təmin edilsin və bərabərsizlik yaranmasın. Müvafiq tənzimləmələrin həyata keçirilməsi, həm xarici, həm də yerli pasiyentlər üçün keyfiyyətli xidmətin qorunmasına kömək edər. Nəticədə, sağlamlıq turizmi sektoru Azərbaycana iqtisadi baxımdan davamlı artım və inkişaf gətirə bilər.

ƏDƏBİYYAT

1. Həbibov Ə.H. və Qasımov F.Q., 2022. Azərbaycanda sağlamlıq turizminin inkişafı üzrə dövlət siyasəti. Avropa İqtisadiyyat və İdarəetmə Elmləri Jurnalı, (1), s. 57–61.
2. Dərgahov, V.S., Talibov, S.A., Məmmədov, Q.V., Əhmədov, R.İ. və Muradov, İ.İ., 2023. Azad edilmiş ərazilərin balneoloji və iqlim resurslarının sağlamlıq turizmində istifadəsi perspektivləri. 32(4), səh. 704-713
3. Əbulfət, H.Y. və Faiq, G.V., 2022. Azərbaycanda Sağlamliq Turizminin İnkişafina Dair Dövlət Siyasəti. səh. 57-61.

4. Əlirzayev.Ə, Aslanova.S. "Turizm inkişafının sosial-iqtisadi problemləri". Bakı, "Adiloğlu" nəşriyyatı, 2016.
5. "Sağlamlıq turizmi üzrə 2017–2020-ci illəri əhatə edən tədbirlər planı" DTA, 2020, 12 s. Soltanova
6. H.B., Qasımov M.S., Ağasiyev Ə.R. Azərbaycanın kurort təsərrüfatı. Bakı 2017, 215 s
7. Hajiyeva, L. and Teymurova, V., 2019. Analysis of the impact of the human capital on tourism development in Azerbaijan. Economic and Social Development: Book of Proceedings, pp.1579-1588.
8. Hasanli, Y., Baizakov, S. and Salihova, S., 2019. Assessment of the impact of tourism sector on the economy of Azerbaijan. Economic and Social Development: Book of Proceedings, pp.671-680.

The impact of medical tourism on the economy of Azerbaijan

Ayten Fuzuli Huseynzade
aytenhuseynzade0@gmail.com
Khayyam Natig Javadzade
Azerbaijan Technological University

Medical tourism plays an increasingly important role in Azerbaijan's economy by attracting international patients. It boosts investment in healthcare infrastructure and promotes the modernization of medical services. The growth of this sector also benefits the hospitality industry through increased demand for accommodation and related services. Additionally, it creates new employment opportunities and contributes to the development of human capital. However, proper regulation is needed to ensure balanced access to healthcare for both locals and foreign visitors.

Keywords: Medical tourism, Azerbaijan economy, healthcare development, foreign patients, infrastructure, health policy.

AZƏRBAYCAN RESPUBLİKASINDA KRUİZ TURİZMİNİN POTESİNALININ ANALİZİ

Ləman Zahid qızı Alizada
lemannalizadeh@gmail.com
Tural Tahir oğlu Ələkbərov
turalekbarov@gmail.com
Azrbaycan Texnologiya Universiteti

Azərbaycan kruiz turizminin potensialı Azərbaycan, zəngin mədəni irsi və Xəzər dənizinin sahilindəki əlverişli mövqeyi ilə kruiz turizmi üçün böyük potensiala malikdir. Bu təqdimat, Azərbaycanın turizm sənayesini və Xəzər dənizində kruiz turizminin perspektivlərini araşdırır. Kruiz turizmi, iqtisadi faydalar yanı sıra yeni iş yerləri və regionlararası əməkdaşlıq imkanları yaratmaqla yanaşı, Azərbaycanın turizm imicini də yüksəldə bilər. Bu təqdimatda, bu potensialı necə reallaşdıra biləcəyimizə dair tövsiyələr təqdim ediləcəkdir.[1]

Azərbaycanda turizm sənayesinin ümumi baxışı turizm gəlirlərində artım 2023-cü ildə turizm gəlirlərində 15% artım müşahidə olunmuşdur. Bu artım, Azərbaycanın turizm potensialının getdikcə daha çox dərk edilməsinin göstəricisidir. Yeni otellərin tikintisi Xidmət səviyyəsinin yüksəldilməsi Azərbaycanın turizm sektoru, son illərdə əhəmiyyətli dərəcədə böyümüşdür. Bu böyümə, ölkənin turizm potensialının daha da inkişaf etdirilməsi üçün böyük imkanlar yaradır.

İnfrastruktur inkişafı turizm infrastrukturunun inkişafı, turistlərə daha keyfiyyətli xidmətlər təqdim etməyə imkan verir. Yeni yollar, hava limanları və otellər bu inkişafın bir hissəsidir. Kruiz turizminin bir sıra faydaları vardır. Bunlar iqtisadi faydalar, beynəlxalq bazar, dövriyyə həcminin artması kimi səciyyələndirmək olar. Kruiz turizmi, iqtisadi faydalar, beynəlxalq bazar imkanları və turların yüksək populyarlığı ilə xarakterizə olunur. Bu, ölkə iqtisadiyyatına əhəmiyyətli töhfələr verə bilən bir sektordur. Beynəlxalq kruiz bazarının ümumi rəqəmləri, bu sektorun nə qədər böyük olduğunu göstərir. Azərbaycan, bu bazardan pay almaq üçün böyük potensiala malikdir.

Xəzərin Azərbaycan sularında olan adalarının hər biri fərqli potensiala malikdir. Kruiz turizmi üçün əlverişlilik kriteriyaları əsasən bunlardır coğrafi yaxınlıq (Bakıya və limanlara yaxınlıq), təhlükəsizlik və giriş imkanı, turistik cazibə (tarix, təbiət, mənzərə) infrastruktur və gələcək inkişaf potensialıdır Bunları nəzərə alaraq gəlin ən əlverişli adalara nəzər yetirək. Böyük Zirə (Nargin) Adası – Ən ideal namizədir. Yaxınlıq Bakıdan cəmi 10-15 km məsafədədir. Tarixi əhəmiyyəti isə dünya müharibələri zamanı əsir düşərgəsi olub. Cazibə olaraq tarix əfsanələr və tərk edilmiş ab-havanı qeyd etmək olar. Potensial olaraq restorasiya və bərpa işlərindən sonra muzey, tarix turizmi və tematik kruizlər üçün əla məkandır. Status hələlik qorunan ərazi sayılır, amma layihə şəklində təqdimatla icazə almaq mümkündür.

Qum Adası – Təbii istirahət üçün nəzərdə tutula bilər. Yaxınlıq Bakıdan 1-1.5 saatlıq dəniz yolu uzaqlıqdadır. Təmiz qumlu sahillər, sakitlik, ekzotik atmosfer vardır. Dəniz turizmi, günəşlənmə, yoga/meditasiya kruizləri üçün ideal məkandır. Çətinlik: İnfrastruktur yoxdur, amma müvəqqəti pontonlar və mobil kabinlərlə həll edilə bilər.[3]

Çilov Adası – Lokal həyat, ekskursiya potensialı vardır. Hazırda yaşayış var, əsasən neftçilər üçün əlverişlidir. Bakıdan uzaq olsa da (təxminən 100 km), uzadılmış kruizlərdə marşruta salmaq olar. Orijinal ada həyat tərzi, lokal mədəniyyət və balıqçılıqla tanışlıq üçün istifadə edilə bilər. Girişi SOCAR tərəfindən tənzimlənir.[5] Bu isə problemlərdən biridir. Buraya Pirallahı adası vasitəsi ilə dayanacaq nöqtəsi kimi getmək oluna bilər.[3]

Azərbaycanda kruiz turizmi üçün əsas məkanlar Bakı bulvarı , Xəzər adaları bakı dənizkənarı bulvarır, Xəzər dənizi adaları və unikal təbiət, azərbaycanda kruiz turizmi üçün əsas məkanlardır. bu məkanlar, turistlərə müxtəlif təcrübələr təqdim edir. Bu məkanların inkişafı, Azərbaycanın kruiz turizmi potensialını daha da artıracaqdır. Hər bir məkan, özünəməxsus xüsusiyyətləri ilə turistləri cəlb edir.[2]

Kruiz turizminin iqtisadi təsiri, gəlir artımı, turizm gəlirlərinin artırılması və yerləşmə sektorunda inkişafa təsir edə bilər. Kruiz turizminin iqtisadi təsiri, turizm gəlirlərinin artımına, yerləşmə və xidmət sektorunda inkişafa və yeni iş yerlərinin yaradılmasına töhfə verir. Bu, ölkə iqtisadiyyatı üçün əhəmiyyətli bir amildir. Bu təsirin artırılması üçün, infrastrukturun inkişafı və xidmət səviyyəsinin yüksəldilməsi vacibdir.

Təkliflər. strateji planlaşdırma və idarəetmə milli kruiz turizmi strategiyası hazırlanmalıdır. Bu sənəd turizmin inkişaf istiqamətlərini, əsas prioritetləri və investisiya imkanlarını müəyyən etməlidir. Xəzər dənizində kruiz turizmi üzrə regional əməkdaşlıq platforması yaradılmalıdır (məsələn, Qazaxıstan, Türkmənistan və İranla birlikdə). infrastrukturun inkişafı liman infrastrukturlarının təkmilləşdirilməsidir. Bakı və digər sahil şəhərlərində müasir kruiz terminalları tikilməlidir. Ada istiqamətində infrastruktur üçün vəsait ayirlmalı və Böyük Zirə, Qum. Çilov adalarına giriş imkanları, ponton körpülər, təhlükəsizlik və sanitar şərait yaradılmalıdır. İnformasiya texnologiyalarının tətbiqidən istifadə edilməlidir. Kruiz marşrutlarının, bilet satışlarının və turist məlumatlarının idarəsi üçün rəqəmsal platforma qurulmalıdır. İnvstisiya və Özəl Sektorun Cəlbi Vergi güzəştləri və təşviq proqramları ilə kruiz turizminə investisiya qoyan yerli və xarici şirkətlər dəstəklənməlidir. Özəl şirkətlərin iştirakı ilə tematik kruiz turlarının (tarix, təbiət, mədəniyyət) təşkili stimullaşdırılmalıdır. Marketinq və Tanıtım Azərbaycan kruiz turizmi beynəlxalq sərgilərdə və forumlarda aktiv şəkildə tanıdılmalıdır. Multidilli reklam kampaniyaları vasitəsilə Xəzər dənizinin və adaların kruiz turizmi potensialı təqdim edilməlidir. Tematik videolar və sənədli filmlər ilə Böyük Zirə kimi adaların tarix və cazibəsi ön plana çəkilməlidir. Ətraf mühitin mühafizəsi ilə bağlı qaydalar hazırlanmalı və turizm fəaliyyəti zamanı qorunmalıdır.[4] Kruiz turizmi zamanı ekoloji cəhətdən təmiz nəqliyyat vasitələri və texnologiyaları təşviq olunmalıdır. Hüquqi və idarəetmə mexanizmləri formalaşdirlmalıdır. Adaların istifadəsi üçün hüquqi mexanizmlər (məsələn, qorunan ərazi statusunun dəyişdirilməsi və ya layihə əsaslı istisnalar) sadələşdirilməlidir. SOCAR və

digər dövlət qurumları ilə əməkdaşlıq formatı yaradılmalıdır (Çilov adasına giriş məsələsi ilə bağlı).

Nəticə olaraq qeyd edə bilərik ki, Azərbaycanın kruiz turizmi potensialının reallaşdırılması, dövlət və özəl sektorun birgə əməkdaşlığı və bölgədə lider kruiz turizm mərkəzi olmaq üçün atılacaq addımlar vacibdir. Bu, ölkənin turizm sektoruna böyük fayda gətirə bilər. Dövlət və özəl sektor Bu məqsədə nail olmaq üçün, davamlı inkişaf və investisiyalar tələb olunmalıdır. Azərbaycan, bu potensialı reallaşdırmaq üçün bütün imkanlara malikdir.

ƏDƏBİYYAT

1. Ahmadlı, K.. "Azerbaycanlı turistlerin destinasyon seçiminde önemli olan coğrafi faktörler." (2018).
2. Aladin, Nicolai, and Igor Plotnikov. "The Caspian Sea." Lake Basin Management Initiative Thematic Paper (2004): 1-29.
3. Firozjaei, Mohammad Karimi, et al. "Seasonal and daily effects of the sea on the surface urban heat island intensity: A case study of cities in the Caspian Sea Plain." Urban Climate 51 (2023): 101603.
4. Mammadov, Qasimov. "Ecotourism Potential Of Kurmukchay Basin." Anas Reports 78.3-4 (2022).
5. Mirzəyev, F. "Xəzər dənizinin Azərbaycan akvatoriyasında gəmilərin təhlükəsizliyinin təminatında geoloji-coğrafi xüsusiyyətlərin rolu." iqtısadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. 2020.

ANALYSIS OF THE POTENTIAL OF CRUISE TOURISM IN THE REPUBLIC OF AZERBAIJAN

Leman Zahid Alizada
lemannalizadeh@gmail.com
Tural Tahir Alekbarov
turalekbarov@gmail.com
Azerbaijan Technological University

Azerbaijan, with its rich cultural heritage and strategic location along the Caspian Sea, holds significant potential for the development of cruise tourism. This presentation explores the current state of the tourism industry and the opportunities within the Caspian cruise market. Cruise tourism not only promises economic benefits and new employment opportunities, but it can also enhance Azerbaijan's international tourism image. In recent years, Azerbaijan's tourism sector has shown substantial growth. In 2023, tourism revenues increased by 15%, reflecting greater recognition of the country's tourism potential. Investments in infrastructure such as new hotels, roads, and airports have further improved service quality and created favorable conditions for cruise tourism. The Caspian Sea offers ideal conditions for cruise routes, with Baku and other coastal cities playing a key role. Nearby islands such as Boyuk Zira (Nargin), Qum Island, and Chilov Island each possess unique features and could serve as attractive destinations for themed cruises, eco-tours, and cultural experiences. For instance, Boyuk Zira stands out for its historical value and proximity to Baku, while Qum Island is ideal for natural retreats. Chilov Island, with its local life and fishing culture, adds a more authentic dimension to extended cruise tours.

Keywords: Azerbaijan, tourism, cruise, Baku, Caspian Sea

AZƏRBAYCANDA SANATORİYA-KURORT SAHƏSİNDƏ GƏNCLƏR ÜÇÜN SAĞLAMLIQ TURİZMİ MODELLƏRİNİN YARADILMASI

Ellada Arzuman qızı Verdiyeva
elladav2000@gmail.com
Ceyran Rəcəb qızı Camalzadə
Fərman Alisgəndər oğlu İsgəndərov
Azərbaycan Texnologiya Universiteti

Bu məqalədə wellness proqramlarının Azərbaycanın sanatoriya-kurort sistemindəki rolu, onların xarakterik xüsusiyyətləri, mövcud vəziyyəti və gələcək inkişaf imkanları analiz olunur. Müasir dövrdə dünyanın ən sürətlə inkişaf edən sahələrdən biridə sağlamlıq turizmi hesab olunur. İnsanlarda sağlam həyat tərzinə olan marağının artırır, gənc yaşlarda xroniki xəstəliklərin yayılması və psixoloji sağlamlıqla bağlı narahatlıqlar bu sahəyə olan tələbatı artırır. Pandemiya dövründən sonra gənc nəsil arasında yayılan fiziki və sağlamlıq problemləri daha çox hiss olunmağa başladı. Gənclər arasında yaranan problemlərin səbəbi stress, sedentər həyat tərzi, depressiya və psixoloji gərginliklərdi. Sedentər həyat tərzi ən çox gənclər arasında yayılıb və bu bel və boyun ağrıları, ürək-damar xəstəlikləri, şəkərli diabet, stress, depresiya və psixoloji problemləri olan insanlarda nəzərdə tutulur. Ölkəmizdə sağlamlıq müəssisələrində gənclər üçün hələdə xüsusi xidmətlər və ya proqramlar təkminləşməyib. Azərbaycanda sağlamlıq turizmin inkişaf edib çünki ölkəmizdə təbii müalicəvi resursları ilə, müalicəvi suları və kurort əraziləri ilə zəngindir. Ölkəmizdə sanatoriya-kurort sahəsi əsasəndə yaşlı nəsil üçün əlverişlidir və gənc nəsil üçün maraqlarını doğrulayan şərait yoxdur, buna görədə gənclər üçün xüsusi modellərin yaradılması vacibdir.

Gənclər arasında sağlamlıq problemləri və wellness proqramlarının zəruriliyi. Gənclər arasında yaranan sağlamlıq problemləri əsasən müasir dövrdə gənclərin böyük bir hissəsi sedentər həyat tərzi keçirir — uzun zaman kompüter qarşısında oturmaq, fiziki fəaliyyətin az olması, texnologiyaya bağlı olmaq və düzgün qidalanmamaq onların sağlamlığını zərər verir.[2]

Gənclər arasında yaranan narahatlıqlar, tez-tez stress və deprsissiya halların səbəbi əsasən işgüzar həyat tərzi , təhsil yükü, sosial mediadan asılılıq və digər faktorlardan dolayı yaranır. Onların sağlamlıq və psixoloji vəziyyətinin yaxşılaşdırılması üçün bu sahədəki problemlərin qarşısının alınmalıdır. Ölkəmizdə gənclərin sağlamlığın daha az diqqət etməsi bele növ proqramların olmamasından nəticələnir.

Azərbaycanda yaşlı nəsilin sağlamlıq turizmi inkişaf etsədə gənc nəsildə bu növ turizm hələdə formalaşmayıb. Xarici ölkələrdə, məsələn, Yaponiyada və Almaniyada artıq gənclər üçün wellness və reabilitasiya proqramları yaradılıb. Belə növ proqramlar gənclərin həyat tərzini dəyişir, sağlam vərdişlərə yönəldir, həmçinin onların psixoloji sağlamlığını yaxşılaşdırmasını üçün imkanlar yaradır.[1]

Bu cür proqramlar yarandıqda gənclər üçün psixoloji sağlamlığını qorunması, stressi aradan qaldırılması, fitnes və yemək vərdişlərininin dəyişdirilməsi məqsədi ilə görülür. Aşağıdakılar wellness proqramı ilə gənclərə göstərilən xidmətlərdi: Gənclərin sağlamlığını yaxşılaşdırılması üçün yoga, pilates, fitness və aerobika proqramları yaradılır. Gənclərə yoga, pilates, fitness və aerobika proqramlarından əlavə digər zərərli qidalardan fast food kimi yeməklərdən uzaq durmağı və düzgün qidalanmağı töfsiyə edir. Gənclərin sağlamlığını qorunması üçün psixoterapiya sessiyaları, relaksasiya texnikaları, meditasiya və stressin idarə edilməsi kimi yeni proqramlar yaradılır. Təbiədə olmağı daha çox tofsiyə verilir, dəniz kənarında, dağ, meşə gəzintiləri kimi təbii mühitdə olaraq bərpa və yenilənmə olur.

Sağlamlıq turizmi və wellness proqramları anlayışı və fərqləndirici cəhətləri Sağlamlıq turizmi və wellness proqramları insanların sağlamlığının qorunması üçün yaranıb lakin məqsədi, yanaşması, istiqaməti, xidmət məkanları, hədəf auditoriyaları

fərqlidir. Tibbi və terapevtik müalicə dedikdə sağlamlıq turizmi nəzərdə tutulur. İnsanlar adətən sağlamlığınan bağlı problem yaşananda müalicəvi mərkəzlərə və ya sanatoriyalara müraciət edirlər. Sağlamlıq dedikdə yeni növ model proqramlarından istifadəsi daha geniş şəkilində və kompleks formasında qiymətləndirilir, Wellness proqramı gənc nəsil üçün yalnız xəstəliklərdən azad etmir həm də fiziki , emosional, sosial və psixoloji cəhətdən kömək göstərir. Wellness proqramlarında müxtəlif növ prosedurlar var ki, nəfəs texnikaları, yoga, sağlam qidalanma planları, meditasiya, psixoloji dəstək xidmətləri və spa prosedurları gənclərə köməklik göstərir.

Azərbaycanda Bu Mövzunun Tətbiqi

Azərbaycanda yerləşən məhşur sanatoriyalardan olan Naftalan, İstisu, Qalaaltı kimi yerlərdə gənclərin sağlamlığı üçün nəzərdə tutulan proqramlar hələdə inkişaf etməyibdi. Bu yerlərdə yerləşən sanatoriyalar gənclər üçün yeni proqramlar hazırlayaraq onların sağlamlıq turizmi sahəsində marağını artırmaqla və bu sektorda yeni bir müştəri bazası yaratmaq potensialına sahibdir.

Məhşur kurortlardan sayılan Naftalan, İstisu az miqdarda olsada gənclər üçün sağlamlıq proqramlardan sayılan xüsusi fizioterapiya, yoga təlimləri və stressin azaltması üçün təşkil edir.

Qalaaltı və ölkəmizin digər bölgələrində müxtəlif növ gənclər üçün yaradılmış proramlardan yararlanaraq müalicə almaq olar. Lakin ölkəmizdə bəzi sağlamlıq müəssisələrində olan wellness yönümlü xidmətlər təşkil etməyə başlasada, hələdə inkişaf etməyibdi. Azərbaycanda aşağıda qeyd etdiyim bəzi sağlamlıq müəssisələri var, hansı ki bu proqrama yaxın xidmətlər təqdim olunur:

1. Naftalan Sanatoriyalarında yerləşən Naftalan Sağlamlıq Mərkəzi, Chinar Hotel & Spa Naftalan, Gashalti Health Hotel Naftalan. Müxtəlif sağlamlıq üçün olan xidmətlərdən istifadə edilir.

2. Qalaaltı Sanatoriyası Quba-Xaçmaz bölgəsində yerləşən Qalaalti Hotel & Spa, türk hamamı, təbii mineral su (Naftsu) ilə müalicə,spa, fərdi müalicə proqramları, masaj, aroma terapiya, sağlam qidalanma rejimi, dağ mənzərəsi, açıq hava və sakit atmosfer və ruhi və fiziki balans yaradacaq komplekslər var.

3. Necə ildən sonram yenidən qurulan İstisu Sanatoriyası yaxın gələcəkdə spa və termal wellness mərkəzi kimi ölkəmizdə təqdim ediləcək. İsti sudan istifade edərkən təbii bədən müalicələri, detoks proqramları və qastrointestinal müalicədən istifadə edəcəklər.

4. Duzdağ Fizioterapiya Mərkəzində duzla müalicə almaq imkanları var reabilitasiya, nəfəs və yuxu terapiyası, stress və nəfəs problemlərinin yüngülləşdirilməsi üçün təbii şəraitlə müalicə olunacaq.

5. Şıx Sanatoriyası Bakı yaxınlığında yerləşir dəniz kənarında gəzərkən, insanlar balneoloji vannalardan istifadə edərkən, fizioterapiya və bədən sağlamlığına müalicələr təşkil edir.

Perspektivlər və Gələcək İmkanları

Wellness proqramı gələcəkdə Azərbaycanda inkişaf etməsi üçün bir neçə addım atılmalıdır:

Təhsil və maarifləndirmə: Gənclərin sağlamlığı üçün wellness proqramına uyğun yeni proqramlar təşkil edilməlidir. Yeni proqramların hazırlanması: Gənc nəsilə uyğun yeni wellness və reabilitasiya proqramları hazırlamaq.

Azərbaycanda sanatoriya-kurort sahəsi təbii resurslarla zəngin ölkədir, bu infrastruktur əsasən yaşlı nəsil üçün nəzərdə tutulub və gənc nəsil üçün sağlamlıq ehtiyaclarını qarşılamır. Ölkəmizdə xarici ölkələrdə oldugu kimi wellness proqramlarının istifadəsi vacib hesab olunur çünki, gənclər arasında yayılan psixoloji gərginlik, stress, sedentər həyat tərzi daha geniş yayılıb. İnsanlar wellness proqramlarından istifade ederkən sırf xəstəliklərdən azad olmurlar, eyni zamanda fiziki, emosional və psixoloji sağlamlığını gücləndirilər. Bu proqram xarici ölkələrdə uğurla tətbiq olunur və

Azərbaycanda da böyük potensiala sahibdir. Ölkəmizdə gənc nəsil üçün xüsusi proqramlar hazırlamaqla və bəzi bölgələrimizdə yerləşən Naftalan, Qalaaltı, İstisu kimi sanatoriyalarda tədbiq etmək olar. Gələcəkdə wellness proqramlarının Azərbaycanda geniş şəkildə inkişaf etdirilməsi üçün aşağıdakı addımlar vacibdir: Maarifləndirici kampaniyalarla gənclər arasında sağlam həyat tərzi təbliğ edilməlidir.

ƏDƏBİYYAT

1. Smith, M., & Puczkó, L. (2014). Health, Tourism and Hospitality: Spas, Wellness and Medical Travel (2nd ed.). Routledge.

2. Cohen, M., & Bodeker, G. (2008). Wellness tourism: A conceptual framework. Journal of Tourism and Hospitality Planning & Development.

CREATION OF HEALTH TOURISM MODELS FOR YOUNG PEOPLE IN THE SANATORIUM-RESORT FIELD IN AZERBAIJAN.

Ellada Arzuman Verdiyeva
elladav2000@gmail.com
Ceyran Rajab Jamalzade
Farman Alisgander Isgandarov
Azerbaijan Technological University

The sanatorium and resort sector in Azerbaijan is rich in natural resources, thanks to both favorable climatic conditions and healing mineral waters. However, the existing infrastructure in this field is mainly designed for the elderly population. Meanwhile, stress, sedentary lifestyles, and psychological pressure are increasing among young people, and there are no modern wellness programs to meet their needs. Therefore, new model programs should be created to support the health of the youth.

The Wellness program, developed abroad, offers physical and psychological services that support young people's health. It combines spa treatments, fitness, dietetics, psychological relaxation programs, ecological tourism, and opportunities for active recreation.

Keywords: sanatorium, health, youth, wellness program, health centers.

TURİZMDƏ SAHİBKARLIĞIN TƏNZİMLƏNMƏSİ

Yusif Əbülfət oğlu Hümbətov
humbetov-1964@mail.ru
Kənan Şükür oğlu Əliyev
kenan.alisoy.007@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Turizmdə sahibkarlıq – bu sahədə gəlir əldə etmək məqsədilə göstərilən xidmətlərin təşkili və satışıdır. Bu xidmətlərə mehmanxana, restoran, turistik turların təşkili, nəqliyyat, bələdçilik və digər əlaqədar fəaliyyət növləri daxildir. Sahibkarlıq turizm sektorunda çoxçeşidli və kompleks xarakter daşıyır. Hər bir turizm sahibkarı turistin ehtiyaclarını ödəməyə, keyfiyyətli və innovativ xidmətlər göstərməyə çalışır. Bu məqsədlə onlar müxtəlif istiqamətlərdə fəaliyyət göstərə bilər:

- İri turizm şirkətləri – xarici və yerli turistlər üçün kompleks tur paketləri təqdim edir;
- Kiçik və orta sahibkarlıq subyektləri – yerli turlar, kənd turizmi, qonaq evləri və sair xidmətləri göstərir;
- Xidmət təminatçıları – restoranlar, kafe, nəqliyyat və əyləncə müəssisələri;
- Əl işi və suvenir istehsalçıları – yerli mədəniyyəti əks etdirən məhsullar təqdim etməklə turizmdə passiv sahibkarlıq fəaliyyəti göstərirlər.

Bu fəaliyyətlərin uğurla həyata keçirilməsi üçün hüquqi baza, biznes mühiti və dövlət dəstəyi mühüm rol oynayır. Turizm sahibkarlığın müxtəlif formaları arasında sinerji yaradaraq bütöv bir ekosistem formalaşdırılır.[2]

Turizm sahəsində sahibkarlığın effektiv fəaliyyəti üçün dövlətin rolu danılmazdır. Sahibkarlığın tənzimlənməsi dedikdə, dövlətin normativ-hüquqi bazanın formalaşdırılması,

lisenziyalaşdırma, vergi güzəştləri, kreditlər, təlim və innovasiya dəstəyi kimi mexanizmlərlə bu sahəni inkişaf etdirməsi nəzərdə tutulur.

Əsas tənzimləmə alətləri bunlardır:

- Normativ-hüquqi baza;
- Turizm fəaliyyətinin hüquqi əsaslarını müəyyən edən qanunlar və normativ aktlar. sahibkarlar üçün sabitlik yaradır. Məsələn, "Turizm haqqında" qanun, sahibkarlıq fəaliyyəti ilə bağlı qanunlar və s.
- Lisenziyalaşdırma və sertifikatlaşdırma – Turizm xidmətlərinin keyfiyyətinin artırılması və təhlükəsizliyinin təmin olunması məqsədilə müəyyən fəaliyyət sahələri üçün lisenziyalar və sertifikatlar tələb olunur.
- Vergi və maliyyə siyasəti – Turizm sektorunda fəaliyyət göstərən sahibkarlara vergi güzəştləri, subsidiyalar və investisiya təşviqləri tətbiq oluna bilər. Bu, onların fəaliyyətini stimullaşdırır.
- İnfrastruktur dəstəyi – Dövlət, yollar, hava limanları, rabitə və digər infrastruktur layihələrini reallaşdırmaqla turizm sahibkarlığı üçün əlverişli şərait yaradır.
- Kadr hazırlığı və təlim – Turizm sahəsində peşəkar kadrların hazırlanması məqsədilə təhsil müəssisələri və təlim proqramları təşkil olunur.
- İnformasiya və tanıtım siyasəti – Turizm imkanlarının dünya ictimaiyyətinə tanıdılması və sahibkarların beynəlxalq bazarlara çıxışının dəstəklənməsi üçün PR və marketinq tədbirləri həyata keçirilir.

Azərbaycanın 2023-2026-cı illər üçün Turizm Strategiyası növbəti 4 il ərzində ölkədə turizmin inkişafını istiqamətləndirəcək hərtərəfli və strateji çərçivəni müəyyən edir.[3]

Azərbaycanda turizm sahəsində sahibkarlığın tənzimlənməsi məsələsinə dövlət səviyyəsində ciddi yanaşılır. Son illər bu sahənin inkişafı məqsədilə bir sıra proqram və strategiyalar qəbul olunmuşdur. Ölkə Prezidenti İlham Əliyevin sərəncamı ilə təsdiqlənmiş Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6 dekabr tarixli fərmanı, "2023–2026-ci illər üçün Turizmin İnkişaf Strategiyası" və. s normativ hüquqi sənədlər bu sahənin əsas inkişaf istiqamətlərini müəyyən etmişdir.[1]

Qeyd edilən məsələlərin həyata keçirilməsi əsasən Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən həyata keçirilir. Onların fəaliyyəti nəticəsində turizm sahəsində çalışan sahibkarlara metodiki dəstək, məlumatlandırma və təlimlər təşkil olunur. Əlavə olaraq, turizm bölgələrində infrastrukturların yaxşılaşdırılması, yeni turizm marşrutlarının yaradılması, kənd turizmi və eko-turizm kimi yeni trendlərin təşviqi də sahibkarların fəaliyyətini stimullaşdırır.

Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu vasitəsilə turizm sahəsində fəaliyyət göstərmək istəyən fiziki və hüquqi şəxslərə güzəştli kreditlər ayrılır. Bu da öz növbəsində yeni turizm layihələrinin həyata keçirilməsinə imkan yaradır. Pandemiya dövründə turizm sektoruna dəstək məqsədilə dövlət tərəfindən kompensasiya tədbirləri və güzəştlər tətbiq edilmişdir.[4, s.102-106]

Eyni zamanda, qanunvericilikdə turizm fəaliyyəti ilə məşğul olan sahibkarların hüquqları və vəzifələri dəqiq şəkildə müəyyən olunmuşdur. Bütün bu tədbirlər nəticəsində Azərbaycanda turizm sahibkarlığının hüquqi və iqtisadi mühiti formalaşmaqda davam edir.

Turizmdə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi iqtisadiyyatın şaxələndirilməsinə və regional inkişafın sürətlənməsinə xidmət edir. Dövlətin bu sahəni tənzimləməsi, həmçinin təşviq etməsi turizmin davamlı və rəqabətqabiliyyətli şəkildə inkişafına zəmin yaradır. Azərbaycanda turizm sektorunda sahibkarlığın tənzimlənməsi istiqamətində mühüm addımlar atılsa da, bu sahədə hələ də bir sıra problemlər qalmaqdadır:

- Regional turizm inkişaf strategiyalarının hazırlanması və regionlarda sahibkarlığın dəstəklənməsi;
- Startap turizm layihələrinə investisiya təşviqlərinin artırılması;

- Elektron lisenziyalaşdırma sisteminin təkmilləşdirilməsi və xidmətlərin rəqəmsallaşdırılması;
- Yerli əhalinin sahibkarlıq fəaliyyətinə cəlb olunması üçün maarifləndirmə və təlimlərin genişləndirilməsi;

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi və xarici investorlar üçün cəlbedici biznes mühitinin yaradılması həyata keçirildikdə, turizm sektorunda sahibkarlıq fəaliyyəti daha da genişlənəcək, Azərbaycanın iqtisadi inkişafına və beynəlxalq imicinə müsbət təsir göstərəcəkdir.

ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası prezidentinin 2016-cı il 6dekabr tarixli fərmanı.
2. Azərbaycan Respublikasının Qanunu. "Turizm haqqında» Bakı, 2021-ci il
3. Azərbaycan Respublikasının turizm strategiyası,Bakı ş.14 Aprel 2023-cü il, 18 səh.
4. Hümbətov Y.Ə, Kərimov F.C, Qapaqov.V.F, Cavadzadə.X.N Turizm sənayesinin təşkili.- Bakı: Avropa, 2021.- 333 s.

REGULATION OF TOURISM ENTREPRENEURSHIP

Yusif Əbülfət oğlu Hümbətov
humbetov-1964@mail.ru
Kenan Aliyev Shukur
kenan.alisoy.007@gmail.com
Azerbaijan Technological University

.Currently, the tourism sector, being one of the dynamically developing areas in the world economy, is not only engaged in entertainment and recreation activities, but also creates employment opportunities for the country's population. Tourism is a sector that brings income to the country's economy and opens up a wide field for entrepreneurial activity. In our developing country, the tourism sector is of great importance in terms of creating new economic opportunities. The successful development of tourism directly depends on the proper use of natural and cultural resources and the correct establishment of state policy in this area. Regulation of entrepreneurial activity in tourism creates the basis for economic stability by ensuring the development of regions.

Keywords: entrepreneurship, legal framework, business environment, state regulation

TURİZM SƏNAYESİNDƏ RƏQABƏT AMİLLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ İSTİQAMƏTLƏRİ

Fərman Alıisgəndər oğlu İsgəndərov
f.isgəndərov@atu.edu.az
Minarə Cəbrayıl qızı Yusifova
m.yusifova75@mail.ru
Ceyran Rəcəb qızı Camalzadə
ceyrancamalzade7@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Bazar iqtisadiyyatının tələbləri əsasında fəaliyyət göstərən biznes sahələri, o cümlədən turizm sənayesi subyektlərinin müəssisələri yüksək rəqabət mühiti ilə qarşılaşır. Apardığımız tədqiqatlar və müşahidələrimiz sübut edir ki, Azərbaycan Respublikasının regionlarında iqtisadiyyatın mühüm sahələrindən biri olan turizm sahəsi inkşaf meylli olsa da, rəqabət münasibətlərində Dünya Turizm sektorunda mövcud olan səviyyətlərdən bəzi istiqamətlərdə aşağıdır. Belə vəziyyət öz əksini əsasən göndərişlərin qiymətinin yüksək olmasında, xidmətin keyfiyyətinin tələb olunan səviyyədən aşağı olmasında, turistlərlə mədəni münasibətlərin qurulmasında və s. biruzə verir.[3]

Apardığımız tədqiqat prosesində məlum olur ki, turizmin inkşafında göstərilən və təsadüf edilən hər bir nöqsan və iradlar rəqabət səviyyəsində çatışmazlıq kimi nəzərə çarpır.[1]

Azərbaycanda turizmin inkşaf istiqamətində geniş əhatəli həm ehtiyatlar mövcuddur, həm də imkanlar vardır. Respublikanın yerləşdiyi məkanın əlaqələndirici imkanına malik olması (nəqliyyat qovşağı) ərazinin təbii-iqlim şəraitinin, turizmin inkşafı üçün yararlı olması, ölkənin tarixi abidələrlə zənginliyi, əhalinin mədəni inkşaf səviyyəsinin tələbatı ödəməsi və turizmin inkşafı istiqamətində müəyyən qədər təcrübəyə malik olması, ölkədə turizmin sürətlə inkşafına geniş şərait yaradır.[2]

Azərbaycanda turizmin inkşafının rəqabətə davamlığına təsir edən amillər müxtəlifdir. Bu amillərin araşdırılmasından məlum olur ki, turistlərin tələbləri kütləvi xarakter daşıyır və sosial xarakterlidir. Ona görə də, turizm şirkətləri dünya ölkələri üzrə səpələnmişdir və geniş rəqabət siyasəti ilə qarşılamağa məcbur olmuşlar.[4]

Araşdırılmış rəqabət amillərinin həyata keçirilməsi turizm müəssisələrinin fəaliyyətinin asanlaşmasına və turistlərin rahatlığına şərait yarada bilər.

Turizm səhəsində nailiyyətlərin əsasını rəqabət qabiliyyətliyin düzgün müəyyən edilməsi təşkil edir. Bu prossesdə ilk növbədə turizm ehtiyatlarının və istiqamətlərinin əhatəli olaraq öyrənilməsi zəruri şərtlərdən hesab edilir. Beləliklə turizm sferasında potensial imkanlar müəyyən edilir.[5]

Mühim məsələlərdən biri turizmin iqtisadiyyatının gəlir gətirən sahələrdən biri olmasının dərk edilməsidir və ona çevrilməsinin yollarını və istiqamətlərini elmi cəhətdən əsaslandırılmasını həyata keçirməyə yönümlülükdür. Yəni turizm sektorunda biznesin qurulması mümkün olduğunun dərk edilməsi rəqabət prosesinin bir amil olaraq qəbul edilməlidir.[2]

Turizmdə rəqabət qabiliyyətliliyin üstünlüyünü təmin etmək üçün diqqət yetirəcək əsas istiqamətlərdən biri fəaliyyətin bazar münasibətlərinin tələbləri əsasında qurulmasıdır. Yəni bazar münasibətlərini bazar konyunkturasını öyrənməklə fəaliyyətdə böyük nəaliyyət qazanmaq mümkündür. Çünki iş qüvvəsində, mədəni və təbii resursrlardan tələb olunan səviyyədə və lazım olan miqdarda istifadə etmək imkanı mövcuddur.

Eyni zamanda rəqabət üstünlüyünə nail olmağın mühüm məsələlərindən biri turistlərin seqmentləşdirilməsinin aparılmasıdır. Seqmentləşmə imkan verir ki, müqayisə əsasında oxşar (həmcins) istelakçı qrupları məqsədindən asılı olaraq axtardığı faydaya uyğun turist məhsulunu əldə etməyə hazırlıq səviyyəsinə, gəzintinin formasına, xidmətdə həssaslıq səviyyəsinə, mövsümlüyə və s. görə münasibətlərə vaxtında hazır olsunlar.

Araşdırılmış rəqabət amillərinin həyata keçirilməsi turizm subyektlərinin fəaliyyətinin yüngüləşməsinə və turistlərin istirahətlərinin yaxşılaşdırılmasına şərait yarada bilir.

Turizm sənayesində rəqabət amillərindən səmərəli istifadə etməklə turizm müəsisələrinin elmi əsaslarla təşkili turistlərin tələbatlarının məqsədyönlü ödənilməsinə, geniş imkanların yaranması və turizm obyektlərindən səmərəli istifadə olunmasına həmçinin, turizm müəssisələrində iqtisadi səmərəliliyin yüksəlməsinə səbəb ola bilər.

ƏDƏBİYYAT

1. "Turizm haqqında" Azərbaycan Respublikasının qanunu Bakı-2021-ci il
2. Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət proqramı
3. Bilalov B.Ə. "Turizm menicmenti" Bakı -2005
4. Əlirzayev Ə.O., Aslanova S. "Turizm inkişafının sosial-iqtisadi problemləri" Bakı, Adil oğlu 2016
5. Hümbətov Y.Ə. "Sənayenin təşkili və idarə edilməsi" Bakı 2018

DIRECTIONS FOR THE EFFECTIVE USE OF COMPETITIVE FACTORS IN THE TOURISM INDUSTRY

Farman Aliisgandarov oglu Isgandarov
f.isgandarov@atu.edu.az
Minara Jabrayil gizi Yusifova
m.yusifova75@mail.ru
Ceyran Racab gizi Camalzadə
ceyrancamalzade7@gmail.com
Azerbaijan Technological University

The study identifies the main directions of effective use of competitive factors in the tourism sector of Azerbaijan, and indicates indicators of competitiveness assessment

Keywords: Tourism, Industry, Competition, Region, Development Reserve, Enterprise

MÜASİR RƏQƏMSAL MARKETİNQ TURİZM FƏALİYYƏTİNİN İNKİŞAFINA TƏSİRİ

Tural Tahir oğlu Ələkbərov
turalekbarov@gmail.com
Ləman Pərviz qızı Əzimova
lemanezimova2022@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Marketing, məhsul və ya xidmətlərin istehlakçıya çatdırılması üçün planlaşdırılan və həyata keçirilən fəaliyyətlər toplusudur. Sadəcə məhsulun satışı ilə məhdudlaşmayan bu anlayış, müştəri tələblərinə uyğun həllər yaratmaq, bazar ehtiyaclarını qarşılamaq və marka bilinirliyini artırmaq məqsədini güdür. Müasir iş dünyasında, uğurlu bir marketinq strategiyası olmadan rəqabət aparmaq demək olar ki, mümkün deyil. Marketing, şirkətlərin böyüməsi, müştəri əlaqələri və davamlı uğur qazanması üçün ən vacib vasitələrdən biridir.[1]

Marketinqin 2 növü vardır bunlar ənənəvi marketinq və rəqəmsal marketinqdir. Rəqəmsal marketinq fəaliyyətini rəqəmsal texnologiyaların köməyi ilə həyata keçirmə prosesinə deyilir. Rəqəmsal marketinqin əsas məqsədi markanı, məhsul və ya xidməti internet vasitəsilə tanıtmaqdır. Bununla yanaşı müxtəlif üsullarla satışların artırılması da əsas məqsədlərdən biridir. Burada potensial müştəriləri cəlb etmək, istehlakçı kimi saxlamaq məqsədilə rəqəmsal texnologiyalardan istifadə edilir. Hansı ki, sosial şəbəkələri, veb saytları, e-mail xidmətlərini, mobil telefonları, rəqəmsal televizorları, bir sözlə internetə çıxışı olan bütün rəqəmsal texnolagiyaları və alətləri buraya daxil etmək olar. Lakin internetə birbaşa qoşulmayan kanallardan da istifadə oluna bilər. Buna isə əsasən mobil telefonların SMS marketinq və zənglər aid ola bilər.[2]

Turizm şirkətləri potensial turistləri cəlb etmək, onları müştəri kimi saxlamaq və uzunmüddətli əlaqələr qurmaq üçün müxtəlif rəqəmsal texnologiyalardan istifadə edirlər. Sosial şəbəkələr (Facebook, Instagram, TikTok), veb saytlar, e-mail xidmətləri, mobil tətbiqlər, rəqəmsal televiziyalar – bunlar hamısı turizm sahəsində rəqəmsal marketinqin əsas alətlərinə daxildir. Hətta internetə birbaşa qoşulmayan SMS və telefon zəngləri də bu marketinq növünə daxildir və tez-tez turizm kampaniyalarının tanıtımında istifadə olunur.

Turizm şirkətləri bu kanallar vasitəsilə müştərilərə fərqli istiqamətlərdə təsir göstərə bilirlər. Məsələn, e-mail marketinqi – bu, ən çox istifadə olunan rəqəmsal marketinq növlərindən biridir. Şirkətlər müştərilərinə yeni turlar, erkən rezervasiya kampaniyaları, endirimli səyahət paketləri və digər yeniliklər haqqında sürətli şəkildə məlumat göndərə bilirlər. Bunun üçün ilk olaraq müştəridən e-mail-lə məlumat almağa razılıq alınmalı, daha sonra isə müvafiq hədəf kütləyə uyğun kampaniyalar hazırlanmalıdır.[2]

Şirkətlər, rəqəmsal marketinqdən istifadə edərək,kanallar vasitəsi ilə alıcılara təsir göstərirlər. Gəlin ən əsas və daha çox istifadə olunan kanallara nəzər yetirək. Rəqəmsal

marketinqin ən çox istifadə edilən növlərindən biridir. Bu kanal vasitəsi ilə siz müştərilərinizə tez şəkildə yeni aksiyalar,endirimlər,yeniliklər,məhsul və xidmətlər haqqında məlumat verə bilərsizniz. İlk oncə müştərindən e-mail-dən istifadə icazəsini alıb,sonra isə müvafiq kütləyə yönəlmiş göndərişlər edə bilərsiniz. Bu rəqəmsal marketinq kanalı müştərilər ilə, həmçinin digər şirkətlər ilə əlaqə saxlamağın rahat yoludur. Tez-tez biz müxtəlif banklar, mağazalar və s. tərəfindən zənglər və ya sms-lər alırıq. Bu vasitə istifadə üçün çox rahatdır,çünki müştəri ilə bilavasitə əlaqə yaradılır və onların reklam prosesinə cəlb edilməsi daha da asanlaşır. Müştəri tərəfindən ignor edilmə şansı, e-mail-lərə baxanda daha da azalır, çünki e-mail-lər tez-tez səhvliklə qara siyahıya düşürlər və ya alıcının özü tərəfindən ignor edilirlər.

Turizm xidmətlərinin istər otel bronları, istər xarici və daxili turlar, istərsə də mövsümi kampaniyaların sosial şəbəkələr vasitəsilə reklam edilməsi brendin daha sürətlə tanınmasına səbəb olur. Lakin bu sahədə reklamların sayı çox olduğu üçün, SMM menecerin işi reklam məzmununu daha kreativ və unikal şəkildə hazırlamaqdan ibarətdir. Yalnız diqqətçəkici və fərqli kontent müştərinin yaddaşında qalır və onun şirkətlə maraqlanmasına səbəb olur.

Bu nöqtədə video-marketinqin rolu da xüsusilə vurğulanmalıdır. Turizm sahəsində video-marketinq olduqca təsirli alətdir. Məsələn, Instagram Reels, YouTube Shorts və TikTok platformalarında paylaşılmış qısa video formatlı turlar, otel görüntüləri, səyyahların təəssüratları və məkan təqdimatları istifadəçilər tərəfindən daha çox maraqla qarşılanır. İnsanlar səyahət etməzdən əvvəl vizual təsvirlərə baxaraq qərar verməyə meyllidirlər. Bu səbəbdən, turizm şirkətləri üçün peşəkar və cəlbedici videolar hazırlamaq böyük üstünlük sayılır.[3]

Rəqəmsal marketinqi ənənəvi üsullardan fərqləndirən əsas cəhətlərdən biri də daha az büdcə ilə daha geniş hədəf kütləyə çıxmaq imkanının olmasıdır. Ənənəvi reklamda televiziya və ya qəzetlərə reklam yerləşdirmək üçün böyük vəsait lazım olduğu halda, sosial şəbəkələrdə həm daha ucuz, həm də daha interaktiv şəkildə reklam aparmaq mümkündür.

Əlavə olaraq, rəqəmsal platformalarda aktiv olmaq şirkətə müştərilərlə daha yaxın və davamlı əlaqə qurmağa imkan yaradır. Müştərilər turlar haqqında suallarını birbaşa sosial şəbəkələrdə ünvanlaya, rəylərini bildirə və şirkətlə daha rahat ünsiyyət qura bilirlər. Araşdırmalara görə, internet üzərindən şirkətlə əlaqə saxlayan müştərilər həmin brendə daha sadiq qalır və daha çox alış-veriş etməyə meylli olurlar.[1]

Nəticədə, rəqəmsal marketinq şirkətlərə və markalara daha geniş auditoriyaya çatmağa, müştəri əlaqələrini gücləndirməyə və satışları artırmağa imkan verir. Rəqəmsal platformalar vasitəsilə edilən düzgün strategiyalar müştəri bazasını böyütməyə, marka etibarını yüksəltməyə və ümumi biznes nəticələrini yaxşılaşdırmağa səbəb olur. Beləliklə, rəqəmsal marketinq müasir dövrdə biznesin uğuru üçün əsas amillərdən biridir.

ƏDƏBİYYAT

1. Gülər Rəhimli."Rəqəmsal marketinq nədir?". Kvadrat. 09 iyun 2024. https://search.app/jHxKrcGgWaedvY1S9
2. Məmməd, Urkayev, Mirzəyev Cövhər. "rəqəmsal marketinqin tətbiqi sahələrİ." Proceedings of the 6th International Scientific Conference «European Research Materials»(May 30-31, 2024). Amsterdam, Netherlands, 2024. 425p. University of Twente, 2024.
3. Niftəliyev Nazim. "Azərbaycanda sağlamliq turizmi sahəsinin marketinq problemləri." (2024).

IMPACT OF MODERN DIGITAL MARKETING ON THE DEVELOPMENT OF TOURISM ACTIVITY

Tural Tahir oglu Alekbarov
turalekbarov@gmail.com
Laman Parviz gizi Azimova
Lemanezimova2022@gmail.com
Azerbaijan Technological University

Digital marketing has become an essential and effective tool for modern businesses. This field allows brands to reach a wider audience, build closer relationships with customers and increase their sales. The advantages of digital marketing include the creation of more targeted and measurable campaigns, tracking user behavior and reaching a wider audience at a lower cost. Therefore, the correct implementation of digital marketing strategies plays a key role in the growth of businesses and gaining a competitive advantage

Keywords: Digital marketing, tourism, businesses, marketing.

AZƏRBAYCAN MƏTBƏXİNDƏ FUNKSİONAL QİDALARIN QASTRONOMİYA TURİZMİ BAXIMINDAN ƏHƏMİYYƏTİ

Ruslan Aqil oğlu Abbasov
ruslan.abbasov2@icloud.com
Azərbaycan Dövlət İqtisad Universiteti

Qidalanma insan həyatının əsas ehtiyaclarından biri olmaqla yanaşı, davranış və seçimlərə təsir edən mühüm motivasiya faktorudur. Azərbaycan mətbəxi zəngin tarixi, bioloji müxtəlifliyi və yerli məhsullara əsaslanan yeməkləri ilə funksional qidaların istifadəsi baxımından böyük potensiala malikdir. Bu qidaların qastronomiya turizminə inteqrasiyası ölkənin tanıdılmasına və regionların iqtisadi inkişafına töhfə verə bilər. Tədqiqatlar göstərir ki, funksional qidaların tanıdılması və effektiv marketinq strategiyaları Azərbaycan mətbəxinin beynəlxalq nüfuzunu artırır.

Müasir dövrdə nutrigenomika və fərdi qidalanma konsepsiyası ilə funksional qidalara maraq artmışdır. Qidaların yalnız aclığı aradan qaldırması deyil, sağlamlığa faydası da əsas meyarlardan birinə çevrilmişdir. İlk dəfə Yaponiyada tətbiq olunan funksional qidalar anlayışı qlobal səviyyədə yayılmış, qədim dövrlərdən gələn "Qidanız dərmanınız olsun" prinsipi ilə uzlaşır. Azərbaycan mətbəxində də nar, bal, mərcimək, zəfəran, dovğa kimi qidalar həm dadı, həm də sağlamlıq faydaları ilə önə çıxır. Bu tədqiqatın məqsədi Azərbaycan mətbəxindəki funksional qidaların qastronomiya turizmində rolunu və yerli məhsulların potensialını araşdırmaqdır.

Azərbaycan mətbəxində funksional qidaların nümunələri və xüsusiyyətləri


Azərbaycan mətbəxi zəngin təbiət və qədim kulinariya ənənələrinə əsaslanaraq funksional qidaların geniş istifadə olunduğu bir mətbəxdir. Təbii və az emal olunmuş məhsullara əsaslanan yeməklər sağlamlıq baxımından faydalı bioaktiv komponentlərlə zəngindir. Məsələn, Göyçay narı antioksidant tərkibi ilə ürək-damar sağlamlığı üçün faydalıdır, ondan hazırlanan məhsullar turistlər tərəfindən maraqla qarşılanır. Abşeronda becərilən zəfəran isə sakitləşdirici, antiinflamatuar və immunitet gücləndirici təsirləri ilə tanınır və mətbəxdə həm dad, həm də sağlamlıq dəyəri daşıyır [1–3].

Azərbaycan mətbəxində dovğa və ləvəngi kimi funksional qidalar xüsusi yer tutur. Probiotik təsirli dovğa bağırsaq florasını tarazlayır və həzmi yaxşılaşdırır. Qoz və soğanla doldurularaq hazırlanan ləvəngi isə omeqa-3 və E vitamini ilə zəngin olub sağlamlıq baxımından dəyərlidir [4].

Bundan başqa, qutab və piti kimi yeməklər də funksional qidalar sırasında yer alır. Göyərti ilə doldurulmuş qutab müxtəlif vitaminlər və minerallarla zəngindir. Piti isə tərkibindəki noxud, ət və zəfəranla həm enerji verici, həm də immunitet sistemini dəstəkləyici xüsusiyyətlərə malikdir [5]. Azərbaycanın şimal bölgələrində istehsal olunan

bal və qoz-fındıq da həm yerli mətbəxin ayrılmaz hissəsidir, həm də sağlam yağ turşuları və antioksidantlarla zəngin olduğu üçün funksional dəyəri yüksəkdir [6]. Şəkil 1-də təqdim olunan qrafikdə Azərbaycan mətbəxinə aid müxtəlif yeməklərin orqanoleptik və funksional dəyərləri müqayisəli şəkildə göstərilmişdir (Şəkil 1). Həmçinin nümunə üçün seçilmiş milli yeməklərin şəkil təviri verilmişdir [7].

Azərbaycan mətbəxindəki ənənəvi yeməklər və yerli məhsullar dadla yanaşı, sağlamlıq baxımından da yüksək potensiala malikdir. Onların düzgün təqdimatı və qastronomiya turizmində tanıdılması regionların inkişafına və ölkənin dayanıqlı turizm modelinə keçidinə töhfə verə bilər [7].



Şəkil 1. *Azərbaycan yeməklərinin orqanoleptik və funksional dəyərlə müqayisəsi*

Azərbaycan mətbəxi yalnız kulinariya deyil, həm də sağlamlıq yönümlü funksional qidaların zənginliyi ilə seçilən mədəni irsdir. Bu cür qidaların tanıdılması və sağlamlıq faydaları ilə təqdim olunması turist marağını artırır. Eyni zamanda, funksional tərkibli məhsulların emalı və ixracı milli iqtisadiyyat üçün yeni imkanlar yaradır. Belə qidaların sistemli şəkildə araşdırılması və təqdim olunması həm turizmə, həm də ixrac strategiyasına töhfə verə bilər.

ƏDƏBİYYAT

1. Brown, L. et al. (2022). Food tourism experience and changing destination foodscape.
2. Əliyev, R. (2023). Development potential and prospects of Azerbaijan's food industry.
3. Jones, M. (2023). Gastronomy Tourism - A Sustainable Alternative for Local Economic Development.
4. Kumar, S. & Nguyen, T. (2025). Determining the potential of gastronomy tourism development in Vietnam.
5. Məmmədov, A. (2024). Assessment of Gastronomic Tourism Potential in the Ganja-Gazakh Economic Region of Azerbaijan.
6. Smith, J. & Lee, K. (2023). Literature Review of Food Tourism, Culinary Tourism, and Gastronomy Tourism.
7. Thompson, H. (2023). Local food, global journeys: the interplay of food motivations and tourism.

FUNCTIONAL FOODS IN AZERBAIJANI CUISINE IN TERMS OF GASTRONOMIC TOURISM

Abbasov Ruslan Aqil oglu
ruslan.abbasov2@icloud.com
Azerbaijan State University of Economics

Nutrition is not only a basic human need but also a powerful motivational factor influencing behavior and choices. Azerbaijani cuisine, with its rich history, biodiversity, and dishes based on local ingredients, has great potential for the use of functional foods. Integrating these foods into gastronomic tourism can contribute to regional economic development and promote the country. Research shows that promoting functional foods and developing effective marketing strategies enhance the international recognition of Azerbaijani cuisine.

Keywords: Azerbaijani cuisine, functional foods, gastronomic tourism, healthy nutrition, local products, saffron, dovga, pomegranate, food safety, tourism development.

MƏDƏNİ İRS TURİZMİNDƏ YERLİ ƏHALİNİN İŞTİRAKI

Gülnarə İslam qızı Məmmədova
Xudayar Bakir oğlu Məmmədov
gulnarememmedov06@gmail.com
Azərbaycan Texnologiya Universiteti

1.MƏDƏNİ TURİZM. BMT–nin Ümumdünya Turizm Təşkilatı 'mədəni turizm' terminə belə tərif verir. Mədəni turizm insanların öz yaşadıqları ərazidən çıxıb digər şəhərlər, yaxud ölkələrin mədəni irsi nümayiş obyektlərini görmək, yeni məlumat və təcrübə toplayaraq öz mədəni ehtiyaclarını təmin etmək, həmçinin insanların öz yaşadıqları yerdən başqa yerlərdəki abidələri, həmin ərazinin incəsənəti və mədəni özünüifadə formalarını (etnoqrafik elementləri və s.) görmək məqsədilə bir yerdən digər yerə hərəkət etmək fəaliyyətidir. Bir turisti mədəni irs ərazisinə getməsini təşviq edən "xüsusi həvəs" müəyyən bir tarixi və mədəniyyəti öyrənmə istəyidir. Buna görə də turistin mədəni irs obyekti haqqında özünəməxsus məna qazanmalı və xüsusi dəyərə sahib olmalıdır. BMT-nin Ümumdünya Turizm Təşkilatınn müxtəlif nəşirlərinə baxdıqda görə bilərik ki, mədəni turizm dedikdə muzeylər, festivalar, mədəni tədbirlər,incəsənət tədbirləri, abidələrin və dini yerlərin və digər mədəni ərazilərin ziyarəti kimi fəaliyyətlər nəzərdə tutulur. Daha geniş mənada baxsaq, mədəni turizm mədəni irs nümunələrinin və ya mədəni irs resurslarını əhatə edir və bunu üçündə mədəni turizm anlayışını başa düşmək üçün mütləq əvvəlcə mədəni irs anlayışını qavramaq, onun nədən ibarət olduğunu bilmək lazımdır [1, 12].

2.MƏDƏNİ İRS. Azərbayacan Respublikasının "Mədəniyyət haqqında Qanun"una əsasən milli mədəni irs anlayışı Azərbaycan xalqına məxsus, ümumi Azərbaycan əhəmiyyəti kəsb edən, universal dəyərlərə malik mədəniyyət nümunələrinin məcmusu nəzərdə tutulur. Milli mədəni irs incəsənət, muzey, teatr, kitabxana, əlyazma, arxiv, arxeologiya, atnoqrafiya, memarlıq və digərləri aiddir [1].

2.1.Maddi-Mədəni İrs. Maddi-mədəni irs iki hissəyə ayırmaq olar: Daşınmaz mədəni irs, daşınar mədəni irs. Daşınmaz maddi-mədəni irs dedikdə, arxeoloji, memarlıq, xatirə abidələri, təbiət abidələri və tarixi qoruqlar və digər daşınmaz maddi-mədəni irslər aiddir. Daşınmaz maddi-mədəni irsin əsas xüsusiyyəti ondan ibarətdir ki, yerini dəyişdikdə onların mədəni irs dəyərləri itə bilər. Daşınar maddi-mədəni irs isə tarixi, təbii, arxeoloji, kulinar, rəsm, incəsənət, kinematoqrafiya, biblioqrafiya və estetik daşınar sərvətlərin məcmusu nəzərdə tutulur [1].

3.YERLİ ƏHALİNİN İŞTİRAKI. Mədəni irs resurslarının olduğu ərazilərdə mədəni turzimin inkişaf etdirilməsi yerli əhaliyə müsbət və mənfi təsirlər göstərə bilər. Mədəni turizm kiçik kənd və ya ucqar yerlərdə yaşayan əhalinin maddi cəhətdən məhdud resurslara malik olan regionlarda sosial-iqtisadi inkişafa təkan ola bilər. Yerli sakinlərin

turizmə cəlb edilməsi kiçik suvinerlərin satışında, kənd evlərinin kirayəsində, yerli bələdçi xidmətlərinin göstərilməsinə və digər göstərilə bilən xidmətlərin həyata keçirilməsinə kömək edə bilər. Turistlər mədəni irs məzmununu yerli əhalidən öyrəndikdə daha dərin dərk edə bilərlər. Mədəni turizm yerli mədəniyyəti qorumaqla birgə inkişafına da müsbət təsir göstərir. Mədəni turizmin yerli əhaliyə müsbət təsiri ondan ibarətdir ki, həmin ərazi turistlər tərfindən tanınır və müxtəlif yerlərdən turist axını yaranır. Bu da yerli əhalinin gəlir əldə etmə potensiyalını artırır və iqtisadi cəhətdən müsbət təsir edir [1].

4. Azərbaycanda unesco-nun mədəni irs siyasina daxil olan obyektlər. Siyahıya ilk əlavə edilən yer 2000 –ci ildə "Şirvanşahlar sarayı" və "Qız qalası" daxil olmaqla "İçəri şəhər" olmuşdur. "Qobustan Dövlət Tarxi-Bədii Qoruğu" 2007- ci ildə, "Şəki xan sarayı ilə Şəkinin tarxi mərkəzi" 2019-cu ildə daxil edilmişdir. Ən son siyahıya 2023-cü ildə "Hirkan meşələri və Xınalıqın mədəni mənzərəsi" daxil edilmişdir [1].

ƏDƏBİYYAT

1. Dallen J.Timothy Cultural Heritage and Tourism. 2005

LOCAL POPULATION PARTICIPATION IN CULTURAL HERITAGE TOURISM

Gulnara İslam Mamedova
gulnarememmedov06@gmail.com
Azerbaijan Technological University

In order to preserve the cultural assets and pass them on to future generations, the damaged parts of the historical buildings should be restored according to their originals and our cultural heritage should be protected, in order to prevent further destruction. Historically important buildings are specially protected by the state. In addition, not only the state, but also the participation of the local population is considered important.

Key words: cultural tourism, cultural heritage, local population participation, Azerbaijan also on the UNESCO Word Heritage list

POST-KONFLİKT ƏRAZİLƏRDƏ TURİZM SAHƏSİNİN İNKİŞAFINDA MÜASİR TEXNOLOGİYALARIN İSTİFADƏSİ

Nigar Namiq
teymurzade_n@mail.ru
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu

Münaqişədən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərdə yeni iqtisadiyyat quruculuğu strategiyasına uyğun olaraq əsas inkişaf sahələrindən biri kimi turizm sahəsi seçilmişdir. Müasir texnologiyaların tətbiq olunması, bu regionlarda turizm potensialının bərpası və inkişafına təkan verməklə yanaşı, onların beynəlxalq səviyyədə tanınması imkanlarını artıra bilər. Bunun üçün turizmin təşkilinin bütün mərhələlərində yeni texnologiyalardan istifadə etmək olar. Belə ki, istənilən turizm obyektinin təyinat nöqtəsinin vizual görüntüsünü istifadəçilərə veb-saytların müasir dizaynı ilə, video və şəkillər formatında təqdim etmək mümkündür. Bu, həmçinin virtual mexanizmlərdən, müasir reklam roliklərinin hazırlanmasından istifadə edərək işğaldan azad edilmiş ərazilərdə təbiətin təsvirini, turizm potensialını turistlərə daha ətraflı şəkildə göstərməyə imkan yaradacaqdır. İşğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı üçün müxtəlif sahələr üzrə geniş imkanlar mövcuddur. Xüsusilə, bu sahələrdən biri müalicəvi bulaqların mövcud olduğu post-konflikt ərazilərdə, Şuşada Turşsu, Şırlan, Kəlbəcərdə İstisu və Laçında Minkənd sağlamlıq turizminin yenidən inkişaf etdirilməsi ilə bağlıdır. Bu mineral bulaqlar bir sıra sinir, ürək, dəri, mədə-bağırsaq kimi xəstəliklərin müalicəsində reabilitasiya və sanatoriya infrastrukturunun qurulması üçün əlverişli imkanlar təqdim edir [1]. Bu sahədə ağıllı sağlamlıq izləmə sistemlərinin tətbiqi bu turizm növünü daha effektiv hala gətirə bilər. Belə ki, müalicə mərkəzlərində texnologiyaların tətbiqi vasitəsilə mineral suların tərkibi, temperaturu, eyni zamanda ağıllı qolbaqlar və saatlar vasitəsilə turistlərin qan təzyiqi, ürək

döyüntüsü, ümumilikdə vəziyyəti, izlənilə bilər. Əlavə olaraq, turistlər bu ərazilərə baş çəkməzdən öncə virtual turlar vasitəsilə rekreasiya zonaları, bu ərazilərin vizual görünüşü, müalicəvi təsirləri ilə tanış ola bilər və online platforma üzərindən rezervasiya imkanlarını reallaşdıra bilər.

Müasir texnologiyalar dağ-xizək turizm növünün inşası üçün relyefinin uyğunluğu baxımından əlverişli potensialı olan Kəlbəcər və Laçın rayonlarında turizmin inkişafını sürətləndirə bilər. Ekstremal hisslər yaşamaq istəyən turistlər üçün bu turizm növündə baş verə biləcək təhlükənin qarşısının alınması tədbirlərinin gücləndirilməsində bir sıra texnologiyaların tətbiqi zəruridir. Beynəlxalq təcrübədə ağıllı dağ-xizək turizm layihələri uğurlu nümunələr təklif edir. Məsələn, İsveçrənin Zermatt dağ kurortu turistlərə online kart sistemi platformasını təklif edir ki, bu kartların online qaydada əldə olunması qaydasını asanlaşdıraraq mobil tətbiqlər vasitəsilə reallaşdırır. Bu turistlərin qiymətlərlə anında tanış olmasında və vaxta qənaət etmələrində olduqca əlverişli vasitədir. Əlavə olaraq, dağ-xizək turizm komplekslərində liftlərə növbəsiz, sürətli və heç biri fiziki kontakt olmadan tətbiq olunan RFID texnologiyası kartların yaxınlaşdırılması zamanı sistem tərəfindən oxunulur və əgər məlumatlar uyğundursa lift açılır [3]. Post-konflikt ərazilərdə də yaradılacaq dağ-xizək turizm bölgələrində bu cür RFİD texnologiyalarının liftlərin yerləşdiyi ərazidə quraşdırılmasını, kartların online satışını yaradaraq prosesin səmərəliliyini artırmaq olar. İstifadəçilərin bilgiləndirilməsinin təmin edilməsində sistemin iş prinsipi haqqında izahedici informasiyaların hazırlanması da sistemin efektivliyini artıra bilər. Avropanın ən bahalı dağ-xizək kurortu İsveçrədə yerləşən Verbier öz sistemində OBSERV adlı enerji platformasını tətbiq edir [2]. Platformanın idarəçilik prinsipi liftlərin enerji istehlakını müəyyənləşdirərək bərpa olunan enerji mənbələrinin istifadəsini artırmaqdan ibarətdir. Dağ-xizək turizmində vacib məsələlərdən biri də təhlükəsizlik məsələlərinə yönləndirilmiş texnologiyaların tətbiqidir. Belə ki, bu texnologiyalar qarın dərinliyi, hava şəraiti əsasında təhlükələrin proqnozlaşdırılması məqsədilə risklərin təhlil edilərək xəbərdarlıq sistemlərinin tətbiq edilməsini, qar uçqunu baş verdiyi zaman hava yastıqlarının açılmasını, qəzanın baş verməsi zamanı dronlar vasitəsilə ərazilərin təsbit edilməsini, xizəksürmə anını izləyən ağıllı xizək geyimləri kimi qabaqlayıcı tədbirlərin görülməsini mümkün edir.

İşğaldan azad edilmiş ərazilərdə kənd turizminin inkişafında kənd təsərrüfatı məhsullarında yeni texnologiyaların tətbiq edilərək istehsalın artırılması baxımından İsraildəki kibbutsları bu sahənin turizmlə inteqrasiyasının ekvivalenti kimi təklif etmək olar. İsrail nümunəsində məhsuldarlığın artırılmasında təqdim olunan ağıllı kənd təsərrüfatı texnologiyaları turistlərin əyani şəkildə məhsul yığımında iştirak edərək tanış olması üçün nəzərdə tutulur. Belə ki, burada gələn turistlərə torpağın rütubətliliyini, duzluluğunu ölçmək üçün torpağa yerləşdirilən sensorlar canlı şəkildə göstərilir. Bu sensorlar vasitəsilə torpağın parametrləri bəlli olur və daha sonra müəyyənləşdirilmiş parametrlər mərkəzi sistemə göndərilir. Sistemin düzgün təhlili nəticəsində torpağın suya olan tələbatı israfçılığa yol verilməmə şərtilə ödənilir. Bundan başqa, işğaldan azad edilmiş ərazilərdən Tuğ kəndi, Xocavənd, Füzuli, Ağdam rayonlarının tarixən şərabçılıq zonaları olduğunu nəzərə alaraq bu ərazilərdə kənd turizmini inkişaf etdirmək olar. Məlumdur ki, şərabçılığın xammal bazası üzümçülükdür. Bu sahədə isə müasir texnologiyalardan istifadəyə böyük imkan var. Məsələn, dronlar əkin sahəsini havadan izləməklə məhsulun tərkibi haqqında məlumatları öyrənir. Ümumiyyətlə, əkin sahələrindəki hər bir məhsulun tərkibini insan əməyi vasitəsilə müəyyənləşdirmək olduqca çox zaman sərfi tələb edir. Məhz bu dronlar vasitəsilə bu prosesi qısa zamanda yerinə yetirərək daha çox məhsul əldə etmək olar. Xüsusilə də, dronlar üzümün yetişmə səviyyəsinin hansı həddə olmasını əvvəlcədən qiymətləndirə bilir ki, bu da şərabın keyfiyyətli şəkildə hazırlanmasına müsbət təsir göstərir. Şərabların hazırlanma texnologiyalarına nəzarət və onların turistlərə təklifində rəqəmsal texnologiyalar yaxın köməkçi ola bilərlər.

Bütün bunlar işğaldan azad edilmiş ərazilərdə müasir texnologiyaların tətbiqinin vacibliyini bir daha təsdiq edir. Çünki, yeni texnologiyalar bu ərazilərin turizm potensialının yüksək səviyyədə inkişafında və beynəlxalq arenada tanıdılmasına töhfə verə bilər. Turizm sahəsinə müasir texnologiyaların cəlb olunması və onun davamlılığının təmin edilməsi üçün bu texnologiyalara maliyyə vəsaiti ayrılmalı, daxili və xarici investorlar bu prosesə cəlb olunmalıdır. Əlbəttə ki, buradakı vacib məqamlardan biri də bu texnologiyalardan istifadənin xüsusi təlimçilər tərəfindən öyrədilməsi və işçilərin maarifləndirilməsidir.

ƏDƏBİYYAT

1. Müzəffərli N., Muradov A. Post-konflikt ərazilər: iqtisadi potensial və müqayisəli üstünlüklər. Bakı 2023, səhifə 232.
2. Bidault, Y. *How Can Ski Resorts Get Smart? Transdisciplinary Approaches to Sustainable Winter Tourism in the European Alps*. 2020
https://www.mdpi.com/2071-1050/12/14/5593
3. **How technology is revolutionizing the ski experience. 2024**
https://www.interalpin.at/en/news/smart-ski-resorts?utm_source=chatgpt.com

USE OF MODERN TECHNOLOGIES IN THE DEVELOPMENT OF TOURISM IN POST-CONFLICT AREAS

Nigar Namig
teymurzade_n@mail.ru
Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan

The onset of the Fourth Industrial Revolution in the early 21st century has been marked by the rapid development of technology. The application of new technologies can significantly impact the tourism sector and contribute to the development of tourism in the liberated territories. Taking this opportunity into account, the report examined the potential applications of modern technologies for the development of tourism in post-conflict areas.

Key words*:* post-conflict areas, tourism development, new tecnologies

RƏQƏMSAL TRANSFORMASIYALARIN TURIZMIN GƏLƏCƏK INKIŞAFINDAKI ROLU

Aygün Aydın Qızı Həsənova
aygun.b1993@mail.ru
Şəhriyar Ruslan oğlu Rüstəmov
Azərbaycan Texnologiya Universiteti

Rəqəmsal transformasiya (digital transformation) – mövcud texnologiya və rəqəmsal alətlərdən istifadə edərək, ənənəvi iş proseslərinin, xidmətlərin və strategiyaların yenilənməsi və təkmilləşdirilməsi prosesidir. Bu dəyişiklik yalnız texnoloji tərəfdən deyil, həm də işgüzar modellərdə, müştəri xidmətlərində və təşkilat strukturunda da baş verir. Rəqəmsal transformasiya, şirkətlərə daha səmərəli işləməyə, müştərilərə daha yaxşı xidmətlər təqdim etməyə və rəqabətə davamlı olmalarına imkan verir.

Rəqəmsal transformasiya yalnız texnologiyanın tətbiqini deyil, həm də iş strategiyalarının yenilənməsini əhatə edir. Bu anlayış həm daxili (işçilər və əməliyyatlar), həm də xarici (müştərilər, bazar) aspektləri nəzərə alır. Rəqəmsal transformasiyanın əhəmiyyətini aşağıdakı bir neçə aspektlər üzərindən qeyd etmək olar: effektivlik və səmərəlilik, yenilik və rəqabət üstünlüyü, müştəri təcrübəsinin yaxşılaşdırılması, qlobal bazara çıxış imkanı, risklərin azaldılması, sosial-mədəni təsirlər və s.

Rəqəmsal texnologiyalar, turizm sənayesinin hər sahəsində böyük dəyişikliklərə səbəb olmuşdur. Ənənəvi turizm xidmətləri, onlayn platformalar və texnologiya vasitəsilə daha asan və səmərəli hala gəlmişdir. Rəqəmsal texnologiyalar turizm sahəsindəki təcrübələri və xidmətləri tamamilə dəyişdirir. Turizm sənayesi, daha çevik, müştəri yönümlü və texnologiyaya əsaslanan bir struktura doğru inkişaf edir. Bu inkişaf,

müştərilərə daha fərdiləşdirilmiş və rahat səyahət təcrübələri təqdim etməyə imkan verir, həm də turizm şirkətlərinin əməliyyatlarını daha effektiv hala gətirir. Rəqəmsal texnologiyalar, son illərdə turizm sahəsini ciddi şəkildə dəyişdirərək, bu sənayenin inkişafına yeni imkanlar yaratmışdır. İnternetin və mobil texnologiyaların inkişafı, səyahətçilərə istədikləri zaman istədikləri məlumatlara daxil olma imkanı tanıyır. Artıq insanlar yalnız bir neçə kliklə səyahətlərini planlaşdıra bilir, otelləri və uçuşları onlayn rezervasiya edə bilirlər. Onlayn platformalar, məsələn, Airbnb, Booking.com və Expedia, bu yeni dövrün ən önəmli alətlərindən biri olmuşdur. Bu platformalar yalnız səyahətçilərə otel və uçuş seçimini asanlaşdırmaqla qalmır, eyni zamanda istifadəçi rəyləri və qiymət müqayisələri vasitəsilə müştərilərə daha məlumatlı seçim etmək imkanı verir. Bununla yanaşı, bu platformalar turizm şirkətləri üçün yeni müştəri bazarları və gəlir imkanları da yaradır.Həmçinin mobil texnologiyalar isə turizm sahəsindəki dəyişikliklərin ən güclü təkanvericilərindəndir. Artıq turistlər mobil tətbiqlər vasitəsilə səyahətlərini planlaşdırır, hərəkət etdikləri yerdə yerli xidmətlər və marşrutlar barədə məlumat alır, eləcə də öz təcrübələrini sosial mediada paylaşırlar. Mobil ödəniş sistemləri, məsələn, PayPal və mobil bankçılıq tətbiqləri, turistlərin səyahətləri zamanı rahatlıqla ödəniş etmələrinə imkan yaradır, bu da onları daha sərbəst və çevik edir.Bundan başqa, virtual reallıq (VR) və artırılmış reallıq (AR) kimi yeni texnologiyalar turizmi daha interaktiv və fərdiləşdirilmiş hala gətirib. Turizm şirkətləri, müştərilərinə virtual turlar təqdim edərək, onlara səyahət etmədən əvvəl, ziyarət etmək istədikləri məkanları "yerdə" görmə imkanı verir. Məsələn, muzeylər və mədəniyyət abidələri artıq virtual reallıq vasitəsilə təqdim edilir və bu, turistlərin təcrübəsini daha zənginləşdirir. Eyni zamanda, artırılmış reallıq texnologiyası, turistlərə səfərləri zamanı mühitlə əlaqə qurarkən əlavə məlumatlar təqdim edir. Məsələn, bir turist bir şəhəri gəzdikdə, mobil tətbiq vasitəsilə hər bir məkan haqqında məlumat əldə edə bilər.

Süni intellekt (AI) və chatbotlar da turizm sahəsində xidmət keyfiyyətini artıran mühüm texnologiyalardandır. Chatbotlar, turizm şirkətlərinin müştərilərinə 24/7 xidmət göstərməsinə imkan verir. Bu sistemlər, müştərilərin sorğularına anında cavab verərək, onların ehtiyaclarına uyğun xidmət təklif edir. Həmçinin, süni intellekt vasitəsilə, turizm şirkətləri müştərilərinin davranışlarını analiz edərək onlara fərdiləşdirilmiş təkliflər təqdim edə bilirlər.

Böyük məlumatların (big data) təhlili də turizm sahəsində böyük əhəmiyyət kəsb edir. Böyük məlumatlar vasitəsilə turizm şirkətləri müştəri davranışlarını təhlil edir, səyahət tendensiyalarını və bazar dəyişikliklərini izləyirlər. Bu təhlil nəticəsində əldə edilən məlumatlar, şirkətlərə daha müştəri yönümlü strategiyalar hazırlamağa və səyahətçilərə daha uyğun təcrübələr təqdim etməyə kömək edir. Eyni zamanda, analitik alətlər vasitəsilə, turizm şirkətləri ərazidəki qeyri-müəyyənlikləri və tələbləri qabaqcadan təhlil edərək, ehtimal olunan riskləri idarə edə bilirlər.

Turizm sahəsinin gələcəyində blokçeyn texnologiyası da mühüm rol oynamaqdadır. Bu texnologiya, ödənişlərin və rezervasiyaların təhlükəsizliyini təmin etmək üçün istifadə olunur. Blokçeyn, həmçinin müştəri məlumatlarının qorunmasına da imkan verir, çünki məlumatlar mərkəzləşdirilmədən təhlükəsiz şəkildə saxlanılır. Bu, həm turistlər üçün etibarlı bir təcrübə yaradır, həm də turizm şirkətləri üçün şəffaflıq və təhlükəsizlik təmin edir.

Bütün bu rəqəmsal yeniliklər, turizm sektorunun daha çevik, müştəri yönümlü və texnoloji cəhətdən inkişaf etmiş bir hala gəlməsini təmin edir. Bu texnologiyalar yalnız səyahətçilərin təcrübələrini daha rahat və maraqlı etməklə qalmır, eyni zamanda turizm şirkətlərinə daha geniş bazarlara çıxmaq, xidmət keyfiyyətlərini artırmaq və əməliyyatlarını daha effektiv şəkildə idarə etmək imkanı verir. Gələcəkdə, rəqəmsal texnologiyalar daha da inkişaf edərək, turizm sənayesinin yeni və innovativ modellərinin yaranmasına səbəb olacaq, beləliklə, səyahət təcrübələri daha fərdiləşdirilmiş və texnoloji baxımdan zəngin olacaqdır.

Rəqəmsal texnologiyaların turizm sənayesinə daxil olması, əsasən internetin və mobil texnologiyaların geniş yayılması ilə başlamışdır. Onlayn rezervasiya sistemləri və dijital xidmətlər, səyahətçilərə istədikləri zaman və məkanda səyahət planlarını hazırlamağa imkan

yaratmışdır. Əvvəllər turizm sektoru daha çox oflayn xidmətlərlə məhdudlaşarkən, rəqəmsal transformasiya nəticəsində bu sektor daha çevik və daha müştəri yönümlü hala gəlmişdir.

Rəqəmsal texnologiyaların turizm sənayesi ilə inteqrasiyası, həm müştərilərə daha yaxşı xidmətlər təqdim etmək, həm də turizm şirkətlərinin iş proseslərini optimallaşdırmaq üçün geniş imkanlar yaratmışdır. Bu texnologiyalar, turizm sahəsinin hər sahəsində tətbiq edilərək, səyahət təcrübələrini daha rahat, fərdiləşdirilmiş və interaktiv edir.

Ümumiyyətlə, turizm sahəsində rəqəmsal transformasiyanın baş verməsi xidmət istehlakçılarının və turistlərin tələblərinin dəyişim istiqaməti olmuşdur.Beləki, son illərdə turistlərin tələblərində əhəmiyyətli dəyişikliklər baş vermişdir. Texnologiyanın sürətli inkişafı, sosial dəyişikliklər və pandemiyanın yaratdığı yeni reallıqlar, turistlərin səyahət etmə və xidmətlərə yanaşmalarını dəyişdirmişdir. Turistlər artıq daha fərdiləşdirilmiş, rahat və texnoloji cəhətdən inkişaf etmiş təcrübələr axtarırlar. Bu dəyişikliklərə uyğunlaşan rəqəmsal həllər isə turizm sənayesində yeni yanaşmalar və xidmətlər təqdim edir.

Qeyd etmək lazımdır ki, turistlərin fərdiləşdirilmiş təcrübələrə tələbi artmaqdadır. Artıq turistlər "kütləvi turizm"dən daha fərdi, özəlləşdirilmiş təcrübələrə üstünlük verirlər. Rəqəmsal texnologiyalar, müştərilərin əvvəlki təcrübələrini analiz edərək daha uyğun təkliflər təqdim edir. Məsələn, süni intellekt və böyük məlumatların təhlili, istifadəçilərin maraqlarına uyğun səyahət təklifləri təqdim edərək təcrübəni fərdiləşdirir.

Ümumilikdə, turistlərin tələblərinin dəyişməsi və rəqəmsal həllərin bu tələblərə uyğunlaşması turizm sənayesinin inkişafını formalaşdırır. Texnologiyanın rolu ilə, səyahət təcrübələri daha fərdiləşdirilmiş, rahat və müştəri mərkəzli bir hala gəlir, eyni zamanda ekoloji və sosial məsuliyyətli seçimlərə daha çox diqqət yetirilir.

Rəqəmsal transformasiya və texnologiyaların turizm sahəsinə tətbiqinin əsas üstünlüklərindən biri də dayanıqlı turizmi təşviq edərək ətraf mühitin qorunmasına, yerli icmaların inkişafına və iqtisadi səmərəliliyə töhfə verməsidir. Texnologiyanın inkişafı, turizm sənayesini daha dayanıqlı və ekoloji cəhətdən təmiz hala gətirir, eyni zamanda turistlərin daha məsuliyyətli və sosial cəhətdən dayanıqlı seçimlər etmələrini təmin edir.Gələcəkdə rəqəmsal texnologiyaların dayanıqlı turizmdəki rolu artacaq və bu sahə daha da inkişaf edəcək.[1]

ƏDƏBİYYAT

1.Miller, J., & Oliver, M. (2020). The Role of Technology in Sustainable Tourism Development: A Study of Digital Transformation in the Tourism Industry*. Journal of Sustainable Tourism, 28(5), 803-819.*

THE ROLE OF DIGITAL TRANSFORMATIONS IN THE FUTURE DEVELOPMENT OF TOURISM

Aygün Aydın Hasanova
aygun.b1993@mail.ru
Sahriyar Ruslan Rustamov
Azerbaijan Technological University

Digital transformation has brought about significant changes in the tourism industry, reshaping its structure, operations and customer relationships. Digital technologies enable tourism companies to be more agile and customer-centric, enabling them to provide more personalized and effective services. The development of the Internet and mobile technologies has allowed travelers to plan their trips online whenever they want. Innovations such as virtual reality and artificial intelligence help make customer experiences more interactive and personalized. At the same time, digital marketing and social media platforms allow travel companies to serve a wider audience and build closer relationships with customers.

Keywords: digital, transformations, development.

DAYANIQLI TURIZMIN İNKIŞAFINDA NƏQLIYYATIN ROLU

İlahə Vidadi qızı Qurbanova
Emil Arif oğlu Zeynalov
ilahequrbanova01@gmail.com
Azərbaycan Texnologiya Universiteti

Turizmdə nəqliyyatın rolu danılmazdır, eyni zamanda karbon emissiyalarının mənbəyidir. Bu tezisdə nəqliyyatın ətraf mühitə necə təsir etdiyi müzakirə edilir, alternativ vasitələr araşdırılır və həlli yolları təklif olunur. Nəqliyyat turizm sənayesinin ayrılmaz tərkib hissəsidir. Sustainable Travel International-ın hesabatında vurğulanır ki, turizm dünyadakı karbon emissiyalarının təxminən 8%-ni təşkil edir və bunun təxminən yarısı - təxminən 49%-i səyahətlərdə istifadə edilən nəqliyyatdan qaynaqlanır. Belə deyə bilərik ki, hər bir nəqliyyat növü ətraf mühitə fərqli təsir göstərir. BMT-nin Ümumdünya Turizm Təşkilatının (UNWTO) hesabatında turizm və iqlim dəyişikliyi arasında əlaqə vurğulanır. Bu araşdırmanın əsas nəticələrinə aşağıdakılar daxildir:

Nəqliyyat, yaşayış və turizmlə bağlı müxtəlif fəaliyyətlər nəticəsində yaranan karbon emissiyalarının qlobal karbon qazı emissiyalarının 4-6%-ni təşkil etdiyi təxmin edilir. Effektiv əks tədbirlər olmadıqda, turizm sektorundan emissiyalar növbəti 30 ildə 150% artması ehtimal olunur. İqlim dəyişikliyinin turizmə təsirinin güclənən istixana effekti ilə yanaşı artacağı gözlənilir. Şimali Avropa, Aralıq dənizi və Karib hövzəsi kimi iqlimin əsas rol oynadığı yerlər xüsusilə risk altındadır. Sahil bölgələri, dağlıq ərazilər, inkişaf etməkdə olan ölkələrdə və kiçik adalarda ucqar təbii mühitlər, çox güman ki, ən ciddi təsirə məruz qalanlar arasındadır.

Turizm sənayesi daha təmiz texnologiyaların qəbulu və davamlı təcrübələri dəstəkləmək üçün maliyyə strategiyalarının həyata keçirilməsi yolu ilə emissiyaları əhəmiyyətli dərəcədə azaltmaqla, xüsusilə də yüksək riskli regionlarda bu dəyişikliklərə uyğunlaşmalıdır. Nəticədə, turizm sənayesi qlobal istiləşmədə, ilk növbədə təyyarələr və avtomobillərin yaratdığı karbon qazı emissiyaları böyük rol oynayır. Bu nəqliyyat növləri turistləri öz təyinatlarına çatdırmaqla yanaşı, onların qaldıqları müddətdə ehtiyaclarını ödəmək üçün tələb olunan mal və xidmətləri də çatdırır [1].

Dayanıqlı nəqliyyat dedikdə üç əsas prinsipi yerinə yetirən sistem nəzərdə tutulur:

• **Ətraf Mühitin Mühafizəsi** istixana qazları emissiyalarını azaltmaq və təbii ekosistemləri qorumaq məqsədi daşıyır. Bu, bərpa olunan enerji mənbələrindən istifadəni, ekoloji cəhətdən təmiz infrastrukturun inkişafını, gəzinti, velosiped sürmə və ictimai nəqliyyat kimi alternativlərin təşviqini nəzərdə tutur.

• **İqtisadi Effektivlik** nəqliyyat xərclərini hamı üçün əlverişli saxlamağa, istifadəçilərin maliyyə gərginliyini azaltmağa yönəlib. Bununla da dayanıqlı nəqliyyat sistemlərinin istifadəsi və dəstəklənməsində ictimaiyyətin daha geniş iştirakını təşviq edir.

• **Sosial İnklüzivlik** həssas və təcrid olunmuş qruplar da daxil olmaqla, səyahət seçimlərinin təhlükəsiz və hər kəs üçün əlçatan olmasını təmin edir. Bu, bütün fərdlərə sosial və iqtisadi həyatda tam şəkildə iştirak etməyə imkan verir.

Turizmdə Dayanıqlı Nəqliyyat Nəyə görə Vacibdir?

• Davamlı nəqliyyat ekoloji, iqtisadi və sosial amillərə müsbət təsir etməklə turizmdə mühüm rol oynayır.

• Turizm Destinasiyalarının Mühafizəsi. Davamlı nəqliyyat, xüsusilə ekoloji cəhətdən həssas ərazilərdə turizm obyektlərində çirklənməni və mənfi təsirləri minimuma endirməyə kömək edir. Avtomobil emissiyalarını və səs-küyü azaltmaqla, ətraf mühitin qorunmasına, təbii gözəlliyin və ekosistemlərin sağlamlığının qorunmasına kömək edir. Bu, gələcək nəsillər üçün təyinat yerlərini qoruyarkən davamlı və yüksək keyfiyyətli səyahət təcrübələrinə töhfə verir.

• Unikal Səyahət Təcrübələrinin Yaradılması. Davamlı nəqliyyatdan istifadə turistlərə destinasiyaları daha rahat kəşf etməyə imkan verir. Piyada gəzinti və ya velosiped sürmək mənzərəyə doyunca baxmağa imkan verir, elektriklə işləyən avtomobillər isə ənənəvi qazla işləyən avtomobillərlə müqayisədə daha az səs-küy yaradır.[1]

• Səyahət Xərclərinin Azaldılması. Nəqliyyat xərcləri çox vaxt səyahət xərclərinin əhəmiyyətli bir hissəsini təşkil edir, xüsusən də hava səyahətləri ilə bağlı uzun səfərlər üçün.

Yanacağa qənaət edən nəqliyyat vasitələri və ya ictimai nəqliyyat kimi dayanıqlı nəqliyyat vasitələri turistlərin maliyyə yükünü yüngülləşdirərək bu xərcləri azaltmağa kömək edə bilər. Bu yanaşma həm də səyahət təcrübəsini daha unikal və yaddaqalan edə bilər.

• Yerli İqtisadiyyatın Dəstəklənməsi. Dayanıqlı nəqliyyatın təşviqi təkcə səyahət təcrübəsini artırmır, həm də yerli iqtisadi artımı dəstəkləyir. Bu, turizmi stimullaşdırır və yerli nəqliyyat şəbəkələrində iş imkanlarını yaradır, beləliklə, ərazinin iqtisadi inkişafına müsbət töhfə verir [1].

Həll yolları. 1) Unikal və ekoloji təmiz nəqliyyatdan istifadə, 2) piyada gəzinti, 3) ictimai nəqliyyatdan istifadə, 4) qısa səfərlər üçün qatar, avtobus və ya elektrik nəqliyyat vasitələrinin seçilməsi, 5) əsas attraksionların yaxınlığında yaşayış yerlərinin seçilməsi, 6) elektrikli kiçik nəqliyyat vasitələrindən istifadə.

Bu nüansları nəzərə alaraq, dayanıqlı nəqliyyatı təşviq etmək üçün həll yollarına diqqət yetirmək təkcə ətraf mühitin qorunmasına kömək etmir, həm də turizmin inkişafı üçün yeni imkanlar açır. Dayanıqlı nəqliyyat ekoloji cəhətdən təmiz səyahətə başlamağın açarıdır. Son olaraq unutmayaq ki, bu gün atdığımız hər kiçik addım davamlı turizmin gələcəyinə töhfə verir.

ƏDƏBİYYAT

1. Environmental impact of transportation in the tourism industry – dimensions and actions, mirela stefanica, studies and scientific researches, economics edition, №25, 2017 https://www.researchgate.net/publication/322326453_environmental_impact_of_transportation_in_the_tourism_industry_-_dimensions_and_actions

THE ROLE OF TRANSPORTATION IN THE DEVELOPING TOURISM SECTOR

Emil Arif Zeynalov
Ilaha Vidadi Gurbanova
ilahegurbanova01@gmail.com
Azerbaijan Technological University

The role of transportation in tourism is undeniable, but also is the source of carbon emissions. In this thesis how transportation affect the environment is discussed, the purpose to research alternative ways is illuminated and the solution is suggested.

Key words: Transportation, carbon emissions, environment

AZƏRBAYCANDA TURİZM BİZNESİNİN İNNOVATİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

Nəriman Bəhram Oğlu Böyükkişi
nariman.boyukkishi@au.edu.az
Aytən Tofiq qızı Həsənova
hesenovaayten0306@gmail.com
Azərbaycan Universiteti

Hazırda Azərbaycan turizm sektoru inkişafın yeni mərhələsinə keçid etməkdədir ki, bu da ənənəvi turizm modelindən daha çox texnologiya əsaslı, dayanıqlı və təcrübə yönümlü modelə doğru transformasiyanı nəzərdə tutur. Qlobal turizm sənayesini formalaşdıran əsas trendlər Azərbaycan turizm bazarına da öz təsirini göstərməkdədir. Bu trendlər texnologiya inteqrasiyasından (süni intellekt, virtual reallıq, blokçeyn), dayanıqlılıqdan, fərdiləşdirilmiş turizm təcrübəsindən, rəqəmsal nomadlardan və s. ibarətdir. .Bu kontekstdə aşağıdakı innovativ həllər xüsusilə əhəmiyyətlidir:

I.Virtual və genişləndirilmiş reallıq texnologiyaları. Azərbaycanın tarixi və mədəni abidələrinin, təbiət gözəlliklərinin virtual turlarının hazırlanması son illərdə xüsusi əhəmiyyət qazanmışdır. Bu, potensial turistlərə səyahət etmədən əvvəl məkanları "ziyarət etmək" imkanı yaradır [1, s.57].

II.Süni intellektə əsaslanan turist xidmətləri. Süni intellekt (Sİ) texnologiyaları Azərbaycan turizm sektorunda getdikcə daha çox tətbiq olunur. Bu texnologiyalar turistlərə fərdiləşdirilmiş səyahət təklifləri, otel tövsiyələri və marşrut planlaşdırması təqdim edir.

III.Mobil tətbiqlər və qarşılıqlı əlaqə platformaları. Ağıllı telefon və planşetlərin geniş yayılması ilə mobil tətbiqlər turizm təcrübəsinin ayrılmaz hissəsinə çevrilmişdir. Araşdırmalar göstərir ki, mobil tətbiqlərin istifadəsi turistlərin məmnuniyyət səviyyəsinə müsbət təsir göstərir və onların Azərbaycanda keçirdikləri müddəti orta hesabla 1,5 gün artırır [6, s. 283].

IV.Blokçeyn texnologiyası və turizm. Blokçeyn texnologiyası turizm sektorunda şəffaflığı və təhlükəsizliyi artırmaq üçün yeni imkanlar yaradır.

V.Dayanıqlı turizm və ekoturizm innovasiyaları. Azərbaycan təbiətinin zənginliyi və ekoloji müxtəlifliyi ölkədə ekoturizmin və dayanıqlı turizm fəaliyyətlərinin inkişafı üçün geniş imkanlar yaradır.

VI.İcma Əsaslı turizm modeli və sosial innovasiyalar. Yerli icmaların turizm fəaliyyətinə cəlb edilməsi həm sosial-iqtisadi inkişafa töhfə verir, həm də turistlər üçün autentik təcrübələr yaradır: Tədqiqatlara görə icma əsaslı turizm layihələri kənd yerlərində gənclərin miqrasiyasını 22% azaltmış və orta ailə gəlirini 35% artırmışdır [3, s.86].

VII. Təcrübə əsaslı turizm və fərdiləşdirilmiş xidmətlər. Müasir turist sadəcə yerləri görmək deyil, həm də yerli mədəniyyəti, adət-ənənələri və həyat tərzini təcrübə etmək istəyir. Bu tələbə cavab olaraq, Azərbaycanda təcrübə əsaslı turizm innovasiyaları inkişaf etdirilməkdədir: Araşdırmalar göstərir ki, kulinariya turizmi Azərbaycana gələn turistlərin ortalama səyahət xərclərini 23% artırır və ölkədə qalma müddətini uzadır [5, s.55].

VIII. Sağlamlıq və rifah turizmi. Azərbaycanın təbii müalicəvi resursları sağlamlıq və rifah turizminin inkişafı üçün əlverişli şərait yaradır:

- Naftalan nefti əsaslı spa mərkəzləri: Naftalanın unikal müalicəvi neftinin müasir spa müalicələri ilə birləşdirilməsi. Son illərdə Naftalanda 5 yeni beşulduzlu spa hotel açılmış və müasir müalicə üsulları tətbiq edilməyə başlamışdır.
- Duzdağ və mağara müalicəsi (terapiyası): Naxçıvandakı Duzdağ və Azərbaycanın digər bölgələrindəki mağaralarda tənəffüs yolları xəstəliklərinin müalicəsi üçün innovativ terapiya mərkəzlərinin yaradılması.
- Mineral su kurortları: Qalaaltı, İstisu, Şıx kimi ənənəvi mineral su mənbələrinin ətrafında müasir kurort komplekslərinin yaradılması. Qalaaltıda açılan "Wellness & Spa Resort" kompleksi ənənəvi mineral su müalicələrini müasir spa prosedurları ilə birləşdirən innovativ yanaşma təqdim edir.
- İmmunitet gücləndirilməsi mərkəzləri. İmmuniteti gücləndirməyə yönəlmiş xüsusi proqramların hazırlanması. Bu proqramlar yerli təbii üsullarla müasir tibbi yanaşmaları birləşdirir və əsasən sağlamlıq turizmi məqsədilə səyahət edən turistlərə təklif olunur.

Araşdırmaların nəticələri göstərir ki, Azərbaycanda sağlamlıq turizmi sektorunun illik artımı 15% təşkil edir və bu sahə 2025-ci ildə ümumi turizm gəlirlərinin 30%-ni təşkil etmək potensialına malikdir. Eyni zamanda, xarici turistlərin Azərbaycanda ortalama qalma müddəti sağlamlıq və rifah turizmi səbəbiylə 2,5 gündən 7,3 günə qədər artmışdır.

Əvvəldə qeyd edilənlərdən belə qənaətə gəlmək olar ki, turizm biznesinin inkişafı sahəsində göstərilən tədbirlərin və yerinə yetirilməsi nəzərdə tutulan vəzifələrin icrası yaxın gələcəkdə Azərbaycanı regionun əhəmiyyətli turizm mərkəzlərindən birinə çevirə bilər.

ƏDƏBİYYAT

1. Əliyev, F. və Həsənov, M. (2023). Turizm sektorunda virtual reallıq texnologiyalarının tətbiqi perspektivləri. Azərbaycan Turizm Jurnalı, 15(2), 45-58.
2. Cəfərov, R. və Məmmədli, A. (2022). Turizm sektorunda böyük verilənlərin analizi və qərar qəbuletmə prosesində rolu. İqtisadi Araşdırmalar Toplusu, 8(3), 112-127.
3. Hüseynova, L. və Məmmədova, F. (2022). Azərbaycanda icma əsaslı turizmin sosial-iqtisadi təsirləri. Dayanıqlı İnkişaf Jurnalı, 7(1), 78-92.

4. Hüseynzadə, A. (2022). Mədəni turizm və innovasiya: Azərbaycan təcrübəsi. Mədəniyyət və İncəsənət Araşdırmaları, 10(4), 215-230.
5. İsmayılzadə, Q. (2022). Qlobal turizm trendlərinin Azərbaycan turizm bazarına təsiri. Qloballaşma və Turizm, 9(3), 124-140.
6. Məmmədov, E. (2022). Azərbaycanda rəqəmsal turizm ekosisteminin formalaşması. İqtisadiyyat və İdarəetmə, 14(3), 203-218.

INNOVATIVE DEVELOPMENT DIRECTIONS OF TOURISM BUSINESS IN AZERBAIJAN

Nariman Bahram oglu Boyukkishi
nariman.boyukkishi@au.edu.az
Ayten Tofig gizi Hasanova
hesenovaayten0306@gmail.com
Azerbaijan University

In recent years, the development of tourism in Azerbaijan has become one of the main priorities in the diversification of the country's economy. The rapid development of modern technologies, globalization processes and changes in consumer behavior have necessitated the application of innovative approaches in the tourism sector. Within the framework of the state program "On additional measures related to the development of tourism in the Republic of Azerbaijan" covering 2018-2025, serious steps are being taken to modernize the tourism industry in the country and increase its competitiveness.

The country's rich historical and cultural heritage, favorable geographical location, the richness of national cuisine and other factors create a solid foundation for expanding tourism potential. At the same time, competition in the global tourism market, different expectations of new generation tourists require finding innovative solutions in this area.

Keywords: tourism, innovation, business, infrastructure, destination, trend.


TURİZM MÜƏSSİSƏLƏRİNDƏ XİDMƏT MƏDƏNİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ YOLLARI

Kəmalə Seyfulla Qızı Dadaşov
kemale.dadashova.74@mail.ru
Xəyalə Baloğlan qızı Əliyeva
mrs.aliyeva005@gmail.com
Qərbi Kaspi Universiteti

Müasir turizm sektorunda xidmət mədəniyyəti müəssisələrin rəqabət qabiliyyətini və davamlı inkişafını təmin edən əsas faktorlardan biridir. Xidmət mədəniyyəti anlayışı müəssisənin xidmət göstərmə fəlsəfəsini, dəyərlərini, davranış normalarını və müştərilərlə qarşılıqlı münasibətlərini əhatə edir. Bu kontekstdə, turizm müəssisələrində xidmət mədəniyyətinin yüksəldilməsi həm daxili idarəetmə aspektləri, həm də xarici müştəri təcrübəsi baxımından strateji əhəmiyyət daşıyır.

Aparılan tədqiqatlar göstərir ki, xidmət mədəniyyəti turizm müəssisələrinin rəqabət qabiliyyətinin və davamlı inkişafının əsas amillərindən biridir. Xidmət mədəniyyətinin yüksəldilməsi kompleks və davamlı prosesdir ki, bu da insan resurslarının idarə edilməsi, təşkilati mədəniyyətin formalaşdırılması, motivasiya sistemlərinin təkmilləşdirilməsi, xidmət standartlarının işlənib hazırlanması, rəqəmsal texnologiyaların tətbiqi və müştəri təcrübəsinin idarə edilməsi kimi müxtəlif aspektləri əhatə edir.

Xidmət mədəniyyəti anlayışına dair müxtəlif elmi yanaşmalar mövcuddur. Grönroos (2019) xidmət mədəniyyətini "müştəri xidmətini öz fəaliyyətinin mərkəzinə qoyan, yüksək keyfiyyətli xidmət göstərməyi əsas dəyər kimi qəbul edən təşkilati mədəniyyət" kimi müəyyən edir. Zeithaml və başqaları isə xidmət mədəniyyətini "təşkilatın bütün səviyyələrində paylaşılan dəyərlər, inanclar və davranış normaları sistemi" kimi təsvir edirlər.



Şəkil 1. Xidmət mədəniyyətinin əsas elementləri.

Turizm sektorunda xidmət mədəniyyəti bir sıra spesifik xüsusiyyətlərə malikdir. İlk növbədə, turizm xidmətlərinin qeyri-maddi xarakterə malik olması, istehsal və istehlakın eyni zamanda baş verməsi xidmət keyfiyyətinin qiymətləndirilməsini mürəkkəbləşdirir. Bundan əlavə, turizm sektorunda mədəniyyətlərarası qarşılıqlı fəaliyyət xidmət mədəniyyətinin formalaşmasına əhəmiyyətli təsir göstərir.

Tədqiqatlar göstərir ki, xidmət mədəniyyəti ilə müştəri məmnuniyyəti arasında birbaşa əlaqə mövcuddur. Chen və Chen apardıqları araşdırmada yüksək xidmət mədəniyyətinə malik turizm müəssisələrinin daha yüksək müştəri məmnuniyyəti və təkrar ziyarət niyyəti səviyyəsinə malik olduğunu aşkar etmişlər. Analoji olaraq, Hemmington qeyd edir ki, qonaqpərvərlik sektorunda yüksək xidmət mədəniyyəti müştəri loyallığının əsas proqnostik göstəricisidir [6, s.114].

Turizm müəssisələrində xidmət mədəniyyətinin formalaşması və inkişafı ilk növbədə insan resurslarının effektiv idarə edilməsi ilə başlayır. Bu kontekstdə xidmət mədəniyyətinin yüksəldilməsi üçün ilk addım uyğun kadrların seçilməsidir. Turizm müəssisələri işə qəbul zamanı yalnız texniki bacarıqları deyil, həm də namizədlərin şəxsi keyfiyyətlərini, ünsiyyət bacarıqlarını və xidmətyönümlü olmasını qiymətləndirməlidir.

Xidmət mədəniyyətinin yüksəldilməsində effektiv motivasiya və mükafatlandırma sistemlərinin qurulması əhəmiyyətli rol oynayır.Turizm müəssisələrində tətbiq edilə biləcək effektiv motivasiya strategiyaları arasında maddi və qeyri-maddi stimullaşdırma əsas yer tutur. Maddi stimullaşdırma (əmək haqqının artırılması, bonuslar, mükafatlar) ilə yanaşı, qeyri-maddi stimullaşdırma metodları (tanınma, karyera inkişafı imkanları, iş-həyat balansı) da tətbiq edilməlidir. Tədqiqatlar göstərir ki, maddi və qeyri-maddi stimulların kombinasiyası ən effektiv nəticə verir.

Xidmət standartlarının işlənib hazırlanması və tətbiqi xidmət mədəniyyətinin praktiki təzahürüdür və müştəri gözləntilərinin qarşılanmasını təmin edir. Effektiv xidmət standartları aşağıdakı prinsiplərə əsaslanmalıdır:

- Ölçüləbilənlik və konkretlik: Standartlar aydın və ölçüləbilən olmalıdır (məsələn, "qonağın qeydiyyatı 5 dəqiqədən çox çəkməməlidir".
- Müştəriyönümlülük: Mövcud standartlar müştəri ehtiyaclarına və gözləntilərinə əsaslanmalıdır.
- Realistik və əlçatan olmaq: Standartlar işçilər tərəfindən praktiki olaraq yerinə yetirilə bilən olmalıdır.
